

MİR CƏLAL

ADİLOĞLU
www.adiloglu.az

# MİR CƏLAL

Seçilmiş əsərləri
5 cilddə

HEKAYƏLƏR
FELYETONLAR
ŞEİRLƏR
OÇERKLƏR
TƏRCÜMƏLƏR
XATİRƏLƏR

# MİR CƏLAL

Seçilmiş əsərləri

HEKAYƏLƏR

IV CİLD

Tərtib edənlər: **Nərgiz Paşayeva**
**Təhsin Mütəllimov**

Redaktor: **Şəmsəddin Axundov**
Rəssam: **Nüsrət Süleymanoğlu**

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ. IV CİLD.**
Bakı, ADİLOĞLU nəşriyyatı, 2013, 468 səh.

ISBN: 978-9952-25-128-9
© ADİLOĞLU, 2013

# AY İSMAYIL, BAŞA SAL

Deyirlər, rüşvətlə bərk mübarizə aparılır. Bu doğrudur. Amma mən bilmək istəyirəm ki, rüşvət nəyə deyirlər? Rüşvət ona deyirlər ki, mənim bir vəzifəli şəxsə işim düşür. Qanun buna ziddir. Amma vəzifəliyə filan qədər pul verirəm, o da qanunu ayaqlayır, mənim işimi düzəldir. Buna deyirlər, rüşvət!

Bir də var ki, mənim nazir rəisi-filankəsə hörmətim, məhəbbətim var. Plov bişirəndə onsuz boğazıma getmir. Çağırıb dəsgah düzəldirəm. Bəzi alimlər güman edir ki, bu da bir növ natəmizlikdir. Ancaq burada nağd pul məsələsi yox, natura ilə ifadə olunan rüşvət var, amma bu işlərin eləsi var ki, nə rüşvət, nə də hörmət adlandırmaq olar. Bunun adını mən özüm də bilmirəm. Soruşanda deyirlər, yox, bu ayrı şeydir. Mən bilmək istəyirəm ki, ayrı şey, yəni, nə?

Mən bir on-on beş il əvvəl Xaçmaz tərəfdə müəllim idim. Rayonun lap mərkəzində, meydanın qabağında orta məktəbdə hesab dərsi deyirdim. Orada da bir "paxodnı" çəkmə geyən, saçıkəsik arvad, daha doğrusu, xanım var idi. Nə istəsə heç kəs ondan müzayiqə eləmirdi. Adı

da Rütubət xanım idi. Görürdün, Rütubət xanım budur gəldi qəssaba işarə elədi:

– Əmioğlu, o şaqqa necə şeydir?

– Erkək ətidir.

– Çək onu!

– Baş üstə!

– Ya mədəd!

Qəssab şaqqanı çəngəldən götürüb tərəziyə qoymaq istəyəndə xanım səsləndi:

– Ya heç çəkmək lazım deyil, bük bir kağıza aparım.

– O da baş üstə!

Qəssab şaqqanı, quyruğu da üstündə səliqə ilə qəzetə büküb verirdi. Rütubət xanım düzəlirdi yola.

Mən təəccüb eləyirdim:

– Bəs niyə pul vermədi?

Düşünürdüm ki, yəqin, tanışdırlar, sonra haqq-hesab çəkəcəklər.

Həmin qadını aşxanada xörək yeyib ayağa duran, ağız-burnunu silib çıxan görürdüm. Ya görürdüm, ərzaq mağazasına girdi, qənddən, çaydan, düyüdən, yağdan səbətini doldurub çıxdı. Mağaza müdiri də baxa-baxa qalırdı. Lap məəttəl qalmalı işdir... Bəlkə lap kommunizmə keçmişik. Pullar götürülüb, mənim xəbərim yoxdur?

Onu da deyim ki, saçıkəsik qadın, yəni Rütubət xanım bu səyahətlərində tək deyildi. Yanında ucaboy bir milis işçisi gəzirdi, onun səbətini, ya çamadanını gəzdirirdi. Bazarı gəzdikcə səbət dolub ağırlaşırdı, amma xanımdan bir qəpik də çıxmırdı. Lap təəccüblü iş idi. Bazarkom, belə olmaz. Naloq yığan, heç olmasa, qəbz verər! Dequstator da belə eləməz!

Bir dəfə gördüm, təzə açılmış bəzzaz mağazasında Rütubət xanım top-top parçaları töküşdürdü, hərəsindən bir paltarlıq kəsdirib səbətinə yığdırdı, yoluna düzələndə bəzzaz çağırdı:

– Bura bax!

– Nə var?

– Bacı, pulu qaldı, axı?

– Nə pul?



– Parçaların pulu!

Arvad yanındakına tərəf döndü:

– Ay İsmayıl yoldaş, sən başa sal!

İsmayıl da bəzzaza yanaşdı ki:

– Bənd olma!

– Necə?

– Deyirəm, bənd olma!

– Bəs necə olsun?

– Kişinin bacısıdır, yaz spesə! Spesə yaz!

– Nəyə yazım?

– Spesə!

Bəzzaz mat qalmışdı. Arvad barmaqlarını az qala onun gözünə soxub deyirdi:

– Bu qanmazı haradan gətiriblər bura? Bəyəm, məni tanımırsan?

– Yox, bacı, tanımıram!

– Tanıyarsan, keç otur yerində!

– Axı, necə?

– Ay İsmayıl, bunu başa sal! Görəsən hansı dərədən gətiriblər. Guya Quba mahalında adam tapılmırdı. Başa sal, ay İsmayıl!

İsmayıl da mağaza müdirini səslədi. Müdir satıcının üstünə qışqırdı:

– Əyə, işin olmasın, spesdir! Yaz spesə!

Mən də kənardan bunları görüb mat qalırdım. Axı, bu nə rüşvətdir, nə hörmətdir?

Deyirlər, bu qorxudandır.

Qorxudan adam malını, pulunu quldura, oğruya, yolkəsənə verər, o da dağda, xəlvət dərədə, yamacda. Axı, günün günortaçağı, şəhərin ortası, camaatın gözünün qabağı, Sovet hökumətinin oğlan vaxtı, kişi niyə malını əldən versin? Belə şey görünməyib, canım!

– Qorxudan!

Sən demə, bu qorxu ayrı qorxu imiş.

Sən demə, Rütubət xanım ayrı xanım imiş. Lap böyük adamın bacısı imiş. Qabağında kimsə dinmirdi. O, bazara çıxdımı, hamı gizlənməyə çalışır, satdığı malları qaçırdırdı. O da ayıq adam idi, İsmayıla göz

vurur, qırğı kimi gedəni yolda saxlayıb, ovlayır, xurcunları tökür, bəyəndiyini səbətə atırdı. Neçə illər həmin xanım mahalda atını oynatdı.

1953-cü ildə, daha doğrusu, əlli üçüncü ilin yazında birdən-birə Rütubət xanımın ayağı kəsildi.

– Nə oldu bu xanıma?

Xəbər verən yox idi. Biri deyirdi naxoşdur, biri deyirdi qaçıb. Kimisi deyirdi ölüb, amma milisioner İsmayıl yenə bazarda idi. İki əlini dalında çataqlayıb dayanır, deyəsən, məzuniyyətə çıxmışdı, dayanıb bu fani dünyanın işlərinə tamaşa eləyirdi.

– Ay İsmayıl, Rütubət xanım hanı bəs?

İsmayıl bir ayağını götürüb o birisini qoyur, ətrafına baxınır, dinmirdi. Vaxtilə hamını "başa salan" İsmayıl, indi nitqdən düşmüşdü. Susurdu.

– Ay İsmayıl, necə oldu bəs o arvad!

– Nə arvad, əyə?

– Rütubət xanım!

İsmayıl susub, boynunu qaşıyırdı.

– Rütubət xanım hanı?

– Ayrı söhbət danış!

Rütubət xanım o gedən getdi, bir xəbər çıxmadı.

Rütubət xanımın şəhərdə boğazlı çəkmə ilə addımladığını, İsmayılın kölgə kimi həmişə onu izlədiyini, əmrinə, "baş üstə" deyib durduğunu, səbətini xüsusi bir zirəkliklə götürdüyünü görən adam deyirdi, bu arvad rayonun allahıdır. Heç güman etmək olmazdı ki, bu rayonda kök salan Rütubət xanım bu tezliklə yox ola!

Amma əlli üçüncü il yaman il idi. O ilin yazında nə oldusa, Rütubət xanımın çərxi çevrildi. Xanım o gedən getdi, nə onu görən, nə də əmrini eşidən oldu. Şəhər camaatı gülüb sevinir, şükür eləyirdilər ki, koxadan, yüzbaşıdan yaxamız qurtardı.

Rütubətdən var-yox, bir İsmayıl qalmışdı. O da payız yarpağı kimi lap saralıb-solmuş, kiçilib yüngülləşmişdi. Daha "başa salmalı" adam tapmırdı. Taqəti də yox idi. Rütubət xanım haqqında bir söz eşidəndə xəcalətindən qızarır, üzünü yana çevirir, xahiş edirdi:

– Ayrı söhbət danış!



– Getsin o günlər, gəlməsin, ay İsmayıl!

– Sənə dedim, ayrı söhbət danış!

*1963*

# MƏHƏBBƏT, YAXUD QƏLP PUL

Qəlp pul yayan kəs ölkədə cinayətkar hesab olunur və ən ağır cəza ilə cəzalanır. Çünki, bu peşənin sahibi dövlət və xalq təsərrüfatını pozub dağıdan, aralığa hərc-mərclik salan adamdır. Hansı yerdə qəlp pulun kökü kəsilməsə, oranın əhalisi rahat yaşaya bilməz. Bu azara təkcə təsərrüfatda yox, əxlaqda da təsadüf olunur.

Xüsusən bəzi nadürüst cavanlar, üzdəniraq, nəcisi konfet kağızına bükən kimi ürəklərini məhəbbət yazılı bəzəkli-düzəkli ibarə ilə məsum, sadəlövh qızların qarşısında beş günlüyə səxavətlə xərcə verirlər: "Həyatım qədər sevdiyim", "Qəlbimin sultanı, ömrümün baharı, filan xanıma!"

*"Səndən ayrı yüz qəmü-dərdü-məlamətdir mənə,*
*Nə xoşam, nə naxoşam, bilməm nə halətdir mənə?!"*
*"Kürələr məhvərindən ayrılsa,*
*Mən o dilbər pəridən ayrılmam!"*

İsti, munis ana qucağında böyümüş, həmişə nəvaziş görmüş Güləndam yenicə orta məktəbi bitirmiş, "Səadət" kitabxanasında işə girmişdi. Bu şirin söz dolu məktublar başına yağanda necə inanmasın? Əvvəl bunları asqıdakı paltosunun cibinə qoyurdular, sonra qabağını kəsib açıb dedilər:

– Güləndam, o məktubu yazan mənəm! Mənim daha səbrim, qərarım kəsilib, sizi görən gündən dəli-divanə olmuşam. İndi qapınıza gəlmişəm. Ya məni bir təbəssümlə xoşbəxt edin, ya birdəfəlik məhv edin! İndi məni yaşadan ancaq sizin xəyalınızdır, əzizim! Sizə dəxil düşmüşəm. Güləndam! Ay Güləndam, səni doğan anaya qurban kəsilim, Güləndam!..

Güləndam, doğrudur, orta məktəbi bitirmişdir, amma mürəkkəb sevda kursunu keçməmişdir. O, sadə bir toxucu ailəsində, ata-anasının qayğı, məhəbbəti ilə böyümüşdür.

İsmayıl adlı yaraşıqlı, geyimli-kecimli bir oğlanın ona belə bir dil ilə müraciət etməsinə nə cavab versin? İnansınmı, inanmasınmı? O sözlərin səmimiyyətini necə yoxlasın?

İsmayıl səhər-axşam demir, yubileydə tamaşaya hazırlaşan aktyor kimi ütülənir, özünə sığal, təravət verir. Vaxt-bivaxt Güləndamın ətrafında hərlənirdi. Onu evə ötürür, fürsət düşəndə məktub qoyduğu paltosunu tutub, konsertlərə, tamaşalara çağırırdı.

Güləndam axırda bu sirri anasına açdı: "Bir oğlan dalımca düşüb, məndən əl çəkmir, ana! Bilmirəm necə eləyim?"

Ata-ananın övlad haqqında, təbii, xoş arzusu hamıya məlumdur: "Bir qız bir oğlanındır."

Ancaq! Ancaq, ancaq!

Ananı fikir götürdü:

"Qızım, indi cavanların içində aferist, əclaflar var. Gözlə, pis adama rast gələrsən, evimizi yıxarsan ha, gözlə! Sənin dalınca düşən kimdir, nəkarədir, niyə atana bildirmirsən, cavabını versin?! Axşam kişiyə deyimmi, qızım?"

Güləndam dediyinə peşman oldu:

– Ay ana, heç sənə söz deməli deyil. Nə olub bəyəm, dizinə döyürsən? Özüm cavab verməkdən acizəm bəyəm, nəyəm? Heç bilirsən kimdir, nə söhbətdir? Niyə küyə düşürsən!

Anası sərt cavabından utanıb səsini yavaşıtdı. Ürəyində düşündü:

"Yox, mən əfvayı danışdım. Qızdır, bəlkə tanış olub, bəlkə rayı var, bəlkə, işarə verir, kömək istəyir, axı daha uşaq deyil, on doqquza girib, yepyekə qızdır. Nə olar, görəni də, gözü düşəni də olacaq, nə olar. Yox, mən yaxşı danışmadım..."

Qızının könlünü almaq üçün qolundan tutdu, üzündən öpdü, əzizlədi:

– Bala, nə dedim, mən dediyim odur ki, ehtiyatın olsun. Hər adamın üzünə irişmə, hər işıldayana işıq, hər parıldayana qızıl demə! Şükür, oxumuş, kamallı qızsan, nəzərin olsun, niyyətin olsun, meylin çəkən tapılanda da nə olar, bir qız bir oğlanındır, Allah mübarək eləsin, işarə elə, biz işimizi bilək! Allah cansağlığı versin. Qabaqda şah kimi atan var, səni handa bir dəsgahlı toy ilə, maşınlar çəkməz cehizlə yola salacaq. Bizim arzu-kamımız var, tək qızımızsan, bu ev-eşik sənə qurban deyilmi? Anan ölməyəydi, toy calalını görəydi. Dediyim odur ki, tələsmə, oxuyarsan, nə çoxdur oğlan, adam əvvəlcə ölçər, biçər, tayını tapar. Çölmək dığırlanar, duvağını tapar. Qismət olsun, bir cüt alma kimi tay-tuş olandan sonra nə söz: anan da, atan da "Allah xeyir versin" deyəcək, buna nə söz!? Ancaq, aman günüdür, sənin nişanlın da özün kimi əsil olsun, halal süd əmmiş, qapımıza layiq olsun! Mənim bircə arzum budur, qızım! Vəssalam!..

Bu söhbətdən sonra bir müddət Güləndam evdə kölgə kimi səssiz göründü. Kimsəyə bir söz demir, içində çəkirdi, dindirən olmasa həftələrlə səsi eşidilməzdi. Anası darıxmağa başladı:

– Gülənda, necəsən?

– Gülənda, işin necədir?

– Gülənda...

Gülənda bu suallara qısa cavab verirdi:

– Yaxşıyam, sağ ol!

Gülənda içində çəkirdi, sözünü də bir kəsə demirdi.

Kaş heç kitabxanada işə girməyəydi. İsmayıl rast gəlməyəydi. Əvvəl o, üzüyola, səliqəli bir işçi idi, dərsə hazırlaşan tələbələrə kitab tapmaq, jurnal axtarmaqdan, hər gün mağazalardan gələn qalaq-qalaq kitabların siyahısını dəftərə salmaq, kartoçkaya yazmaqdan başqa bir məşğuliyyət, həvəs bilməzdi. Deyəsən, İsmayılı qəsdən göndərmişdilər. Cürbəcür xoş sözlər yazılmış məktubları Güləndama çatdırmaq üçün göndərmişdilər. Bu məktublar, tanışlıqlardan sonra qızın sinəsində sanki, ocaqlar qalandı, alovlar oynadı, tüstülər qalxdı. Vaxt-bivaxt ürəyi döyünməyə, xəyalı qanadlanmağa başladı.

İndi Güləndamın qabağında kitab, siyahı olsa da, başında sevdalar, könlündə şübhə və tərəddüdlər şəlalə kimi çağlayırdı. Sinəsindən ahlar qopur, xəyalından min cür mənzərə keçirdi:

"Necə olacaq, İsmayıl əl çəkməz. Atam bilsə nə deyəcək, anam, yoldaşlarım, görəsən qabaqda nələr var, ya qismət. Əşi..."

Gülənda bilmirdi düşdüyü macəra necə, nə ilə nəticələnəcək. Əlacı olsa bütün bu intizar, şübhəli aləmdən uzaqlaşar, yenə anasının isti qucağına girib qayğısız uşaqlıq aləminə qayıdardı. Yox, həyatın yolu budur, bu gün olmasa da, sabah bir cavanın qüvvətli əli onu ata-ana ocağından uzaqlara aparacaq, yeni bir həyat başlanacaqdı...

Gülənda onu da yaxşı bilirdi ki, yeni həyatın ilk addımları həlledicidir. Qızların taleyi bu günlərdə, bu qədəmlərdən çox asılı olur. Ürəyində İsmayılı sevir, sözünü qətiləşdirirdi: sonra yenə şübhələr onu otağı dolduran papiros tüstüsü kimi, bürüyür, hisslərini qıcıqlayır, əzmindən döndərmək istəyirdi. Qalxıb küçəyə çıxır, soyuq ah çəkir, fikrini dağıtmağa, yenə əvvəlki düşüncələrlə sakitləşməyə, təsəlli tapmağa başlayırdı.

Şübhə və tərəddüdlər isə sonsuz bir intizar kimi onu tərk etmirdi... Həftələr, aylar idi ki, qız dərman içmiş, ya vurğun vurmuş kimi evdə, eşikdə, işdə mat-məbhut dolanırdı. Dərdini danışmağa, çarə aramağa bir yer, bir sirdaş tapmırdı. Anasının nəsihət yolu ilə, təkidlə dedikləri bir xəbərdarlıq kimi qulaqlarında təkrar-təkrar səslənirdi. Ancaq onlar da intizar və şübhələri qova bilmirdi. Hərdən İsmayıl yaraşıqlı görkəmi, gülümsər siması ilə zahir olub xoş sözlər yağdırır, onu tamaşa yerlərinə, dost məclislərinə çağırırdı...

Qızın belə dalğın görünməsi çoxlarının nəzərindən qaçmırdı. Xüsusən, anasını çox narahat edirdi. Bilirdi ki, qızın başında nəsə bir sevda var. Ancaq qəlbinə toxunmaqdan, əzmini qırmaqdan qorxurdu. "İndiki cavanların öz aləmi var, futboldan gəlib konsertə gedir, məktəbdən başlanıb iclasda bitir. Kitab, dəftər, qəzetlə uğraşırlar. Bunlardan

baş açmaq üçün gərək universitet oxuyasan, bacım!.. Hər adamın işi deyil."

Qızının halından əhval tutmaq üçün ana, cəsarətini toplayıb, daha açıq bir sual ilə övladına müraciət elədi:

– Güləndam, oğlan daha incitmir səni?

Deyəsən, qız bunu gözləyirmiş. Rəngi dəyişdi. Başı ilə rədd işarəsi verdi. Güman etdi ki, anası əhvalatdan xəbər tutmuşdur. Sakit, utancaq bir ahənglə sözünü söylədi:

– Ana, – dedi, – istirahət axşamıdır. Gələn olacaq, atam da evdə olsun!

Ana nagahani hadisədən təşvişə düşmüş adam kimi danışdı:

– Gələn olacaq, deyirsən? Necə?

– Olar, ola bilər.

Ülfət gözləmədiyi xəbərdən sarsıldı. Bir müddət qızının üzünə baxdı. Sanki münasib söz axtarırdı:

– Kişilər olacaq, ya...

– Bilmirəm, ancaq gələcəklər. Gələ bilərlər.

– Yəqin gələcəklər?

– Deyə bilmərəm, gözləmək olar!

Ülfət əsəbiləşdi, istədi qızını danlasın, "a filan olmuş, yoxsa özün alışıb-verişmisən, sonra da bizə xalaxətir eləyirsən?.."

Yenə özünü saxladı. Dalısını gözlədi. Səbir və təmkin ahəngi ilə məsləhətləşdi:

– Gərək hazırlıq görək, qızım. Kənar adam, birinci dəfə, özümüzə görə adımız var. Elə deyilmi?

Güləndam dinmədi, bulud kimi tutulmuş halda, sakitcə paltosunu geyib evdən çıxdı.

Güləndam evdən çıxdı, amma bilmədi hara getsin. Əslinə baxsan, kənarda bir işi də, gedəsi yeri də yox idi. Bərk yorulmuşdu. Ayrı vaxt olsa evdə oturub dincəlmək istərdi. Amma nədənsə otura bilmədi. Deyəsən, nəyə isə, ev, ailə, otaq şəraitində tapmadığı nəyə isə bərk ehtiyac duyurdu.

Ona görə geyinib evdən çıxdı. Bəlkə də çıxmaya bilər, kitablarla radio cihazının, ya televizorun qabağında əyləşə bilər, yoldaşlarından



birinə telefon edib söhbət başlayardı. Amma bunların heç birində axtardığı istirahəti, təsəlli və ürək dincliyini görmədiyi üçün evdən çıxdı.

Evdə ikən daş-divar, çoxdan alışdığı otaq, mebel və s. sanki onu sıxırdı. Guya küçəyə çıxan, qapıdan beş addım uzaqlaşan kimi, axtardığını, ehtiyac duyduğu, "nəyi isə" tapacaq idi. Nəyi və harada tapacaq idi? Bunu evdən çıxandan sonra düşündü və gördü ki, bu düşüncə əbəs imiş. Axtardığı heç yerdə yoxdur.

Güləndamın qəlbinə və zehninə dolan, onun bütün vücuduna iynə kimi batan şey nə idi?

İsmayıl ilə başlanan sevgi macərasının aqibəti və bəlkə də lap davamı idi. Deyəsən, onu götürüb mübhəm və yeni bir aləmə atmışdılar. Nə oradan çıxmaq, nə də orada qalmaq haqqında bir niyyət, nəticəyə gəlmək mümkün deyildi, hər dəqiqə İsmayılın müraciəti, ağızdolusu dediyi şirin sözlər qulağında səslənirdi:

"Həyatım qədər sevdiyim!", "Qəlbimin soltanı, ömrümün baharı, Güləndam xanıma!"

Bunlar, gəlişigözəl deyilən sözlər, romandan gətirilən sitatlar deyildi. Bunları deyən oğlan Güləndamın qarşısında fır-fır fırlanır. Cəmiyyətdə şiş udmuş kimi dik, məğrur gəzən oğlan, sevgilisinin önündə mum kimi əriyir, kölgə kimi yerə sərilirdi.

Bu nəvazişlər nə üçün idi? İsmayılın, ali təhsilli bir mühəndisin kasıb bir kitabxanaçıya nə ehtiyacı var idi? O, yaraşıqda, şəkil kimi boybuxunda, naz-nemət içində üzən bir cavana, evlənmək üçün qızmı az idi? Elə oxuduğu institutda, bəlkə də onun üçün əldən gedən, vasitə salanlar az deyildi. Ancaq İsmayıl, görünür, elə-belə evlənməyəcək. Sevdiyini alacaq. "Qəlbimin soltanı!" – Bu söz ancaq odlu ürəkdən gələ bilərdi.

Oğlanın Güləndam qarşısında kiçilməyi, əyilməyi də, ancaq sevgiyə görədir, ürəyinin hökmü ilədir: məhəbbətə zor yoxdur, könül sevən gözəldi. Sevənlərin xəmiri haqdan yoğrulub, taleyi əzəldən yazılıb...

Güləndam bu düşüncələrlə küçələri dolaşıb, özü də bilmədən evə qayıtdı.

Darvazanı açıb astanaya ayaq basanda yadına düşdü ki, doğrudan da gələn ola bilər, adətə görə ehtiyat eləmək, görünməmək lazımdır.

Eyvana çıxanda, anasının samovar qabağında dayandığını, qonaq otağından səslər gəldiyini duyanda anladı ki, bəli, doğrudan da gələn var. Gözlənən əziz qonaqlar gəlmişdilər. Güləndamın gözə görünməsi eyib olacaq. Qız özünü itirdi. Bilmədi harada gizlənsin.

Nəinki qonaqların, hətta evdəkilərin də gözündən yayınmağa çalışdı. Tez səkidən düşüb dəhlizə keçdi. Oradan qonaq otağına açılan, indi isə kətan pərdə ilə bağlı pəncərəyə yanaşdı. Cəsarətini toplayıb pərdə dalından qonaqlara baxmaq istədi. Süfrə başında şəstlə oturub çay içən, öz evində imiş kimi, dirsəyini stola söykəyən İsmayılı görəndə təəccüb elədi.

İsmayıl qıza bunu deməmişdi. Gözləmək də olmazdı...

Bir qurtum çay içir, sonra büllur stəkanı nəlbəkiyə qoyub danışırdı. Onun öz elçiliyinə gəlməyi təəccüblü, qız evində hamıdan qayım danışmağı isə lap dəhşət idi. Axı, İsmayıl burada, məsləhət-məşvərətə yığılan ağsaqqal kişilərin qarşısında nə danışa bilərdi? Nə üz ilə danışardı?

Güləndam təəccübdən pərdənin dalında donub qaldı və gözünü içəriyə zilləyib dinlədi. İsmayıl lap komsomol iclasındakı sərbəst ahəng və ədası ilə əl-qolunu ölçərək deyirdi:

– Yoldaşlar, mən çox yaxşı bilirəm ki, bizim adətdə elçiliyə oğlan adamları gedər, amma oğlan özü getməz! Bunu bilirəm. Görürsünüz ki, mən İsmayıl Kəbirov özüm durub gəlmişəm. Siz bunu üzlülük, ya da cəsarət saymayın. Xahiş edirəm. Bu bir yenilikdir. Hər bir komsomol gərək yeniliyə meyil eləsin. Yoxsa utanmaq, nə bilim, nə deyərlər, yaxşı düşməz, filan, bunlar mövhumatdır, yoldaşlar! Biz cavanlar mövhumatın düşməniyik, mənim ürəyim Güləndamı tutub, özümü onun qədəmlərinə atmışam, lazım gəlsə, canımı da qurban verməyə hazıram. Xahiş edirəm qız atası, eyni zamanda mənim atam saydığım yoldaş bunları nəzərə alsın ki, iki qəlbin birləşməsinə maneçilik törətməsin. Qaldı o biri tərəfi. Yoldaşlara məlumdur ki, mənim əlimdə sənətim var, mühəndisəm, bu yaxınlarda da povişeniyəm olacaq. Nazirlikdə xətrimi istəyirlər, dəfələrlə də mükafata təqdim eləyiblər. Bax, qolumdakı bu saatı noyabr bayramında mükafat pulundan almışam. Çünki, nazirlik bilir ki, ona yaxşı işçilər lazımdır, əfəllər yox! Mən ki bir işin qulpundan



tutdum, sağlığınıza, aşıranam! Özü də hər barədə mən başaranam. Lap yüz faiz!

Qocalar İsmayılın nitqini sükutla dinləyir, cavab vermirdilər. Hərdənbir qızın atası öskürür, papiros çəkirdi.

Oğlan adamlarından kimsə, çalbaş kişi İsmayılın xasiyyətnaməsini verdi:

– İsmayıl işində qabil, fərasətli cavandır. Onunla qohum olmaq, məncə, Güləndam xanımın bütün ailəsində sevinclə qarşılanacaq. Xeyir işdir, şükür, hər ikisi oxumuş, ağıllı cavanlar, zəmanəmizə də belə mədəni ailələr, mədəni nəsil lazımdır. Usta İbrahim qardaşım da yəqin ki, bu xeyir işi alqışlayacaqdır. İcazə verin bu çayları içək! Məşədi İbrahim, sizin möhtəbər sözünüzə müntəzirik!..

Bu yerdə Güləndamın ürəyi şiddətlə döyünməyə başladı. Məşədi İbrahim papirosuna bir qullab da vurub dedi:

– Vallah, İsmayıl özü hər işi aydın danışdı. Danışdı ki, indi yenilik əyyamıdır. Belə əmrlər qızın, oğlanın rəyi ilə həll olunur. Mən doğrusu, bir ata kimi, bu işə Güləndamın münasibətini bilmirəm, gərək öyrənəm.

İsmayıl yerində qurdalandı, nəsə demək istədi, çalbaş əlini ağzına qoyub sükut işarəsi verdi, İsmayıl dinmədi. Usta İbrahim izah elədi:

– Qızın, deyərlər, sirdaşı anasıdır. Bəlkə ona bir şey deyib, ancaq mənə məlum deyil, bu, ağır və məsul bir işdir, xahiş edirəm bizə bir həftə möhlət verəsiniz. Öz aramızda bir məsləhətləşək. İsmayıl da darıxmasın, bizim məsləhətləşməyimizin ziyanı yoxdur. Yenilik də pozulmaz. Qızın dayısı, xalası var, elə olmasın ki, desinlər, biz onları saymadıq.

Güləndam indi həyəcan içində idi. İsmayılın hərəkətləri ona qəribə yox, əcaib görünürdü. Onun əvəzinə utanırdı.

Bu barədə söhbət açanda da İsmayıl cavab tapırdı:

– Ay Güləndam, mən nə qəbahət iş görmüşəm, sifariş eləməmişəm, özgəyə danışmamışam. Öz sözümü atana açıq demişəm. Bu mənim həyasızlığımı yox, açıqürəkli olmağımı, sadəliyimi, müasirliyimi göstərir. Sən gərək belə qiymət verəsən, əzizim, gülüm!..

Güləndam bir tərəfdən alışdığı adətlərin, bir tərəfdən arzuladığı xoş mənzərələrin, üçüncü tərəfdən də İsmayılın əcaib hərəkətlərinin tə-

siri ilə daim fikirli, qayğılı görünürdü.

Bu mənzərələrin ən güclüsü İsmayılın hərəkətləri idi. Çünki bu, adət və xəyalət, arzu deyil, bir həqiqət idi. Göz qabağında idi. Bəlkə də get-gedə şiddətlənə, sonra pərişanlığa çevirə bilərdi. Bunu İsmayıla demək lazım idi. İsmayıl haqq üçün, Güləndamın rəyi ilə hesablaşardı:

– Gülən dam, mənim əzizim, tutaq ki, mən bir səhv eləmişəm. Lap sən deyən düzdür, gərək getməyəydim, getdim. Bir səhv üçün adamı öldürməzlər ki, bağışla, bir də eləmərəm. Xeyir işimizdə, bu toy-tədarük qabağı istəmirəm ki, sənin o gül üzündə kədər, məyusluq işarəsi olsun, məni bağışla, keçənləri unut, əzizim!

Məşədi İbrahim oğlanın hərəkətlərindən narazı qalsa da, qızının ona meylini görüb nəhayət, elçilərə razılıq verdi, mübarək olsun dedi.

Bir-iki ay ərzində toy tədarükü görüldü, cavanların xeyir işi baş tutdu.

Evlənəndən üç ay sonra cavan ailənin həyat puçurları köpürəndə, Gülən damın yenilik arzuları göyərmək istəyəndə İsmayıl haradansa ezamiyyət götürüb Tiflisə getdi.

"Gülən dam, – dedi, – sən də darıxma, imtahanlarına hazırlaş, beş-on günə qayıdaram, kurorta gedərik..."

İsmayıl yoldan bir məktub yazmışdı. Sonra arası kəsildi, bir dəfə də fotoməktub yazıb işinin çoxluğundan şikayətləndi.

Üçüncü məktubunu Gülən dama yoldaşları xəbər verdilər: qəzetdə kiçik bir elan var idi ki, İsmayıl Gülən damı boşamaq barəsində məhkəməyə ərizə verib.

Gülən dam bu xəbərə əvvəl inanmadı. Sonra məhkəmədə İsmayılın öz ərizəsini oxudu.

"Xasiyyətimiz tutmadığı üçün yaşaya bilmirəm", – deyə şikayətləndiyini bildi. İndi ərinin "Qəlbimin soltanı, ömrümün baharı" deyən məktubları qəlp pullar kimi qarşısında açılıb tökülmüşdü. Bilmirdi bunları məhkəməyə, redaksiyalara versin, ya ocağa basıb yandırsın!

Çox düşündü, axırıncını məsləhət bildi.

*1963*



# MƏN DƏ BİR ELÇİ KİMİ

Bilmirəm, Şamlıcada olmuşsunuz, ya yox. Bu kənd Gəncə dağlarının səfalı guşələrindən biridir. Yazın gözü açılandan ta payız şaxtalarına qədər bura yaylaqçıların həvəslə axışdığı yer olur. Təkcə Gəncədən yox, lap uzaq yerlərdən bura köçüb gələnlərin, təkər-təkərə verən maşınların, istirahət evində, uşaq bağçalarında, pioner düşərgəsində qaynaşanların sayı-hesabı bilinmir.

Kənd iki hissədir: Çaybaşı, bir də Aşağı küçə. Çaybaşı kəndin abad, əslində mərkəz hissəsidir. Dağın döşündə, qayalıqların altında, dərənin ilk şırımında yerləşib. Sərin bulaqlar, meşə idarəsi, istirahət evi buradadır. Qayalıqlardan enib köç yolunu ötəndə, düzənliyə keçəndə böyük tikintilər əvəzinə yamaclar, cığırlar içində alçaqca damlar, tikanlı çəpərlər, ot tayaları görürsən.

Mən burada nə yaylaqçı, nə də qonaq idim. Daimi dövlət xidmətində idim. Onillik məktəbdə müəllim işləyirdim.

İki il tamama yetirdi ki, ailəmi dağa köçürmüşdüm. Məktəb həyatında ikigözlü mənzildə yaşayırdım...

Bir axşam dərsdən qayıdanda məktəbli qız Səltənəti evdə oturub məni gözləyən gördüm. Səltənət səkkizinci sinfin yaxşı şagirdlərindəndi. Əlaçılığı, rəssamlıq qabiliyyəti, ədəbi, mərifəti, zirəkliyi ilə hamının hörmətini qazanmışdı. Ancaq bizim evə ilk dəfə idi gəlirdi və yəqin ki, vacib bir iş üçün gəlmişdi. Səltənəti görəndə ürəyimə nə isə damdı. Məktəbdə söhbət gedirdi ki, Səltənəti nişanlayırlar, buna görə də bəzən dərslərə gəlmir. Evlərində həmişə qeylü-qal var.

Məlumdur ki, evlənmək cavanların həyatında mühüm, məsul, sevincli bir mərhələdir. Qızılgül yaz günəşində pardaqlanan kimi, gənclər də inkişafın bu mərhələsində qanadlanıb uçur, böyük arzular, şirin xəyallar aləmində yaşayırlar.

Səltənətin simasında isə bu əlamətləri görmək mümkün deyildi. Əksinə, görkəmindən – baxışından, duruşundan dərd və ələm yağırdı.

Evdə mənə danışdılar ki, Səltənət bizə sığınmağa gəlib. Atası onu nişanlamaq, məktəbdən ayırmaq qəsdindədir. O da evlərində bir söz deyə bilmir, müəllimindən kömək umur.

Məsələ aydın idi. Səltənəti danışdırmağa ehtiyac qalmırdı. Axşam müəllimlərdən də birini götürüb Qələndərin – qızın atasının yanına getdim.

Qələndər Qədirov dairəittifaqın rayon şöbəsində şofer işləyirdi. Qızını da öz həmkarlarından birinə vermək niyyətində idi.

Bizi görən kimi evdə təşvişə düşdülər. Ata da, ana da bir-birinə macal vermədən xeyir işdən danışmağa başladılar.

– Qələndər, – dedim, – mübarək olsun. Sənin qızının xeyir işi, elə bil, mənim öz övladımın xeyir işidir. Bu barədə sənə heç bir sözüm yoxdur. Ancaq biz sənin qapına bir elçi kimi gəlmişik.

Qələndər cavab vermədən, suallı nəzəri ilə mənim üzümə baxmaqda davam elədi:

– Necə yəni?

– Bəli, bir elçi kimi sənin qapına gəlmişik.

Qələndər güman edirdi ki, biz Səltənəti ayrı adama istəyirik. Heç bir kəsin adını çəkmədiyimizi görüb təəccüb edir, müəllim yoldaşıma arabir nəzər yetirirdi: "Bəlkə bu mənə kürəkən olmaq istəyir?" Mən atanın intizarını anlayırdım, mətləbi açdım:

– Səltənət təkcə sənin yox, mənim də qızım, övladımdır. Sən əsl atasansa, mən onun mənəvi atasıyam, onun taleyini düşünmək mənim borcumdur.

Qələndər anladı ki, "elçi" sözünü biz məcazi mənada işlədirik. Qaş-qabağı açıldı:

– Əlbət ki, əlbət ki, yoldaş müəllim, sizin boynumuzda haqqınız çoxdur.

– Səltənəti, onun qabiliyyətini, arzu və niyyətlərini, inkişaf meyillərini, bağışlayın, biz məktəb işçiləri bilən qədər siz bilə bilməzsiniz. Səltənət indi hazırca bir rəssamdır, özü də bacarıqlı rəssam! Bu yolda inkişafını davam etdirmək üçün bizdən kömək istəyir.

Mən bunu deyib cibimdən məktəbli jurnalının bir nömrəsini çıxardım. Səltənətin çəkdiyi şəkilləri Qələndərə göstərdim:

– Bizim kəndimiz Şamlıca əsrlərdir yaşayır. Haqqında danışıblar, deyiblər, amma heç bir kitabda, albomda bu kəndi görməzsən. Şamlıcanın gözəl mənzərələrini heç kəs Səltənət kimi çəkə bilməmişdir. Bu lövhələr tezliklə mərkəzi mətbuatda veriləcək.

– Çox sağ olun ki, şagirdlərə yaxşı səy edirsiniz.

– Deməli, elçilik eləməyə haqqımız var?!

Qələndər yenə dayandı, bilmədi nə cavab versin.

– Sən, – dedim, – razı olma ki, Səltənətin istedadı qapalı, təhsili yarımçıq, arzuları gözündə, əli qoltuğunda qalsın.

– Qız gedəndən sonra, yəqindir, ailə sahibi olacaq.

– Qıza gərək imkan verək məktəbi bitirsin, sonra da xoşbəxtliklə toyunu da eləsin, ailəsini də qursun.

– Qızın həsini vermişəm, müəllim.

– Səltənət nə deyir, məktəbi buraxırmı?.. Özü razı olmasa necə?

Bu sual, görünür, Qələndərə çətin gəlirdi. Əvvəlcə qulağının dibini qaşıdı, sonra:

– Qızı öz xoşuna qoysan, ay müəllim, – dedi, – ya halvaçıya gedər, ya zurnaçıya!

Mən bir dəqiqə susdum. Müəllim yoldaşım da başını tovladı.

– Qələndər yoldaş, gərək bu köhnə sözü sənin dilindən eşitməyəydik.

– Köhnə deyil, ataların misalıdır.
– Yaxşı misal deyil! Kiflənmiş fikirdir!
– Təcrübəli kişilərin misalıdır.
– İndiki həyatımız üçün zərərli misaldır, yoldaş Qələndər!
Qələndərin rəngi və səsinin ahəngi dəyişdi:
– Siz deyirsiniz Səltənət hələ iki il də gözləsin, eləmi?
– Bunu təkcə biz demirik, Səltənət özü tələb edir.
– Səltənət qələt eləyir, qız uşağıdır. Böyükləri nə deyir, qulaq assın!
– Qələndər yoldaş, biz də sənin kimi qızımızın xoşbəxtliyini istəyirik. O, təbiətən rəssamdır, sənətkar bir gəncdir. İndi əl-qolunu bağlayıb mətbəx küncünə atsaq bədbəxt olar.
– Qız mənimdirsə, təvəqqe eləyirəm, xeyir işimizə mane olmayın, müəllim.
– Toy hər zaman mümkündür. Amma sənət yoluna düşmək hər zaman olmur, hər kəsə müyəssər olmur.
– Mənə sənətkar lazım deyil.
– Sənə yox, bizə lazımdır.
Yoldaşım əlavə etdi:
– Vətənə lazımdır!
Qələndər hirsləndi:
– Səltənətnən mən özüm danışaram, başqaları qarışmasın.
Mən də özümü saxlaya bilmədim. Səbrim tükənmiş kimi ayağa qalxdım:
– Mən başqaları deyiləm, Səltənətin müəllimiyəm! Onun sənət yoluna düşməsi mənə də, məktəbə də, dövlətə də lazımdır!
– Atası mənəm, mənə lazım deyil!
İstədim deyəm ki, "Sən yaxşı ata deyilsən!" – özümü saxladım, sözü dəyişdim:
– Səltənət özü ixtiyar sahibidir. Söz də onunkudur.
– Xahiş edirəm, siz onun saqqızını oğurlamayasınız, müəllim olanda nə olar!
Otaqda əsəbi bir şərait yarandı. Deyişmənin faydasız olduğunu bilmək çətin deyildi.



Biz vidalaşmadan evdən çıxdıq. Arxamızca Qələndər qışqırırdı:
– Xahiş edirəm, qızı saxlamayın, göndərin gəlsin evə!
Mən ancaq indi bildim ki, Qələndər qızın bizdə olmasından xəbərdardır. Yəqin ki, buna görə də bizi evində soyuq qarşılamışdı.
Axırıncı cavabımı bir qədər bərkdən dedim:
– İstəmədiyi yerə getməyəcək!
Səhərisi məni rayon İcraiyyə Komitəsinə çağırdılar.
Sədrin otağına girəndə Qələndəri orada gördüm. Maarif şöbəsi müdiri də oturmuşdu. Anladım ki, bu, Səltənətin məsələsi olacaq.
İcrakom sədri Salman əmi yaşlı, təcrübəli və bir qədər də müdrik adam idi. Üzünü maarif müdirinə tutub soruşdu:
– İlyas müəllim, hara adam göndərmək istəyirdin? Bir də de, yoldaşlar eşitsinlər.
İlyas müəllim qalxıb izahat verdi:
– Şəhərdən rəssamlıq məktəbinə iki adam istəyirlər. Maarif şöbəsində də hamımız razılaşmışıq ki, Səltənət Qələndər qızı bu işə ən ləyaqətli namizəddir. Ancaq eşidirəm atası razı deyil.
Salman əmi İlyas müəllimin sözünü kəsdi:
– Qələndər niyə razı olmasın? İxtisas məktəbi, hər xərci də dövlətdən, qız da həvəskar!..
Qələndərdən qabaq mən dilləndim:
– Deyəsən, Səltənəti ərə verməyi daha vacib bilənlər var.
Salman əmi Qələndərin üzünə baxmaqda davam edirdi. Qələndər dedi:
– Ayrı şəhərdə oxumağına evdə razı olmurlar.
– Kim razı olmur?
Qələndər dinmədi. Salman əmi cavab gözləmədən sözünə davam etdi:
– Ər qaçmır ki! Vaxtı gələndə ərə də getsin, amma bu, gərək təhsilə mane olmasın.
Maarif müdiri dedi:
– Məsələ elə odur ki, mane olur! Valideyn belə istəyir!
Salman kişi üzünü mənə tutub soruşdu:
– Ay müəllim, sən nə fikirdəsən?

– Siz mənim fikrimi ifadə elədiniz!

Qələndər pörtmüş halda sözə qarışdı:

– Bəlkə, qız getmək istəmir?

Mən cavab verdim:

– Qız təhsilə getmək üçün evdən qaçıb!

Salman əmi maarif şöbəsinə tapşırıq verdi:

– Yaxşı xasiyyətnamə-zad yazın, şəkillərindən də nümunələr göndərin. Mən o qızın parlaq gələcəyinə tamam əminəm.

Salman əmi əvvəl məni, sonra da Qələndəri təbrik edib əlimizi sıxdı:

– Ay müəllim, ləyaqətli şagird yetirdiyiniz üçün sizi təbrik edirəm. Qələndər, sən də qızın atasısan, başın daha da uca olsun ki, belə övlad böyütmüsən. Di gedin, uşağı yola salın. Mən özüm birigün şəhərdə olacağam...

Mən gözləyirdim ki, Qələndər etiraz edəcək, ya küsüb gedəcək. Amma o, nədənsə bir şey demədi, daha doğrusu, deyə bilmədi. Kəsilə-kəsilə qaldı.

Güman etmək olardı ki, Qələndər niyyətini gizli saxlayır, qıza mane olmaq üçün tədbirlər düşünürdü...

*1964*



# TURŞUQEYRƏT

Başqa idarə işlərinin redaksiya işlərindən fərqi çoxdur, hətta ziddiyyəti də var. Başqa idarələrə camaat özü gəlir. Amma redaksiya işçiləri inşaat meydançalarına, zavodlara, kolxoz tarlalarına, məktəblərə gedir, harada yazıya gələn əhvalat, öyrənməli mətləb var, oradan redaksiyaların diqqəti əskik olmur. Başqa idarələrdə işin ən ağır vaxtı səhərdir. Amma redaksiyada səhər bir iş olmur. Çapa layiq yazılar oxunur, gözdən keçirilir. Axşama doğru isə qəzet çapa gedir, təşviş başlanır. Bütün diqqətlər toplanır. Sabah oxucuya verilməli olan hər səhifə, sütun, cümlə, söz təzədən oxunur, yoxlanır, imzalanır.

Redaksiyada səhər-səhər arxayınlıq olur. Şikayətçi az gəlir.

Təzəcə oturub müxbir məktublarını oxuyurdum. Ramiz içəri girdi.

– Bu yoldaş sizi görmək istəyir…

Ramiz yaxşı bilirdi ki, mən səhərlər qəzet ilə məşğul olur, saat 12-dən sonra isə gəlib-gedən ilə söhbət edirəm.

"Bu yoldaşı" gətirməyindən məlum idi ki, Ramizin cavabı hərifi

razı salmayıb, mənimlə görüşməyi təkid edib.

Ucaboy, kök, enlisifət, yaxası açıq kişi nə Ramizə, nə mənə macal verdi. İri addımını otağın döşəməsinə qoyan kimi, suala başladı:

– Yoldaş, olarmı, qəzetxananın böyüyü mənə lazımdır, olarmı?

– Nə buyurursunuz?

– Buyurmağım odur ki, mənim adım qəzetdə düz yazılmayıb.

Mən yer göstərdim, kişi oturdu. Rəftarımdan cürətlənmiş kimi, bir az da qayımdan başladı:

– Sizə şikayətim var. Qəzetdə mənim barəmdə düz yazılmayıb. Adım da səhv!

Xahiş etdim ki, şikayətini mənə səbirlə danışsın. Kişi, görünür, mətləbi uzatmaq istəyirdi:

– Mənim bacım barəsində neçə tərif yazırsınız, onu özünüz bilərsiniz. Qarışmaq istəmirəm. Amma gərək o yerdə mənim adım çəkilməyəydi. Nöşün ki, mənim nə bacımla, nə onun əri ilə qəti əlaqəm yoxdur, mən onların qapısını tanımıram. Çox da ki, mühəndis, briqadirdir, ya nədir. Özünüz bilirsiniz. Ancaq ki, məni onlara qatmağınız düz deyil. Qəti düz deyil, özü də ki, adımı da başdan-ayağa səhv salıblar.

– Bəyəm, sizin adınız nədir?

Uzun kişi cibindən qəzeti çıxarıb qatını açdı. Altından qara cızıq çəkilmiş sətri mənə göstərdi:

– Nə yazılıb?

– Mənim adım Zamandır, qəzetdə yazılıb Saman!

Şikayətçi "Saman" sözünü dedi və artan hiddətini gizlədə bilmədi, hirslə əlavə etdi:

– Belə biabırçılıq olar?

Əhvalat mənim yadıma düşdü.

Rayona yol çəkiləndə, təzə körpü salınanda yaxşı fəhlə və mühəndislər haqqında xüsusi səhifə çıxmışdı. Kişinin gətirdiyi həmin səhifə idi. Cibində o qədər gəzdirmişdi, o qədər açıb-bükmüşdü ki, qəzet dəsmal kimi yumşalmışdı.

– Siz də yol işindəsiniz?

– Xeyr, Allah eləməsin. Mən rayonda işləyirəm.



Ramiz gülümsədi, dodaqaltı əlavə etdi:

– Bu yoldaş susatandır.

Şikayətçi əlavə etdi:

– Siroplu su!

Mən başa düşmədim ki, yol çəkənlər haqqındakı səhifədə bunun adı nə münasibətlə yazılıb. Əvvəl Ramizin, sonra kişinin üzünə baxdım. Uzun kişi mənim nəzərlərimdəki sualı deyəsən, gördü:

– Məndən ayrı cür yazıblar. Guya mən bacımın işlərinə maneçilik eləmişəm.

– Ona görə sizi qəzetə çəkiblər?

Mənim sualım şikayətçinin xoşuna gəlmədi:

– Ona görə ya hər nəyə görə! Yoldaş, mən qəzet-məzetdən qorxan oğlan deyiləm. Çox elə yazılar görmüşük. Amma mənim şikayətim ayrı barədədir. Necə bir sovet vətəndaşı, mənim adımı niyə əyri yazsınlar. Qəzet yazan gərək düz yazsın. Sovet hökumətinin qəzetində əyrilik olmaz! Olar bəyəm, əyrilik olar, bəyəm?

– Əyri yazıblar?

Uzun kişi qəzeti çəngələyib lap mənim sifətimə sarı tutdu, az qaldı hərfləri gözümə soxsun.

– Bəs bu nədi, Zamanı Saman yazarlar? Belə də iş olar?

– Niyə belə əsəbləşirsiniz?

– Bəs mən filan olmuşun oğlu hirslənməyim, neyləyim. Başıma nə daş salım. Saman yazanda adam necə olar?

– Saman yazmaq ilə bəyəm, siz saman olursunuz?

– Mən saman olmasam, onu yazan da yazmaz axı! Saman görür, saman da yazır da!

Şikayətçi bir az da hiddətlə "saman" dedi, barmağını silkələyib təəccüblə mənim üzümə baxdı.

– Buna nə ad qoyarlar?

– Sizin xahişiniz nədir?

– Xahişim odur ki, mənim işimə baxılsın.

– İndi mən nə eləməliyəm?

–Siz qəzetxanaya göstəriş eləyin ki, mənim barəmdəki haqsızlığı düzəltsinlər!

– Deyirlər siz bacınızı söyüb evdən qovmusunuz.

Uzun kişi qımışdı. Gözləri alacalandı, səsinə qəzəb gəldi:

–Söyərəm, gözünə də ağ salaram. Bəs o mən boyda kişinin, böyük qardaşın başını yerə soxanda, yaxşıdır? Heç onu qəzetxana ortalığa çəkmir. Eybi yoxdur, onun cavabını mən verərəm. Canım sağ olsun, verəcəyəm, inşallah! Qoymaram o mühəndislərin qoltuğunda belədən-belə keçsin. Mənə də Zaman deyərlər. Siz yazan kimi yox ha, necə ki, bir Zaman! Görər neylərəm. Gün işığında gəzmək mənə haram olsun, əgər Zəhranın işini bu yerdə qoysam, qoysam!..

–Zəhranın ərə getməyini siz günah sayırsınız?

–Ərə getmək, ərə getmək! Yoldaş, ərə getməyin də bir təhəri var. Mənim bacım gərək belə nacinsliyi eləməyə idi.

–Sizə məsləhət eləməli idi?

–Ay-hay! Məsləhətə bax! Zəhra elə bir qələt eləyib ki, onun xəcalətliyini bir dağ götürməz, nəinki bir qardaş! Kəndi uçurub-dağıdanın birinə qoşulub gedib. Öz atasının damını uçurdub-yıxan adama könül verib! A yoldaş, əşi, özün də şükür, müsəlmansan. Beləsinə necə dözmək olar? Mən necə eləyim. Öz dədəsinin evini balta ilə, balta yox, lap traktor salıb dağıdan adama nə vəfa görkəzər. Mənim bacımın başı saman çuvalıdır, saman!

İki ay sonra məni məhkəməyə çağırdılar. Xalq iclasçısı kimi, mən bir cinayət işinin mühakiməsində iştirak etməli idim. Məhkəmə sədri işlə məni tanış eləyəndə dedi:

–Qeyrət məsələsi! Qardaş bacıya qəsd eləyib. Qız indi ölüm yatağındadır.

Məhkəmə iclası açılanda müqəssir kürsüsündə uzun kişinin oturduğunu gördüm. Sədrin sözü yadıma düşdü: "Qeyrət məsələsi!"

Müqəssir dindirilməmiş, sorğu-sual başlanmamış cinayət işinin süjeti mənim başımda dolaşmaqda idi. Günahsız, kimsəsiz, qızın fəryadı, uzun kişinin əlində qəssab bıçağı, ananın hıçqırıqları, tikinti mühəndisinin ailə faciəsi – qonşular, məktəb uşaqları, redaksiyadan olan şahidlər...

Məhkəmə sədri "qeyrət" sözünü təkrar elədi. Mən təshih verdim:

–Qeyrət sözünü beləsinə (mən işarə ilə müqəssiri göstərirdim) isnad eləmək insafdankənardır. Bunun cinayətində turşumuş qeyrət iş görüb.



Sən demə, bu termin məsələsi sədri də düşündürürmüş.

–Əlbət ki, istilahı düz işlətmək gərək.

–Turşuqeyrət.

Sədr bunu dedi, mənim rəyimə müntəzir dayanıb üzümə baxdı.

Mən təsdiq elədim:

–Turşuqeyrət!

Pis ad deyil!

–Dürüst xasiyyətnamədir.

Sədr katibə işarə elədi. O da tələsik yazdı:

"Turşuqeyrət!"

Uzun kişi redaksiyada mənə dediklərini bir qədər də bəzəyib qaydaya salır, məhkəmə üzvlərinə ifadə verirdi. Turşuqeyrət söhbətini eşidəndən sonra deyəsən, adının səhv getməyinə məna vermirdi. Saman sözünü daha dilinə gətirmirdi.

*1964*

# İMZASIZ HEKAYƏ

*İmzasız məktubun başağrısını eşitmişdim, görməmişdim.*
*Bu əhvalatdan sonra lap inandım.*

Keçiyevi redaksiya qapılarında tez-tez görmək olurdu. Məlum idi ki, onun yazmaq, çap etdirmək təmənnası var. Bir-iki dəfə yazısını təqdim eləmişdi, ancaq cavab çıxmamışdı. Öyrəndi ki, Yazıçılar İttifaqı mətbuatda görünmək üçün ən yaxın və asan bir yoldur. Orada xüsusi şöbələr, adamlar var, yazanlara məsləhət verir, kömək və hörmət edirlər.

Keçiyev buraya da neçə ay ayaq döydü, amma bir şey çap etdirə bilmədi. Dramanı çətin, tənqidi xatalı, şairləri çox görüb nəsrə keçdi. İlk hekayəsini gəlib-gedənə oxudu. Eşidənlər yorulsa da, o, yorulmadı. Günlərin birində yenə adəti üzrə səhər çayını içəndən sonra özünü Yazıçılar İttifaqına, konsultantın otağına saldı. Bu gün orada adam çox, söhbət şirin idi. Aqil adlı bir toxucu gəncin istehsalat mövzusunda hekayəsi oxunurdu. Əsər qurtarandan sonra yerbəyerdən tərifləḋilər, çapa layiq gördülər. Seksiya rəhbəri zəng edib soruşanda həvəskarlar yeni hekayənin məziyyətlərindən danışdılar. Seksiya rəhbəri telefonda Aqili təbrik elədi, hekayəni bu nömrədə çap etmək üçün tezliklə redaksiya-



ya təqdim etməyi tapşırdı.

Aqil hekayəsini zərfə qoyub jurnala göndərmək istəyəndə Keçiyev fürsətdən istifadə etdi. Yaxınlaşıb öz yazısını göstərdi. "Acizanə" xahiş elədi:

– Yoldaş Aqil, bu hekayə də redaksiyaya çatacaq, icazə verin sizin zərfə qoyum, aparsınlar!

Aqil etiraz eləmədi.

Hər iki hekayəni jurnal redaksiyasında oxudular. Birincini bəyənib çapa layiq gördülər. İkincini kənara qoymaq istədilər. Redaksiya üzvlərindən biri, üzüyumşaq yazıçı, söz alıb zəif hekayəni də müdafiə elədi:

– A yoldaşlar, Aqil sağ olsun, gözəl hekayə yazıb, oxucular şübhəsiz sevinəcək. Mən güman edirəm, Aqil təzəhəvəsdir, yaxşı hekayənin xatirinə bir zəif hekayəni də çap eləmək olar. Cavan yazıçının, əlbəttə ki, hər yazdığı şedevr olmaz. Mənim zənnimcə ikinci hekayəni də buraxmaq olar, qoy cavan yoldaşın xatiri xoş olsun. Zəif cəhətlərini tənqidimiz qeyd edər, müəllif də bunları nəzərə alar, səhvlərini düzəldər.

Yaxşı əsərlə yanaşı ikinci hekayə də çapa getdi. Ancaq, Həpir Keçiyevin yox, Aqilin hekayəsi kimi çapa getdi.

Jurnal çıxandan sonra oxucular təəccüb edirdilər ki, belə yaxşı hekayə ilə yanaşı, zəif bir yazını çap eləmək nəyə lazım imiş? Hamı Aqili təbrik edir, həm də danlayırdı. Aqil oxucuları başa salırdı ki, "ikinci" hekayə mənim deyil, ayrı yoldaşındır. Səhv olub ki, imzasız gedib.

Zəif hekayənin müəllifi Həpir Keçiyev bir müddət sükut elədi, səsini çıxarmadı, ancaq sonra papağını qabağına qoyub fikirləşdi.

"Ey dili-qafil, sən nə durmusan?

Kişilər mənə hörmət edib, əsərimi çap eləyiblər. Tənqidçilər də məni, necə bir gənc yazıçıya kömək məqsədi ilə tənqid edirlər. Daha burada gizlənməyin adı yoxdur. Mərd-mərdanə meydana çıxmaq, talantı büruzə vermək lazımdır..."

Həpir redaksiyaya məktub yazıb, qayğıkeş sovet mətbuatına minnətdarlığını bildirdi, hekayəsinin qüsurlarını "kommunistcəsinə" boynuna aldı, tənqidçilərə göstərişlərinə görə xüsusi təşəkkürünü bildirdi.

Əlaqədar tənqidçilər də, həyatda çox az təsadüf etdikləri yazıçı eti-

rafından ruhlanıb zəif hekayəni müasirlik mövqeyindən, elmi hökmlər, məntiqi düsturlarla dönə-dönə təzədən təhlilə başladılar.

Həpir isə qəzet, jurnalda hekayəsi haqqında söhbəti xüsusi bir sevinclə qarşılayır, işini-peşəsini buraxıb ancaq ədəbi görüşlərə, dərnəklərə, iclaslara, məclislərə gedir və hamısında da söz alır, çıxış edib ədəbi tənqidin "öz yaradıcılığına olduqca müsbət təsirindən" müfəssəl danışırdı.

Çox çəkmədi ki, məsələ böyüdü, Həpirin yaradıcılığı haqqında söhbət dərnək çərçivəsindən çıxıb ədəbi aləmə düşdü. Həpir çıxış edib öz müasirlərinə yeni əsərlər yazacağını vəd edirdi. Xüsusi səy və məharətlə çalışırdı. Tənqidə təşəkkür edir, öhdəsinə vəzifələr götürürdü. İş o yerə gəldi ki, nəsr bölməsində Həpirə yaradıcılıq ezamiyyəti verdilər.

Həpir işdən çıxdı, bir avtoruçka, bir papka ağ kağız götürdü, Mərdəkanda yazıçılar evində rahat guşə tapıb, yaradıcılığa başladı.

Birinci yazısı aşpazdan şikayət oldu. Görünür, aşpaz onun iştahasının tələblərini ödəyə bilmir, yaradıcılığına mane olurdu.

Bu gənc nasirin şikayətini nəzərə alıb aşpazın məsələsinə baxanda, yazıçının özünün aşpazlıq işindəki məharəti meydana çıxdı. Hekayələrinin müntəzəm çap olunduğu təqdirdə aşpazlığı ictimai əsaslarla öz öhdəsinə götürməyi Həpir boynuna aldı.

O gündən bəri sanatoriyanın xörəkləri Həpirin zövqündən, Həpirin hekayələri də mətbəx səliqəsindən kamilləşirdi.

Bütün bunların nəticəsində mətbəx işləri ilə ədəbiyyat işlərinin vəhdəti möhkəmləndi. Həpirin təcrübəsindən bəziləri istifadə etməyə, ədəbiyyatı zənginləşdirməyə başladılar.

Həpirin ədəbi mövqeyi müəyyənləşməyə doğru gedən günlərdə, qəzanın işinə bax, Yazıçılar İttifaqının sədri xəstələnib Mərdəkanda sanatoriyada yatmalı oldu. Həpir bu hadisəni eşidən kimi, "fürsətdir" deyib, birinci olaraq özünü xəstənin yanına saldı.

Əlindəki şirniyyat qutusunu stolun üstünə qoyub ədəblə salam verdi. Sədrin kefini soruşdu. Pəncərədən boylanıb xidmətçiyə acıqlandı ki:

– Bura niyə bir dəstə gül qoymayıbsan, təzə pərdə niyə asmayıbsan?





Həpir səhər demir, axşam demir, gündə neçə dəfə xəstənin yanına gəlir, əhvalını soruşur, dərmanlarını yoxlayır, ədəbiyyatdan söhbət salır, öz hekayəsi haqqında tənqidi mülahizələr yazanların adını çəkirdi.

Sədr belə bir adam haqqında eşitsə də, məsələdən xəbərsiz idi. Nəsr bölməsinin rəhbəri gələndə soruşdu:

– Həpir kimdir?

– Keçiyev?

– Bilmirəm, nəyevdir.

– Həpir Keçiyevdir. Yeni yazandır.

– Nə yazır?

– Bir hekayəsi çıxıb, mübahisəyə səbəb olub.

– Mübahisə nə üstündə gedir?

– Həpirdən yazan çıxar, ya yox?

– Bu çox vacib mübahisədir?

– Məncə, mübahisəni Həpir özü təşkil edir.

– Bəs siz necə?

– Biz də nəticəsini gözləyirik.

– Bundan nə nəticə çıxmalıdır?..

– Həpir ərizə verib, ittifaqa girir.

Sədr müsahibinin üzünə mənalı baxdı və dedi:

– Xahiş edirəm hekayəni də, mübahisə eləyənlərin yazılarını da sabah mənə çatdırın, oxumaq istəyirəm.

– Yoldaş sədr, xəstəsiniz, sizə oxumaq olmaz.

– Belə mübahisəni başına buraxmaq da olmaz.

– Özümüz oxuyub yekun vurarıq.

– Yox, mən də bilim, materialları mənə çatdırın!

Həpirin ətrafındakı danışıqları öyrənəndən sonra yazıçıların qəzetində sədrin bir məqaləsi çıxdı:

"Ədəbiyyatı avaralardan qorumalı!"

Həpir indi sədri də, nəsr bölməsini də, tənqidçiləri də "ifşa eləmək" üçün böyük idarələrə bir neçə surətdə, variantda, dildə ərizə yazıb. Sədrin məqaləsi çıxan günün səhəri Həmkarlar İttifaqının mədəniyyət bölməsində hesabat iclası oldu. Birinci çıxış eləyən Həpir

Keçiyev idi. O, Yazıçılar İttifaqını və Həmkarlar İttifaqını təqsirləndirirdi: "Yeni yaranan talantlara qayğı göstərilmir, mənim hekayəm çıxan gündən neçə dəfə söhbət açılıb, hələ bir rəhbər işçinin təbrikini görməmişəm, heç mənə bir medal da verilməyib. Bu nəyi göstərir, yoldaşlar? Yaxşı olar ki, bizim təşkilatımız bu mühüm məsələ ilə dərindən maraqlansın, barmaqarası baxmasın!"

Camaat bunların hamısını görür və bilir. Ancaq bir şey aydın deyil ki, on səkkiz ay əvvəl işdən çıxan, heç yerdən maaş almayan Həpir nə ilə dolanır? Poçta, teleqrafa, maşına xərclədiyi bu pulları haradan alır. Bu məsələni nə yazıçılar bilir, nə oxucular. Bunu bir Həpir bilir, bir də onun Allahı.

*1964*



# NİYƏ OVDAN AYAQ ÇƏKDİM

Bu da bir azardır. Biri içkiyə, biri qumara, biri nərdtaxtaya, biri rəqs meydançalarında oynamağa, biri quşbazlığa, biri futbola qurşanır.

Mən də ovçuluq azarına tutulmuşdum. Havada quş uçanda pişik kimi diksinib atılırdım. Başımdan ağrı tuturdu: "Bay, səni yarımayasan!"

Güman edirdim ki, gördüyüm quşları ovlamamaq, vurmamaq mənim üçün həm qəbahət, həm də acizlikdir. Eşidən, görən deyəcək, evdə iki-iki ov tüfəngi, özü igid adam, di gəl, əlindən bir iş gəlmir, əfəldir.

Bu fikir-xəyal, məni, demək olar, çöllərə salmışdı. Qazandığımı barıta, patrona verib çantama doldurur, hər istirahət axşamı maşına oturub şəhərdən çıxır, rayonlara düşürdüm.

Kənd, kəsək, dərə-təpə demirdim. Dəniz sahillərində, dağlıq rayonlarda məni müəllim kimi tanıyan yox idi. Kimdən soruşsan, ovçu Kazım deyərdilər. "Ovçu Kazım odu getdi, ovçu Kazım budu gəldi". Hər yerdə düşərgəm var idi.

Ovçular özü də cürbəcürdür. Biri əsəb xəstəliyi ucundan, təmiz hava deyib çöllərə düşür. Biri bu peşədən qazanc götürür, bir başqası canavar, tülkü, qaban kimi vəhşi heyvanları qırmaqdan həzz alır.

Məndə bu arzuların, nə bilim hansı var idi. Əslində heç biri yox idi. Necə və nə üçün ovçuluğa qurşandığımı özüm də müəyyən edə bilmirdim. Bəlkə aldığım silah, həvəslə oxuduğum kitabçalar, gördüyüm kinolar bu yola salmışdı. Bilmirəm hansı idi, ancaq on ilə yaxın idi ki, bu yola düşmüşdüm.

Düşmüşdüm, özü də yaman düşmüşdüm. İki otağımın biri yaşamaq yerim, məskənim, ikincisi, necə deyərlər, ovçuluq laboratoriyam idi. Burada qaban dərisi, qalın kürk, qulaqlı papaq, yun şal, boğazlı çəkmə, patrondaş, dəri torba, açarlı çanta, canavar əli, ceyran buynuzu, quş qanadı, xülasə, nə desən tapılardı. Özümdən başqa kimsə bu otağa girməzdi. Girsə də baş çıxarmazdı. Anam mənə yalvarardı ki, oğul, otağı heç olmasa, ayda bir süpürsən yaxşı olar...

Onu deyim ki, mən ova gedəndə mənfəət, ya qənimət düşünməzdim. Yeməli quşları, heyvanları yox, qabağıma çıxanı vurardım, bəzən qurbanımı heç götürməzdim. Vurduğum dovşan, ya tülkünü, tüfəngin lüləsi ilə o yan-bu yana çevirib düz nişan almağımı yoxlar, snayper əsgər kimi öyünüb ötərdim.

Ovçuluğun bir qaydası da var: nədənsə adam, rəhmsiz, qansız olur. Silah yaman şeydir. Adamı bərkidir, ürəyini daşa döndərir. Tüfəng əlimdə çölə çıxdımmı, dünyasında mərhəmət bilməzdim. Vurub yerə sərməyə bir canlı axtarardım. Eyib eləməsələr, yəqin ki, yol ağzında eşələnən, qaqqıldaşan toyuğu, xoruzu da nişan alardım. Çölə çıxanda bir gün ov tapmasam, inanın ki, yəqin dərdə düşərdim. Nə isə, mənim günlərim belə keçərdi... İndi, yoldaşlar məndən soruşarlar ki, niyə tərgitdin, niyə ondan əl çəkdin. Nə sayaq oldu?

Bu sirri heç kəsə deməmişəm. Deməzdim. Ancaq indi daha yaşımın keçmiş vaxtında söz ürəyimdə qalmasın, qəbrə getməsin deyə, açıram. Qoy başıma gələni yoldaşlar da bilsin, nigaran qalmasınlar. Dünyadır, bilmək olmaz!

Belə oldu. Yaxşı yadımdadır, yaz idi. Aprelin axırı, ya mayın əvvəlləri, bəlkə də ortaları idi. İydə çiçəklənmişdi. Zəmilər ətir iyi verirdi.



Yenə ova çıxmışdım. Gəncə çayının solunda Şeyx düzü deyilən geniş bir səhra uzanır, ucu gedib kiçik Qafqaz dağlarının ətəklərinə dayanır.

İndi o yerlərin bir hissəsində şəhər salınıb, bir hissəsində də dəmyə taxıl əkilib. O il bərk yağıntı olmuşdu. Sünbül adama boy verirdi. Qoşalülə çiynimdə, axtara-axtara zəmiləri addımlayırdım. İtim də yanımda yox idi. Yaralanmışdı, aparmırdım. Nə başınızı ağrıdım. Birdən, deyəsən, yerdən çıxdı. Xına rəngli bir ceyran dayanıb lap üzümə baxırdı.

– Ay aman, tez ol, qaçar!

Cəld tüfəngi aşırıb nişan aldım.

O qəribə idi ki, ceyran lap on addımlıqda üzü mənə sarı şax durmuşdu, baxırdı, görürdü, amma tərpənmirdi. Sanki, o da məni saymırdı. İnanmırdı ki, mənim əlimdən bir iş gələ.

Heç əyilmədim. Ayaqüstü, tüfəngi sinəmə söykədim, başını nişan aldım. Güllənin açılmağı ilə heyvanın aşırılmağı bir oldu. Güllə səsindən sonra həzin bir mələrti eşitdim. Bu nə idi? Başından vurulmuş ceyran mələyirdi? Yox!

Diqqət eləyəndə nə görsəm yaxşıdır. Ceyranın iki balası otun içindən qaçıb yamaca dırmaşdı.

Ana ceyranın qarnına baxanda gördüm ki, yazıq balalarına süd verirmiş. Ay yazıq! Balalar, rahatca durub əmdiyi yerdə, ana cəlladını görmüşdü. Görmüşdü, ancaq balasını əmizdirmək üçün dayanmış, tərpənməmişdi.

Böyrü üstə sərilmiş ceyranın axırıncı ürək döyüntülərini aşkar görürdüm. Görürdüm ki, yazıq heyvan, balalarından nigaran, həsrətlə can verir.

Deyəsən, o səssiz, sakit çöldə üfüqlərdən, torpaqdan, tarlalardan hey qulağıma bir səs gəlirdi:

– Qansız! Ərkansız cəllad. Bizlərdə yanıqlı mahnı oxuyurdular:

*Aman ovçu, vurma məni,*
*Mən bu dağın maralıyam!*

Bu yaşa gəlmişdim, dava meydanlarına da düşüb-çıxmışdım. Ömrümdə mən belə peşmançılıq, ürək ağrısı, vicdan əzabı çəkməmişdim.

Mələr qalmış balaların dalınca xeyli baxdım, onlar bir xəyala döndülər. Özləri kimi sütül sünbüllər arasında yox oldular. Yəqin ki, tarlalar onları gizlətməsə idi, anaları kimi hansı bir cəllad ovçunun zavalına gələcək idilər.

Elə bil başımdan bir çən dağ su tökdülər. Ceyrana əl vurmadım. Heç baxa bilmədim. Qan-tər içində düz geri qayıtdım. Tüfəng-qatarı bir yana atdım, o gündən tövbə elədim. Bir də mən, ovçuluq?

– Ay tövbə!

Ov şeylərinə əlimi də vurmadım. Anam onları bilmirəm neylədi, otağı güclə təmizlədi.

Mənim ovçuluğum belə qurtardı.

*1964*



# MƏN DEYƏN

Adamın imkanı olaydı, adını özü qoyaydı, dəftərə, pasporta da özü salaydı. Yoxsa mənim kimi?

Rəhmətlik atam mənə ötəri bir ad qoyub! Əmirqulu. Başı ağa, ayağı nökər! İkimərtəbə, özü də başı bir cür, ayağı ayrı cür. Hərə bir ucundan yapışıb çəkir. Axırda Qulu sözü olmasaydı, hansı köpəkoğlu məni o cür çağıra bilərdi? Dünənin uşağı məni Qulu çağırır.

Yox, gərək qəzetdə elan verəm, xərc qoyam, Qulunu üstümdən götürəm.

Bunlar Əmirqulunun çoxdankı arzusu idi, amma yerinə yetirə bilmirdi. Görürdü ki, işçilərin çoxu adını tamam-kamal çağırır. Bəzisi də Əmi Qulu deyir, Qulu deməyi bu arteldə dəb saldılar, özü də tabelçi Səkinə arvad. Sonra da mərdimazar uşağı götürdü. İclas demir, konsert demir, bufet demir, hər yerdə yoldaş Qulu, yoldaş Qulu! Mən boyda adama, idarədə böyük-kiçik də Qulu?!

Qulunun daşı düşsün başıva! Necə ki düşüb!

Bəzi adamlara bu söhbətlər yüngül, bəlkə də gülünc görünər. Am-

ma yox, Əmirquluya haqq vermək lazımdır. Bu ləqəblər ona ağır gəlir. Çünki, onun nə işinə, nə görkəminə yaraşır.

Əmirqulu rəhmətlik atasının vəfatından sonra bu ailənin ağası olub. Böyükdən-kiçiyə hamı onun qabağında müntəzir dayanıb. Sonra da boyaqçı artelində işləyəndə bir sözünü iki eləyən olmazdı.

– Yoldaş Əmirqulu!

– Əmir yoldaş!

– Əmir qağa!

Bu lap ürəyindən idi. Özü də kağıza qol çəkəndə adını bu cür yazırdı: Əmir.

Axırıncı hərfin quyruğunu bir az da uzadıb kəmər kimi hərləyirdi. Bu həm asan, həm də xoş idi. Bunu yazanda elə bilirdi vacib əmrlərə qol çəkir.

Adının ixtisarlı deyilməsini istəyirdi. Ancaq bu ixtisar başdan yox, ayaqdan olsa xoş idi.

Əmirqulu evdə zabitəli idi, həmişə sözünü yeridir, heç bir maneçilik görmürdü:

– A qız, dediyimi bişirmisən?

– Bəli, hazırdır.

– Məsmə, mən deyəni aldın?

– Bu saat, buyurun, baxın şkafın üstündədir!

– Tapşırdığım necə oldu?

– İki dəfə getmişəm, dərzi deyir sabah tezdən gətirəcəyəm.

– Dalınnan ol, sabah geyməliyəm!

Əmirqulu bu adətilə də idarəyə, boyaqçı artelinə gəlmişdi. Özü də rəis gəlmişdi. Çünki ayrı cür gəlməzdi. Ancaq rəis gələ bilərdi. Gəldi, özü də rəis kimi qarşılandı.

Otağın qapısında bu sözlər yazılmışdı: rəis. Dayanıb xeyli baxdı, katibəni yanına çağırdı:

– Qız, bizim idarə hər şeyə boyaq vurur, bəs niyə qapıdakı yazı belə sönükdür?

– Necə yəni, yoldaş rəis?

Əmirqulu keçib qapının qabağında durdu, əli ilə yazını göstərdi:

– Bu nə yazıdır, qız, karton nədir, bir tikə metalın üstündə niyə



yazmırsınız. Kvadrat kəsilmiş, rəngli metala nə gəlib?

– Baş üstə, tapşırığınızı...

– Hələ baş üstə deməyin tezdir, dalısına qulaq as!

Katibə dayanıb müntəzir, qətiyyətlə rəisin üzünə baxdı. Əmirqulu sol əlinin barmaqlarını bir-bir bükə-bükə tapşırıqlarını saydı:

– Sahmanlı bir metal üstündə, özü də yaxşı rənglənsin. Sonra da ki rəis! Rəis burada çoxdur, neçə nəfərdir?

Qız gülümsəyib müsahibinin üzünə baxdı, kinayəsini anladı:

– Yoldaş Əmirqulu, bu nə sözdür, bizim bir ağamız var, o da sizsiniz.

– Yaxşı, mənim adım var, ya yox?

– Əlbəttə.

– Adımı yazdır, yaxşı xətt ilə yazdır. Yapışdır ora. Qoy gələnlər bilsinlər ki, kim ilə görüşür, kim ilə danışırlar.

– Baş üstə.

– Baş üstə olunca, qoy olsun əl üstə. Yübanmasın, yeri! Get işinin dalınca!

Əmirqulu gözləyirdi ki, bu gün olmasa da, sabah, uzağı o biri gün kabinetinin qabağından rəngli, yaraşıqlı lövhə asılacaq və yəqin ki, orada yalnız rəis sözü yox, rəis filankəs yazılacaq.

Amma, deyəsən, heç səs-səda yox idi. Nə gələn, nə gedən, nə lövhənin ölçüsünü götürən, nə eskizini gətirən var idi. Zəngi basıb katibəni çağırdı, gələn olmadı. Rəis dəhlizə çıxıb, sanki havaya sual verirdi:

– Yoldaş Əmirqulu, qız rəssam dalınca gedib, sizin qapının lövhəsini düzəldir, deyəsən rəng seçir, məsləhətləşirlər.

Rəis dinməz-söyləməz geri qayıdıb yerində oturdu, dəstəyi götürüb telefon eləmək istəyirdi ki, katibə gəldi. Rəisin onu soruşduğunu eşidib tövşümüş özünü kabinetə saldı:

– Bunlarla iş görmək çətindir. Yoldaş rəis, deyən gündən məşğulam, bir səhər gedirəm, bir axşam!

– Hələ hazır deyil?

– Məşğulam.

– Necə məşğul, yəni hazır deyil?

– Mane olurlar.

Rəis ayağa durdu, gözləri balacalanmış halda təəccüblə yücudunu qabağa əyib hirslə soruşdu:

– Kim? Kim mane olur, qız?

– Hesabdar.

– Necə? Hesabdarlıq nə iş var burada, canım?

– Hesabdar deyir, ad yazmaq olmaz.

– Mənim adımı yazmaq olmaz?

– Elə çıxır!

– Niyə yazmaq olmaz?

Əmirqulu hirslə qapını açdı, xidmətçi qadını səslədi:

– Xala, hesabdarı bura çağır, Qənbəri.

İki dəqiqə keçməmiş Qənbər gəldi, katibəni rəisin qabağında görüb anladı ki, bu nə məsələdir.

– Ə, Qənbər, sən bu işlərə niyə mane olursan, hesabdarsan get çötkə vur, nə işin var bu rəssam işində?

Qənbər rəisini hirsli görüb söhbəti mülayim yola salmaq istədi:

– Yoldaş Əmirqulu, mən heç rəssamı görməmişəm.

Rəis üzünü katibəyə tutdu. Katibə Qənbərə sarı döndü:

– Lövhəyə pul buraxmırsan ey, onu deyir!

– Niyə buraxmıram. Beş manatlıq lövhəni əlli manata deyəndə, əlbəttə ki, buraxmazlar.

– Rəssam böyük lövhə yazır axı, ad-familiyalı filan.

Qənbər rəisin üzünə baxdı:

– Yoldaş Əmirqulu, mən demişəm elə lövhə yazın səliqəli olsun, ayda-ildə bir dəyişməsin. Ad-famil nəyə lazımdır?

Əmirqulunu od götürdü. Gövdəsini düzəldib gözlərini hesabdarın üzünə zillədi:

– Sən mənim adıma qulp qoyursan, Qənbər?

– Xeyr, sənin adına da, familinə də hörmətim var. Dediyim odur ki, qapı lövhəsində ad olmaz.

– Niyə olmaz?

– Çünki, sabah rəis bəlkə ayrısı oldu, onda gərək bu lövhəni ataq.

– Atanda nə olar?



– Bizi dövlət pulunu göyə sovuran adlandırarlar.

– Əşi nağıl danışma, get çekə qol çək, iş gör. Dövlət pulunun dərdini mən çəkirəm, iyirmi ilin partiyaçısı! Biz olan yerdə Qənbəri dindirən olmaz. Yeri işinə!

– Yoldaş rəis, əsl vacib lövhəni unutmuşuq. İdarənin qapısında artelin adı gərək əməlli-başlı yazıla, buna nə deyirsən?

– Yazılsın da!

– Bir aləm pul istəyirlər, haradan verək. Bu kvartal idarə xərcinə cəmi əlli iki manatımız qalıb.

Əmirqulu sağ əli ilə rədd işarəsini verdi:

– Əşi, Qənbər, get mən deyən lövhəni düzəlt, sonra o birisinin dərdini çək! Ölünü bir-bir yuyarlar, canım! Yeri, yeri!

Qənbər tərpənmədi. Dayandığı yerdə elə durmuşdu, deyərsən kişini mıxlayıblar.

Rəis təəccüb elədi:

– Kişi, niyə durmursan, eşitmirsən?

– Eşidirəm, qulaqlarım, şükür ki, kar deyil! Ay yoldaş Əmirqulu, axı sən eşitməli söz demirsən. İdarə qapısında lövhə olmuya-olmuya, gəlib-gedən ünvanı axtara-axtara, mən sənin kabinetinə necə lövhə yazdırım, a başına dönüm, bunu mən hara yazım?

– Heç yerə yazma! Pulunu ver, al!

– Onu mən eləyə bilmərəm!

– Necə bilməzsən, ə, rəis əmr eləyir!

– Çox da ki, əmr eləyir!

– Əmri yerinə yetirmirsən?

– Belə əmri yox!

– Necə yox, bu saat sənin mitilini bayıra qoyaram!

– Yoldaş Əmirqulu!..

Qənbər dalısını demək istəmədi. Əmirqulu hesabdarın kəkələdiyini görüb qeyrətə gəldi:

– Adə, qulaq asmayanı bir saat mən arteldə qoymaram!

Qənbər rəisinə dik-dik baxdı, cavabını verdi:

– Nə başarırsan elə!

– Deməli, qulaq asmayacaqsan?

– Qanunsuz işə yox!
– Rəisin sözü sənə qanun deyil?
– Yox!
– Deməli, mən burada ixtiyar sahibi deyiləm?
– Sən də mənim kimi bir işçisən.
– Mən rəisəm!
– Doğrudan, rəis vəzifəsindəsən?
– Özüm necə?
– Onu danışarıq!

Rəis özündən çıxdı, katibəni çağırıb əmr kitabçasını istədi:

– Bu saat əmr yaz, hesabdar Qənbər Şərif oğlunu işdən xaric edirəm. Mənə belə hesabdar lazım deyil!

Katibə dinmədi, gah rəisə, gah hesabdara baxa-baxa durdu. Rəisin hirsi soyumadı, kitabçanı alıb son vərəqində bir cümlə yazdı və altından qol çəkdi:

– Bu gündən xaric olunsun!

Üzünü Qənbərə tutdu:

– Sabah gəlib haqq-hesabını alarsan. Açar-maçarı ver katibəyə, xoş gəldin!

Sabah rəisi Həmkarlar Komitəsinə çağırdılar.

– Yoldaş Əmirqulu, siz deyəsən, çox əsəbi adamsınız.
– Məni əsəbiləşdirirlər, yoldaş həmkarlar komitəsi!
– Yox, əsəbiləşmək lazım deyil! Qənbərlə işiniz olmasın, qoy işləsin, çoxdanın təcrübəli hesabdarıdır.
– Mən onu xaric eləmişəm!
– O işləməlidir.
– Onda mən?
– Sən də işləyə bilərsən.
– Yox, mənimki Qənbərlə tutmaz!
– Onda sənə başqa yerdə iş taparıq.
– A kişi, bəs başqa yerdə Qənbərə niyə tapmırsınız?
– Qənbər buranın köhnə işçisidir, qanun-qaydanı da yaxşı bilir.
– Elə çıxır ki, mən qanun-qaydanı pozuram?
– Səni başqa yerə keçirərik. Təcrübən-zadın artsın. Sonra baxarıq!



– Deməli, mən Əmirqulunu Qənbərin ayağına verirsiniz?
– Burada ayaq, baş məsələsi yoxdur. Qanun var, siz qanunsuz iş görmüsünüz, Qənbər də mane olub. Onun bir təqsiri yoxdur! İşdən niyə çıxsın?
– Deməli, təqsirlər hamısı məndədir?
– Elə çıxır.
– Bəs belə?!

Əmirqulunu arteldə kiçik işə, sexə keçirdilər. Adı da, mən deyən, qaldı!

– Kim idi gələn?
– Mən deyən!
– Danışan kim idi?
– Mən deyən!

Bu sözü Əmirqulu nə vaxt, harada eşitsə acığı tuturdu, amma ixtiyarsız, hamıdan tez dönüb baxırdı.

– Ay mən deyən!
– Bəli, nə buyurursunuz?
– Görmürsən gələn var, qapı ağzında nə yastılanıb qalmısan, ay mən deyən, çəkilib getsənə!

Əmirqulu heç vaxt güman etməzdi ki, işlər belə dəyişəcək, onun sözünü saya salan olmayacaq:

– Ay səni mən deyən olasan, fələk! Mənim kimi mən deyən olasan!

*1964*

# MƏN NECƏ HƏKİMLİK ÖYRƏNDİM

Qəzetçilər demişkən, bunu həyat özü mənə öyrətdi. Başağrısı olsa da, əhvalatı başdan danışım.

Mənim Tağı deyilən bir yaxşı qonşum var, sizdən uzaq olmasın, aramız lap yaxındır. Bu da qohumluq, dostluq mənasında yox, tarixi yaxınlıqdır.

Təzə evlər paylananda ərizə çox idi. Mümkün olmadı, bizim ikimizə bir mənzildə otaq verdilər. Dörd otağın ikisi Tağıdadı, ikisi məndə. Köçüb oturmuşuq, bir qonşu kimi biz pis də dolanmırıq. Mətbəx, vanna, filan, doğrudur, şəriklidir. Amma çalışırıq ki, narazılıq, ixtilaf olmasın. Arvad-uşağı da öyrətmişik. İndiyəcən bu barədə nə qonşumun, nə mənim ailəmdən şikayət çıxmayıb. Hətta, deyirlər, ev idarəsi bizim mehriban yaşamağımızı çoxlarına misal çəkir, bəzi mənzillərə təzədən qonşu salmaq istəyir.

Mən dərziyəm, qonşum hesabdar. Mehriban qonşu olsaq da, nə mən onun süfrəsində, nə o mənim süfrəmdə oturur. Nahar vaxtı hər kəs öz otağına çəkilib olandan, olmayandan yeyir, içir, qalxır ayağa.

Ancaq dünyada hərənin bir işi, bir arzusu, bir dərdi olur. Hesabdarlıq peşəsi elədir ki, qonşumun qabağından çötkə, kağız-kuğuz əskik olmur. İşdən gələndən sonra da evdə görürsən, hey yazır, pozur. Adamı görəndə başı ilə salam işarəsindən başqa bir şey demir. Kənardan baxan güman edər ki, bu kişi çox nəcib, bir az da məxfi işlərlə məşğuldur, çalışır ki, sirlərini bilən olmasın.

Məxfi deyəndə, bəlkə, mən səhv edirəm. Göyərti artelinin hesabdarında nə məxfilik, nə sirr olacaq?

Amma Tağını görən adam elə düşünməz. Onun gözlərindəki iri gözlüyü, qaşqabağındakı tünd ifadəni, yerişində, baxışındakı ehtiyatı görəndə adamı vahimə basır.

Deyərsən, bu kişi lap sirr dağarcığıdır. Hərdən görürəm, Tağı işə getməyib. Evində qurdalanır. Arvadı bizə eşitdirir ki, "kişi xəstələnib".

Xəstə olanda da, şükür, bizim aləmdə dərhal həkim çağırırlar, dava-dərman eləyirlər.

Evdə telefon var, istədim xəstəxanaya zəng eləyim, Tağının xanımı razı olmadı:

– Həsən qardaş, lazım deyil, elə bir naxoşluğu yoxdur, hirslənib! Bir az sakitləşəndə keçib gedəcək, həkim-zad istəməz. Tağının xasiyyətidir.

Mən güman etdim ki, ər-arvad arasında, yəqin, söhbət olub, sözləşiblər, kişi əsəbiləşib. Daha üz vurmadım, zəng eləmək istəmədim.

Axşam yoldaşım mənə xəbər verdi ki, Tağının azarı nə imiş:

– Bilirsən Tağı niyə naxoşlayıb?

– Deyəsən, arvadla dalaşıb.

– Yox, dalaşmayıb, ayrı şeydir!

– Nədir, nə olub?

– Tağı sənə görə naxoşlayıb.

– Mən neyləmişəm ona?

– Səndən olub azarı.

– O nə deməkdir?

– Bəli, sənə görə kişi düşüb yorğan-döşəyə.

– Mən ona nə pislik eləmişəm?

– Pislik eləməmisən, eşidib ki, sənə mükafat veriblər.

– Kim danışıb?

– Bilmirəm kim danışıb.

– ...

– Yəqin oxuyub.

– Yəqin qəzetdən oxuyub, oxuyan kimi xəstələnib.

– Qəribə adamdır. Mənim mükafatımın ona nə ziyanı?

– Elə demə, Həsən, o yaman ürəyinə salır. Arvadına deyirmiş ki, mən bədbəxtəm. Adamım yox, yada salanım yox, amma gör allahın kostyum tikəninə hökumət mükafat verir.

Doğrusu, bu sözə inanmadım, inanmaq istəmədim.

Arvadım bunu görüb əhvalatı bir az müfəssəl danışdı:

– Sən bilsən ki, hesabdar necə paxıllıq çəkir, belə sözə inanarsan. İki ildir burada bizim yaşamağımız ona yekə bir dərd olub. Uşağa təzə kostyum alıram, görürəm damağı pozuldu. Mətbəxdə qazan asıb beş adam çağırıram, görürsən arvadı ilə dalaşır. Bu evə piano gələndə də Tağı yıxıldı, yorğan-döşəyə düşdü. Sən xəbər tutmadın, onda Mərdəkana getmişdin! Kişinin ah-ufu dəhlizə sığışmırdı.

Bu söhbətdən sonra mən Tağını yaxşı tanımağa, onun səhhətinə toxunmamağa çalışırdım. Amma, özümdən asılı olmayaraq, bəzən kefini pozurdum.

Növbəti məzuniyyət vaxtımda Kislovodskiyə putyovka almışdım. Dəhlizdə qabaq-qabağa gələndə Tağı hirslə məndən soruşdu:

– Qonşu, səfərin var, nədi?

Mən cavab verməmiş Tağı sualında davam elədi:

– Putyovkanı haradan almısan?

– Almamışam, Həmkarlar İttifaqından veriblər.

– Yəqin ittifaqın hesabına veriblər?

– Bəli, ittifaqın hesabına!

– Deməli, müftə?

– Pulsuz!

Bunu dediyimi gördüm. Tağı, başına yumruq dəymiş adamlar kimi tez geri qayıtdı, hirslə otağına təpildi.

O yatan, üç gün yatdı. Arvadı sağa keçib mənə qarğış eləyir, sola keçib Həmkarlar İttifaqını söyürdü.

Mən Tağıya kömək eləmək məqsədi ilə onun yanına gedib təsəlli



verdim:

– Qonşu, sizə putyovka lazımsa, mən gedim danışım, xahiş eləyim?

Tağı düşmənini görən adam kimi cəld yatağından qalxıb oturdu, çeşməyini taxıb üzümə dik-dik baxdı:

– Yoldaş Həsən, çox sağ ol! Mənə putyovka-zad lazım deyil. Mən azarlasam da, yatağımda ölsəm də, özgələrə zəhmət verməərəm. Mən iyirmi ildir o sayuza vznos verirəm. Oradakı, haşa burdan, əclafa deyəndə mənə yalan satır. "Hələlik, deyir, Kislovodskiyə putyovka almamışıq." Yalan satır, gözüm görə-görə! Eybi yoxdur. Siz gedin, yaxşı yol. Biz hesabdarlara da yəqin Allah bir yol açar. Siz gedin sərinləyin, qonşu! Bizim barəmizdə narahat olmayın! Kasıbın da bir sahibi tapılar. Allah qoysa, işlər belə getməz! Niyə, bəyəm, bizim sayuz dərzilərin sayuzundan əskik oldu? Görsün, orada Əbilovdu, nə zibilovdu, onun başına bir iş gətirim, əlləzinəni əzbərdən oxusun. O mənim əlimin zərbişəstini görməyib. Eybi yoxdur, görər, görər, onda başa düşər ki, Tağıya yalan satmaq nə deməkdir.

Tağı gözünü yumub, ağzını açmışdı. Ürəyindəkiləri fəvvarə kimi çölə tökürdü. Həmkarlar komitəsini, idarəni, həkimləri, ailəni bir-birinə qatmışdı. Ən kəsərli söyüşlər axtarıb tapır, kimin ünvanına gəlsə baxmır, deyirdi. Hərdənbir məni də məsələyə qatıb-qarışdırırdı. Gördüm ki, Tağının yanında mümkün olmayacaq, ya gərək cavab verəsən, onda da mütləq dalaşacaqsan, qonşuluqda yaxşı olmayacaq. Məsələ böyüyəcək. Tez xudahafizləşib getdim.

İndi başa düşdüm ki, bu kişi doğrudan xəstədir. Xəstədir, özü də çoxdanın xəstəsidir. Görünür, içində saxlayır, büruzə vermirmiş. Möhkəmcə xəstədir, köhnə xəstəliyi də ictimai xəstəlikdir. Bəlkə də peşəsi ilə bağlıdır.

Bundan sonra evdə tapşırdım ki, mümkün qədər bizim ailədə baş verən sevincli hadisələri Tağıdan gizli saxlasınlar. Mükafatdır, təzə mebel, paltar alınması, qonaq çağırılması, toy-düyün, tədarük... belə şeyləri Tağı gərək bilməsin. Elə dolanın xəbər tutmasın.

– Tutanda nə olar, qoy neyləyir-eləsin!

– Yox, yazıqdır, naxoşdur, qoy bilməsin!

Həyat yoldaşım təklifimə razı olub dedi:

– Yəqin ki, Tağı bunu istəyir. Görsə ki, bizdə gün-güzəran çətindir, korluğumuz çoxdur, inan sevinəcək, sağlam adam olacaq.

Müşahidələrim də bunu təsdiq elədi. Tağı məni köhnə kostyumda, pərişan görəndə qaşqabağı açılırdı, üzünə gün doğurdu. Sanki ürəyində deyirdi: "Belə düşərsən, bax! Yoxsa qudurmuşdun, indi quş həddinə düşmüsən, mən deyən olmusan!"

Günlərin birində Tağını daha radikal və mütərəqqi bir üsulla müalicə etmək istədim.

İşdən iki aylıq növbəti məzuniyyət almışdım. Bir yerə getmək fikrim də yox idi. Qışın günündə kurort nədi, müalicə nədi. Evdə dincəlməkdən, ailə, uşaqlar ilə vaxt keçirməkdən yaxşı istirahət düşünmürdüm. Tağı ilə əylənməyə vaxtım da var idi.

Fikrimə gəldi ki, fürsətdi, Tağının da kefini açmaq lazımdır. Yazıqdı, qoy qüssə yükündən xilas olsun, qaşqabağı açılsın. Beş gün desin-gülsün, sevinsin, dərd-qəmdən uzaq olsun.

Axşam Tağı işdən gələn kimi salam verib kefini soruşandan sonra ona şad xəbər verdim:

– Qonşu, dedim, məni işdən qovdular!

Qonşum muştuluq xəbəri almış kimi, sevincdən dik atıldı.

– Doğrudanmı?

– Bəli, doğrudan!

– Qovdular?

– Bəli, qovdular!

– Nə əcəb?

– Kənar elədilər.

– Əmrini almısan?

– Sabah qol çəkiləcək!

– Çox yaxşı, çox əcəb!

Tağının gözləri parıldadı, cəld ayağa qalxıb qabağımda var-gəl eləməyə, dübarə kefimi soruşmağa, tanışları vasitəsilə mənə münasib yerdə qulluq təklif eləməyə başladı.

– Necə qulluqdur, yəni mənim əvvəlki yerimdən yaxşıdır?

– Yaxşı-pis, dolanarsan. Necə olsa, gözüm üstündə olacaq, dolanarsan. Yaxşı oldu, əvvəlki qulluğun bir qulluq deyildi. Dərzi babasan, nə var, uşaqlara çörək pulu çıxdı bəsdir.

– Nə deyirəm.

– Hələlik gözlə, adam var, danışaram, sənə xəbər verərəm, kefini pozma! Ancaq heç kəs bilməsin, elə belə, öz aramızda söhbətdir elədik.

– Nə deyirəm.

– Gözlə, səbir elə! Səbir ilə halva bişər, ey qora, səndən!

İki gün sonra Tağı arvadından soruşdu:

– Bu necə işdir, Həsən işdən çıxıb?

– Deyirlər, çıxıb!

– Ay arvad, heç o işdən qovulana oxşamır axı!

– Nədən deyirsən?

– İşdən qovulan elə olar? Kefi ulduza hürür, nə danışırsan? Görmürsən dik-dik dingildəyir!

– Nə bilim? Özün bilərsən, Tağı!

– Bir yaxşı öyrən görək, bu nə işdir! İşdən qovulanın qaşqabağı yer süpürər! Canım, heç belə də işsiz olar?

– Bəlkə süpürəcək.

– Təki olsun, amma hələ ki bir şey görünmür!

– Görünər, kefini kök elə!

– Təki olsun! Bu xəbər düz olsa, sənə bir yaxşı muncuq almaq mənə borc olsun.

Arvad Tağının yalan vədinə gülür, ərinin başına qaxmac tullayırdı.

Tağı nigaran, narahat, intizarlı görkəmini saxlayır, müsahibini inandırırdı:

– Xəbər doğru çıxsa, sənə istədiyin padarkanı almasam, məndən pis adam yoxdur!

– İnanıram, səsini qaldırma, inanıram!

*1964*

# QULLUQÇU HAQQINDA

## (Uşağın təsəvvürü)

Rüstəm xoşbəxtdir. Oturanda yatır. Mənim heç yuxum gəlmir, amma Rüstəm durduğu yerdə yatır. Bir dəfə polu qaşıyanda yuxulamışdı. Nənəm üstünə qışqırdı, oyatdı, yenə tələsə-tələsə polu qaşıdı. Qaşıdı, qaşıdı, birdən dayandı, başladı xoruldamağa. Nənəm yaxasına su tökdü, oyandı, işlədi.

Nədənsə nənəm Rüstəmi yatmağa qoymur, amma məni gətirib salır kravata, üstümü örtür ki, yatım. Mənim də yuxum gəlmir. Mən televizora baxmaq istəyirəm, amma Rüstəm yatmaq istəyir.

Rüstəm çox nağıl bilir. İstəyəndə mənə danışır, amma nənəm qoymur. Nənəm gələn kimi Rüstəm səsini kəsir, başlayır şüşələri silməyə. Mən yanında dayanıram ki, nağıl danışsın, nənəm mənə acıqlanır. Deyir boğazına toz gedər, Rüstəmin yanında dayanma.

Nənəm Rüstəmə quru çörək verir, o da çaya batırıb yeyir, süfrədə heç nə qalmır.

Amma mən yeyə bilmirəm, bulkaları, suşquları tökürlər qabağıma – bunları yeyəsən gərək, yoxsa arıqlarsan! Mən bir dəfə xəlvətə salıb Rüstəmə verəndə nənəm gördü, başladı yazığı söyməyə.

– Qarnına şiş batsın, gedə! Uşağın payına da tamah salırsan! Gündə bir tabaq çörək səni görmür, gözün doymur? Deyəsən, sənin qarnın suxoy xleb çuvalıdır, doldurmaq olmur. Evdə töküləni yeyirsən, yenə bəs eləmir, bilmirəm, səni necə doydurum. Nə iş idi mən düşdüm! Bu dərədən azmışı bu evə kim culadı, görəsən?

Rüstəm həmişə evdə oturur, amma nənəm məni onunla oturmağa qoymur. Geyindirir, qohumların evinə aparır. Kitab oxudur, şəkil çəkdirir, oynamaq öyrədir.

Amma Rüstəmi heç yerə aparmır. Axşamacan Rüstəm həyət süpürür, gülləri sulayır, stulları mıxlayır, kartoşka soyur, zibil atır, xalçaları çayda yuyur. Nənəm qoymur ki, Rüstəm mənə nağıl danışsın.

Məni məktəbə qoyurlar, amma Rüstəmi qoymurlar. Mən ona kitab verəndə, nənəm gəlib əlindən alır.

– Ədə, gözün xarab olar, oxuma!

Rüstəm də qoltuğuna basır, kitabın vərəqləri əzilir.

Mən yazı yazanda Rüstəm gəlib yanımda durur, baxır. Mən qələm verib onu öyrədirəm, nənəm onu da qoymur. Deyir, Rüstəm qoy həyəti süpürsün, qonaqlar gələcək, zibili görməsinlər. Rüstəm kənddə qalsa məktəbə gedəcək idi. Atası öləndən sonra nənəm götürüb gəlib ki, bizdə qalsın. Rüstəm də qalır. Amma tez-tez ağlayır. Deyirəm, niyə ağlayırsan, deyir atam yadıma düşüb.

Srağagün upravdom həyətə gəlmişdi. Rüstəmi danışdıranda yenə ağladı. Mən də ağladım. Nənəmdən xəlvət ağladıq. Nənəmi görəndə upravdom dalaşdı, qışqırışdılar. Kişi nəsə dəftərinə yazdı, apardı.

İndi nənəmi qəzetxanaya çağırırlar. O da Rüstəmi dilə tutur, bulku verir, corab verir.

Rüstəm ağlayıb kəndlərinə getmək istəyir. Atam avtobus pulu verəndə nənəm dalaşdı:

– Buraxma, niyə buraxırsan, beləsini haradan tapacaqsan? Deynən qohumumuzdu, qalmağa yeri yoxdur! Deynən gözləri ağrıyır, şəhərə müalicəyə gəlib. Yaxşı olandan sonra gedəcək.

Nənəm atamla da dalaşdı. Rüstəmin şeylərini gizlətdi, vermədi. Rüstəm ağladı.

Bir də gördük gənclər qəzetində nənəmin şəklini çəkiblər. Nənəmin burnunu çəkmişdilər, özü də nə boyda.

Əlində də oxlov.

Çox gülməli şəkildi. Nənəm baxdı, qəzeti cırmaq istədi, mən aldım, gizlətdim.

Nənəm yaman hirslənib, qəzetxananı axtarır, söyür, qışqırır. Qəzetləri cırır. Qəzetxananın adresini axtarır, deyirlər – uzaqdadı, avtobusların axırındadır.

Nənəm Rüstəmi də götürüb gedəcək. Qəzetçilərlə dalaşacaq.

Atam qoymur, amma nənəm onun sözünə baxmır, dalaşmaq istəyir. Bilirsən, nə dalaşqan arvaddır! Mən ondan çox qorxuram. Atam da qorxur, Rüstəm də! Bizim həyətdə hamı nənəmdən qorxur, onu At Balaxanım çağırırlar.

Bilmirəm niyə deyirlər. Adı ayrı cürdür. Biz nənə deyirik, amma qonşular At Balaxanım deyirlər!

*1964*



# ŞİRİN SÖHBƏT

–Qapını yaxşı ört, saata bax, gör neçədir.

– Mən baxmışam, sən bax!

– Mən də baxmışam, düz on ikini vurur. Qadın xeylağı, indiyəcən haradaydın?

– Bəs, kişi xeylağı, sən haradaydın?

– Mən iclasda.

– Mən də iclasda.

– Sənin nə iclasın var, gecə vaxtı?

– Bəs sənin nə iclasın var?

– Mənimkini özün bilirsən.

– Mənimkini də sən bilirsən.

– Yox, bilmirəm!

– Bilmirsən, bil!

– Sən ailə sahibisən axı, evdarsan!

– Sən də ailə sahibisən.

– Mən qulluq adamıyam, vacib işim olur.

– Mənim də vacib işim olur.
– Deməli, qulluğa girmisən?
– Girəndə nə olar?
– Nə olacaq, körpü qalar çayın o tayında!
– Qalsın görək, qalsın!
– Deməli, sənin ürəyindəndi?
– Sənin ürəyindən olanda, mənim niyə olmasın?
– Sən mənnən qoz-qoz oynayırsan, deyəsən?
– Qoz-qoz deyil, aşıq-aşıqdır bəlkə?
– Deməli, belə başlamısan?
– Belə, bir az da belədən o yana.
– O yan olanda bizimki tutmayacaq!
– Tutmaz, dünəndən tutmasın.
– Nə var, sənin üçün daha yaxşı!
– Yaxşı yox, lap əla!
– Bilirik, sən çoxdanın əlaçısı imişsən.
– İndiyəcən harada yatmışdın?
– Yatmışdım, indi lap ayıldım!
– Get əl-üzünü yu, dünyaya yaxşı bax!
– Baxmışam, çox baxmışam, amma sənin kimisini görməmişəm.
– Şagirdinəm də!
– Allah kəssin belə usta-şagirdliyi.
– Əvvəl ustanı kəssin!
– Belə karxananın ustasını da, şagirdini də!
– Amin, amin!
– Zəhər dilini kəsməyəcəksən?
– Zəhər sifətindən yağır!
– Dur cəhənnəm ol!
– Cəhənnəm yerin, məkanın olsun!
– Lənət sənə, kor şeytan, ha!
– Şeytanın səsi gəlir.
– Sonra da, haşa buradan, yoldan ötənlər deyirlər, filankəs arvadını boşayır.
– Boşamasan, kişi deyilsən.



– Doğru deyirsən, kişi olsam, gecəyarısına qədər arvadla çənə-boğaz vurmazdım!
– Etiraf eləyirsən ki, di köp, otur yerində!

*1964*

# ANA MƏSLƏHƏTİ

–Ana, gündə neçə dəfə çay qoyursan?

– Heç sayı-hesabı var ki, səhər durandan gecəyarısınacan. Maşallah, hey çayniklər dolur-boşalır.

– Dörd-beş kərə çay içilir, bu evdə, ya yox?

– Sözsüz!

– Stəkanlar da, şükür, dözür.

– Niyə dözməsin!

– İçki necə, bizim evdə hər gün olur?

– Hər gün niyə, həftədə bir!

– Yaxşı, həftədə bir. Bəs niyə badə dözmür? Həftə olmur ki, mən təzə bakala pul verməyim. Bunlar niyə tez-tez sınır? Badələrin şüşəsi xarabdır, nədir?

– Şüşədə deyil.

– Bəs nədədir?

– Özün bilmirsən nədədir?

– Bilsəm soruşmaram ki, bəlkə badələri suya çəkəndə çatdadırsan?



– Yox, evdə həmişə isti su var.

– Bəs bunlar niyə tez çatlayır?

– Çatlamasın, neyləsin. Badələri yalan çatladır.

– Nə?

– Yalan!

– Ay ana, sən nə danışırsan? Yalan ürək sındırar, amma badə sındırmağını eşitməmişəm.

– Ay oğul, badələri çatladan, sındıran yalandır. Yoxsa şüşənin, fabrikin nə günahı.

– Hansı yalan?

– O yalan ki hər oturanda badələrə deyilir, ona polad da dözməz, bala!

– Biz nə yalan deyirik?

– Kərim Gəldiyevin tərifinə badə qaldırırsınız, bəs bu yalan deyil, nədir? Lotunun birini peyğəmbər yerinə qoyanda, badə dözər? Əlbəttə ki, çatlayacaq! Tərifləməyə adam tapmırsınız. Gəldiyevə qəsidə oxuyursunuz!

– Ay ana, neyləyim, işim ondan aşır.

– İşin aşır, ona şüşə neyləsin. Şüşə axı zərif şeydir. Adama baxma, qulağı dolur, alışır, nə deyirsən keçir gedir. Şüşənin qabırğasına o qədər bərk yalan döşəyirsiniz, sınmasın neyləsin, çatlamasın necə dözsün.

– Ay ana, bilmirəm necə eləyim.

– Necə eləyəcəksən, sənin ki, belə yalanların var, daha şüşə badə niyə alırsan, badəni taxtadan sifariş elə!

– Qorxuram taxta da dözməyə.

– Lap yaxşı olar ki, dəmirdən sifariş eləyəsən. O qəsidə–mədhiyyəni ki, süfrə başında deyirsiniz, ona ancaq dəmir dözə bilər. Vallah, düzünü deyirəm, dəmir!

*1964*

# DÜŞÜNMƏK İSTƏYİRƏM

Bakının isti iyul günlərindən birində, uca, çoxmərtəbəli, daş binanın qabağında adam əlindən keçmək çətin idi.

Güman etməyin ki, bir mərasim, ya yığıncaq var idi. Bu dəhşətli istidə nə mərasim? Göydən tökülən, daş-divardan, asfaltdan qalxan təndir havasına dözüb-dayanmaq mümkün deyildi. Ancaq buraya yığılanlar məcbur idilər. Cavanların aylardan bəri həsrətlə gözlədiyi gün gəlib çatmışdı. İçəri otaqlarda sənət institutuna qəbul imtahanı gedirdi. Yüzlərlə cavanlar gözləyirdilər.

İmtahanın adı böyük, çətinliyi çox, intizarı üzücüdür. Dünyada çox iş var ki, yoldaşın, dostun, qohumun köməyi ilə aşır. Amma imtahanda, komissiya qabağında tək dayananda, bu yolu keçənlər bilirlər, ancaq özünə, başına, bilik məlumatına gümanın gəlir. Başqa heç kəsə!..

Cavanlar beş-bir, üç-bir ağac altına, divar dibinə – kölgəyə çəkilib söhbət edir, gəlib-gedəndən imtahan işləri, qəbul şərtləri haqqında soruşurdular.

Əfzəl Balacayev də intizar çəkənlərin içində idi. O, bilirdi ki, yarım saat sonra "A" qrupuna yazıdan imtahan olacaq. Ancaq bu barədə düşünür, başqa söhbətlərlə maraqlanmırdı.

Adətən texniki elmlərdən imtahan verənlər dildən, humanitar fənlərdən imtahan verənlər isə texniki elmlərdən ehtiyat edirdilər.

Yazı imtahanı Əfzəli qorxutmurdu. Çünki, o, rayon qəzetində iki il əməkdaşlıq eləmişdi. Müasir yazı-pozu qaydalarını pis bilmirdi. Xoşbəxtlikdən, bu il əli-dili dinc durmayan dilçilər hələ macal tapıb növbəti dəyişmələri hökumət qərarlarından keçirə bilməmişdilər.

Əfzəl Balacayev güman edirdi ki, yazı temaları şair və ədiblərin həyatından, ya əsərlərindən olacaq, ədəbiyyatı bilən üçün belə temanı yazmağa nə var!

Arıq, ağbaş, çeşməkli professor möhürlü zərfi açıb temaları elan etdi. Burada Mirzə Cəlilin, S.Vurğunun əsərlərindən, qəhrəmanlarından söhbət gedirdi. Ancaq Əfzəlin diqqətini ayrı şey cəlb elədi: üçüncü tema sərbəst idi və belə adlanırdı:

"Gözəllik ondur, doqquzu dondur!"

Bu, ataların məşhur bir məsəlidir. Çox işlənir, çox yazılır, mənası Əfzələ məlumdur.

Hazırkı imtahanda bu kəlamın təhlili tələb olunur. Bunun mənşəyi, mövzusu, mənası haqqında iki-üç səhifə yazmaq lazımdır. Bəlkə də mətləbi indiki həyatla, mübarizələrlə bağlamaq olar. Əlbəttə ki, yazının səliqəli, savadlı, təmiz olmasına fikir verəcəklər.

Bayaq demişdik ki, Əfzəlin indiki yazı qaydalarından qorxusu yox idi. Nə yazsa, savadlı yazacaq idi. Əsl mətləb kəlamın təhlili, sovet elmi cəbhəsindən qiymətləndirilməsi, mənalandırılması idi.

Əfzəlin fikrinə bu da gəldi ki, həmin yazıda məna və məzmuna yox, ən çox zahiri cəhətlərə, qrammatika, imla qaydalarının gözlənməsinə fikir verəcəklər. Səhvi də bu cəhətdən tutub, tələbənin biliyini daştəraziyə vuracaqlar. Təhlilin dərinliyini bəlkə də heç axtarmayacaqlar. Niyə? Çünki belə bir təşəbbüs hər şeydən əvvəl temanın, kəlamın öz hökmünə, ruhuna zidd olardı: gözəllik ondur, doqquzu dondur!

İndiki məqamda bu, o deməkdir ki, tema haqqında nə fikir, nə mülahizə yazırsan yaz, elə yaz ki, savad, şəkil cəhətdən qüsur tapılmasın. Yəni kəlmələri düz yaz, cümləni düzgün qur, durğu işarələrini yerində

qoy, mətləb qurtaranda təzə sətrə keç, mətləbin başı, ayağı aydın olsun...

Bəs fikir?

Fikri atalar deyib, temanın özündə, hazır şəkildə təqdim olunur: burada mübahisə, müzakirəyə ehtiyac yoxdur!

Dünyada – təbiət olsun, cəmiyyət olsun, məfkurə olsun, hər hansı bir hadisə, insan olsun, onun gözəlliyini əsasən zahiri şəkli ilə, donu ilə ölçüb təyin etmək lazımdır. Təmiz, gözəl, səliqəli geyinmiş adamın, sifətdən də qəşəng olan bir adamın gözəlliyi haqqında hamı hökm verə bilər.

Daha bu adamın göyçək sifətinin, qəşəng paltarının altındakı şikəstlik, ya eyiblərlə kimsə maraqlanmaz. Xasiyyətini də arayıb axtaran olmaz.

Bu gözəl görünən adam əslində oğru, əclaf, ya öz anasının əmcəyini kəsən olsun. Tanımayan heç kəsin eyninə gəlməz. Zahir burada üstünlük təşkil edəcək: don!

Atalar demişkən, gözəlliyin doqquzu dondur!

Atalar sözünün, temada verilən hikmətli kəlamın məğzi, mənası, mətləbi budur! Bunu belə də yazmaq lazımdır.

Əfzəl müəllimin payladığı möhürlü kağızlardan birini qabağına çəkib plan tutmağa, misal, qeyd yazmağa, tezislərini müəyyənləşdirməyə başladı. Çox qeydlər elədi, yazdı, pozdu, yazdı. Onu düşündürən, zehnini məşğul edən ilk fikir bu oldu ki, kəlamın verdiyi hökm birtərəfli, bəlkə də səhvdir!

Axı, gözəlliyi yalnız görkəmdə, donda, zahirdə axtarmaq olmaz. Zahir insanı aldada bilər. Çox təmtəraqlı libas altında çirkinliklər gizlənir. Çirkin görünən don, görkəmsiz zahir dalında da bəzən gözəl məna, məzmun, ali fikirlər olur. Bu, kimə məlum deyil? Klassik şairlərdən kiminsə bir beyti Əfzəlin hafizəsində canlandı. Şair zahirinə aldandığı bir əclafı yaxşı tanıyandan sonra onun haqqında belə demişdi:

*Ey batini bəd, zahiri göyçək, köpək oğlu,*
*Səgdən törənən axır olur sək, köpək oğlu!*

Şairin beytinə qüvvət, atalar misalına zidd olaraq Əfzəlin zehnində neçə misallar baş qaldırırdı:

"Adam tanıyıram ki, zahirdə quzu kimi məsumdur. Bir baxanda, bir də baxmaq istəyirsən. Mələsə, əti halaldır."

Amma mən bilirəm ki, o, neçə-neçə başlar kəsib, evlər yıxıb, uşaqlar yetim qoyub. Beləsi şirin dilini işə salanda, ilanı yuvasından çıxarır. Danışanda, deyərsən bu necə pak məxluqdur! Dünyada pisliyə dil bulamaz! Amma həmin adamın saman altdan su yox, sel yeritdiyini, fitnələrə fitva verdiyini mən öz gözümlə görmüşəm.

Düşündükləri Əfzəlin qələmini dayandırdı: aşkar səhv görünən bir mətləbi "atalar sözü" deyə doğru, müqəddəs kimi qəbul etmək, əyri hökmə qol qoymaq necə olar?

– Yox!

Əfzəl bir fikirləşdi ki, təhlil deyəndə, müəllimlər bu atalar sözünün mənasını açıb izah etməyi istəyirlər. Atalar necə deyib, nə düşünüb, onu yazıb bildirmək bəsdir. Bəlkə özündən bir şey əlavə lazım deyil? Öz təsəvvürlərinə gülərək Əfzəl qələmi əlinə aldı.

Axı, bizdən təhlil tələb edirlər! Təhlil ona deyilməz ki, özgələrin hazır fikrini tutuquşu kimi təkrar edəsən. Təhlil zehnin, mühakimənin, ağlın hökmünü aşkara çıxarmaqdır. Burada hər kəsdən, hər kitabdan əvvəl sənin öz sözün, sərbəst fikrin görünməlidir. Təhlil buna deyərlər.

Əfzəl fikrinin bir hökm üzərində dayanmasından, sanki, inam, qüvvət alıb stuluna möhkəm söykəndi, təhlilini davam etdirmək istədi.

Nəzərini gəzdirəndə bütün sinfi sükut içində gördü. Hər kəs başını aşağı salıb öz taleyini həll edən imtahan yazısı ilə məşğul idi. Ancaq baş divardakı saatın tıqqıltısı və nəzarət üçün sıralar arasında gəzən qıvrımsaç müəllimin addım səsləri eşidilirdi. Bir an ətrafa göz gəzdirəndən sonra Əfzəl öz düşüncələrinə qayıtdı.

İlk baxışda asan, aydın görünən bir misalın içindən gör nə şübhələr, mübahisələr, suallar çıxır! Atalar və onların min illərdən bəri deyib, təkrar etdiyi hikmətli sözlərə hamının ehtiramı, əməl etməsi lazımdır. Mən də bu kəlamlar haqqında hörmətlə danışmalıyam. Amma! Amma, bu sözün mənasında səhv görsəm necə? Buna gözümü yummalıyammı?

Axı, bu misaldakı fikir kökündən səhvdir! Ya da tamam, birtərəf-

lidir! Heç bir vaxt, heç bir yerdə, heç bir gözəlliyin onda doqquzunu donda, zahirdə görmək olmaz! Bu gülünc bir hökm olar. Yox, mən bu misaldakı məhdud, qüsurlu cəhəti görüb göstərməliyəm!

İndi də ayrı bir təsəvvür Əfzəlin qabağını kəsirdi.

Belədə isə, məni atalar sözünə, xalq idrakına hörmətsizlikdə təqsirləndirə bilərlər...

Əfzəl yazdığı sətirlərin üstündən qələm çəkdi, düşünməyə başladı.

"Hörmətsizlik desinlər, amma qoy məni tutuquşu saymasınlar. Heç olmasa öz sözümü oxusunlar. Müəllimlər tələbədə müstəqil söz görəndə bəyənirlər. Buna məktəbdə də çox diqqət yetirirlər, görmüşəm. Tələbənin bu yolda qüsurunu da bağışlayırlar. Hər halda, mən düşündüyümü, ağlımın dediyini yazmalı, gizlətməməliyəm. Belə bir yol, tək yazıda yox, hər yerdə doğru yol olar!

Əfzəl çox çətin və mühüm bir məsələnin həllini tapmış kimi, sevincək qələmi əlinə aldı, yazısını tamamlamağa başladı... İmtahan vaxtının bitməsinə az qalmışdı ki, Əfzəl yazısını təhvil verib qan-tər içində, həyətə, açıq havaya, "işıqlı dünyaya" çıxdı.

Hava təmiz, yasəmən ağaclarının altı sərin və sakitlik idi. İmtahandan yorğun çıxan tələbələr əyləşib hər kəs öz yazısından, hünərindən söz salır, şirin danışmaq istəyirdi.

Əfzəl darıxmış, sıxılmış halda dəftər-kitabını qoltuğuna vurub şəhər bağına tərəf getdi. İmtahanın nəticələrini ancaq birisigün, bütün qruplar yazı işini qurtarandan sonra elan edəcəkdilər.

Əfzəlin yazı işi, gözləndiyi kimi, müəllimlər arasında söhbətə, müzakirəyə səbəb oldu. Adətən imtahan yazıları yoxlananda səhv sözlərin altından cızıq çəkilir. Səhv cümlə və hökmlər haşiyədə işarə olunur, axırda da yekunlanıb nömrə qoyulur.

Qıvrımsaç müəllim Əfzəlin yazısında səhv tapmamışdı. Ancaq təhlili bəyənməmiş, iri bir sual işarəsi qoyub, professora təqdim etmişdi.

Professor isə yazını bəyənmiş, yüksək qiymət vermişdi:

– Əlişir, bu iş təmiz, savadlı yazılıb. Nə üçün buna nömrə vermək istəmirsiniz?





– Professor, orada fikir səhvi var. Bu adam məşhur atalar sözünün mənasına şübhə edir. Bilmədiyi mətləblərə qarışır, dolaşdırır. Sovet elminə zidd iddialar yazır.

– Elməzidd nə var burada?

– Xahiş edirəm, diqqətlə bir də oxuyasınız. Əfzəl Balacayev atalar sözünün ziddinə gedir, kosmopolitlərin havasını çalır.

Professor başını buladı:

– Tələbə yazısında belə dəhşətli ittiham axtarmaq nahaqdır, müəllim!

– Sabah gəlib oxuyan, yoxlayan olar, professor! Deyəcəklər gözdən pərdə asmısınız. Xalq irsini ləkələyənləri qanadınız altına almısınız!

Professor Əlişirin sözündən əsəbiləşdi. Əfzəlin yazısına bir beş qiymət yazıb imzaladı, gülə-gülə Əlişirə dedi:

– Elə danışanları mənim yanıma göndərərsiniz. Cavan müəllimsən, belə məsələdə qorxmaq olmaz. Bizə burada cavanların taleyini, ən müqəddəs bir işi tapşırıblar. Nədən qorxursan? Bizə belə, açıq fikirli, cəsarətli düşünən tələbələr lazımdır. Kosmopolit nədi, zad nədi, canım! O, istilahları belə yerdə işlətməzlər!

Əlişir professora heç bir cavab vermədi. Yazı işini yavaşca götürüb imzaladı.

İki gün sonra Əfzəli şifahi imtahana çağıranda xalq ədəbiyyatından, ədəbiyyat tarixindən bəzi suallar verəndə professor hamıdan çox onunla maraqlandı. Orta məktəb müəllimini, iş yerini, stajını soruşdu və axırda əlavə etdi: “Siz maraqlı iş yazmısınız. Müstəqil mühakimə qabiliyyəti aşkar görünür.”

Əfzəl professorun mehriban, xoş sözlərindən fərəhlənirdi. İmtahan vərəqəsindəki beş qiymətini görüb çox sevindi, razılıq elədi:

– Çox sağ olun, professor, iltifatınıza minnətdaram.

Professor gülümsədi və dediklərinə yekun olaraq ahəstə əlavə etdi:

– İltifat-zad yoxdur. Sizi diqqətlə dinləyib tanımaq borcumuzdur, oğlum!

Qəbul imtahanlarından bir həftə sonra professoru institutun partiya bürosuna çağırdılar. Bu zamanlar imtahanda çalışan yorğun müəl-

limləri iclasa dəvət eləmək adət deyildi. Əksinə, onları beş-on günlüyə istirahətə buraxırdılar.

Professor bilirdi ki, nəsə mühüm bir məsələ var, yoxsa çağırmazdılar.

Büro iclasını təbliğat üzrə çalışan tarix müəllimi Alışan aparırdı. Bu, institutda iclas çağırmağa həvəskar bir adam idi. Təbiət deyəsən bunu məhz ilcas üçün yaratmışdı. Professor Alışanı sədarətdə görəndə ürəyində dedi: "Deməli, bu günümüz bütün getdi!"

İclasda IV kurs tələbələrindən birinin partiyaya qəbul məsələsinə baxılırdı. Anket, suallar, cavablardan, kifayət qədər nəsihətdən sonra Alışan səsə qoydu, tələbəni bir səslə qəbul elədilər. O, qəbul ilə əlaqədar adamların getməsinə icazə verdi. Professor gözləyirdi ki, cari adlanan məsələlər, xırda xahiş və ya elanlar olacaq.

Alışan ayağa qalxıb sinəsini arıtdı. Səsini ucaldıb professora müraciət elədi:

– Xahiş edirəm yaxın əyləşəsiniz!

Sonra üzünü iclasdakılara tutdu:

– Yoldaşlar, mən iclas başlananda qəsdən elan elədim, cari dedim. İndi burada kənar adam yoxdur, demək olar. Bugünkü büroda professorun məsələsi müzakirə olunacaq. Bu il bu yoldaş qəbul imtahanında iştirak edirdi. Bunun komissiyasında bir skandallı iş olub. Məfkurəcə səhv bir yazıya əla qiymət verilib. Həmin adam da bu qiymətə görə instituta qəbul olunub, bu iş üstündə institutun rəhbərliyinin başı ağrı çəkir. Sözü verirəm professorun özünə. Qoy Əfzəl Balacayev kimi müzür adamların instituta necə qəbul olunduğunu özü danışsın, məsələni izah eləsin. Buyurun, professor, söz sizindir!

Professor əvvəlcə belə bir məsələnin qəflətən qoyulduğunu dedi, təəccübünü bildirdi.

Alışan ona macal vermədi:

– Professor, özünüzün beş verdiyiniz iş çoxlarına məlumdur, əsl mətləbdən danışın.

– Sizdə nə var, nə məlumdur, necə məlumdur, bilmirəm. Bildiyim odur ki, Balacayev savadlı, müstəqil bir yazı işi yazmışdı, biz də ona əla qiymət vermişik. Tələbə haqqında bundan başqa mən heç nə bilmirəm.



Mən həmin tələbəni burada görüb tanımışam. Yazısı mənə onun üçün xoş gəldi ki, sitatlara, kitablara yox, öz mühakiməsinə əsasən yazıb, müstəqil yazıb. Elə vəzifə sahibləri olur ki, kağıza baxmamış iki kəlmə danışa bilmir. Qonağa xoş gəldin eləyəndə, xudahafizləşəndə də kağıza baxıb kəkələyə-kəkələyə danışırlar. Biz tələbələri bu cür öyrədə bilmərik. Müstəqil mühakimə hər yerdə alqışlanmalıdır!

Alışanın təhlili sualları professoru cümləbaşı dayandırırdı.

– Professor, Balacayevə beş qiyməti siz vermisiniz, yoxsa komissiya?

– Əlbəttə ki, komissiya!

Alışan üzünü qıvrımsaç müəllimə tutdu.

– Əlişir müəllim, əhvalatı danış, yoldaşlar bilsin!

Əlişir ayağa qalxdı, müfəssəl bir nitq başladı:

– Balacayevin yazı işini ilk yoxlayan mən olmuşam. Düzdür, o iş qrammatika, imla cəhətdən təmizdir. Amma, bilirsiniz ki, qəbulda yazının məzmununa da diqqət verməк tələb olunur. Nazirliyin təlimatı da bunu deyir.

Alışan yenə söz atdı:

– Əlbəttə, məzmun əsasdır! Sosialist məzmun lazımdır, yoxsa yazının bəzəyi nəyimizə...

Əlişir bir az da cürətlə danışdı:

– Zahiri bəzək məni aldada bilmədi. Balacayevin işini böyük sual işarəsi ilə professora qaytardım. Güman edirdim ki, baxandan sonra qiymətini verəcək.

Əlişir bu yerdə professora baxdı, udmaq istədiyi sözü dedi:

– Təəssüf ki, elə olmadı. Professorun, bilmirəm, yorğun vaxtına düşüb, ya isti karıxdırıb, nəsə, elə səhvli yazı beş qiymət aldı, bizim komissiyadan keçib getdi. Tələbə də qəbul olundu. İndi, gördüyünüz kimi, bütün institut başağrısı çəkir.

Alışan yenə dilləndi:

– Bəzi sayıqlığını itirmiş komissiya üzvlərinin sayəsində.

– Təəssüf ki, belədir.

Professor dözə bilmədi.

– Komissiya üzvlərini qatmayın, o işə əla qiyməti əvvəlcə mən ver-

mişəm. Fikrimin üstündə də dururam. Hələ ki, nə Əlişir, nə Alışan, nə də başqa bir yoldaş, o yazının səhv olduğunu sübut eləməyib. Belə əsaslı bir sübut olmayınca bu danışıqlar əfvayıdır!

Alışanı od götürdü:

– Yoldaş professor, Balacayev açıq-aşkar xalq misalının əleyhinə gedir. Maksim Qorkinin ağızdolusu təriflədiyi xalq ədəbiyyatını, o zəngin xəzinəni heçə döndərir. Xalis kosmopolitlik eləyir. Siz buna başqa nə sübut axtarırsınız, bilmirəm? Siz doğrudan da bu fikirdə qalırsınızsa, biz lazımi yerində xüsusi məsələ qoymalı, əfkari-ümumiyyəni səfərbərliyə almalı olacağıq. Heç kəs bizə icazə verməz, bağışlamaz ki, bu cür kosmopolit fikirlər institutun kürsülərindən təbliğ olunsun.

– Nə fikirlər?

– Kosmopolit! Kosmopolitin daha buynuzu olmaz ki!

Professor ayağa qalxdı:

– Tələbəyə, cavan bir oğlanın ilk yazısına bu münasibət, sağlam münasibət deyil! Yoldaş Alışan, siz nə deyirsiniz-deyin, ancaq Maksim Qorkinin adından ehtikar eləməyin. Qorkinin fikirləri bizə də məlumdur. O, xalq ədəbiyyatını tərifləyir, təbliğ edir, ancaq bu zəngin xəzinənin içindəki daş-çınqıllı, zərərli misalları da göstərir. Tələbə də bu misallardan birini seçib yazır: "Gədəbaşlıdan bəy olmaz, danabaşlıdan inək!", "Bəy verən atın dişinə baxmazlar", "Arvaddan vəfa, zəhərdən şəfa..." Bu misalların mənası, məzmunu köhnədir, zərərlidir. Xalq məfhumunu mücərrəd qeyri-tarixi götürmək düz olmaz. Özünüz tarixçisiniz, bir çox dini etiqadlar camaat içində hələ də yaşayır. Xalqı sevmək, onun adətlərinə səcdə etmək yolu ilə yox, onun səadəti, mədəniyyəti, münəvvərliyi uğrunda fədakar çalışmaqla mümkün olar. Yoxsa mollaların hamısı özünü xalq xadimi sayır. Adamları tiryəkə, arağa, ziyarətlərə alışdıranlar da belə! Bu məsələlərə ayıq baxmaq gərək! Partiya bizdən bunu tələb edir. Tələbələrimizdə görünən bu cür ayıq düşüncə, şübhəsiz, ali məktəbin, gənclərimizin qələbəsidir! Əfzəl Balacayevin yazı işi, bu hissin ifadəsidir. Siz isə buna dəhşətli adlar qoyursunuz. Eşitdiyimə görə siz tələbənin kənar edilməsini direktorluqdan xahiş etmisiniz. Balacayev buradan getsə, mən də gedəcəyəm. Bunu bilin, mütləq gedəcəyəm!



Professor bunu deyib oturdu. İclasdakıların üstünə deyəsən su ələndi. Ani sükutdan sonra ümumi bir həyəcan duyuldu. Hamı söz istədi. Alışan qələmi kürsüyə vurub sükut istədi. Kimə söz verməyin xeyirli olduğunu düşünərək, ətrafa nəzər saldı.

Bu dəmdə komsomol katibi əlində qəzet içəri girdi, salamsız-kalamsız mühüm bir xəbər gətirdi:

– Oxuyanınız varmı, rəhbərin beyninə qan sızıb. Stalin yoldaş ağır naxoşlayıb!

– Necə, nə danışırsan, ədə?!

Alışan qəzeti aldı, ucadan oxumağa başladı.

Balacayevin işi o qalan qaldı. Sonradan bu məsələyə qayıtmaq nə lazım, nə də mümkün oldu.

Sonrakı dərs ilində xalq universiteti xalq ədəbiyyatı haqqında professorun silsilə mühazirələrini təşkil etdi.

Həmin mühazirələrin radio ilə oxunduğu, maraqla dinlənildiyi günlərdə cavanlar qəzetində Balacayevin imtahandakı yazı işi çap olundu. Redaksiya, məqalənin axırında yoxlama xarakterli bir qeyd də vermişdi.

Cavanlar qəzetinin bu nömrəsi əlbəəl gəzirdi. Oxuyanlar bir–birindən soruşurdu:

– Balacayevi tanıyırsınızmı?

– Özünü tanımıram, işindən xəbərim var, ibrətli işdir!

– Çox ibrətlidir, çox!

*1964*

# GÖR FƏLƏK NƏ SAYIR

Talıb Fətiroğlu öz işini bilən adamdır. İki-üç ildir işləyir. Rayonun, necə deyərlər, cikini də bilir, bikini də. Özü əmanət kassasında hesabdardır. Ancaq adamların təkcə pulları yox, ürəyi də onun yanında əmanətdir.

Bir də görürsən bığlı bir kişi qapıdan girib barmağı ilə işarə verdi:

– Talıb qardaş, bir bura zəhmət çək!

Talıb da qələmi yerə qoyub piştaxtanın qabağına gəldi:

– Nə deyirsən, alım, ya almayım?

Bığlı kişi lotereya satan plakatı göstərib məsləhət istəyir.

– Al, al! Ancaq buralardan yox, fəhlə rayonlarından al! Oraların şansı çoxdur.

Ya görürsən işin qızğın vaxtında telefon özünü öldürür. Talıb dəstəyi götürən kimi, dərdi-dil eləyirdi:

– A filankəs, axşamüstü bir zəng vur. İndi hava buluddur.

Bəli, Talıb hesabdar işləyir, rəqəmlərə baxırdı. Amma dünyanın bütün işlərini bilirdi.



Gün o gün oldu ki, Talıb evlənmək eşqinə düşdü. Evlənmək insanın həyatında dedikcə məsuliyyətli və ağır bir işdir. Bəlkə buna görə Talıb çox düşünür, götür-qoy eləyirdi. Pul məsələsi, məhəbbət, gələcək həyat, səadət...

Talıb bunlarımı düşünürdü?

Yox!

Sizi inandırıram ki, bunlar onun heç nəzərində yox idi. Pulu kifayət qədər idi. Məhəbbət də heç vecinə deyildi. Bəs nəyi düşünürdü?

"Kimi alım?"

Deyəcəksiniz bu sual təbii və qanuni sualdır. Amma Talıbın mətləbi ayrı idi. O, alacağı qızı yox, onun qohumlarını, valideynlərini öyrənirdi.

Talıb gözəl qız axtarırdı? Xeyr, axtarmırdı.

Talıb varlı-karlı yerdən qız, ya arvad axtarırdı.

Bir axşam festivalda öyrəndi ki, bu eynəkli qız ispalkomun qızıdır.

– Nə danışırsan?

– Başın haqqı, ispalkomun qızıdır. AMİ-də oxuyur.

– Boşdurmu, görəsən?

– Boşdur.

– Onu mənə Allah yetirib.

– Qaraquşun payı yuvasında çatar.

Talıb kəmərini çəkdi, saçını daradı, yaxasını bağladı, damağına bir papiros alıb qıza yanaşdı:

– Tanış olaq, deyəsən, siz ərəb qızından avtoqraf almaq istəyirdiniz?

– Camaat əlindən yanaşmaq olur ki heç?

– Dəftərçənizi mənə verin, bu saat!

Qız dəftərini çıxardı, Talıb alıcı quş kimi özünü növbəyə duran cavanların içinə toxudu:

– Yoldaş, bir dayan görüm!..

O günlərdə şəhəri gəzən ərəb aktrisası Nəimə Akifin şöhrəti dünyanı tutmuşdu. Hər kəs ondan bir yadigar almaq istəyirdi. Talıb bir şey itirmiş uşaq kimi yerə yatdı, dayananların qıçı arasından qabağa sürü-

şüb aktrisanın yanında bitdi. Dəftərçəni düz Nəimənin sinəsinə dayadı. Nəimə birdən-birə peyda olmuş bu adama təəccüb elədi. Sonra onun zirəkliyinə güldü. Əlindəki qələmlə dəftərçəyə bir sətir yazdı:

"Daha sənə sözüm yoxdur, afərin!"

Talıb göründüyü kimi də yox oldu, dəftərçəni hörmətlə gətirib qıza təqdim elədi:

– Xanım, ayrı nə qulluq?

İspalkom qızı bütün arzularına nail olmuş kimi sevindi, gözləri böyüdü:

– Çox sağ olun, necə yazdırdın, nə tez?

Talıb qürrələndi:

– Belə şeylər mənim əlimdə su içməkdir, başqa nə qulluq?

O gündən sonra ispalkom qızını Talıbın qolunda tez-tez görmək olardı.

– Tamilla, çox xoşbəxtəm ki, sənin mərhəmətinə nail ola bilmişəm.

– Ədə, az qırıldat, bura sənə şeir dərnəyi deyil.

– Vallah, düzünü deyirəm. Sənin yanında özümü şah balası kimi hiss eləyirəm.

– Gedək, bəsdir, anam savaşar.

İspalkomun evinə ayaq basmağı Talıbın həyatında, demək olar, əlamətdar bir gün oldu. İçəri girən kimi, Talıb döşəmədən tavana qədər otaqları süzdü. Burada almalı-satmalı nə desən, yox idi? Quba xalçası, çex şüşəsi, macar kürsüləri, Kiyev servizləri...

Talıb sevincini gizlədə bilmədi.

– Tamilla, – dedi, – bura sizin zalınız sayılır, eləmi?

– Nə hesab eləyirsən elə.

Tamillanın bu cavabı Talıbın canına yağ kimi yayıldı: "Nə hesab eləyirsən, elə." "Qız açıq deyir, deyir ki, bu ev-eşik sənə qurbandır. Hələ bu harasıdır, qoy bir camaat bilsin ki, mən filankəsin kürəkəniyəm, gör ondan sonra nələr olacaq, nə hörmət, nə izzət başlanacaq!.."

Doğrudan da, Talıb yanılmamışdı. Toy gününün sabahı onu əmanət kassasına müdir təyin elədilər. Ondan bir neçə ay sonra Talıbı maliyyə şöbəsində müdir stolunun qabağında oturan gördülər. Amma hayıf ki, bu ucalma, yoxuşa dırmaşma uzun sürmədi. Bütün yoxuşu çıxanlar kimi, Talıb da yoruldu. Demirəm ki, təngnəfəs oldu. Yox, Talıb özü dayanmadı, onu yolda dayandırdılar.



Əhvalat belə oldu. Növbəti seçkilərdə ispalkomun adı yeşikdə qaldı, camaat onu seçmədi.

Qayınata seçilməyəndən sonra maliyyə şöbəsində Talıbın kürsüsü də laxladı. Ona xəbər verdilər ki, "qardaşoğlu, özünə ayrı idarədə iş tap, bura sənin yerin deyil!"

Elə bil Talıbı ilan vurdu: ay dad, ay bidad!

– Canım, qayınatamın işlərinin mənə nə dəxli?.. O, böyük partiyaçı, mən hesabdar adam...

– Dəxli çoxdur, sən evlənən kimi burada müdir oldun.

– Məni hökumət müdir elədi.

– İndi də səni hökumət çıxardır!

– Axı, mənim qayınatam...

– A kişi, qayınatanın adını niyə çəkirsən?

– Əşi, onu bəyəm, mən çəkirəm? Onun adının üstündən gəlib bura çıxmışdım, indi də ki... Eşşəyə minmək bir ayıb, düşmək iki.

*1964*

# BİRİ VAR İDİ, İKİSİ YOX

Yoldaş!

Bizim zəmanəmizdə bundan çox işlənən, çox məna kəsb edən, çox hörmət qazanan söz tapmaq çətindir.

Bunu sirdaşlar haqqında, məsləkdaşlar, əməkdaşlar, silahdaşlar, vətəndaşlar haqqında da işlədirlər.

Amma mənim aləmimdə "yoldaş"ın bir mənası da var ki, çox az işlənir. Daha doğrusu, çox az görünür.

Bir adam ki, sənin ürək, canciyər dostundur, sevincində, kədərində yaxşı, pis günündə sənə qəlbin kimi yaxındır, hər dəqiqə ona müraciət eləməyə, ürəyindən keçəni deməyə, eşitməyə hazırsan. Sənin ömrünün, həyatının aynasıdır, canlı güzgüsüdür. Hər anda, hər işdə ona məsləhət eləyirsən, ağır dəqiqələrində onun sözünü, səsini eşidir, təsəlli tapır, xoşlanırsan. Yayda sərinlik, qışda istilik, qaranlıqda işıq, yorğunluqda yuxu, tənhalıqda ünsiyyət gətirir. Belə yoldaş insan üçün böyük nemətdir, səadətdir.

Bir yoldaş da var ki, işi dolaşanda sən onun yadına düşürsən. Müraciət edir, yağlı dilini tərpədir, mətləbinə çatandan sonra qarğa qoz qaçırdan kimi, yox olur, "sən hara, mən hara?"





Belə yoldaşlardan biri dünən məktəb yanında qabağımı kəsdi:

– Necəsən, nə təhərsən, kefin lap yaxşıdırmı? Uşaqlar qıvraqdırmı? Belə olmaz, niyə görünmürsünüz? Nə zəng vurur, nə də yada salırsınız. Vallah, bizdə hər gün sizin söhbətiniz var, ürəyimiz istəyir. Xanım hey yığışır sizə gəlsin, macal tapa bilmirik. İş boğazdan aşıb, baş qaşımağa vaxt olmur, gərək bağışlayasınız...

Yoldaşımın ədasından, xasiyyətindən bilirdim ki, bunlar müqəddimədir, əsl mətləb axırdadır. Mənim üzümdəki sualı, görünür, başa düşmüşdü, sağa-sola baxıb ahəngini dəyişdi:

– A filankəs, sənə bir balaca zəhmət verəcəyəm. Qaynım oğlu hüquq fakültəsinə girir. Bacarıqlı da oğlandır. Yaxşı qurtarıb məktəbi. Attestatı-zadı sahmanda. Sabah sizə yazıdan imtahana gələcək, famili Qafarov Qafardır. Gözün üstündə olsun, yazıdan yaxşı nömrə almasa, düşə bilməz. Hüquqa gələn çoxdur. Xahiş eləyirəm, yadından çıxmasın: Qafarov Qafar, nömrəsi də 19.

– Yazı imtahanında güzəşt eləmək olmur. Atalar deyib: "Yazıya pozu yoxdur." Tələbənin savadı burada meydana çıxır, ona nə kömək eləmək?

Dostum mənim sözümü zarafat sayıb gülümsədi. Özünün dünyagörmüş adam olduğunu bir də mənim nəzərimə çatdırdı:

– A filankəs, imtahanı-zadı çox görmüşük. Yazı-mazı sözdür. Çobanın könlü olsa, təkədən pendir tutar. İmtahan sənin əlindədir. Demirəm əla ver. Amma belə elə ki, Qafarov düşsün, kənarda qalmasın. Səndən bircə bunu xahiş edirəm, vəssalam!

Dostum "vəssalam" deyib əlimi sıxmaq istəyəndə tələsdi, əlim əlinə keçmədi, biləyimdən tutub silkələdi, üzünü döndərib getdi.

O, getdi, məni də fikir apardı.

Düşündüm ki, imtahan işi nə ağır, cansıxıcı, kədərli bir iş imiş. Gərək mən buna razılıq verməyəydim, yaxına durmayaydım, belə işlər də başıma gəlməyəydi.

Axı, Qafarov Qafarı həştad nəfər tələbədən mən necə ayırım, niyə ayırım və nə ad qoyum ayırım? Lövhədə bir mövzu veriləcək, hər kəs

öz biliyinə, bacarığına, məlumatına görə yazıb təqdim eləyəcək. Qafarovun yazısını mən yazası deyiləm, cümləsini, sözlərindəki səhvləri də düzəldəsi deyiləm. Necə ola bilər ki, Əhməd, Məmməd, Əli, Vəli yaxşı yazdıqları halda, aşağı nömrə alsınlar, Qafarov Qafar filankəsin qaynı oğlu olduğu üçün yuxarı nömrə alsın? Belə dəhşətli bir hərəkətə qol qoyan müəllimin gözünə gərək dağ basasan. Beləsinin üzünə tələbə kütləsi, bütün ictimaiyyət bir ağızdan tüpürməzmi? Elmi rüsvay eləmək, aləmdə rüsvay olmaq üçün belə bir hərəkət kifayət deyilmi?

Onu da bilirəm ki, yoldaşım necə qarayaxandır, sözbaz, kinli, ədavətlidir. Onun adamlar haqqında rəy ölçüsü bazarın hər gün dəyişən məzənnəsi kimidir. Bir xahişini ki, yerinə yetirmədin, hər yerdə hərzə söhbət eləyəcək, ağzına gələni deyəcək...

Nə isə, imtahan gəldi, Qafarov Qafar da özünü mənə tanıtmalı oldu. Yazı mövzuları lövhədə yazılanda göygöz, sarıyanız bir oğlan mənim yanıma gəlib, xahiş elədi ki, yoldaş müəllim, mən hüquq sahəsində işləyirəm. İcazə varmı ki, bəyəndiyim mövzunu yazım?

Bu oğlanın nə demək istədiyini bilmək üçün təəccüblə üzünə baxırdım. Sanki, mənim işarəmi duydu, dərhal özünü tanıtmaq imkanı tapdı.

– Adım da Qafarov Qafardır. Bu mövzuların hansını istəsəm yaza bilərəm, ya yox?

Mənə aydın oldu ki, hərif nə demək istəyir. Mən özümü onda qoymadım, mülayim cavab verdim:

– Əlbət ki, yaza bilərsiniz. Hər biriniz lövhədə yazılan üç mövzudan birini seçib yaza bilərsiniz.

Qafarov Qafar, görünür, özünü nişan verdiyinə arxayın olduğundan gedib yerində oturdu. Ancaq o, narahat idi. Güman edirdi ki, müəllimlər sıraları gəzdikcə onun yazısına fikir verəcək, ayaqüstü səhvlərini düzəldəcək, yazısının yüksək qiymət almasına səy edəcəklər.

Müəllimlər isə öz işlərində idilər. Möhürlü kağızları paylayır, partalardakı kitab-qəzeti yığır, yazı yazanlara nəzarət yetirir, sinifdə sakitliyi təmin edirdilər.

Qafarov bir də durub mənim yanıma gəldi. Pıçıltı ilə nəsə demək istədi. Mən acıqlandım ki, yazı vaxtında müəllimə müraciət edib, başqalarına mane olmaq yaramaz. Ucadan bir sual verdim:



– Qafarov, sən nə istəyirsən, aydın olmayan nədir?

Qafarov sualını açıq verə bilmədi. Qayıdıb yerində oturdu, yazı işinə məşğul oldu.

Yazı işləri yığılıb yoxlanır, qiymətlər yazılırdı. Qafarovun yazısını alıb baxdım. İki səhifədə 27 səhv gördüm. Qafarovun səhvləri savadsız adam üçün çox səciyyəvi idi. Onun yazısında həm qrammatik, həm imla, həm məna, məzmun, həm də adi savad səhvləri vardı. Qafarı "Qəfər" yazmışdı. Nəcəfbəyin məlum dramasını "Museybət, Faxretdin" yazmışdı. Axırda da məhkəmə-istintaq protokollarında olduğu kimi, imza yerinə dolaşıq, quyruqlu bir şey qaralamışdı.

■ ■ ■

Qafarovun yazısına baxanda məni fikir götürdü. Bir müəllim yoldaşın dediyi kimi, bu işə "bir"dən artıq qiymət vermək olmazdı. Altı-səkkiz səhv tapanda yazılara "iki" verilirsə, iyirmi yeddi səhvi olana nə verilməlidir?

Məni xəyal, düşüncə bürümüşdü. Anlaya bilmirdim ki, Qafarov orta məktəbi necə qurtarıb və hansı rayon məhkəməsində necə katiblik eləyir? Onun məktəbə daxil olması, ya olmamasını yox, işlədiyi yerdə qalıb-qalmamasını düşünürdüm.

Qafarovun isə damağı duru idi. Dik-dik gəzir, sağa-sola keçib, işlərin cavabı ilə maraqlanırdı. Görünür, qohumu onu inandırmışdı. İnandırmışdı ki, "tapşırmışam, ədə! Sən yaxşı qiymət alacaqsan, kefini kök elə!"

Müəllimlərdə də bir xasiyyət var: bilməyən, tənbəl, əfəl tələbəni sevməzlər. İllah da ki, əfəl tələbə özü haqqında bədgüman olub, fors satanda, yoldaşlarını saymayanda bu nifrət daha da artır.

Qafarovun yazısına nida işarəsinə oxşayan bir kök vahid yazıb onu mənə verən müəllim əlavə etdi:

– "İki" buna heyifdir, insafsızlıqdır.

Qaydaya görə, imtahan cədvəlində "bir" qiyməti yoxdur. Dördballı sistemin yuxarısı "beş", aşağısı "iki"dir. Qafarovun səhvləri əlamətdar, yazısı əcaib olduğundan müəllim özünü saxlaya bilməmişdi, "bir"

yazmışdı. İmtahanın nəticələri elan olunandan sonra Qafarov ilan çalmış kimi idi. O yan-bu yana keçir, fır-fır fırlanırdı, mənim yanıma gəlib salamsız-kalamsız başladı:

– Yoldaş müəllim, bə niyə belə?

– Necə?

– Mənim yazıma zəif niyə?

– Yazını alıb baxa bilərsən, səhvlərin çox və səciyyəvidir.

– Bəs sizlə danışmayıblar?

– Danışmaq ilə, bəyəm, yazının səhvləri yox olur?

– Səf, səf! Bəyəm, bir məndədir! Səf yazanda nə olar? Biz öyrənməyə gəlmişik, gərək buna bir şərait yaradılsın, ya yox? Sovet hökumətinin qanunlarını biz də bilirik axı, biz özümüz hüquq frontunda can qoymuşuq...

Qafarovun töhmətləri hələ bitməmiş qohumu özünü yetirdi:

– A filankəs, axı mən sizə adam kimi söz demişdim. Nəzərə almayacaqdın, qabaqcadan niyə bildirmədin! Zəif yazmağa adam tapmısan, neçə ilin işçisidir. Qafarovu məhkəmə sistemində kim tanımır?

– Tanışlığın savada məgər dəxli var?

– Bunun, bəyəm, "iki"si var idi?

– "Biri" var idi, "iki"si yox.

– "Bir" hardan çıxdı?

– Qafarovun savad dərəcəsindən, diplomundan, bilik və məlumatından.

– Sən özün baxmısan?

– Bəli, o kişinin qiymətində mənim iştirakım olub.

Qafarov da, yeznəsi də o gedən getdilər.

O zamandan bəri mənə rast gələndə üzlərini yana çevirir, acı bir dərman udmuş kimi, qaş-qabaqlarını turşudurlar. Məndən söhbət düşən məclislərdə isə uca səslə ağız-ağıza verib bir-birini təsdiq edirlər:

– O, əclafdır. Onun sözünü danışma, əclafın biridir ki, tayı-bərabəri yoxdur. Biz onu yaxşı tanıyırıq, qoy rədd olsun getsin!

*1964*



# XOŞBƏXTLİK BARƏSİNDƏ

İstirahət evində, nədənsə, adamın dili açılır, çox danışmaq, hər işə qarışmaq istəyirsən. Pensiyaçılardan biri, qoca müəllim, nərdtaxta oynayanların içinə mübahisə saldı:

– Ay camaat, yığışdırın bu şartaşartı, sözüm var sizə.

Oynayanlar müəllimin söhbətini maraqla dinlədilər.

Nərdtaxtanı qatlayıb kənara qoydular.

Müəllim "Cavanlar" jurnalının bu nömrəsini göstərib soruşdu:

– Yəqin oxuyursunuz bu jurnalları?

– Oxuyanımız var!

– Burada mübahisə açıblar. Bəlkə buna sizdən cavab verən ola?

– Nə mübahisədir?

– Nə soruşurlar?

– Soruşurlar ki, xoşbəxtlik nədir?

– Xoşbəxtlik barəsində danışmaq özü şirin söhbətdir.

– Bu söhbəti salan, deyəsən, özü xoşbəxtdir.

– Yox, oxuculardan fikir soruşurlar.

– Xoşbəxtlik nəyə deyilir?

Müəllimi dinləyənlərin hamısı söhbətə qarışmaq istədilər:

– Burada çətin bir hökm ola! Kim nə cür, hərənin öz fikri var.

– Məsələ odur ki, hansı fikir düzdür? Bunu cavanlar bilmək istəyirlər.

– Məncə, birinci xoşbəxtlik – sağlamlıqdır.

– Cavanların çoxu bunu bilməz. Çünki hamısı buz baltası kimidir. Sağlamlıq əldən çıxandan sonra, əl-ayağın əsəndə qədrini bilirsən.

– Sağlamlıq, əlbət ki, böyük nemətdir, ancaq xoşbəxtliyi tamam buna bağlamaq düz olmaz. Bəzi sağlam oğlanlar var ki, küçələrdə avaradırlar, əməlli-başlı bir peşələri, işləri də yoxdur, tum çırtdamaqla məşğuldurlar. Ya da konsertləri, rəqs meydançalarını gəzib özlərinə yeni dəbdə geyim axtarırlar.

– Məncə, xoşbəxtlik odur ki, yaxşı bir evin ola!

– O qədər mülkədar, kapitalist var idi ki, bir yox, yüz ev, imarət sahibi. Amma həmişə ömrü başağrısı ilə keçir, qaşqabağından zəhər yağırdı.

– Xoşbəxtlik ona deyərəm ki, vəfalı ürək dostun ola, sadiq, etibarlı.

– Onun hamısı ayrı mətləblə bağlıdır, sənin cibin boş, özün əfəl olandan sonra hansı dost sənə yaxın gələr? İndi havayı dost azdır, milçək şirəyə yığılar. "Pulnan aşar hər iş!"

– Gözəl, mələk kimi arvadın ola!

– Əə, sən də söz danışdın. Dünyada hər bədbəxtlik göyçək arvadlının başına gəlir.

Oturanların hamısı güldülər, mübahisəyə qarışdılar.

Hər kəs başqasını dinləmədən, təsdiq etmədən öz fikrini deyirdi:

– Şirin yuxun ola, özü də məsum uşaq yuxusu!

– Yayın bürküsündə sərin pivə, qışın şaxtasında tut arağı, erkək ətinin kababı! Cücəplov... Xoşbəxtlik bu deyilmi?

– Əsil övladın ola!

– El içində hörmət ayrı nemətdir!

– Sandıq dolusu pulun ola.

– Böyük qulluğun, nazirlikdə də adamın, arxan ola!



– ...

Qoca müəllim sanki hamıya bir cavab verib söhbəti kəsmək istədi:

– Bilmədiniz, qardaş! Yemək-içmək, gəzmək, firavan yaşamaq insanı cismən təmin edər. Amma xoşbəxtlik ayrı şeydir. Siz deyənlərin hamısı, bəlkə nemət sayılar, ancaq həqiqi xoşbəxtlik onunla əmələ gəlməz.

– Bəs xoşbəxtlik nəyə deyirsən, ay müəllim?

Müəllim hamını süzdü, sağ əlini yuxarı qaldırıb şəhadət barmağı ilə, sanki üfüqləri göstərərək dedi:

– Xoşbəxtlik, əsl xoşbəxtlik nə siz deyənlərdir, nə də bu cavanların jurnalında yazılanlar! Ürəyindəkini gizlətməyi, hətta qəbrə aparmağı hünər sayanlar, XX əsrdə nədənsə çoxalıb. Bunlara təəccüb etməmək mümkün deyil. Bunlar xoşbəxtliyi ayrı şeydə axtarırlar. Mənim aləmimdə, dünyada xoşbəxtlik odur ki, ürəyindəkini, başındakını hər yerdə deyə biləsən! Həmişə, hər yerdə, hər kəsə ürəyindəkini deyə biləsən! Bax, bundan böyük xoşbəxtlik yoxdur. Məncə, bütün ölkələr, xalqlar, dövlətlər, başçılar öz vətəndaşlarına bu böyük və çox nadir neməti bəxş etsələr, dünyada zülm, kədər yox olar, ədalət bərpa olar, yer üzü işıqlanar, cənnətə dönər. İnsanlar "yüngülləşər", gözəlləşər, mələyə dönər! Yoxsa bu olmayınca əsl tərəqqi, kamil mədəniyyət, həqiqi sərbəstlik boş söhbətdir! Bu olmayınca, beyinlərdən şiş, ürəklərdən yara, ciyərlərdən vərəm, zehinlərdən tüstü-duman, qəlblərdən kin-küdurət tamam kəsilməyəcək! Mən buna inanıram.

Məclisə dərin, uzunsürən bir sükut çökdü!

*1964*

# HƏRƏNİN ÖZ İŞİ VAR

*Çörəyi ver çörəkçiyə,*
*Bir çörək də artıq!*

–Filankəs hörmətdən düşdü, lap gülünc günə qaldı!

Heç bir sovet adamına arzu eləmirəm ki, bu günə düşsün. Əvvəl hörmət, nüfuz sahibi olasan, sonra daha iki qəpiyə sayılmayasan!.. Bundan ağır dərd yoxdur.

Özü də insan bir qəbahət işləyəndə, pis bir hərəkət üstündə camaatın gözündən düşər.

Amma mən deyən adam, daha doğrusu, dostum, sizin də çox yaxşı tanıdığınız bir yoldaş belə olmadı. Onun hörmətdən düşməyi lap qəribə oldu.

Onu deyim ki, dostum heç bir qəbahət işləmədi, ondan heç bir fəna hərəkət baş vermədi. İşində, vəzifəsində də həmişəki kimi hünərini, mövqeyini saxladı. Amma bununla belə, camaatın gözündən elə düşdü ki, özü də mat-məəttəl qaldı.

Dostumu qoy gizlətməyim, adını deyim:

Mədəd Əhmədovu, şükür, hamınız tanıyırsınız. Rayonda onun əla pambıq ustası olduğunu, kolxozçulara nümunə göründüyünü bilməyən



yoxdur. İndi də rayonunda yaxşı pambıq becərəndir. Soruşacaqsınız ki, belə bir adam niyə hörmətdən düşsün?

Hörmətdən düşür, ona görə ki, hər işə qarışır! Bildi, bilmədi qarışır. Əslinə baxsan, Mədəd Əhmədovun özündə heç bir o qədər günah yoxdur. Günah bizim rayon ispolkomunda oldu. Elə ki Əhmədovun hər yerdə adı hörmətlə çəkildi, ispolkom da hər işi onunla, ancaq onunla məsləhətləşməyə başladı.

Rayonda mədəniyyət evi tikmək üçün layihə hazırlanmışdı. Layihə müzakirəsində ispolkom heç kəsin sözünə baxmadı. Mədəd Əhmədovu soruşdu. O da barmağı ilə layihənin hər bəndini bir cür qaraladı. İspolkom da razı oldu. Memarlar qaldılar kəsilə-kəsilə!

Şair Füzuliyə rayon mərkəzində heykəl qoyulurdu. Bizim rayonda bu layihənin müzakirəsi keçəndə ispolkom birinci Mədəd Əhmədovu çağırdı:

– Yoldaş Mədəd, nə deyirsən, Füzulinin başında papaq olsa yaxşıdır, ya olmasa? Heykəltəraşlara göstərin, qoy işləsinlər...

Mədəd Əhmədov da o yan-bu yana baxıb dedi:

– İstidir, papaqsız yaxşı olar. Papaq köhnə mövhumatdır.

Yenə rəssamlar, şairlər, ədiblər, heykəltəraşlar kənarda qaldılar.

İspolkom Mədədin tərəfində durdu. Pambıq briqadirinin rəyi şairin heykəlini müəyyən elədi. Oturanlar əvvəl briqadirə, ispolkoma hörmət qoyur, etirazlarını ucadan demirdilər.

Sonra ispolkomun briqadirə səcdə elədiyini görüb susdular və dağıldılar. İspolkom indi də öz işindədir, rayonda elektrik stansiyasını tikmək üçün çox vəsait hazırlanıb. Bu tədbirin də məsləhətini ispolkom Mədəd briqadirlə danışır:

"Hörmətli, sözü keçən yoldaşdır. Onun adı gələndə daha söz deyən olmur."

Camaat bunu görəndən sonra Mədəd Əhmədovun yüngül adam olduğunu yəqin elədi və üz döndərdi.

Bizim rayon İcraiyyə Komitəsi sədrinin qəribə xasiyyəti var: bir də görürsən aşpazı çağırıb məsləhət eləyir ki, bax, gör bu binanın layihəsi necədir? Xanəndədən paltar modunu, buruq ustasından musiqi alətini, dülgərdən qəzet işlərini soruşur və məsləhətləşir. Deyəndə ki, ay yol-

daş sədr, hər kəsin bir sənəti var, əli ilə rədd işarəsi verib, başını dik qaldırır:

– Köhnə zamanda elə idi. İndi bizim adamların hər işdən başı çıxır. Məni görmürsünüz! Nə peşənin desən ustasıyam!

İspolkom briqadiri övliya kimi müqəddəs eləyib qoyub ora, hər işi onunla məsləhətləşir, o da özündən müştəbeh olub.

İndi kimin böyrünə çiban çıxsa deyirlər, həkim-zad lazım deyil, briqadir Mədədə məsləhət eləsin!

Briqadir indi bir rişxənd qəhrəmanı olub. Daha tarladakı hünərindən də bir şey qalmayıb, çünki başı ucuz şöhrətə qarışıb. Bu yerdə deyiblər: getdi doğanaq dalınca, örkəni də qoyub gəldi.

Sonrakı peşmançılıq çətin bir fayda verə! Əlbəttə, itən hörməti qapı-qapı gəzib dilənmək olmaz ki! Keçənə güzəşt deyərlər!

*1964*



# ŞƏRAİT YOXDUR

Adam gərək naşükür olmasın. Qəzanın işidir, görürsən bəzən birinin əli gətirmir, bədbəxtlik basır. Qulluğunda, qazancında, ya səhhətində pozğunluq olur, düzəlmir. Onda şikayət deməyin də, eşitməyin də təhəri var.

Amma Məftilin işi elə deyil, axı, qardaş! Ayrı cürdür!

– Nə cürdür?

– Lap ayrı cürdür: Məftil Kəndirov sovxozda böyük qulluqdadır. Özü cavan oğlan, cibi dolu, kefi də lap saz. Yerişinə yer, duruşuna dağ küsənər. Məftil üç-dörd ildə özünü elə tutub, handa bir vəzifə sahibi ona paxıllıq eləyər.

– Özü necə?

– Özünü soruşmayın. Məftili dindirəndə dili şikayətə açılır, daim ağlayır: "Şərait yoxdur!" – deyib dad çəkir.

– Ay Məftil, maşallah, sənin stolun açılanda yığılmaq bilmir, gündə bir buyurtma kostyum geyirsən. "Volqa" maşınında rayondan gəlib yaylağa, yaylaqdan gəlib mərkəzə gedirsən. Sən niyə şikayət eləyirsən?

– Ə, sən elə bilirsən mən güzəran dərdi çəkirəm? Şükür, bir tikə çörəyimə nə gəlib. Amma ki qoymurlar dolanmağa!

– Yoxsa intriqaya düşmüsən?

– İntriqa nə şeydir, onun da öhdəsindən gələrəm. Ancaq şərait yoxdur, şərait!

– Nə şərait deyirsən?

– Dolanmaq şəraiti!

– Kim sənə mane olur?

– Mane olan birdi, bəyəm? Hamı!

– Başa düşmürəm nə deyirsən?

– Canım, dərd odur ki, yetirən sənnən ayaq-ayağa uzadır. Toyuq qaz yerişi yeriyir. Məni çürüdən budur! Deyirsən kostyum. O gün sifariş eləmişəm, əla trikodan handa bir kostyum gətiriblər. Geyinib bulvara çıxanda görürəm həmin kostyumdan şoferin də əynində, susatanın da, Allahın tələbəsinin də əynində! Daha bu nə oldu? Belə də yaşayış olar? Əşi, Moskvadan gələn handa bir teatrın tamaşasına getmişəm, görürəm, aşpaz məndən qabaqda oturub, süpürgəçi lojada... Dünən bir xanım ilə tanış olub, isvidani vermişdim, cibinə də filan qədər pul qoymuşdum. Gəlməməyi cəhənnəm, gedib görürəm restoranda bir qəzetsatan ilə qabaq-qabağa əyləşib. Cin başıma vurdu, bilmədim neyləyim, xancalım olsaydı, it qızını tikə-tikə doğrayardım. Durdu gəldi, nə salam, nə kəlam, redikülündən paçka ilə çervon çıxarıb verdi: "A filankəs, – dedi, – sağ ol! Al, borcunu qaytarıram." Yanındakı qəzetsatan da elə geyinib, deyərsən mən onun qapıçısıyam... Məftil başına nə daş salsın, qızmasın neyləsin, a qardaş? Daha bu nə oldu? Vəzifə sahibi ilə adi adam ayrılmasın? Bu nə dolanmaq, nə həyat oldu? Özün qulluq sahibi, cibin də dolu, amma gedib-gələn ki, səni adam yerinə qoymur, daha bu nə güzərandır? Bir şərait yoxdur ki, adam kimi, necə lazımdır oturub-durasan! İnan ki, yoxdur şərait!.. Hirsimdən qəzetsatanı nərd oyununa çağırdım. Bilirsən ki, bu zəhrimarı mən bilənəm, handa bir çempionu ilə oynamışam. Qəzetsatan məni birinci oyunda mars elədi, böyrü üstə yıxdı. Bütün istirahət günümə soğan doğradı. Kor-peşman evə qayıtdım... Görürsən də, pulun da var, qulluğun da var, amma beş kişinin qabağında adam kimi öskürüb keçməyin yoxdur. Sən keçəndə, elə bil, pişik keçir, ya toyuq keçir. Dünya elə pis olub, adamı saya–hesaba alan yoxdur. Bu şəraitdə neyləmək olar? Adam dığ azarı gətirər, canım! Hanı o günlər ki mən sovxoza gələndə bir kəs cınqırını çəkə bilmirdi, heç kəs mənə Məftil demirdi, yoldaş Kəndirov deyirdi. Çünki Kəndirovun zəhmi gözlər qorxutmuşdu, dizlər titrətmişdi. Amma indi, orda-burda "Məftil, Məftil!". Üzümə də deməsələr, daldada "Məftilcik" deyirlər... Məftili qırmağa nə var, davamsız şeydir. Bu şəraitə nə Məftil dözər, nə Kəndir!.. Allah özü kömək eləsin mənim kimisinə! Öz cəlalı xatirinə.

– Amin, ay Məftil, amin!

*1964*

# YAYLAQ MƏSƏLƏSİ

Bakıda yaylaq söhbətləri tez başlanır, martın narın, seyrək və səssiz yağışları kəsilən kimi, şimal küləyi dayandımı, istilər yada düşür. Apreldə, mayda Bakı evlərinin eyvanında adamların ailəliklə əyləşib nahar elədiyini, çay içdiyini görərsən. Mühəndislər sağ olsunlar ki, indi eyvansız ev tikmirlər. Çünki doğrudan da belə milyonlu, izdihamlı, cənub, sənaye şəhərində açıq havada əyləşmək bir istirahətdir.

May günlərindən birində Mirzə Qədirin dənizə baxan eyvanında nahardan sonra dostlar söhbətə əyləşmişdilər. Məsləhətləşirdilər ki, yayı harada keçirsinlər. Hər kəs öz arzusunu bildirir, tanışlarını öz yanına çağırırdı:

– Canın üçün, Balaoğlan, Kislovodskinin bazarına çıxdımmı, qaraçaylılar başıma dolanırlar. Şaqqanı endirib kilosu bir manatdan, bir manat on qəpikdən təptəzə ət verirlər ki, bişirmək nədi, çiy-çiy yemək istəyirsən!

Əmirəli vacib bir hesabı yoxlayan adam kimi barmaqlarını bir-bir büküb sayırdı:



– Kəhrəba kimi kərəsini, kərpic kimi qaymağını, şüşə kimi balınımı deyim, şirin əriyini, turş gilasını, tər kahısını, sərin çiyələyini deyim, hansını deyim? Mən həmişə ağız ləzzətini o yaşıl təpələrdə görmüşəm. Yamacları dolanıb "Xram vozduxa"ya qalxanda elə bilmişəm cənnətin yeddinci qatındayam. Başımda da əlvan qanadlı mələkə! Beşgünlük dünyada gərək elə gün keçirəsən ki, sabah qocalanda arzu-kamın qalmasın, peşman olmayasan. Başın haqqı, düzünü deyirəm!

Əmirəli nağılını elə ürəkdən danışırdı, eşidən deyərdi bu kişi dünyada ayrı yer görməyib, getdiyi yaylağa həmişəlik vurulub.

Balaoğlan bunlara xüsusi diqqətlə qulaq asırdı. Ona görə qulaq asırdı ki, Əmirəli hamıdan əvvəl ona müraciət edir, başına and içib inandırırdı. Bir də Balaoğlanın öz deyəcəyi var idi. O, Əmirəlinin Kislovodsk təbliğatını çox eşitmişdi, təzə də bir söz gözləmirdi. Bilirdi ki, Əmirəli yeyib-içən, keyf çəkən adamdır. Getdiyi yerdə birinci məqsədi mədə-bağırsaq məsələsidir.

Buna görə də Balaoğlan hərifin cavabına söz axtarırdı. Özünün yaylaq tədbirlərindən danışacaqdı:

– Əmirəli, qardaşım, dedin qurtardın, di mənə qulaq ver! Qoy bu kişilər də eşitsinlər: sənin Kislovodskini görmüşəm də, sənin təriflərini dönə-dönə eşitmişəm də. Düzdür, belə həvəs ilə deyib-danışırsan, amma mən ki o Kislovodskidə bir gün görməmişəm. Atama lənət görmüşəmsə. Görməmişəm, qardaş! Qulaq as, gör nə deyirəm: yemək, içmək, nə bilim, yağ, qaymaq ki deyirsən, doğrudur. Axı, istirahət, yaylaq, elə qarın otarmaq deyil, a qadan alım! Yeməyi insan hər yerdə tapar da, yeyər də. Yemək nə olsun?

Əmirəli müsahibinin sözünü kəsmək istədi:

– Bəs sən yaylağa, görünür, oruc tutmağa gedirsən?

– Oruc tutmasam da, qarın otarmağa getmirəm.

– Bəs niyə gedirsən – yatmağa?

– Qulaq as. Sən mənə de görüm, həmin o Kislovodski yaylağında bəslənib kökələndən sonra neçə sutka ilə bilet növbəsinə dayanırsan ki, evinə qayıdasan? Neçə yerdə basabasa düşürsən? Neçə adama yalvar-yaxar eləyirsən?

– Sezonun axırında iki gün əziyyət çəkəndə qiyamət olmaz ki, Ba-

laoğlan?

Məclisdəkilər güldülər. Balaoğlan söhbəti dayandırmadı:

– İki gündə iki aylıq istirahətin burnundan tökülür.

– Vaqon bileti səni qorxutmasın, beş şahı artıq verəndən sonra bilet paketdə evə gələcək!

– Əşi, qulaq as, Kislovodskidə olan kök, qara milçəklər hansı yerdə var? Dünyanın heç yerində! Bir şəhərdə ki kanalizasiya olmadı, oranın üfunəti insanı təngə gətirər. Sən niyə birtərəfli danışırsan, Əmirəli? Onu da de, bunu da de!

– Birtərəfli niyə, lap düzü belədir ki, danışıram.

– Qulaq as, gör nə deyirəm. Gəl, daşı ətəyindən tök, bir dəfə də mən deyəni eşit. Bax, karvanını sür lap bu yaxına, Bakı bağlarına, gör nə görərsən! Əmirəlinin canı üçün, sarı əncirin altında, ağ qumun üstündə, dolu çarhovuzun yanında qara şanı qabağımda, naxışlı nərdtaxtanı ki açıram, zərlər rəqqasə kimi hoppanır, hər dəfə düşeş-dübeş verir. Sən bu mənzərəni harda görə bilərsən, əzizim. Atalar da deyib: ab, atəş, xak, bad! Yəni, suyun da, günəşin də, havan da, torpağın da yanında, evin içində! Bu istirahəti sən niyə qiymətləndirmirsən, canım! Gecələr də ləpələrin laylası ilə, münəccimlər kimi ulduzları saya-saya yuxuya gedirsən.

– Duranda da görürsən, yastığın, yorğanın su içində.

– Mən sudan qorxan deyiləm, gecəyarısı dənizdə az çimməmişəm!

– O keyfi Allah mənə qismət eləməsin, Balaoğlan!

Burayacan susub papirosuna güc verən Cəmilbəy, sanki, iki dostun mübahisəsindən bezib işə qarışdı:

– Yalan sözdür, Əmirəli, söz güləşdirməyin! Bağ da yalandır. Kislovodski də naçarlıqdan olan şeydir. Əfvayı sözdür, əfvayı!

O, ayağa qalxıb şəhadət barmağını silkələdi, eşidənləri hədələyən kimi səsini ucaltdı, ahəngini dəyişdi, gözləri parladı:

– Yaylaq demişəm, bax, bizim qaragöz meşəli, durnagöz bulaqlı Gəncə dağlarına. Ağır keçələri açıb, alaçığı qurursan, içinə girən kimi görürsən vəhşi təbiət səni gözləyirmiş, kəhər at kimi kişnədi. Yağış göydən şıdırğı tökür, ildırım çaxır, göy guruldayır, qoyun-quzu mələşir, sel yamaclar boyu şaqqıldayır. Bədəninə birdən-birə üşütmə gəlir, bürüncək axtarırsan. Çoban hər qoyunun altından iki quzu çıxarıb alaçığa qa-



çırdır... Yaylaq demişəm buna! Bu dədə-baba kənd mənzərəsinə. Nə radio, nə qəzet, nə konsert. Qara qoyunun əmcəyindən çıxan südü soyumamış başına çəkirsən. Buğda yuxasından yazın ətri, yumurtadan yarpız iyi gəlir. Bilmirsən dünyanın harasındasan, hansı əsrdəsən. Yaylaq, bax, belə olar. Yoxsa Kislovodskinin küçələrində boynuvun qalstukunu bərkitmək, üfürə-üfürə basanoşka geymək, gündə iki dəfə üzünə ülgüc çəkmək ki, artistkalar baxsınlar... Restoranlarda da oturmaq üçün kürsünün növbəsində durmaqdan qıçlarına qara su enmək... Yox, yox, qardaş, bu yaylaq olmadı, oldu əsl başağrısı, ürək sıxıntısı. Əmirəli, acığın tutmasın, burda sənin təbliğatına aldanan olmayacaq! Məndən soruşsan, nə kurort, nə də Bakı bağı. Dağ, laləli dağlar! Ana təbiətin qucağındakı rahatlıq harda var?

Müsahiblərin bugünkü söhbəti Mirzə Qədirə xoş gəlmirdi. Əvvəl güman edirdi ki, axşam sərini düşər, mövzu dəyişər, keçib gedər. Sonra gördü yox, yoldaşlar elə-belə, qəsdən yaylaqları təhlil eləyir, öz mülahizələrini deyib təkid edirlər. Maqazin müdiri Əmirəli danışdıqca vəcdə gəlir, başqalarına macal vermirdi. Mübahisə aparanlar ev sahibinə müraciət etmirdilər. Bilirdilər ki, faydasızdır. Mirzə Qədir hər il məzuniyyətini maraqlandığı ölkələrdə səyahətlərdə, gəzməkdə keçirər, gördüklərindən də mətbuata müəyyən səhifələr, lövhələr yazardı. Bugünkü söhbəti eşitsə də, iştirak etmək, yer seçmək, yaylaq bəyənmək qəsdi yox idi. Üzünü Əmirəliyə tutub müəllim ahəngilə, ahəstədən, lakin get-gedə səsini ucaldaraq danışdı:

– Bayaqdan bəri söhbətinizi diqqətlə eşidirəm. Sözüm yox. Bir manatlıq əti, kərəni, balı, qaymağı... Hamısı nuş olsun. Sözüm yox. Əmirəli, mənə aydın olmayan bir-iki mətləb var ki, istərdim sizdən eşidə idim. Bütün bu dadlı şeyləri alıb süfrənizə ki düzmüsünüz, sizin müsahibləriniz, həmdəmləriniz kim olacaq? Başınıza kim yığılacaq?

Əmirəli Mirzə Qədirin sualına güldü, başını yellədi:

– A sağolmuş, həmdəmə nə var! Dünyada birinci həmdəm, müsahib cibindəki pul! Pulum olandan sonra yoldan keçən handa bir xanım məclisimdə məmnuniyyətlə əyləşəcək!

Əmirəli təzədən qızışdı:

– Bilirsiniz ki, mən özüm dədə-babadan subay adamam. Subaylığı da, necə ki soltanlıq, üstün tuturam. Getdiyim yerdə heç vaxt korlu-

ğum olmayıb. Ev sahibindən xahiş eləyən kimi adam çağırır, mənim bazarıma, xörəyimə, sahmanıma, istirahətimə nə lazımsa, necə ki var, yerbəyer eləyir. Şimali Qafqazda mənim kimi vaxt keçirməyə gələnlər nə çox!

– Görünür, hər il sizin həmdəmləriniz dəyişir, təzələnir?

Əmirəli iftixarla əlini sinəsinə qoydu, razılıq işarəsi verdi:

– Bəli, bəli, atalar yaxşı deyib: hər şeyin təzəsi!

– Dostun köhnəsi deyiblər, axı?

– Yox, Mirzə Qədir, köhnəlik mövhumatdır. Təzəsi, mən təzəpərəstəm: siz qəzetdə də deyirsiniz ha! Novator! Mən soltanlıq buna deyirəm. Mən özüm də bir cür novatoram. Hamı evlənir, mən yox!

Əmirəli sağına, soluna baxdı, kənardan eşidənlər olmasın deyə, ehtiyatla əyilib Mirzə Qədirin qulağına pıçıldamaq istədi:

"Yoxsa, məzlum bir Allah bəndəsinin sifətinə neçə il baxmaq olar? Bu, zülmdür ki! Yox, mən buna dözə bilmərəm!"

Mirzə Qədir ayağa qalxıb eyvanda bir qədər gəzindi, təkrar bu söhbətə qarışmağına məyus olub susdu, alnını ovxaladı, qarşısındakı qəzeti götürdü. Deyəsən, açıb oxumaq istəyirdi. Nədənsə qatladı, bir də qatladı. Yumruğu ilə sürtüb yastıladı, yenə qatladı, kiçiltdi, cibinə qoymaq istəyəndə nə fikirləşdisə, əlində silah kimi düz tutub silkələdi. İrəli yeridi, nəsə demək istədi. İndi o, üzünü Əmirəliyə yox, Cəmilbəyə tutub bir qədər əsəbi tərzdə, sanki dediklərini qiraət ilə, maşında yazılmaq üçün aydın ifadə edirdi:

– Dostum, görünür, bizim işləmək barəsində olduğu kimi, dincəlmək barəsində də ixtilafımız var.

Əmirəlinin səsi təkrar eşidildi:

– Dincəlməyin nə ixtilafı? Hər kəsin puluna minnət!

Cəmilbəy özündən şübhələndi:

– Mirzə Qədir, bizim həmfikir olmağımıza kim şübhə edə bilər?

– Dincəlmək cürbəcür olur.

– Əlbəttə, hər kəsin bir zövqü!

– Mən qarın barəsində, işrət barəsində demirəm.

– Libas, geyinmək, kecinmək...

– Xeyr, mən ayrı şey deyirəm. Mən köklü bir məsələni demək istəyirəm.



Mirzə Qədir susdu, ətrafa baxındı. O istəyirdi ki, bu mətləbi heç kəs eşitməsə də, Əmirəli eşitsin... Qəsdən onun yox, yenə ərk elədiyi Cəmilbəyin adını tutdu:

– Cəmilbəy, dincəlmək də böyük məsələdir. İnsan gələcək işini, niyyətini, arzu və planlarını bəzən dinclikdə düşünür, arxayın zamanda düşünür, ruhlanır. Dincəlmək cəmiyyətin vətəndaşlara bəxş etdiyi bir vacib hüquqdur. – Mirzə Qədir bir qədər susdu, əlavə etdi: – O adamlar yaxşı dincələrlər ki, onların buna haqqı olsun! Bəli, dincəlmək haqqını qazanmaq lazımdır! Özü də alın tərilə qazanmaq! Belə bir haqqı qazanan adamların hansı yaylaqda, hansı məskəndə, hansı vaxtda – bağda, dağdamı, havada, ya dənizdəmi dincəlməyə tamamilə ixtiyarı var. Qaldı müsahib barəsində. Əlbət ki, istirahətlə gərək təmin olunasan. Mən mənəvi təminatdan danışıram. Güləşqabaq, xoşsifət, mərifətli, düşüncəli, mühakiməli, qanacaqlı yoldaş mənə musiqidən də munis, əzizdir. Yoxsa, Allah göstərməsin, bir yonulmamış, nahəmvar ilə müsahib olsan, dünyanın neməti yığılsa, yenə ruhun əzabda olacaq. Sizi bilmirəm, mənim xasiyyətim belədir. İstəmədiyim, təbiətimə yad bir vücud ilə bir saat müsahiblik eləmək illərin sürgünündən ağırdır. Ağırdır, çünki, burada mənəvi əzab, ruhun əzilib xırpalanması var.

Məclisdəkilər Mirzə Qədirin sözlərinə bəhs açmadılar. Hər kəs ürəyində o kişinin arzusunu düşünür, özünü belə bir yoldaşlıq ləyaqətində sayır, başqalarında isə qüsurlar axtarmağa çalışırdı. Əmirəli düşünürdü ki, Mirzə Qədir – bu qədər gəzən, yazan, danışan adam, yenə müsahibdən şikayətlənir. Ya içkidə, oyunda hərif axtarır, ya da məclis qurmağa pulu çatışmır. Qənaət ilə dolanan adamın nə yoldaşı, nə yoldaşlığı? Əmirəli istəyirdi bu barədə müsahiblərlə danışıb öyrənsin, ancaq bilmirdi kimdən başlasın. Hər kəsə yanaşanda sanki Mirzə Qədirin mənalı, zəhmli baxışları onu vahiməyə salırdı. Bilmirdi belə sözü necə, harada danışsın?..

Müsahiblərin söhbəti bir neçə saat çəksə, axşamdan xeyli keçsə də, yaylaq məsələsi yenə həll olunmadı...

*1964*

# MÜSƏLMANLIQ VƏ TEXNİKİ TƏRƏQQİ

Bəzi ağzıgöyçəklər orda-burda danışır ki, guya müsəlmanlar, yəni mömin bəndələr geri qalır, əsrin tərəqqisindən, texnikasından faydalanmır, faydalanmağı bacarmırlar, filan, behman!..

Yalan sözdür! Bu lap ağ yalandır!

Mən deyirəm ki, tərəqqidən, texnikadan fayda götürmək məharətini dünyada heç kəs, özgə şəxslər müsəlman qədər bacarmaz, bacara bilməz!

Sübut?

Qulaq asın, sayım!

Götürək savad işini. Sovet hökuməti qurulandan bəri hər yerdə məktəblər, texnikumlar, institutlar açılıb, on minlər, yüz minlər, hətta milyonlarla camaat oxuyub savad öyrənir, həyata çıxır.

Bəs müsəlman necə? Müsəlman da savad öyrənir, əli qələm tutandan sonra oturur evində, başlayır qonşusundan, dostundan, tanışından heyif almağa, imzasız məktublar yazıb hökumət idarələrinə material göndərməyə.



Dünən bir dostumun evinə getmişdim, dostumun arvadı iki kilo ət alıb gətirmişdi, mənə kabab bişirmək istəyirdi. Ev sahibi o yan-bu yana baxıb pıçıltı ilə xanımını başa salır, qonşuya işarə edirdi:

– Ay arvad, sən atanın goru, bizi işə salma. Balkonda tüstü çıxan kimi mərdimazar oğlu (işarə ilə qonşusunu göstərdi) götürüb hər yerə yazacaq ki, bəli, burada qoyun kəsən var, yeyinti var, düşmən var!

Dostum ərk ilə mənə eşitdirir, arvadından xahiş eləyirdi:

– Bu özgə deyil, bizdən incimez. Sən tüstü-zad salma, o xəbis oğlunun əlinə material vermə, yazmağa bəhanə axtarır. Allah onun yazan barmağını sındırsın... Neçə surət yazır, hərəsini bir yerə, özü də dalınca düşüb qurdalayır...

Bəs bunun özü tərəqqidən, savaddan istifadə deyil, nədir?

İkinci bir misal:

Ayrı bir müsəlman tanıyıram ki, dostunu nahara çağırıb. Ceyran kababı, beşillik konyak gətirib, süfrə açıb, qonağını möhkəm kefləndirib, başlayıb o yan-bu yandan söz salmağa, sual verib danışdırmağa.

Xəlvətcə də, stolun altına maqnitofon qoyub. Kişi idarələr əleyhinə, nazirin dalınca nə danışıbsa, hamısı lentə yazılıb. Sabahısı gün həmin müsəlman lenti aparıb qoyub nazirin qabağına, dostunu işdən qovdurmamış rahat olmayıb.

Bəs bu tərəqqi deyil, texnikadan istifadə deyil, nədir?

Üçüncü bir misal:

Qəbiristanlıqda yasin satan mollanın işini kim bilmir? Maqnitofon çıxan kimi, molla birini alıb, yasini lentə yazdırıb. İndi daha özü heç ağzını açmır, ayəni dilinə gətirmir, yasinin pulunu alır, maqnitofonu işlədir. Hər yarım saatda bir-iki müştərini yola salır. Doğrudur, möminlər danışır ki, lentə yazılan yasini o dünyada murdar sayıb qəbul eləmək istəmirlər. Amma möminlər buna da çarə tapırlar: cənnət hesabdarlarını görüb düzəlişiblər. Çox zaman lentlərdə lətifələri, konsertləri də yasin adına yeridirlər gedir.

Bunun özü texniki tərəqqi deyil, bəs nədir? Texnikanın bu cür təcrübədə həyata tətbiqini ancaq həqiqi müsəlman bacarar.

Bunlara gərək xüsusi mükafat təyin oluna.

*1965*

# ƏMZİK

Ağizlarda deyilənə görə "xırda məsələ" idi. Ancaq iclasın hazırlığı, gələn adamlar, sədrin təşvişi böyük məsələdən xəbər verirdi.

Elə də oldu. Sədr sözə həmişəki kimi oturduğu yerdə başlamadı. Ayağa durdu, gələnləri bir-bir, diqqətlə süzdü, gəlməyənləri katibədən soruşdu, nömrə kitabını açıb telefonu olanlara zəng vurdurdu, axırda üzünü katibəyə tutdu, amma sözünü ucadan, ümumi iclasa dedi:

– Görünür ki, yumşaqlıqla iş aşmır. Adamları pis öyrədirik. Qəmər xanım, sizdən xahiş edirəm, gəlməyənlərin siyahısını tutun, səbəbini soruşun. Qoyun izahat yazsınlar görək, hansı vacib işlərini rəyasət heyətinin iclasından üstün tuturlar və kimdən icazə alıblar. Mütləq izahat alın, günü sabah!

Sədr üzünü camaata tutdu, səsinin ahəngini dəyişib iclası açdı:

– Bugünkü müzakirəmizdə bir məsələ var, şəxsi məsələdir. İslam İslamovun hərəkəti müzakirə olunacaq. Oblast İcraiyyə Komitəsindən bizə məktub yazıblar. Icazə verin, katibə məktubu oxusun, müzakirəni açaq. Qəmər xanım, buyur, məktubu oxu. Qoy yoldaşların hamısı eşidib



agah olsunlar!

Sədr bunu dedi, göy zərfin içindən çıxardığı iri vərəqi katibəyə verdi:

– Oxu! Ucadan oxu! Yoldaşlar, xahiş edirəm, diqqətlə qulaq asın!

Qəmər xanım İcraiyyə Komitəsinin həmkarlar komitəsinə göndərdiyi məktubu oxudu:

"Sizin idarənizin işçisi, Həmkarlar İttifaqının üzvü İslam İslamov xırda məsələlərlə böyük təşkilatları məşğul edir, vaxt alır, dövlət aparatının işinə mane olur. Həmin vətəndaşın yaraşmaz məktubunu sizə göndərib məzkur haqqında tədbir görmənizi və bu barədə bizə xəbər vermənizi gözləyirik..."

Katibə məktubun imzasını oxuyanda iclasdakılar maraqlandılar:

– İslam nə yazıb, görəsən?

– Yəqin otaq istəyir.

– Bəlkə, bağ məsələsidir?

– Islamın İcraiyyə Komitəsində nə işi?

– Islama söz verək, özü danışsın.

Sədr çox bükülüb-açıldığı, əldən-ələ düşdüyü kənardan məlum olan bir məktubu ehtiyatla Qəmər xanıma verdi.

– Bunu da oxu!

Birinci məktub makinada çap olunmuşdu, aydın idi. Ona görə də asan oxundu. Islamın ərizəsi əl xətti ilə, səliqəsiz yazılmışdı. Qəmər xanım cümlə-cümlə, çətinliklə oxudu. Bu ərizə Ticarət Nazirliyinin ünvanına tənqidi qeyd kimi yazılmışdı. Orada bu sətirlər də vardı:

"Yoldaş nazir, sizə başağrısı olmasın, axı, bizim ticarətimiz planlı ticarətdir. Gərək vətəndaşların ehtiyacı sizin nəzərinizdən qaçmasın. Adi əmzik, uşaq əmziyi nədir ki, o bizim şəhərimizdə tapılmasın? Mağazaları bir-bir gəzmişəm, qonşu şəhərlərə də maşın sürüb axtarmışam, əmzik yoxdur. Bu, axı, elə bir mal deyil ki, istehsalı çətin olsun, ya texnikasına gücümüz çatmasın. Adi əmzik! Daha danışmağa utanıram..."

Məktub hərəyə bir cür təsir bağışladı. Kimi ürəyində İslama haqq verdi, kimi onu danladı, kimi İcraiyyə Komitəsi sədrinin hərəkətinə irad tutdu. Amma heç kəs sözünü demək üçün qabağa düşmək istəmədi.

Adamlar bir müddət sükuta getdilər. Yenə sədr başladı:

– Yoldaşlar, biz şüurlu və mədəni adamlarıq. Hər şeydən əvvəl, sovet adamlarıyıq. Bizə yaraşmaz ki, xırda bir məsələ üçün böyük idarələri töhmətləndirək. Sovet hökuməti bizə savad öyrədib, ona görə öyrətməyib ki, həmin savad ilə qayıdaq onun təşkilatlarının əleyhinə qələm çalaq. Bu çox nalayiq hərəkətdir ki, İslam eləyib! Bilmirəm, yoldaşlar buna nə cür mənа verəcəklər. Ona görə də müzakirəyə qoymuşuq ki, Həmkarlar Komitəsi həmin adam haqqında qəti fikrini desin. Biz razı ola bilmərik ki, türkün məsəli də birtəhər gəlir. Yoldaşlar, axı, soğanın adı birdir. İslam demirlər, bizim idarənin işçisi deyirlər. Görürsünüz, necə hörmətli yoldaşları bu hərəkətlə narahat edir?! Belə olmaz, yoldaşlar! Xalq istehsalat planı doldurur, əməkdə rəşadət göstərir. Bizim bəzi üzvlərimiz də belə işlər ilə məşğul olurlar.

– İslam qoy özü danışsın, səhvini boynuna alsın!

– Ticarət Nazirliyi də o məktubu nahaq yuxarılara göndərib.

– Borcudu göndərsin! O gizlədə bilməzdi.

– Əmzik məsələsi böyük məsələdir!

Bəziləri danışdı, bəziləri güldü, bəziləri replika ilə kifayətləndi. Axırda iclas lazım bildi ki, İslama şifahi tapşırıq versin ki, bir də öz işini-gücünü buraxıb xırda məsələlərlə böyük idarələrin vaxtını almasın. Əmzik barədə o yan-bu yana kağız yazmağın özü bir yüngüllükdür. Sovet adamına bu yüngüllük yaraşmaz. Sovet adamı gərək, atalar demişkən, ağır otursun, batman gəlsin...

İslam gördü ki, danışanlara cavab versə, söhbət uzanacaq, danışmadı. Yuxarıdan gələn kağız, sədrin bu canfəşanlığı, hər halda İslamın ziddinə bir tədbir ilə nəticələnməlidir. Bu həngamədən "şifahi tapşırıq"la qurtarmaq çox şükürlüdür.

Məsələ qurtarandan sonra camaat dağılışmağa hazırlaşırdı ki, ağsaç bir müəllim söz aldı:

– Burada doğru dedilər. Sovet hökuməti bizə savad öyrədib. Savad öyrədib ki, bunu biz yaxşı işlərdə xalqın tərəqqisində, mədəniyyətində işlədək. Onu da doğru dedilər ki, xırda məsələlərlə böyük idarələrin başını qatmaq olmaz, çünki böyük idarələrin də böyük işi var. Şəhərimizdə çox böyük planlar tutulub ki, bunlar gərək həyata keçirilə.



Amma bircə mətləb var ki, onu mən başa düşmürəm, görürəm, onu İslam da başa düşmür. Axı, a yoldaşlar, bizim şəhərimizdə niyə gərək əmzik olmasın! Bir şəhərdə ki, ildə iki minə yaxın uşaq doğulur. Qız olsun, oğlan olsun, azəri olsun, rus olsun, ya ayrı millət olsun, doğulan uşağın hamısının da ağzı var. Belə bir şəraitdə niyə gərək bizim mağazalarda əmzik tapılmasın? Bircə mən bu mətləbi anlamıram. Yəqin ki, İslam da bunu anlamır. Bizim iclasımız qərar çıxarır, amma bir ticarət nazirindən soruşmur ki, bu nə işdir? Axı, əmzik barədə söhbəti İslam salmasa da, başqa bir ata, ayıq bir adam salacaq, ya yox? Nazir yoldaş o yan-bu yana şikayət yazmaqdansa əmzik satsa, yaxşı olmazmı? Mən təklif eləyirəm, bu sualı yazıb nazirə göndərək, qoy cavab versin!

İclasdakılar gülüşdülər, zarafata saldılar:

– Yoldaş müəllim, nazirə qalsa, gərək xüsusi iclas çağırıla. Orada əmzik məsələsi, ya da İslamın əxlaqı müzakirə oluna!

Kim idisə əlini-əlinə çaldı, yerindən dilləndi:

– Bəzi nazirlərin özünə əmzik vermək lazımdır.

– Bəlkə İslam əmziyi elə onun üçün axtarırmış?!

İslam özünü saxlaya bilmədi:

– Yox, mən körpə uşağım üçün axtarırdım, tapdım. Mərkəz mağazalarından tapdım. Daha şikayətim yoxdur!

*1965*

# YAMANLIĞA YAXŞILIQ

Ön cəbhədə, Kerç rayonunda yaralanıb xəstəxanaya düşmüşdüm. 72 günlük müalicədən sonra təzəcə həyata, gün işığına çıxmışdım ki, Mərkəzi Komitəyə çağırdılar. Respublikanın ən böyük institutlarında birinə rəhbər işə təyin etdilər.

Mən əvvəldən də ali məktəbdə, alimlər arasında işləmişdim, bu mühitə bələd idim. Burada çalışmaq da ürəyimdən idi. Amma indi, müharibə şəraitində, ölkənin bu ağır vəziyyətində ali məktəbin özü cəbhənin bir qanadı, məktəb işçiləri də döyüşən ordunun sıra nəfərləri kimi idilər.

Adətən, məktəb rəhbərliyi dərs ilə, proqram, dərslik, mühazirə, lektoriya ilə məşğul olar. Amma indi bizim iş üsulumuz tamam dəyişmişdi. Partiyanın məşhur, müqəddəs bir şüarı hər yerdə olduğu kimi, ali məktəbdə də hamının – tələbənin, müəllimin, laborantın, professorun da iş proqramı olmuşdu:

"Hər şey cəbhə üçün, hər şey qələbəmiz üçün!"

Düşmən göydən bomba tökdüyü bir zamanda daha sinif jurnalını



diqqətlə oxumaq, tələbə konspektlərini yoxlamaq, dəftərlərdə nöqtə, vergül saymaq vaxtı deyildi. Gün olmurdu ki, bizim institut səngər qazmağa, təyyarə hücumu saatlarında damlarda növbə çəkməyə, atəş xəttindən arxaya köçüb gələnləri qarşılamağa, qospitallarda, ev idarələrində, vağzallar, vaqonlar, aeroportlar, təyyarələr və tərsanələrdə siyasi iş aparmağa getməsin. Axşamlar isə bütün müəllimlər xalq ordusu sıralarına hazırlıq üçün hərbi təlim keçirdilər.

Küçədə köhnə dostlarımdan biri mənə rast gəldi:

–A filankəs, kefin necədir? İnstitutda nə var, nə yox?

–Kefimiz elə səninki kimidir. İnstitutda da ki, son üç ay ərzində neçə müəllim dəfn etmişik, hesabını bundan götür.

Dostum başını aşağı salıb sükut elədi.

Ərzaq çətinliyi elə bir dərəcəyə gəlib çatmışdı ki, çörək kitabçasını itirmək faciəli bir hadisə idi. İşləyənlər beş yüz, işləməyənlər isə üç yüz qram norma çörəyi alırdılar. Alan kimi də çay ilə yeyib qurtarır, səbirsizliklə sabahkı normanı gözləməli olurdular.

Belə dəhşətli günlərdən birində səhər institut rektoruna rast gəldim, salamlaşdıq və əhval soruşdum:

–Şad xəbər var, – dedi, – şokolad yeyəcəyik!

Bunu dedi, Müdafiə Komitəsinin yeni tapşırığını mənə danışdı. Elmi işçilər üçün əlavə ərzaq norması təyin olunmaq barəsində xüsusi qərar verilmişdi. Bu qərar haqqında xəbər ziyalılar arasında böyük və təbii sevincə səbəb olmuşdu. Bizi cəbhəçilər kimi təchiz etmək qərara alınmışdı. Ali məktəb işçilərini Mərkəzi Komitəyə yığıb ciddi tapşırıq verdilər:

"Ölkənin bu ağır vaxtında partiyanın qayğısı həqiqi alimlər, xalq və Vətən xadimləri üçündür. Diqqətli olun, adamların sənədlərini bir-bir yoxlayın. Bu qərardan təsadüfi adamların faydalanmasına yol verməyin. Bir nəfər də ləyaqətsiz adam bu böyük imtiyazdan istifadəyə yol tapmamalıdır. Alimlərin fərdi siyahıları, institut rəhbərlərinin şəxsi məsuliyyəti altında təqdim edilməlidir: professor, dosent, assistent rəsmi sənədlər əsasında yoxlanıb siyahıya salınmalıdır. Siz bu işdə kommunist kimi, partiya bileti ilə məsuliyyət daşıyırsınız..."

Elm adamları və ailələri üçün həddən artıq fərəhli olan bu hadisə

məndə sevinc ilə yanaşı, böyük bir təlaş da doğurmuşdu. Təyin olunan limitin bölgüsündə zərrə qədər buraxılan səhv bəzi adamları, xüsusən, mənim kimi idarə rəhbərlərini hərbi tribunala apara bilərdi.

Həmin axşam işçilərin şəxsi işlərini qaldırıb bir-bir yoxlamalı, siyahı tutmalı olduq. İnstitut işçilərini-professorundan tutmuş laborantına qədər, az-çox tanıyırdıq. Partiya komitəsi katibi Alışan cavan olsa da, mən bu idarənin lap yarandığı gündən işləyirdim. Bəziləri mənim müəllimim, bir çoxları isə tələbəm olmuşdu.

Ancaq o günlərin iş üsulunda, xüsusən, bəzi idarə rəhbərlərində belə bir vərdiş var idi ki, canlı adamdan çox sənədlərə, anket, vəsiqə, diplom və xasiyyətnaməyə daha çox diqqət yetirir, mənə verirdilər.

"Filankəs necə adamdır?"

Bu adi, təbii suala bəziləri belə cavab verirdi:

"Anketini yoxlayıb deyərəm!"

Həyatda, aşkarda yaxşı tanıdığın, hörmət qoyduğun adama, anket məlumatından sonra münasibətini dəyişməli olurdun. Sənəd, vəsiqə fetişizmi o yerə çatmışdı ki, canlı adamın sözü, işi, hərəkəti yox, kağızları əsas götürülürdü... Buna görə də bəzi idarələrdə, dəmir sandıqların, açar-qıfıllı, qaşqabaqlı dəftərdarların, kargüzarların, katiblərin, xüsusi şöbə işçilərinin sayı və hörməti gündən-günə artırdı.

Bu şəraitdə biz yüzlərlə toz basmış qovluqları, saralmış anketləri qabağımıza töküb, ərzaq limitlərinə ləyaqətli adamların siyahısını tərtib edirdik.

Professor Şəkibəylinin şəxsi işinə baxanda partkom katibi Alışanı heyrət götürdü:

– Bəs bu kişinin sənədləri hanı? Burada quru tərcümeyi-haldan, bir də təyinat əmrindən başqa heç nə yoxdur!

–Necə yoxdur?

–Heç nə yoxdur!

–Olmamış olmaz!

–Bəlkə qarışığa düşüb?

Kargüzarı, katibəni çağırdıq. Heç nə tapılmadı. Professorun özündən soruşduq:

– Məndə, – dedi, – heç bir vəsiqə yoxdur. Voronejdən qayıdanda



bircə öz kitablarımı götürmüşəm, sənəd dalınca düşməmişəm!

Alışan təəccüblə mənim üzümə baxıb soruşdu:

– Nə diplomu, nə xasiyyətnaməsi, nə staj kağızı olan bir adamı biz belə məsul siyahıya necə salaq, sala bilərikmi?

– Şəkibəylini mən yaxşı tanıyıram, on beş ildən çoxdur burada işləyir, özü də görkəmli mütəxəssisdir!

– Yoldaş rektor, bu sözlər yaxşı sözlərdir, ancaq sənəd lazımdır.

– Şəxsən tanıdığımız adamı gərək saxlayaq da!

Alışan başı ilə rədd işarəsi verdi, məni sayıq salmağa çalışdı. İfadəsinə bir az da istehza ahəngi verdi:

– Mən istəmirəm ki, bir tanışlıq ucundan partiya biletimizi itirək. "Görkəmli mütəxəssis!" Görkəmli ona deyərlər ki, əlində, ya cibində daşdan keçən kağızı olsun. Yoldaş rektor, mən belə risqə gedən deyiləm, sizi bilmirəm. Şəkibəyliyə hər nə qədər hörmətim olsa da, rəsmi kağız, vəsiqə gətirməyincə mən onun haqqında heç bir şey deyə bilməyəcəyəm.

– Əşi, qocaman professorumuzdur, onu aləm tanıyır.

–Yoldaş rektor, tanımağıma, quruca tanışlığa indi bir qəpik verməzlər! Sənəd olmayandan sonra lap hamı tanısın, kim gəlib şahid duracaq? Mən bu tanışları ki, işə tikməyəcəm. Sənəd lazımdır! Möhürlü, ştamplı, imzalı sənəd lazımdır! Bizdən sənəd istəyirlər, məsul bir yerdə iki saat leksiya oxuyub tapşırıq verdilər.

Alışan bunları dedi, Şəkibəylinin adı üstündən yavaşca qələm çəkib ötdü.

– Yox, qardaş, mənim tribunala düşməyə taqətim yoxdur!

Bu yerdə daha mənim xahişim faydasız idi. Professorun şəxsi vərəqəsini alıb kağız-kuğazını bir də vərəqlədim, sanki bu saralmış vərəqlər içərisində sədaqət, xidmət, məhəbbət axtarırdım. Özüm də görürdüm ki, sənəd, əyani dəlil, sübut olmayan yerdə bu sözlərin məzmunu yoxdur, əfvayıdır. Möhür, imza, rəsmiyyət lazımdır!

– Sən deyirsən, dağ boyda kişini kənara qoyaq?

– Biz qoymuruq, özünün işləri qoyur. Biz ona vəsiqə düzəldə bilmərik ki!?

– Camaat bizə nə deyər?

– Camaat deyər, həmin bu boş qovluğu gətirib göstərərik: şəxsi işi bu halda olan adamı, ali məktəb nədir, heç su butkasına da yaxın qoymazlar.

– O kişi məhşur adamdır, axı.

– Bizə məşhurluq lazım deyil, yoldaş rektor. Bizə sənəd lazımdır. Möhürlü sənəd! Vəsiqə! Bunlar olmayandan sonra professorun bir qəpik qiyməti yoxdur!

Alışanın qəti hökm kimi dediyi sözlər məni düşünməyə məcbur eləmişdi. Bilmirdim nə çarə qılım.

Verilən tapşırığa görə, Alışan doğru hərəkət eləyirdi. Şəkibəylinin taleyini düşünəndə isə məni dəhşət götürürdü; necə ola bilər ki, həqiqi alimlər üçün hökumətin verdiyi imtiyazı ona-buna paylayasan, böyük bir mütəxəssisi kənara qoyasan?

Alışanın sözünə daha cavabım yox idi. Şəkibəylinin özündən də bir kömək gözləməli deyildi. Yəqin onun özü də bilmir ki, biz necə çətinlik qarşısında dayanmışıq; onun rahat güzəranı, ərzaqdan təmin olunması üçün çarə axtarırıq. Xeyli düşünəndən sonra partkom katibinə müraciət elədim:

– Alışan, gəlsənə bir məsləhət eləyək?

– Nə məsləhət?

– Yuxarıya, Ali Məktəb Nazirliyinə yazaq?

– Nazirlik bizə təlimat göndərib, orada hər şey aydındır!

– Yox, şəxsən bu kişinin işini, vəziyyətini yazıb soruşaq, görək belə təsadüflərdə necə hərəkət etmək olar? Hər qanunda bir müstəsnalıq olur, axı!

Alışan əlindəki kağızları yerə qoydu. Qabağındakı papkanı bükdü, şəhadət barmağını gicgahına söykəyib gözünü mənə zillədi.

Güman edirdik ki, düşünür, daşınır, yəqin vacib söz deyəcək. Amma xeyli sükut ilə dayanıb baxdı, heç nə demədi.

Mən bir də soruşdum:

– Pis olmaz, gəlin məsləhət eləyək!

Partkom katibi sanki çıxış yolu tapıldığına sevinərək, birdən dik ayağa qalxdı:

– Nə deyirəm, yaxşı fikirdir, yazaq soruşaq. Soruşaq, görək onlar



nə deyirlər.

Alışanın yumşaldığına sevinsəm də, başqa bir mətləb mənim yadıma düşdü. Elə bir mətləb ki, daha onu nə partkoma, nə də başqa bir adama bildirmək olardı.

İndi məni daha çox düşündürən də bu mətləb idi:

– İşin birindən qurtarıb, o birisinə, daha çətininə düşmüşdüm.

Məsələ belə idi.

Şəkibəyli keçmişdə Voronejdə Tibb İnstitutunda rəhbər işdə olmuşdu. Oradakı işi zamanında da bəzi mütəxəssislər ilə ixtilafı olmuş, mübahisəsi düşmüşdü. Öz əleyhdarlarından birini-professor Xudakovu işdən uzaqlaşdırmışdı. Mətbuatda da məqalə yazıb, bərk tənqid eləmişdi.

İş elə gətirmişdi ki, professor Xudakov indi ali məktəb naziri işləyirdi. Özü də Şəkibəylini lap yaxşı tanıyırdı. Yəqin ki, bu qocanın işi haqqında yoxlama xahişini görəndə intiqam hissi cuşa gələcək, bildiyini eləyəcək, bəlkə də amanını kəsəcək idi. Onun bir işarəsi ilə Şəkibəyli işdən də qovula bilərdi...

"Bəlkə heç bu söhbəti qaldırmayaq, belə bir kağızı Moskvaya, nazirliyə yazmayaq?.."

Mən qalmışdım od ilə su arasında. Bilmirdim, bu qocanın işini harada, kim ilə, necə həll eləyim. Necə həll eləyim ki, heç tərəfə xətası dəyməsin? Məsələnin həlli üçün yaxşı çıxış yolunu axtarıb tapa bilmirdim. Əlləşə-əlləşə qalmışdıq. Yəqin ki, bu saat Şəkibəyli öz kefində idi. Heç xəyalına da gətirmirdi ki, onun şəxsi işi bizi bu qədər məşğul edir...

Necə olsa, yazmaq, məsləhət eləmək yüngüllük gətirərdi. Katibəni çağırıb tapşırıq verdim, Şəkibəyli haqqında təcili rəy istədim.

Nazirliyə yazdığımızdan bilmirəm on, ya on beş gün keçmişdi ki, mənə qalın, möhürlü, surğuclu bir paket gətirdilər. Üstünə baxanda gözlərim bərəldi.

Nazirlik o zaman Moskvada deyildi, faşist bombardmanı təhlükəsi olanda Sibir şəhərlərindən birinə köçmüşdü. Yazışmamız, sual-cavabımız da həmin şəhər ilə olurdu.

Paketi açanda gözlərimə inanmadım. Əvvəl başdan institutun

adına bir təşəkkürnamə gördüm:

"Sağ olun, yoldaşlar. Qocaman professor Şəkibəylinin salamat olduğunu, ünvanını bizə bildirdiyiniz üçün çox sağ olun. Sizdən çox xahiş edirik ki, ondan müğayat olasınız. Onun Vətən qarşısında, elm qarşısında xidmətləri çoxdur. Sovet dövlətinin bütün imtiyaz və qayğıları ona ana südü kimi halaldır."

Professor Xudakovun imzası ilə yazılan belə geniş, xeyir-xah bir xasiyyətnamədən sonra Şəkibəylinin diplomunu da təzələyib göndərmişdilər. Partkom katibini çağırıb nazirin məktubunu göstərdim və əlavə etdim:

– Görürsən, professor Xudakov şəxsi düşmənindən necə intiqam alır?

Alışanın çöhrəsində xoş bir təbəssüm oynadı:

– Dünya xali deyil, – dedi, – dünyada yaxşı adamlar çoxdur. Belə nəcib, alicənab adamlar vicdanlarını şəxsi ədavət hisslərinə qurban verməzlər. Böyük qəlbin imkanları da böyük olur.

Mən də sevincimi gizlətmədim:

– Şəkibəylini bu əhvalatdan agah eləmək lazımdır. Qoy o, dostunu-düşmənini yaxşı tanısın.

– Professordan əvvəl biz, institut rəhbərliyi nazirliyə təşəkkür etməliyik ki, bizim adamlar haqqında belə xoş mülahizələr yazıblar.

Elə də elədik. Şəkibəylinin şəxsi iş əhvalatı o zaman ali məktəb işçiləri arasında sevincli bir söhbətə çevrilmişdi...

*1965*



# MƏNİM UTANCAQ TƏLƏBƏM

## 1

–Əmikişiyevin məsələsinə baxmaq istəyirik, – dedi, – zəhmət olmasa, siz də iştirak eləyəsiniz.

Partkom katibi xahiş ədası ilə mənim üzümə baxdı, cavab gözlədi. Hər bir institutda cari ictimai işlərdən başqa, tələbənin təqaüd, mükafat, məzuniyyət, dərsə davam məsələsi təşkilatı çox məşğul edir. Həftə olmur ki, belə müzakirələrə vaxt sərf edilməsin.

Bunların hamısına vaxt çatdırmaq, xüsusən, mənim kimi yaşlı bir müəllimə müyyəssər olmur. Buna görə də həmişə məni ictimai təşkilatlara seçəndə vəd edirlər ki:

– Sizə hər dəqiqə zəhmət verməyəcəyik. Ancaq mühüm məsələ olanda gələrsiniz.

Mən də razı oluram.

İndi Əmikişiyevin işi mühüm sayılır, ona görə də məni çağırırlar. Ərizə oxunan kimi, oturanlardan biri etiraz elədi:

– Canım, onun dədəsi nazirdir. Ayda 400 manat maaşı var. Bizdə

nə çoxdur ehtiyacı olan tələbə. Əmikişiyevə təqaüd versək, bizə gülərlər.

Tələbənin adı çəkiləndə mənim yadıma düşdü ki, Faiq Əmikişiyev keçən il də ərizə vermişdi, atasına görə rədd olundu.

Onun təkrar müraciətini görəndə mənə elə gəldi ki, bu, üzlü tələbədir, əl çəkmək istəmir, necə olsa, təşkilatdan bir şey qoparmağı düşünür.

Görünür, ərizənin yaxşı təsir buraxmayacağını Faiq özü başa düşmüşdü. Dekan çağırıb soruşanda üzünü iclasa tutub az qala yalvardı:

–Yoldaşlardan xahiş eləyirəm, mümkünsə, müzakirədən qabaq məni eşitsinlər.

–Nə eşitmək? Sən xahişini yazmısan, təqaüd istəyirsən. Buna nə izah?

Faiq mənə tərəf döndü:

–Müəllim, mən yenə xahiş edirəm ki, eşidəsiniz. Təkcə təqaüd məsələsi deyil.

–Nə olar, imkan verək, tələbə sözünü desin.

Güman edirdim ki, Faiq xahişinə əməl olunduğuna sevinəcək, dərdini danışacaq. Nədənsə, danışmağa icazə alandan sonra başını aşağı saldı, bir müddət sükut elədi.

–Sözünü danış!

–Utanma, de!

–Dərdini söylə!

–Səni dinləyirik, Faiq, danış görək!

Faiq başını qaldırdı, üzünü təkrar dekana tutdu:

–Mümkün olsaydı, ikilikdə, ya müəllim ilə birlikdə danışardım. Sözüm var. Elə sözdür ki, burada deyiləsi deyil!

Gördüm ki, Faiq məclisdən utanır. İstəmir sözünü camaat eşitsin.

–İzin verin, mən Faiq ilə ikilikdə söhbət eləyim, nəticəsini sizə danışım!

Bunu deyib Faiqin qolundan tutdum, başqa otağa keçdim.

Tələbə zülmətdən, sıxıntıdan qurtarmış kimi, sevindi, açıldı. Dərdini danışmağa başladı:

–Çox sağ olun, müəllim, məni ağır vəziyyətdən qurtardınız. Xahişimə əməl olunsa da, olunmasa da sizə minnətdaram.



–Danış, danış, Faiq. Utanma. Sözünü de, sənə mümkün qədər kömək olunacaq!

Mən bunu deyən kimi, Faiqin gözləri yaşardı. Yaylığını çıxardı, ürəyinin dərinliklərində yəqin ki, çoxdan ilişib qalan, get-gedə bərkiyən, ağırlaşan bir dərdi üzə çıxarmağa çox çətinlik çəkən bir adamın səyi ilə müvazinətini saxlamağa, boğazını biçən qəhəri boğmağa çalışaraq kədərli bir hadisəni danışmağa başladı:

–Müəllim, bunları danışmağa mən utanıram, ancaq əlacım yoxdur, məcburam. Təqaüd və yataqxana istəyəndə kənardan baxanlar mənə gülür, təəccüb eləyir. Amma ailəmizdən xəbər tutanlar bilir. Müəllim, sizin tanıdığınız nazir atam, anamı boşayıb; bir başqasını evə salıb. Mən əvvəl bu hadisənin nə demək olduğunu bilməzdim. Sonra dərk elədim. Günlər, həftələr ilə mən utana-utana o qapıda-bu qapıda yoldaşlarımın yanında qalmalı oldum. Bu dəhşətli vəziyyət məni sarsıtmışdı. Günüm-güzəranım yoxdur. Dərslərimdən axsayıram. İnstitutdan son xahişim budur ki, atalıq qayğısını məndən əsirgəməsin. Bu illiyə mənə kömək eləsin. Qurtaran kimi, aspirantura-zad istəyən deyiləm, kənar yerlərə işə gedəcəyəm, atamın üzünü daha görməyəcəyəm...

Faiqin dediyi bu kədərli sözlər, elə bil, məni yuxudan ayıltdı. Həmin hadisə haqqında kimdənsə eşitmişdim.

–Faiq, sənin Akif adlı qardaşın varmı?

–Bəli, müəllim, 14 yaşında kiçik qardaşım var. Akif bu hadisədən sonra gedib sənət məktəbində, yataqxanada qalır.

–Aydındır, Faiq. Sənin vəziyyətini tamamilə başa düşürəm. Sabahdan ümidim var ki, sən yataqxana ilə, təqaüd ilə təmin olunacaqsan. Fikir eləmə, oğlum!

## 2

Bu hadisə mənim yadımdan çıxmamışdı. Əksinə, 50-60 yaşında təzədən məhəbbət eşqinə düşən, Faiq kimi igid bir oğlanın həya və heysiyyətindən utanmayan bəzi atalar məni çox düşündürmüşdü. Düşünürdüm ki, insan nə qədər ailə, ata hissindən, ictimai əxlaq

normalarından uzaq düşür ki, ömrünün axır çağlarında yoldan ötənin biri ilə behləşir, gül kimi balalarını qapılara salır. Bu ictimai mərəzin səbəblərini araşdırırdım...

Dərsdən çıxanda rektorluğun qabağında uzun, çalbaş, plaşlı bir kişinin mənə yaxınlaşdığını gördüm. Uzun kişi dik üzümə baxa-baxa əlini mənə uzatdı:

–Tanış olaq, müəllim! Siz məni tanımasanız da mən sizi yaxşı tanıyıram. Siz bizim universitetimizin gülü-çiçəyi, sütunu-dirəyisiniz. Tanış olaq, sizə cüzi bir xahişim var, icazə olsa!

Uzun kişi tanış olmaq üçün ovcuna aldığı əlimi buraxmadı, var gücü ilə sıxdı, məni kənara çəkdi:

–Siz bizim oğlanın müəllimisiniz! Faiq Əmikişiyev. Yerdən-göyəcən sizdən razıdır!

Uzun kişi familiyasını deyən kimi, bədənimdən bir üşütmə keçdi. Çoxdan adını eşitdiyim, nalayiq işləri, hərəkətləri haqqında danışılanlara görə, qayibanə nifrət bəslədiyim bir adamın məndən "cüzi xahişi" nə ola bilər?

Uzun kişi xəlvət bir söz deyirmiş kimi, mənə tərəf əyildi, dərdini danışmağa başladı:

–Doğrudur, bir müddət əvvəl Faiq sizdən xahiş edib yataqxana istəmişdi. İndi mən də sizdən acizanə xahiş edirəm, onu yataqxanadan çıxarasınız, qoy yığışsın gəlsin evə!

–Yığışıb gəlməyinə kim mane olur?

–Mane olan yoxdur. Ancaq siz bir müəllim kimi, ona tapşırsanız yaxşıdır. Yığışar, gələr.

–Bəyəm özü gəlmir?

–Siz desəniz, əlbət ki, gələr.

–Bəlkə özü gəlmək istəmir?

–Yox, istəyir. Siz desəniz, istəyər, müəllimin sözündən çıxmaz!

–Siz bir ata kimi çağırıb danışsanız, yaxşı olmazmı?

–Faiq deyəsən, məndən bir balaca küsüb, uşaqdır, anlamır, qulaq asmır!

–Görünür, küsdürmüsünüz.

–Yox, başa düşmür, mən onun anasını boşamışam, təzə həyat



yoldaşım ilə yola getmirdi, bir-iki dəfə qulaq burması vermişəm.

Uzun kişini mən başa düşmürdüm. Təzə xanımı ilə rahat yaşamaq üçün uşaqlarını evdən didərgin salan ata, indi Faiqdən nə istəyirdi?

– Faiq yataqxanada rahatdır, bir şikayəti yoxdur.

– Yox, Faiq evə qayıtmalıdır, heç olmasa, bir neçə aylığa qayıtmalıdır. Mənim üçün eyib olar ki, təzə arvadım oğlunu ev dəftərinə yazdırsın, mənim doğma uşağım dəftərdən çıxarılsın. Görürsünüz, müəllim, necə vəziyyətdir. Faiq heç olmasa, müvəqqəti qayıtmalıdır.

– Akif qayıdıbmı?

Mənim sualım uzun kişi üçün gözlənməz oldu!

–Yox, – dedi, – Akif qayıtmayacaq. Onu sənət məktəbindən buraxmırlar. Ancaq Faiq gələ bilər!

Uzun kişinin təlaşı da, iddiası da aydın idi. Təzə arvad ilə münasibətləri görünür, soyumuşdu. Arvad otaqları bölmək üçün məsələ qaldırmışdı. Ev idarəsi də iki otağı ailə üzvlərinin sayına görə bölməli idi. Otaqların xatirinə uşaqlar Əmikişiyevə lazım olmuşdu, gah Akifin, gah Faiqin yanına qaçır, onları evə qaytarmaq istəyirdi.

Axı, təzə xanımdan ayrılandan sonra evə daha bir təzə xanımı dəvət etmək lazım gələcək idi. Dünyanın axırı deyil ki?

Yar baqi, söhbət baqi!

*1965*

# QANADLI QIZLAR

Dünən bir ziyalı yoldaşım ilə heç nə üstündə qızğın deyinməli, hətta əsəbiləşməli olmuşam.

– Qardaş, – deyir, qıza-qız deyiblər, oğlana-oğlan! Mən heç vaxt razı olmaram ki, qız uşağı qollarını çirməyib maşın, əkin, tikin işinə gedə, sabah da qolu-qıçı şikəst qayıda.

Mən yoldaşımın görüşlərindəki kölgəli cəhətləri görür, ancaq üzə vurmaq istəmirdim.

– Qüdrət, iş məqamında ümumi hökm vermək yaramaz. Düz deyiblər ki, aslanın erkəyi-dişisi olmaz. Nəbinin arvadı qadın idi, amma onun rəşadəti mahnılarda oxunur:

*Qoy sənə desinlər, ay qaçaq Nəbi,*
*Arvadı özündən, ay qoçaq Nəbi!*

Həcər də belə. Mən təsərrüfatda elə igid qızlar görmüşəm ki, mürəkkəb texnika onun əlində mum kimi yayılır, yeraltı təmir ustaları,



su mühəndisləri, körpüsalanlar, mexaniklər, kimyaçılar, mühəndislər görmüşəm ki, işlərində hünər göstərirlər. Zərifliyə, incəliyə dursan, kişilərdə də taparsan. Primus yandıra bilməyən əfəllər azdımı?

– Dostum, nə deyirsən, de, qadını təbiət zərif yaradıb. Şair bunlara "cinsi-lətif" deyib! İndi insafdan deyil ki, qızı gətirib parovozda maşınsürən eləyəsən! Hər şeyin təhəri var. Qadın ilə kişiyə hüquq bərabərliyi veriblər, daha belə deməyiblər. Bu lap insafdan, adətdən kənardır!

– İndi qızlar var ki, tanka, raketə əyləşirlər.

– Bax, elə mən buna yoxam! Qızın qız yeri var! Əndazədən çıxmaq lazım deyil!

Mən Qüdrətlə deyişən günün səhəri nazirliyə işə gedirdim. Bir münasibətlə bu mübahisə yadıma düşdü. Təəssüf etdim ki, Qüdrəti gərək buraxmayaydım. Tanıdığı qızların işindən ona danışa idim. Bu qızlardan çoxunu siz də tanıyırsınız, bəzisini mən ancaq yadınıza salmaq istəyirəm:

Maarif Nazirliyi Hökumət Evinin yeddinci mərtəbəsində yerləşir. Hər gün səhər tezdən işə gedəndə liftdə əyləşən, adamları tələsə-tələsə daşıyan cəld, cavan, ucaboy, qıvrımsaç, qaragöz qız ilə salamlaşıram.

Səhər bu qızın qızğın iş vaxtıdır. Yarım saat ərzində yüzlərlə adamı iş otağına daşımalı, lifti də naşılardan, gəlib-gedənlərin inadından qorumalı, qonaq otağı kimi, təmiz saxlamalıdır.

Bir saat sonra izdiham azalır, adam seyrəkləşir, liftdə sakitlik olur. Məhz belə vaxt üçün qıvrımsaç, qaragöz qız özü ilə kitab götürür, çıraq işığında oxuyur. Mən bir dəfə onun əlində S.Vurğunun "Bəsti" poemasını gördüm və sevindim. Sevindim ki, qaragöz qız keçmişdə azəri qızlarının əzablı, iztirablı həyatı ilə tanış olmaq, analarının həyat tarixini öyrənmək əzmindədir və bunun üçün çox münasib kitab tapmışdır:

– Qızım, deyəsən, Səməd Vurğunun şeirini oxuyursan.
– Bəli, Bəstidən yazıb.
– Bəstidən yaxşı yazıb?
– Bunu mənə bacım məsləhət gördü.
– Bacınız yəqin müəllimdir?
– Xeyr, inşaatçıdır!

Lift son mərtəbədə dayandı, qapı açıldı, mən də çıxmalı oldum. Qaragöz qızla ilk söhbətimiz, burada bitdi.

Təəssüflə bu qızın söhbətindən ayrılmalı oldum, liftdən çıxıb getdim. Ancaq bu qızı unuda bilmədim. Onun bacısı haqqında dediyi, Bəsti haqqında təsəvvürləri, nədənsə məni maraqlandırırdı. Bir də liftdə işləyən cavan bir azəri qızının öz taleyi də çoz maraqlı idi. Axı, bu peşə bizdə, respublikada təzədir. Dünənəcən çadraya bürünən müsəlman qızı indi mürəkkəb bir maşınla qolu çirməkli, ayıq-sayıq çalışır, əfsanəvi "Həzrəti Süleyman xalçası" kimi, adamları göylərə qaldırır, onların səhhətini, səadətini qoruyur. Gündə yüzlərlə adam bu qaragöz qızın maşınında quş kimi uçub mərətəbədən-mərtəbəyə düşür, həftələr ilə görüləsi işi bir neçə saatda görür...

İkinci dəfə həmin liftdə əyləşəndə qızın əlində başqa bir kitab gördüm, maraqdan özümü saxlaya bilmədim:

– Deyəsən, "Bəstini" oxuyub qurtarmısınız. Necə idi?

– Yaxş idi! Bizim anaların taleyini şair doğru təsvir eləyib.

– Yəqin, bacınız ona görə sizə məsləhət verib.

– Bəstinin taleyi bir az da anamın tərcümeyi-halına oxşayır. Bacım onu həmişə deyir.

Yenə lift mənzilə çatıb dayananda söhbətimiz birdən kəsildi.

Özündən soruşmağa utansam da, idarəmizdəki xadimədən öyrəndim ki, qaragöz qız Çadırxanlı Ulduzdur. Ulduz oxumuş ailədəndir, üç bacının ən kiçiyidir.

Çadırxanlı!

Deyəsən, bu familiya mənə tanışdır.

İki il əvvəl Nərimanov prospektində, unviersitet müəllimlərinə ev paylananda ucaboy, mühəndis bir qızın evləri gəzdiyini, təzə mənzillərin əyər-əksiyini öyrənib, yazdığını görmüşdüm. O qız mənimlə görüşəndə familyasını demişdi: Çadırxanlı! Sonra həmin qızı mən tikintidə belədən-belə fırlanan uca kranın başında gördüm. Deyəsən, mühəndis qız yuxarı mərtəbələrə daşınan təzə Bakı pilətələrinin hamısını özü sayıb yoxlayır, özü yerbəyer eləyirdi.

Nədənsə bu qızın, bizim nazirlikdə çalışan Çadırxanlı Ulduz ilə əlaqədar olması mənim xəyalıma gəldi. Axı Ulduz inşaatçı bacısından



söz açırdı. Amma bu ehtimalı yoxlamaq, yəqin etmək o günlərdə, mümkün olmadı.

Adətən təzə evə köçənlərin çoxu şadlıq eləyir, yar-yoldaşı toplayıb məclis qururlar.

Mən də şəxsən belə bir məclisə hazırlaşırdım və niyyətimdə tutmuşdum ki, necə olsa, liftdə çalışan qızı da unutmayacağam. Onu da idarəmizin əməkdaşları, dostlarımla yanaşı məclisimə dəvət edəcəyəm. Ulduzun bu hörmətə tamamilə haqqı var. Çünki, o, zəhmət adamıdır, qırğı kimi cəld qızdır. İl uzunu istidə, yağışda, qarda, izdihamda, tələsik vaxtlarda uf demədən bizi daşıyır, maşınını da həmişə təmiz, işıqlı, hazır, ayaq üstdə saxlayır.

Güman edirdim ki, Ulduzu məclisimə dəvət etməklə təqdirəlayiq bir iş görmüş olacaq, yaxın dostlarımdan razılıq eşidəcəyəm.

Sən demə, mən gecikmişəm. Qonşulardan birinin qonaqlığında Ulduzun ərklə əyləşdiyini, məni görən kimi, başı ilə salam verdiyini gördüm. Mühəndis qız da onun yanında əyləşmişdi, yəqin, bacısına görə o da başı ilə mənimlə salamlaşdı.

Süfrə açıldı, xörək gəldi. Məclisdəkilərdən biri qalxıb sağlıq dedi. Bizim igid qızlardan, sonra milyonçulardan söhbət saldı.

Milyonçu sözü bu yerdə qəribə idi. Görünür, natiq özü də hiss etmişdi. Nitqi başlayanda üzr istədi:

– Başağrısı olsa da, yoldaşlar, mən əyləşənlərə sovet milyonçuları haqqında bir neçə kəlmə demək istəyirəm: bizim məclisimizdə əyləşən birinci milyonçu, bax budur, mənim sağımda, tamadanın solunda əyləşən Mehri xanımdır!

Adamların diqqəti Mehri tərəfə çevrildi. Saçı kəsik, girdəsifət, yaxası bağlı kofta geymiş, döşündə pilot nişanı olan kök, sağlam qız gülümsədi, badə götürüb doldurdu, natiqin sözünə müntəzir dayandı. Natiq əvvəlcə bir haşiyə çıxdı:

– Torpağı sanı yaşasın, mən Mehri xanıma baxanda rəhmətlik Valeri Çkalovu xatırlayıram. Qəhrəman sovet pilotunu! O, dünyada birinci təyyarəçi idi ki, bir neçə dəfə Şimal qütbünü kəsib Amerikaya uçmuşdu. Bizim haqqımızda olmazın yalan eşidən, sovet adamlarını dilənçi kökündə düşünən yüzlərlə amerikalı müxbirlər heyrətlə Çkalova baxır,

bu xoşbəxt adamdan addımbaşı soruşurdular: "Cənab pilot, sizin neçə milyonunuz var?" Çkalov bunlara cavab verirdi ki, mənim iki yüz milyon özüm kimi bəxtiyar vətəndaşım var. Mən onlar üçün çalışdığım kimi, onlar da mənim üçün çalışırlar. Onların səadəti mənimkidir, mənim sədaətim də onların...

Natiq bu haşiyəni deyib dayandı, təyyarəçi qızın üzünə baxdı:

– İndi yoldaşlar, mən belə milyonçulardan bir neçəsini məclisimizdə görürəm və sevinirəm, fəxr edirəm. Bax, bu Mehri xanım on ildən çoxdur ki, Bakı-Moskva yolunda çalışır, təyyarəsində bizi istədiyimiz yerə aparır.

Natiq təyyarəçi qızın şənindən danışanda Mehri xanımı sıxıntı çəkirdi, aşkar sıxılırdı. Texnika sahəsində çalışan işgüzar adamlar, adətən az danışar, xüsusən özləri haqqında tərifi sevməzlər. Mehri xanım belə adamlardan idi. Utandığından, onu tər basmışdı, başını aşağı salıb, işlətdiyi qəbahət üçün danlanan uşaqlar kimi, ayaqlarının ucuna baxırdı. Əyləşənlər Mehrini alqışladılar, əhsən dedilər. Ancaq natiq sakitlik tələb etdi:

– Dayanın, yoldaşlar, müqəddimədir. Sözümün canı var, xahiş edirəm, bir az səbir eləyəsiniz. Bax onun, Mehri xanımın yanında oturan qız Qəmər Çadırxanlı da bacılardan biridir. İnşaatçıdır. Yəni, Bakıda uca binalar tikir. Elə ay olmaz ki, yaraşıqlı bir binanı tikib istifadəyə verməsin. Yüzlərlə adamı təzə mənzillərə köçürməsin. Ulduz xanım da hamının əzizidir. Bizim idarədə onu tanımayan yoxdur. O da Süleyman peyğəmbərin xalçası kimi, adamları qanadında göylərə qaldırır. Ulduz üçün fərqi yoxdur, nazir, ya süpürgəçi, alim, ya məktəbli. Kim gəlsə, onu yüksəklərə aparacaqdır. Hökumət Evinin adamları hər gün onun zənginə, işarəsinə bağlıdırlar, istəyəndə göyün bir qatına qaldırır, kimsədən də bir qəpik yol pulu almır. İndi mən desəm ki, bu qızların üçü də bacıdırlar, təəccüb eləməyin! Bu qızlar əməyi, zəhməti sevən sovet qızlarıdırlar. İndi bu qızların hünərinə kim qibtə eləmir? Gəlin bir səslə bu qanadlı qızları, azad, bəxtiyar azəri qızlarını alqışlayaq.

Məclisdə alqış səsləri ucaldı, hamı ayağa qalxdı. Bacıların hər üçünün utandığından yanaqları pul kimi qızardı. Tamada natiqin sözünü kəsdi:



– Ənvər, sən bu igid qızların adlarını bir də təkrar elə və mənasını bizə başa sal.

Natiq təkrar etdi:

– Ulduz xanım! Mehri xanım! Qəmər xanım!

Tamara izah etdi:

– Hər üçü səyyarə, planet adıdır, əhsən o anaya ki, belə qızları yetirib və hamısının adını da göylərdən götürüb: Ulduz, Günəş, Ay! Bu qızların hər üçü adına layiq böyüyüb, şöhrət qazanıblar. Hər üçü cəmiyyətimizə ləyaqətlə xidmət edirlər.

– Bunlara ad qoyan anaya əhsən!

– Bunları boya-başa çatdıranlara afərin!

– Düzdür, adlar göydən götürülüb, ancaq qızlar yerdə böyüyüb, torpaqdan qüdrət alıblar. Onları belə göylərə yüksəldən azad cəmiyyətimiz, yeni tərbiyəmizdir!

– Çadırxanlıların uşaqlarını oxudub bu mərtəbəyə çatdıran müəllimlər var olsun!

Məclisdəkilər qanadlı qızların sağlığına içdilər, onları alqışladılar. Mən bu məclisdən razı getdim. Ancaq onu da deyim ki, məndə bir təəssüf hissi yarandı:

– Nə olaydı, deyirdim, mənimlə çənə-boğaz olan Qüdrət də bu məclisdə olaydı. Çadırxanlı qızları o da yaxından görüb tanış olaydı!

Onda, görəsən, nə deyər, inadında davam eləyər, ya təslim olardı?

Yəqin ki, Qüdrət bu qızların işini bilmir, bilsə də, başa düşmür, ya aydın təsəvvür edə bilmir. Onun görüşlərindəki his-pası silib təmizləmək lazımdır.

Bu işdə bir yoldaş kimi, mənim də ona köməyim lazımdır. Heç olmasa, istirahət günləri onunla məşğul olam gərək!

*1965*

# AD GÜNÜ

Deyirlər, nəvə şirin olur. Mən inanmazdım. İndi görürəm ki, bu sözdə bir həqiqət var. Nəvə ilə oturub-durmaq cavanlıq günlərini xatırladır. Güman edirsən ki, o, balanın balası yox, öz balandır. Günlər də pardaxlanan gəlinlik günlərindir. Canına həvəs, gözünə işıq, dizinə taqət gəlir.

Mənim iki nəvəm var, bir-birindən dəcəl.

Böyüyü Rasimdir. Gələn il məktəbə gedəcək, kiçiyi Leylanın dörd yaşı hələ tamam olmayıb.

Ataları Nərimanov prospektində üçgözlü mənzil alıb. Ancaq hər gün bizdədirlər. Yeməkləri də, içməkləri də. Bircə yatanda evlərinə gedirlər. Gün olmaz ki, uşaqların səs-küyü qapımızda eşidilməsin. Zəngin səsindən bilirəm ki, gələn nəvələrdir. Boyları çatmır. Zəngi vurmağı ya liftçidən xahiş eləyirlər, ya da əllərindəki oyuncaq, xətkeş, çubuq ilə vururlar. Zəng vurmaq üstündə də dalaşırlar, bir-birinə macal vermirlər. Qapı açıldımı, quşlar kimi qanadlanırlar. İncə, isti və yumşaq dodaqlarını büzüb nənələrini öpür, paltolarını soyunub içəriyə cummaq istəyirlər:



– Ədə, dayanın!
Nəvələr dik-dik üzümə baxırlar.
– Ayaqlarınızı silin. Döşəməni yenicə təmizləmişəm, korlamayın!
– Nənə canı, çəkmələrim təmizdir. Palçıq-zad yoxdur, qoy gedim!

Rasim ayaqlarını qaldırıb göstərir, Leyla da onu yamsılayır. Oğlum mədəndə mühəndisdir, gəlinim məktəbdə müəllimə. Uşaqları bizim üstümüzə atıb gedirlər. Mənim də azarım var, vaxtında dədəsini böyüdərdim, indi də uşaqlarına baxmaqdan həzz alıram. Xörəyin ləzzətlisini onlara bişirirəm. Sənətim uşaqlara güllü yorğan sırımaq, isti corab, əlcək toxumaq, əllərindən tutub bağları, kinoları gəzdirməkdir. İşə başım qarışanda keyfim də yaxşı olur, bekar qaldım ki, dişim-başım ağrıyır, yorğan-döşəyə düşürəm. Dünən Leylanın bayramı, bu gün Rasimin ad günüdür. Hazırlıq görmək, uşaqların yoldaşlarını çağırmaq da mənim boynumadır. Ataları ancaq soruşur, nə lazımsa, kənardan tapıb gətirir:

– Ana,– deyir, – uşaqlara əsirgəmə, yaxşı bir süfrə aç. Qoy taytuş içində sevinsinlər.

Mən Rasimi yoldaşlarına tanıdır, ad gününü deyib təbrik edirəm. Rasim də qayıdıb məndən soruşur:
– Nənə, sənin ad günün haçandır?
– Mənnən işin olmasın!
Yaxamdan əl çəkmir:
– Haçandır, de!
– Nənə, sənin ad günün haçandır?
Uşaqlar da Rasimə qoşulub birağızdan qarıldaşırlar:
– Nənə, haçandır ad günün?
– Böyüklərin ad günü birdən olur.
– Hökumət eləyir.
– Radio deyəcək, televizor danışacaq, görərik!
– Sən demirsən?
– Müəllim deyib. Biz bağçadan öyrənmişik!
– Yaxşı, haçandır mənim ad günüm?
Leyla qardaşına macal vermir:
– Nənə, biz öyrənmişik.
– Qızım, haçandır mənim ad günüm?
– Sizin ad gününüz birdən olub. Fəhlələr yığılıb bütün arvadlara

ad günü qoyublar.

– Haçan olub bu iş?

– Lap çoxdan olub.

– Martın 8-də!

Deyəsən, bunları doğrudan öyrədən, dərs verən var.

– Hamı qadınların bir bayramı var, 8 Mart!

– Qızım, bunu kimdən eşitmisiniz?

– Biz bilirik!

– Hardan bilirsiniz?

– Çoxdan bilirik.

Güman edirdim ki, uşaqların zarafatıdır. Bir də görürəm, sabah birinin əlində ətir, birinin əlində yasəmən gülü bahar kimi əlvan-əlvan, qapıdan girdilər:

– Nənə, sənin ad günün mübarək olsun!

– Sən daha böyük nənə olasan!

– Nənə, sən futbola niyə getmirsən?

– Bəs çantan hanı?

– Böyüklərin məktəbi hayandadır?!

– Müəllim sənə beş verirmi?

Uşaqların sözü məni götürdü, axı, bunlar ictimaiyyətdən, həyatımızdan danışırlar. Bunlar bir nənədən, iki anadan yox, bütün qadınların azadlıq bayramından danışırlar. Mən istəyirəm danışam, izahat verəm, uşaqlar məni sakitləşdirirlər:

– Sənin bayramın mübarək olsun! Həmişə bizim böyük nənəmiz ol. Sənə konfet də alarıq, ətir də alarıq. Qırmızı rəngli şar da alarıq, futbola da, teatra da apararıq. Nənəcan, sağ ol!

Uşaqlar bunu deyib limonad rumkalarını çıqqıldadır, mənə baxırlar. Mən də neyləyim, onlara qoşuluram. Evdə bir həşir olur ki, gəl görəsən! Öz yaşımı unuduram, bilmirəm ağbirçək arvad, nəvə-nəticə yiyəsiyəm, yoxsa on səkkiz-iyirmi yaşında təzəcə gəlinəm, oynayıram, gülürəm:

– Sizi sağ olasınız, ay balalar!

*1966*



# FƏRƏH MƏCLİSİ

Dostlarımın əhatəsində olduğum zaman özümü xoşbəxt sayıram. Müsahiblər şikayətlənir ki, yaxşı dost azdır. Mən belə bir şikayətdən uzağam. Çünki mehriban dostum çoxdur. Müsahiblər dostlar ilə az və çətin görüşmələrindən gileylənirdi. Burada da mən seçilirəm. Mən dostlarım ilə istədiyim zaman görüşürəm.

Deyəcəksiniz, nə üzüyola dostlarınız var.

Səhv edirsiniz. Hamısından üzüyola mən özüməm. Çünki görüş üçün onların hüzuruna hər dəfə mən gedirəm və böyük məmnuniyyətlə gedirəm. Onlarla hər görüş məni qanadlandırır, həyatıma təzəlik, təravət, ruhuma ləzzət, zehnimə işıq, ürəyimə qüvvət verir.

Bu səhər qapını açıb dostlar məclisinə daxil olanda gözləmədiyim, güman etmədiyim, ömrümdə görmədiyim ayrı bir mənzərə, ayrı bir əlamət gördüm.

Məlum olduğu üzrə, mənim ən yaxşı dostlarım, müxtəlif yaşlı, müxtəlif xarakterli, müxtəlif libaslı, ancaq yeganə nikbin, xeyirxah məqsədli, mənə dolu kitablar, yaraşıqlı bir otaqda hər kəs öz yerində dinc

əyləşmişdir. Mən hər dəfə onların hüzuruna təzim və ehtiramla gedəndə salam verir, təbəssümləşir, görüşürük.

Bu səhər məclisə daxil olanda xalça üstündə mütəkkə qoyub üzbəüzə əyləşən, şənliklə deyib-gülən üç böyük sima gördüm və dərhal tanıdım. Bu ağsaqqal, gülüşqabaq, nurani simaların biri XIV əsrdən gəlmiş Şeyx Sədi, biri Yasnaya Polyanada yaşayan, bütün dünya vətəndaşı Lev Tolstoy idi. Üçüncüsü isə öz yubiley təntənəsində iştirak üçün Mədəniyyət Nazirliyindən dəvət almış Mirzə Cəlil idi.

Mən çox fəlsəfə, ədəbiyyat, sənət məclisinə düşmüşəm, ancaq heç belə nagahani, gözlənməz təsadüf görməmişəm. Nadir və əziz qonaqların hər üçünü tanısam da, onlar məni tanımırdılar, görməmişdilər, kəlmə kəsməmişdilər. Necə olmuşdusa, bu səhər məni həddən artıq şərəfləndirib məclisimə təşrif gətirmişdilər. Məndən xəbərsiz gəlmişdilər, bəlkə də qəsdən belə etmişdilər. Sanki mələklər kimi göydən enmiş, ya günəş şüalarından nur kimi ələnmiş, ya da pərvanələr kimi çilçıraq işıqlarından süzülmüşdülər. Sonra bildim ki, bunlar Bakını – sürəti, vüsəti və müstəsna keyfiyyəti ilə aləmə səs və şöhrət salan Bakını, yeni əsrdə onun hamını heyran qoyan gözəlliyini seyr etmək üçün, qoca Xəzərin gəncliyinə tamaşa üçün mənim dostlar məclisimi seçmişdilər. Mən bütün varlığımla sarsılsam, xəcalət və həyəcandan tərləsəm də, özümə toxtaq verməyə çalışdım. Böyük ədiblərə xoş gəldin elədim, əl verib görüşdüm və gördüm ki, qonaqlar nəsə ciddi bir söhbətlə məşğuldurlar.

Mənə yer göstərib mükalimələrini davam etdirdilər. Sədi üzünü məslək dostlarına, qələm yoldaşlarına tutub ciddi və mənalı bir ahənglə xələflərindən danışırdı:

– Xeyr, – deyirdi, – "Gülüstan"a verilən təfsirlər, mənaların çoxu həqiqətdən uzaqdır. Şeirin təhlili dünyada ən çətin, ən məsul, həm də incə bir sənətdir. Zər qədrini zərgər bilər. Bu sənətə nadir istedad gərək. Buna görə də Xəyyam kimi ən az yazan bir şairin yazılarında yüz qat artıq təfsir var. Bunların özünü saf-çürük eləyən gərək.

Lev Tolstoy gülümsündü və dedi:

– Təəssüf ki, təfsir sahibləri müəllif ilə məsləhətləşmirlər.

– Müəllif ilə yox, heç olmasa, oxucu ilə məsləhətləşsinlər.

– Məsləhət də həmişə faydalı olmur.



– Mənim yazılarımın məğzi bir kəlamdadır: – Bəni– adəm əzayi yek digərənd!.. Heç olmasa, bunun təfsirini verib mənalandırsınlar. Oxucular bundan məmnun qalarlar, müəllif də zəhmətini hədər saymaz!

Mirzə Cəlil qəfəsədən qara, meşin cildli bir "Gülüstan" götürüb başladı oxumağa:

*Əbrü badü məhü xurşidü fələk dərkarənd*
*To tü nail bəkəf ari və bə qəflət nə xuri!..*

– Cənab şeyx, üzlülük olmasın, üzr istəyirəm. Mən bir az fars dilinə bələdəm, sizin şeirinizə xüsusi hörmət və məhəbbət bəslədiyim üçün bu sətirlərin mənasını təkrar-təkrar araşdırmışam:

Bulud, külək, ay, gün, fələk, daim işdə, hərəkətdədir ki, sən, ey Allah bəndəsi, bir parça çörək ələ gətirəsən, qəflətdə yeməyəsən.

– Belədirmi, böyük şair?

– Doğru tərcümə eləyirsiniz!

– Mən minbərlərdə müqəddəs kitablardan hədis gətirən çox axundlardan eşitmişəm ki, Şeyx Sədi burada camaəti ibadətə, itaətə çağırır. Guya insanları yaradana minnət qoyub tələb edir ki, yeyilən çörək halal olmaq üçün səcdəyə düşmək, dərgahdan savab istəmək, gözləmək lazımdır.

Tolstoy Mirzə Cəlilin sözlərinə diqqətlə qulaq asır, əlindəki kitabı vərəqləyirdi:

– Bunlar "Gülüstan"ın Şərq aləmindəki bir təfsiri, din xadimlərinin təfsiri idi.

– Mən başa düşürəm və Şeyxin də bəndələrə, ya oxuculara müraciətində bir ayrı məna görürəm.

Sədi qalxıb ətəklərini ovuclarına yığdı, sıralanmış kitablara diqqətlə göz gəzdirib dedi:

– Mən insanların qəflətdə yaşamağına zidd olmuşam. "Gülüstan" da, "Bustan" da adamları işığa çağırır.

Tolstoy təkrar sıralanmış kitablara işarə elədi:

– Bunların çoxu işığa çağırır. Ancaq hər kəs bu işığı eyni yerdə görmür, biri tanrı dərgahında, ibadətdə, biri torpaqda, əkində, tikinti-

də, bir başqası da qanlı vuruşmalarda, qan tökməkdə görüb axtarır.

Mirzə Cəlil qəfəsədən ulduznişan bir xəritə götürdü, süfrə kimi qatını açıb filosofların qarşısına qoydu, izah etdi:

– Hörmətli ədiblərdən xahiş edirəm, diqqət yetirsinlər. Ərzin şimalında, bir neçə mühit dənizlərinin görüşdüyü, qütb ulduzlarının çıraq kimi yandığı, adamların icadlara, kəşflərə qurşandığı yerdə bəşəriyyət qəflətə üsyan bayrağı qaldırmışdır. Nəinki yerlərdə, göylərdə sirr axtarıb açmaq insan üçün gündəlik arzu və müqəddəs məqsəd olmuşdur. Bəşəriyyətin tarixi mübarizələr, axtarışlar, fərziyyələr, xoş niyyətlər, gümanlar tarixidir.

Düşünən başlar həmişə tilsim, əfsanə, qaranlıq, qəflət ilə vuruşmuşlar.

Ancaq indi, ancaq XX əsrin ortalarında Sovet ölkəsində igid bahadırlar yetişmiş, insan zehniyyətini qaraldan dini əfsanələrə qarşı hücum təşkil edilmiş, elm, həqiqi elm, bəşər zehni və zəkasının həyat silahına çevrilmişdir.

Bu halda qapı açıldı, qızıl qalstuklu bir pioner salam verib ədiblərə baş əydi, kosmos fatehlərinin şəklini böyük bir hədiyyə kimi məclisə, babalara təqdim etdi:

– Sovet kosmonavtlarının bayramı mübarək olsun, babalar!

Ədiblər pioneri öpdülər, alqışladılar, qəhrəmanlar ilə bir-bir tanış oldular.

Mirzə Cəlilin bizim qələbə günlərimizdən vəcd ilə danışmağı, pionerin fərəhlə qonaqlara izahat verməyi qocaman filosofların heyrət və sevincinə səbəb oldu.

– Bəli, – dedim, – bizim günlərimiz kainatın min illərlə qaranlıq, əfsanə günlərini aydınlatmaq üçün elmi səfərbərliyə alan günlərdir. Zəka və zəhmətin əsarətdən xilas olduğu yerdə, sosialist ölkəsində xalqlar birliyi və qardaşlığında böyüyən, sovet məktəbində dərs alan bu gördüyünüz igid şahinlər buludları, dərin fəzaları yarıb keçmiş, ulduzları ötmüş, Aya, Marsa, Günəşə doğru sərrast yol açmışlar.

Tolstoy gülümsəyərək igidlərə baxır, başını yırğalayırdı:

– Daha əfsanəyə yer və ehtiyac qalmayacaq, insanın gözü də, əlqolu da açılmışdır. Azad zəhmət, sağlam təfəkkür, məqsəd birliyi, məhəbbət bəşəriyyəti əbədi səadətə istiqamətləndirməkdədir.



Mirzə Cəlil xəritəyə işarə edib dedi:

– Belə bir istiqamət, xoşbəxtlikdən, məhz bizim vətənimizdə – dünyaya inqilablar, qurtuluşlar gətirən, insanları həmişə irəliyə, tərəqqiyə çağıran bir ölkədə mümkün olmuşdur. Sinəmizi qabardan bu iftixar hissidir.

Qoca Sədi də bu söhbətdən xoş bir təbəssümlə müsahiblərinə qoşulub sevinirdi:

– Mən də qəflət deyəndə insanları məscidə, minbərə, ibadətə yox, idrak fəzalarına, icad göylərinə çağırmaq niyyətində idim. Mənim şeirlərimi, əziz müsahiblərimin əsərlərini və bütün əql, idrak ustalarının çağırışlarını ancaq bu yolda təfsir etmək aydın məqsədlərə gətirə bilərdi.

– Necə ki gətirdi.

– Bəli, sovet adamları qoca dünyanın, əngin, dibsiz fəzanın, sirlərlə dolu kainatın tutqun, vahiməli, qaranlıq yollarını kəşf edirlər. Çox çəkməz ki, bənövşənin boynu düzələn kimi, insan zehni də mübhəm suallardan qurtarar, göylərə, planetlərə, ulduznişan maşınların müntəzəm hərəkət cədvəli üfüqlərdə vurular, elm və bilik təntənəsinin şənlik sədaları Ayda, Marsda gur orkestr sədaları kimi eşidilər.

Filosoflar fərəh və sevinclə kainat fatehlərinin şəkillərinə baxır, cib dəftərlərinə nə isə qeyd edirdilər.

Mən həyəcan və sevincdən nə edəcəyimi bilmirdim, əziz qonaqlar qarşısında təşəkkür deməyə söz, ifadə, vasitə axtarırdım.

*1966*

# LİMAN OĞLU

Lalə, bənövşə, gülxətmi, qazayağı, quşəppəyi, quzuqulağı, ayıdöşəyi, çobangülü... Dağların, dərələrin saysız-hesabsız bitkilərinə qısa, münasib, uyğun adları görəsən kim verir?

Hansı bir qüdrətli qələmdir ki, yetirən məxluqun hərəsinə daimi bir möhür vurur, biz də ona baxıb hər şeyi adı ilə çağırırıq, mahnılara salır, kitablara yazır, dillərə tərcümə edirik?

Yalnız təbiət aləmində yox, adi həyat məişətində də belə olur. Bir də görürsən, qarşında birisi dayandı, nə atasını, nə anasını, nə özünü tanıyırsan, ancaq ilk nəzərdə bunun vücuduna bir məna verir, oxuyursan, çox vaxt da bu təxminən doğru çıxır. Sizə tanıtmaq istədiyim bu uşağın taleyi də belə oldu. Çoxunuz bəlkə də onu tanıyır, tərcümeyi-halını bilirsiniz.

Qırx ikinci ilin ağır, dəhşətli, intizarlı yay aylarında mən də Bakı limanında ictimai xidmətdə idim. Faşist hücumuna uğrayan rayonlardan arxaya köçürülən ailələri qarşılayır, qocaları, xəstələri, uşaqları mənzillərdə rahatlayır, ərzaqla təmin edirdik, bəziləri də göndərilən yerlərə





etina etmir, limandakı qaynar həyatdan ayrılmaq istəmirdilər. Belələrindən biri, səkkiz-doqquz yaşlı, ayaqyalın, böyük qardaşının pencək-şalvarını geymiş gödərək bir uşaq indi də yadımdadır. Onun nə valideyni vardı, nə gəldiyi yer, nə də ad və familiyası bəlli idi. Ancaq sanki bu fəlakətli ağır günlərdən xəbərsiz, qayğısız bir məxluq kimi o tərəfə-bu tərəfə qaçır, uzun qollarını hey çirməyib, gah paroxoda yaxınlaşır, gah gəlib-gedənə yanaşır, soruşur, gülür, oynayırdı.

Limandakılar bəzən onu çağırıb buyururdular:

– Ey, Cunqulu!

– Cunqulu! Balaca!

– Bura bax, Cunqulu, bu stəkanı krantdan doldur gətir.

– Canbala! Al bu pulu, kioskdan bir "Raboçi" al gətir.

– Canbala, bu kağızı lövhəyə yapışdır! Qoçaq, di yeri, tez elə!

Uşaq da heç kəsə yox demir, buradakıların hamısının buyruqçusu kimi bütün tapşırıqları icraya tələsirdi. Bəzən qaçdığı yerdə ilişir, çul kimi yerə sərilirdi.

Yox! O, ayağa qalxır, yaralarına baxmadan iş dalınca yüyürürdü. Bu uşağın ağladığını görən olmamışdı. Kimsədən yemək istədiyini də görməzdik. Limanda "payok" veriləndə balaca qazançasını adamların qıçları arasından yavaşca uzadar, bir çömçə şorba töküldümü, tez çəkilib gedərdi. Qazançanı günəşdə yanmış dizləri arasına qoyub, tələsə-tələsə şorbanı içər, ayağa qalxardı. Yeməyi bir parça çörək, bir çömçə vermişel şorbası idi. Bu uşağı öz adı ilə çağıran yox idi. Kimi Balaca, Cunqulu, Canbala, kimi də sadəcə "ey", "ədə" səsləyərdi.

Uşaq bəlkə də, buradakı, bu neft-mazut şəhərindəki qaynar həyatı, ümumi ciddiyyəti görüb, özünü yığışdırmış, ayıq düşmüşdü. Limanda hadisə olmazdı Cunqulu bilməsin, yanaşmasın, maraqlanmasın. Cəbhə xəttinə yaxın rayonlardan gəlmişlər bir-iki gün limanda paroxod, maşın gözləyib sonra gedirdilər. Cunqulu isə burada ilişib qalmışdı.

Bəlkə liman həyatı onun xoşuna gəlmişdi, ya gedənlərdən kimsə onu aparmaq istəməmişdi. Bəlkə də gözləyən adamı vardı. Nəsə... Bilən yox idi. Cunqulu Bakı limanının ştatdakı fəhləsi kimi səhər açılandan axşam qovuşana qədər sağa-sola qaçır, yorulur, axşam isə dəmir məhəccərlərin dibində sərnişin ayaqlarından kənar bir yerdə çul kimi sərilir,

şirincə yatırdı. Balaca qıvırcıq saçlı başını dirsək bükümünə qoyub, qıçlarını rahat uzadan bu kimsəsiz uşağa gəlib-gedənlərin yazığı gələrdi. Kimi başını tovlayar, kiminin acığı tutardı, kimi də müharibə salanlara lənət yağdırıb ötərdi. Bu dəqiqələrdə Cunqulu şirin yuxu aləmində öz atasının dalınca hərbi düşərgələrə, küçə uşaqlarına qoşulub top oynamağa, ya quş yuvası götürməyə tələsərdi. Yolda tapdığı sığırçın sələcəsindən göyümsov yumurtaları ehtiyatla ovcuna yığıb evə gətirmək istəyəndə bir də görərdin liman süpürgəçisinin bir zərbəsi qıçlarını tərpətdi. Uşaq şirin yuxu, dinclik aləmindən ayrılır, limanın üfunətli səkilərinə qayıdardı. Bu növbətçilər, gözətçi və sanitarlardan Cunqulunu tanımayan yox idi. Əvvəl günlər bir-birindən soruşardılar:

– Cunqulu hələ getməyib?

– Onsuz buraların nə ləzzəti!

– O, döyüşən orduya yazılmaq istəyir.

– İgid oğlandır, bizim günlərin oğlu!

– Liman oğlu!

– Liman oğlu!

Bu ad, deyəsən, uşağın da, eşidənlərin də xoşuna gəldi. Bir dəfə limanın divar qəzetində də yazdılar. Bu ad ilə Cunqulunun qolundan tutub, səhnəyə klubdakıların qabağına da çıxartdılar. Liman oğlu ətəklərini ovuclarına toplayaraq, cəldliklə dizlərini yığıb-açır, səhnədə ləzginkaya oxşar hərəkətləri ilə adamları güldürür, hərdən də qışqırıq salırdı. Həmin bayram konsertindən sonra Liman oğlunu hamı tanıdı.

■ ■ ■

Aylar, illər keçdi. Müharibə qurtardı, böyük ölkəmizdə müharibənin vurduğu yaraları sağaltmaq üçün qəhrəman xalqımız bütün qüdrəti ilə çalışdı. İyirmi il sonra hər yer, hər guşə dəyişdiyi kimi, Bakı limanı da kökündən dəyişmişdi. Moskva–Volqa kanalı açılanda su yolu ilə səyahətə çıxan sərnişinlər arasında mən də vardım.

Həştərxan limanında bizi də "Qırğızıstan" teploxodundan çay teploxoduna köçürürdülər. Biz bu nəhəng gəmidən ayrılmaq istəmirdik. Kapitan, pəhləvan gövdəli, uca və enlikürək bir kişi göyərtənin pillə-



kənlərindən enib bizimlə xudahafizləşərək, Volqa gəmisinin məziyyətlərini, guya, bizə danışırdı:

– Çay gəmisi daha rahat və qəşəngdir. Orada siz həm səyahət edəcək, həm dincələcək, həm də bizim yeni maşın texnikamızın nailiyyətlərini öyrənəcəksiniz. Sizə yaxşı yol, xoş günlər!

Kim idisə, sərnişinlərdən biri kapitandan soruşdu:

– Çay gəmisini nə əcəb özünüz aparmırsınız?

– Mənim işim Xəzərdədir. İyirmi ildir mən bu göy dalğalarda üzməkdən doymuram. Sağlıq olsa, sizi qayıdanda da Bakıya mən aparacağam.

Yanımdakılardan biri pıçıldadı:

– Bu kişi müharibə günlərindən burada çalışır. Əvvəl bir parça uşaq idi. Bala matros!

İxtiyarsız Cunqulu yadıma düşdü. Sanki qarşımda maraqlı bir kitabın vərəqini açdılar. Bu xatirə zehnimdə işaran kimi kapitanın vücudunu yenidən və diqqətlə süzdüm. Onun adını və odlu gözlərində, qabarıq sinəsində, qüvvətli qollarında və zəhmli səsində dəhşətli müharibə günlərinin yetim, kimsəsiz uşağını axtardım:

– Yoldaş kapitan, qırx ikinci ildə siz Bakı limanında olmamısınız?

Deyəsən, kapitanın tərcümeyi-halından söz açdılar. O da əlini göyə qaldırdı, üfüqləri göstərdi.

– Necə olmamışam? Həmin ildə evakuasiya vaxtında məni qərb rayonlarından gətiriblər. Orada qalmışam, orada oxumuşam, Xəzərin nərəsi ilə böyümüşəm. Mənə Liman oğlu deyirlər.

– Onda mən də limanda idim, sizə ayrı cür ad deyirdilər.

– Cunqulu! Bir parça uşaq idim, ora-bura qaçar, matroslarla işlərdim!

– Bəli, Cunqulu. Mən şadam ki, sizi rəşadətli kapitan görürəm.

– Bizim işdə elədir! Canı bərk adam dənizçi olur. Dəniz də sağlamları sevir.

– Sağlamlıq azdır, hünər də lazımdır.

– Hünər özü doğulur. Bu dalğalar hünər məktəbidir! İgidlik yurdudur!

– Liman oğlu!

– Mənə elə ad vermişdilər. Fərmanla yox, adi danışıqda, el arasında!

– Yaxşı ləqəbdir: Liman oğlu!
– Xəzər yetirməsi!
– Görüşümüzdən çox şadam!
– Sağ olun, qayıdanda sizi mən gözləyəcəyəm.
– Mütləq görüşəcəyik!
– Hələlik, salamat qalın!
– Yaxşı yol, əzizim!

*1966*



# ABADLIQ

Bütün arzulayanlara qismət olsun, onların içində mən də təzə mənzilə köçmüşdüm.

Köç günlərində evimizdə toy-bayram idi. Bütün dost, qohum və tanışlarım mübarəkbadlığa gəlirdilər, təzə mənzili diqqətlə süzüb seyr edirdilər.

Bənna dostum Davud əmi də bir axşam zəhmət çəkib gəlmişdi, bizim ailənin xeyirxahı kimi otaqları bir-bir nəzərdən keçirir, ev əşyasının yerini, qoyuluşunu, görkəmini sanki yoxlayır, səmimiyyət və ərklə fikrini deyirdi.

İnsanın iki cür dostu olur. Biri hər gördüyünü tərifləyir, xətrinə dəymək istəmir, biri də hər yerdə düzünü deməyi sevir, xoşuna gəlməyəni gizlətmir, açıq danışır.

Davud əmi mənim dostlarımın ikinci qismindəndir. Heç kəsdən, heç nədən çəkinməyən, başıuca, şikəstənəfs, özü də bizim ailəyə yaxın adamdır.

Qapıdan girən kimi dəhlizə baxdı və dedi:

– A filankəs, işıq sayğacını münasib yerə qoymamısınız. Onsuz da bura darısqaldır. Sayğac zərif cihazdır, əl-ayaqdan kənarda olmalıdır. Həmin bu qalın divarı neçə santım oymaq, cihazı içəri salmaq, üzünə də taxtadan bir qapaq qoymaq lazımdır. Elə bir zəhməti, xərci də yoxdur.

Gördüm dostum ağıllı söz danışır. Elə olanda dəhlizin görkəmi də dəyişəcəkdi.

Mənim mənzilim ikinci qatda idi. Davud əmi sağa-sola baxıb ayrı bir təklif də dedi:

– Bu eyvanın yanlarında meynə basdırmaq lazımdır. Meynə tez qalxar, ikinci ilə buranı örtər, yaşıllığa bürüyər. Bu, mənim boynuma, qara şanı çubuğu gətirərəm, özüm düzəldərəm.

Davud əmi dediyini elədi. Bizim pəncərənin qabağından, eyvanın altından iki meynə basdırdı...

■ ■ ■

Bu əhvalatdan neçə ay keçmişdi, məni Rayon İcraiyyə Komitəsinə çağırdılar. Gedəndə ev komissiyasının sədrini – qonşum Sadığı da orada gördüm:

– Qonşu, xeyir ola? Deyəsən, sizdən şikayət var?

– Məndən şikayət?

Evlər idarəsi müdiri gileylənirdi:

– Təzə həyətə köçmüsünüz, yaxşı eləmisiniz. Sizin kimi bir qonşu nemətdir. Ancaq o ki asfaltı sökürsünüz ha, ona yoxam. Qonşular şikayətlənir.

– Asfaltı sökmək? Qətiyyən! Mən bunu birinci dəfə eşidirəm. Elə şey heç mənim xoşuma gəlməz, mən səliqə sevən adamam, yoldaş Sadıq.

– Qonşular yalan deməz. Sizin eyvanın qabağında asfalt iki yerdən sökülüb, bilmirəm, sizin işinizdir, ya uşaqlar eləyib. Həyətin səliqəsini qorumaq bizim hər birimizin borcudur. Bizim həyət aşkar yerdədir, qonaq-qara, gedib-gələn olur, bizə eyib tuturlar.

Birdən yadıma düşdü ki, Davud əminin işindən danışırlar.



– Baxıb yoxlayaram, görüm kimin işidir.

Bu söhbət təsadüfən yaz başına, aprel ayına, ağaclar puçurlayan vaxta düşmüşdü. Gəldim. Asfaltın sökülən yerinə baxdım, bir vedrə ağzı qədər dairəvi yerdə meynə çubuğu basdırılmışdı. Hərdən su tökülən torpaqda çökəklik aşkar görünürdü. Haradan kəsilib gətirilsə, qürbət bir yerə düşsə də, çubuq gümrahlığını, qızartısını saxlamışdı.

Çubuğun yanlarında isə, deyəsən, bahardan, torpaqdan, həyatdan xəbər verən, göylərə, günəşə doğru üz tutan puçurlar zərif yarpaqları ilə görünməyə başlamışdı.

İndi bu çubuğu çıxarıb atmaq, məsum bir məxluqa qıyıb qəsd etmək körpə öldürmək kimi bir cinayət olardı. Göyərən meynələrə tamaşa edib getdim.

Özlüyümdə qət elədim ki, Sadığı tapıb gətirim, ona göstərim, şikayətinin yersizliyini sübut edim. Bir-iki dəfə telefon ilə zəng vurdum. Sadıq da haradasa ezamiyyətdə idi. Şəhərlərə gedib-gəlir, aqronomluqdan dissertasiya yazır, müdafiəyə hazırlaşırdı.

Həm də başım öz işlərimə qarışdı. Bir neçə ay nə o məni, nə mən onu gördüm.

Meynə də münasib yuvada pərvəriş görən, həyata yol arayan bir quş kimi böyüyür, budaqlarını yuxarıya, eyvanın məhəccər dəmirlərinə çatdırmağa cəhd edirdi.

Günün birində təkrar məni İcraiyyə Komitəsinə, evlər idarəsinə çağırdılar.

Sadıq məni görən kimi, əl verib təbrik elədi, gülə– gülə xəbər verdi:

– A filankəs, camaat sizdən ibrət götürür. Qonşular məndən xahiş edib, eyvanın qabağında meynə basdırmaq istəyirlər. Sən o kişini – Davud əmini tap, qoy həmin cins meynələrdən gətirib basdırsın, savab iş görsün. Biz hamımız xəcalətlindən çıxarıq.

– Bəs asfalt məsələsi?

Sadıq güldü, mənim işarəmi başa düşdü, açıb ağartmadı.

– Asfaltı düzəltmək bizim boynumuza. Meynənin ona maneçiliyi yoxdur. Daha da həyət kölgəlik, sərinlik olacaq. Əvvəlki şikayətlərdən hamı peşman olub. Sən Davud əmini tap, işin olmasın. Biz hamımız on-

dan üzr istəyəcəyik...

Davud əmi bizim sözümüzü yerə salmadı. Təzə həyətin eyvanlarını yaşıllıqla bəzəməyə söz verdi. Söz verdi, əməl də elədi. İndi Davud əmi evlərin, ailələrin əzizidir. Hər beşdə-onda həyəti gəzir, ağaclara baxdıqca sevinir.

Yaranan gözəlliyi seyr edir, bol məhsullu cavan meynələrin pardaxlanmasından, həyəti bürüyən yaşıllıqdan, eyvanlarda açılan çay süfrəsindən, qonşuların dəvəti, minnətdarlığından zövq alır, hamıya təşəkkürlər yağdırır:

– Abadlıq yaxşı şeydir. Onun üçün çalışan qədirbilən yoldaşların ömrü uzun olsun!

*1967*



# YARATMAQ SEVİNCİ

İnsan həyatında xoşbəxtlik yetirən birinci hadisə sevincdir. Sevinclə yaşayan insan qəm-qüssə bilməz, qocalmaz. Sevincin də səbəbləri çox və növbənöv olur.

İnsan arzusuna çatanda, təmin olunanda, şadlıq gətirən bir hadisə vaxtında – dost, övlad, vüsal görəndə sevinər, bəzən az, bəzən çox sevinər. Hər halda sevinər. Amma dünyada sevinclərin ən birincisi yaratmaq, zəhmətin, əməyin barını görməkdir. Bu məqamda insan özünü güclü, qüdrətli aslanlara bərabər sayır. Yaradan adamın dili uzun, başı uca, gözü tox, görüş dairəsi geniş, gələcəyi aydın olar. Ədəbiyyat dərnəyinə toplanan cavanlar yaratmaq sevinci haqqında mübahisə aparırdılar. Dərnək rəhbəri də danışıqlara qulaq asırdı. Bəlkə də bu söhbəti özü salmışdı.

– Yaradıcılıqda ən sevimli dəqiqələr hansıdır?

Cavanların hərəsi bir cür düşünürdü və açıq danışırdı:

– Yaxşı bir mövzu düşəndə, ilhama gələndə mən özümü xoşbəxt sayır və çox sevinirəm. Qırğı kimi oluram. Yorulmadan işləmək

istəyirəm.

– Hə, iş vaxtında daha çox düşünürəm, yazıram, pozuram, bəzən də pərt oluram. Belə yerdə sevincim olmur. Şeirimin çapdan çıxdığını görəndə daha çox sevinirəm, sinəm qabarır.

– Mən nə masa başında, nə də nəşriyyatda sevinirəm. Əsərim çapdan çıxanda lap nigaran oluram. Elə ki, əsər haqqında mətbuatda, tribunada, məclislərdə tərif eşitdim, sevinirəm, qanadlanıram.

– Açığını deyim, cibim boş olanda sevinməyi bacarmıram. Ancaq yazdığıma qonorar alanda çox sevinirəm. O saat özümü verirəm restorana.

Biri yazısının çapdan çıxan gününü, bir başqası çox dillərə tərcümə olunmağını, mükafatlanmağını özü üçün xoşbəxtlik sayırdı.

Dərnək rəhbəri cavanların bu açıq və səmimi söhbətini diqqətlə dinləyəndən sonra üzünü məclisə tutub danışdı, sanki bir çox mübahisələrə yekun vuran bir nəticə dedi:

– Uşaqlar, yaradıcılıq sevincinin hüdudu yoxdur. Harada başlandığı və harada bitdiyini söyləmək də çətindir.

Ən dərin bir həsrət, ən dərin bir ataşla sərin bulaq suyunu içəndə, ürək rahatlığı duyanda necə təmin olunursansa, yaratmaq məqamında axtarışlar aparanda, düşünəndə, yazı masasının arxasında yazıb-pozanda da elə sevinirsən. Oradakı zəhmət və əziyyətin özü də insana xoşdur və sevincdir.

Ancaq insan daha çox sevinir, o zaman ki, əməyinin bəhrəsini əllərdə, oxucuların əlində görür. Adamların əynində libası, qolunda saatı, ayağında çəkməni, qabaqlarında cürbəcür nemətləri görürsən. Bunların hamısını yaradan, zəhmətini çəkən var. Hamısı iftixara layiqdir. Sən də öz əsərini bu adi, mənəvi nemətlər cərgəsində görəndə ürəyin dağa dönür, özünü böyük vətənin fəxri vətəndaşı sanırsan!

*1967*



# BAĞA GETMİŞDİM

Yayda Bakıda istidən qorunmaq xüsusi bir qayğıdır. Burada istilər mayın ikinci yarısından başlanır, oktyabrın birinci yarısında qurtarır. Bir ayın, uzağı iki ayın istisindən yaylağa qaçmaq olar. Beş ayı harada, hansı səfərdə keçirə bilərsən?

Ona görə keçmişdə varlı-karlı kişilər Bakının özündə bir növ yaylaq şəraiti düzəltməyə çalışmışlar. Bakı bağlarını, Xəzər sahillərini münasib şəraitə salandan sonra isti nəinki üzücü olmur, hətta bəzi yerlərdə müalicə vasitəsinə çevrilir.

Xəzər sahilləri, buranın quru istisi neçə-neçə xəstəliyin dərmanı, yay istirahətinin ocağı olur. Müdrik Şərq hikməti sağlamlığın düsturunu belə deyir:

– Ab, ataş, xak, bad.

(Su, günəş, torpaq və hava).

Bakı bağlarında bu nemətlərin hamısı var. Xəzərin müalicə suyu, yandırıcı günəş, tərtəmiz sahil qumu və dənizin təmiz havası.

Bunlara üstəlik, diş dəyən kimi, şaqqıldayıb şirəsini qana yeridən

şanı üzümü, pəhləvanlar gözünə işıq, qoluna qüvvət, dizinə qüdrət gətirən sarı əncir.

Bakı bağlarında yay istirahəti və müalicə şəraiti düzəldə bilməyənlər aciz adamlardır.

Bu il mən miyanə bir bağ götürdüm, payız aylarından məşğul olmağa, sahmana salmağa başladım. İstirahət günlərini bağa qaçır, yer belləmək, ağac basdırmaq, su çəkmək, torpağı alaqdan təmizləməklə keçirirdim.

Əncir ağaclarının dibində gödəkçəli bir kişinin qurdalandığını gördüm. Əvvəl güman etdim ki, qonşudur, kölgəlik axtarır. Fikir verəndə gödəkçəli kişinin ağaclara diqqətlə baxdığını, sanki, budaqları saydığını zənn etdim.

O tərəfə yaxınlaşanda gödəkçəli məni qabaqladı, salam verdi:

– Yorulmayasınız.

– Sağ olun, deyəsən, qonşuyuq.

– Bəli, aşağıdakı bağlara baxıram.

Bunun cavabında mən soruşmalı idim: "Burada nə axtarırsınız?".

Bu sualı münasib bilmədimsə də, görünür, hərif özü dərk etmişdi. Sözünü izah elədi:

– Bu bağları, deyəsən, təzə paylayıblar.

– Bəli, iki ildir.

Gödəkçəli cürətə gəldi:

– Buralar sovxozun idi. Bağbanlığını biz eləyirdik. Sonra yaylaqçılara payladılar. Adam var, həvəslə gəlib abadanlıq eləyir. Adam da var, adını torpağın üstünə qoyub gedib...

Gödəkçəli bunu dedi və mənalı-mənalı ağaclara baxdı:

– Bunları, bu qoşa əncirləri basdıranda hərəsi qəlyan çubuğu boyda idi. Kim deyərdi iki il içində belə igidə dönəcək. Ancaq bunların dibləri açılmalı, artıq çubuqlar təmizlənməlidir. Sudan da korluq çəkirlər, deyəsən. Bunlar yaxşı ağaclardır. Xəzridən də qorunurlar. Mən buradan ötəndə övladımı görən kimi sevinirəm. Xahiş edirəm bunlardan muğayat olun.

Gödəkçəli kişi bunu dedi, hovuzun yanına qaçıb vedrələri doldurdu, bel ilə ağacların dibini çökəklədi, suyu oraya caladı:



– Bakı bağında əncir ilə üzüm qədər gül eləyən ağac yalandır. Bu qoşa ağacın baxanı olsa, bu il putlarla bəhər yığmaq olar.

Mənim razılıq sükutumu görəndə gödəkçəli bağban əyilib ağacların dibini də təmizləməyə başladı:

– Bağ deməyiblər, bax deyiblər, qonşu. Ağac qıraqdan bağbanı haraylayır. Ağac da, meynə də körpə kimi qulluq istəyir. Gərək baxasan.

Gödəkçəli kişi özü dediyi kimi illərdən bəri "Tərəqqi" sovxozunun bağbanı idi. Yalnız maaş üçün işləyən yox, zəhmətini çəkdiyi torpağın, ağacın, meynənin qədrini bilən, qeyrətini çəkən adam idi. Hər dəfə bizim bağdan keçəndə, məni oralarda görəndə ürəklənir, ağaclara qulluq eləyir, bir-iki məsləhət də verib gedirdi. Görünür, bu işlərin həvəskarı idi. Əvvəllər mən bu adama birtəhər baxırdım. Güman edirdim ki, umacağı var. Onun xəcalətindən nə ilə çıxa bilərdim?

Yəqin ki, pul təklif eləsəm almazdı. Heç olmasa, əkib-bəslədiyi ağacların meyvəsindən onun da payını göndərmək pis olmazdı.

Bu niyyəti bəyəndim və məhsul vaxtı qoca bağbanın – Əhməd kişinin payını ayırdım. Səhər açılanda, şeh çəkiləndə ehtiyatla dərilmiş bir səbətənciri maşına qoyub uşağa tapşırdım ki, aparıb ona versin.

Uşaq səbəti apardı, getdi.

Səhər gedən idi. Gün günorta yerindən keçdi. Uşaq Əhmədgildən qayıtmadı.

Əhmədin bağı bizdən beş-altı kilometr aralı idi. Saat səkkizə qədər gözlədim, hazırlaşıb uşağın dalınca getmək istəyirdim ki, yol ağzında maşın səsləndi. Uşaq səfərindən qayıdırdı.

– Harada qalmısan neçə saatı, bala, demirsən nigarandırlar?

– İşə düşmüşəm.

– Nə olub?

– Kişi buraxır ki.

– Qonaqlığa düşmüşdün?

– Qonaqlıq olsa yaxşı idi. İşə düşmüşdüm...

Kişi uşağı yanına salıb, bütün bağı gəzdirmiş, əkib-becərdiyi ağacları bir-bir göstərmişdi. Bir az da nəsihət verib öyrətmək istəmişdi:

– Bala, – demişdi, – atan oxumuş adamdır, bağ işinə nə vaxtı, nə

həvəsi olar. Bağı gərək siz cavanlar becərəsiniz. Bu abadlıq sizin, bəli, sizin borcunuzdur...

Əhməd kişi ərklə uşağı məcbur edib, əncir ağaclarına çıxarmış, iki səbət əla meyvə dərib hədiyyə göndərmişdi.

– Apar, – demişdi, – görsünlər ki, ağaclar qulluq görəndə nə möcüzə göstərir.

Əhmədin sarı əncirləri doğrudan da bir tamaşa idi. Uşaq Əhməd kişinin bağından, hörmətindən danışır, danışdıqca həvəslənirdi.

– Halal olsun o kişinin ağaclarına, çardaqlarına! Özüm ağaclara çıxıb səbətləri doldurmuşam.

– Burada səni bir budağa çıxarmaq olmur.

– Ağaclara baxırsan, ağlın gedir. Bağ elə olar.

– Kişiyə hədiyyə aparmışdın, daha əvəzini niyə gətirirdin?

– Əl çəkmədi, zorla səbətləri doldurub maşına qoydu. Bağa elə bağban tutasan gərək.

– Özün bağban olasan gərək, oğul.

– Əhməd kişi də bunu deyirdi. İki saat bağbanın nəsihətini şirin bir nağıl kimi eşitmişəm.

– Eşitmək asandır.

– Eşitmək azdır, eləməyə çalışacağam, bu ildən gərək bu bağa bağban kimi baxam.

– Əhməd kişi sağ olsun ki, səni başa salıb.

– Əhməd əmi bitkinin Allahıdır...



# BİZİM QUŞLAR

İnsan istər ki, özünün müəyyən nailiyyətini dostu, əzizi ilə bölüşdürsün. Bağban tanımıram ki, məhsulunu tək yesin, xanəndə tanımıram ki, tək otaqda oxusun. İnsanın insanlığı insanlar arasında, el içindədir. Cəmiyyətdən kənar insan olmaq qeyri-mümkündür.

Ovçu dostum bir gün halla-halla ilə qapıdan girdi. Uzun, yaşıl qəfəsdə mənə bir cüt quş hədiyyə gətirmişdi:

– Bu tutuquşlarından bizdə on-on beşi var. Mən düşündüm ki, bunlar sizin təzə evə, geniş açıq eyvanınıza layiqdir. İkisini gətirmişəm. Qoy burada bəslənilib böyüsünlər. Bu torbada da yemlərini gətirmişəm. Gündə bir-iki çimdik yeyələr-yeməyələr. Əziyyəti-zadı yoxdur. Təbiətin bu gözəl məxluqu hərdən bir-birilə mehriban danışacaq, kəlmə kəsəcək, sən də kənardan baxıb ləzzət aparacaqsan. Uşaqlar üçün bundan yaxşı əyləncə nə ola bilər?

Mənim təşəkkürdən başqa sözüm olmadı.

O gündən bu quşlar ev dəftərinə düşdülər. Bizim eyvanda yaşamağa başladılar. Gündə onların suyunu, dənini verir, yerlərini rahatla-

yırdım. Sonra bu işlər nənəmin boynuna düşdü. İdarəyə, qulluğa başım elə qarışdı ki, həftələr, aylarla quşlar yadımdan çıxırdı. Çox çəkmədi, nənəm də bezdi.

– Ay oğul, – deyirdi, – bəlkə, bu quşları açıb buraxasan, savabdır, qəfəsdə çırpınırlar, qarğış eləyirlər. Quş uçmaq üçün yaranıb, neyləsin yazıqlar, bir tikə yerdə axı? Dəmir qəfəsi Allah dünyada heç məxluqa qismət eləməsin.

Qonşumuzun uşağı – Ramiz nənənin şikayətini, deyindiyini eşidən kimi, gəldi:

– Popuqayların xüsusi maqazini var, – dedi, – yalvarıb alırlar. İcazə verin, aparıb təhvil verim.

Nənəm də, mən də razılıq edib verdik. Axşam Ramiz quşların əvəzində müqavilə gətirdi. Orada yazılmışdı ki, filankəs filankəs oğlu iki dənə tutuquşunu satılmaq üçün zoomağazaya təhvil verib. Quşlar satılana qədər mağazada saxlanmalı, yemlənməlidirlər. Quş sahibi bunun müqabilində mağazaya gündə 20 qəpik verəcək, quşlar satılanda da mağazaya haqq ödəyəcək.

Nə isə, həmin müqaviləni alıb stolun üstünə atdım, quşların boşalmış yerlərinə baxıb, sevindim. Nənəm artıq zəhmət, əziyyətdən qurtarmağına şükür elədi.

Bir həftə, ya on gün sonra mağaza müdirindən bir kağız aldım ki, quşları həmin qiymətə alan yoxdur, gəlin müqaviləni təzələyək. Mən də bu təklifə razı oldum, qonşunun uşağından xahiş elədim:

– Bu işin zəhmətini boynuna götürmüsən, gərək başa vurasan, Ramiz.

Ramiz bu dəfə də gedib quşların qiymətini ucuzlatdı, yeni müqavilə gətirdi.

10-15 gün keçəndən sonra mağazadan təkrar kağız gəldi. Deyəsən, mağaza müdiri lap əsəbiləşmişdi. Quşlardan imtina edirdi. "Gəlin, deyirdi, mətahınızı aparın, mağaza xərclərini də ödəyin!".

Ramizə xəbər göndərdim ki, quşlardan mən də imtina eləyirəm. Mağaza müdiri kimə istəyir, neçəyə istəyir satsın, ancaq məndən əl çəksin, o quşları bir də evə qaytarmasın.

Ramiz də, görünür, işini bilmişdi.



– Məktəbdən məni təcrübə işinə rayona göndərirlər.

O, boyun qaçırdı.

Özüm birtəhər vaxt tapıb getmək istəyirdim ki, axşam gəlib evdə təzə məktub gördüm.

Mağaza müdiri təkidlə "ikinci dəfə" sözünü məktubun üstündə iri hərflərlə yazıb tələb edir:

"Sizin quşlarınız satılmadığı, mağazanın onlara nəzarət imkanı olmadığı üçün beş gün müddətinə gəlib onları mağazadan çıxarmağınız xahiş olunur."

Zoomağaza məni yaman çaşdırmışdı. Kağızı-kağıza calayır, tələb edirdi. "Təcili suratdə."

Mənim ev işim, qulluq işim tamam yadımdan çıxmışdı. Quşlar barədə dalbadal gələn tələbnamələr fərsiz, nadinc uşağı üçün hər gün məktəbə çağırılan valideyn kimi, mənim başımı qatmışdı. Bilmirdim nə edim, necə edim.

Güman edirdim ki, mağazaya yaxın düşsəm, müdir quşların qəfəsini qoltuğuma verəcək, neçə günün də nəzarət xərcini məndən alacaq.

Təsadüfən, ya nəsə həmin günlər quş mağazasında yanğın düşdü. Bütün quşları çıxarmalı, ya da açıb buraxmalı oldular.

Doğrudur, müdirin tələbnaməsi ilə bizdən bir neçə manat nəzarət xərci aldılar, amma quş əhvalatından mənim yaxam qurtardı.

*1967*

# BİZİM MÜHƏNDİS

Bakıda yay bərk olanda istidən aman istəmə. İyul günəşi, deyəsən göylərin yeddi qatından enib aşağıda dayanır. Neft üstünə od tökür, yeri-göyü qaynatmağa qəsd eləyir. Ağır bürkü havanı bürüyür.

Maşınlar, qoşqular, piyadalar başa çətir tutub qızışmış küçələrdən, daş-divar, dəmir-beton arasından tez keçməyə, sərin yer tapıb, daldalanmağa can atırlar.

Hamı tələsir, yolları dolduran nəqliyyat vasitələri, izdiham içindən sürətlə keçməyə fürsət axtarır, heç kəs yanındakına baxmır, soruşmur, bütün diqqətlər rəngli fənərlərə zillənib. Orada iki sərt yazı hər an bir-birini əvəz edir.

Keç! Dayan!

Dayan! Keç!

Bir də görürsən işıq əmri yandı. Nəqliyyat vasitələri bir– birinə söykəndi. İzdiham sıxlaşdı, qalınlaşdı, etirazlar eşidilir:

– Nə olub?

– Fəlakətmi var?



– Yol niyə bağlandı?

Belə yerdə xəbər ildırım kimi yayılır. Həyəcan baxışlardan oxunur.

Qarşıya boylananda görürsən, yoldan bağça uşaqları keçir. Yumurtadan indicə çıxmış cücələr kimi ağ maykalı, ətcə balalar bir-birinin əlindən tutaraq sakitcə, aramla isti asfalt üstündə quş addımı atırlar. Balalar dəstəsinin başında-ayağında ana baxışlı mürəbbilər bu xoş mənzərəni iftixarla seyr edirlər. Yolun sağ-solunda, həyəcanla gözləyən, hər tərəfə buğ verən, hərarətlə çırpınan maşınlar bir-birinə söykənmişdir. Kimisi buz aparır, kimisi ərzaq daşıyır, kimisi yanacaq, kimisi tər meyvə.

Qızmar gün altında kim gözləmək istər. Nazirlər, komandirlər, generallar, həkimlər, şairlər, hər kəs öz maşınında qabağa boylanır, yol istəyir.

Fərqi yoxdur, hamı gözləməlidir. Yolu tutan körpə balalar burada ən güclü adamlardır. Kimsə onları tanımır, kimsə onlardan çəkinmir.

Ancaq Vətəndə onlar ən güclü, ən hörmətli, ən şərəfli vətəndaşlardır. Hamı onlara təzim edir. Onlar Vətənin gələcəyi, sabahın həkimləri, şəhərlərin, kəndlərin sahibləridirlər.

Hamı tələsib təlaş etsə də, balalar uşaq təmkinini pozmurlar. Sağda-solda gözləyən maşınları tər çiçək nəzərləri ilə, məxmər təbəssümləri ilə süzür, sanki deyirlər:

– Tələsməyin, tələsən tərs düşər!

Böyüklər balaların təmkininə baxıb gülüşürlər, intizar və təlaş iftixar hissi ilə əvəz olunur.

Kənardan, əzəmətli binanın pəncərəsindən meydançanı seyr eləyən əli qələmli mühəndis şəhadət barmağını gicgahına qoyub iş masasına oturur, həvəslə çertyojunu, layihəsini çəkir.

Bir neçə ay sonra həmin meydançadan ötən balalar dəstəsi sağda və solda gözləyən maşınları, tankları, traktorları görmürlər:

– Müəllim?

– Mürəbbiyə?

– Bəs!

Uşaqların hamısı boylanır, deyəsən, kimi isə axtarırlar.

Müəllim körpüyə işarə edəndə balalar ümumi bir vəcd ilə sevinib

gülüşürlər.

Körpünün altından sağa-sola sürətlə ötən maşınlar guruldayaraq balalara salam göndərir, "yaxşı yol" deyib səadət arzulayırlar.

*1967*



# İKİ FİLOSOF

Dostlar əhatəsində, fikirlər mühitində keçən ömür mənalıdır, hədər getmir. İllah da ki, dostlar həqiqi, səmimi, mötəbər ola. Hərəsindən bir söz eşidib öyrənirsən, kamal, mərifət kəsb eləyirsən.

Mənim səmimi, mötəbər dostlarım çoxdur, hər səhər onlar ilə görüşürəm, salam-kalam eləyirəm, hər səhər üzümə gülən ilk müsahiblərim, məsləhət, məşvərətçilərim onlar olur. Bu səhər qapını açıb kitabxanama, dostlar məclisinə – sükut, təfəkkür xəzinəmə daxil olanda çoxdan həsrətini çəkdiyim iki nadir vücudun qabaq-qabağa əyləşib şirin söhbət etdiyini gördüm.

Qocaman filosof Şeyx Sədi böyük ədib Mirzə Cəlili diqqətlə dinləyirdi. Mən bu qeyri-adi mənzərədən təlaşa düşdüm. Mane olmamaq üçün tez qapıdan qayıtmaq istədim.

Mirzə Cəlil gülümsədi, adım ilə çağırdı, yer göstərdi. – Əyləş! – dedi, məni müsahibinə təqdim elədi. Sakit ahənglə söhbətin dalısını başladı:

– Ay rəhmətlik oğlu. Hələ neçə yüz il əvvəl demisiniz: "Bulud,

külək, ay, günəş, fələk hərəkətdədirlər ki, sən bir parça çörək ələ gətirəsən, qəflətdə yeməyəsən...".

Bu şair kəlamını hərə bir yana yozub: dərvişlər, vaizlər min bir məna verib oxucuları azdırıblar. Ancaq indi başa düşüblər, böyük vücudların zəhməti, diqqəti sayəsində dərk eləyiblər ki, məsələ nədir, nə yerdədir.

Böyük Leninin Vətənində onun böyütdüyü nəsil indi kainatın bütün sirlərini açmağı, qocaman fələyi insanlara, səadətə xidmətə çağırmağı vacib biliblər. Sovet adamlarının ecazkar maşınları Aya, ulduza uçub, əngin fəzaları, zəngin aləmləri fəth edir ki, insanlıq dünyasında qəflət, qaranlıq, puç etiqad qalmasın.

Sədi Şirazi qəlyanını bir kənara qoyub "Gülüstan"ı əlinə aldı. Hörmətlə mənə təqdim etdi.

– Cavan oğlan, bu kitabın sözlərinə siz necə təfsir verərdiniz!

Mən gözlənilməz və çətin bir sual qarşısında idim. Bilmirdim nə deyim, necə deyim! Böyük şair bunu duydu. Məni vəziyyətdən qurtarmaq üçün cavab gözləmədi. Ürəyindəkini açıq dedi:

– O zaman bizi dərk edən az idi, düşmənimiz isə çox idi.

Sədi bir müəllim kimi mülayim danışdı:

Mən camaatı həyata çağırırdım.

Mollalar məscidlərə, məbədlərə doldururdular.

Mən zəhmət deyirdim, axundlar ibadət deyirdilər.

Mən düşüncə istəyirdim, möminlər amin deyirdilər.

Mən hikmət axtarırdım, möminlər itaət deyirdilər.

Mən məna soruşurdum, onlar cənnət istəyirdilər. Bizim ömrümüz belə ixtilafda keçdi.

Mirzə Cəlil gülümsündü və böyük şairi muştuluqladı.

– Getsin o günlər, bir də qayıtmasın. İndi Yer kürəsinin şimalında Lenin dühasının qüdrəti ilə münəvvər bir ölkə qurulub, orada zehinlərdən zülmət, mövhumat silinib, aləm zəhmət, elm, bilik ilə işıqlanıb. Hörmətli filosof, ədib, şairlərimizin nadir sözlərini balalar əzbərləyir, mənasını açırlar.

Və bə qəflət nəxori...

Yəni insanlar gərək varlığın hikmətlərindən, möcüzələrindən xəbərsiz olmasınlar. İnsanlar gərək varlığın sirlərini dərk etsinlər, kainatı, dünyanı bilsinlər, fəndini öyrənsinlər, məqsədəuyğun dəyişsinlər. Bizim arzularımız belədir.

Mən filosofları sevindirdim.

– Sizin nəvə-nəticələriniz, mütəfəkkirlərin vəsiyyətləri ilə böyüyən yeni nəsillər, fatehlər nəsli tamam yeni bir dünya qururlar, Yer kürəsini gülüstana döndərirlər.

– Onların bugünkü müəllimlərinə əhsənlər, afərinlər!..

Filosofların xeyir-duası mənim zehnimdə işıq kimi yandı, sevincimdən vəcdə gəlib qanadlandım.

*1967*

# DAHA BİR YADİGAR

Hər il Nadirin ad günü iki yerdə mütləq qeyd olunurdu: evdə, trestdə.

Evdə Məsmənin ailəsi, balaları, Nadirin dost, yoldaşları yığılır, qəhrəmanı xatırlayır, deyib-danışırdılar. Trestdə də Nadirin xatirəsini əziz tuturdular, onu inşaatçıların cavan, nakam müəllimi sayırdılar. Hər dəfə xatirə məclisi düzələndə hamıdan qabaq Məsməyə zəng olunur, məsləhətləşir, günü, saatı onunla razılaşırdılar.

Nadirin buradakı xidmətini hörmətini göstərmək üçün gərək əhvalatı başdan danışaq:

Nadir məktəbin yeddinci sinfini qurtaranda Təzəşəhərdə böyük bir inşaat tresti açıldı. Buraya savadlı fəhlə yığmağa başladılar. Nadir də həmin təzə tikintiyə gələn gənclərdən biri idi. Çox az bir zamanda Nadir tikintidə hörmət qazandı. Əvvəl onbaşı, sonra texnik oldu. Layihələrin, plan və təkliflərin müzakirəsində, istehsalat tədbirlərində Nadirin səsini çox eşidir, qiymətləndirirdilər. Xüsusilə, cavan fəhlələr Nadiri sevir, sözünə inanırdılar. Çox təəssüf ki, Nadirin mühəndislik işi



uzun sürmədi.

1941-ci ildə Vətənin üstündə təhlükə görünəndə, faşist qoşunları hücuma keçəndə Nadir də bütün qeyrətli cavanlar kimi qələmini, xətkeşini silah ilə əvəz etdi.

Trestdəkilər elə güman edirdilər ki, Nadir orduya gedəndən, hərbi ixtisas alandan sonra daha trestə qayıtmaz, qayıtsa da böyük vəzifələrə qayıdar.

Nadir cənub cəbhəsində döyüş rəşadətinə görə təltif olunanda ailəsinə vurduğu gözaydınlıq teleqramını trestə də vurmuşdu və demişdi:

– Orada inşaatda məni əvəz edənlərə, yeni bina ucaldanlara xəbər verib deyin ki, mən də burada iş yoldaşlarımın dinc əməyini qoruyuram. Zenit toplarımla gündə neçə faşist təyyarəsini vurub salıram.

Nadirin bu məktubu axırıncı məktub oldu. Onun Kerç yarımadasında hücum döyüşlərində qəhrəman kimi həlak olduğunu biləndə trest fəhlələri qəhrəmanın əziz xatirəsinə and içdilər.

İndi il olmaz ki, Nadirin xatirəsi xüsusi bir hörmətlə yada salınmasın.

Bu xatirə məclisini qiymətli bir hədiyyə bəzədi: həvəskar rəssamlar Nadirin naxışlarla, tikinti materialları ilə çəkilmiş şəklini komsomol komitəsinin otağına vurmuşdular. Şüşə, dəmir, çınqıl, balıqqulağı bu şəkildə ayrı bir rəng, ayrı bir parıltı kəsb etmişdi. Sanki onlar bu dəfə xüsusi mərasimə, qəhrəman, gənc komandir topçunun xatirələrdə yaşayan simasını canlandırmağa gətirilmişdilər. Sanki bu müqəddəs məqsəd üçün yaranmışdılar. Komsomol katibi şəkli Məsməyə təqdim edib əlini sıxanda ana elə bildi ki, oğlu cəbhədən sağ-salamat qayıtmışdır. İyirmi illik ayrılıqdan sonra əsgər qüvvəti, qələbə günlərinin eşqi, hərarəti ilə anasını salamlayıb deyir:

– Anacan, uşaqları niyə gətirməmisən, onları mən burada görmək istəyirəm!

Trest cavanları yığıncaqdan sonra şəkli götürüb Məsmənin evinə gəldilər. Ananın qəhrəman oğlu üçün ayırdığı otağın lap baş divarına vurdular.

Evə daxil olan dostları hamıdan qabaq Nadiri salamlayırlar. Ev sahibi kimi, Vətənin şərəfli oğlu kimi salamlayıb "xoş gəldin" deyirlər.

*1967*



# MƏSUL İŞÇİNİN DƏFTƏRİNDƏN

Məsul vəzifədə çalışmaq hər zaman, hər adama müyəssər olmur. Uzun təhsil, təcrübə, yoxlama keçəndən, isti-soyuq görəndən, bərkə-boşa düşüb-çıxandan, tanınandan, hörmət, etibar qazanandan sonra bu mərtəbəyə çatırsan...

Neçə il əvvəl böyük bir vilayətin İcraiyyə Komitəsində çalışırdım. Özü də ağır vaxt idi. Vətən müharibəsi illəri. Günümüz, gecəmiz yox idi, səhər-axşam gözlənilməz mühüm tədbirlər keçirməli, yüzlərlə, minlərlə fəhlə, kəndli, xidmətçi qabağında, onların irəli gedənləri kimi işləməli olurduq, hər saat, hər gün yuxarılardan göstəriş, aşağılardan tələb alırdıq. Çalışırdıq ki, yuxarının, aşağının vəhdəti, məqsədəuyğunluğu əsasında ümumi iş, dövlət, xalq işi düzgün getsin.

Günümüzü səhərdən-axşamacan camaat içində, fabrikdə, kolxozda, məktəbdə, iclasda, müşavirələrdə keçirirdik. Bəzən lap gecə, camaat yatandan sonra kabinetdə yığılmış qalaq-qalaq kağızları oxuyub dərkənar qoymalı olurdum.

Belə bir axşam, başıaşağı, stolüstü çırağın işığında oturub kağız-

ları oxuyurdum. Bir də gördüm hay düşdü, qışqırıq qopdu. Qapıçıya tapşırılmışdı ki, bu zaman idarəyə, xüsusən kabinetə adam buraxmasın. Gördüm qapıçı bir kəndli qadınla dalaşır, qadın dartınaraq çığırır, özünü içəri salmaq istəyir:

– Yoldaş filankəs, yoldaş filankəs, şikayətim var!

Qapıçı mane olur:

– Ay arvad, qəbul yoxdur, buraxa bilmərəm səni, gündüz gələrsən.

Mən qapıçıya işarə elədim:

– Burax gəlsin.

Qadın ağır bir yük altından çıxmış kimi, təngnəfəs özünü içəri saldı, bir az da uca səslə, cürətlə danışmağa başladı:

– Şikayətim var, yoldaş, mənim dadıma yetişin.

Qadın qoltuğunda iri bir boğça da gətirmişdi.

– Xala, – dedim, – şikayətinizi eşidərik. Ancaq o boğçanı qapıda qoyub gəlsəniz daha yaxşı olar, bura İcraiyyə Komitəsidir, mərifətlə gəlmək...

Bunu dediyimi gördüm, deyəsən, qadın elə fürsət axtarırmış:

– Ay qadan alım, mənə qanacaqsız demə. Boğçanı qoyub gələ bilmərəm, çünki, bütün mətləb elə həmin boğçadadır.

Qadın bu sözləri elə ürəkdən, riqqət və hiddətlə deyirdi ki, məni maraq götürmüşdü. Yəqin, deyirdim, oğurluq şey tutulub, ya evi qarət olunub, ya nədir?

O zaman bizim kənar rayonlarımızda sərhədçilər qonşu ölkələrdən keçən cürbəcür arzuolunmaz, çağırılmamış "qonaqlar" tutub gətirdilər. Mən özlüyümdə belə gümanda ikən qadın sözünü təkrar etdi:

– Bütün mətləb həmin boğçadadır...

O, sanki məni inandırmaq üçün qoltuğundakını stolun üstünə atdı:

– Buyurun baxın, mən balamın qanını sizdən istəyirəm. Şura hökumətinin böyüyündən istəyirəm...

O, boğçanı açar-açmaz dəhşətli bir mənzərə yarandı. Qanlı köynək-tumanı, pambıqları, sarıqları, dəsmalları görəndə mən dayana bilmədim:



– Əyləş, xala, özünə toxtaq ver, danış görüm, nə məsələdir?

Bəzən bahar buludu kimi bir anda dolub-boşalan, bağlanıb-açılan insan xarakterlərini çox görmüşəm. Dinclik, müharibə, gərginlik, arxayınlıq, əsəbilik, intizar, təklik, izdiham şəraitində də görüb müşahidə eləmişəm. Qətiyyətlə deyə bilərəm ki, bu şikayətçi qadın qədər xatirimdə möhkəm iz buraxan ikinci bir hadisə güman etmirəm.

Bayaqdan gözlərindən qığılcım yağan, simasında hər şeyi parçalamağa hazır, pələng qəzəbi duyulan şikayətçi qadın, sanki mənim işarəmə bənd idi, tamam dəyişdi, yumşaldı. Deyəsən, köz üstünə su çilədilər. Qadın sakitcə oturub üzümə baxırdı, elə bil ürəyinin lap gizli guşəsində sirr kimi qalan, çıxmağa yol axtaran bir mətləbi demək istəyir, amma çətinlik çəkirdi.

– Danış görüm, xala, nə olub, nə baş verib, oğlun haradadır? Danış!..

Qadın iki əli ilə üzünü örtüb fəryad etdi, ağladı.

Sizi bilmirəm, mənim fikrimcə, dünyada ağlar sədalar qədər insanı sarsıdan heç nə yoxdur. Pərişan, gözüyaşlı, köməksiz bir qadının, oğul anasının fəryadı mənim bütün vücudumu sarsıtdı: ürəyim kövrəldi. Qəhərləndim. Qadına yanaşıb qolundan tutdum, qaldırdım, yaxına gətirib əyləşdirdim. Qapıçıya işarə elədim ki, su versin.

Handan-hana ana gözlərinin yaşını silib, sakit, rahat bir ahənglə dərdini danışdı.

Mən katibi çağırdım, deyilənləri nöqtəsinə qədər yazdırdım. Qadın gah mənə, gah katibə, gah stol üstünə sərilmiş qanlı paltarlara baxıb, iztirabdan üzülmüş, gücünü itirmiş, yorğun səsi ilə başına gələnlərin hamısını danışırdı. Danışdıqca, ürəyini boşaltdıqca yüngüllük duyurdu. Mən də bunu görüb təsəlli verirdim:

– Xalacan, darıxma, sənin şikayətinə diqqətlə baxılacaq, müqəssirlər cəzasına çatacaqlar. Heç şeydən çəkinmə, ehtiyat eləmə, sən indi hökumət idarəsindəsən, kimdən nə sözün, nə gileyin varsa, de, qoy yazsınlar. Sovet qanunları vətəndaş hüququnun keşiyindədir.

Qadının şikayətindən məlum oldu ki, oğlu limonad zavodunda fəhlədir. Təzə kostyum alıb, köhnə kostyumunu satmaq istəyəndə, bazarda bir milis tutub ki, sən yəqin alverçisən. Düş qabağıma, inzibati

məntəqəyə gedək. Oğlan getmək istəməyib, milis təkid eləyib. O, deyib, bu deyib, sözləri çəp gəlib, dalaşıblar. Milis nəfəri oğlanı döyüb, yaralayıb, üstəlik, ittihamla dama saldırıb. Anasını da hədələyib ki, oğlun alverçidir, məhkəmədə cavab verəcək.

Əhvalat Təzəkənd rayonunda baş vermişdi. Səhərisi rayon milis rəisini və Rayon İcraiyyə Komitəsinin sədrini çağırtdırdıq. Hər ikisi hadisədən xəbərdar idi. Şikayətçi qadının dediyinə görə, xəbər tutublar, ancaq milis xidmətçisinin xətrinə dəyməyib, tərəfini saxlayıblar.

Vilayət İcraiyyə Komitəsinin rəyasət heyətində təsərrüfat məsələlərinin müzakirəsindən sonra qadının şikayətini müzakirə etdik. Oğlanı həbsdən azad etdirdik. Rayon İcraiyyə Komitəsinin sədrinə və milis rəisinə şiddətli töhmət verdik. Fəhləni döyən milis nəfərini məhkəməyə cəlb etdik.

Qadın sakit, razı halda idarədən gedəndən sonra mən əsəbi, yorğun halda mənzilimdə dincəlirdim. Bakıdan zəng çaldılar.

Zəng vuran ictimai asayiş naziri Məhişov idi. O, sözünü salam-kalamla başlayandan sonra mətləbə keçdi:

– Camaata şiddətli töhmət verirsiniz, yoldaş filankəs.

– Camaata yox, müqəssirlərə veririk.

– Bir iş üçün bir neçə məsul işçini cəzalandırmaq necə olur?

– İşlə əlaqədar olanlar barəsində söhbət gedib.

Məhişov mənim danışıq ahəngimi görüb, dəstəyi yerinə qoydu. Bir neçə saat sonra Ali Sovetdən katibə zəng elədi:

– Yoldaş filankəs, – dedi, – ayın doqquzunda, istirahət gününün səhəri Bakıda olarsınız, saat onda rəyasət heyəti iclasına siz də çağırılırsınız.

O saat bildim ki, milis rəisi şikayət eləyib, döyülənin işi müzakirə olunacaq.

Bəhanə gətirməyin mənası yox idi. Vacib işlərim olsa da, qadının şikayətini müdafiə etməyi üstün tutdum. Ayın doqquzunda saat səkkizdə Moskva – Tiflis qatarı ilə Bakıya gəldim.

Payızın küləkli və soyuq bir günü idi. Evdəkilərə də xəbər eləmişdim. Gözlənilməz səfərimdən heyrətləndilər, bir saat ərzində hazırlaşıb, özümü iclasa yetirməli idim.





Mənə məlum idi ki, icrakomun götürdüyü ölçüdən narazılıq var. Xüsusən, töhmət alan vəzifəli şəxslərin şikayətini haqlı sayan yoldaşlar da var. Elə olmasa, bu tezliklə məsələni bu mərtəbədə qoymaz, işin bu vaxtında məni çağırmazdılar. Müzakirəyə elə bir hazırlıq da görməmişdim. Ancaq şikayətçi qadının ərizəsini və istintaqın surətini götürmüşdüm.

Həmin illərdə Ali Sovetdə Rəyasət Heyətinin iclasları həm geniş, həm də gurultulu olurdu. Camaat çox, məsələlər də mürəkkəb idi. Bizim məsələyə çatanda sədrin səsi ucadan eşidildi:

– Mürşüd buradadırmı?

Mən ayağa qalxdım. Sədr oturmağıma işarə elədi, sözü nazirə verdi.

Nazir bizim mahalda olan əhvalatı, daha doğrusu, həmin əhvalat barəsindəki iclas və qərarı ətraflı danışdı, sonra şərh eləməyə başladı:

– Nə təhər olubsa, – dedi, – Mürşüd yoldaş bir qadının şikayəti ilə iki məsul işçiyə töhmət verib, istintaq altında olan dustağı buraxdırıb, bir yoldaş haqqında da məhkəmədə iş qaldırıb. Görünür, mahalda çalışan yoldaşların bekar vaxtına düşüb, inzibati idarənin vəzifəsini öz öhdələrinə götürməyə həvəsləniblər.

Nazirdən sonra Rayon İcraiyyə Komitəsinin sədri odlu-odlu danışdı. Ətrafdakıları şahid çəkdi, töhmət alan yoldaşların ünvanına mədhlər yağdırdı. Daha bir yoldaş da çıxış etdi, ümumi danışdı. Lap axırda mənə söz verdilər.

Mən əhvalatı başdan, bir az da şikayətçi qadının ifadələri ilə danışdım, sovet qanunlarının vətəndaş hüququ haqqındakı tapşırığını, xəbərdarlığını söylədim. Qəbul elədiyimiz qərarı tamamilə müdafiə etdim. Doğru, düzgün, ədalətli olduğunu sübut etməyə çalışdım. Əyləşdim. Vəziyyət daha da gərginləşdi. Mənim ünvanıma atmacalar deyir, sədrin sözünü gözləyirdilər.

Sədr həmişəki kimi, yekun vurub, fikir demədi. Üzünü nazirə tutub familini çağırdı və axırına da bir "cənab" sözünü əlavə elədi:

– Cənab nazir, – dedi, – sizin məlumatınız tamam ayrı cür idi. Yoldaş Mürşüdün məlumatı yaxşı ki, məsələni aydın göstərdi.

Nazir də, Rayon İcraiyyə Komitəsinin sədri də yerlərindən qımıl-

danıb nəsə demək istəyirdilər. Sədr səsinə kəsər verdi, daha da ucadan dedi:

– Mahalda bircə nəfər yoldaş zərərçəkən vətəndaşın harayına vaxtında çatıb, qanunu qoruyub. Siz ondan nə istəyirsiniz, balam? Mürşüd də, sizin kimi, şikayətçini qapıdan qovsa, bəlkə, xoşunuza gələrdi?!

Sədrin sözü hərifləri susdurdu. Sədr müzakirədə danışmaq istəyənləri dinləyəndən sonra hökmü özü verdi:

– Mən təklif edirəm: Mürşüd yoldaşın qərarı alqışlansın və təsdiq edilsin. Nazirin və İcraiyyə Komitəsi sədrinin bu məsələdə səhv hərəkəti qeyd olunsun və nəzərlərinə çatdırılsın. Həm də bütün rayon icrakomlarının nəzərinə çatdırılsın.

Hamı təklifi bəyəndi, etiraz eləyən olmadı.

Mən o müzakirədən çox məmnun çıxdım. Fürsət axtarırdım ki, şikayətçi qadını, oğul anasını bir də görüm, əhvalını soruşum, şikayətini çətin mərhələlərdən cəsarətlə keçirən, ədalət və həqiqət yolunda heç nədən, heç kimdən qorxmayan mərdanə anaya təşəkkürümü bildirim.

*1968*



# SƏADƏT SARAYLARI

–Bəlkə yemək istəyirsən, başına dönüm?

– ...

– Deyəsən, mənə deməli sözün var?

– ...

– Buyur, ürəyindəkini de, çəkinmə!

– ...

– Bahar çiçəklərinin ətri necədir?

– ...

– Dillənsənə, əzizim, heç olmasa bircə kəlmə!

Dünyada əcəb bəxtiyar insanlar var. Bütün naz-nemətlərə sahib olasan, nazbalışda dincələsən, əlvan ipək-qumaş geyimdə ulduz kimi bərq vurasan, ətrafında da xidmətçilər əmrə müntəzir dayanalar, hər sözündən bir sevinc, səadət umalar...

Belə əmirləri, şahzadələri siz yəqin, keçmişdə, orta əsrlərdə güman edəcəksiniz. Bunların müasirimiz olduğuna inanmayacaqsınız.

Siz onların çoxunu görmüsünüz, bəlkə də yaxşı tanıyırsınız.

Bəli, tanıyırsınız!

– Haçan, harada, necə?

Təəccüblənməyin, bir balaca dayanın, mən sizə hamısını izah edim: hər gün işdən qabaq, işdən sonra, boş vaxtlarınızda, dəniz kənarına, təzə, abad, yaşıl xiyabanlara çıxanda, təkərli, bəzəkli beşiklərin başına fırlanan cavan anaları görməmiş deyilsiniz. Beşikdə bir, ya iki yaşlı "əmirlər" yumşaq, isti rəxti-xab içində, əlvan nemətlər əhatəsində rahat oturmuşlar. Analar onlara dəqiqədə bir xörək, şirni təklif edir, "zərli kəcavəni" bir bağdan, bir bağçaya aparır, addımbaşı mənzərə, tamaşa, musiqi, müsahib dəyişir.

Həyata yenicə göz açan "əmirləri" isə nə xörək, nə gəzinti, nə musiqi, nə də mahnı ilə təmin etmək, razı salmaq olur.

Onlar xurma kimi totuq və tər barmaqlarını işarələyir, sağa-sola ötən maşınları, uca kranların pəncərəsində görünən çirməkli igidləri göstərirlər.

Sanki körpələrin də bakir, lakin iti və ayıq diqqəti əsrin pəhləvanlarını seçmiş, müasir texnikanın ecazlarından işarələr duyub-dərk etmişlər.

Duymuşlar ki, Bakının mühəndis, fəhlələri dənizə hücum çəkmişlər. Sahil boyu Xəzərin ətəklərini yığıb, yuyub, təmizləyib körpələrə və böyüklərə yeni istirahət yerləri düzəldirlər. Sürət və gurultu ilə bir-birinə macal vermədən: ötüşərək keçən, sahil sularını sıxışdırıb səki, bağça, körpü, eyvan, xiyaban, restoran yaradan maşınlar zəhmət adamlarının indisi, gələcəyi üçün, böyük abad sahil şəhərinin gözəlliyi üçün düzəlmiş layihələri həqiqətə çevirirlər.

Bütün şəhər əhalisi heyrət və sevinclə, yumşaq beşiklərdəki körpələr isə intizar, həyəcanla quruluş ahənginə tamaşa edirlər.

Kim bilir, bəlkə onların – körpələrin hər biri nəhəng kranlarda ehtiyat və gərginliklə çalışan işçilərdən də həyəcanlı və həvəslidirlər, ürək çırpıntıları keçirirlər.

Onlar əyləşdikləri "səadət sarayları"nda narahatdırlar. Onların kiçik və kövrək qəlbi anbaan çırpınır, köksdən çıxıb, göylərə, insanları fütühata çağıran fəzalara qanadlanmaq, uçmaq istəyir.

Onların hər biri Vətəndə açılan böyük sabahın kiçik qartalları, mə-





sul gələcəyin məsud qurucuları deyilmi? Bir neçə il sonra məktəb, maşın, istehsalat ocaqlarında bişib bərkiyən bu körpələri, Vətənin bu gənc qartallarını siz nəhəng tikintilərdə, göydələnlərdə, mühit dənizlərini yaran gəmilərdə, planetlərə yol açan təyyarələrdə, kainatın sirlərini kəşf edən laboratoriyalarda, icad yarışlarında, möcüzə döyüşlərində, böyük bəşəri elmin nadir tribunalarında, izdihamlar önündə, maşınlar arxasında görərsiniz.

İyirminci əsrin körpələri iyirmi birinci əsrin həqiqi əmirləri, böyük vətəndaşları, xalqların həqiqi səadət saraylarının yaradıcıları deyilmidirlər? Onda sahillər özləri həqiqi qəhrəmanlar qarşısında baş əyəcək, çəkiləcək. Qoca kainat sirlərinin açarçıları, hərb, ədavət, düşmənçilik, səfalət, zaval və yoxsulluğun məzarçıları həmin bu körpələr olacaqlar.

Həmin bu körpələr içindən o günün yeni-yeni qəhrəmanları yetişəcək! Hamıya, Səadət sarayları onda daha möhkəm tikiləcək. Yer üzündə bu sarayların və sahiblərinin sayı-hesabı olmayacaq!

Körpələr böyüdüb-bəsləyən analar, iftixarla Vətən mülkünü seyr edib deyəcəklər:

*Dünyada qalmadı nə qəzəb, nə qan,*
*İnsan xilas oldu iztirablardan!*

*1968*

Beş almışam səh.171

# ÜRƏKDƏN DANIŞAQ

Yaylaq şəhərinin yaşıl yamaclarına gedən yol göy köynəyə dolaşan qurşaq kimi qəşəng və cazibəli idi. Bir-birini təqib edən ağ "Volqa"lar mənzilə yaxınlaşdıqca yavaşıyır, dayanırdılar. Sərnişinlər dərhal maşından çıxıb, çəmənlikdə əyləşən, şən bir məclis üçün halay vuranların yanına tələsirdilər. Şənliyə gələnləri salamlayıb yer göstərəndən sonra Azər müəllim üzünü məclisə tutub ucadan səsləndi:

– Yoldaşlar, gəlin indi də bir az ürəkdən söhbət açaq!

Hamını maraq götürdü. Adamlar əvvəl Azər müəllimə, sonra da bir-birinin üzünə baxa-baxa qaldılar. Bir müddət sükut oldu. Güman edirdin ki, hamı Azər müəllimə cavab vermək üçün söz axtarır, onu da düşünmək olardı ki, camaat mətləbin ardını, Azər müəllimin daha nə demək istədiyini gözləyir. Susanlardan biri sanki müəllimə kömək məqsədi ilə məclisə müraciət elədi:

– Azər müəllim səmimi söhbət arzulayır, ürəkdən!

Bir başqası dedi:

– Yəqin, müəllimin ürək barəsində deməli sözü var.



– Bu saat bütün dünya ürəkdən danışır, biz niyə danışmayaq?

– Azər müəllim yaxşı deyir, ürəkdən danışaq.

– Ancaq ürəkdən danışaq!

Bu qeyd Azər müəllimin xoşuna gəldi.

– Əlbət ki, sözü ürəkdən danışaq, boğazdanyuxarı yox, ürək sözü gərək ürəkdən deyilə!

Bir jurnalist üzünü Azərə tutub söhbəti açdı:

– Mən, – dedi, – bilirəm ki, Azər müəllimi narahat edən nədir. Bu narahatlıqda həm sevinci, həm sualı, həm də mənalı bir intizarı mən görürəm. Mətbuatdan hamınıza məlumdur ki, naxoşların ürəyini çıxarıb, yerinə də, sağlamını, cavanını, möhkəmini qoyurlar. Əslinə baxsan, bu, elmdə, təbabət aləmində bir inqilabdır. Əsl inqilab!

– İnqilab olmalıdır!

– İndi görək bu necə olacaq?

– Necə bir inqilab olacaq?

Azər əlavə etdi:

– İnsan vücudunun cüzi hissəsini əvəz etmək elm üçün təzə məsələ deyil. Bizim çənələrimizi yoxlayan olsa, görər ki, dişlərin yarısı istehsalatda düzəlmədir – qızıl, gümüş, mumiya, nə desən var!..

– Diş ayrı sümükdür. Onu götürüb-qoymaq, yerindən aralamaq asan olur. Burun, qulaq haqqında da belə tədbirlər olur. Arvadının yekə burnunu dəyişən həkim tanıyıram.

– Mən elə adam tanıyıram ki, bağırsağının müəyyən yerində calaq var.

Məclisdəkilər arasında "Kirpi" jurnalının nümayəndəsi də var idi. O, danışıqları daha diqqətlə, bəlkə də müəyyən məqsədlə izləyirdi.

– Həkim yoldaşları, təbabət inkişafını ki mən belə görürəm, çox çəkməz ki, böyük şəhərlərdə insan vücudu üçün ehtiyat hissələri mağazini açılar. Zapçast mağazası!

– Doğrudan da belə bir mağazaya ehtiyac olacaq.

– Mağaza açılar, ticarəti də yaxşı olar. Adamlar arasında söhbətlər, danışıqlar da çox maraqlı olacaq.

– Yəni bugünkü söhbətlərdən də maraqlı?

– Çox maraqlı olacaq!

– Onda daha belə söhbətlərə hamı alışacaq?

– Məsələn, görəcəksən biri alnını şapalaqlayıb deyir: "Bu baş, əvvəl bir çobanın çiynində olub. İndi 17 ildir məndədir, özü də lap yaxşı işləyir."

– Bir başqası sağ böyrünü göstərib öyünəcək: "Anadangəlmə böyrəkləri 10 ildir çıxarıb atmışam, yerinə qoyulan idmançı böyrəyidir. Novosibirsk mağazalarından alınmadır. Özü də polad kimi bərk və davamlı, daşı sal içinə əritsin."

– Eləsi də olacaq, müştəri axtaracaq! "Mənim bağırsağımda yarım arşın artıq var, kimə lazım olsa verə bilərəm, ucuz qiymətə."

– Biri deyəcək: "Keçən il optika maqazinində bir aferist məni yaman aldatdı. Sol gözümü ondan almışam. 80 manata. Alanda qırğı gözü kimi görürdü. İki gün sonra lap söndü. Bilmirəm sürmə vurmuşdu, ya necə şeydir. Daha işə yaramır. Gərək təzəsini alam, bu dəfə yoxlayıb, yoxladıb alacağam..."

Gələcək haqqındakı təxmini danışıqları deyib-güləndən sonra Azər müəllim ürək söhbətini ciddi başladı:

– Cərrahlar ürək müalicəsini başa vurandan sonra psixoloqlar ilə fizioloqlar arasında mübahisə artıb və qabarıb, guya, calaq ürək, yeni zəminəyə qoyulan ürək əsl ürəyin yerini vermir. Bir ağacı başqa mühitə köçürəndə müəyyən vaxt lazımdır ki, iqlim dəyişməsi, alışması baş tutsun.

– Ürəyin mühitini dəyişməsi daha mürəkkəbdir, burada uzun müddət lazım gələcək.

– Bir cərrah danışırdı ki, biz xəstəxanada gözü sıradan çıxmış bir naxoşa pişik gözü qoyduq. Xəstə sağaldı, razılıq elədi. Ancaq onu deyirdi ki, nədənsə gözümü səqfdən... künc-bucaqdan ayıra bilmirəm. Hər yerdə siçan axtarıram ki, basmarlayım...

– Görünür, hərifin gözü hələ yeni zəminəyə alışmayıb, pişik təbiətini hələ müəyyən dərəcədə saxlayıb...

– İnsanların ürəyini insana calayanda o qədər təfavüt olmayacaq...

– Elə demə! Ürək var, ürək var! Sən bir komandirin ürəyini gətirib balerinanın bədəninə calayanda, möhkəm ürək ilə zəif bədən necə uyuşacaq? Güclü mator vurub zəif bədəni dağıdacaq.



– Qardaş, bədəni idarə eliyən başdır, ürəkdir, ciyərdir. Bunlar düz işləyəndə bədəni də çöndərib istədikləri istiqamətə aparacaqlar.

– İndiki cəmiyyətdə hər istiqamət yaramır. Bizə müəyyən istiqamət lazımdır.

– Onu həkimlər təyin eliyərlər, asanddır...

Azər müəllimin məclisindən dağılışandan sonra adamların çoxunda ürək söhbətinin təsiri davam eləyirdi. Bəziləri bu söhbətlərə adi söhbət kimi baxır, inanmırdı. Bəziləri bu işin mürəkkəbliyini düşünürdü. Bəziləri elmin möcüzələrini görmüşdü. Müalicə icadlarına tamam inanır, insan ömrünün iki-üç qat uzanacağına, yəqinlik hasil edirdi. Belələrinin etiqadınca, insanlar arasındakı ixtilaf, didişmə, çəkişmə nə qədər az olsa, düşmən münasibətlər, ədavət və həsəd yox edilsə, ömürlərin uzanması tədbirləri də bir o qədər tez və çox olar. İnsanlar heç olmasa, ala qarğaların ömründən az yaşamaz, havayı gəlib, getməz. Dünyaya, həyata, bəşəriyyətə daha çox fayda verərlər, yer üzünü həqiqi cənnətə çevirərlər.

Azər müəllim də bu fikirdə idi, buna inam və etiqadı günü-gündən artırdı. İnanırdı ki, ürək söhbətinə ürəkdən yanaşılsa, təbabət alimləri bədən üzvlərinin bu zəminədən o zəminəyə köçürülməsində yalnız bıçağa, yalnız kəsərli alətlərin gücünə yox, həm də qəlbin özünün zərif aləminə, həssaslığına incəlik, zəriflik sirlərinə arxalansalar, insan orqanizminin hər bir üzvündə, hissəsində qəlbin mənalı həyatının riqqət və inciltilərini diqqətlə duyub-eşitsələr, ürək əməliyyatına məhz ürəkdən yanaşsalar, müqəddəs və ülvi məqsədlərinə çatacaq, həyata, elmə, bəşəriyyətə xidmətlərində daha yüksək mərtəbələri fəth etmiş olacaqlar.

*1968*

# BABAM KƏRPİC KƏSƏNDƏ

Şərqin qədim şəhərlərindən birində ömrünü bina tikməyə, abadlığa sərf edən qoca bənna yaşardı. Rahatlıq bilməyən bu möhnətkeş qocanın günü ağır zəhmətlə keçərdi. Adi torpaqdan, sudan qutu kimi kərpic yaradardı. Əlinin əməyini tikilişdə görəndə sevinər, qanadlanardı. Yaşayışın fərəhini bu mənalı əməkdə görərdi.

Günün birində işinə məşğul ikən bir göyçək oğlan ona yanaşıb nəsihət eləməyə başladı. Təşəxxüslə dayanıb dedi:

– Bu nə peşədir? Nə tapmısan bu torpaqda, suda, samanda. Bu qara palçıqda nə görmüsən? Palçığın üzünə mala çəkməkdən yorulmursan? Malanı kənara at, yandır. Bu gen dünyanı özünə dar eləmə. Çıx bu qara işlərdən. Daş-kəsəkdən uzaqlaş, özünə yaxşı vəzifə tap. Bu, malotaranların işidir, qul deyilsən ki, burda əlləşirsən.

Kərpickəsən kişi əli cibində, ov quşu kimi dik dayanan oğlanı başdan-ayağa diqqətlə süzdü və dedi:

– Deyəsən, mənə nağıl öyrətməyə gəlmisən? Qoçaq oğlan! Başından yekə danışma. Kərpic kəsmək, qara işdə çalışmaq, zəhmət çəkmək insan üçün qəbahət deyil. Bu sənətə qədəm qoydum ki, sabah ehtiyac



vaxtında sənin kimisinə əl açmayım. Zəhmətimlə yaşamaq mənə böyük şərəfdir. Düz-düz gəzən adamdan torpaq da bezardır. İnsan, əməyin oğludur. Bu binanı bəzəyən bizim yaradan əllərimizdir. Mən bu kərpicin hər birini divarda, tikilidə görəndə biləyimin gücünü görürəm, ürəyimin qüdrətini görürəm. Səadət həsrəti çəkən insanları görürəm! Görürəm, sevinirəm. Sən uşaqsan, bala, dünyadan xəbərin yoxdur. Qara işə xor baxma! İnsan yaratmaq üçün yaranmışdır. Qara iş var, üz ağardır:

*Əməkdir insanın başının tacı!*
*Əməkçiyə baxma belə qıyğacı!*

Kərpic kəsən, daş yonan, su gətirən, od yandıran bunlar həqiqətdir, bunlar həyatdar. Bunlarsız yaşayış bir xərabətdir! Yoxsa, atalar demişkən:

*Sən ağa, mən ağa*
*İnəkləri kim sağa?*

İfadə qurusu kimi düz-düz gəzməkdən nə çıxar?! Nə qədər ki, qolumda qüvvət, dizimdə taqət var, çalışacağam, ruzimi, sevincimi bu yoldan alacağam. Bu yol mənim ata-baba, həyat, səadət yolumdur.

Cavan oğlan əməlinə utanıb məyus oldu, dinib-danışacağı olmadı. Başını aşağı salıb əkildi.

Sifəti günəşdən yanmış, qolu çirməkli, ayaqları yalın, gözlərində qığılcım oynayan kərpickəsən kişinin hikmətli sözləri oğlanı tutmuşdu, yaman tutmuşdu.

İndi bu nurani qoca cavanın gözündə Qoşqar, Kəpəz dağı qədər ucalmışdı.

*1968*

# ŞAFTALI SÖHBƏTİ

Bəzi mütəxəssislərimizi qəribə bir azar tutub. Soruşursan: "Filan kitab necədir?" Deyir: "Əladır." Soruşursan: "Nəyə görə əladır?" – "Polşada çap olunub."

Soruşursan: "Filan nəğmə necədir?" Deyir: "Əla!" – "Nəyə görə?" "Avstriyada, Bolqarıstanda oxunur." – "Filan rəsm necədir?" – "Əla, çünki, Marseldə göstərilir."

Əvvəl bu azar tək-tək adamlarda görünürdü. İndi yavaş-yavaş çoxlarına sirayət eləyib.

Dünən bir aqronomun redaksiyamıza gətirdiyi məqaləsini oxumuşam. Yazır ki, hulu, şaftalının bir "sortudur" ki, XIX əsrin axırında Amerikada "tapılıb." 1897-ci ildə Sovetlər İttifaqına gətirilib, oradan dəmiryolla Qafqaza, Azərbaycana gəlib çıxıb.

Sonra da aqronom yoldaşımız bu şaftalıların cinsindən, rəngindən, dadından yazır və sübuta yetirməyə cəhd edir ki, bu şaftalını "tapan" Amerika alimi bütün alimlərin, xüsusən Azərbaycan alimlərinin boynuna böyük haqq qoyub, onu heç vaxt unutmaq olmaz. Aqronom



yazısının axırında belə bir qüssəli nəticə çıxarır: "Təəssüf ki, bizim qədirşünas camaat həmin böyük nəbatat, meyvəcat aliminin haqq-sayını lazımınca yad edib, onu kitablarda, qəzetlərdə, radiolarda və mitinqlərdə, səhər, günorta, axşam tərifləmirik. Hulunu yeyirik, onu ərsəyə gətirəni, onun dahi ixtiraçısını yadımıza da salmırıq. Gör biz nə qədər zəmanədən geridə qalmışıq. Tərəqqidən uzaq olmuşuq".

"Hörmətli aqronomun" məqaləsini oxuyandan sonra məni fikir götürdü. Yazı sahibinin "elm dəryası", "əsl əhli-qələm" olmasına zərrə qədər şəkkim olmasa da, ona bir neçə sual verməyi özümə borc bildim:

– Hörmətli aqronomdan soruşmaq istəyirəm ki, şaftalı növləri Amerikada çoxdur, ya, məsələn, Ordubadda, Gəncədə, Qubada, Batumda, Qoridə, sair Qafqaz şəhərlərinin bağlarında? Soruşmaq istəyirəm ki, 1897-ci ildə SSRİ-nin adı nə idi? Bir də soruşmaq istəyirəm ki, şaftalı, ya hulunun (sortu) rəngi, dadı onun məqaləsində yazılan, daha doğrusu, tərcümə olunan kimidir, ya ayrı cür olur?

Bir də onu demək istəyirəm ki, müəllif dostumuz şaftalını şaftalı ağacından, əsl mənbəyindən yox, Avropa dillərində höccələyib oxuduğu kitablardan tanıyır.

İkinci, demək istəyirəm ki, müəllif şaftalını vətəndaşlara sevdirmək, bu meyvəyə iştaha oyatmaq, bağbanlar, bağlar içində yaymaq üçün yox, onu calaq eləyən adamı tanıtmaq üçün yazır.

Üçüncü, nəbatat mütəxəssislərinə, şagird, tələbə, aspirant, ya oxuculara xidmət üçün yox, mərkəzi institutda çalışan aqronomlardan gələcək yazı işlərinə yaxşı rəy almaq üçün yazıb.

Dördüncü, beşinci və habelə...

Bu müəllif bilmir ki, Amerikadan buraya hər şey gəlsə də, şaftalı, ya hulu gəlməz. Ordan yumurta tozu, kokteyl-mokteyl gələr, saqqız-maqqız, rezin corab, müşəmbə gələr, amma nə şaftalı, nə əncir, nə şanı, nə Şamxor qarpızı, nə Corat qovunu, nə bedana tut, nə Quba alması, nə Şirvanın şirin narı, nə Lənkəran pomidoru, nə də Hövsan soğanı gələr.

Bizim bu aqronom, bitkilər, meyvələr, təbii nemətlər barəsində kənd camaatının yanında beş-altı il təcrübə keçsəydi, heç belə-belə məqalələri yazmazdı, ya da ayrı cür yazardı. Biz görmüşük ki, əsəri fəhlə, kəndli, zəhmət adamları üçün yazarlar. Qədim Yunanıstanda şəkli çə-

kib divardan asırdılar, xəlvətdə dayanıb qulaq asırdılar ki, görək camaat nə fikir deyəcək.

İndi bəzi müəlliflər əsəri yazıb tərcüməyə verirlər, heç oxuyanı gözləmirlər.

Bir də mənə məlum deyil ki, bəzi institutlarımız niyə həmişə, hər məsləhəti ancaq o yan-bu yandan alırlar. Çox təəccüblüdür ki, ənciri öyrənmək üçün Bilgəh bağlarını qoyub qaçırlar Kaliforniyaya. Arıçılığı öyrənmək üçün Meksikaya gedən bir tələbədən Qabaqtəpə balını, Dəstəfurdakı arıların xasiyyətnaməsini soruşublar. Tələbə kəndə qayıdıb, buradan neçə şan bal, neçə qutu arı aparmalı olub, çünki burada həmin işin təcrübəsini öyrənməmişdi, qədrini bilməmişdi, kənara gözübağlı getmişdi.

Hörmətli aqronom dostumuz bəlkə macal tapıb qələm sahiblərinin yazılarını, bəlkə də bu yazını oxudu. Oxusa, elə güman eləməsin ki, biz kənara, üfüqlərə, gələcəyə baxmağın, qonşulardan, hətta yadlardan öyrənməyin ziddinəyik. Biz bircə şeyin, öz yurduna, öz varına, öz varlığına firəng eyvanından baxmağın, özü də kəc baxmağın ziddinəyik. Biz istəyirik ki, aqronom olsun, həkim olsun, müəllim, artist, mühəndis olsun, hər kəs qabaqca yaşadığı yeri, o yerin, o yurdun nemətlərini, məziyyətlərini diqqətlə, məhəbbətlə öyrənsin. Öyrənəndən sonra cəsarətlə təbliğ etsin, tanıtsın, başqalarına sevdirsin...

*1968*



# BEŞ ALMIŞAM!

Bizdə, el-oba içində bəzi rəqəmlər çox işlənir. Çox da məşhurdur: üç, yeddi, on iki, qırx.

"Atalar üçəcən deyib", "Qırx gün, qırx gecə toy elədilər", "İl on iki ay əlim işdədir."

*Hacılar haca gedər,*
*Bilmirəm necə gedər?*
*Bir yumurta içində*
*Qırx dənə cücə gedər...*

Bu rəqəmlərə son zamanlarda gözəl bir rəqəm də əlavə olunub: elmlə, dərslə, qələbə ilə bağlı bir rəqəm...

Beş!

Bu rəqəmi alqışlamayan yoxdur. Böyük, kiçik, oxumuş, avam, şəhərli, kəndli...

Telefon səsləndi. İlqar dəstəyi götürdü:

– Kimdir?
– Kim lazımdır?
– İlqar, sənsən, niyə evdə oturmusan? Səni gözləyirik, tərpəş!
– Nə var, bəyəm?
– Nə olacaq, konsertə gedirik, komiklərin konsertinə.
– Sizin də lap kefiniz gəlib, canım, bu imtahan vaxtında konsert nədir?
– Eh, imtahan! Nə olsun, dincəlmək, gülmək də lazımdır.
– Nadir, əslinə baxsan, sənə-mənə gülmək yox, ağlamaq lazımdır.
– Necə bəyəm?
– Bəyəm, eşitməmisən, müəllimlər indi çox ciddi soruşurlar?
– Soruşmaq həmişə var da.
– Müəllimlər indi sənin-mənim xatirimə proqramdan keçmirlər. Nöqtəsinə qədər soruşurlar. O gün Məhəri elə bərkə qısnayıblar, bildiyini də yadından çıxarıb. Bu saat gəlirəm məktəbə, orada ol, hamısını sənə danışım!

Bu telefon söhbətindən sonra konsertə getmək baş tutmadı. Nadir özünün də, yoldaşlarının da biletini bacısı Gülaraya verdi:

– Halal-xoşunuz olsun, – deyib məktəbə qaçdı.

Doğrudan da, İlqar məktəbdə idi, eyvanın məhəccərinə söykənib, sinif yoldaşları ilə söhbət edirdi.

Nadirin gəlməyi onun halına təfavüt eləmədi. Hamı eşitsin deyə, bir az da ucadan danışıb Nadirin üzünə baxdı:

– Bu xına o xınalara bənzəməz! Təzə direktor imtahanların çoxunda oturur. Hər kəsə məhəl qoymadan şıdırğı suallar yağdırır: hansı əsər, neçənci il, baş surət necədir, niyə, hardan oxumusan?

İlqar Məhərin ədəbiyyat imtahanından iki alıb çıxdığını təfsilatı ilə danışanda Nadir quruyub qalmışdı. Görürdü ki, müəllimlər də tələbi artırıblar. Belə zamanda konsertə, gəzməyə, o yan- bu yana gedib vaxt keçirmək adamı dərsdən eləyər, sinifdə qoyar.

Nadir yoldaşının xəbərdarlığından çaşmış kimi sual verdi:

– İndi neyləmək lazımdır?

– Sizi bilmirəm, mən birbaş mərkəzi kitabxanaya qaçıram. Gələn imtahana hələ vaxt da var. Gecə-gündüz oturub oxuyacağam. Qardaş,



üzüqara olmamaq, müəllimlərin başını aşağı eləməmək üçün hazırlaşmaq lazımdır.

Həmin axşam kitabxanada qiraət salonunda yoldaşlar görüşdülər. Yuxarı siniflərin proqramına dair nə kitab varsa, masa üstünə yığıb bir-bir əldən çıxartmaq istədilər.

Nadir də, İlqar da bir sinifdə, bir müəllimin yanında, hətta bir sırada, əyləşib oxuyurdular. Ancaq bu iki yaşıd yoldaşın hazırlaşmağında çox fərq vardı.

Nadir cəld, zirək və zehinli şagird idi. Oxuduqlarını ehtiyat kimi xatirinə yığmaq, üst-üstə bildiyi məlumatı sıra ilə təkrarlamaqda mahir idi.

Ona elə gəlirdi ki, kitab səhifələrində yazıları öyrənsə, imtahan cavablarında ifadə eləsə, bəsdir və yaxşı qiymət alacaqdır. Ancaq İlqar bu fikirdə deyildi, o, dərsliyi oxumağı, bütün səhifələri diqqətlə əldən çıxarmağı, hətta məlumat ehtiyatını da zehninə yığmağı vacib bilirdi. Bundan başqa, oxunan hər məsələnin dərin, düyünlü sirlərini açmağı, çətin yerlərdə lüğətə, yoxlama kitablarına, müəllim məsləhətlərinə müraciət etməyi, hətta özünə sirli görünən uzaq, mübhəm məsələlərə əl atmağı da lazım bilirdi. Hərdən belə hallarda Nadir onu danlayırdı:

– Ay kişi, kimdir soruşan, müəllimin sualına ucdan-qulaqdan cavab verdin bəsdir, deyəcək ki, dur get!

Tələbə yoldaşlar bir həftədən çox mərkəzi kitabxanadan çıxmadılar, müxtəlif məzmunlu kitabların birini qoyub, o birini götürdülər. Hərdən də bir çətin suala rast gələndə, künc otaqda oturan qocaman məsləhətçiyə, şəhərdə ədəbiyyat mənbələrini yaxşı bilən çeşməkli kişiyə müraciət etdilər. Heç nəyə, heç kəsə, soyuğa-istiyə baxmadan imtahan materiallarını əldən çıxarmağa çalışdılar, nəhayət, vaxt gəlib çatdı.

Bilet çəkib imtahan kürsüsünə keçəndə, elə bil, təzə direktoru çağırdılar. Direktor otağa girib salam verdi, keçib dərs müəllimi ilə mehriban görüşdü. İlqarı diqqətlə süzəndən sonra soruşdu:

– Nə əcəb yaxanı düyməyləmirsən, məktəbli yoldaş? Əyləşənlər sənin müəllimlərin, məktəb yoldaşlarındır. Qoy sənin səliqənə diqqət yetirsinlər...

İlqar qələmi yerə qoyub, cəld yaxasını düymələdi. Onun özünü itir-

məsinə, çaşmasına yol verməmək üçün direktor dərhal məktəblinin çyininə əl qoydu, imtahan suallarına nəzər yetirdi:

"Sabirin ruhanilərə qarşı satirası."

"Cabbarlının "Sevil" dramı."

"Lirikanın xüsusiyyəti."

Direktor sualları qəsdən bərkdən oxudu, əvvəl İlqarın, sonra da dərs müəlliminin üzünə baxdı:

– Zənnimcə, – dedi, – bunlar çətin suallar deyil, proqramlarda aydınlaşdırılmışdır.

Müəllimə macal verməyən İlqar tez dilləndi:

– Müəllim, sualların hamısı aydındır, cavab verə bilərəm.

Sanki məktəblinin şəstlə, cəsarətlə cavab verməyi direktorun xoşuna gəldi.

– Danış, – dedi, – qocaq oğlum, danış! Mənim burada iştirak etməyim, səni çaşdırmaz ki?

İlqar daha da cürətləndi və iftixarla cavab verdi:

– Yox, yoldaş direktor, sizin imtahan cavablarına qulaq asmağa vaxt tapmanız bizə xoşdur və biz heç vaxt bu saatları unutmayacağıq!

Dərs müəllimi, əvvəlcə direktorun belə fəal işə qarışmağına bir qədər darıxsa da, sonra məktəblinin cavablarından ruhlandı. Diqqətlə İlqarın üzünə baxdı. Qəlbində ona afərin dedi, özü-özünü də danladı ki, belə şagirdi mən nahaq yerə diqqət mərkəzinə götürməmişəm, onun qabiliyyətini seçib qeyd eləməmişəm. Bu uşaq indi daha məktəb çərçivəsində qalmır, həyata, cəmiyyətə çıxır. Məhz belə iti, ayıq cavablar ilə çıxdığı üçün bizim məktəbin fəxridir!

İlqar cavablarına başlayanda böyük Sabirin kəsərli satiralarından bir neçə bənd oxudu, izah etməyə başladı:

*Ax, necə kef çəkməli əyyam idi,*
*Onda ki övladi-vətən xam idi.*

Direktor sualla İlqarın sözünü kəsdi:

– İlqar, bunu kim deyir?

– Müəllim, bunu Sabir deyir, ancaq ruhanilərin öz sözü ilə, təəssüf izahı ilə deyir.



– Ay sağ ol! Davam elə!

İlqar bir az da ucadan, qiraətlə dedi:

*Bizlər idik xalqın inandıqları,*
*Piri-hidayət deyə qandıqları.*
*Nur görürlərdi qaranlıqları,*
*Bizdə idi cümlə qazandıqları.*
*Kim bizə pul verməsə bədnam idi,*
*Ax, necə kef çəkməli əyyam idi...*

Direktor şagirdin sözlərinə, ahənginə, şeiri necə əzbərləməsinə sevinclə qulaq asaraq, yenə sözünü kəsdi:

– Ruhani hansı günləri arzulayır?!

– Müəllim, aydındır ki, sovet dövründən qabaqkı, avamlığın hökm sürdüyü günləri arzulayır. Amma keçmiş ola!

Direktor İlqarın üzünə baxıb güldü, sonra müəllimə tərəf döndü:

– İlqar yaxşı deyir, cənab axund, daha keçmiş ola! Yaşasın Sabir!

Dərs müəlliminin cavablardan xoşlandığını, sevindiyini görən direktor, sanki şagirdə qiymət verməkdə ona razılıqla kömək etdi:

– İlqar yaxşı hazırlaşıb, məncə, onun qiymətini aşağı salmağa haqqımız yoxdur!

İlqar bu sözləri eşidəndə ürəyi dağa döndü:

– Çox sağ olun, müəllim, – dedi və sevincək eşiyə çıxdı.

Yoldaşları onu əhatə etdilər, qiymətini soruşdular.

Amma o, heç kəsə baxmadı, heç nə demədi. Çantasını götürüb birbaş evlərinə yüyürdü.

O bilirdi ki, anası intizarla gözləyir, necə həyəcan keçirir. Gəncəçay evlərinin qabağından axırdı. Yaz yağışlarından sonra kükrəmiş, güclənmiş çay bulanıq axaraq özü ilə daş-çınqıl gətirir, şaqqıldayaraq səs salırdı. İlqar çayın bu tayından baxanda qapıda müntəzir dayanan anasını gördü, sağ əlini göyə qaldırıb pəncəsini geniş açdı, sevinclə anasını çağırdı:

– Beş almışam, ay ana, beş! Direktor özü məni imtahan elədi!

Doğrudur, qadın onun sözünü eşitmədi, nə dediyini bilmədi, ancaq əl işarəsindən yəqin elədi ki, oğlu imtahandan igidliklə çıxıb, beş alıb.

Dodaqlarının arasında yavaşcadan dedi:

– Sənin qadanı alım, ay fərasətli balam, qoçaq balam!

İlqar anasına çatanda ana-bala qucaqlaşıb öpüşdülər. İlqarı tanıyan anaların çoxu qibtə ilə baxır, bu sevincə şərik olurdu.

– Beşə dünyada zaval yoxdur, hamının balasına qismət olsun görüm!..

*1969*



# DÜZƏLMƏDİ

Utancaqlıq!

Kimdən soruşsan deyər ki, utancaqlıq yaxşı xasiyyətdir. İnsanın qanacağını, mərifətini, abır-həyasını göstərir. Beləsinin hər yerdə hörməti, izzəti var. Adı yaxşılığa çəkilir, ünvanına bir irad tutan olmur.

Zahirən belədir. İlk baxışda mənzərəni bu cür görürsən. Amma əslinə baxsan, utancaqlıq o qədər də yaxşı xasiyyət deyil. Adamın özünə də, başqalarına da görürsən, ziyan gətirir.

Eşidənlər deyəcək, boş danışırsan. Halbuki, mən bunu həyatda təcrübəmdə görmüşəm, inanmışam. Dostun, ya tanışın səndən bir xahiş eləyir, sənin də buna imkanın olmur. Açıqca deyə bilmirsən, imtina edə bilmirsən, hərifin sözünü nə tutursan, nə atırsan. Ürəyində nisgil olur, qalırsan kəsilə-kəsilə.

Mənim, sizdən yaxın olmasın, yaxın bir tanışım var, görüşəndə salaməleyk, xoş-beş eləyirik. Özü aşpazdır, pis də aşpaz deyil. Əvvəl iş yerini göstərmişdi, indi bilmirəm harada çalışır. Amma arabir görürəm. Bir gün üzünü mənə tutdu, ərkyana gileyləndi, xahiş eləyib dedi:

– Filankəs, Allah daha da artıq eləsin, görürəm, əli qələm tutanların hamısı bərk ayaqda sənə müraciət eləyirlər. Yazılarını sənə oxuyub məsləhət soruşur, rəy alırlar. Nə olar, çıraq olub işığı öz dibinə də salsana, bizim kimi kimsəsizlərə də bir nəzər yetirsənə!

– Dostum, – dedim, – mən bir adi qəzet yazan, sən də, şükür, mahir aşpaz! Peşəniz səliqəli, hörmətli peşədir. Ancaq mənim sizin sənətdən nə başım çıxır ki, bir məsləhət də verim?

– A kişi, aşpazlığı demirəm. O barədən korluğum yoxdur. İndi xörək bişirməyi bir yana qoymuşam. Yazı-pozu ilə məşğulam, çoxdan qələm işlədirəm.

Mən quruyub qaldım:

– Belə de! Sağ olmuş, mən nə bilim?

– Bəli, indi mən də yazıram. Hələ ki, bir povest yazmışam, evdə uşaqlara oxumuşam, sağlığına bəyəniblər.

– Mübarək olsun, niyə çapa vermirsən?

– Hələ tezdir.

– Dəmiri isti-isti döyərlər!

– Yox, canım, uşaqların rəyi ilə yazı yetirmək çətindir.

– Bəs nə fikirdəsən?

– O fikirdəyəm ki, sizin kimi bir qələm sahibinə oxuyum, lazım bilsəniz, balaca rəydən-zaddan alam, sonrası da görək nə olar?

– Təqaüdə, dincəlməyə çıxan adamın təzədən qalmaqala düşməyi nə əcəb?

– Xeyr, qalmaqal olmaz. Mənim povestimdə qalmaqal nə gəzir! Tamam dinclik, salamatlıqdır.

– Təki olmasın.

– O barədə arxayın ol, ancaq qalmaqalı odur ki, gərək hörmətli adamlardan birinə oxuyam, məsləhət alam.

– Təzə yazanlara məsləhət verən xüsusi dərnəklər, idarələr var. Müraciət eləsəniz!

– Eləmişəm. Bəziləri, görürsən, baxmırlar, açığını deyim, gözləri götürmür.

– Baxarlar, vəzifələridir.

– Elə demə, vermişdim birinə, iki ay stolunun yeşiyində saxlayandan sonra qaytardı.

– Nə dedi?

– Bir şey demədi.

– Oxumamışdı?

– Oxumuşdu.

– Oxusa, bir söz deyər.

– Demədi. Görünür, xoşuna gəlməyib.

– Onda ikinci bir yoldaşa ver, oxusun!

Dostum, deyəsən, belə bir fürsət axtarırdı. Diqqətlə gözlərimin içinə baxıb dedi:

– İkinci yoldaş, lap sən! Özümüzün də şükür uzaqdan salam-əleykimiz var. Budur, neçə dəfədir deyirəm, xahiş eləyim oxuyasan, üzüm gəlmir, utanıram, doğrusu!

– Povestin neçə səhifədir?

– Çox deyil, cəmi dörd-beş yüz səhifə ola, ya olmaya!

– Onu arxayın adama oxutmaq lazımdır.

– Arxayın adam, lap sənin özün!

– A kişi, mən külfət sahibiyəm, səhərdən axşama qədər idarədə çalışıram, başımı qaşımağa macalım olmur. Əcəb arxayın tapmısan!

Dostum tez sözümü kəsdi:

– Canım, mən o cür sırtıqlardan deyiləm ki, iki ayağımı bir başmağa dirəyib deyəm: lap elə bu gün, ya sabah oxu! Haçan münasib oldu, götür oxu, sonra fikrini deyərsən, ya lap yazarsan, mənim də əlimdə bir dəstavüz olar.

Mən gördüm ki, söhbətimiz uzandıqca tanışımın iştahası artır, povestini mənim boynuma yükləməyə fürsət axtarır.

– A filankəs, – dedim, – elə uzun yazıları indi, yayın bu istisində oxumaq nə sənə xeyirdir, nə mənə! Elə yazını sərində, dinclikdə gərək oxuyasan ki, səni tər basmasın!

– Orada istidən də, sərinlikdən də söhbət gedir.

– Nə münasibətlə?

– O babətdən ki, adam darıxmasın. İstidə sərinləsin, soyuqda qızınsın! Povesti elə yazmışam şirin oxuyacaqsan, inşallah!

Tanışımın, görünür, yazı-pozu haqqındakı mülahizələri aşpazxa-

na çərçivəsində müəyyənləşmişdi.

– Eybi yoxdur, – dedim, – qoy havalar sərinləsin, gətirərsən, birlikdə oxuyarıq.

– Çox sağ ol, – dedi, – mənim sizə o qədər zəhmətim dəyməz. Özüm ucadan oxuyaram, siz də cücə çığırtmasından sonra məxməri çay qabağınızda, aramla qulaq asarsınız.

– Əlbət ki, mümkündür.

"Mümkündür" deyən kimi, tanışımın gözlərində elə bil ümid çırağı yandı. Tez qabağa keçdi, yaxamdan yapışıb povestinin əhvalatını danışmağa başladı:

– Əsərdə, – dedi, – qabaq-qabağa bir arvad, iki kişi götürmüşəm, bu kişilər başlayırlar bir-birini burunlamağa, biri də...

Gördüm ki, hərif fürsətdən faydalanıb məni əhvalatla tanış eləmək, sonra da ayaqüstü fikir soruşmaq niyyətindədir. Cümləbaşı nağılını kəsib sual verirdi:

– Necədir, mən ölüm? Belə demək olar, ya yox? Niyə operalarda yazırlar, biz bəyəm, səhnədəkilərdən ibrət götürə bilmərik? Necə sözdür? Tənqidçilər özləri yazır ki...

– Əlbət ki, sağlıq olsun, havalar sərinləyəndən sonra oturub oxuyarıq.

Tanışımın gözlərində qığılcım parladı:

– Bilirəm, – dedi, – oxusan xoşun gələcək, mən elə şey yazmaram ki, müştərinin iştahını küsdürsün.

– Elədir!

– Əsəri də səliqə ilə süfrə kimi ağ kağızda çap elətmişəm, görəcəksən, inşallah! Dadı-duzu yerində, ürəyinə yatacaq!

– İnşallah.

– Sərinlərə də bir şey qalmayıb, bu gün avqustun iyirmisidir, bir aydan sonra payız küləyi bizi kabab kimi yelləyəcək!

– İnşallah!

Bu halda məni telefona çağırdılar, tanışımdan üzr istəyib aralandım. Aralandım, o ayrılmaq oldu, bir də hərifi görə bilmədim. Hərdən zəng eləyib hal-əhval soruşur, yadıma salırdı ki, havaların soyumasına az qalıb, inşallah!..



Havalar soyudu, lap soyuqlar düşdü də, ancaq tanışım məni münasib yerdə tuta, məqsədinə nail ola bilmədi. Qarlı yanvar günlərində müalicəxanaların birində hərif qabağımı kəsdi:

– Sağ olmuş, hardasan, sərin düşəndə, eyvanda süfrə açıb neçə dəfə səni arzulamışam.

– Nə olub, bəyəm?

– Əsər böyrü üstdə yatıb qalıb, dəmlənib.

– Eybi yoxdur, qoy dəm alsın.

– Bəs sonra necə olsun?

– Bu soyuqda, əlbət ki, uzun şeylər oxumaq... Sağlıq olsun havalar yumşalanda, yazbaşı!

– Nə qalıb, sabah-birigün Novruz bayramıdır.

Novruz da gəldi, aprel, may da düşdü. Tanışım hər macala məndən xəbər tutub deyirdi: "Əsərin ora-burasını təzədən yağlamışam, nə deyirsən? Qiraət məclisi düzəltməklə halın necədir?"

– Tələsik iş tərsə düşər. Qoy istilər düşsün, arxayınlıqla oturub oxuyarıq.

Təkrar istilər gəldi. Povest bizdən əl çəkmədi:

– Ay filankəs, havalar yenə qızışıb, ha!

– Havalar öz yolu ilə, bizim özümüzün də qızışmağımız lazımdır.

– Araqla aran necədir? Döymə kabab yanında? Təzə ətdən deyirəm, ey!

– Araq məsələsi yox də, iki-üç aydır müalicədəyəm, qəzetə baxmağa da icazə vermirlər.

– Bizim əsər qəzetdən maraqlıdır.

– Təki olsun, həkimlər oxumağa izin vermir.

– Allah şəfa versin, bəs haçan?

– Havalar sərinlənsin.

– Havalar qızışsın...

– Havalar sərinlənsin...

Neçə ildir, neçə fəsildir tanışım məni harada görürsə, havaların vəziyyətindən mənə dəqiq məlumat danışıb vədə verməyimi gözləyir. Mən də utancaqlıqdan ona müəyyən bir cavab deyə bilmirəm:

– Hələ bir oxuyan olmayıb?

– Olub. Dərnəklərdə götür-qoy eləyiblər, tələsik məsləhət də deyiblər. Amma əqlim bir şey kəsmir.

– Tələsmək, deyirəm, işə ziyandır. Gözləyək, görək bir macal tapırıq. Sizin əsər də gərək münasib vaxtına, yerinə düşsün ki, peşmançılıq olmasın.

– Bəli, mən tələsən deyiləm, yetmiş ildən bəri sinəmə yığdıqlarımı yazmışam.

– Yaxşı eləmisən.

– Mən elə sizi gözləyirəm.

– Gözləmək yaxşıdır, inşallah, havalar düzələr!

– Düzələndə sizə zəng vurmaq olarmı?

– Olar, olar, niyə olmur!

Bir belə, iki belə, nə isə təzə yazıçı tanışımın əsərini oxumaq mənə qismət olmadı.

Hərdən rast gələndə kinayə ilə mənə işarə vururdu:

– A filankəs, deyəsən, havalar düzəlmədi?

– Darıxma, düzələr, ümidsiz şeytandır!

– Yox, deyəsən, düzəlmədi.

Görürdüm ki, tanışım yazıçılıq hissi ilə olmasa da, aşpazlıq təcrübəsi ilə işinin aqibətini hiss etmişdir:

– Yəni, deyirsən, düzəlməyəcək?

– Yox, düzələnə oxşamır, səndən naxoş, iştahım qaçıb!

– Qaçmaz, inşallah, aşpazlığa baxma, yazıçılıq hövsələ istəyir. Səbir elə!

– Haçanacan? Yazıq povest dəmdə qaldı, dəmdən də düşdü, soyudu da!

– Yaxşı əsər soyumaz, dözümün olsun!

– Deyirsən də!..

*1969*



# PUL TAPMIŞDIM

*Fizikşünas alim A.Abbaszadənin xatirəsinə*

Uşaqlıqda adamın yaddaşı iti, zehni açıq, marağı çox olur. Gördüyün, eşitdiyin, düşündüyün hər şey güzgüdəki kimi həkk olunub həmişəlik qalır.

Hər səhər anam məni məktəbə yola salanda dalanın axırına qədər aparır, köç yolundan ötürüb sonra qayıdırdı. Yolu hoppanandan sonra dükan qabağındakı səki ilə getmək asan idi, qorxulu deyildi. Çünki qabaqda nə at, nə fayton, nə maşın, nə də araba var idi. Başıaşağı səki ilə gedirdim. Bağça-bağa yaxınlaşmamışdım ki, gördüm ayağımın altında bir şey işıldayır. Əyilib baxanda bir abbasılığı gördüm və götürdüm. Xəyalıma gəldi ki, bu kimin cibindən düşüb. Sağıma-soluma baxdım, gedib-gələn görmədim. Pulu cibimə qoyub sevincək dərsə yollandım.

Dərsə getdim. Amma həmin gün neçə dəfə abbasını cibimdən çıxarıb baxdım, yenə cibimə qoydum. Tələsirdim ki, dərsdən sonra evə gəlim, pul tapmağımı anama danışım. Doğrudur, anam hər gün mənə iki, ya üç qəpik tum pulu, su pulu verirdi. Amma birdən 20 qəpik vermirdi.

Axşam evə gələn kimi pulu anama göstərdim:
– O nədir?
– 20 qəpik!
– Hardan almısan?
– Tapmışam!
Anam pulu alıb baxdı, təkrar mənə qaytardı və soruşdu:
– Hardan tapmısan?
– Küçədən?
– Düzünü de!
– Vallah, küçədən!
– Kiminsə cibindən düşüb.
– ...
– Adam çox idi sən tapanda?
– Yox!
– Kiminsə yırtıq cibindən düşüb, gərək sahibinə verəsən.
– Kimdi sahibi?
– Soruşsan, tapardın.
– Kimi tapacaqsan?
– Özgənin pulunu evə gətirərsən ev dağılar! Haram pul kibrit kimi şeydir. Düşdüyü yeri yandırar.

Anam diqqətlə mənim üzümə baxdı, abbasılığa işarə ilə təkid etdi:
– Haram pul ev dağıdar! Apar sahibinə ver!
Anamın sözləri məni çətin vəziyyətdə qoymuşdu.
– Nə bilim, sahibini necə tapım?
– Gəlib-gedən yox idi? Pul göydən düşməyib, hansı yazığınsa cibindən düşüb. Onu götürüb xərcləmək olar? Tap, sahibinə qaytar, bala! Bizə haram yapışmaz. Atan bilsə qiyamət qopardar!

Dərsdən qayıdanda nə düşünür, necə sevinirdim! İndi anamın sözlərini eşidəndə məni dəhşət götürdü: "haram pul ev dağıdar!"

İndi mən pul tapan, sevinən adama yox, bir xəyanət işləmiş müqəssirə oxşayırdım: "Bu nə iş idi düşdüm, ilahi!"

Bəlkə bu abbasını tapdığım küçəyə atıb qayıtmalıyam!

Bunu da eləməyə qorxurdum. Çünki anam soruşacaq idi.



Pulu gətirib anama verdim:
– Götür, nə eləyirsən elə!

Anam əlini pula vurmadı, siçan ölüsünü götürən kimi, maşa ilə götürüb evin aşağı başında külqabının içinə qoydu:
– At ora qalsın. Atan gələndə görək nə deyər.

Bu söz mənə daha ağır idi. Bilirdim ki, atam sorğu-suala tutacaqdır. Bəlkə də bərk danlayacaqdır.
– Atama demə, özün neyləyirsən elə!

Bunu demək istədim, cürətim çatmadı. Bilirdim ki, anam heç nəyi ondan gizlətməz. Bəlkə də mənim belə bir xahiş elədiyimi də ona deyəcək. Kişi mənə qarşı daha da hirslənəcəkdir.

Axşam şam yeməyindən sonra anam abbasılığı "mərəkə bəhanəsi" kimi ortalığa gətirdi:
– Oğlun, – dedi, – məktəbdən gələndə pul tapıb!
Kişi abbasılığa, sonra mənim üzümə baxdı:
– Hardan tapmısan?
– Məktəb yolundan.
– Bəlkə, birinin əlindən düşüb?
– Bilmirəm.
– Adam-zad var idi, ya tək sən idin?
– Heç kəs yox idi.
– Apar at yerinə, kimsə itirib, gəlib axtaracaq!
Anam söhbətə qarışdı:
– Yerə atmaqdansa, bir fağıra ver. Övsanaya düşər!
Mən dedim:
– Nə eləyirsiniz özünüz eləyin, mən istəmirəm.
Səhər atam geyinib çıxanda məni də çağırdı:
– Məktəbdəkilər bilir sənin pul tapmağını?
– Məktəbdə deməmişəm.
– Gedək!

Məktəbə bir az qalmış, məhəllə məscidinin qabağına çatanda atam məndən soruşdu:
– Buradan tapmısan?
– Səkinin yanından, lap qapı ağzından.

– Mənə pulu!

Bir abbasılığı əlimdən aldı, həmin yerə atdı.

– Yeri, – dedi, – get məktəbinə!

Bunu dedi, uzun addımlarını yeyinlətdi.

Mən böyük bir qayğı, ya təhlükədən qurtarmış kimi hər şeyi unutdum. Sevinə-sevinə məktəbə yollandım.

Odu, budu, qarşıma çıxan heç bir şeyə tamah salmaram. Yolun ortasında bir kisə qızıl görsəm, onu küçədəki bir cındır parçası sanıb kənarından ötərəm.

Çünki anam mənə bərk tapşırmışdır ki, bir murdar damcı böyük hovuzu korlayar. Atan zəhmət ilə pul qazanıb ev dolandırır. Xanımanını alın təri ilə qurub, abad eləyən adamdır. Heç kəsin bir qəpiyini də bu halal əmlaka qatsan, hamısı dağılıb küllü-kuf olar, bala!

Məktəb günlərində tapılan bir abbasılığın macərası indi də yadımdan çıxmayıb.

*1969*



# XATALI ADAM

–Kərim, sən hayanda olursan?

– Necə bəyəm?

– Soruşuram, hansı küçədə yaşayırsan?

– Evimi tanımırsan?

– Yox, tanımıram, hayandadır?

– Əcəb adamsan! Şəhərin handa bir məşhur yerində, beşmərtəbə binanın lap gözündə, bağa baxan axar-baxarlı yaşıl eyvanı tanımırsan? Qəribə adamsan! Mənim mənzilimi bu şəhərdə ministrdən tutmuş hambalacan hamı tanıyır. Sən hələ indi soruşursan?

– Əcəb, əcəb!

Kərim əlini cibinə qoyub, addımının birini geri çəkdi, mənim üzümə çox qəzəblə baxdı. Kənardan görən deyərdi, bu kişi qabağındakına şillə vurmağa hazırlaşır.

Bəlkə də bu güman deyil. Kərim doğrudan da belə fikirləşirdi, görünür, mənim mülayim cavabımdan, məzlum dayanmağımdan ehtiyatla əlini saxladı.

Əlini saxladı, ancaq dilini saxlamadı. Ağzına gələn töhməti yağdırmaqdan çəkinmədi.

– Sən bizə gəlməmisən?

– Yox, çağırmamısan!

– Gərək çağıraydım?

– Çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə. Atalar yaxşı deyib!

– Mənim mənzilim darısqal deyil. Yüz adamı bir otaq udar, uf deməz. Sən bir tanış, dost kimi gərək bunu biləsən!

– Təəssüf ki, bilməmişəm.

– Bilməmisən bil, yaxşı bil və unutma. Çox eyib olsun ki, indiyəcən mənim mənzilimi, şəhərdə dillər əzbəri olan bir mənzili tanımamısan.

Kərim hirslənmiş, sinəsini dolduran hirsli sözləri xiridə vermək üçün tez-tez danışırdı. Rəngi qızarır, gözləri alacalanırdı. Birdən nəsə yadına düşmüş kimi ifadəsini dəyişib soruşdu:

– Nədən sarı maraqlanmısan, niyə soruşursan?

– Elə-belə!

– Yoxsa gözün düşüb, pul gücünə almaq istəyirsən?

– A kişi, bu nə söhbətdir. Dünyasında...

– Dünyasında!.. Yox axı, durduğun yerdə mənim mənzilim ilə maraqlanmağın səbəbsiz olmasın gərək!

– Nə səbəb, söz idi soruşdum, soruşmamış olum!

Kərim daha da əsəbiləşdi, irəli yeridi, əlini qabağa uzatdı, sanki mənim yaxamdan yapışmaq istədi.

– Yox, soruşmaq elə-belə deyil, sənin sözündə işarə var. Məni avam bilmə ha! Mən hərifəm, hərif!

– Görürəm, köhnə hərifsən.

– Bəli, köhnə hərifləri oxuyuram da, bilirəm də!

– Biliyin əskik olmasın.

– Sən gəl gizlətmə, mənzilimi soruşmaqdan məqsədin nədir, onu mənə açıq de!

– A kişi, nə məqsədim olacaq, söz idi soruşdum. Xata eləmədim ki!



– Yox axı, sözün canı olar, canı!

– Mənim sözümün canı yoxdur, boşla!

– Canı olmasa da, qanı var yəqin...

– Nə canı var, nə qanı, nə də bir ziyanı! Unut bunu!

Kərim vurulmuş kimi tutulub qaldı. Bayaqdan pörtmüş sifəti qaralmağa, tutulmağa başladı. Mən fürsət tapmış kimi "xudahafiz!" deyib aralandım.

Hərifdən uzaqlaşmaq üçün sahilə doğru addımlayırdım. Addımlayırdım, ancaq tutduğum qəbahətin peşmanlığını çəkirdim!

– Belə nanəcib adam ilə kəlmə kəsmək xatadır. Bununku odur, uzaqdan salam verib ötəsən, bəlkə imkan olsa heç üz-üzə gəlməyəsən!

*1969*

# SEVİNC HAQQINDA

Həkimlərdən, psixologiya alimlərindən, ictimaiyyətçilərdən soruşursan:

– Sevinc?

Bu suala hərə bir cavab verir, cavablar da bir-birinə az oxşayır.

Hamıya məlumdur ki, bütün başqa haləti-ruhiyyələr kimi, sevinc də cürbəcür olur, müəyyən hadisələrdən doğur, yeni şəraitdə sönür. Çoxdan ayrıldığın əzizini birdən görəndə sevinirsən. İllərlə həsrətini çəkdiyin istəklinin qəlbini ələ gətirəndə, böyük intizardan qurtaranda, xəstəlikdən sağalanda, ana məhəbbətinə, övlad səadətinə, dost sədaqətinə nail olanda... Xülasə, dünyada kədər oyadan təsadüflər kimi, sevinc doğuran hadisələr də çoxdur, mürəkkəbdir, əlvandır, saymaqla qurtarmaz. Bu haqda harada, nə vaxt, kimlə söhbət salsan, maraq, ixtilaf, tərəddüd görəcəksən...

Göygöldə yəqin ki, olmusunuz. O bahar, dağlar qızının füsunkar hüsnünə, tükənməz məlahətinə vurulmusunuz, içərinizdə görməyənlər varsa, hamısına qismət olsun, bu müqəddəs ziyarətdən doymaq olmaz.



Bahar fəslinin ilk günlərindən biridir, belə xoş günləri insan, hətta, təbiət özü də unutmur. O günlərin qışı, sərt soyuqları ötüb, baharın mülayim nəfəsi kainata yayılıb, ancaq güclü günəş qızğın pərdəsini hələ yer üzünə sərməyib, üfüqdən boylanan günəş şüaları təbiəti yenicə tərpədib oyadır, bənövşələr, lalələr, yarpızlar, yemliklər, zanbaqlar, nərgizlər zümrüd gözlərini açıb bahar fəslini salamlayırlar, quşlar səs-səsə verirlər.

Belə günlərin bir günortasında istirahət saatlarını təbiət döşündə keçirmək istəyən cavan müəllimlərin bir dəstəsi maşınla Göygöl sahillərinə səyahətə gəlmişdi. Var olsun memar, mühəndis, inşaatçılarımız, Göygölü tam abad etməsələr də, unutmamışlar da!

Orada sanatoriya, mehmanxana, düşərgə, istirahət evi tədbiri görüblər. Həmin saatlarda müəllimlər, yamacda xəzəllər, yaşıllıqlar üzərində, kabab süfrəsi ətrafında əyləşib, mavi gölün göz yaşı kimi duru suyunu, zərif ləpələrini, laciverd səmanın, haraya isə süzən ala bulud karvanının suda əksinə baxırdılar. Dərin bir maraqla təbiəti seyr edir, odlu bir ehtirasla təbiətdən danışırdılar.

İnsanın təbiətində iki ümdə xasiyyət qoyulubdur: sevinc və kədər, sevinc əlaməti fərəh, kədər əlaməti qəm... Böyük ədibin bu sözlərini təkrar edən Şahid müəllimə yoldaşları sual yağdırdılar:

– Sevinc nədən doğur?

– Adam nəyə, nə zaman sevinir?

– İnsan haçan daha çox sevinir?

– Mənim qarnım tox, əynim qalın, cibim dolu olanda sevinirəm.

– Qabağımda erkək ətinin kababı, yanında da beşulduz!

– Bu şərtlə ki, şair demişkən, "cinsi" lətif həmdəmin ola!

Şahid müəllim sözə qarışdı:

– Mən ali məktəbi qurtaran ildəki sevincimi heç vaxt unutmaram!

– Mən təzə mənzilə köçəndə uçmağa qanad axtarırdım!

– Qardaş, mən ilk övladım olanda!..

– Mən Moskvanı görəndə...

– Mən Parisə gedəndə...

Əyləşənlərin hamısı söhbətə qarışır, səmimi sözünü deyir, ürəyini boşaldırdı.

Altun Dağlı qara, qıvrım saçını ovcuna alıb, dirsəklənmişdi. Deyilənləri sükut və diqqətlə dinləyirdi. Kənardakılar güman edərdilər ki, o, bu söhbətlərlə az maraqlanır, nə isə düşünür, məşğuldur, ya təbiətin seyrəngahı ona indiki söhbəti unutdurmuşdur.

Müəllim yoldaşların biri kəsir, o biri başlayırdı. Biri ehtirasla, biri mülayim, biri zarafatla, biri ciddi, biri təfsilatla, biri müxtəsər sözünü deyir, əl çəkirdi.

Altun Dağlı vurğun vurmuş kimi, birdən ayağa qalxıb, ucadan müraciət etdi:

– Ay yoldaşlar! Ay uşaqlar!

Hamı susdu. Güman etdilər ki, Altun Dağlı özünə xas bir ciddiyyət, bir qədər də hirslə hamıya aid, hamını cəlb edən bir iş haqqında nəsə demək, bəlkə də əmr eləmək istəyir. O, üzünü sahil seyrindən məclisə, əyləşən yoldaşlara tərəf döndərdi, addımının birini irəliyə qoydu. Yenə dirsəyinə söykəndi. Bu dəfə dirsəyini torpağa yox, sol dizinə söykədi, sağ əlini ələm kimi havaya qaldırıb, ilk sözünü təkrar etdi:

– Ay yoldaşlar, ay uşaqlar! Sevinc doğuran hadisələr məni də düşündürüb, məşğul edib, bu dəfə yox, həmişə! Hər anın bir niyyəti, görüşü! – Mənim də sevincli dəqiqələrim, saatlarım olur. Ən xoşbəxt saatlar! Bunlar nə qarnım, nə cibim, nə kefim, nə vəzifəm, nə rütbəmlə bağlıdır, qətiyyən! Mən o zaman ki, bir şey yaradıram, məsələn, bir az yazıram, uzun fikirlər, hisslər, ehtiraslar, iztirablar, ağrılar, sızıltılar keçəndən sonra, nəhayət, başladığım bir əsərin son fəslini başa vururam, tarixini qoyuram, onda sinəmdə bir pələng gücü duyuram. Dünyanın bütün sevinci qəlbimi qaynadır, güman edirəm ki, kainatda məndən güclüsü yoxdur. Böyük bir qala fəth etmişəm. Bütün xalq bir dağdan qalxan ordu kimi, alqış deyib əlimi sıxır, kainat mənə qızılgül bağı kimi görünür. Məncə, bu, yaratmaq sevincidir. Quşların, suların, göylərin həyat ahəngini yaratmaq sevinci!

Yaratmaq, xalqa layiq bir iş görmək sevincidir, qəlbimlə duyuram! Məncə, bundan böyük sevinc yoxdur.

Gəlin həmişə bu sevincin həsrətini çəkək, ürək döyündükcə bu sevincdən ayrılmayaq!

Yoldaşları ayağa qalxdılar. Altun Dağlının əlini sıxdılar, yaradıcı





intizar və ehtirasın şirin təfəkkür-təxəyyülünə daldılar.

Göygöl füsunkar duruşu, məbhut, mənalı baxışı ilə gölə gələn ziyalı qonaqlarının sükutla yamacları tərk etmələrinə heyrət və sevinclə baxırdı. Bir müntəzir gəlin kimi baxırdı, qonaq sevən ana kimi fəxr edirdi.

*1969*

# ŞƏFƏQDƏN QALXANLAR

*Qızım Ədibəyə*

Gecənin zülməti kainatdan çəkiləndə, üfüqdə ilk şüa əlamətləri görünəndə müəyyən etmək olmur ki, gecədir, ya gündüz, qaranlıqdır, ya işıq. Nəinki zaman, hətta məkan və şərait də məchul bir pərdə arxasında, sükunət içində görünür. Gecənin bu vaxtını yəqin ki, az adam izləyir, müşahidə edir. Bu, yuxunun ən şirin vaxtıdır, məxluq yatmış olur. Ağır, üzücü işdən yorulan, əvvəl axşamın əsəbi, intizarlı saatlarından, fikir-xəyaldan yorulub sağa-sola dönən, çətinliklə yuxuya gedən adamları top səsi də oyada bilməz. Dünyanın ən xoş xəbəri, ən dəhşətli hadisələri, ən cazibəli tamaşası, ən vacib işləri də ağır yatanı oyada bilməz. Amma dünyada yarasına duz basılan elə nigaran adamlar da olur ki, ən şirin yuxunu özlərinə haram edir, müntəzir saat və dəqiqələri həsrətlə izləyir, gözləyirlər.

Kəndin başında, sıldırım bir qayanın döşünə sığınmış tənha evin kiçik pəncərəsindən ağsaçlı bir ananın intizarlı, iti nəzərləri həmin bu səhərin açılma saatlarını dəqiqəbədəqiqə izləyir, bir nöqtəyə baxmaqdan yorulmurdu. 20-ci ilin baharı – Sovet hökuməti təzəcə qurulan günlər idi. Kənd yoxsulları burjua-mülkədarların, bandit dəstələrinin şura idarələrinə hücumunu dəf etməyə gedirdilər. Bu təcrübəli kişilərin dəstələri cərgəsində on altı yaşlı Nadir də vardı. Tüfəng-qatar götürən vaxtı olmasa da, muzdur komitəsi ona silah verməsə də, Nadir komsomol şüarlarını çox eşitmiş, Qızıl Ordunun döyüşlərindən ruhlanmış, mübarizəyə qurşanmışdı.





Keçən yaz dağ kəndlərində Şura hökuməti elan olundu. Nadirin atası muzdur komitəsində işləyəndə qolçomaqlar onu gecənin birində güllə ilə vurdular. Şirzadın ölümü bu mahalda sinfi mübarizənin, yeni həyat uğrunda çarpışmanın bir timsalı kimi aləmə yayıldı. Uşaqdan-böyüyə, hər kəsin diqqətini cəlb etdi. Qəza komitəsindən gələn bir natiq camaata söylədiyi nitqində Şirzadın adını tez-tez çəkir, kəndlilərə izah edirdi:

– Yoldaşlar, köhnə kənd, istismar aləmi öz xoşuna təslim olmayacaq! Bizim yeni dünya, azad həyat bünövrəsi Şirzad kimi igid, mərd qurbanlarımızın qanı ilə yoğurulacaqdır.

Hər bir zəhmətkeşin, qocanın da, cavanın da silaha sarılması, sosializm dünyası yolunda döyüşə hazır olması lazımdır!

Yeni həyat, azadlıq, sosializm qurbanlarına əbədi eşq olsun!

Şura idarəsindən dağlara, qayalara yayılan xitablar muzdurların sədaqət, qüdsiyyət andı kimi səsləndi. Nadir heç kəslə məsləhətləşmədən aşılı çarıqlarını möhkəm bağladı, zoğal çomağını götürüb dəstəyə gəldi. Muzdurlar komitəsinin sədri Əhməd, onu dağlara gedən dəstə arasında görəndə təəccüblə soruşdu:

– Nadir, sən hara?

– Siz hara, mən də ora!

– Ədə, sən uşaqsan, get məktəbinə, atışmalı vaxtın deyil sənin, bala!

– Əhməd əmi, sizin yanınızda olacağam, məni qovma!

– Anan nə deyir?

– Anam deyir: "İgid oğul gərək atasının qanını yerdə qoymasın!" Anam sizə qoşulmağıma razıdır.

Əhməd cavanın üzünə baxdı, əzminə diqqət elədi, deməyə sözü qalmadı:

– Get, – dedi, – komsomolçularla danış. Onlardan ayrılma!

Səadət həmin gün illərin intizarını, iztirabını çəkdi. Sərin payız səhərinin şəfəqlərində dağlara qalxan fədai dəstələrdə oğlunu görəndə ürəyi qəfəsdəki kəklik kimi çırpınmağa başladı:

– İlahi! Ya rəbbi! Balama qüvvət ver! İgidin qanını yerdə qoyma! Düşmənin əlini bağla!

Səadətin təhlükəli yerlərə yollanan oğlundan başqa on bir yaşlı qızı Nailə onunla qaldı.

Nailəni məktəbdə, mahnı dərslərində dindirib-oxudan müəllimə fəxrlə ananı sevindirirdi:

– Səadət xanım, – deyirdi, – bu qızın yaralı səsi, sədası bütün məktəbə hay salıb! Mən bunu musiqi dərsinə qoyacağam, özüm də müəllimlik edəcəyəm. İxtiyar verəsən gərək!

Səadətin sevinc və nisgildən gözləri yaşardı:

– Müəllimə, – dedi, – qızın atası yoxdur, çətin dərsi başararmı?

– Nailənin atası da, anası da var. Sovet məktəbi onu isti qucağında doğma bala kimi bəsləyib böyüdəcəkdir. İndi Şura zamanıdır. Sən fikir çəkmə. O qızın hər zəhmətini biz müəllimlərin boynuna qoy! Nailənin gələcəyi var!

Ehtiyac, tənhalıq, sıxıntı ilə iki bala böyüdən Səadət heç vaxt heç kəsdən balaları haqqında bu şirin sözləri eşitməmişdi. Bu sözləri eşidəndə o, özünü əzəmətli bir dağa söykənmiş kimi duydu. Sinəsini qabardan iftixar hissi ilə müəlliməyə razılıq elədi:

– Allah Sovetin bayrağını uca eləsin, müəllimə! Nailə gecə-gündüz qoşma deyib bayatı çağırır. Ona sizin kimi bir havadar lazımdır, bacım. Allah işinizə faraş versin. Bizim uşaqlar da sizin sayənizdə bir günə çatsın!

Müəllimə Səadəti ehtiramla yola saldı. Nailənin qayğısını öz övladı kimi çəkməyə başladı. Məktəbdə verilən dərsdən, valideyndən eşidilən nəsihətdən, qonum-qonşu, yar-yoldaşda görüb-götürülən ibrətdən başqa da, adi gözlə görünməyən, seçilməyən, sezilməyən bir tərbiyə də, kövrək uşaq qəlbinin həyəcan vurğularında ahənglə səslənən, həzin kaman təranəsi qədər təmiz və müqəddəs bir tərbiyə də var!

Uşaq zehninin bakir, kövrək, həssas, sakit və güclü bir aləmi, kimsə ilə hesablaşmayan, kimsə ilə məsləhətləşməyən, çox şeyləri ölçüb-biçməyən, leysan selindən doğub-kükrəyən, coşan, aşıb-daşan, sahilləri ağzına alan təbii tələbləri var.





Nadiri döyüş ehtirası ilə dağlara çağıran, Nailənin sinəsində qaynayan həzin ürək təranələri də bu tələblərdən idi.

Nadir düşmənlərə qarşı döyüşlərdə vuruşub igid bir komandir olanda Nailə də inqilabi mahnıları çalıb-çağıran bu müğənni kimi böyüdü, kənddə, mahalda şöhrət tapdı. Bu uşaqların heç birini heç kəs familiyası ilə tanıyıb çağırmırdı. Döyüşçüdən də, müğənnidən də söhbət gedəndə sadəcə "Səadətin uşaqları" deyirdilər. Biri komandirə təşəkkür edir, bir başqası müəllimi tərifləyirdi, çoxu da heç kəsi yox, ancaq uşaqların özünü, fərasətini deyib, sevinirdi.

Səadətin balaları iki-üç il ərzində kəndin, hətta mahalın şöhrətli cavanlarından sayıldılar...

Çox çəkmədi ki, həmin gün – fədai dəstələri dağ kəndlərinə hücuma getdiyi səhər gəlib çıxdı. Ancaq həmin səhər, həmin yaz, həmin hava, həmin məkan olsa da, bu səhərin əvvəlkindən fərqi çox idi.

Bu səhər nə Nadir o Nadir, nə Nailə o Nailə, nə də möhnətkeş Səadət o Səadət idi!

İndiki yaz səhəri, deyəsən, bütün nisgil, həsrət, iztirablardan silinib-təmizlənmiş, ayaz göyləri kimi münəvvər, günəşli bir səhər idi. Bu səhər hətta Səadətin görmədiyi, gözləmədiyi sevincli bir səhər idi. Əhməd kişi köç yolunda məktəbli cavanları mərkəzə yola salanda uca bir kürsü qoymuş, özü beş pillə yuxarı çıxmış, valideynlərin neçəsini, Səadəti də çağırmış, cavanlara xeyir-dua üçün ilk sözü ona vermişdi.

Səadət çox işgüzar, zəhmətsevən, təcrübəli, ünsiyyətli qadın idi. Ancaq onun natiqlik məharəti yox idi. Heç vaxt, heç yerdə, heç münasibətlə danışmamışdı! Bununla heç maraqlanmamışdı da.

Əhməd kişi onun qolundan tutub pilləkənə qaldıranda təkidlə tapşırdı:

– Səadət, bacım, bu gün sən danışacaqsan! Özünü yığışdır, danışacaqsan!

Səadət bir sağına, bir soluna, bir də çantası-çamadanı əlində yola düşən balalarına baxanda, deyəsən, sinəsinə çoxdan çəkilmiş ağır bir

pərdə qalxdı. Ürəyinin bütün guşələrinə bir nur şəfəqi yayıldı. Əhməd kişinin təkidi bu işıq içində bir də səsləndi, daha bərkdən səsləndi: – "Səadət, bacım, danışacaqsan! Özünü yığışdır, danışacaqsan!"

Sanki bu xitablar qadının qəlbinə qüvvətli bir təkan verdi: Səadət dinləyənlərə, cavanlara baxdı... Qəlbini dolduran iftixar və sevinclə dilləndi:

– Bu gün də danışmayıb haçan danışacağam! Əhməd qardaş, bizim balalarımız dəftər-kitab götürüb mərkəzə, böyük məktəblərə oxumağa gedirlər. Şükür, mən ölmədim, balalarımızın bu gününü gördüm! Balalarım, sağ olun! Sizə uğurlar, sizə bəxtiyar günlər! Sizə böyük gələcək, sizə Sovet hökumətinin azadlıq nemətindən gələn ağ günlər! Əziz balalarım, sizin o kitablardakı sözünüz, o kamanl-sazınız yeni həyatın, yeni dünyanın ən xoş mahnıları olsun! Biz bu mahnıları eşidək, fəxrlə əl çalaq!

Səadət özü əl çalmamış, eşidənlər əl çaldılar.

Nailə də, Nadir də qalxıb analarını qucaqladılar, and içdilər.

Kənd camaatı cavanları böyük məktəbə yola salanda bahar günəşi üfüqdən yenicə boylanır, sürət qatarının hərəkət intizarını xəbər verirdi. Səadətin sevinc, riqqətlə dolu ana səsi hər yerdə eşidildi:

– Uğur olsun, balalar!

*1969*



# MÜHAZİRƏÇİ YOLDAŞIM

Müharibədən sonra bizim səfərlərimiz çoxalmışdır. Sovet mütəxəssisləri tez-tez müxtəlif ölkələrə çağırılırlar. Təkcə demokratik ölkələrə, müstəmləkə zəncirindən təzə qurtulmuş zəif respublikalara yox, Avropanın handa bir kapitalist mərkəzlərinə, handa bir elmi, texniki, nəzəri məsələlərin həllində məsləhətləşməyə, rəy eşitməyə, qonaqlığa, konsertə, lap müəllimliyə çağırırlar.

Paris Sorbonn universitetindən dəvətnamə alanda mən güman etmişdim ki, yəqin fransız tələbələri bizdə ictimai elmlərin, marksizm-leninizm elmlərinin səviyyə və şöhrətini, bizim sahələr üzrə çalışan alimləri görüb-eşitmək istəyirlər. Bu da çox təbii arzu idi. Razılıq verməli idik. Yoldaşım Cavadzadə dəvətnaməsini mənə göstərəndə gördüm yox, fransız yoldaşlar yalnız ictimaiyyət yox, təbiət elmləri sahəsindəki nailiyyətlərimizlə də maraqlanırlar. Dahi sovet alimi akademik Pavlovun şərti reflekslər haqqındakı cahanşümul nəzəriyyəsi bütün dünyada ümumi maraq oyadıb və yarım əsrə yaxındır ki, hakim mövqe tutmuşdur.

Alimlər dəstəsini sərin may günlərinin birində Vnukovo təyyarə meydanından yola saldılar. Bu, bizim Fransaya ilk səfərimiz idi. Bəzi cəhətdən də imtahan səfərimiz idi. Cavadzadəyə müraciətlə öz intizar və həyəcanımı deyirdim:

– Fransız auditoriyasında mühazirə demək asan deyil. Bizi həmişə təbliğatçı kimi tanımağa cəhd edən burjua mütəxəssisləri xarici gənclərin zehninə çoxlu əfsanələr yeritmişlər. Qorxasan ki, bizi fışqırığa basalar.

Cavadzadə güldü və əlini çiynimə qoyub arxayın danışdı:

– Hər şey söhbətimizin məzmunundan, sözümüzün kəsərindən asılıdır. Cavanlar o yan-bu yanda, doğrudur, yalan-palan eşidiblər, indi özümüzü görəcək, üzbəüz dayanacaq, dinləyəcəklər. Güman edirəm ki, bu niyyətlə çağırılmışıq, tələbələr bizə daha diqqətlə qulaq asacaqlar.

– Təki belə olsun.

– Ayrı cür olmaz, görərsiniz!

Doğrudan da biz sakit, maraqlı və diqqətli bir auditoriya gördük. Sinifdə milçək uçsa eşidilərdi. Çoxu oğlanlardan, həm də nazik, sarıyanız, yaraşıqlı oğlanlardan ibarət olan iyirmi beş nəfərlik qrupda mühazirəçi və tərcüməçidən başqa kimsənin səsi çıxmırdı. Adamlar deyəsən suyun içində idilər. Haqqında əfsanələr danışılan Sovet ölkəsindən gəlmiş çeşməkli, ortaboy, ağsaç, təmkinli, kommunist mühazirəçi auditoriyanın diqqətini toplamışdı. Dilini bilməsələr də, tələbələr mühazirəçinin mülayim və ciddi səsini eşitməkdən xoşlanırdılar. Cavan, sarısaç və tez-tez danışan tərcüməçi qız mühazirəçinin dediklərini cümlə-cümlə fransızcaya çevirirdi. Tərcüməçinin cümləsi qurtaran kimi, mühazirəçinin mülayim səsi eşidilirdi.

Tələbələr mühazirəçini diqqətlə dinləyir və qeydlər götürürdülər. Qələmlərin dəftər üzərindəki hərəkəti payız yağışının taxtapuşu döyən damlaları kimi xoş ahəngli bir səs çıxarırdı.

Tərcüməçi cümləsini bitirəndən sonra mühazirəçi yanaşıb tələbələr hiss etməsin deyə, işarə ilə ona bir söz çatdırdı. Dərhal ondan uzaqlaşdı və səsini ucaltdı, mühazirəni davam etdirməyə başladı. Neçə dəqiqə çəkmədi ki, mühazirəçi yenə tərcüməçinin yanına qayıtdı.



Tərcüməçi masa başında dayanmışdı, gözünü mühazirəçinin dodaqlarına dikmişdi. Mühazirəçi təkrar onun yanına qayıdanda təşvişə düşən kimi oldu. Mühazirəçi tərcüməçinin qulağına nəsə dedi və mühazirəsini fransızca başladı. Tərcüməçi qızarmış halda dayandı, mühazirəçi onun qolundan tutub əyləşdirdi və tələbələrə müraciət etdi:

– Mənim yorğun həmkarım özünü pis hiss edir, dincəlməlidir. İcazənizlə mən mühazirəni fransızca davam etdirəcəyəm, qüsurlarımı, zənnimcə, bağışlarsınız!

Mühazirəçinin təmiz və sərbəst fransızca danışması hamının heyrətinə səbəb oldu. Sıralardan xoş bir pıçıltı keçdi. Mühazirəçi danışdıqca tələbələr artan maraq və həvəslə tələsə-tələsə qeyd götürürdülər.

Axı, bu mühazirələri o, əziz müəlliminin nəzəriyyəsini bütün mədəni ölkələrdə təbliğ etməyi arzulamışdı. İndi belə bir imkan yarandığına nə qədər sevinir, fransız dilində, sanki, həmişə vərdiş etdiyi ana dili kimi danışırdı.

Tərcüməçi mühazirəçidən üzr istəyirdi:

– Siz işlətdiyiniz bəzi terminlər lüğət kitablarında yoxdur.

– O kitablar köhnədir, hörmətli həmkarım, yeni nəşrini tapmaq gərək.

– Bəlkə, siz bu işdə bizə kömək edəsiniz?

– Vətənə qayıdanda mütləq təşəbbüs edərəm.

– İndi, necə, bu günlərdə məəttəl qalmamaq üçün?

– Bu günlər narahat olmayın, mən mühazirəmi firəng dilində aparacağam, sizə zəhmət verməyəcəyəm.

Həmin gündən Cavadzadənin Pavlov nəzəriyyəsi haqqında mühazirələri firəng dilində keçdi. Auditoriya daha da böyüdü və genişləndi.

Sorbonn universiteti Sovet İttifaqı Ali Məktəblər Nazirliyinə müraciətlə xüsusi müqavilə bağlamağı, Cavadzadəni hər il aprel ayında bir ay Parisə ezamiyyətə göndərməyi xahiş etdi. Nazirlik mühazirəçinin rəyini öyrənəndən sonra bu dəvəti qəbul etdi.

*1969*

# QOLTUQ RADİOSU

– Hərif gəldi!
– Lap bizə tərəf gəlir.
– Baş-beynimiz gedəcək...
– Durun əkilək!

Bu danışıqlar başlanar-başlanmaz Gödək adam özünü yetirir, kimsəyə macal vermədən çiynindəki radio cihazını çıxarıb, "süfrəsini" döşəyirdi:

– Bilirsiniz, bu nə dəqiq aparatdır? Dünyanın harasını desən tutur, günün hansı vaxtında desən tutur. Zalım uşağı, bu yaponlar texnikanın allahıdır. Tükü tükdən seçirlər.

Əyləşənlərin bəzisi Gödək adamın izahına qulaq asır, bəzisi stul üstündə səslənən cihazın avazına qulaq asır, çoxları isə "gecəniz xeyrə qalsın" deyib yavaşca əkilirdi.

Hərifin halına təfavüt eləmirdi. Bir adam, təkcə bir adam da qalsa, aləm sükuta dalsa, gecə yarıya çatsa da, səs-küydən bezmir, qoltuq radiosunun şəninə dediklərini təkrar etməkdən doymurdu:



– Çox dəqiq aparatdır. Dünyanın harasını desən tutur. Harda desən, tutur: suda, quruda, havada. Nə vaxt istəsən tutur. Zalım uşağı, bu yaponlar texnikanın allahıdır. Tokio...

– Xalaoğlu, bunu haradan almısan?

Deyəsən, belə sualı Gödək adam çoxdan gözləyirmiş. Əvvəl sağına-soluna baxır. Aparatdan gələn avazı bir qədər azaldır, yerindən qalxıb adamlara yaxın əyləşir, sanki bir sirr söyləyir kimi pıçıltı ilə, həm də xüsusi bir ehtiyat və həvəslə deyirdi:

– Haradan almaq məsələsi belədir: siz soruşdunuz, mən də deməliyəm ki, bunu satışda-zadda tapa bilməzsiniz. Heç köhnə pulla min manata da tapa bilməzsiniz. Yox, yox!

Gödək adam üzünü uzaq üfüqlərə tərəf çevirib səsini ucaldır, gözlərini bərəldir:

– O yandan-bu yandan gətirirlər, turistlər gətirir, özü də xəlvəti!

Sonra yenə söhbətini adi vəziyyətinə qaytarır:

– Yoxsa hardadı bizdə belə şey? Radio mağazasında adını çəkəndə heyrətlə baş bulayırlar: "Almamışıq!"

Hərif qaqqıldayıb gülür, satıcının qarasına kinayə yağdırır:

– "Almamışıq." Ay yazıq, haradan alacaqsan? Belə malı sənə kim verəcək ki, sən də alasan? Bunun öz xiridarı var, tutya kimi axtarırlar. Hər şəhərdə yox, ancaq mərkəz şəhərlərdə bir dənə, ya iki dənə tapıla-tapılmaya. O da məsul işçilərin vasitəsilə!

Hərif cihazı əlinə alıb yazılarını oxuyur, dalğaları axtarır, cızıqlarına diqqət yetirir:

– Burdan xodunu azaldıb, artırırsan. Burdan da nöqtələri tutursan, bizim aparatlar, görürsən, yağışda, küləkdə, ya dəmiryolunda xırıldayır. Amma bunun halına təfavüt eləməz. İstəyir top atılsın, lap Eşqabad, Daşkəsən olsun, arxayın sözünü deyəcək. Öz havasını çalacaq. Vallahi, bir ayrı cür şeydir! Bu zalım uşağı yaponlar...

Matahına həris müştəri tapan tacirlər kimi Gödək adam cihazına güc verir, gurultu ətrafa yayılır, ağız deyəni qulaq eşitmir.

Gödək adam vaxt-bivaxt demir, yerli-yersiz həmişə aparatını işə salır.

Ondan soruşurlar:

– Yoldaş filankəs, bu gözəl aparat sizi iş-gücdən eləmir?

– Yox, mən bunu, lap gecəyarısı yanımdan kənara qoymuram. Sevgilim kimi!

– Yorulmursunuz?

– Yorulmaq nədir, canım, ləzzət alıram, zövq!

– Görünür, hövsələdən pərgarsınız.

– Belə maraqlı şey hər adamın əlinə düşməz. Hələm-hələm düşməz! Gərək fürsətdən istifadə eləyəsən, görəsən dünyada nə qəribə melodiyalar var, nə işlər var!..

– Böyük nemətdir!

– Bəli, nemət dedin qoydun?!

– Sağ olsun bu neməti bizə bəxş eləyənlər.

– Bəxş deyəndə, yəqin peşkəş eləyən də tapılmaz! Bunu bir ətək pulla əldə eləmək olar. Özü də minnətlə, xahişlə...

Aslan kişi Gödək adamın izahatına, deyəsən, dözmədi:

– Bacıoğlu, – dedi, – sənin bu yapon cihazın hər yerdə danışa bilirmi?

– Əlbət ki, lap istəyirsən yerin altında!

– İndi, məsələn, sən bunu qurub uzaqda dayansan eşidə bilərsənmi?

– Əlbəttə, lap istəyirsən bir kilometr uzaqda dayan! – O, aparatı stolun üstünə qoyub uzaqlaşdı: – Qurub gedirsən, özü danışır, lap sağmal inək kimi mələyir.

Gödək adam on addım uzaqlaşan kimi, Aslan kişi cihazı götürüb çarhovuza atdı.

– Qoy görək suda necə danışır.

Baxanlar gülüşdülər. Ağır bir iztirabdan qurtulmuş kimi, nəfəs alıb, razılıqla dedilər:

– Allah atana rəhmət eləsin, Aslan kişi!

Gödək adam qaça-qaça gəldi:

– A kişi, neylədin?

– Qoy təcrübədən keçsin.

– A kişi, suyla təcrübə olar, neylədin sən?

Toplaşanlar gülüşdülər. Gödək adam o yana-bu yana qaçıb qarmaq axtardı ki, suyun içinə salsın, əzizini çıxarsın. O, çarhovuzun başında əlləşə-əlləşə qaldı. Gurultu kəsildi. Hamı Aslan kişiyə minnətdarlıq edib, evinə dağılışdı.

*1969*

# YAXŞI NƏDİR, PİS NƏDİR

Bir zamanlar, sovet sənayesinin cavan, təcrübəsiz vaxtında, ölkədə yenilik, tikinti, quruculuq işlərinin gərgin olduğu illərdə sənaye mallarının bəziləri keyfiyyət cəhətdən alıcını təmin edə bilmirdi. Zavodlar çox məhsul buraxmaq, bütün əhalini təmin etmək üçün tələsir, keyfiyyətə bənd olmurdu.

Mənim yadımdadır. Atam bir divar saatı almışdı, kəfgiri sallanır, səs eləyirdi, bəzən də yatırdı. Atamın da gündə bir saatı təmirə verməyə macalı, hövsələsi çatmırdı. Amma haradansa saatın azarını tapmışdı. Dayanan kimi kəfgirin kənarından ağır bir şey asırdı: köhnə çaynik, ütü, ya qaloş tayı!

Ağır şey əlavə olunan kimi, saat sürətlə işləyir, kəfgir də sağa-sola çırpınırdı...

20-ci illərin cavan, təcrübəsiz sənayesindən həzin bir xatirə olan saat da zehnimizdə bir xatirə olaraq qaldı, özündən bir əlamət qalmadı...

İndi sovet saatları – istəyir divarda, istəyir kürsüdə, cibdə, qolda olsun – sovet saatları dünyaca məşhur məhsullardır. Ən yüngül, ən dürüst, ən gözəl, ən zərif saatlar sovet saatlarıdır. İndi Avropanın handa bir saatsaz ölkələri də sovet saatlarını iştah ilə alır, diqqət ilə yoxlayır, sərgilərdə, vitrinlərdə, məclislərdə nümayiş etdirirlər.

Sənaye malının yaxşısı, keyfiyyətlisi, əslində təbliğatçı, reklamçı gözləmədən özü tez yayılır, tez şöhrət tapır.

Bizim sənayenin məhsullarından biri – buz maşınları, "ZİL" markalı soyuducularıdır. Bunların keyfiyyəti, məziyyəti də, davamı da camaat arasında şöhrət tapmışdır. Mən hələ daha böyük, daha məşhur, daha mühüm maşınların – fəza raketlərinin, göyləri fəth edən ecazkar cihazların adını çəkmək istəmirəm. Dünyada ölkə yoxdur ki, bu müasir sənaye möcüzələrini heyrətlə seyr etməsin, əhsən deməsin.

Sənayenin məişətə xidmət edən idarələri də var, paltar tikənlər, ev təmir edənlər, müalicə, tamaşa, təmizlik, zəriflik, gözəllik keşiyində duranlar. Bunların bəzisindən razı qalanlar azdır.

Şikayət kitabçalarının səhifələrini də bu şikayətçilərin yazıları doldurur.

Mən özüm şikayət yazan, dinib-danışan deyiləm. Ancaq elə dərzi var, mənim kimi ağır adamı da təbdən çıxarda bilir.

Yay başlananda bir nazik kostyum sifariş edib tikdirdim. Sağ olsun, usta da tez əldən çıxardı. Sevinə-sevinə kostyumu evə gətirib geyinməyə hazırlaşırdım. Yoldaşım da mübarəkbadlıq elədi. Kostyumu geyindirdi ki, səliqəsinə baxsın. Düyməsini düymələmək mümkün olmadı: ilməsi balaca idi, düymə yerləşmirdi. Çətin düymələyəndə düymələr bir-bir qopub töküldü.

Yoldaşım ustanın dalınca deyindi, mən də pərt oldum. Səhərisi gün götürüb apardım, düymələri təzədən tikdirim.

Mən dillənməmiş usta dilləndi:

– A filankəs, düymə tikmək də bir çətin işdi ki, ovcuna yığıb gətirmisən? Evində arvad-uşağın yoxdur?

Doğrusu, mən özüm utandım. Utandım ki, üç-dörd düyməni dərzixanaya qaytarmaq igidlikdən deyil...

Dərzi düymələri aldı. Kostyumu günahkar məxluq kimi taxta üstünə sərib iynələməyə başladı.

Uzun saplı iynəni iti barmaqları arasında elə sürətlə işlədirdi, mənim qorxudan az qala bağrım yarılacaqdı ki, iki düymədən ötrü kişinin barmaqları deşiləcək! Yaxşı oldu ki, iş ziyansız keçdi. Kişi düymələri əldən çıxardı. Kostyumu hirs ilə mənə qaytardı!

– Buyur, müəllim!

Mən çox razılıq edib kostyumu evə gətirdim, sevincək, yoldaşıma xəbər verdim:

– Usta sağ olsun, düymələr tikildi.

Kostyumu əlimə alanda yoldaşım istehza ilə baxdı, sallanan saplara işarə elədi:

– Ustanın səliqəsinə soğan doğransın, bir geyin baxaq!

Kostyumu geyindim, düymələri düymələyib ətəklərimi çəkmək istəyəndə bu dəfə üç yox, dörd düymə qopub töküldü, ikisi də döşəmədə dığırlanıb şkafın altına getdi.

– A kişi, bu ustanı haradan tapmısan?

– Dayan, düymələr itəcək!

– Ondan sənə kostyum olmaz, apar, ustasına qaytar, kişi!

Doğrusu, bir də dərzixanaya getməyə, ustanın acı sözlərini eşitməyə üzüm gəlmir.

*1969*



# MƏRD VƏ NAMƏRD

*Keçmə namərd körpüsündən, qoy aparsın sel səni,*
*Yatma tülkü daldasında, qoy süpürsün yel səni.*

*Atalar sözü*

Dünya böyük, işləri dolaşıq, ilki, aqibəti məchul, ibrətli!

İnsan gördüklərini yazıya alsa, gərək dəryalar mürəkkəb, meşələr qələm ola. Fındıq boyda gözdən kainat boyda bir aləm keçir.

Elə hadisələr var, insanın gözündən, qulağından, qəlbindən, eləsi var, başından, eləsi də var, bütün vücudundan, varlığından keçir. Daha doğrusu, keçmir, heç bir zaman keçmir, iti bıçaq kimi ürəyə sancılır. Ömür boyu insana işgəncə, iztirab verir...

Mən onları tanıyırdım, yaxşı tanıyırdım. Təəssüf ki, yaxşı tanıyırdım. Bəlkə də heç sizə danışmaz, tanıtmaq istəməzdim. Ancaq bir zərurət ucundan, ürək ağrısı ilə bu əhvalatı sizə danışmaq istəyirəm.

Təbiət bizə göz kimi böyük nemət vermişdir. Baxmaq, görmək, anlamaq, faydalanmaq üçün vermişdir. İnsanlar var, görmək istərsən, insanlar da var, görmək istəməzsən. Eləsi olur ki, sənə sevinc, eləsi olur, qüssə gətirir. Eləsi olur, üz çevirirsən, eləsi də olur, səni cəzb edir.

Aypara bəlalərindəndi, işıq kimi parlaq, nadir bir varlıq idi. O, hər səhər kitabları qoltuğunda pəncərəmizin qabağından gəlib keçər, qara

hörükləri kürəyində ilan kimi qıvrılardı. Anam yeyin nəzərlərlə Ayparanı süzüb, həsrətlə ah çəkər və mənə eşitdirərdi:

– Allah yaman gözdən saxlasın bu qızı. Görəydim neçə il oxuyacaq! Görəydim hansı bəxtəvərə qismət olacaq!..

Xülasə, Aypara diqqəti çəkən, nəzərlər ovlayan ürkək və qəşəng bir çöl göyərçini idi. Onun mütənasib boyu, yaraşıqlı hərəkəti, sadəliyi, gülər üzü, məmnun baxışları, bütün vücudu cazibəli idi. Deyəsən, qüdrətin hüsnündən yaranmışdı. Qız hər yerdən bir nur kimi keçirdi. Keçmirdi, şəfəqləri üzülmür, şüalar kimi müttəsil süzülürdü. Aypara adına layiq idi.

Günlərin birində ona Şuşanın ədiblər evində cavan istedadlar yarışında rast gəldim, məmnuniyyətlə tanış oldum.

Aypara burada, bu vilayətdə çağırılan ifaçılar yarışında sədəfli tarını bağrına basıb "Yetim segah" çalanda məclisi vaeh etdi.

Gənclər heyrətlə dinləyir, İdris isə özünü tamam unutmuş kimi, əlini əlinə vurub təəccüblə deyirdi:

– İlahi, nə qüdrətdir, göylərin mələyi, ya yerlərin kəkliyidir bu?

İdris nazirlikdən buraya yarışan cavanların istedadına qiymət verməyə göndərilsə də, ümumi, obyektiv mülahizələr yürütməli olsa da, hissiyyat ona elə güc gəldi ki, ilk sözlərində Aypara haqqında şəxsi rəyini, intim duyğularını gizlədə bilmədi, ucadan, aşkar dedi.

Şuşadan qayıdanda təəssüratını mənə danışdı. Yenə heyrət və marağını təkrar etdi:

– Aypara qiyamət elədi, ətrafa nur səpirdi. Diqqət yetirdinizmi, özü də ifası kimi nə qədər qəşəng, məlahətli idi.

Güman etdim ki, o, Aypara haqqında məqalə yazacaq, qızın segahından bəhs edəcək, onu tərifləyəcək. Ancaq belə olmadı, o ayrı yol tutdu.

Bakıya gələn kimi, yarışı, segahı kənara qoydu, qıza elçi düşdü, alıcı quş kimi qızı ovladı, o saat da toyunu elədi.

Ayparanın toyuna məni də çağırmışdılar. Təbriklər, nitqlər, oyunlar, musiqi, alqış, təntənə... Bu xoş mərasimin təranələri indi də qulağımda səslənir.

İdris nazirlikdə şöbə müdiri, Aypara isə gənc musiqiçi idi. Bunların qurduğu bəxtiyar ailəyə təhsinlər göydən yağırdı. Mən öz aləmimdə vəzifəmi icraya, bu gözəl ailəni təbrikə hazırlaşır, hədiyyə düşünürdüm. Bir gün gözlənilmədən eşitdim ki, bahar bağçasına səmum yeli əsib, cavanların arası dəyib.



Eşitdiklərimə inanmadım.

"Vətəndaş İdris Həmid oğlu Aypara Ələsgər qızını boşamaq haqqında rayon məhkəməsində məsələ qaldırır..."

– Vay səni!..

– Necə əlin gəlir, ay namərd?!.

Hamını diksindirən bu acı xəbər ya açıq bir yalan, ya da nə bilim, nə uydurma idi. Ulduz kimi parlaq, səma kimi sakit gənclərin ixtilafına, ədavətinə kimsəni inandırmaq olmazdı.

Mənim ixtilaflı yığıncaqdan xoşum gəlməz. Teatr, konsert, kino, məclis sevirəm, amma insanın insanla acı deyişməsi, söz güləşdirməsi xoşuma gəlməz.

Yenə də bu gözəl ailənin ixtilaf müzakirəsi mənə qəribə gəldi, xəbər tutdum, məhkəmə iclasına getdim.

Məhkəmə sədri nazik qovluğu açıb adları oxuyanda cavanların biri sağdan, biri soldan qabağa gəldi, suallara cavab hazırladı.

Sədr üzünü İdrisə tutdu:

– Ərizəni siz vermisiniz, niyə ayrılırsınız?

– Xasiyyətimiz tutmur.

– Üç-dörd aydır evlənmisiniz, nə tez ikrah oyanıb?

– Oyanıb! Bəli, oyanıb!

– Səbəb nədir? Sizin kimi ziyalı gənclər ailəyə belə yüngül yanaşanda, bəs o birilərdən nə ummaq olar?

Oğlan başını aşağı salıb dayanmışdı.

– Siz necə, Aypara xanım, necə baxırsınız?

– İstəməyən bir adamla necə yaşamaq olar?

– Əvvəldən istəyirdi ki?

– Özünü vurğun göstərirdi.

– İndi nə olub?

– Özündən soruşun!

Məhkəmə sədri üzünü İdrisə tutub soruşdu:

– Aypara xanım da bilmək istəyir ki, nə olub?

Məhkəmə sədri üzünü salondakılara tutdu, mənalı bir sükutdan sonra təkidlə dedi:

– Məhəbbətinizə hər kəs qibtə etdiyi halda, siz niyə cavan ailəni sarsıdırsınız?

İdris gözaltı məhkəmə sədrinə baxdı, üz-gözünü turşudub pıçıldadı:

– Əvvəllər istəmişdim, indi nifrət edirəm...

Məhkəmə sədri tez onun sözünü sualla kəsdi:

– Ayparanın dalınca kölgə kimi gəzdiyin günlər nə tez yadından çıxdı?

Aypara dözmədi:

– Gəzdiyin yox, süründüyün deyin, bu daha doğru olar.

– Oğlan qız dalınca gəzər.

– Deməli, əylənmək üçün gəzirdin?

– Nə üçünsə gəzirdim.

– Məhəbbətin ikraha, nifrətə çevrilməyinə bir səbəb varmı?

– Ürək istəmir.

– Dünən çırpınırdı, bu gün isə yox?

– İndi görmək belə istəmir.

– Belə dönük ürəklər müalicə olunmalıdır! Sən bilirsənmi ki, evlənmək əyləncə, yalnız şəxsi iş yox, vətəndaşlıq vəzifəsidir. Kostyum almaq, otaqdan otağa köçmək, xidmət yerini dəyişməklə məhəbbətə münasibəti bir tutmaq olmaz. Bu, oyun deyil. Ailə cəmiyyətin ilk isti ocağıdır, müqəddəsdir. Bəlkə, düşünəsiniz, dil tapıb barışasınız?

Oğlan dediyində inad elədi:

– Mən sevmirəm, yaşamayacağam!

– Ailə, məhəbbət kimi müqəddəs, məsum işləri nadürüstlərin kefgərəyindən qorumaq bizim qanuni borcumuzdur!

Sədrin İdrisə dediyi bu sözlər bütün salondakıların diqqətini çəkdi.

Onlar ayrıldılar. İdrisin pasportuna qara möhür vurdular.

Məhkəmə iclasından çıxanda İdris çətin vəziyyətdə idi. Sədrin zəhmli baxışı, mənalı sualları, qayım xitabları sanki onu tutmuş, fəlakət, uçurum önündə bərk silkələmişdi.



Xüsusən, Ayparanın qohumlar, tanışlarla vidalaşanda İdrisə qəti məhəl qoymaması ona yaman yer eləmişdi. Məhkəmə salonunu tərk edən dostların da çoxu onun yanından yad adamlar kimi ötüb-keçdi. İdris hətta nifrətli baxışlar da gördü. Bu baxışların altında o özünü alçalmış, unudulmuş hiss etdi.

Evdə o, tez-tez həyətə çıxsa da, yaxasını-başını açsa da, dönə-dönə öskürsə, sərinləmək üçün üzünə su çiləsə də, sinədolusu nəfəs ala bilmədi.

Həyət-baca, ev-eşik, ona ağır zindan kimi gəldi. Elə bil dayandığı yerə onu mıxlamışdılar, iradə və təfəkkürünü itirmiş, hissləri keyləşmişdi. "Hara getməli, nə etməli, necə etməli?" Bütün bu suallara cavab tapmalı idi. Bir an duruxdu, ürəyində qəribə bir arzu oyandı, geri qayıdıb Ayparadan üzr istəmək, məhkəməyə yalvarmaq istədi.

Məhkəmə bağışlasa da, Aypara onun təqsirindən keçməz! İdrisin sıxıntılı qəlbindən gileyli bir nida qopdu:

"Ay namərd dünya!"

O, ancaq indi dərk edirdi ki, çox uca yerdən bərk yıxılmışdır! İndi qolundan tutub qaldıranlardan da kömək ummaq olmazdı. Çünki sınan bir qol, bir qıç deyil, bütün bədəni xurd-xəşil olmuşdu.

İdris ətrafa göz gəzdirdi. Aypara yoxdu, otaq qaranlıq və soyuq görünürdü. Ortada yalnız qara bir peşmançılıq qalmışdı. O da İdrisi sıxırdı, sıxcalayırdı. Onun taxta kimi qabaran quru sinəsindən təkrar soyuq bir ah çıxdı. "Ay namərd dünya!".

İdris bu sözü elə bərkdən dedi ki, qulağına əks-səda gəldi:

*Adımı qoydum sənə,*
*Qalasan yana-yana!*

Bu təfsir onu götürdü, dinməzcə durdu, daha nələr eşitməyə müntəzir dayandı. Ancaq dinən yox idi, həqiqət öz sözünü demişdi.

*1969*

# XALLI XANIM

*O xal nə xaldır, kimə döydürmüsən?..*

– Qara şanıya xal düşəndə ağaca peyvənd vurmaq olar.
– Mən səni yasəmənin yanında görəndə ürəyimə xal düşdü.
– Qaryağdıoğlunun segahında ayrı xallar var idi.

Xal sözünün dilimizdə çox mənası var. Ancaq mən xalı gözəlliyin bir nişanəsi bilirəm. Xal insanın camalında çox gözəl bir əlamətdir. Heç bir bəzək-düzək, qızıl-gümüş təbiətdən yaranmış xalı əvəz etməz. Xal təbiətdə ulduz kimi bir şeydir. Ulduz parıltı verir, xal qara olur, ağ sifətdə qara xal da parıltı verir. İllah da ki, yerinə düşə: yanaqda, çənədə, boğaz altında, buxaqda...

Mən deyərdim ki, xal, xüsusilə xanımların sifətinə yaraşıb...

Ona görə də mən bu sözü eşidəndə maraqlandım: "Xallı xanım!"

– Xallı xanımı sən hardan tanıyırsan, Mürsəl?

– Xallı xanım ilə bizim haqq-hesabımız çoxdandır. Onunla beş il bir məktəbdə oxumuşuq, bir rayonda işləmişik!

Mən Mürsələ demədim ki, Xallı xanım ilə məni də tanış elə! Ona görə ki, qoy bilməsin, bilməsin ki, Xallı xanım ilə biz tanış deyilik!



Sözümün dalını gətirməməyim, görünür, Mürsəli nigaran qoydu:

– Siz hardan tanışsınız?

– Biz də çoxdan tanışıq. Düzdür, sizin kimi məktəb yoldaşı deyilik. Ancaq tanışıq, Xallı xanım çox xətir-hörmətli xanımdır!

Mürsəl üzümə baxa-baxa qaldı, yəqin ki, mənim xanım haqqındakı xasiyyətnaməmi gözləyirdi:

– Onun xatirini nazirlikdə çox istəyirlər, məsləhət, söhbət, görüş, mərasim olmaz ki, çağırmasınlar.

– Mən nazirlik tərəfdən tanımıram. Elə-belə şəxsən haqq-salamımız var!

Mürsəlin məni sorğu-suala çəkməyindən qorxub söhbəti qısa elədim, otaqdan çıxdım.

İki gün sonra Mürsəl mənə zəng elədi:

– Evdə neyləyirsən?

– Heç, elə-belə oturmuşam.

– Oturmalı vaxt deyil. Dur gəl bura! Yanımda qonağım var, sən lazımsan. Xallı xanım da buradadır. İstəyirsən, maşın göndərim.

– Yox, trolleybus ayağımın altındadır, zəhmət çəkmə!

Yarım saat sonra mən Mürsəlin idarəsində, Xallı xanımın yanında idim:

– Xoş, beş, on beş!

Mürsəl xanımı mənə təqdim edəndə macal vermədim:

– Biz, – dedim, – çoxdanın tanışıyıq. Əgər yaddan çıxmamışıqsa!

Haqq ucuna, mənim bu işarəmə Xallı xanım çox incə nəzakətlə, bir az da təlaşla cavab verdi.

– Yox, – dedi, – xatirli yoldaşlar heç vaxt unudulmaz! Mən həmişə əhval soruşuram, unutmalı çoxları var!

Xallı xanım heç kəsə macal vermədən cəld ayağa qalxıb yumşaq stul çəkdi, mənə yer göstərdi:

– Buyurun, yaxın əyləşin!

Mən də təşəkkür edib əyləşdim.

Xanım, görünür, məndən qabaq başladığı söhbətin davamı ilə hərdən əyləşənlərin birinə müraciət edir, sanki dediklərini təsdiq etdirməyə çalışırdı.

– Axı, – deyirdi, – bizim oyunlar cavanlarımızın həm fiziki, həm mənəvi, özü də təbii, coşqun marağını oxşamalıdır. Yoxsa elə-belə quru oyunun mənası az olar. Məncə, burada məqsəd bir dəstənin qələbəsi, ya bir başqasının basılması deyil, oyunda bütün iştirakçıların müasir çəldlik, çeviklik, itilik, seçilmə məharəti, peşəkarlıq hünəri.

Əl topu oyunlarında çalışan bəzi cavanların adını çəkir, bəzilərini bəyənir, bəzilərini isə təcrübəli müəllim təmkini ilə tənqidi qeydlər edirdi. Tənqidi qeydlərində Mürsəlin idarəsini, idman təşkilatlarının işini də unutmurdu... Xanım danışırdı. Ancaq mən onun sözləri, mühakimələrindən çox, yaraşığına fikir verirdim. Fikir verirdim, görüm, bunu məşhur edən xalları haradadır, necədir, nə yaraşıqdadır!

Nə qədər müşahidə elədimsə, bu xanımın sifətində bir xal görmədim. Deyəsən, o, mənim marağımı duymuşdu. Bəlkə də cavab olaraq xaldan söhbət açmışdı.

– Bizim komandanın bir xalı, mərkəzi komandaların üç xalından qiymətlidir. Bizim görüşlərimiz az olur, oyunçularımızın da çoxu cavan, az təcrübə sahibidir. Xüsusilə, Azərbaycan rayonlarından, beş-altı il əvvəl ana qucağından ayrılmış cavanlardır. Onlar birdən-birə xal toplayıb, ön sıralara keçə bilmirlər. Onlara xüsusi diqqət, qayğı, kömək lazımdır!

O xal nə xaldır!

Mən indi başa düşürdüm ki, xanımın danışdığı xal, mənim düşündüyüm xal deyil. Bu xal - o xaldan deyil. Burada Füzuli, Seyid Əzim, Vahid qəzəllərində vəsf edilən, oxşanan xaldan yox, oyunlardakı hünər xalından, çəldlik, məharətdən söhbət gedir.

Bu xanıma da ona görə "Xallı xanım" ləqəbi verilmişdir. Çünki onun bütün oyunlarda seçilən xalları olur, özü də seçilir. Onun uduzduğu komanda, oyun yoxdur. Ən güclü komandalarla görüşəndə uzağı döyüş heç-heçə qurtarır.

Mən görürdüm ki, əl topundakı çəldlik məharəti bu xanımı respublikada məşhur etmişdir. Oyun haqqında söhbət gedəndə adamların birinci sualı bu olur:

– Xallı xanım oyunda var idi, ya yox?

– Var idi, fəal iştirak edirdi.

– Onda daha nəyə təəccüb eləyirsiniz? Xallı xanım olan komandanın arxasını yerə vurmaq çox müşkül işdir!



Mən Xallı xanımın oyun məharəti, hünəri haqqında deyilənləri eşidəndən, mətbuat səhifələrindəkini biləndən sonra öz-özümə çox utandım ki, niyə mən bu hünərli qızın oyunlarından xəbərsiz olmuşam. İnandım ki, qəzəllərdə, şeir və hekayələrdə təravətlə təsvir edilən heç bir mişkin xal bu çəldlik, məharət xalları ilə müqayisə edilməz. Özümü xəcalətli vəziyyətdən qurtarmaq üçün ayağa qalxdım, icazə istədim, nəzakətlə xanımın əlini sıxdım və etiraf elədim:

– Mən köhnə qəzetpərəstlər kimi sizin xalları gül camalınızda axtarırdım.

– Yox, – dedi, – qardaş, təəssüf ki, zalım təbiət məni o məlahətli xallardan məhrum etmişdir. Mənim xallarım hamısı zəhmətimin, hünərimin sayəsindədir. Mən çalışıram ki, bu xallar vasitəsilə komandamızın, rayonumuzun, respublikamızın şöhrətinə bacardıqca, qüvvətim çatdıqca bir xal əlavə edim!

– Sizin xallarınız kor təbiətdən yox, hünərdən, məharətdən olan ictimai qeyrət xallarıdır. Daha qiymətli, daha mənalı xallardır, xanım!

Xallı xanıma təşəkkürümü bildirib yeni qələbələr arzuladım...

*1969*

# AD AXTARANLAR

İnsan həyatında məyusluq olan kimi şadlıq, bayram da çox olur. Bayramlar cürbəcürdür.

Elə bayram var bütün cəmiyyət, bütün dünya, bəşəriyyət üçündür: yazın açılmağı, qışın bitməyi, təbiətin ayılmağı! Elə bayram var ki, bir ölkənin, müəyyən xalqındır: azadlıq, qurtuluş, inqilab bayramı.

Bayram da var bir ailənin, nəslin, ya qəbilənin ənənəvi şadlıq, şənlik günü hesab olunur.

Bizim tələbə yoldaşlarımızın hamısının bildiyi, sevdiyi bir bayram da var ki, hər il sevinclə qeyd olunur: bizim ali məktəbi bitirən yüzlərlə cavan o günü həsrətlə, intizarla gözləyirlər. Şənlik düzəldir, deyib-gülür, xatirə danışır, bir-birlərini təbrik edirlər.

Elə bayram da var ki, oxucudan da ayıb olmasın: ya doğum günü, ya toy, ya təzə mənzilə köçmək bayramı... Xülasə, bayramları saymaqla qurtarası deyil. Adam saydıqca həvəsə gəlir, təzələri yada düşür...

Keçək mətləbə!

Mənim sizə dediyim, demək istədiyim bu bayram mənim öz bayramım, şəxsi bayramımdır. Onun barəsində sizə danışmaq istəyirəm.



Başağrısı olmasın, Allah hamınıza qismət eləsin, bir neçə il əvvəl mənim ilk oğlum olub!

Sizi bilmirəm, mən bu günü unutmaram, heç vaxt unutmamışam, ömrümdə də unutmayacağam!

Ona görə yox ki, mən övlad həsrətində olmuşam, ya oğul istəmişəm, ya övladdan bir umacağım, təmənnam var. Yox! Mən bu hisslərdən uzağam, hətta çox zaman öz-özümü danlamışam ki, kənardan baxan yaxşı deməz. Bu görməmişlik nəyə lazımdır!?

Lakin oğlumu görən kimi hər şeyi unudub başlayıram balamı əzizləməyə:

– Başına dönüm, qurbanın olum, elim, günüm, varım-yoxum, gözümün işığı, ürəyimin bəndi!..

Nə isə! Oğlum olub-olmayıb, məni qayğı götürüb. Bu xəbəri mənə 10 yaşlı bir uşaq gətirdi. Mətbəədə oturub sabahkı qəzetin hərflərini yığırdım. Xadimə gəldi ki, səni qapıda gözləyən var (onu da deyim: mətbəəyə buraxılış vərəqəsi olmasa, adam buraxmırlar. İcazə almaq üçün gərək müdiri tapasan, xahiş eləyəsən, uzun işdir...).

Qapıya çıxanda bir ağköynək uşaq, deyəsən, gözləyirmiş, yanaşdı mənə:

– Qüdrət əmi, muştuluğumu ver, oğlun olub!

– Muştuluğun borc olsun, haçan olub?

– Bu səhər tezdən.

– Anası necədir?

– Lap yaxşıdır, sizi gözləyirlər.

Mən iş paltarımı dəyişib doğum evinə qaçdım. Orada bir hərəkət, sevinc, təlaş, tələsik danışma, gülüş gördüm ki, özümü itirdim. "İlahi, buradakıların çoxunu tanımıram, onlar da məni tanımır, mənim şad günüm üçün bu həngamə haradandır?"

Birdən yadıma düşdü ki, balam, bura sənin şəxsi doğum evin deyil, bütün şəhərin anaları burada öz yükünü yerə qoyur, hərə bir ailədən gəlib, nə danışırsan. Məni ananın yanına buraxmadılar, uşağı da mənə göstərmədilər:

– Darıxma, qardaş, bir həftədən sonra oğlun ilə evdə görüşərsən!

Dözə bilmədim, Tahirəyə əl boyda bir kağız yazdım, təbrik elədim, uşağı soruşdum: "Tofiqin kefi necədir! Sizə nə lazımdır, gətirim?"

Tahirə razılıq edir, heç nə istəmirdi: "Hələ neçə gün buraxmayacaqlar! Eybi yoxdur, darıxma. Yaxşıca rahatlan!"

■ ■ ■

Tahirə gələndən sonra bizim evdə ən vacib, ən şirin söhbət uşağın adı haqqında gedirdi. Müxtəlif təkliflər var idi: biri ata-baba adlarını, biri təzə kitablardan götürülən adları, bir başqası o yan-bu yandan gələn düzəltmə adları deyirdi. Mən isə hamıdan vacib anasının fikrini əsas götürdüm. Bircə kəlmə ana nə dedi, o da qanun oldu!

Şübhəm yox idi ki, burada da Tahirə mənim rəyimi bəyənmişdi, axı, ilk dəfə mənim xəstəxanaya yazdığım məktubda bu ad xatırlanmışdı: "Tofiqin kefi necədir?"

O da fikrimə gəldi ki, Tahirə mənim sözümə əsaslanıb, bəlkə də ürəyində başqa ad da var imiş, məktubdan sonra dilinə gətirmədi... Mən Tahirədən təkidlə soruşdum ki, başqa ad istəyirsənsə de, gizlətmə! Andaman elədi ki, Tofiq onun ürəyindəndir.

Tofiq bir müddət ana qucağında, sonra bağçada, 7 yaşın dan isə məktəbdə tərbiyə aldı, oxudu... Bizim evdə onun adı həmişə sevinc, şənlik, gələcəklə bağlı olub. Nə atası, nə anası Tofiqdən sarı bir qüssə, əskiklik, narazılıq görməyiblər.

Yaxın-uzaq bəzi qonşular gah bağçadan, gah məktəbdən, gah pioner evindən şikayətlənsələr də, biz yox. Tofiqin boya-başa çatmağında valideynin səyi nə qədərdirsə, məktəbin, müəllimlərin səyi də o qədərdir, bəlkə də ondan bir az artıqdır. Bütün günü o, məktəb kollektivində, hətta istirahət günlərinin çoxunu da yoldaşları ilə keçirir. Evə gələndə həmişə mahnı, musiqi, şeir, həllinə çalışdığı hesab məsələsi ilə gəlir.

Biz görürdük ki, müəllimlər onun inkişafı ilə necə maraqlanır, irəli getməsinə səy edirlər. Ay olmurdu ki, onun dərs qiymətlərini bizə göstərməsin, qeydlər verməsin, razılıq etməsinlər...

Böyük Vətən müharibəsi başlananda mən orduya getdim, uşaqdan nigaran getdim (Tofiq onda yeddi yaşında idi).

Cəbhədə aldığım məktubların çoxunda Tofiqin öz xətti ilə şad xəbərlər olurdu: "Ata, bizim məktəb əsgər uşaqlarına tamaşa verdi. Ata,



məktəbimiz dəmir qırıntısı yığıb təhvil verib. Deyirlər, onlardan top-tüfəng düzəldəcəklər. Bizim məktəb iki min limonad şüşəsi toplayıb..."

Demək istəyirəm ki, Tofiq özünün ailəsinin həyatı ilə bərabər, məktəb həyatı, ölkə, xalq həyatı ilə yaşayıb nəfəs almışdır.

Əlbəttə, bu, ancaq müəllimlərin, sovet məktəbinin, ictimai tərbiyənin sayəsində olmuşdur.

İndi mənim 50-dən çox yaşım var. Tofiqi evləndirmişik. Daha doğrusu, özü evlənib.

Sizə də qismət olsun, mənim iki nəvəm var:

Nadir, Nailə!

Bizim ailədə söz bu iki uşağındır. Onlar da sağ olsunlar, valideyndən məsləhətsiz bir iş görməzlər. Məktəbdə nə gördülər, eşitdilər, bizə danışarlar. Tofiq özü də, sizinkilərdən yaxşı olmasın, əsil uşaq çıxıb. Ata-anasının yanında körpələrin heç birini qucağına götürməz, üzündən öpməz. Əvvəldən həyalı-abırlı dolanıb, gəlin də onun kimi!

Tofiq indi Sumqayıt zavodlarının birində mühəndisdir. Yaxşı maaşı, hörməti, mükafatı. Adı qəzet səhifələrindən düşmür. Gəlin də oxumaq eşqindədir:

– Uşaqlar, – deyir, – məktəb yaşındadırlar. Gündüz mən oxuya bilərəm, niyə itirim!

Tofiqə məsləhət eləyəndə razı olmadı:

– Anla, – dedi, – sənin maaşın mənə lazım deyil. Uşaqlar ana kölgəsində böyüməlidir. Analıq özü hər kəs üçün mühüm vətəndaşlıq vəzifəsidir. Qiyabi institutda da oxuya bilərsən. Amma uşaqlar ana çağıranda bir cavab verən olsun!

Gördüm düz deyir. Tofiqin haqqı var. Axı, körpə yaşlı uşağın yerişi, duruşu, baxışı, sözü, ədası... həmişə nəzarət altında, ananın gözü qabağında olmalıdır! Tofiq gəlini qiyabi instituta düzəltdi. İndi ananın gözü uşaqlarının yanında olur. Oxuduğu kitabları da çarpayısının qabağına yığır, bir-bir əldən çıxardır. Balalarının hər söhbəti, hər oyunu anaya, ailəyə bayramdır. Ana özü də işindən razı qalıb.

*1970*

# "XANIM QƏLƏMİ"

*Qələm köfta ki, mən şahi cahanəm,*
*Qələmzənra bə dövlət mirəsanəm...*

Farsların bu məşhur misalını yazı-pozu ilə məşğul olanların çoxu deyir və eşidir. Qələmin doğrudan da öyünməyə haqqı var. Çünki onun qüdrətini hamı görüb, inanıb.

Xanım qələmi haqqındakı söhbət bir az ayrı məna daşıyır. Özü də, necə deyərlər, təzə söhbətdir.

O gün mədəni mallar mağazasının qabağından ötəndə birdən yadıma düşdü. İçəriyə girib xahiş elədim:

– Qardaşoğlu, görürəm, sizin vitrində çox qələm, çox qələmdan, özüyazan, özüpozan, çox əlvan, gözəl mallar var. Mənə bəzək-düzək, yaraşıq lazım deyil. Mən qələmi məhz yazmaq üçün alıram. Çünki bu mənim sənətimdir. Xahiş edirəm, mənə elə bir qələm ver ki, yazmağa yarasın!

– Yoldaş filankəs, bizim bu şüşənin altında gördüklərinizin hamısı yazır. Biri mürəkkəb ilə, diyircəklə, biri rəng ilə... Sizin zövqünüz hansını istəyir, verim.

– Mənə yazan lazımdır.



– Bunların hamısı yazır.

– Yazır, bilirəm yazır, ancaq onu yazmaq məqamına gətirincə mənimki mənə dəyir. Bir qələmi qəddəyirəm, içi tökülür. Bir avtoqələmi doldururam, kostyumumu korlayır. Xülasə, yar-yoldaş yanında beş kəlmə yazmaq istəyəndə utanıram. Kiçik kağıza qol çəkmək bəzən bir problem olur. Yanımdakıların çoxu qələm çıxarıb kömək eləmək istəyir, görürsən onlar da peşman olurlar.

– Yox, peşman olmazlar, bizdə yazan, özü də yaxşı yazan qələmlər var!

– Çox xahiş edirəm o yazanlardan birini, bir yaxşısını mənə verəsiniz, qiyməti də neçə olsa, sözüm yoxdur. Halalınız olsun.

– Yoldaş filankəs, qələmimiz çoxdur. Lap neçə rəng desən, yazan qələm var. Məsələn, bu, beş rəng ilə yazan, üç rəng ilə yazan. Bu...

Mən satıcı yoldaşın əlavə izahatını dinləyəndən sonra ona başa saldım ki, mənə çox rəng lazım deyil. Bir rəng ilə yazmaq kifayətdir. Məsələ rəngdə deyil, yazının özündədir. Bir rəng ilə yazı var, daşdan keçər. Çox rəng ilə yazı olur, görürsən, hamıda ikrah doğurur.

Satıcı mənim sözümlə bir az dayandı, baxdı, baxdı, sonra qələm sərgisinə göz gəzdirdi. Mən fürsətdən faydalanıb hərifə bəzi sözlər də dedim:

– Qələm silah məqamındadır. Onu əlinə alan kimi yazmalıdır. Yoxsa, kağıza sürtürsən yazmır, nə irəli gedir, nə geri. Bərkə vuranda kağızın üstünə bir lomba ləkə salır, yazı əvəzinə sən durursan dəsmal axtarmağa. Belə qələm mənim nəyimə lazımdır, özü də bikar deyiləm, iş adamıyam, addımbaşı sil-süpür ilə məşğul olmağa vaxtım nə gəzir! Dostum, xahiş edirəm mənim bu sözlərimi sizin ustalara, məhsul buraxanlara çatdırasınız. Bu yaxınlarda hörmətli "Bakı" qəzetində də bu barədə bir yazı oxudum, bilmirəm nəzərinizə dəyib, ya yox?

– Bəli, elə bir şikayət olub, bizə dedilər.

– Qardaşımsan, mənə elə qələm ver ki, daha dəqiqədə bir təmir istəməsin, yazsın, vəssalam! Özü də əlvanlıq, rəng-filan lazım deyil, sadə qələm, yazan qələm!

Satıcı yoldaş vəziyyətin ağırlığını hiss elədi, içəri otağa keçdi, yenə qayıtdı.

– Yoldaş filankəs, – dedi, – bizdə qələmlər çoxdur. Bilmirəm, sizə hansını təklif eləyim...

Bunu dedi, kiçik yeşiyi açıb nazik, balaca, qotazlı bir qələm çıxardı.

– Bu, yaraşıqlı, sadə, özü də yazan qələmdir. Bilmirəm, xoşunuza gələr, ya yox?

– Yazan olsa, niyə gəlmir.

– Yazandır. Bunu çox xanımların sumkasında görərsiniz.

– Yazıçı xanımların xoşuna gəlibsə, böyük işdir.

– Bəli, onlar alırlar, özü də razılıq eləyirlər.

Mən söhbəti uzatmadan qələmin qiymətini soruşub piştaxtanın üstünə bir manatlıq qoydum.

Satıcı pulun artığını verdi və mənə izah elədi ki, belə qələmlərin müddəti də olur. Mexanizmində bir qüsur hiss eləyəndə, mağazaya müraciət edə bilərsiniz, biz təmiri pulsuz elətdiririk.

Bu qələmin müddət kağızına baxanda gördüm ki, səliqəli xətt ilə çap hərflərlə yazılıb:

"Xanım qələmi."

– "Xanım qələmi?"

– Bəli, bunun yaraşığına görə elə ad qoyublar.

– Yəqin bunu xanım sumkaları üçün hazırlayıblar.

– Sumkada da, cibdə də saxlamaq olur. Çox yoldaşlar bunu alır, bununla da yazırlar.

Qələmin o yan-bu yanına diqqətlə baxdım. Qabağımdakı bir kağıza da toxundurub gördüm ki, yazır, ilişmədən yazır, hərfləri inci kimi kağıza düzür.

"Xanım qələmi!"

Qələmin pulunu verib çıxandan sonra böyük bir çətinlikdən qurtulmuş kimi özümü rahat hiss etdim. "Xanım qələmi" haqqındakı söhbəti yoldaşlarımın çoxuna danışdım.

*1970*



# NƏZAKƏT

Çox yaxşı bir sözdür, gözəl də keyfiyyətdir!

Güman edirəm ki, "insanam" deyən hər bir kəsdə bu keyfiyyət olmalıdır. Hər bir kəsə, hər bir işə yanaşanda nəzakəti unutmaq lazım deyil. Bu cəhətdən elə kamil və qanacaqlı adamlar olur ki, hər addımda səni utandırır: sən oturmamış oturmur, səndən qabaq baş əyir, sənə salam verir. Salamla kifayətlənmir, dayanıb hal-əhval soruşur, uşaqların səhhəti ilə maraqlanır...

Mənim anam da çox nəzakətli, çox mərifətli qadındır. O qədər ehtiyatlıdır ki, yar-yoldaşla görüşəndə, əhvallaşanda onları aralamaq mümkün olmur. Anamı kinoya, ya teatra aparanda yolda rast gəldiyi hər tanışla yarım saat əhvalpürsanlıq eləyir. Necəsiniz, nə təhərsiniz, niyə görünmürsünüz, uşaqlar nə hallıdır?..

Mən də anamdan utanıram, söz deyə bilmirəm, kinonun da vaxtı keçir, bilet batır, ayağımın birini qoyub, birini götürürəm, gah qabağa keçirəm, gah maşın çağırıram, gah öskürürəm, gah asqırıram, anamın halına təfavüt eləmir.

– Bəsdir, adə, darıxma!

– Ana, kino başlandı.
– Qoy başlansın, eybi yoxdur.
Evimizə, adətdir, çox qonaq gəlir. Allah bərəkət versin, çaydan, çörəkdən, xörəkdən həmişə olur. Anamın bir xasiyyəti var, qonağı yedirtməmiş yola salmaz. Demirəm, hər dəfə hamıya plov verir. Hər halda bir xörək olur. Gələn qonaq da, şükür, aclıqdan gəlmir, görüşə, söhbətə gəlir, deyib-gülməyə gəlir. Durub getmək istəyəndə də anam ərk ilə qonağın qolundan tutub stula basır, danlayır:
– Nə olub, yarım saat deyil gəlmisən, hara tələsirsən, rahat otur yerində!
– Safurə xala, evdə gözləyən var.
– Gözləyən var, zəng vur, durub gəlsinlər.
– Yox, iş üçün gəliblər.
– İşdi, sözdü, nədi, qoy gəlib burda desinlər!
– Ay xala, burada deyiləsi söz deyil!
– Nə olub, yəni bizdən gizli sözünüz var? Deməli, biz də yad olduq?
Anam görür ki, qonaq tez getmək istəyir, uşaqlara qışqırır:
– Qız, xörəyi çək gətir!
– Safurə xala, Allah bol eləsin, yeyib gəlmişik!
– Yaxşı, yaxşı! Bir tikə xörək də dilinə vurmayacaqsan?
Uşaqlar tələm-tələsik xörəyi gətirib ortaya qoyurlar. Anam yazıq qonağın başının üstünü alır:
– Yeyinən!
– Vallah, aclığım yoxdur!
– Yeyəcəksən!
– Heç iştaham yoxdur!
– İştaha diş altındadır.
– Dişim də yoxdur!
– Yumşaq xörəkdir. Gül kimi badımcan dolması, buna nə diş!
– Heç boğazımdan getmir...
– Dayan, dayan!
Anam daha danışığın, nəsihətin nəticəsiz olduğunu görüb ayağa qalxır. Cərrahiyyə əməliyyatına hazırlaşmış, bıçağı əlinə götürmüş həkimlər kimi çəngəli alır, bütün bir badımcan dolmasını çəngələ keçirir, qonağın alt çənəsini ovcuna alır:



– Aç ağzını! Ağzını yaxşı aç!
Anam qonağın alt çənəsini tərpədir, yazıq qonaq bir üzü gülmək, bir üzü məcburiyyət ağzını açır. Fürsət tapan kimi anam dolmanı bütünlüklə qonağın ağzına qoyur:
– Bax, belə ha!
– Xala, ağzımda qalacaq!
– Qalmaz, çənəni tərpətsənə, canım!
– Axı, yemək istəmirəm.
– İstəməyə baxmaz!
– Vallahı, çətindir!
– Elə bil dərman yeyirsən! Həkimlərin əlinə düşmüsən, hələ indiyəcən sənə xörək yemək öyrətməyiblər?!
Mənim doğrudan da qonağa yazığım gəlir. Buna nəzakət, hörmət adı vermək əvəzinə əsəbiləşirəm. Anama acıqlanıram:
– Ay ana, məcburiyyət nə lazımdır, yemək istəyən özü yeyər də!
Anam bunu eşidən kimi mənə tərəf dönüb tünd baxır, hirslə cavab verir:
– Sən otur yerində! Siz təzə oxumuşlar mərifət, nəzakət nədi, bilmirsiniz. Quru-quru oturub qəzet sözlərini danışırsınız, noxud boyda da yeməyiniz, sərçə kimi ürəyiniz var. Ata-babalarda, rəhmətliklərdə əjdaha kimi ürək, ciyər var idi. Qonaq evdə boş oturdu nədir. Hərə bir nimçə xörəyi yeməmiş, bir kasa qatığı içməmiş, bir qarpız doğramamış ayağa durmaq nə idi!? Siz hərə bir armudu stəkan çay ilə qonaqlıq yola verirsiniz, bu nədir? Buna siz nəzakət, mərifət-filan deyirsiniz? Sizə dərs verən müəllimləri danlamaq lazımdır. Quş xörəyi yeyənin ürəyi də quş ürəyi olar, bala! Bilin, agah olun!

*1970*

# GÜLZAR HAQQINDA

Bu ad ilə çağırılan yerlərdə gülzar, ancaq yalnız gül olmur. Doğrudur, gül deyəndə əsasən qızılgül nəzərdə tutulur. Amma burada cürbəcür güllər, çiçəklər olur. Buraya gedəndə insan ətirdən məst olur. Bu ətirlər yalnız qızılgüldən deyil, təbiətdə mövcud olan çox güldən, çiçəkdən gəlir.

Gülzarın bir əsl həqiqi, bir də məcazi mənası var ki, bunu sənət, ədəbiyyat xadimləri yaxşı bilir, yerində də qiymətləndirirlər.

Çox yerdə ədəbiyyat gülzarından söhbət getdiyini yəqin eşidib, görmüsünüz.

Bu, çox qiymətli, məşhur, həm də ümumi bir gülzardır. Burada hər gülün öz mövqeyi, əhəmiyyəti, mənası vardır.

Bu güllərin heç biri artıq deyildir. Zanbaq, nərgiz, gülxətmi, lalə, nilufər, gəlingülüşü, bənövşə, yarpız. Bunlar hamısı bir-birinə artıqlıq eləmir, mane olmur. Əksinə, bir-birini tənzim edir, yaraşıq verirlər. Gözəlliyi, mənəvi həyatın hüsnünü artırır.

Sənət, ədəbiyyat aləmində şairlər, ədiblər də belədir! Ədəbiyyat, sənət gülzarının hüsnü də belədir...



Bu sənətkarların birinin adı çəkildimi, çoxları yada düşür. Bunların biri o birilərini də çağırır, rayihəsini xatırladır.

Böyük ədibimiz Haqverdiyevin hekayələri şirin yumoru, gülüş rəngi, əlvan məişət lövhələri, duzlu kəlam ifadələri ilə gözəldir.

Seyid Hüseynin hekayələri isə səliqəli-təmiz təsviri, həzin lirikası, didaktikası, ədəb, mərifət təbliği ilə seçilir.

Hər iki ədibin oxucusu, xiridarı, sevəni, axtaranı həmişə, hər yerdə var. Bu sənətkarları yanaşdıranda bir-birinə qarşı qoymaq yox, hər ikisinin xüsusiyyətini qabartmaq, daha əyani göstərmək lazımdır. Sənət gülzarına daha diqqətlə, daha ehtiyat və qayğı ilə, həqiqət, məlahət günəşinin parlaq şüaları altında tamaşa etmək lazımdır.

Böyük muzeylərə, sərgilərə, tamaşaya gedəndə yəqin fikir vermisiniz, hər paltarla, hər başmaqla içəri buraxmırlar. Sənət əsərinə əl vurmağa da icazə vermirlər. Çünki tamaşaya qoyulan sənət abidələri yalnız sənin üçün yox, hamı üçün qoyulur. Xalq malı kimi qorunur. İllər, qərinələr, əsrlər boyu ehtiyatla qorunur. Bu belə də olmalıdır.

Ola bilər ki, tamaşaya qoyulan abidələrin biri sənə, biri mənə daha artıq xoş gəlir. Birini sən, birini mən daha çox sevirik. Buna hamının haqqı var. Amma birini o birinə qarşı qoymaq, burunlamaq olmaz! Gülzarın xiridarları ümumi gülzara məhz gülzar kimi baxıb qiymət verirlər...

C.Cabbarlı, H.Cavid, S.Vurğun – bunları yanaşdırıb müqayisə etmək olar və hər birinin hüsnünə afərin demək olar. Amma birini o birindən üstün tutmaq, birinin üstünə işıq, birinin üstünə kölgə salmaq olmaz!

Gülzarı həmişə həqiqət, sənət günəşinin şəfəqləri ilə işıqlandırmaq lazımdır.

Var olsun sənət, ədəbiyyat gülzarı, xalqımızın zəngin əsəri, əbədi mənəvi sərvəti!..

*1970*

# BAKI GÜNƏŞİ

Üzünə zər ləpələr səpilmiş dəniz sərin səhər səmasının altında ipək parça kimi ehmalca ləngər vururdu. Sularda çimib çıxan Günəş qızıl güldan kimi fəzaya qalxırdı. Deyəsən, onu altun dəstək ilə sudan qaldırırdılar. Bəlkə də dəstək deyil, Günəşi qüdrətli bir fəhlə biləyi göyə qaldırırdı, kainatı parlatmaq üçün.

Deyəsən, indi günorta yerindən aləmə od tökən, gözlər qamaşdıran qızmar yay günəşi yox, yenicə çimib, çalxanıb sulardan çıxan gənc və nurani bir pəhləvan idi, onun polad kimi odlu çöhrəsi get-gedə ağarmağa, rəngini dəyişməyə başlayırdı.

Günəş bu gün hamıdan tez oyanmışdı. Tez oyanmışdı ki, balaları, bütün gecəni məktəb-məktəb deyə intizar çəkən, nigaran yatan balaları dərsə oyatsın. Bu səhər tezdən oyanan təkcə balalar deyil, cavan atalar, analar, müəllimlər də tez qalxmış, birinci gün məktəbə ayaq açan uşaqlarının sevinc-intizarını böyük bir təlaşla arzulayırdılar.

Nəzakət yuxudan qalxanda üfüqlər hələ aydın açılmamışdı. Uşaq axşamdan hazırladığı kitab-dəftər dolu çantasını əlinə alanda, bir neçə



dəfə ağır-yüngül edib yoxlayanda Qüdrəti səslədi:

– Ata, məktəbin vaxtı keçər, uşaqlar hamısı gələr ha.

Qüdrət intizar çəkən balasının başını tumarladı, tez qalxıb mətbəxə keçdi, çay hazırladı. Alaqaranlıqda sakit, mehriban süfrə başında Qüdrət ilə Nəzakəti qabaq-qabağa əyləşmiş görənlər güman edərdilər ki, həmin qız uşağı bu evdə əziz qonaqdır. Kişi hər dəqiqə ona ehtiram etməyə çalışırdı.

Doğrudan da Nəzakət nisgilli uşaq idi. Neçə ay əvvəl anası vəfat etmişdi, nigaran gözlərini həyata yumanda yalnız yeganə uşağının adını çəkə bilmişdi:

– Naza...

Qüdrət qızının əlindən tutub məktəb həyatinə gətirəndə orada ayrı bir aləm gördü. Deyərdim bütün şəhərin uşaqları əlvan libasda böyük bir bayrama toplaşmışdılar. Məktəbin ilk şagirdləri hamıdan əziz qonaq kimi cərgə ilə düzülmüş, səliqəli, təmiz, yaraşıqlı, təzə otaqlara yollanırdılar. Müəllimlər fərəhlə ilk məktəbliləri seyr edirdilər.

Ulduz müəllimə Nəzakətin əlindən tutub yoldaşlarının yanına gətirdi, sıralarda hər uşağa yer göstərib əyləşdirdi. Nəzakət güman etməzdi ki, məktəbdə onu tanımayanlar arasında Ulduz müəllimə kimi mehriban bir ana şirin dil ilə onu qarşılayıb yer göstərəcək, kefini soruşacaqdır. Sağa dönəndə bir, sola dönəndə bir, qabaqda, arxada bütün qonşu uşaqlarını görəndə Nəzakətin ürəyi bahar görmüş yarpaq kimi açıldı. Sıxıntı çəkmədi, çəkinmədi, uşaqlar ilə dilləşməyə, kəlmə kəsməyə başladı. Balalardan hər biri öz sevincini yoldaşlarına danışmaq istəyirdi.

Müəllimənin bütün sinfi əhatə edən mehriban səsi eşidildi:

– Əziz balalar, siz məktəbə xoş gəlmisiniz. Siz bu gündən başlayıb əlifba oxumaq, yazmaq öyrənəcəksiniz, dərs oxuyacaqsınız. Əyləşin, diqqətlə qulaq asın.

Nəzakət ətrafına baxır, yoldaşlarını bir-bir süzdükcə öz libasını, düymələrini yoxlayır, çantasını gah sol, gah sağ yanına qoyur, gah dəftər-kitabı, gah qələm göstərir, ilk kitabını qaldırıb yoldaşlarının diqqətini cəlb edirdi. Müəllimə dillənəndə uşaqlar susdular. Müəllimə hər şeyi izah edirdi: bu, məktəbin həyəti, ora müəllimlər otağı, oyankı uşaq-

ların idman meydançası, bu, məktəb saatıdır. Bu, dərslərarası vurulan zəngdir. Qırx beş dəqiqədən bir dərsdən sonra uşaqları tənəffüsə çağırır...

Nəzakət məktəb ilə, məktəblilərlə tanış olduqca ürəyini dolduran şirin arzuları açıb bir-bir yoldaşlarına danışmaq istəyirdi:

– Mən Lenin babanı görmüşəm. Babam Bayılda fəhlə olanda Leninin yanına gedib, salam aparıb. Nənəm də Leninə xalça toxuyub. O xalçanı kinoda göstərirlər. Hökumət bizə təyyarə verib. Pionerlər böyüyəndə göylərə – Aya, ulduza uçacaqlar. Mən də uçacağam.

Müəllimə uşaqların hamısından kitab gətirib-gətirmədiklərini soruşdu. Birinci səhifəni açdırdı, kitabda rəhbərin şəklinə hamı baxırdı.

– Lenin bizim babamızdır, Lenin bizim böyük müəllimimizdir, bütün dünya fəhlələrinin rəhbəridir. Biz onun vəsiyyətlərini heç vaxt unutmayacağıq.

– Oxumaq, oxumaq, oxumaq!

Uşaqlar səs-səsə verib rəhbərin əziz sözlərini bir ağızdan təkrar etdilər.

– Oxumaq, oxumaq, oxumaq!

*1971*



# GÜNAH KİMDƏDİR?

– Mən ədəbiyyatın, şəxsən sizin oxucularınızdanam. Yaxşı bilirəm ki, siz tanınmış, hörmət sahibi, müasir mədəniyyət xadimisiniz. Gözünüzün önündə köhnə, cəhalət timsalı bir şəxsiyyətin cinayəti tüğyan edirsə, buna etinasız, biganə münasibət bəsləyə bilərsinizmi? Belə bir vəziyyətə necə qiymət verər, nə ad qoya bilərsiniz? Xahiş edirəm deyəsiniz!..

Mən hərifin bu gözlənilməz sualına birdən-birə cavab vermədim:

– Əzizim, – dedim, – belə mürəkkəb məsələləri ayaqüstü həll etməyə çalışmaq, adamı yanlış yola salar. Buyurun, bizim sakit sinif otaqlarından birində oturaq, arxayın danışaq. Sizin sualınızı da ətraflı təhlil edək. Görək nə məsələdir, nə cəhalət, nə tüğyan, nə etinasızlıqdır?!

Oxucu mənim cavabımdan məyus olsa da, etiraz etmədi.

– Nə eybi var, razıyam!

Bunu dedi, ərklə qolumdan tutub məni məktəbə, sinif otağına çəkdi. Paltomu soyundurub papağımı asdı, mənə yer göstərdi:

– Buyurun, əyləşin, indi danışmaq olar.

Mən də müsahibimin qarşısında hazırcavab, vacib bir mətləbə müntəzir kimi oturdum. Oturdum, ancaq bir söz danışmaq qəsdi ilə yox, oxucunu dinləmək, söhbətin təfsilatını bilmək üçün oturdum.

Oxucu da bunu hiss etdi. Ciddiyyətini toplayaraq, daha aramla, səbirlə söhbətini sanki təzədən başladı:

– Bağışlayın, hörmətli filankəs, mənim sizə şikayət təriqilə açdığım bu söhbət bəlkə də başqa yerdə, şəraitdə deyilsə, inanmazlar. Siz özünüz də inanmazsınız. Bu, inkişaf, mədəniyyət əsrimizin son yarısında, bütün ictimai düyünlərin sürətlə, dalbadal açıldığı illərdə azad bir məhəbbət yoluna belə bir daş, ağır sədd qoymağın, elə əngəl düzəltməyin kimə, nəyə lazım, necə qiymət vermək lazım olduğunu mən məhz sizdən, sizin kimi mötəbər bir qələm sahibindən, ictimai mətləbləri araşdıran, həll edən yoldaşdan soruşmağa cəsarət etdim. Gümandayam ki, siz mənə mümkün köməyinizi əsirgəməzsiniz! Bu kömək mənim xahişimdirsə, sizin də borcunuzdur, mədəniyyət borcu, vətəndaşlıq borcu!

Oxucu şikayətini bir az da təkidlə, inadla deyirdi, sözünü qurtarandan sonra həyəcanlı bir intizarla üzümə, üzümə yox, lap gözlərimin içinə baxırdı:

– Zənnimcə, köməyinizi əsirgəmiyəcəksiniz!

Oxucu yoldaş sözünü təkidlə deyib inadla baxırdı. Ancaq məsləhət istəyən adam kimi yox, qəflətən yaxaladığı, ağır böhtanlarla divara qısnadığı bir müqəssirin üzünə baxan kimi baxırdı. Onun baxışları davamlı, kəsərli, intizarlı idi. O, məni istintaqa çağıran bir hakim kimi divara qısnamışdı, cavabımı isə gözləmirdi, aramsız danışırdı.

Mən də onun həyəcandan qızarmış çöhrəsinə, geniş açılmış gözlərinə, qığılcımlar oynayan bəbəklərinə diqqət yetirirdim.

Bizim vəziyyətimizi kənardan görən olsaydı, iki düşmənin qabaqlaşdığını, bu saat bir çarpışma baş verəcəyini güman edərdi. Nə məndə, nə müsahibimdə silah vardı. Ancaq bizim tək bir otaqda qabaq-qabağa, ciddi dayanıb baxışdığımızı görənlər, kəskin bir ixtilafın zirvəsini dərk edərdi.

Doğrudur, mən qoyulan məsələnin bir təhlükə ilə bağlı olduğunu, lakin şəxsən mənimlə əlaqəli olmadığını yəqin bilirdim. Lakin harifin baxışı, danışığı sanki məni təlqin eləmişdi. Ürəyimdə cavab axtarırdım:



– Adınızı da bilmirəm, yoldaş...

– Adım Rəşiddir.

– Adın nədir, Rəşid, birini de, birini eşit! Yoldaş Rəşid, nədənsə siz çox təsirlənmisiniz. Bəlkə qəlbinizə dəyiblər. İndiki mütərəqqi cəmiyyət, əlbət ki, mürəkkəbdir, əlvandır. Arzuladığına nail olmaq üçün, Qorki demişkən, mübarizə lazımdır. Bunsuz heç bir şey əldə eləmək olmur. Sizə mane olan qüvvələrin kimdən, nədən ibarət olduğunu, təəssüf ki, bilmirəm...

Müsahibim görüşlərimdəki namüəyyənliyi, münasibətimdəki yumşaqlığı, şikayətimdəki mücərrədliyi dərk etmiş kimi, bir az da yaxın oturub, dediklərinə əlavə etdi:

– Müəllim, – dedi, – açığı budur ki, məni bağışlayın, üzlülük edirəm, səmimi məhəbbət bağladığım sevgilimi – əmim qızını indi mənə vermək istəmirlər. Əsl məsələ budur. Doğma əmim qızı ilə aramızdakı atəşin məhəbbətə, səmimi sevgiyə bir kömək əvəzinə aşkar sədd çəkirlər!

– Bu maneənin səbəbi nədir?

– Heç nə! Bir səbəbi yoxdur. İndi əlac ona qalıb ki, Səadətlə köçüb başqa bir şəhərə gedək. Uzaq yerdə yaşayaq. Gözdən uzaq, könüldən iraq! Bədxahlardan yaxamız qurtarsın.

– Buna valideynləriniz necə baxar?

– Onlardan soruşmaq lazım deyil, sonra bilərlər.

Rəşidin izahından məlum idi ki, qızın valideyni bu işə razı deyil. Cavanlar, görünür, qət etmişlər, heç bir maneəyə fikir vermədən evlənəcəklər!

Başqa bir deyəcəyim qalmadı:

– Mübarək olsun!

Belə bir xeyir işə başqa aqibət arzulamaq nalayiq olardı. Ancaq bu xoş arzu ilə müsahibimin yarası sağalmazdı. O, məndən kömək istəyirdi və bəlkə, məhz bu məqsəd üçün gəlmişdi.

– Yoldaş Rəşid, bu xeyir işə mane olanları gərək mənə tanıdasınız. Onlarla arxayın oturub danışmaq, başlarına ağıl qoymaq lazım olacaq!

Mənim qənaətim Rəşidin xoşuna gəldi. Bayaqdan bəri çöhrəsində qaralan müəmma ipək düyünü kimi açıldı, rənginə aydınlıq gəldi. Bu vəziyyət mənə də ruh verdi. Tanımadığım gəncin qəlbinə təsəlli ola bilən daha bir neçə xoş söz deməyi lazım bildim:

– Mütləq lazımdır, dumanlı başlara işıq verməkl Axı, bu nə zamandır! Bəşəriyyət milyon-milyon axışıb kommunizmə getdiyi, mərd igidlər fəza sirlərini açdığı, həkimlər ürəkləri təzələdiyi bir əsrdə məhəbbətə zəncir vurmaq olarmı? Bu nə boş iddia, nə xam xəyaldır!

Rəşidin rəngi lap duruldu, gözləri güldü. Qolumdan yapışıb dedi:

– Yoldaş filankəs. Bu vacib sözləri mənim atama, Səadətin atasına desəniz, nə yaxşı olardı. Onlar sizin məsləhətinizi eşitməmiş olmazlar! Onlar sizə inanarlar!

– Verin onların ünvanını, günü sabah qapılarına gedərəm! Gedərəm, ya da onları lazımi yerinə çağıraram.

Mən qələm-dəftər çıxarıb ünvanı yazdım.

– Yoldaş filankəs, xahiş edirəm, nə mənim, nə Səadətin adı tutulsun. Bizim adımız olmasın. Guya siz bu əhvalatı kənardan eşidib təsirlənmisiniz. Bir ədib, bir vətəndaş borcu kimi məhz xeyir işə rəvac verirsiniz! Vermək istəyirsiniz. Bax, bu cür!

■ ■ ■

Mən Səadətin atasını təmir emalatxanasında, radio cihazlarını yoxlayan yerdə tutdum:

– Usta, – dedim, – sizinlə xüsusi söhbətim var, bəlkə macal tapasınız?

Usta əlindəki burğacı yerə qoyub, qapıya çıxdı:

– Buyurun, nə məsələdir?

– Buyurmağım yox, məsləhətə gəlmişəm. Sizin balaların taleyi ilə bağlı məsələdir.

Usta bunu eşitcək özünü yığışdırdı, iş paltarından utanan kimi, ətəklərini silkələdi, yaxalığını düzəltdi:

– Sizi dinləyirəm, – dedi.



– Səadətlə Rəşidin xeyir işinə mane olan nədir?

– Nə eşidibsiniz, necə eşidibsiniz, bilmirəm, ancaq qabaqcadan deyim ki, baş tutan iş deyil!

Mən təəccüblə soruşdum:

– Nə üçün? İki ləyaqətli müasir gəncin məhəbbətinə kim mane ola bilər? Nə haqq ilə?

– Bunun səbəbini danışa bilməyəcəyəm. Nə Rəşid üçün dünyada qız əskikdir, nə Səadətə oğlan! Hər ikisi bizim əzizimiz, övladımızdır. Günü sabah, kimi desələr, qabağa düşüb elçilik eləmək bizim borcumuzdur. Ancaq onların izdivacı baş tutan iş deyil. Bu barədə üz vurmayın, xahiş edirəm.

Usta sözünün axırını xüsusi ahənglə dedi və şəhadət barmağı ilə qarşısındakı stola nöqtə qoydu:

– Burada nöqtə!

Usta sözünü qət edib masaya sarı döndü, burğacı götürüb cihazla məşğul olmağa başladı:

– Məni intizarda qoydunuz.

– İntizar yox, axır sözümü sizə dedim!

– Mən ümidlə gəlmişdim. Hər qapıya da getmərəm, bilirsiniz!

– Ayrı nə qulluq olsa, baş üstə, hazıram. Bu barədə üzürlü sayın!

– Məni çox intizarda qoydunuz.

Ustanın qəti cavabı məni məəttəl qoymuşdu, Rəşidə nə deyəcəyimi bilmirdim.

Bir qədər gözləməyi, münasib vaxt axtarmağı, sonra müraciət etməyi məsləhət gördüm. Bu xeyir işdə hələ ki, məni tələsdirən də yox idi.

■ ■ ■

On beş-iyirmi gün sonra, payızın yağışlı günlərindən birində Rəşidə Qutqaşen rayonunda rast gəldim:

– Salam, ay Rəşid, xeyir ola, sən hara, bura hara!?

– Əleykəssalam, xeyirdir, inşallah, müəllim! Məhəbbət məni sevdaya salıb, Sənan kimi dağa çıxmışam:

*Füzuli dərd əlindən dağa çıxdı,*
*Dedilər, bəxtəvər yaylağa çıxdı!*

Səmimi məhəbbətdən xeyir nə ola bilər! Ancaq nə edəsən ki, düyünə düşüb!

Rəşidin sözü mənə, mənim yalan vədimə işarə idi:

– Rəşid, bağışla, sənin yanında yalançı çıxmışam, Səadətin atası ilə əməlli-başlı görüşə, məsləhətləşə bilməmişəm!

Rəşid gülümsündü, mənə muştuluq verən kimi əlavə etdi:

– Görünür, bu işlərdə məsləhət, məşvərət yox, qəti hərəkət lazımdır. Biz Səadətlə o yolu tutmalı olduq. Köçəri quşlar kimi uçub buralara gəlmişik!

– Mübarək olsun, yəqin burada vəzifəyə gəlmisiniz?

– Bir vəzifə yoxdur, raykomdan xahiş eləmək istəyirik.

Rəşidin inşaat institutunu bitirdiyini, yol mühəndisi olduğunu eşitmişdim. Soruşdum:

– Harda mənzil eləmisiniz? Yoxsa ev tutmusunuz?

– Ev-zad yoxdur, hələlik mehmanxanada sizinlə qonşuyuq!

Bu halda mehmanxana işçisi gəlib məni kənara çağırdı, acizanə xahiş elədi:

– Müəllim, şəhərdən iki cavan bir-birinə qoşulub gəlib, sizin nömrə ilə qonşudurlar. Mehmanxana müdiri başqa nömrəyə köçməyinizi xahiş edir, daha yaxşı nömrələr var. Aşağı qatda sizə rahat yer verə bilərik. Qoy cavanlar sıxılmasınlar, sərbəst olsunlar. Xüsusən sizin burada olduğunuzu biləndə çox utanıb-xəcalət çəkirlər.

Mən cavanlara mane olmaq istəmədim, razılıq verdim. Rəşidin yanına qayıtdım. Soruşmaq istəyirdim ki, burada nə işdə işləmək niyyətindədir, özü izah etdi:

– Bu rayonlarda avtomobil nəqliyyatı çoxalıb, ümumdövlət təsərrüfatı əhəmiyyəti kəsb edib. Yollar isə çox yerdə bərbaddır. Nuh əyyamından qalmadır, münasib deyil, güman edirəm ki, doğma ixtisasımdır. Bu işdə rayona, yoldaşlara köməyim dəyər.

– Rayonda belə ixtisasa böyük ehtiyac var, ispalkom özü sevinər.

Səadət haqqında, onun işə düzələcəyini soruşmaq haqqında da



düşündüm. Ancaq Rəşid dayanmadı, mehmanxanaya tərəf yönəldi.

Axşam öz nömrəmə qayıdanda qapıda Səadətin atasına, mexanikə rast gəldim, təəccüb elədim: "Bu kişi burada nə gəzir?"

Sən demə, kişi tələm-tələsik işini buraxıb, cavanların dalınca gəlmişdi. Məni görəndə halı dəyişdi. Bu işdə mənim iştirakımı yəqin etdi, buna görə yarıhirs, yarınəzakətlə müraciət etdi:

– Müəllim, ayıb olmasın, bizim cavanların ailədən uzaq düşməyinə dil verən siz olmamısınız?

Ustanın sualı mənim üçün gözlənilməz idi:

– Siz nahaq belə fikrə düşürsünüz! Mən bu əhvalatı sizdən eşidirəm və ancaq indi eşidirəm.

– El məsəlidir, ayıb da olsa, kəndçinin sözü olmasın, güman bir yana, iman yüz yana gedər, deyiblər!

– Yaxşı olar, bu əhvalatı danışasınız, görüm cavanların işi nə yerdədir, sizə niyə belə zəhmət veriblər?

Bu sual gözlənilməz oldu. Kişinin sifətini qəm-qüssə bürüdü.

– Danışmaqdan keçib, uşaqlar çox səfeh iş tutublar, axırı xeyir olsun!

– Xeyir olar, xeyir olmamış nə olacaq. Bir qız bir oğlanındır. Barışın, qurtarsın getsin!

– Elə deməyin, anası başını yolur!

– Rəşid ağıllı, ləyaqətli oğlandır, əlində gül kimi sənəti, diplomu!

– Heç nə gözümə görünmür, rüsvay olmuşuq! Uşaqlar bizi başıaşağı elədilər!

Mən Rəşidin xeyir işinə kömək eləmək istədim:

– Ay sağolmuş, indi ayrı zəmanədir. Cavanlar valideyn məsləhətilə yox, qəlbin səmimi çağırışı, şəxsi iradələrinin hökmü ilə hərəkət edirlər. Burada bir qanunsuzluq da görmürəm...

Kişi sözümün dalısına qulaq asmadı:

– Elə deməyin, el yaxşı deyib: "Birini bilirsən, birini bilmirsən." İnsan, övlad sahibi min arzu-kam ilə yaşayır. El adətini ayaqlamaq olmaz!..

Kişi bunu dedi, məndən üz döndərdi.

Mən Rəşidin xeyir işini gözləyə bilmədim. Sabahısı günü Bakıya

qayıtdım.

Güman edirdim ki, valideynin cəhdi, təlaşı olsa da, cavanlar arzularına çatacaqlar.

Ancaq elə olmadı. Bu müəmmalı məhəbbətin təfsilatını mənə sonradan ətraflı danışdılar. "Birini bilirsən, birini bilmirsən!" Texnik kişinin bu sözündə xüsusi məna varmış. Nə yolla olduğunu deyə bilmərəm. Xahiş yolu iləmi, təhdid, danlaq, ya vəd yolu iləmi, o cavanları razı salıb təcili Bakıya qaytara bilmişdi.

Şəhərdə bu maraqlı əhvalatı çox danışır, götür-qoy edirdilər. Əhvalat özü də adi deyil, nadir və sirli idi.

İllərdən bəri böyük bir zəhmət və səylə qorunan, gizli saxlanan bir macəra birdən-birə açılıb aşkara çıxmışdı. Həm camaatı, həm cavanları, həm də bu işlə əlaqədar olan rəsmi adamları heyran qoymuşdu.

Rəşidlə Səadət, öz düşündükləri kimi, əmioğlu-əmiqızı deyil, sən demə, doğma bacı-qardaşdırlar! Oğlan da, qız da radiotexnikin uşaqları, doğma qardaş-bacı imişlər!

Eşidənlər heyran qalır, inanmaq istəmirdilər. İşin əslini, həqiqəti ata-ana bilirdi, ancaq gizlədirdilər. Xeyirxah bir niyyət üçün gizlədirdilər.

Texnikin Mübarək adlı bir kiçik qardaşı vardı. Böyük qardaşının dalbadal ildə bir oğlu doğulur, kiçik qardaşının isə övladı olmurdu. Dörd ildi ki, ər-arvad həkimlərin müalicəsində, dava-dərmanda idilər. Əlac axtarır, adam, yer qalmırdı məsləhətə getməsinlər.

Nəhayət, texniklə Həqiqət xanım öz aralarında danışıb məsləhətləşdilər ki, oğlanlarının birini Mübarəkə versinlər, lap körpə vaxtından Rəşidin adını ev dəftərindən çıxarsınlar! Kimsəyə də bildirməsinlər.

Bu təklifə Mübarək də, arvadı da şadlıqla razı oldular. Böyük təşəkkürlə uşağı oğulluğa qəbul edib, adını ev dəftərinə saldılar. Rəşidi bacardıqları kimi, firavan, naz-nemətlə böyütməyə başladılar. Hər iki tərəfin razılığı ilə uşaq böyüyür, Mübarəkin evində qol-qanadlanır, ayaq tutub gəzirdi.

Bu hadisədən bir xeyli keçmiş dörd oğul atası radio ustasının bir qız uşağı oldu. Həqiqət xanım yeganə qızına, dörd qardaş bacısına Səadət adı qoyub, onu oğlanlarından artıq əzizləməyə, naz-nemətlə böyütməyə başladı.



Qardaşlar ərköyün bacını – Səadəti bir bacı deyə çağırır, minbir şirin dillə dindirir, əzizləyirdilər. Qızın guya, "əmisi oğlu" Rəşidin də Səadətə meyli qardaşlarından geri qalmırdı. Uşaqlar hər ikisi eyni məktəbdə oxuyur, eyni mühitdə böyüyür, eyni nəvazişlə bəslənir, gün-gündən artan ünsiyyət, məhəbbətlə bir-birinə bağlanırdılar.

Həyat, güzəran qayğısı ustanın da, Mübarəkin də başını qatmışdı. Uşaqlar ilbəil sinifdən-sinfə keçir, məktəbdə böyüyür, bir-birinin halına, xasiyyətinə, rəftarına bələd olur, ülfət bağlayırlar...

Qız on beş, oğlan on səkkiz yaşına çatanda, qız səkkizinci, oğlan onuncu sinfə keçəndə aralarındakı ünsiyyət, əmioğlu-əmiqızı ehtiramı daha da səmimiləşməyə, məhrəmliyə, ürək sirdaşlığına çevrilməyə başladı. Rəşid Səadəti, Səadət Rəşidi bir gün görməyəndə, balasını itirmiş ceyran kimi az qala mələşirdilər.

Hər iki gəncin qəlbində doğulub böyüyən, müəyyənləşməkdə olan bakir hiss və ehtiraslar səda-sədaya verməyə, çağırışmağa başladı: Səadət! Rəşid!

Rəşid! Səadət!

Məhəbbətin gözü kor, başı isti, üzü bərk olar demişlər.

Rəşiddən soruşan olsaydı ki, tanıdığın qızlardan xoşuna gələn kimdir, hansını çox sevirsən? O, bu suala çox asanlıqla, bir az da hirslə cavab verib deyərdi:

– Mənim qızlar karvanında gözüm yoxdur, əmim qızı Səadətin məhəbbəti mənim bəsimdir. Qalanlar, qoy istəyənlərə qismət olsun. Mənim heç kəsdə gözüm yoxdur. Hər adamın bir taleyi, bir ulduzu var!

Doğrudur, Rəşid bu tezliklə, ali məktəbi qurtarmamış, bir ləyaqətli ixtisas qazanmamış evlənmək qəsdində deyildi və tez evlənən cavanlardan da xoşu gəlməzdi. Amma Səadət haqqındakı, gələcək xoş niyyətləri də müəyyən idi. Nə qızın özünə, nə valideyninə, nə yoldaşlarına bu barədə bir söz deməsə, sirr açmasa da, qəlbinin ən dərin guşəsində Səadət sözünü iri, qızıl hərflərlə səliqəli yazıb vacib dərs proqramı kimi təkrarlayırdı.

Ona elə gəlirdi ki, atası da, Həqiqət xanım da Səadəti məhz onun üçün böyüdür, bu gözəl qızın tərbiyə-təhsilinə ayrı cür səy göstərirlər!

Rəşid onu da görməmiş deyildi ki, əmisi Səadəti oğlanlarının hər birindən çox istəyir, onu daha şux, daha zəngin libaslarla məktəbə yola salır, onun adını hamıdan qabaq çəkib, kefini tez-tez soruşurdu:

– Qızım Səadətin kefi necədir?

Həqiqət xanım da, texnik kişi də qızlarından kef-əhval soruşanda bəlkə də qəsdən ucadan səslənir, Rəşidin qulağına çatdırmaq üçün xüsusi ahənglə təkrar edirdilər:

– Səadət, kefin necədir, yaxşısanmı, qızım?

Bu xoş sözləri ana deyib ata təkrar edir, ata deyib ana təkrar edirdi. Bunları Rəşid həyəcansız eşidə bilmirdi. Xüsusən qız dillənəndə, ata-anasının sualına baş qaldırıb ala gözləri ilə dik baxanda, kəklik kimi nazla yeriyib cüt hörüklərini enli kürəyində tərpədəndə razılığını ifadə edib: – "Çox sağ olun!" – deyəndə sanki Rəşidi çağırırdı. Bəlkə də ürəyindən keçirdi, sükutla Rəşidə xitab edib gileylərini izhar edirdi: "Haçan görəcəyəm, haçan eşidəcəyəm ki, o igid əmioğlumun şirin dilindən bu xoş suallar çıxsın: "Səadət, əzizim, kefin necədir?"

Səadətin bunu ummağa haqqı vardı. Çünki o, bakir qəlbinin an-baan duyulan, get-gedə güclənən, sinəsini qabardan həyəcanlarını, gənc ürəyinin kaman simi kimi zərif tellərində səslənən titrəyişləri dərk edirdi. Məhəbbət onu tutmuşdu, yaman tutmuşdu.

Eyni əhval-ruhiyyəni, demək olar ki, Rəşid də keçirirdi. Doğrudur, röyalarda, xəyal aləmində keçirir, dilinə gətirmir, dəftərinə yazmır, yoldaşlarından, sirdaşlarından gizlədirdi. Ancaq özündən, qəlb aləmindən gizlədə bilmirdi.

Bir də görərdin saat ikidə, yuxarı siniflər məşğələdən çıxanda, qızlar dəstə ilə evlərinə yollananda ucaboy, enlikürək, qıvrımsaç bir oğlan funikulyor yolunun başında əfsanəvi pəhləvan Bəhramın qarşısında dayanıb sanki həsbi-hal edir. Qızlar karvanının başı açılanda, cavanların şaqraq gülüşləri eşidiləndə də məhəl qoymur, gözünün ucu ilə də baxmır, baxmaq istəmir.

Ancaq qızların biri ya qəsdən, ya sadəliklə işarə edəndə:

– Səadət! Qız, əmioğlun dayanıb, Bəhram şahla söhbət edir, deyəsən, bir bax!

Səadət adını eşidəndə Rəşid cərəyan vurmuş kimi cəld dönər, sevgilisinin həyəcanlı baxışlarını salamlardı.



Belə anları nə Rəşid, nə Səadət unuda bilirdi. Hər ikisi vurğun kimi dayanıb bir-birinə baxır, nitqdən lal olur, dilə gətirməyə nadir kəlmə axtarırdılar.

*Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,*
*Kölgə tək bir yerdə durmağa qərarım qalmadı!*

Böyük şairin bu məhəbbət kəlamı ürəklərdə səslənərdi, bilinməzdi ki, bunu kim dilinə gətirdi: oğlanmı, qızmı?

– Qızlara salam!

– Tamaşaya durmusunuz!

Rəşidin göl başında dayanmağına nə tamaşa, nə həsbi-hal demək olardı. Bu, ancaq həyəcanlı intizar, Səadətin intizarı idi. Dayandığı dəqiqələrdə də görərdin pəsdən mahnı oxuyur:

*Bu dünyada daş daşıdım, qəmim dolmadı,*
*Gənc yaşımda bir qız sevdim, mənim olmadı!..*

O illərdə, sevənlər arasında dəb düşən bu səmimi mahnını çox yerdə, çox cavanlar çox ürəkdən oxuyurdu. Bəziləri öz tərcümeyi-halı ilə, bəziləri məhəbbət macərası ilə bağlayıb oxuyurdu, ancaq Rəşidin belə kədərli nəğməni təkrar etməyə nə əsası, nə haqqı vardı!

Ona görə oxuyurdu ki, Səadəti görəndə, əmiqızının adı çəkiləndə Həqiqət xanım ibadətə dayanmış kimi susur, hətta, fürsət tapıb hərdən qəsdən eşitdirirdi:

– Rəşidin toyunda, özüm qabağa düşəcəyəm, Bakının handa bir professor qızlarına elçi düşəcəyəm...

Əvvəl Rəşid istədi Həqiqət xanımın sözünü qulaqardına versin:

– Əmidostu, professor qızlarını mənə peş çəkmə! Əvvəla, mənim evlənmək niyyətim yoxdur, ikinciyə qalan yerdə, məgər mən professorzad axtarıram? Atalar deməyib ki, könül sevən göyçəkdir? Sən mənim qəlbimi qaynarından niyə kənara, dağa-daşa çəkirsən?

Həqiqət xanım hiss etmişdi ki, Rəşidin qəlbinə toxunur. Bunu bil-

sə də, işarəsində bir qəbahət duymur, oğlanın qulağını doldurmaq istəyirdi. Hər vasitə ilə, hər fürsətdə Rəşidin diqqətini Səadətdən yayındırmağa, qızı unutdurmağa cəhd edirdi. Ona görə də bəzən kədərli mahnılar oğlanın yadına düşür, nakam və köməksiz bir gəncin fəryadlarını eşidən, acıyan kimi pəsdən təkrar edirdi:

*Gənc yaşımda bir yar sevdim, mənim olmadı!..*

Mahnının son sözləri ağır bir hökm kimi səslənir, arzularına zidd, ağır təəssüflərindən gələn kədərli səda kimi çıxırdı:

*Olmadı mənim, olmadı!..*

Bu son sözləri Rəşid həmişə xüsusi həsrət, ataşla deyirdi, ətrafına baxır, dinləyən görməyəndə, vay xəbəri almış kimi, şappıltı ilə dizinə döyüb təkrar edirdi:

*Olmadı, hay, olmadı, vay, olmadı!..*

Doğrudur, bu kədərli mahnını oxuyurdu, amma bir an belə Səadəti unutmurdu. Gələcək taleyini düşünəndə sanki bədxahlarına xitabla bərkdən deyirdi:

– Namərd dünya!

Bir ayağını irəli qoyub dayanır, sağ əlini qaldırıb şəhadət barmağını sanki, düşmənin gözünə güllə sıxacaqmış kimi havada silkələyirdi:

– Ya Səadətdir, ya heç kəs!

Vəssalam!

Rəşidə hey eşitdirirdilər:

– Əmiqızını almaq olmaz. Nəsil korlanar, günahdır, eyibdir.

Bunları Səadətə də eşitdirirdilər.

Ancaq Rəşidin dedikləri Səadəti hər şeydən çox məşğul edir, müttəsil düşündürürdü:

– Ya Səadət, ya heç kəs!

Vəssalam!



İndi, cavanların həyat və arzularında romantik xəyallar alovlandıqca, müəyyən rəng aldıqca texnikin ailəsində, Həqiqət xanımın niyyətlərində qayğı və gərginlik artır, kəskinləşirdi.

İnsan həyatında qayğı da, qəm-qüssə də olan şeydir. Heç kəs deyə bilməz ki, mənim günüm həmişə deyib-gülmək, toy-bayramla keçib. Doğrudur, dünyada elə nikbin, qayğısız, hərcayi, dözümlü adamlar var. Ancaq texnikin, Həqiqət xanımın ailəsində üz verən gözlənilməz, qəribə əhvalat heç bir təsəlli, heç bir səbir, dözümlə ötüşən deyildir.

Rəşidin Səadətə olan qeyri-qanuni, qeyri-təbii sevgisini rədd etmək üçün nə çarə, nə tədbir mümkünsə, görmək lazım idi. Nə valideynin məsləhəti, nə həkimlərin dediyi, nə yoldaşların arzusu, heç biri Rəşidi əzmindən döndərə bilmirdi. Əksinə, oğlan onunla bu qədər məşğul olanları, valideynin bu xeyir işə bədgüman münasibətini gördükcə daha da əsəbiləşir, atasından-anasından, əmisindən daha bərk inciyirdi. Kişilər də oğlanı əzmindən döndərmək üçün hər vasitəyə, bəhanəyə əl atır, ancaq əsl həqiqəti açıb-aşkar deyə bilmirdilər.

"Bu nə iş idi başımıza gəldi!", "Qız doğulunca bir daş doğulaydı", "Belə yerdə adamlar silaha əl atırlar da", "Allahu əkbər, əstəğfürullah, demişdim ha!"

Hər iki ailədə səssiz, "pıçhapıçla" da olsa, kədərli məsləhət, məşvərət söhbəti gedir, axırı da bir yerə çıxmırdı. Həqiqət xanım günün birində bu söhbəti cavanların tanış müəlliminə açdı, məsləhət istədi.

Müəmmanı valideynlər özləri yaratmışdılar. İndi də içindən çıxa bilmirdilər.

Həqiqət xanım tamam təbii, səmimi bir dillə oğlu Rəşidə müraciət edib deyirdi:

– A bala, bu boyda ölkədə, qız-gəlin dünyanı götürdüyü yerdə, bir-birindən gözəl, oxumuş, mühəndis, həkim, adlı-sanlı qızlar sənə göz dikdiyi yerdə, nə oldu sənin bu əmin qızı mataha döndü, heç kəs onu məsləhət görmür, sən iki ayağını bir başmağa dirəmisən, deyirsən, "budu ki, bu!" Gəl inadından əl götür, bala! Axırı yaxşı olmaz. Böyük məsləhətinə qulaq as! Ulu sözünə baxmayan ulaya-ulaya qalar, bala!

– Əmidostu, siz oxumuş, təcrübəli anasınız, gərək belə təklifi mənə etməyəsiniz! Axı qəlbə zor olmaz! Məni iradəmdən dönməyə məcbur edən ancaq bircə hökm ola bilər! Sevgilim "yox" desə, mən təslim

ola bilərəm, ayrı heç kəs, heç nə! Məhəbbətə zor olmaz, bilirsən!

Həqiqət xanım, axırda oğlanı hədələyirdi:

– Mən sənin böyüklərinlə danışam gərək!

– Kimdir mənim böyüyüm?

– Mən bilirəm kimdir!

– ...

Rəşid Həqiqət xanımın sözünə məna verə bilmədi. Bilmədi ki, "böyüklər" deyəndə Həqiqət məktəbi, komsomol təşkilatını, ya valideyni, ağsaqqalları nəzərdə tutur. Ancaq xəyalında cavab verdi ki, nə valideynin, nə komsomol böyüklərinin məni arzumdan döndərməyə gücü çatmaz. Sevgiyə nə zor!

– Əmidostu, bəlkə siz məni qızınıza, Səadətə layiq bilmirsiniz! O sizin öz işinizdir. Ancaq belə bir iddiaya Səadəti çətin inandıra bilərsiniz! Yəqin bilin ki, boş söhbətdir.

Həqiqət xanımın "böyüklər" deyib müraciət etmək istədiyi nə valideyn, nə komsomol katibi idi, onun nəzərdə tutduğu böyük, müraciət etdiyi adam Rəşidin də, Səadətin də müəllimi, cavanların hər ikisinin təhsil-tərbiyəsinə əmək sərf edən Azad müəllim idi.

Doğrudur, Azad müəllim cavanların sevgi macərasından xəbərsiz idi, ancaq hər iki gəncin müəmmalı sevgisi haqqında arada bəzən eşitmişdi, maraqlanmışdı.

Bir gün bayram məclislərindən birində Həqiqət xanıma müraciət etdi:

– Səadəti musiqi təhsilinə göndərirsinizmi, xanım?

– Özü maraqlıdır, amma görək necə olur?

– Necə olacaq, onun istedadına kim şübhə edə bilər?

– Orası elədir. İndiki cavanlar da bəzən sözə baxmırlar!

– Onu Səadətə, ümumən sizin uşaqlara demək olmaz!

– Müəllim, sizin çox nikbin niyyətiniz var!

– Məncə, elə lazımdır.

Həqiqət xanım müəllimin sözündən cürətləndi:

– Sizə deməli sözüm var, müəllim!

– Mən hazır, buyurun!

– Məktəbdə haçan macalınız olar, bir yarım saat vaxtınızı alım!

– İstirahət axşamı boşam!



– Saat ikidə, üçdə gələ bilərəmmi?

– Buyurun, müəllimlər otağında olacağam!

– Məsləhətə gələcəyəm, vaxtınız olsa!

– Buyurun, buyurun!

İstirahət axşamı müəllimlər otağında, Azad müəllimin yanında hörmətli bir məsləhət məclisi quruldu.

Azad müəllim üzünü valideynlərə tutub deyirdi:

– Mən sizin hamınızdan, atadan da, anadan da küsürəm! Buna mənim haqqım var! Bizdən tələb olunur ki, cavanları həqiqət, doğruluq, düzgünlük əsası ilə bu yolla böyüdək, tərbiyə edək. Çünki, yalan bizim cəmiyyətə yaddır! Yalan yeriməz. Siz uşaqları körpəlikdən yalana inandırmısınız, özünüzün inanmadığınız bir yalanı həqiqət adına yeritmisiniz. Ay canım, belə bir yalan kimə, nəyə lazımdır? Bilirsiniz ki, bizə yalan yaramaz!

Cavanlar böyüyəndə, yalan əsasında sevgi yoluna düşəndə, qeyri-qanuni izdivac yolu tutanda ayılıb başınıza döyürsünüz! Halbuki, bu yalana heç zaman ehtiyac yox idi. Rəşid öz doğma atasının oğlu kimi sonsuz əmisinin övladlığına keçə bilərdi, Səadətlə də belə qeyri-qanuni, qəribə məhəbbət yoluna düşməzdi. Bacı-qardaş məhəbbəti belə faciəli bir mənzərə ilə nəticələnməzdi. Kimə xoşdur ki, indi, biriniz qızı, biriniz oğlanı danlayır, hamınız cavanlardan həqiqəti gizlətmək istəyirsiniz! Vaxtı ilə qol qoyduğunuz yalanla həm balaları, həm özünüzü, həm camaatı aldatmısınız! Çox təəssüf!

Gec də olsa, həqiqəti açıb demək, cavanları başa salmaq lazımdır! Yalan bizim tərbiyəmizə, əxlaqımıza yaddır. Cəmiyyətimiz, inkişafımız ancaq həqiqət üstündə bərqərar olur. Rəşidlə Səadət bacı-qardaşdır. Burada gizli bir şey yoxdur, qoy hamı bilsin! Balalara həqiqəti uca səslə deyin! Rədd olsun yalan! Bəzək-düzək yalanı yaşatmaz!

Yaşasın həyat həqiqəti!

Gün kimi parlaq həqiqət!

Azad müəllimin sözlərini Rəşid də, Səadət də eşidirdi.

*1971*

# ON BACI

Sovet quruluşu hər şeyi dəyişdi, təzələdi. Bahar təbiəti təzələyən kimi. İnqilab! Cabbarlı demişkən, hər şeydə inqilab!

Quruluşda, həyatda, məişətdə, görüşlərdə, adətdə də inqilab!

İnqilab insanların həyata baxışı, görüşü, anlayışı, münasibətini də dəyişdi.

Kimə məlum deyil ki, inqilabdan əvvəl müsəlmanlar içində qadınlara həqarətlə, naqis bir məxluq kimi baxırdılar?

Quruluş dəyişəndə, kommunist natiqlər rayonlara, kəndlərə çıxanda təkcə kişilərə yox, həm də qadınlara, qızlara müraciətlə ucadan deyirdilər:

– Analar, bacılar, dini ehkam pərdəsinə bürünənlər, qadınlara təhqir gözüylə baxan adamlar, hökumətin də, cəmiyyətin də düşmənidir! Biz qoymarıq Azərbaycan qadınlarına təhqir gözüylə baxılsın!

*Ana müqəddəsdir, ana doğmadır,*
*Ən böyük məhəbbət yalnız onadır.*



*Yoxdursa dünyanın ucu-bucağı,*
*Hər yerdə istidir, ana qucağı!..*

Keçmişdə ananın qız doğması ailədə pərişanlıq sayılardı.

– Məsmənin nəyi oldu?

– Genə qızı oldu!

– Nə eybi var. Bəxtinə düşən paydır, eyib eləməz. Pərişan olmayın, Allaha xoş gəlməz! Adını Bəsti qoyun, gələn dəfə düzələr! Oğlan da olar!

Sovet quruluşunda ananın oğlan, ya qız doğmasına heç təfavüt qoyan yoxdur. Hətta bəlkə çox ailələr qız istəyir, qızı əzizləyir, qayğı ilə bəsləyirlər.

Köhnə adları – Bəsti, Kifayət, Qızyetər, İfrat daha qoymurlar.

Əksinə: Xoşqədəm, Sevil, Gülüş, Sevinc, Gülçöhrə, Əzizə, Güləndam qoyurlar.

Mən bir fəhlə ailəsi tanıyıram ki, ata – Ağakərim dənizçidir. Həftənin neçə günü paroxodda olur. Evə gələndə uşaqların dərsləri ilə maraqlanır. Çox vaxt başına yığır, "konsert" verir. Ananın – Xırdaxanımın tikiş maşını həmişə səslənir. Ananın ev işindən macalı olmur. Hər gün qızlarının qulluğunda durur. Uşaqlarının xırda paltarını özü tikir. "Dost var, düşmən var", – deyir. "Qız uşağının geyim-kecimi səliqəli olsun gərək! Dost başa baxır, düşmən ayağa! Qızları məktəbə yola salanda özüm baxmasam, qərarım gəlməz!"

Qızlar da analarına baxıb özlərinə diqqət yetirirlər. Uşaqların dördü darülfünunda, qalanlar institutlarda, texnikumlarda oxuyur. Biri axırıncı kursda, o biriləri aşağı kurslardadır. Bu ailənin adı qəzetlərdən düşmür. Mən özüm müəlliməm, qızların ikisi mənim sinfimdədir. Həmişə keflərini soruşuram, sonra da bacıların adlarını saydırıram:

– Onbacı, dur ayağa!

Mən Xoşqədəmə Onbacı deyirəm.

– Onbacı, dur ayağa, bacıların adlarını say görüm!

Xoşqədəm dərsə cavab verən kimi qızların adını sayır, bəzən də ortalıqda bir neçəsi yadından çıxır.

Xoşqədəmin anası dövlətdən mükafat alır, qəhrəman anadır! Dö-

şündə medal, valideynlər məclisinə girəndə hamı hörmətlə qadına kürsü çəkir, yer göstərirlər.

Xoşqədəm təhsildə əlaçı olduğuna görə elmi şura onu aspirant saxladı. Bacıların biri nəbatat, biri kimya, biri riyaziyyat elmindən ixtisas alır.

Peşə yoxdur ki, bacılar bilməsinlər. Müəllim, mühəndis, aqronom, həkim, dərzi, aşpaz, xanəndə... O da qəribədir ki, on bacı evlənəndə on bacanaq əl-ələ verib böyük, mehriban bir "qəbilə" olacaqlar.

Xırdaxanım demişkən, on qardaş kimi, bir-birinə simsar olacaqlar. Bu ailə bacılarının adını bizim küçədə tanımayan yoxdur.

Xoşqədəm, Gülbəniz, Gülçöhrə, Gülyanaq, Əzizə, Güləndam, Gültamam, Gülgəz, Gülbadam, Gülzar!

Belə qızlar, ata-analar kəndimizdə də, şəhərimizdə də çox olsun. Gümrah, salamat olsun!

*1971*



# "DAYI"

Müharibə qurtaran illərdə, komandirlik kurslarında təkmilləşməyə gedəndə yoldaşlar ilə çox görüşür, çox dilləşirdim. Moskvada, Qorki küçəsində bir ucaboy kapitan qabağımı kəsdi:

– Müəllim, xoş gördük, necəsiniz, kefiniz necədir? Şükür, yaxşısınız, elə həmən həmənsiniz, on beş il əvvəlki!

Mən cavan oğlanın üzünə baxa-baxa qaldım.

Əhvallaşmasına mülayim cavab verirdim, həm də fikirləşirdim, "harda görmüşəm bu igidi, ilahi!"

– Deyəsən, məni tanımadınız, müəllim?

– Hardansa mənə tanış gəlirsiniz, amma yadıma sala bilmirəm, keçən gündür, tələbəm olmamısınız?

– Necə tələbə, sizi çox incitmişəm, bağışlayın!

– Yadıma gəlir, orta məktəbdə.

– Mənə neçə il dərs demisiniz, dəcəl Rüstəmi tanımırsınız?

Dəcəl Rüstəm deyəndə məktəb gözümün qabağına gəldi, müəllim otağının qabağında Rüstəmi danladığım elə bil dünən idi!

– Ay Rüstəm, maşallah, marşala oxşayırsan, necə tanıyım? Daha səndə uşaqlıqdan, dəcəllikdən əsər-əlamət qalıb ki, tanıyım? Xalis komandir, döyüşçü!

Rüstəm başladı döyüş günlərindən, cəbhə epizodlarından danışmağa. Mən də onun əziz, qayğısız məktəb günlərini yadıma saldım. Özümün də gəncliyim, komsomol vaxtlarım dilə gəldi...

Bu həmən Rüstəmdi ki, nadinclik üstündə tez-tez məsələsini qoyur, atasını çağırtdırırdım. Çox zaman da "atam xəstədir" – deyib ayrı qohumlarını gətirirdi. Bir dəfə küçədən hambalı tutub bir manat vermişdi: "Dayımdır!" – deyib məktəbə gətirmişdi.

Mən də inanıb, ağzıma gələni kişiyə deyirəm:

– Canım, bu bacıoğlunuza bir nəsihət versəniz, yoldaşlarına tənəffüsdə bir-bir badalaq vurub üzüüstə yıxır! Dalınca baxıb gülür. Uşaqlar ağlayır. Bu da arsız-arsız gülür.

"Dayı" sağ olmuş da, deyəsən, Rüstəmdən yanıqlı imiş, uşağın sirrini açdı:

– Müəllim, – dedi, – mən bunun dayısı, qohumu-zadı deyiləm. Məni küçədən tutub yalvardı, bir manat pul vəd elədi, məktəbə, xahişə çağırdı. Manat da lazım deyil. Yazığım gəldi, mən də xahiş eləyirəm bu uşağın günahından keçəsiniz. Bir də belə qələt eləməz!

Kişi qəzəblə üzünü Rüstəmə tutdu:

– Bir manat sənin olsun. Mən məktəbi də, müəllimi də tanıyıram. Səndən bir də dəcəllik eşitsəm, özüm gedib sənin atanı buraya gətirəcəyəm, qulaqlarını dibindən çəkib çıxaracağam. Bəsdir müəllimləri incitdiyin, şələ-şüləni dalına verib elə qovarlar, bir də məktəb üzü görməzsən, bəsdir!

Müəllimlər də güldülər, uşağı danladılar:

– Rüstəm, müəllimi aldatmaq da təzə bir günah! Necəsən səni direktorun yanına aparım, məktəbdən təmiz qovlatdırım? Bizim də, sənin də yaxan qurtarsın!

Hambal ilə köməkləşib Rüstəmə o ki var abır verdik. Gözünün yaşını tökdü, tövbə dedi.

O oldu, daha Rüstəm şuluqluqdan əl çəkdi. Sağ olsun, dediyinə əməl elədi.



Günün birində eşitdim ki, Rüstəmi hərbi məktəbə aparıblar. 15 ilin söhbətidir.

Bir də indi, Vətənimizin mərkəzində, qəşəng bir igid libasında, döşü ordenlərlə dolu görürəm!

Görürəm, sevinirəm ki, dəcəl Rüstəm indi Vətən qəhrəmanı, düşmənlərin qənimi kimi el içində tanınıb, oxuduğu məktəbin də, müəllimin də başını uca eləyib!

Rüstəm əl çəkmədi, məni mehmanxanaya, öz otağına apardı, cəbhə xatirələrini danışdı, albomlardakı şəkillərini göstərdi. Başına gələnlərin çoxunu şirin bir əhvalat kimi danışdı, yazıya salmağımı xahiş elədi.

– Yazıya salaram, ancaq hambalı da unutmayacağam. O, sənin üçün bir ibrət oldu, eləmi?

– Haqqın var, müəllim, – dedi. – Sizin ogünkü məzəmmətiniz mənə böyük dərs oldu. Sizdən də, o kişidən də utandım, tutduğum işin peşmançılığı indi də xatirimdən çıxmır, uşaqlıqda insan bəzən çaşır, elə səfeh işlərə də rast gəlir.

– Rüstəm, sağ olsun o hambal kişi. Sənin də, məktəbin, ailənin də hörmətini saxladı. Sənin yalanını açmasaydı, qızartmasaydı, doğru yol tutmazdın!

– Doğrudur, müəllim, yaxşı kişiydi!

*1971*

# BU XIRILTI NƏDİR

Mən əvvəllər ayrı işdə olmuşam, müəllimlik eləməmişəm. Buna arzum, həvəsim də olmayıb. Ancaq mühəndisliyə, qiyabi təhsilə gedəndə axşam kurslarında, ya FZU məktəblərində, riyaziyyatdan bir neçə saat dərs götürmək, həm pul qazanmaq, həm də hər gün dərslərə hazırlaşmaq ilə savadımı artırmaq məqsədinə düşdüm. FZU məktəblərindən birinə ezamiyyət alandan sonra libasımı sahmana saldım, əlimə bir portfel aldım, mənə tapşırılan sinfə inamla daxil oldum.

Daxil oldum, ancaq sinfi təsəvvür etdiyim, istədiyim kimi görmədim. İlk baxışdan mənə elə gəldi ki, uşaqlar məni saymırlar, müəllim hesab eləmirlər, bəlkə də məni yoxlamaya çəkmək qəsdinə düşüblər.

Sinfə girən dəqiqələrdən anladım ki, burada səs-küy çoxdur. Dərs olan yerdə belə hay-küy salmaq yaramaz.

Sinfin qabağında, stul başında bir qədər sakit dayanıb gözlədim.

Gözlədim ki, bəlkə sinif sakit olsun, hər kəs öz yerində otursun, mən də dərsimi başlayım.

Xeyr, sinif sakitləşmirdi. Uşaqların çoxu öz yerlərində oturmurdu.



Bir-birinə sataşır, dümsükləyirdilər. Bir gözləri məndə, bir gözləri ilə də yoldaşlarının portfelinə, əl-ayağına baxırdılar.

Bunlara dözmək bəlkə də mümkün idi. Ancaq məni qulağıma gələn bir səs çox pərt eləmişdi. Aşkar eşidirdim ki, kəsilməyən bir xırıltı var. Özü də kənarda, həyət-bacada yox, lap sinfin içində olan bir xırıltı var.

Bir qədər də dayandım. Səbir elədim, səsimi çıxarmadım. O yanbu yana baxıb xırıltını dinlədim... Deyəsən, uşaqların çoxu da bu səsi eşidirdi.

Doğrudur, eşidirdilər, ancaq nə mənə bir söz deyir, nə də səs gələn tərəfə baxırdılar. Mən bir qədər sinif qabağında var-gəl elədim. Səsin kəsilməyini gözlədim. Gördüm ki, yox, bu iş ilə, yəqin məşğul olan var, məndən də ehtiyat eləmir.

Əyləşən uşaqlar da, 12-14 yaşında, hamısı bir boyda, bir libasda, bir səviyyədə uşaqlardır. Bir-bir onların üzünə baxır, gələn səsin mənbəyi haqqında düşünür, nəzərimlə sanki soruşurdum. Uşaqlar da mənim bu sükutlu, mənalı sualımı dərk edir, bəziləri gülümsəyir, bəziləri də təbəssümü gizlədib işin aqibətini gözləyirdilər.

Doğrudur, mən müəllimlik peşəsini necə ki lazımdır bilmirdim. Belə hallarda necə rəftar lazım olduğunu da bilmirdim. Ancaq mənliyim, izzət-nəfsim yol vermirdi ki, dərs dediyim sinifdə bu səs olsun, mən də biganə dayanıb buna qulaq asım, tədbir görməyim. Dərsi kəsib direktorun yanına şikayətə getmək, uşaqları intizama çağırmaq, bəlkə də axtarmaq olardı.

Ancaq mənim cavanlıq qürurum bunların heç birinə yol vermədi.

Gəlib stolun başında dayandım, lap qabaqda oturan uşağı durquzub qabağa çağırdım:

– Adın nədir?

– Nadir!

– Nadir, bu xırıltı nədir?

– ...

– Bu nə səsdir?

– Bilmirəm, müəllim!

Nadir bunu deyən kimi, mən ayağa durub təkrar elədim:

– Bu nə səsdir?

Nadir and için təkrar elədi:

– Atam canı, bilmirəm, müəllim!

Mən onun qolundan tutub sinifdən eşiyə çıxardım.

İkinci uşağı yanıma çağırdım:

– Bu nə xırıltıdır?

– Xəbərim yoxdur, müəllim!

– Xəbərin yoxdur?!

– Xeyr, bilmirəm!

Uşağı sinifdən çıxardım. Bu qayda ilə üçüncü, dördüncü uşağı çağırdım.

Uşaqlar gördülər ki, bunların hamısına bir divan tutmaq niyyətindəyəm. Bir-bir ayağa durdular, qabağa gəlmək, hər kəs öz payını almaq, sinifdən çıxmaq istədilər.

Mən bütün sinif uşaqlarından bir-bir sual edib, bir-bir hamısını çölə çıxartdım. Sinif boşaldı, boş sinfə diqqətlə qulaq asdım, görüm: xırıltı kəsildi, ya gəlir?

Gördüm ki, sinifdə daha nə uşaq var, nə də bayaqkı xırıltı var!

Bu sirri açmaq arzusu məni tərk etmədi.

Qapını açıb bayırda komalaşan uşaqlara baxdım. Onlar qorxudan nə həyətə çıxır, direktorun gözünə görünə bilir, nə də sinfə gəlirdilər. Mən qapını açan kimi, divara qısılıb gözlədilər. İşarə ilə onları bir-bir içəri çağırdım. Sevincək sinfə gəlmək istəyəndə təkrar birinci sualım bu oldu:

– Nə səs idi sinifdə?

– Bilmirəm, müəllim!

Mənə tanış olan cavabı eşidən kimi, uşağa qəzəblə baxıb, sinfə buraxır, yerində əyləşdirirdim. Uşaqlardan 4-5 nəfərini sual-cavabla içəri buraxmışdım ki, birisi irəli yeridi, sözə başladı:

– Müəllim, günah mənimkidir, nə cəzanız varsa, verin, uşaqları incitməyin. Qələt eləmişəm, bir də bunu eləmərəm, bağışlayın.

Uşaq bunu dedi, əlindəki yonulmamış karandaşı və kəndiri mənə verdi. Bildim ki, bayaqdan həmin karandaşı skamyanın qatdanan yerinə salır, ipə keçirir, əllərini aşağıda saxlayıb qələmi hərləyir, ahəngdar



bir xırıltı çıxarırmış.

– Sənin adın nədir?

– Narzan!

– Kislovodskidən gəlmisən, nədir?

– Yox, buralıyam, müəllim.

– Bu şuluqluğu evdə öyrədiblər sənə?

Narzan dinmədi. Başıaşağı dayanıb baxa-baxa qaldı.

Mən Narzanı direktorun yanına aparmadım, heç nə demədim. Məktəb jurnalını təhvil verib:

– Xudahafiz! – dedim.

O gedən getdim. Bir də həmin məktəbə qayıtmadım. Direktor dalımca qışqıra-qışqıra qaldı:

– O sinfə güclə müəllim tapmışdıq, yoldaş, hara qaçırsınız, bir dayanın görək!

– Sağ olun, yoldaş direktor!

*1971*

# DƏRSİMİ YAZ!

Mən bir uşaq tanıyıram, hörmətli bir ailədəndir. Atası, anası onu çox sevir, əzizləyir, bir sözünü iki eləmirlər. İstədiyini alır, istədiyi yerə göndərir, handa bir qəşəng, bahalı libas geyindirir, addımbaşı sağına-soluna keçir, kefini soruşurlar:

– Necəsən, bala, indi ürəyin nə istəyir?

Əslinə baxsan, haqqı demək lazımdır, işlərin çoxunu ata-anadan qabaq bacılar eləyir.

Bacı insan üçün böyük nemətdir, illah da ki, bir qardaş olasan!

Bir dəstə bacı, tək bir qardaş. Tofiqin işi lap belə idi. Əvvəldən ailədə oğlan uşağı olmamışdı. Dalbadal bacılar doğulub böyümüşdü: Lalə, Bənövşə, Yasəmən, Zanbaq, Xətmi!

Axırda dəstə bacılar içində Tofiq boy atanda hər kəs onun başına sadağa deyir, hər gün bir bacının qucağından yerə düşmürdü. Atakişinin ailəsində Tofiqə doğrudan da bir əlamət, bir xoşbəxtlik kimi baxırdılar.

Qızların hərəsi bir məktəbə, sənətə, bir peşəyə gedib iş sahibi olmaq qəsdi ilə çalışdıqları halda, anası Tofiqi yanından kənara buraxmırdı: "Bayıra çıxma, soyuq dəyər", "Tərpəşmə, quyuya düşərsən!", "Orda oturma, buraya keç..."



Məktəb vaxtı gələndə də hamı Tofiqi qayğı ilə əhatə edirdi. Qızlar yer-yerdən səs-səsə verib qardaşları haqqında düşünürdülər. Biri yaraşıqlı portfel alır, biri məktəb forması, üçüncüsü saat, dördüncüsü avtomat qələm, beşincisi boğazlı çəkmə.

Birinci gün məktəbə yola salanda da bacılar bir-birinə macal vermirdilər. Müəllimə ilə xüsusi danışırdılar:

– Müəllimə, bu bizdə tək uşaqdır, ana uşağıdır. Bunu pəncərə qabağında, dal cərgədə, ayaq altda oturtmayın! Yoxsa, xətrinə dəyər, anası bizi evə qoymaz!

Qızların qayğısından, tədbirlərindən, hay-küyündən Tofiq özü də şübhəyə düşmüşdü.

Görürdü, aşkar görürdü ki, beş bacının bir qardaşı zarafat deyil, hər kəsə bu səadət qismət olmaz, hər yerdə rast düşmək çətindir. Bacılar Tofiqin qulluğunda dayanmaqda bir-birinə macal vermirdilər: biri paltarını ütüləyir, biri kotlet qızardır, biri ayaqqablarını gətirirdi.

Dərs hazırlamağa gələndə də Tofiq özünü xoşbəxt gördü: hesabını bir bacı, yazısını başqası, coğrafiyasını o birisi hazırlayıb dərsə yola salırdı. Uşaq elə öyrəndi ki, müəllimin dediyi tapşırıqları bacılarına təhvil verib, səhər də hamısını hazır istəyirdi. Bəzən də hökmünü dürüst yerinə yetirməyəndə hirslənir, qışqırırdı:

– A qız, Lalə, götür mənim dərslərimi yaz!

– Bənövşə, sən də məsələləri hazırla!

– Yasəmən də el misalı toplasın, niyə durmusunuz, tez olun!

Tofiqin anası hər kəsdən əvvəl qızları danlayırdı.

– Ay həyasızlar, aman-zaman bir qardaşdır, onun ürəyini niyə qırsırsınız, götürüb dərsləri hazırlasanız! De tez olun, gedin dərslərini hazırlayın!

Qızlar, doğrudur, bilirdilər ki, bu dərslər Tofiqə verilib, ondan soruşulacaq, onun özü hazırlamalıdır... Ancaq qardaşlarının xətrinə, analarının xahişinə görə bu işlərə boyun əyirdilər. Aşağı siniflərdə Tofiqin dərslərdən kütlüyünü, tənbəlliyini biləndən sonra anasına xəbər verdi-

lər, məsuliyyəti boyunlarından atdılar.

Bir il də üçüncü sinifdə qalandan sonra Tofiq bacılarına ağzına gələn məzəmməti edib məktəbi atdı.

Anası, bacıları təkrar Tofiqi məktəbə cəlb etməyə çalışsalar da, fayda vermədi.

Uşaq oyundan əl çəkmədi. Axırda Tofiq birtəhər montyorluq öyrəndi, evlərdə pozulan işıq xətlərini düzəldir, xırda qazancı ilə restoranlarda yeyib-içir, gününü keçirirdi. Bacıları bundan pərişan olsalar da, analarına bildirmək istəmir, qardaşlarının cibinə pul qoyurdular. Tofiq lap sonradan anlamışdı ki, bacılarının istəyi, qayğısı onu əməkdən, peşədən, sənətdən məhrum eləmişdir.

Atalar yaxşı deyib: məhəbbətdən mərəz hasil olur. Oha var, dağa mindirir, oha var, dağdan endirir! Axırda bacılar bir yerə yığışıb 28 yaşlı qardaşlarına bir sənət seçmək istədilər:

– Ay canım, bu gədə avara qalacaq, məktəbdən, peşədən kənar da adam olarmı? Nə zəmanədir, indi dünənki hambal isbatlı peşə, sənət sahibi olur, bu bığıburma oğlana nə olub ki, avara gəzə. Görən bizə nə deyər, eyib deyilmi!

Tofiq indi montyor kursuna daxil olub biliyini artırmağa cəhd edir. Gec olsa da, yaxşıdır.

Uğur olsun!

*1971*



# MÖHÜR

Möhür, ya əyar yaxşı şeydir. Bir sənədin həqiqətini bilmək üçün möhürünə baxırlar. Bir matahın əslini bilmək üçün əyarını yoxlayırlar. Üstündə əyarı olmayan qızılı heç kəs qızıl saymaz. Onu ustasına, zərgərinə baxdırmamış heç kəs qızıl olmasına inanmaz.

Adam, adamdır, hər kəs bilir ki, adamla necə rəftar etmək lazımdır.

Doğrudur, adamın aldatmaq dərəcəsini, ləyaqətini yoxlamaq üçün nə möhür var, nə əyar, nə də qeyri-zahiri bir əlamət var. Adamın adamlığı möhürdə yox, özündə, yaşda yox, başda, zahirdə yox, batində!

Çox zaman belə bir əlamət axtarmağa da ehtiyac yoxdur. Amma bəzi yerlərdə, bəzi vaxtlarda və bəzi adamlara rast gələndə görürsən ki, adamın da möhürünə, əyarına baxılır.

Doğrudur, heç kəsin əl-ayağına, ya alnına möhür vurmur, dərisinə əyar yapışdırmırlar, amma möhürü əvəz eləyən əlamət də olmamış deyil. İnsanı yoxlamaq üçün nə rənginə, nə sifətinə, nə boy-buxununa baxırlar. Bircə sənədinə, cibindəki dəftər-kağızına baxırlar: pasportu, və-

siqəsi, şəhadətnaməsi, diplomu!

Xüsusilə diplom indiki zəmanədə yaman dəb düşüb. Nə pul, nə libas, nə yaraşıq o qədər lazım olmur, nəinki diplom!

Diplom var, daşdan keçir, bəzi idarə müdirləri nə savada, nə mərifətə baxırlar. Onlarınkı diplomdur. Möhürlü, imzalı diplom! Əgər varsa, işin düzələcək, yoxsa, qalan şeylər əfvayıdır!

Adamların məzmun və mahiyyətini yoxlamaq üçün bundan asan, bundan aşkar, bundan yüngül yol yoxdur! Qapı ağzında dayanan bir qulluqçuya tapşırırlar. O da gələnlərin hamısının sənədinə, vəsiqəsinə, diplomuna baxır, sanbalını yoxlayıb buraxır.

– Keç!

Bu üsul çox dəb düşmüşdü, çoxlarının da işi lap yüngülləşmişdi. Hər şeyin bir çürüyü çıxdığı kimi, bu üsulun da çürüyü çıxdı. Bir də görürsən, cibində möhürlü, imzalı diplomu, amma söz soruşursan, görürsən, lap savadsız!

– Haranı qurtarmısınız?

– Budur diplomum, al bax!

– Özünüz deyin!

– Filanı, filanı!

– İki dəfə iki neçə eləyər?

– Altı.

– Göydə ulduz neçədir?

– Göydə ulduz aladı, arvad başa bəladı!..

– Ay sağ ol! Verin o diplomun üzünü çıxardaq, sizin şəxsi işinizə tikək.

– Burada dur, bu saat gəlirəm.

Hərif götürüldü nə götürüldü! Daha izi-tozu da görünmədi.

Bir neçə belə əhvalatdan sonra çox diplomlara etibar azaldı.

Başladılar adamı nə möhür, nə əyar, nə sənəd, nə diplomla, ancaq adamlıqla, işlə, məzmunla, keyfiyyətlə tanımağa.

Cəmiyyət, təşkilat, kollektiv arasında hörmətin, izzətin oldu, adamsan, olmadı, sənin eybini nə diplom, nə vəsiqə, nə sənəd örtər! Həqiqət budur. Çalış adamlıq, zəhmətkeşlik, yaratmaq məharətin, hörmətin olsun. Yoxsa səni heç yerdə, heç zaman, heç kəs layiqli mütəxəssis,



adam yerinə qoymaz!

Möhürlə metalı tanıyarlar. Adamı işlə, əməllə, etibarla tanıyar, sayarlar!

El içində etibarın olmadı, heç! Heç bəndənin etibarı itməsin.

Bu elə bir itkidir ki, ömür boyu axtarasan, tapa bilməzsən!

– Filankəs...

– Adə, o fırıldaqçını deyirsən? Qoysana rədd olsun! Onu tövləyə qoymurlar ki, qulan-quşqun oğurlayar.

– Diplomu, vəsiqəsi!

– Uşaq olma! Görəsən harada nə kələklə ələ keçirib. Elə diplomlara bir quruş verən olmaz. Fırıldaqçının eybini diplom yox, torpaq örtər!

Adamın gərək özündə sanbal olsun. Payız yarpağını külək vurar belədən-belə, elədən-elə! Xəzələ xəzəl deyiblər, qızıla qızıl! Xəzəl yüngül olur, hər dəqiqə suyun üzünə çıxır. Qızıl ağır olur, dibə yatır. Atalar deyib: "Ağır otur, batman gəl!.."

*1971*

# UŞAĞIN TALEYİ

Üç gün idi Marat məktəbə gəlmirdi. Almaz xanım adları oxuyanda başını qaldırıb uşağın sırasına baxdı. Ətrafa göz gəzdirib təəccüblə soruşdu:

– Marat niyə yoxdur?
– Gəlməyib.
– Niyə gəlməyib?
– ...
– Bəlkə naxoşdur?
– Yox, dədəsinin yanındadır.

Müəllimə Maratın sıra yoldaşının cavabından hiss etdi ki, uşağın ailəsində nəsə var.

Dərsdən sonra Almaz xanım Maratgilin evinə getdi. Yaraşıqlı, yaşıllıqlı kənd həyətində Maratgilin qapısı qıfıllı idi. Həyətdəki kölgəlikdə bir neçə qadın əyləşmişdi. Gələn qonağı görüb söhbətlərini kəsdilər. Müəllimə hovuzun kənarında əyləşən bir ağbirçəkdən nəzakətlə soruşdu:

– Bacı, bağışlayın, bu evin sahibi harda olar?



– Onu ayıq görməzsiniz.
– Harda tapa bilərəm?
– Mağazada.

Almaz xanım binanın qabağındakı balaca mağazaya gəldi. Maratı da orada gördü. Marat pilləkən ağzında oturub adamlara baxırdı. Atası təkərli boçkanın qabağında dayanıb tünd-qara çaxırla dolu stəkanı başına çəkirdi. Almaz xanım əvvəl uşağa yanaşdı:

– Marat, dərsə niyə gəlmirsən?

Uşaq ayağa qalxdı, utana-utana müəllimənin üzünə baxdı, başını aşağı salıb dinmədi.

– Üç gündür sənə qayıb yazırlar. Niyə? Bala, dərsdən qaçmaq niyə? Şükür, xəstə deyilsən, yoldaşlarının hamısı soruşur, niyə gəlmirsən?

Uşaq günahkarcasına başını qaldırdı, yalvarıcı nəzərlə müəlliməyə dedi:

– Atam yanında işlədir.
– Atan bilmir ki, uşağı məktəbdən ayırmaq olmaz?!

Uşaq qızardı, bir müəlliməyə, bir atasına baxdı:

– Yazıqdır.
– Özünü yazıq günə qoyur. – O, uşağın məsum gözlərin baxdı, əlini uşağın başına çəkdi, bir söz demədi. Müəllimə uşağın atasına yanaşdı: – Sən uşağı küçəyə atıb kef-damaqla içirsən hələ?

Kefli kefini pozmadan:

– Mənim puluma sən heyifsilənirsən?

Müəllimə hirsləndi. "Pulun başına dəysin!" Bunu deməkdən özünü güclə saxladı. Üzünü içkisatana tutdu:

– Bu zəhrimarı verib adamları niyə pis günə qoyursunuz? Görmürsünüz, bu atadır, küçədə qalan, dərsdən, tərbiyədən məhrum olan uşağa yazığınız gəlmir?

– Baxanından soruşun, xanım!

Almaz xanım stəkanı götürüb kranta tutdu:

– Bir stəkan tök!

Satıcı sevinclə stəkanı çaxırla doldurdu. Almaz xanım bir üçlük atıb stəkanı götürdü, iki addım irəliyə yeriyib kolun dibinə tökdü. İçki satan təəccüblə:

– Təmiz çaxırdır, altıillikdir! – dedi.

Müəlllimə stəkanı verdi:

– Tök! Bir də tök!

Müəllim çaxırla dolu stəkanları bir-bir yerə boşaldır, təkrar tələb edirdi:

– Tök! Tök!

– Canım heyifdir, niyə zay eləyirsən?

– Sən pulunu al!

– Baxan deyər, görəsən, nə var. Vallah, gül kimi caxırdır, altı illik! Vicdanım haqqı, bir damcı su qatmamışam, bizdə elə şey olmaz, halal mala haram qatmaq kişilikdən deyil, xanım!

– Kişi, sən vicdandan danışırsan, vicdanı olan adam, körpə, anasız uşağın atasını bu kökə salmaz! İki manat qazanmaq üçün ana uşağını ömürlük "bədbəxt" eləməz!

– Məndə nə günah var?!

– Sən gərək başa düşəsən, ataya bir kəlmə məsləhətli söz desən, nə olar? Vicdan, vicdan!

Müəllimə başını tovlayaraq, uşağın əlindən tutdu, məktəbə tərəf çəkdi:

– Gəl, bala, sənə özüm analıq edəcəyəm, gəl!

Adamlar sükutla, mat-məbhut, gedənlərin arxasınca baxa-baxa qaldılar. Çox çəkmədi ki, məktəb həyətində şagirdlərin səsi ucaldı:

– Marat gəldi!

– Yoldaşım gəldi, gəl, Marat, gəl!

– Marat, Marat!..

*1971*



# NƏFSİTOX

*Təmənna nə bayəd ki, candan könəd,*
*Ki sahibkəramra peşiman könəd!*

Ş.SƏDİ

Ağ daş binanın ikinci qatında, pilləkəndən qalxan kimi, sağa dönən otaqda iclas gedirdi. Maarif şöbəsinin müdiri də, partiya, həmkarlar komitəsi heyət üzvləri də toplanmışdılar. Vacib bir məsələni müzakirə edirdilər.

Çinar Səfərli siyahını oxuyub əyləşənlərin rəyini soruşur, məsləhət istəyirdi:

– Yoldaşlar, məlumdur ki, bizim hesabımız bu il xüsusilə, yaxşı keçib. Son beş ildə həmişə rayonun qabaqcılları sırasında adımız qeyd olunub, bir dəfə də keçici qırmızı bayraq almışıq, yarış şərtlərində də şükür ki, yoxlayıblar, irəlidəyik. Raykomdan tapşırıblar ki, qabaqcıl işçilərinizin ən yaxşılarını təqdim edin, mükafata vermək istəyirik. Əlbət ki, bizim kollektivimizdə yaxşı işçilər çoxdur. Hamısını da vermək olmaz. Ona görə deyirəm, ən yaxşılarını! Yoldaşlarla danışıb məsləhətləşmişik. Balaca bir siyahı tutmuşuq. Müzakirə eləyək, verək getsin, tələsdirirlər. Mənim siyahımda ən qabaqcıllar qeyd olunub, əlbət ki, hamısı yox, cəmisi on iki nəfərdir. Oxuyun, fikrinizi deyin, baxaq.

Çinar Səfərli siyahını əlinə aldı, nəzərini əyləşənlərin üzündə gəzdirdi. Deyəsən, yoxlayırdı, görsün, sözü olan yoxdur ki! Ümumi sükutu görüb sevindi, siyahını oxumağa başladı: birinci filankəs, ikinci filankəs, üçüncü... dördüncü... Siyahıda doğrudan da qabaqcıl işçilər, burada əyləşənlərdən də bir neçəsi vardı. Çinar bir də adamların üzünə baxdı, razılıq hiss edəndə arxayın bir əhvali-ruhiyyə ilə soruşdu:

– Sözü olan varsa, desin!

Görünür, dinləyənlərin hamısı razı idi, mətləbi uzatmaq istəmirdilər, təkcə bir adam, Kənan Yusifli söz istədi, mülayim əda ilə razılığını ifadə edəndən sonra dedi:

– Sağ olun ki, siyahıda mənim adımı da çəkmisiniz, ancaq bizim kollektivdə məndən də vacib Seyfi yoldaş var. O, qocaman müəllimdir, ömrü məktəbdə keçib. Maarifin əməkdar xadimidir. O duran yerdə mənim qabağa keçib təltif olunmağım həm mənim üçün, həm də təşkilatımız üçün doğru olmaz. Mən təklif edirəm, Çinar Səfərli yoldaş mənim adımı silsin, Seyfini yazsın. Belə bir ədaləti biz gərək gözləyək!

Səfərlinin səsi eşidildi:

– Yaxşı, daha kimin sözü var?

– Kənanın təklifi necə oldu?

– Daha kimin sözü var?

Bir nəfər yaşlı qadın Kənanın təklifinə qarşı çıxdı:

– Yoldaş Kənanın özü adının siyahıdan qaralanmağını istəyir. Nahaq! Kənan Seyfinin mükafatlandırılmasını lazım bilirsə, mən də razıyam, nə eybi var, Seyfinin adını əlavə edək. Daha Kənanı qaralamaq düz olmaz. Bizə deyən yoxdur ki, mütləq on iki nəfər olsun. Qoy olsun on dörd nəfər, nə eybi var, bu da limitlədi?

Iclasda səs-küy qopdu. Xüsusən limit sözü hamının xoşuna gəldi, təltif işində bunu gözləmək gülünc olardı. Danışanlar oldu. Kimi ona, kimi buna tərəf çıxdı. Səfərli zəng vurub sükut istədi:

– Kənanın sözündə həqiqət var, Seyfi qocaman, fəal işçidir. Mükafata layiq adamdır. Neçə dəfə onun haqqında ədalətsizlik olub, bu dəfə düzəltmək lazımdır!

– Kənan qalsın!

– Seyfi də yazılsın, Kənan silinməsin.



Kənan təkrar söz aldı, təkid elədi:

– Mənim özüm bu heyətin üzvüyəm, mahiyyət etibarı ilə mükafat təklifini biz veririk. Öz adımızı irəli sürmək gülünc olar. Mənim adımı silin, xahiş edirəm.

Əslində, Kənan səmimi deyirdi. Seyfi kimi işçiləri unutmaq böyük haqsızlıq olardı. Kənanın təklifi Səfərlinin ürəyindən idi. Onun adını salmamağı bacarmazdı. Bunu yaxşı bilirdi, indi, müzakirə zamanı Kənanın özü buna bəhanə verdiyi üçün bu münasib vəziyyətdən istifadə eləməyi fürsət bildi! "Kişi özü istəmir, məcburiyyət nəyə lazımdır!"

Nəzakətlə təklifi keçirmək istədi:

– Yoldaşlar, Kənan əsil kommunistdir, təvazökardır. Seyfini unutmaq düz olmaz. Kənanın adını münasib bir yerdə təltifə verərik. Gəlin, Seyfi üzərində dayanaq, söhbəti də qurtaraq...

İclas qurtarandan sonra adamlar dağılışanda həmin yaşlı qadın Kənandan gileyləndi:

– Siz, – dedi, – yaxşı adamsınız. Amma bu yerdə etirazınız sizin bədxahlarınıza kömək elədi. Görən də düşünəcək ki, yəqin Kənanın təltifinə heyət səs verməyib. Bunu gərək nəzərə alaydınız!

Kənan qadının sözünə əhəmiyyət vermədi:

– Bacım, – dedi, – mənim kifayət qədər mükafatım var. Qoy Seyfi kimi yoldaşların haqqı tapdalanmasın. Ona çalışmaq lazımdır!..

– Mənim Seyfiyə etirazım yoxdur. O, sizin yerinizi dar eləmir. Bunu deyirəm mən!

Bir həftə sonra Kənanı Maarif Nazirliyinə çağırdılar. Nazirliyin kadrlar şöbəsində cavan oğlan, Yaqub Salamov çalışırdı. Kənanı görən kimi salamladı, ona bir növ muştuluq xəbəri verdi:

– Kənan müəllim, sizi xeyir işə çağırmışıq. Xahiş edirəm bu anket vərəqələrini doldurun, tərcümeyi–halınız bizdə var, ona bir də baxın. Iki dənə də şəkil gətirin. Mən bunları iki günə yuxarı təşkilatlara təqdim etməliyəm. Materiallarınız sahmanda olsun.

Kənan Yaqubun şad xəbərinə gülümsədi:

– Vərəqələri doldurmağa sözüm yox, ancaq sizin hazırladığınız təqdimata mən getmək fikrində deyiləm. Bu məsələni mən eşitmişəm, xəbərdaram. Mən sadəcə, müəlliməm və bu işdə köməyim dəyir. Otuz

ildir cavanlarımızı oxudub xalq təsərrüfatına işə yola salıram, məsul vəzifə nə əlimdən gələr, nə də ona marağım var. Məni dərs otağından ayırmaq, havadan, sudan məhrum etmək olar. Doğrusu belədir. Xahiş edirəm, nəzərə alın, rəhbər yoldaşlara da çatdırın. Mən öz işimdən razıyam. Hörmət eləmək istəyirsinizsə, məni dərsdən ayırmayın. Qaldı ki, o vəzifəyə çox ləyaqətli, hünərli yoldaşlar var, apara bilərsiniz.

Yaqubu gülmək tutdu. Ürəyində Kənana güldü: "Xalq yaxşı deyib, dərgah qapısı açıq olanda hərifi yuxu tutar..."

– A müəllim, – dedi, – hər adamı irəli çəkmirlər, hər zaman olmur belə fürsət. Sizə böyük etimad, ümid bəslənir, niyə boynunuzdan atmaq istəyirsiniz?

– Etimada görə təşəkkür edirəm. Mən öz qüvvəsini, mövqeyini bilən adamam. Istəmirəm ki, sabah sizin etimadınız da əncamsız olsun. Qoyun sadəcə, öz bildiyim vəzifədə, balalara təlim etməkdə çalışım!

– Çoxları belə fürsət üçün sinov gedir.

– Mən vəzifə məşqinə düşməmişəm, düşmək də istəmirəm.

– Sizin adınızı mən verməmişəm, yuxarıdan gələn təklifdir.

– Yuxarıdakı yoldaşlardan da xahiş edərəm. Mənim elə vəzifələrdə tamahım yoxdur. Iş bacaran, həvəsli, təşkilatçı yoldaşları göstərmək olar!

– Elə də sözünüzü nazirə bildirin, məndən təqdimat istəyirlər.

– Bildirərəm. Günü sabah yanına gedərəm.

– Mütləq gedin, ancaq mənim adım olmasın! Bilməsinlər ki, nazirliyin niyyətini sizə elan etmişəm, yaxşı olmaz.

– Xeyr, xeyr, heç kəsin adı olmayacaq. Mən öz sözümü nazirə bildirib təvəqqe eləyəcəyəm.

– Yaxşı! Yaxşı!

– Sağ olun!

– Sağ olun, amma yaxşı eləmədiniz. Qorxuram sabah peşman olasınız! Hər zaman belə fürsət ələ düşməz.

– Xeyr, məndən xatircəm olun! Fürsət axtaran deyiləm.

– Elə olsun!

– Yəqin edə bilərsiniz...

Kənan gedəndən sonra Yaqub bir müddət ayaq üstdə dayanıb əlindəki karandaşı şüşəyə döyə-döyə: "Qəribə adamlar var. Biri vəzifə



üçün özünü oda-közə vurub, yer qalmır baş vurmasın, biri də bunun kimi, deyəsən zalım oğlu "yeyib, içib – dünyadan keçib!" Heç nədə tamahı yox, heç yerə meyli yox! Qoyasan elə sinif otağında partalar arasında uşaqlara riyaziyyat düsturlarını saya, vəssalam! Özü savadlı, özü qüvvətli, hörmətli, nüfuz sahibi, zamanın işini, maarif sahəsini bilən, sözü keçən, əlində qələm... Di, gəl, heç nəyə həvəsi yox! Nə üçün? Necə deyərlər, küməsi uçub, dünyadan köçüb. Bilmirsən qorxudandır, ehtiyatdandır, istirahət arzusundan, ya nədəndir? Təəssüf!"

Kənanın nazirlə də bu mövzuda söhbəti oldu. Nazir gördü ki, bu qocaman müəllimin məsul vəzifəyə heç həvəsi yoxdur. Ancaq öz peşəsinin vurğunudur. Gecə-gündüz məktəbli dəftərlərini təshih etmək, lövhə qabağında uşağa riyaziyyat, iks-iqrek öyrətmək onda vərdiş olub. Yeməsin, içməsin, məktəb işlərində gözünün qarası gedənəcən əlləşsin!

Yox, onu öz peşəsindən ayırmağa dəyməz!

Ancaq nazir də Yaqub kimi təəssüf edirdi ki, belə bir ləyaqətli, zəngin təcrübəli adam, maarif sahəsində məsul mövqelərin birini nahaq tutmur, buna böyük ehtiyac var. Görünür, onu başa salan yoxdur.

O biri tərəfdən də nazir Kənanın şəxsi işini vərəqləyib görür ki, otuz ilin müddətində ona nazirliyin təşəkküründən başqa nə diqqət, nə hörmət olunub. Nazir zəng vurub Nazimi, partiya komitəsi katibini çağırdı:

– Ay Nazim, – dedi, – bayaq Kənan burada idi, xeyli söhbət elədik, sonra da onun tərcümeyi-halı, keçdiyi həyat yolu ilə xüsusi maraqlanmışam. Gözəl, ləyaqətli, əməksevər işçidir. Ancaq nə edəsən ki, sənin, mənim günahım üzündən indiyəcən biz onu layiqli bir mükafata təqdim eləməmişik.

– Eləməmişik!

– Saymamışıq, əhəmiyyət verməmişik, diqqətdən kənarda qoymuşuq.

– Doğrudur!

– Nahaq! Çox nahaq yerə!

– Doğrudur!

– Belə hallar diqqətsizlik ucundan kadrları yaxşı öyrənməmək ucundan olur. Bu ədalətsizliyi biz eləyirik.

Nazim dilə gəldi:

– Yoldaş nazir, – dedi, – Bu yerdə deyəsən, Kənanın özünün də təqsiri az deyil. Bilmirəm sizə deyiblər, ya yox, onun adını biz keçən həftə məsul bir yerə, texnikum müdirliyinə göstərmək istəyirdik. Hay-küy saldı ki, mən məsul iş bacarmaram. Mən sadəcə, müəlliməm! Filan, bəşməkan! Adamayovuşan deyil.

– Mənə də xahişə gəlmişdi ki, öz yerindən razıdır. Məsul iş istəmir. Amma neçə illərdir burada çalışır, özü də ləyaqətlə çalışır, bizim insafımıza nə gəlib ki, onu bir dəfə də mükafata təqdim eləməmişik.

– Eləməmişik.

– Bizim günahımızdır! Neçə dəfə qabaqcılların siyahısını istəyiblər, necə olub ki, Kənan unudulub?

– Unudulan bəyəm bir odur?

– O, hamıdan vacibdir axı!

Nazim açığını dedi:

– Belə hallarda üzlü maçalar, sırtıq adamlar hər yerə girib çıxırlar. Bizi də üzdən-gözdən salırlar. Adamın zəhləsini tökürlər. Sən də əlacsız qalıb, başdan eləyirsən. Abırlı adamlar bəzən yaddan çıxır, küy-kələk ustaları ortalığa düşürlər.

Nazimin sözü naziri tutdu:

– Bax, bu, bizim günahımızdır. Biz kadrları yaxşı tanısaq, hər kəsin yerini, qiymətini, xidmətini bilsək, möhkəm prinsiplə yanaşsaq, belə olmaz. Sırtıqlar da yerini bilər, əl-ayağa dolaşmaz. İndi sənə deyirəm, bizim günahımızdan belə bir qiymətli işçinin haqqı tapdanıb. Baxırsan, təəssüf edirsən. Keçib, sən də, mən də buna göz yummuşuq! Boynumuza alaq! Bir də belə olmasın!

Səhərisi gün nazir, istehsalat müşavirəsində adamlara qayğı, qeydkeşlikdən danışanda Kənanın adını təkrar çəkdi. Vəzifəli yoldaşların diqqətini cəlb etdi ki, təltif zamanı haya-küyə uymasınlar, ən ləyaqətli, ən abırlı, təvazökar yoldaşları qeydə alsınlar. Nazirliyi də pis vəziyyətdə qoymasınlar. Lev Tostoyun bir məşhur hekayəsini misal çəkdi. İşdə səhv eləmək təəccüblü, eyib deyil, səhvi görməmək, düzəltməyə çalışmamaq eyibdir! İdarə başçılarının, xüsusən cibində kommunist bileti olan, bu müqəddəs adı daşıyan adam, insana



münasibət, insan taleyi haqqında söhbət gedəndə gərək partiya tapşırıqlarını bir an belə unutmasın. Hər məsələyə əzəmi diqqət, ehtiyat sərf etsin. İnsana qayğı bizim quruluşun, məqsədimizin, qayə və amalımızın əsasıdır. İnsan məxluqatın əşrəfidir. Əməkçi insan hər cür qayğıya, şərəf və izzətə layiqdir! Partiyamız bunu bizə həmişə tapşırır!

*1971*

# KƏND "UŞAQLARI"

*Mərhum kommunist Ağamirzə Əhmədovun*
*əziz xatirəsinə*

Kəndin geniş, sərbəst mühiti, azad, əngin-zəngin təbiəti, şimşək çaxması, çayların şaqqıltı ilə axması, quşların cəh-cəhi bir aləm, şəhərin izdihamlı həyatı, asfaltlı küçələri, bir-birini çağıran maşın səsi başqa bir aləm!

Kənddən ilk dəfə gətirilən "uşaqlar" bir müddət burada qəriblik, biganəlik duyub heyrətlə ətrafa baxınır, ora–bura boylanır, uca daş hasarları aşmağa qol-qanad atırlar...

Mərhum Ağamirzə Əhmədovun nə səy və zəhmətlə gətirdiyi bu "uşaqlar" ilk illərdə çətinlik, sıxıntı, alışmadıqları sudan, torpaqdan korluq çəkdilər, amma sonra təzə yerə alışdılar.

Sərin Şollar suyunu dadandan, qızmar Bakı günəşinin kəsərli şüalarını əməndən, daş-divara qol-qanad atıb yüksəklərə dırmaşandan sonra özlərinə yer elədilər.

Şəhərin elə sıx küçəsi, abad məhləsi yoxdur ki, orada bu "kənd uşaqlarını" gümrah görməyəsən.

Bilmirəm, sizin yolunuz Neftçilər prospektinə, gəmi vağzalına düşüb, ya yox. Vağzalın balkonu, qapı–pəncərələri yamyaşıl meynə yarpağı ilə örtülmüşdür. May, iyun ayları belədir. Avqust, sentyabr aylarında isə başınızı qaldırıb çardağa baxsanız, səmanı görə bilməzsiniz. Pəncəsini geniş açmış meynə yarpaqları arasında parlaq kəhrəba boyunbağı kimi döş-döşə yatan kişmiş salxımları sizi valeh edəcəkdir. Gurultulu şəhərdə, sənaye tikintisində, addımbaşı izdiham, cərəyan, məftil keçən bu yerlərdə pudlarla üzüm salxımları olarmış!

Qaralı-ağlı bu əlvan salxımlara tamahı düşməyən adam olmur. Ancaq bu yaraşıqlı, səliqəli tamaşa çardağa bir dənə də haram əl uzanmır. Mavi Xəzərin sahilində qonaqların zövqünü, marağını oxşayan, ləyaqətlə oxşayan bu mənzərəyə toxunmaq günahdır, qəbahətdir.

Belə yerlərdə əlvan sərgilər düzəldir, vətənin nemətlərini yorulmadan nümayiş etdirirlər. Şərqdən, Qərbdən Bakıya gələn xarici qonaqların çoxu neftə baxır, balıq ovu, kürü bərniləri, təyyarə benzini, maşın yağları ilə maraqlanırlar. Təbiət, səbziyyat, meyvə, üzüm, əncirdən söz düşəndə arxaya dönür, Təbrizi, Səmərqəndi, Şirazı arzulayırlar. Bakı sahillərində, həm də böyük bir vağzalın bina boyu çardağında məskən salan kişmiş salxımlarının qoyun-quzu kimi baş-başa yatdıqlarını, elektrik işığında kəhrəba kimi bərq vurduqlarını görəndə tamaşadan doymur, bəhriyyələrin üzünə sual nəzərləri ilə baxıb gülümsəyir, gülümsəyib baxırlar:

– Cənablar, nə gözəl mənzərə!

Bəhriyyəlilər üçün bu suallar gözlənilməz deyil, təbii və xoşdur. Onlar əl atıb kişmiş salxımlarından bir neçəsini üzür, boşqabda qonağa təqdim edib, danışırlar:

– Cənab səyyah, bu meyvələri özümüz becərib-bəsləyirik. Bakı şanısı dünyada adınandır. Qızmar günəş altında, dəniz havasında bəslənən bu üzümün giləsinə diş vurdunmu, şaqqıldayıb şirəsini qana buraxır. Bu üzümün müalicə qüdrətinə bütün həkimlər bələddir. Bir xasiyyəti də var ki, onu kənara aparmaq, əmtəəyə çevirmək olmur. Vətən məhsuludur, vətəndaşların özünündür, öz nemətidir, öz qismətidir.

– Bunu haçan yığırlar?

– Payızın ilk ayında.

– Sifariş vermək olarmı?

– Bu üzüm satılmır, əziz qonaqlarımız isə buradaca yeyə bilərlər.
Bizim qocaman dənizçi üzünü pəncərəyə tutub səslədi:

– Zeynal əmi, Zeynal əmi!

İçəridən səs gəldi.

Bəhriyyəli xahiş elədi:

– Zeynal əmi, qonaqlar sizin üzümlərə baxırlar. Zəhmət çəkin, sorğularına cavab verin.

Zeynal əmi dənizçi libasında, səliqə ilə geyinmiş, yaxası düyməli, paqonlu pencəkdə görünür, irəli çıxıb qonaqlarla görüşür, boya-boy platformanı örtən meynənin hər budağındakı salxımlara iftixar hissilə baxır, əməyinin bəhrəsini görüb sevinən səxavətli bağbanlar kimi turistlərin qabağına düşüb izah edirdi. Yalnız dəniz vağzalının, tikintinin, gəmilərin yox, həm də diqqət, qayğı, zövq, səliqə ilə becərilmiş gümrah meynələrin, bərəkətli üzüm bəhərinin keçmişindən, indisindən, gələcəyindən danışır, danışdıqca fərəhlənib vəcdə gəlirdi:

– Biz, – deyirdi, – dənizçi olsaq da, Bakı mühitində, bağlarında böyümüşük. Bu torpağın şanı üzümünə, sabahi əncirinə, bidanə tutuna səyyahlar, həkimlər, loğmanlar əhsən deyib.

Bakı meyvəsinin şirəsi dərmandır, müalicədir. Bakı günəşi, iyul, avqustun otuz beş-qırx dərəcədə torpağa şaquli tökülən şüaları bu meyvələri təbii-ilahi laboratoriyalarda qüdrət əlləri ilə hazırlayıb budaqlara verir.

Buranın tutunda, üzümündə, əncirində böyük hikmət var! Ayrı bir hikmət var, bəli!

İndi bizim sovet biologiya alimləri bu hikməti öyrənməyə başlamışlar. Abşeron sahillərində bağların, yaylaqların, istirahət evlərinin, sanatoriyaların, uşaq düşərgələrinin, müalicəxanaların sayını qat-qat artırmaq, hər kənddə meyvə bolluğu yaratmaq üçün bütün tədbirləri görməyə, hər qarış torpağın insanlara xidmətini təminə diqqət yetirməyə başlamışlar.

Sovet hökuməti havanın, suyun, günəşin bütün potensial qüvvələrinin insana xidmətə cəlb edilməsinə hər şəraiti yaratmışdır.

Yer üzündə yeni aləm, kommunizm həyatı quran insanın qüdrət əlində bu mümkündür, özü də lap tez. İçərisində olduğumuz beşillikdə



mümkündür.

Bizim əlimizdəki maddi-texniki əsas, bəşəriyyətin xidmətinə səfərbər olan elm, müsəlləh məhsuldar əmək buna qadirdir.

*1971*

# BİR QƏLBİN YANĞISI

– Ay doktor, üstünüzə sağlıq, ürəyim qəfəs quşu kimi hey çırpınıb durur, sakit olmur. Mənim bu dərdimə bir əlac!

– Nə olub məgər?

– Ürəyim döyünür!

– Qardaşoğlu, ürək döyünmək üçün yaranıb. Allah eləməsin ki, o dayana.

– Doktor, elə döyünmək demirəm. Bu ayrı cür döyünür. Bilmirəm bu nə əlamətdir?

Həkim diqqətlə naxoşunu süzdü, nə isə demək istədi. Sözünü uddu. Başını aşağı salıb dedi:

– Soyunun bir yoxlayaq!

– Yoxla, başına dönüm, yoxla gör orda, sinəmdə nə var, axı, belə yaralı quş kimi çırpınır, məni də tərpədir, özü də aram olmur.

Həkim rezinli cihazını qulağına taxıb arxadan da, qabaqdan da naxoşun sinəsini yoxladı.

– Nəfəs al! Bir də. Dayan. Öskür. Dərindən nəfəs al. Alma.





Naxoşun narahatlığı daha da artdı. Doktorun cavabını gözləməmiş özü danışdı:

– Doktor, mənim ürəyimdə, eyib də olmasa, tikə qalıb! Yekə tikə qalıb, nə o yana gedir, nə bu yana. Özü də, deyəsən, bir yox, bir neçə tikə! Öskürürəm də, asqırıram da, su da içirəm, nə illah eləyirəm, keçmir. Elə bil sinə qəfəsimdə pərçimlənib bu zəhrimar! Məni fikir-xəyal götürəndə, deyəsən, tikələr də içəridən səslənir.

Doktoru gülmək tutdu:

– Səslənib nə deyir sizə?

– Nə deyəcək? Mənə əzab verir!.. Deməyi budur ki, ölləm-qallam, yerimdən tərpəşmərəm, kefinə bax.

– Siz də yəqin cavab verirsiniz də?

– Mənim cavabım nə olacaq? Yazıq adamam, min cür fikir-xəyal içində. Bir tərəfdən də içəridəki səs məni rahat qoymur ki, qoymur. İdarəyə gedirəm, yoldaşlar ilə görüşürəm, bəzi şeylərdən danışıram, qulaq asan da olur, asmayan da olur. Amma mən baxmıram, hey danışıram. Ürəyimi dolduran sözlərdən danışıram. Danışdıqca da tikə böyüyür, yumrulanır, daşa dönür, az qalır boğazımı bağlaya... Bilmirəm zəhrimar tikə nə tikədir? Nə o yana, nə bu yana yeriyir: gecəm-gündüzüm yoxdur. Unuda bilmirəm. Gecə də yatmağa, dincəlməyə qoymur. Deyirlər, yuxuda da özüm-özümə sayır-bayır danışıram. Bilmirəm bu nə dərddir məni tapıb? Özüm də, şükür ki, sizdən yaxşı olmasın, bir tikə halal çörəyim var, haram-zad yeyən deyiləm. Suyu üfürə-üfürə içən adamam. Kimsənin tikəsinə tamah salmaram. Bilmirəm bu nə tikədir, kimin tikəsidir, məni hardan yaxalayıb? Buraxmır ki, buraxmır!

Doktor şikayətçini diqqətlə dinlədi, cihazlarını yığışdırıb portfelinə qoydu, başladı naxoşun üzünə baxmağa. Naxoş dilləndi:

– Doktor, bəs dərman?

– Dərman lazım deyil!

Naxoş doktorun sözünə təəccüb elədi:

– Bəs bu nə tikədir, axı?

– Qardaşoğlu, bu tikələrə təəccüb eləmə, bunlar göydəndüşmə deyil, sizə yaxşı tanışdır. Bunlar qohum-qonşunun, yar-yoldaşın tikəsidir. Tamam haram tikə olmasa da, artıq tikədir.

Naxoş bu izahdan bir şey anlamamış kimi, bir də sual verdi:

– Necə yəni, artıq tikə?

– Bəli, artıq tikə!

– Yəni, mən çox yeyirəm?

– Məsələ çox yeməkdə deyil, bəlkə də az yeyirsiniz.

Naxoş həkimin sözünü ağzında qoydu:

– Bəs bunlar haradan dolur mənim ürəyimə? Əcəb işdi, ha!

Həkim diqqətlə naxoşun üzünə baxdı və əlavə etdi:

– Soldakı qonşun maşın aldı, evinə gətirdi; bu bir tikə. Sağdakı qonşun üçmərtəbəli üçotaqlı evə köçdü; bu da bir tikə. Dünən dostun oğluna dəsgahlı toy elədi; bu da sənə əlavə bir tikə oldu. Yoldaşlarından kiməsə mükafat verildiyini eşitdin, bu da bir tikə.

– Düzdür, doktor! Neçəsinə mükafat verilib, saya bilərəm sizə!

– Bu da sizə neçə tikələr!.. Hamısı ilişib sinənizdə qalıb. Siz unuda bilmirsiniz, onlar da sizdən əl çəkmirlər. Hamısı sizə dərd olub, dərdli tikə olub!

– Bəs əlacı?

– Əlacı odur ki, gərək burdan köçəsiniz, ürəyinizə də, ailənizə də rahatlıq verəsiniz. Tikələri birdəfəlik unudasınız. Əlacı budur! Dava-dərman ilə iş aşmaz, qardaşoğlu!.. Bu fikir-xəyalı acı tikan kimi zehninizdən çıxarıb atın. Sonra görərsiniz ki, ürəyiniz dincəldi, sakit oldu, tikələr də rədd olub getdi. Vəssalam.

*1971*



# İNTİZAR

*Sevda nədir, bilməzdim,*
*O da gəldi başıma.*
*(El şeiri)*

Məcid sakit, fikirli və yavaş addımlarla gedirdi. Qəlbini dolduran şirin, həm də intizarlı xəyala elə qapılmışdı ki, yanında top atılsa duymazdı.

Deyəsən, xarici aləmdən tamam üzülmüşdü. Ürəyində isə təkcə bir hiss hakim idi: Nazlı ilə görüşmək! Bunun üçün münasib fürsət, xoş söz axtarırdı. Düşünürdü ki, bu saat onun işə gedən vaxtıdır. Yolun üstündə dayanıb gözləmək, ürək sözünü demək lazımdır. Çəkinmədən, açıq, həm də xoş bir dil ilə demək lazımdır. İntizar qiyamətəcən sürə bilməz ki? Ürəkdə qaynayıb-coşan təlatümlərin bir hüdudu olmalıdır, axı?

"Nazlı ilə mən on il məktəb yoldaşı olmuşam. Partada yanaşı oturmuşuq. Zarafatlaşmışıq. Demişik, gülmüşük, dərdləşmişik, dilləşmişik. Uşaqlıq günlərindən o deyən mənə, mən deyən ona xoş olub. Bu illərin ılıq və mehriban dəqiqələri qəlbimizi elə almışdı, güman edirdik ki, biz burada parta arxasındaca, birlikdə doğulub böyümüşük. Heç bilməzdik ki, bir gün gələcək məktəbi bitirəcək, ayrılacaq, hərə bir yana gedəcək, hərə bir həyat yaşayacaq.

Heç bilməzdik ki, bu şirin, mehriban günlərimizə də soyuq hicran küləkləri əsəcək, tufanlar qopacaq, hər şeyi dəyişdirəcəkdir.

Bizə elə gəlirdi ki, dünyada nələr baş versə heç vaxt bizi ayıran, uzaqlaşdıran bir qüvvə olmayacaqdır. Nə qulluq, nə ailə, nə vəzifə, nə zaman, nə məkan! Hər şey, bunların hamısı bizim uşaqlıqda yaranıb-bərkiyən təmiz ünsiyyətimizə bağlanacaqdır, heç bir zaman bizi ayıran qüvvə olmayacaq. Bir yaranmışıq, daim bir yaşayacaq, birlikdə də həyatı tərk edəcəyik..."

Məcid bu xəyallarla gedirdi. Özü də duymadan addımlarına sürət verirdi. Ətrafında qaynaşan izdihamı nə duyur, nə də düşünürdü.

Küçəni dönəndə birdən ayılmış kimi başını qaldırdı, ətrafa baxdı. Birdən Nazlını gördü. Nazlının hər iki tərəfdən bulud kimi sallanan qara hörükləri ay kimi ağ girdə çöhrəsinə, mütənasib boyuna, mənalı sükutuna xüsusi gözəllik verirdi.

Məcid güman etdi ki, qarşısına uğur mələyi çıxmışdır. Nazlı həmişəki xoş baxışları, zərif təbəssümü ilə sanki çoxdan dayanıb yollara baxır, sevgilisini gözləyirmiş. Dodaqları tərpəndi.

– Xoş gördük, ay etibarsız!

Nazlı bunu dedi və görüşmək üçün əlini Məcidə tərəf uzatdı. Məcid qızın atmacalarına alışmışdı, hətta onları xoşlayırdı.

"Xoş gördük, ay etibarsız!"

Məcidin deyəsən dili tutuldu. Sanki bayaqdan bəri yol uzunu içində danışan, tədbirlər tökən, qız ilə küsən–barışan, təkrar küsən, təkrar barışan, keçən günlərin, saatların, dəqiqələrin hesabını soruşan o deyilmiş!.. Bir qədər sükutla dayanandan sonra başını qaldırıb gözünü qızın üzünə dikdi.

– Nazlı, neçə gündü avarayam.
– Nəyin avarası?
– Nəyin olacaq, sənin!
– Mən neyləmişəm?
– Səndən savayı qayğım yoxdur, Nazlı.
– Deyəsən, sözün var?
– Əlbəttə ki, var!
– Mən hazır, sözünü de!



– Sözüm odur ki, vaxt ver, anam sizə gələcək!
– Bizə nə üçün gəlir anan?
– Sənin üçün.

Nazlını fikir götürdü. Kirpiklərini endirib yerə baxdı. Sonra dedi:
– Sən darıxırsan, deyəsən.

Məcid cavab verməmiş əlavə etdi:
– Onu da darıxdırırsan.
– O, məndən çox darıxır!
– Darıxanda nə olar?
– Az gözləməmişik!
– Haçan gəlmək istəyir anan?
– Sən haçan desən.
– Anam bilər!
– Soruş, mənə de!

■ ■ ■

Bu gün Nazlıya elçilər gələcəkdi. Nazlı bu xəbəri anasına yetirəndə Nisə xanım təəccüb elədi.

– Ay bala, hardan bilirsən? Bəyəm, oğlan evindən xəbər var?
– Xəbər olanda nə olar. Bilməsəm deməzəm, ay ana! Qonağın olacaq!

Nisə xanım mühüm bir xəbər eşitmiş kimi tələm-tələsik otaqları sahmana salıb çay süfrəsi hazırlayırdı ki, birdən qapı döyüldü.

Salam-kəlam ilə üç nəfər qadın otağa daxil olub, əyləşdi. Qadınlar yaşlı olsalar da, müasir libasda, yaraşıqlı geyinmişdilər. Əyləşdilər, amma hamısının gözləri o yan-bu yanda idi. Biri Nisənin otaqlarını seyr edirdi, biri mebellərə, biri divardakı şəkillərə, pəncərə qabağındakı dibçəklərə, güllərə baxır, cürbəcür suallar verirdilər:

– Bacı, Nazlı hansı məktəbi qurtarıb?
– İşləyir, ya hələ yox?
– Atası nə işdədir?
– Nazlının neçə qardaşı var?
– Elə bir bacı?

Nisə xanım bir ucdan çay tökür, qonaqlara təqdim edir, bir ucdan dalbadal yağdırılan suallara cavab verirdi. O, kişinin qulluq işindən, qızın qardaşlarından, təhsilindən, otaqların təmirindən, ustaların səliqəsindən iştaha ilə danışırdı.

Evdə Nisə xanımdan başqa Nazlının böyük bibisi Kəmalə xanım da qonaqları əyləndirməyə çalışırdı.

Ev sahibi də, qonaqlar da mətləbin açılmasını intizarla gözləyirdilər. Kəmalə xanım bu məclisə təsadüfən düşsə də, Nazlının xeyir işi ilə, xüsusən, elçilik mərasimi ilə ciddi maraqlansa da, hamıdan çox intizar çəkirdi: "Canım, mətləbə keçin!"

Birdən qapı döyüldü. Kəmalə tez dəhlizə qaçdı. Gözləmədiyi mənzərəni gördü: Nazlı geyimli-kecimli bir oğlanla dayanmışdı. Kəmalə yavaşca əyilib Nazlının qulağına dedi: "Elçilər evdə oturub, ay ərkansız, gözə görünmə."

Nazlı güldü və ucadan dedi:

– Gəliblər, xoş gəliblər, ay bibi. Onlarla tanış olmaq lazımdır!

Məcidin qolundan tutub evə tərəf gətirdi, salam verib qonaqlara "xoş gəldin" elədi. Əlindəki gül dəstəsini masanın üstünə qoyub əyləşdi. Elçilər özlərini itirdilər. Bir-birinə baxıb işarə ilə soruşdular:

– Bu nə işdir, bacım?

– Elçi qabağına qız çıxmaz, axı?

– Məciddən nə əcəb elçiliyə özü gəlib?

Hamı sual dolu nəzərlə bir-birinə baxanda Məcid üzünü elçilərə tutub soruşdu:

– Necədir, Nisə xalanı təbrik eləmisiniz, ya yox? O da sizi təbrik edibmi?

Nazlı anasının hayına çatdı.

– Ana, – dedi, – oğlan evi səni təbrikə gəlib. Üzr istəyirik, biz Məcid ilə ZAQS-a gedirik. Hamınızı sevindirmək istəyirik. Sizi də, qonaqları da şad xəbərlə salamlayırıq. Söz veririk ki, bizim qurduğumuz gənc ailə sizin köklü ailələr qədər möhkəm, eyni zamanda, ata-analara layiq olacaq, hamınız arxayın ola bilərsiniz.

Nisə xanım Nazlını danlamağa başladı:



– Ay qızım, dağ kimi iş başlayırsan, mübarək olsun, bunu qabaqcadan niyə demirsən ki, hazırlıq görək?

– Nə hazırlıq, ay ana?! Təki iki qəlb qovuşsun.

– Bunun paltarı, cehizi, toy tədarükü var, – deyə elçilərdən biri Nisə xanımdan soruşdu.

– Ay ana, mənim də, Məcidin də paltarımız var. Cehiz də. Bir otağa lazım olan cehizi Məcid özü alıb. Toy tədarükü sabah-biri gün olacaq. Daha fikir çəkmə, nigaran qalma!

Nisə xanım quruyub qalmışdı. Böyük bir tələşla söhbəti Nazlının atasına danışanda dizlərinə çırpıb təəccübdən qızarırdı. "Belə iş görməmişik, ay kişi, zəmanə ayrı cür olub. Nə bilim, qız gör nə danışır!"

Kişi təzə bir söz eşitmirmiş kimi sakit tərzdə sözünü dedi:

– Ay arvad, toyun sahibi evlənənlərdir. Qızdır, oğlandır, mübarək olsun! Necə istəyirlər, qoy elə etsinlər. Onlara xoşbəxtlik arzusundan başqa nə istəyimiz olacaq? Qızıma da de ki, nə çatışmazlıq olsa, hazıram əlimdən gələni eləməyə!

– Oğlanı tanıyırsanmı?

– Nazlı yaxşı tanıyır. Məktəb yoldaşıdır.

– Nisə xanım, bu xeyir işdir, mübarək olsun. Qızım sevəni mən də sevirəm! Komsomol toyu ilə aran necədir?

– Nə olar, lap komsomol toyu. İndi zəmanə başqadır, adət ayrı cürdür. İndiki cavanlar komsomol toyu istəyirlər, mübarək olsun!

■ ■ ■

Gənclər qohum-əqraba ilə birlikdə toy tədarükünə başladılar. Nazlı da, Məcid də işin lap adi məsələlərini birlikdə həll edirdilər. Səadət sarayına, məclisin səliqəsini, xörəklərin keyfiyyətini yoxlamağa, dərziyə, xanəndə, çalğıçı dalınca...

...Bir payız axşamında Bakının təzə, geniş, abad, izdihamlı küçələrində bəzəkli maşınlar musiqi-mahnı içində bir–birinə macal vermədən süzürdülər. Ötüb-keçənlərin hamısı yeni həyat quranları salamlayırdı.

Nisə xanımın intizarı və təlaşı sevincli mərasimdə itib getmişdi. Onu qonum-qonşu əhatə edir, öpüb qucaqlayırdı. Qadın həyəcandan bilmirdi kimə nə desin. Əziz, yeganə qızının toyu Nisə xanımın öz toyu kimi şirin və fərəhli idi.

*1972*



# MARAL

*Bəzək-düzək ki deyirlər, cəvahirat deyil,*
*Cəvahirat bu gün ziynəti-həyat deyil!*

*Ə.Sabir*

## I

–Oğul, niyə elvənmirsən, niyə qəşəng bir ailə qurmursan ki, yazıq anan da baxsın, qanadlansın. Gözümün ağı-qarası bir balamsan, sənə də ümid bağlamayım, kimə üz tutum?

Kəhrəba xanımın həmişəki giley-güzarı otağı başına almışdı. Ancaq bu dəfə otaqda Vəkil tək deyildi: qonşu Sonya, Rəfiqə ilə əyləşib çay içirdilər. Oğlan qalstukunu düzəldə-düzəldə anasının əzbərlədiyi danlağı etinasız eşidirdi. Məna vermirdi.

– Hər şeyin vaxtı var, ay ana! Xəstə tələsər, armud vaxtında yetişər.

– Vaxtı çatmayıb, bala?

– Çatmayıb, yox!

– Armud çoxdan yetişib, neyləyim ki, sən bir dönüb gözünün ucu ilə də baxmırsan!

– Sən havaxt bir halal süd əmmiş göstərdin ki, mən baxmadım?

Sonya xanım kənardan söhbətə qarışdı:

– Odur ey, Tellinin maral kimi qızını görmürsən, xala? Gündə şəkli qəzetlərdədir!

Rəfiqə əlavə etdi:

– Adı da Maraldır, özü də maraldır!

Rəfiqə sözünün ahəngini dəyişdi, peşman olmuş kimi ahəstəcə dedi:

– Amma onun deyəsən adamı var. Çoxdan gözaltı eləyiblər qızı.

Vəkil Maralı tanıyırdı, özünün də ona meyli var idi. Amma heç kəsə, heç yerdə bir şey deməmişdi. Qonşunun təsadüfi sözü onu oyatdı.

– Rəfiqə xala, Maralı deyirsən, kim gözaltılayıb?

– Kim olacaq, bir məktəbdə oxuduğu oğlan – Təmkin!

Kəhrəba xala Rəfiqənin sözünü kəsdi:

– Kim deyirsən, Təmkin?

– Bəli, Təmkin! Qəzet yazan oğlan!

Vəkil sifətinə şillə dəymiş kimi güzgü qabağından çəkildi, qalstukunu da açıb yerə qoydu, təzəsini götürdü.

Kəhrəba xala Təmkinin adını eşidəndə quruyub qaldı.

– Balam, Şərbətin oğlu yumurtadan təzə çıxıb, nə tez evlənmək eşqinə düşdü.

Rəfiqə bildiyini təfsilatla danışmağa başladı:

– Şərbət zirəng arvaddır, oğluna yaxşı tədarük görür, üzük-müzük axtarır, qız evinə də gedib-gəlir.

Kəhrəbanı od götürdü:

– O nə bilir üzük nədir, sırğa nədir?

– Niyə bilmir, zəmanə adamı deyil!

Vəkil Rəfiqənin cavabında ha istədi dinməsin, özünü saxlaya bilmədi:

– Təmkin kimilərinin üzünə baxan olmaz, Rəfiqə xala! Məktəbdə oxumaq şərt deyil, mən tanıyıram, o gədə lütün biridir!

– Niyə baxan olmaz, elə demə, şəkil kimi oğlandır.

– Maral hara, o hara!

– Mən onu Maral ilə cüt gəzən görmüşəm. Görmüşəm, gözümnən görmüşəm!



Rəfiqənin deyəsən Maral haqqında məlumatı çox idi.

Vəkilin xatirinə dəysə də, fürsəti fövt eləmək istəmədi:

– Harda görmüsən, xala?

– Lap qapımızda, öz qapımızda, qonşu deyilikmi? Səhər qapıdan çıxanda Təmkini pəncərədə tamaşa eləyən görərsən, hə! Necə deyərlər, can bir qəlb!

Bu sözləri Vəkil zahirdə vecinə almadı:

– Baxma, Maral onun üzünə tüpürmək də istəməz.

Vəkilin Maral haqqında belə qəti düşünməyi Kəhrəbaya xoş gəldi, oğlunun sözünə qüvvət verdi:

– İstəməz, istəməz!

Sonya da söhbətə qarışdı.

– Sən hardan bilirsən, xala?

– Mən Maralı yaxşı tanıyıram!

– Tanıyırsansa, bəs niyə durub tamaşa eləyirsən? Niyə oğluna bir işarə eləmirsən? Yaxşı qızı oğlanlar qızılquş kimi ovlayırlar. Zəmanə cavanları yaman olub, məhəl vermirlər.

– Oğlum bəgəm mənə, ana yazığa bir "hə" deyir ki, mən də işarə verəm?

Kəhrəba sözünü qurtarmamış Vəkil üzünü Rəfiqəyə tutub bərkdən, bir az da hirslə danışdı:

– Təmkini mən tanıyıram, cibində bir abbası marojna pulu yoxdur. Maral da tanıyır, görünür, o gədə azıb, öz yerini bilmir. Sabah Maralı daş-qaş içində qoyaram. Təmkin görər ki, analar necə oğullar doğub.

Vəkilin bu cavabı anasının qəlbini tərpətdi. Köksü körük kimi qalxdı: "Belə ha! Bax, dilinə qurban, oğul, belə!"

– Günü sabah Maralın başına gəlin örpəyi salım, necəsən, bala, Vəkil?

Ana bu sözü deyəndə, oğlunun üzünə baxdı. Bir cavab almayanda irəli yeridi. Vəkilin yaxasından tutub silkələdi:

– Nə çox deyirsən, Maral, Maral! Ürəyin çəkir, sən "hə" de, sonrası bizim borcumuza!

Sonya da, Rəfiqə də Kəhrəbanı danladılar:

– Ay xala, uşağı belə dara qısnamaq olmaz. Qoy bir düşünsün, daşınsın. Oxumuş cavanlar hələm-hələm qol qoymurlar. Yüz ölçür, bir biçirlər. Tələsmək yaxşı deyil.

Sonya qızı tərifləyir, deyirdi ki, Maral doğrudan da bu evə layiq gəlindir, əlində diplomu, savadlı, özü yaraşıqlı, şəkil kimi gözəlliyi! Yox, əldən vermək olmaz! Xüsusilə, Vəkilin daş-qaş haqqında danışması qonşuya həm xoş, həm də həqiqət göründü. Vəkil hirslənmişdi, "Maralı daş-qaş içində qoyaram, onda görər..."

Onun bu əsəbi halı anasına nə qədər fərəhli idisə, qonşularına da aşkar bir həqiqət idi.

Vəkil indi şəhər cavanları arasında sayılıb-seçilən oğlan idi. İkinci il idi institutu qurtarmışdı. Xarici ezamiyyətdə, tərcüməçi işləyirdi. "Volqa" maşını altında, belədən-belə gəzir, hər gələndə ana-bacısına çamadan ilə ipək, şal, paltar gətirirdi.

Sonya doğru düşünürdü: "Maral belə oğlanı qoyub Təmkin kimi yolütün birinə getməz. Yox, getməz! Çox da məktəb yoldaşıdır. Yoldaş yoldaşlığında, indi qızlar daş-qaş, geyim-kecim istəyirlər."

## II

Rəfiqə xanımın sözü Vəkili lap ayıltmışdı. Təmkin kimi bir oğlanın Maral iştahasında olmağı ona qəribə, həm də gülünc gəlirdi. Ürəyində deyirdi: "ay həpənd!"

Əlbəttə, Maral bilsəydi ki, varlı-karlı oğlanların, xüsusən, Vəkil kimi "Volqa"lı igidlərin onda gözü var, bəlkə də Təmkinə heç fikir verməzdi. Amma yazıq qız hardan bilsin? Ovcunu iyləməyib ki.

Belə yerdə tərpənməmək, açıq-aşkar əfəllikdir. Marala bildirmək lazımdır, qoy bilsin ki, ona gözü düşən var! Səhərisi gün Maral dərsə gedəndə trolleybus ayağında qız Vəkilə rast gəldi. Oğlan maşından düşən kimi qızı çağırdı:

– Maral, yolun uzaqdır, maşına buyur, aparım!

Maral razılıq elədi:

– Çox sağ olun, iki dayanacaqdır, gedərəm, zəhmət çəkməyin!



– Zəhməti-zadı yoxdur, yolum oyanadır, gedək, utanma, öz maşınındır.

Oğlanın təkidi Marala qəribə gəldi, istər-istəməz razı oldu, maşının dal yerində əyləşmək istədi, Vəkil ərk ilə onun qolundan tutub qabaq yerə çəkdi:

– Bəri gəl, a qız, utanma, iki addım yoldur, yanımda otur!

Maral rədd eləmədi. Əyləşdilər. Vəkil içki məclisindən çıxmış kimi, kəhər at çapan igidlərtək yüksək əhvali-ruhiyyə ilə maşına hərəkət verdi. "Nə olaydı, bu dəqiqələrdə Təmkin qabaqdan çıxaydı, görəydi ki, Maral qəpik-quruş adamı deyil, milyonlara dəyən qızdır. Görə idi ki, dünya xali deyil, qız tanıyan igid oğlanlar var. Daha belə yerdə "xırda-xuruş" nə iş var! Get otur yerində, ay həpənd. Bu fikirlər Vəkilin ürəyindən siyrilib keçməmişdi ki, Maralın zərif, xoş səsi eşidildi.

– Çatdıq, çox sağ olun!

Qız ceyran kimi çırpınaraq düşmək istəyəndə Vəkil maşında yuxudan ayılmış kimi, səhvini anladı. Anladı ki, belə fürsət zamanında təklikdə Maralın yanında susub oturmaq da, içində danışmaq yox, mərifətlə söhbət eləmək, qızın qəlbini almaq, şirin sözlərini eşitmək fürsət idi, vacib idi. İri, qara əllərini şapalaq kimi dizinə vurub təəssüf elədi: "Bay, başın batmasın, ay Vəkil."

Nə isə, keçmişdi. Cəld və səsli addımlarla məktəb qapısına yaxınlaşan Maralın dalınca hirslə baxmaqdan başqa əlacı qalmadı. Gözlədi ki, qız məktəb həyətinə girəndə dönüb arxasınca yola salan oğlana, heç olmasa onu gətirən maşına baxacaq. Heç olmasa yaraşıqlı əli, fındıqçalı barmaqları ilə "sağ ol" işarəsi verəcək.

Heyif ki, olmadı, qız elə sürətlə getdi, deyərsən bu təntənəli bina onu ağuşuna almağa çoxdan müntəzir idi.

"Get, ay namərd, get, ay namərd, əlbəttə..."

Vəkil ürəyindəki arzunu dilinə gətirmək, "əlbəttə bir əlimə keçərsən" demək istəyirdi, ancaq söz boğazında ilişib qaldı. Maşını çevirib yoluna düzəldi.

Şəhərin izdihamlı, geniş küçələrilə gedirdi. Amma hara, niyə getdiyini bilmirdi. "Zalım balasının adı da, özü də maraldı! Anam nahaq demir ki, arvad bilib deyir, lap düz deyir."

## III

Bir həftə çəkmədi ki, qız evinə bir dəstə elçi daxil oldu. Kəhrəba xala bacılarını, yaxın qonşularını götürüb Maralgilə gəlmişdi. Elçi kimi yox, sadəcə icazə almağa, məsləhətə gəlmişdi. O qızın anası haçan, saat neçədə evdə olur, xeyir iş söhbətinə münasib vaxt haçandır?..

Vəkil anasını qız evinə göndərəndə bərk tapşırmışdı:

– Ay ana, handa bir ipək-şal paltarlarını geyin, daş-qaşıvı tax! Qoy görsünlər ki, gələn kimdir. Qız evində, təzə qohumlara artıq-əskik danışmayın! Oxumuş, ali məktəb qurtarmış Maralı özünüzə güldürməyin. Hərçənd belə yerdə qız özü qonaq qabağına çıxmaz, hər halda ehtiyatlı olun. Soruşan olsa, deyin Vəkilin "Volqa"sında gəlmişik! Eşitdinmi, artıq söhbət gərək deyil!

– Deyərəm, oğlumun öz maşınında gəlmişik!

– Maşınında yox ey, "Volqa"sında. İndi nə çoxdu maşın, amma "Volqa" ayrı maşındır. Qoy Maral eşitsin, bilsin!

Anası oğlunu qucaqlayıb oğlunun üzündən öpdü, onu arxayın salmaq istədi:

– Bala, xatircəm ol! Anan səni utandırmaz. Arxayın ol.

Kəhrəba xala Maralgilə gəlməkdə, Maral da institutun alimlər dəstəsilə Moskvaya yola düşməkdə!

Telli qızı yola salanda, qapıda qonaqları görüb tez içəri qayıtdı. Gələnlərə xoş gəldin deyib maşının qabağına qaçdı, qızıyla öpüşüb, qucaqlaşıb yola saldı:

– Uğur olsun, bala, sağ get, salamat gəl!

Kəhrəba xala bu səfəri görüb heyran qaldı. Əlini sağa-sola oynatdı: "Bu nə işdir? Nə səfərdi?" Qız anası başa saldı:

– Maral Moskvaya daklada gedir. Taxıl zəmilərinə ziyan verən cücülərin dərmanını tapıb. Onu yuxarıdan istəyiblər.

– Buyurun içəri, xanım.

Telli gələn qonaqları tanımasa, məram-məqsədlərini bilməsə də, hörmət eləməyi vacib sayırdı:

– Keçin içəri, əyləşin.

Maralın maşını səslənib uzaqlaşandan sonra arxayın, rahat içəri



qayıtdı, qonaqlarla söhbətə başladı.

– Qızın heç başını daramağa macalı yoxdur. Evdə oturmağa da qoymurlar. Gah ministr çağırır, gah direktor axtarır, məktəb bir yandan, sayuz bir yandan, bunun işi qəribədir. Məsul iş belədir. Bacım, indiki qızlar, maşallah, oğlanlardan geri qalmırlar, hey çalışırlar, yorulmaq bilmirlər...

Qonaqlar bir qədər oturdular. Qızın ev–eşiyinə diqqət yetirdilər. Bir-birinin üzünə baxıb işarə ilə məsləhətləşdilər. Əsl məsələni açıb-ağartmağı sonraya qoydular.

– Maral Moskvadan qayıtsın, gəlsin. Bir də sizə zəhmət verərik, Telli xanım, hələlik salamat qalın!

Vəkil elçilərinin qayıtdığını eşidəndə anasına bərk acığı tutdu:

– Bir dəstə arvad atıla-atıla gedib beş kəlmə danışmağı da bacarmamısınız? Qız səfərə gedib, nə olar, ailəsi ki yerindədir! Nə olar, məsələni deyəydiniz ki, xeyir işə gəlmişik, qoy bilsinlər! Burada bir siqret-zad var bəyəm?!

Bir ay çəkmədi Maral məzuniyyətdən gəldi. Gələn kimi də təzə xəbər bütün qonum-qonşuya yayıldı. Sən demə, qız Moskvada ikən elçisiz-filansız Təmkin ilə alışıb-verişibmiş. Yetən Tellini təbrik edirdi:

– Xoşbəxt olsunlar, cavanların toy məclisində bizi unutmayın.

Kəhrəba gözləmədiyi bu xəbəri eşidəndə bilmədi neyləsin, Vəkilə nə cavab versin.

Vəkil axşam od kimi evə girib az qaldı anasını ağır söz ilə söysün:

– Adamı qızışdırıb ortaya salırsınız, əlinizdən də bir abbasılıq iş gəlmir. Duran öküz yatan öküzün başına oturar. Kirdarsız adamın işi belədir. Sizə söz tapşırmalı deyil. Gərək özüm çərmənib, qız ilə özüm danışaydım. Heyif, heyif!

Qızlarda baş yoxdur ki, gör kimə gedib? Təmkin özünə bir kostyum ala bilmir. Elə kübar qızı necə geyindirəcək. Heç Maral yazığa bunu başa salan olmayıb ki, ay qız, nə eləyirsən, kimə gedirsən? O gədə səni teatrda, kinoda gəzdirəcək, ya taxıl zəmilərində kəpənək qovalayacaq?

Bir istədi anasını yaxşı hazırlayıb tədarük ilə qız evinə bir də göndərsin: "Nə olar, qız ağacı qoz ağacı, yetirən bir tolaz atar."

Bir də fikirləşdi ki, işi korlayan özüdür: köhnə üsul ilə təzə ailə qurmaq səfeh işdir. Təmkin ezamiyyətdə qız ilə üzbəüz danışıb məsələni həll elədiyi halda, sən vacib məsələni arvadlara, özü də savadsız arvadlara həvalə eləyirsən. Atalar yaxşı deyib: "Kor atın kor da nalbəndi olar." Mənim kimi bəyin, anam kimi də elçisi olar. Vay sənin halıva, ay Vəkil, qal başıva döyə-döyə. Cibində qat-qat çervonları nəyə yığmısan. Ay həpənd, aşıq oynayırsan, ay həpənd?..

Birinci dəfə idi ki, Vəkil həpənd sözünü özü haqqında işlədirdi. Özü də yerində, doğru işlədirdi: "Aşıq oynayırsan, ay həpənd?"

Cibindəki göy əlliliklərə əli ilişəndə, onların bu dar gündə köməyinə gərəksiz olduğunu, heç olmasa – Maralın yolunda sərf olunmağa da yaramadığını düşünəndə az qaldı çəngələyib dənizə atsın: "Bu pul ki düşünəndə sevgi yolunda sərf olunmayacaq?! Nəyimə gərəkdir?!"

*1972*



# İSTİ AŞA SOYUQ SU

## (Kiçik hekayə)

–Əə, Məcid, o nədir, ananı o kökdə saxlayırsan? Dünən sanatoriyada görmüşəm. Əynində bir cındır kofta var, kimin üstünə atsan, hürküb qaçar. Nə olub, bəyəm, arvada üç metr abırlı parçadan paltar tikdirə bilmirsən? Ayıbdı, əə! Necə lazımdır verim, o arvada yaxşı paltar al! Görən nə deyər? Anandır axı!

Məcidi heyrət götürdü, bilmədi, nə cavab versin:

– Anamın paltarı var, özü də təmiz geyinəndir. Bilmirəm, sən nə sayaq görmüsən? – dedi.

– Bəsdi, əə, sən canın, elə çit koftanı indi ev qulluqçuları da geyinmir. Gül kimi paltarlar var. Aləm al-əlvan geyinir. Anam sağ olaydı, görəydin onu necə geyindirərdim. Xalq arzulayır anam olsun, ona baxım, xəcalətindən çıxım. Ana ayrı şeydir, gərək onun qədrini sağlığında biləsən. Yoxsa, öləndən sonra, ay ehsan verim, heykəl düzəldim, qəbrini bəzəyim... Nəyə lazımdır? İndi göz önündə dost var, düşmən var! Get bir dəst abırlı paltar al, görüb-götürmüş, xanım-xatun arvaddır. Ürəyinə dəyər. Südü halal olmaz! Başa düş, gör nə deyirəm.

Məcid fikrə getdi. İşdən gələndən sonra birinci diqqəti anasının əyin-başına verdi. Arvadın geyimi qaydasında idi. Köynək də, tuman da, başında ipək yaylıq da yaxşı idi. Bununla bərabər, bəzi dost-düşmən tənəsindən uzaq olmaq üçün dedi:

– Ay ana, bu koftanın rəngi solub, niyə dəyişmirsən? Yaxşı paltarların azdır sənin? Var ki!

– Paltarıma nə gəlib!

– Haçana saxlayırsan bəs?

– Saxlayıram nəvəmin toyuna!

– Saxlama, geyin, lap yaxşısını geyin!

Arvad güldü:

– Ay oğul, mən zarafat elədim, sən də inandın? Mənim geyinməyimi görmürsən? Nəyidi bunun, təptəzə paltardı. Mən al da geyirəm, şal da geyirəm. Nə olub, sənə pis görünür? İndiyəcən heç səndən bu sözü eşitməmişəm!

Oğlu gördü ki, anasının qəlbinə dəyib:

– Acığın tutmasın, ana, söz idi dedim. Mən istəyirəm, yaxşı geyinəsən, baxan, göz qoyan var!

– Göz qoyanın gözü çıxsın, mənim libasıma nə gəlib! İndi də bunu sözə qoyurlar?

Oğlu dinmədi.

Zahirdə dinmədi, amma ürəyində danışırdı və səhər eşitdiyi acı, qərəzli tənə qulağında təkrar səslənirdi.

Deyəsən, bir adam xəlvətcə buna dedi ki, "Ayıl, ətrafına yaxşı bax, hərif səni qızışdırmaq üçün, ovqatını qarışdırmaq üçün elə deyir. Qələt eləyir, deyir! Niyə baş qoşursan? Boş sözlərə qulaq asma!"

Oğlan gördü ki, ana ilə bala arasına ədavət salmaq, onları vuruşdurmaq üçün bu bəhanəni tapıblar.

Əvvəl bir istədi, nanəcib adamın sözünə məna verməsin. Bir də dedi: "Yox, belə yerdə hərifin murdar ağzını yummaq lazımdır."

Bir gün həpəndin qabağını kəsdi:

– Necə oldu? Anamın koftasını bəyəndinmi?

– Təzə almısan?

– Olar, bir on beş il!



– Mən deyirəm təzəsi olsun!

– Sən əbəs yerə elə deyirsən! Sənin anan üç oğul anası idi, ömrü boyu elə kofta görmədi.

– Yox, əşi?

– Başın üçün!

– Mən hardan bilim?

– Sənin gözün orda-burda olmasa, görərsən, öz gözündə tirə bax, başqa gözdə tük axtarma!

– Deyəsən, acığın tutub?

– Nanəcibin özü də, sözü də adamı hirsləndirər!

– Mənəm nanəcib?

– Lap yekəsindən!

– Mənə deyirsən, bu sözü?

– Lap sən cənabına!

– Lənət sənə kor şeytan! Mənim işim niyə belə tərs gəlir?!

*1973*

# NİGARAN OLMA

Xeyirxahlıq yaxşı xasiyyətdir, heyif ki, hər adamda olmur. Təbiətcə mülayim, insanpərvər, işgüzar olanlar hər zaman, hər yerdə, hər çətin işdə hər kəsə təsəlli, məsləhət verməkdən çəkinmirlər:

– Nigaran olma, arxayın get, ürəyini sıxma, düzələcək. – Əlbət ki, belə şəraitdə sən də inanıb, ümid bəsləyirsən, sakit olursan.

Atalar yerində deyiblər: "Sən saydığını say, gör fələk nə sayır."

Yeni kitabım redaktədən çıxıb mətbəəyə verilmişdi, çapını gözləyirdim.

Başına gələnlər bilir ki, kitab yazmaq nə deməkdir, ana balasını əzizləyib nazını çəkən kimi, kitab çapını gözləyən müəllif də həmişə ağrı, intizar çəkir.

Kitabın yazılması, plana düşməsi, redaktordan çıxması, təshihə gəlməsi, mətbəəyə getməsi, çap dəsgahından keçməsi... Hərəsi bir prosesdir.

Xoşbəxtdir o müəllif ki, əsəri bu prosesdən salamat çıxsın, bir yerdə ilişməsin.





Onu deyim ki, mən də özümü bu xoşbəxtlərdən sayırdım. Çünki kitab hər mərtəbəyə düşüb-çıxdıqca ürəyimdə sevinirdim.

– Şükür, ilişmədi! Şükür, yaxşı keçdi.

Ailə üzvlərimə müjdə verirdim:

– Kitabım çapa getdi, bir aya çıxar.

– A kişi, inşallah de!

– İnşallahı yoxdur, kitab çıxacaq, arxayın ol!

Yoldaşlar da məsləhət görürdü:

– Ağzın xeyirə açılsın, inşallah de!

– Kitab çıxacaq!

– Toyuq da arxayın olmuşdu ki, uçacağam, nə oldu, bütün quşlar uçdu, o yazıq uça bilmədi.

– Toyuq toyuqdur, indi iyirminci əsrdir. Canlı adamlar da mənə söz verirlər: "Kitab çıxacaq!"

Artıq-əskik söhbətlər məni də şübhəyə salırdı, kitabın dalınca tez-tez gedirdim:

– ...Kitabdan nə xəbər var?

– Çapdadı!

Axırda soruşdum:

– Çapın harasındadı?

– Yığılır!

Bir ay sonra soruşanda:

– Kitabdan nə xəbər var?

– Korrektordadı! – dedilər.

Beş ay sonra soruşanda:

– A filankəs, bu kitabın başında nə var?

– Çıxacaq, nigaran olma! – dedilər.

– Qardaş, korrektorda kitab bu qədər yatmaz, axı?

– Yatır.

– Axı, ildən çoxdur ki, bu yazıq əllərdədir, niyə başa gəlmir?

– Şöbədən soruş!

Şöbə müdiri deyir:

– Rəisdən soruş!

Rəis deyir:

– Nigaran olma, çıxacaq!

Bir il belə, iki il, üç il belə...

Səbir kasası dolub-daşanda sədrə müraciət elədim:

– Bu kitab neçə il mətbəədə dustaq qalacaq, canım?

– Nigaran olma, çıxar!

Sədrdən də böyüyə müraciət elədim:

– A yoldaşlar, bu kitabın günahı nədir, beş il kitab mətbəədə qalmaz axı! Aşığın sözü olmasın:

*Yalan demir, rüşvət yemir,*
*Nə günahı telli sazın?*

O, utanan kimi oldu:

– Əyləşin, beş dəqiqə!

Telefonu götürüb zəng vurdu:

– Ay İsmayıl, filan kitab niyə ləngiyir?

– Çıxacaq!

– Bu cavabı müəllif çox eşidib. Mən də eşitmişəm. Kitab haçan çıxacaq?

– Bu il çıxacaq!

– Bu il, yetmiş ikinci ilin noyabrıdır. Bu aya çıxar?

– Çıxar, bəli!

– Düzünü de!

– Bloknotunda yaz! Yanvarın axırında kitab əldə olmasa, daha məndən küsmə!

Sabahısı gün səhər tezdən şöbə müdiri başılovlu mənim yanıma iltimasa gəldi:

– Canım, bir kitab nədir ki, onun üçün bizi məsul yerə, yoldaşların yanına çəkirsiniz. Uzağı bu həftə kitabınızı məndən hazır istəyin!

– Mənim ayrı iddiam yoxdur. Kitab çıxsın!

– Xahiş edirəm, bizim barəmizdə məsul yerlərə şikayət eləməyəsiniz!

Mən dinmədim. Bir də iltimas elədi:

– Söz verirsiniz ki, bir də şikayətçi olmayacaqsınız?



Mən hərifin sözünü kəsmək üçün mətləbdən yapışdım:

– Kitab çıxar, danışarıq.

– Kitab çıxacaq!

– Çıxanda danışarıq!

– Yəqin çıxacaq.

– Çıxsın, baxarıq.

– Nigaran olma!

– Bu sözü çox eşitmişəm.

– Yox, bu dəfə...

Hərifin üzünə baxdım, dinmədim.

Hələ də kitab çıxır!

Yoldaşlarımdan təsəlli eşidirəm.

– Qardaş, Allah sənə səbir versin.

Sabir demişkən:

*İşin düşdü xəbisə, mərdimazara, darıxma! Yanma, səbr eylə!*
*Düşünmə çarə – səs salma, bezib aldanma, səbr eylə!*

*1973*

# TOY TƏDARÜKÜ

Hər yaşın öz qayğısı, öz tələbi var. Doqquz aylıqda doğulasan, dünyaya gələsən gərək (tələsənlər yeddi aylıqda gəlirlər). Bir yaşa çatdın, yeriyəsən gərək. İki yaşda danışasan, üç yaşda bağçaya, yeddi yaşda məktəbə gedəsən gərək, on altıda işə gedə bilərsən, on səkkiz, iyirmi yaşda evlənsən yaxşıdır.

Ad günümdə nənəm məni əzizləyər, aş bişirər, hədiyyə alar, yaraşığıma baxardı. Bu dəfə açıq dedi:

– Haçan evlənirsən, ay oğul? On səkkiz yaşın tamam olub.

– Hələ tezdir!

– Nəyi tezdir? Mən o yaşa çatanda iki uşağım var idi. Əsl vaxtdır, bala! Maral kimi qızların birini bəyənsənə, elçi gedək, toy eləyək, dəsgah quraq, gəlin gətirək!

– Tələsirsən, ay nənə, qoy bir məktəbi-zadı qurtaraq!

– Məktəbə nə var, qurtaracaqsan, arxayınam.

– İndiki qızlar diplomsuza gəlmirlər.

– Sənin kimisi üçün sinov gedirlər.

– Niyə? Oğlan azdır?



– Çoxdur, sənin kimisi hanı?

– Ay nənə, sənə elə gəlir, hər kəsin qarğası özünə qırğıdır.

– Sənə nə olub, təki hamının balası belə böyüsün.

– Oğlanı qız tanıyar, sənin tərifinə qulaq asan olmaz.

– Təriflәmirəm, göz qabağındadır, necə deyərlər, Araz axır, gözüm baxır...

Gün o gün oldu ki, nənəmi muştuluqladım:

– Ay nənə, Rübabəni, montyor Həmidin qızını istəyirəm. Necədir, bəyənirsən, ya yox?

– Yaraşıqlı qızdır, özü də qapıbir qonşu.

– Qonşuda qız sevənin ürəyində yağ olmaz.

– Sən yox, o sevib, sən də "hə" demisən. Mübarək olsun.

– Bunu hardan bilirsən?

– Bilirəm, yaxşı bilirəm.

– Bilirsən, daha nə durmusan, başlasana!

– Tələsmə, hər şeyin vaxtı, yeri var. Sənə elçi getmək lazımdır, mənim gözüm üstə!

Nənəm məni yoxlamaq istədi:

– Günü sabah xanımları yığıb gedərəm montyor evinə, nə olacaq, ata-anasının başmaqları da razıdır. Qız istəyəndən sonra kimin nə sözü. De görüm, qıza pal-paltar, üzük-müzük almısanmı?

Məni fikir götürdü:

– Burada deyiblər, məscid tikilməmiş kor qapını aldı! Xeyir iş baş tutsun, qalan tədarükü də görərik, nə var ki!

– Ay bala, qəribə danışırsan, elçi gedəndən sonra təzədən tədarükə başlamayacaqsan ki. İndi nə hazırlığın var, qoy ortalığa, biz də məsləhətləşək, ona münasib iş görək.

– Ay nənə, hazırlıq deyəndə, bir üzükdü, bir dəst də paltar. Nə olub daha, savadlı qızdır, ona dəvə yükü cehiz aparmayacaqsan, işini gör.

Nənəm kirimiş durub o biri otağa keçdi, anamı çağırdı. Xısın-xısın söhbətə başladılar. Mən sakitcə dayanmışdım, anamın cavabını gözləyirdim.

Çox çəkmədi, anam otaqdan çıxdı:

– Xeyir olsun, Rübabəni bəyənmisən deyirlər.

– Mən də bəyənmişəm, nənəm də, yığışın elçi gedin.
– İndinin elçisi oğlan özü olur, sən bəyənmisən, bizə də xoşdur.
– Nənəm tədarük görür.
– Görür, qoy görsün.
– Özü görsə yaxşıdır, mənə gördürür.
– Qız bilər, sən bilərsən.
– Nənəm ayrı cür düşünür.
– Nə düşünür?

Anam bunu deyəndə nənəm o biri otaqdan dik atıldı içəri:

– A qızım, oğlan cavandır, xam adamdır, birdən-ikidən belə işlər görməyib. Toy-tədarük nə bilir. Mən demişəm gərək tədarük görsün.

– Nə tədarük desən, özü görər.

– Özü nə bilir? Dünənin uşağıdır: üzük bilir, sırğa bilir, qolbaq bilir?

– Ay ana, zəmanə uşağı yəni qolbağı da bilmir?

– Bilir ey, bilmək var, bilmək var!

– Nə lazımdır, özü eləyəcək.

– Özbaşına buraxmaq olmaz, elçi gedənə tədarük lazımdır.

Mən dözmədim, nənəmin qabağını kəsdim, soruşdum:

– Nə tədarük, ay nənə, aləm evlənir, mənə nə olub. Sevdiyim qızla ZAQS-a getməyə nə dəsgah başlayacağam?

Mənim sözüm nənəmə bir az qəribə, bir qədər də ağır gəldi.

– Ədə, kiri, kəs səsini! O yan-bu yanda da deyərsən, biabır olarıq. Qız evi də səni qapıdan qovar, kiri, otur yerində.

– Ay nənə, mən nə eləməliyəm?

– Sən uşaqsan, bilmirsən ki, evlənmək ömürdə bir dəfə olur, gərək ata-ana nə var, güc vura! Paltar nədi, üzük nədi, sırğa nədi! Gərək qızın ürəyindən keçənə əməl eləyəsən.

– Qızın ürəyindən keçən mənəm, mən də ki razı.

Nənəmi heyrət götürdü, dik dayanıb mənim üzümə baxdı, bir cavab almayanda əsəbiləşmiş kimi üzünü cırmaqladı:

– Qız sənin qaş-gözünə aşiq deyil, bala, qız paltar istəyir, bərbəzək istəyir. Qohum-əqrəba yanında fors eləmək istəyir. Sən də gərək onun yeddi arxasınacan padarka aparasan: atasına, anasına kostyum, qardaşlarına saat, bacısına qolbağ, xalasına şal paltar, əmisinə cib saatı,



məktəb yoldaşına qəşəng portfel, müəlliminə bir atrez...

– Ay nənə, mən bu yük altından çıxa bilmərəm.

– Az danış, ömründə bir dəfə evlənirsən, arzu-kam eləyirsən, burada qəpik-quruş güdəcəksən? Az danış, sən mənə qulaq as, qoy işimizi görək.

– Ay nənə, yoldaşlarım elə asanlıqla evlənirlər ki, mənə nə olub?!.

Nənəm qəzəblənmiş kimi, ovcu ilə ağzını örtdü.

– Yoldaş, yoldaş! Sən bilirsən kimin oğlusan? Səni yetənə tay tutmaq olar? Səni aləm tanıyır, saya salır. Rübabə hər yerdə səninlə fəxr eləyir, adın gələndə camaat ayağa qalxır, toyun ayrı cür toy olacaq. Aç qulağını, eşit.

■ ■ ■

Nənəmin nəsihətlərini eşidəndə məni fikir götürdü, gördüm ki, burada Rübabənin də, mənim də düşündüklərimiz heçdir. Nənələrin planı ilə evlənmək uzun məsələdir. Bu söhbəti danışanda Rübabə mənə təsəlli verdi:

– Nənələrə zəhmət vermək, toy xərci istəmək artıqdır. Özümüz evlənərik, sonra onları muştuluqlarıq.

Məni gülmək tutdu. Güldüm, amma razılaşdım. Rübabə doğru düşünürdü. Nənənin planı hara, nəvənin planı hara!..

Elə də oldu. Sakitcə ZAQS-a getdik. Orada bizi təbrik elədilər, qayıdandan sonra nənələri götürüb restorana – çığırtma yeməyə apardıq.

Onlar da üzümüzdən öpdülər, xeyir-dua verdilər.

Mən nənəmin könlünü aldım:

– Ay nənə, sizə və qohumlara hədiyyə borcumuzu unutmamışıq, arxayın olun.

Nənəm bir şey demədi, güldü, tərs-tərs üzümə baxdı:

– Rübabə sənin dərsini verib, daha sözüm yoxdur. İndiki cavanları Tanrı saxlasın.

– Saxlasın, ay nənə!

*1973*

# VARİSLƏR

M.Qorkiyə

Çoxdanın, qırx ilə yaxın bir zamanın söhbətidir ki, sizə danışıram: onda mən cavan, gümrah, çevik bir tələbə idim. Yay tətilini vətən yaylaqlarında keçirməyi, fürsətdən istifadə edib qoca, təcrübəli kişilərin xatirələrini dinləməyi, vəzifəm ilə bağlı bir iş olan xalq ədəbiyyatı nümunələrini toplamağı sevərdim.

Yayın isti günlərindən birində yerli tələbə yoldaşlarımdan biri məni müdrik bir kişinin, qoca bağbanın yanına, Dilican yaylağının mənzərəli bir dağ döşünə gətirdi.

Yaşıl məxmər kimi, yan-yana yatmış bağ, bostan, tarlalar, sanki həsrətini çəkdiyi qızmar günəş altında bərq vurur, yüngül küləklərdən dalğalandıqca gümüş rəngə çalır, al-əlvan naxışlı xalça kimi çalxalanırdı.

Müsahibim də kənd adamı idi. Mənim bahar mənzərələrinə valeh olduğumu gördükcə qolumdan tutub irəliyə çəkirdi.

– Bəri gəlin, sizi maraqlı bir sima ilə, bu yerlərin ustası, təbiət aşiqi ilə tanış edəcəyəm.

Yaxşı bəslənmiş, təzəcə bəhər tökmüş abad bostanın mərzindən



keçdik, alçaq çəpər dalında ağaclı-kölgəli bir həyətə girdik.

Göy maykalı, çalbaş bir kişi əlindəki nacaq ilə taxta yonurdu. Bizi görən kimi, belini düzəltdi, alnının tərini sildi. Nacağını yerə qoydu, bizə üz tutub salam verdi.

Müsahibim qocanı mənə təqdim etdi, daha doğrusu, məni qocaya təqdim etdi:

– Ərşad dayı, sənin bağ-bostanına tamaşaya gəliblər. Bizim tələbə yoldaşdır, tanış olun. Şəhərdən gəlib!

Ərşad kişi dostunu görmüş adam kimi, cəld və fərəhlə gülümsündü, irəliyə yeriyib əl verdi:

– Xoş gəlibsiniz, bağ-bostan sizə qurbandı!

Ərşad dayı çirməkli qollarını uzadıb bizə əl verdi, əyləşməyə yer göstərdi.

Bostan məhsulunun təzə yetişən vaxtı idi. Sanki qoca öz əməyinin bəhrəsini nümayiş etdirmək üçün tağlarda yan-yana yatışıb dağ günəşinin feyzli şüalarını əmən boz qartmaqlı yemişlərdən ikisini üzüb gətirdi, boşqaba qoyub cib bıçağı ilə kəsdi, doğradı, dilimlədi:

– Varını verən utanmaz. Siz şəhər camaatı şirnidən, konfet, şokoladdan varlısınız. Biz kəndli babayıq, varımız öz əmək məhsulumuzdur, dadına baxın, heç olmasa, dağ yemişi!..

Qoca bağban üzünü evdəkilərə tutdu:

– Qızım, çörək də, pendir də gətir yoldaşlara.

Mən Ərşad kişini qonaqlığına, sadəliyinə, səmimiliyinə görə, yarım əsrə yaxın bir müddətdə unutmamışam.

Bu dəfə yolum oralara düşəndə həmin güney tarlalara, bağçalara sarı döndüm, çoxdan görmədiyim qocanın xanimanını görüb yoxlamaq istədim.

Cavan bir aqronom ilə görüşdüm, ilk sözümdə soruşdum:

– Ərşad dayını tanıyırsınızmı, bacıoğlu?

– Xeyr, tanımıram. Mən buralarda təzəyəm.

– Ərşad kişi bu bağ-bostanın binasını qoyandır, çoxdan görməmişəm onu... Qabaqdakı ev, gərək ki onunkudur.

Aqronom, başı ilə yox işarəsi verdi:

– Bu ev, uşaq bağçasıdır.

Mən dimədim, evin çəpərinə, abı rəngə boyanmış təzə qapısına yanaşdım.

– Bağçanın qapısı deyəsən, buradır?

– Bəli, buradır!

Mən icazə və təklif gözləmədən güllü-çiçəkli həyətə girdim. Geniş eyvanda uşaqlara yemək süfrəsi hazırlayan bir qadına salam verdim:

– Bacı, qonaq istərsinizmi?

Döşlüklü xanım qabağa yeriyib, ədəblə salam verdi, bizi gülərüzlə qarşıladı:

– Xoş gəlibsiniz, qardaşlar, bizim bağçaya!

– Burada Ərşad dayının evini axtarıram.

– Kimin?

– Ərşad dayının, qoca bağbanın!

Ərşad dayının adını çəkən kimi, qadın yerində dondu.

– Siz onu hardan tanıyırsınız, əmi?

– Çoxdan biz dostuq, hələ siz anadan olmamış, 30 il bundan qabaq, mən onun bağında qonaq olmuşam!

Qadın hər şeydən xəbər tutmuş kimi, içəri girib döşlüyünü açdı, məni otaqlara çağırdı:

– Deməli, siz də bu bağda qonaq olubsunuz?

– Bəli, lap çoxdan, mən Ərşad kişinin dostu kimi, bu bağı gəzmişəm. Onda balaca otaq idi. Ağaclar da cavan idi... Deyəsən, bu yerlər təzələnib, mən görənə oxşamır.

Mənim ətrafa diqqətlə nəzər saldığımı, binanın yaraşığında, ağacların yaşındakı fərqi sezdiyimi görən qadın işin nə yerdə olduğunu başa düşüb, bir qədər məyusluqla mənə cavab verdi:

– Sizə yaxşı xəbər olmasa da, deməliyəm ki, yazıq Ərşad dayı on il olar ki, rəhmətə gedib.

– Rəhmətə gedib?

– Bəli, onda mən bu kəndə təzə gəlmişdim. Bağça müdirəsi göndərilmişdim.

Ərşad dayının vəfatı məni çox məyus etdi. Mənə elə gəldi ki, bu torpağın vəfalı oğlu ruhən səslənib mənə salam deyir. Mürəbbiyədən soruşdum:



– Bacı, onun övladından-zadından qalan varmı?

– Xeyr, yoxdur. Yazıq sonsuz idi.

Qadın kədərli bir xəbər deyən kimi, utana-utana qoca bağbanın son günlərindən mənə məlumat verməyə başladı:

– Ərşad dayı bu mahalda adlı-sanlı bağban idi, aqronomlara məsləhət verərdi. Onun əməyilə kəndin çox yeri abad olub, bu gördüyünüz nəhəng ağaclar: ərik, tut, armud, qoz, badam ağacları yəqin ki, o rəhmətliyin öz əlilə əkilib bəslənib.

Arvadı özündən neçə il qabaq rəhmətə getmişdi. Özünün vəsiyyətinə görə, ev-eşiyini qohumlarına yox, kəndin uşaq bağçasına verdilər. İspalkom da evləri, balkonu təmir elədi, böyütdü. Kişinin qəbri də bağın o başında, dik bir yerdədir.

– Qoy, dedilər, qoca bağban öz zəhməti ilə böyütdüyü bağ-bostana həmişə baxsın, buraya gəlib-gedənləri görsün, ruhu şad olsun. Bağbanın varisi yox idi, ancaq bağçada tərbiyə alıb böyüyən uşaqlar onun yaxşı varisləridir. Hamısı onu xatırlayır, kimi şəkil çəkir, kimi nağıl qoşur, kimi ağac basdırır. Ərşad kişi uşaqların sevimlisi idi.

Qadın qalxıb balaca sərgi otağına keçdi. Bizi də çağırdı.

– Buyurun, orada Ərşad dayını xatırladan çox lövhələr var.

Doğrudan da, bu yaraşıqlı otaqda bağbanın mən gördüyüm günlərə aid şəkli, tarlada aqronom ilə söhbəti, məktəb uşaqlarının çəkdiyi lövhə, mənzərələr, rayon, şəhər təşkilatlarının vaxtilə qoca bağbana verdiyi nişanlar, tərifnamələr...

Bağça mürəbbiyəsi Ərşad dayının həyatından, əməyindən, məktəblilərə, balalara nə qədər mehriban, şirin nağıllarından danışdı.

Mən onun bu səmimi, şirin, həm də kədərli söhbətlərini sanki tək yox, qoca bağbanla birlikdə dinləyirdim. Hərdən Ərşad dayı gülə-gülə müsahibinin izahına təsdiq verirdi ki:

– Qızım, o tut ağacı məndən qabaq əkilmişdi. Mən onu calaq eləmişəm, bir budaq ağ, biri qara tutdur. Kənardakı budağı çəkil qalıb. Saxlamışam ki, balalar görsünlər, necə ağacları cinsləşdirmək olur. Görsünlər ki, ağac necə təzələnir!

– Qızım, bu hovuz da məndən sonrakıların işidir. Onu, sağ olsun ispalkom Əşrəf tikdirib, fantanı da o qoyub. Balaların bu fantan

ətrafında halay vurub oynamağı mənim də ürəyimdəndir, səsim gəlməsə də, hər səhər-axşam baxıram, şad oluram.

Mürəbbiyənin söhbətləri Ərşad dayını gözümdə yenidən diriltdi, canlandırdı. Mən qoca bağban haqqındakı xatirə kitabçamı onun sərgisinə bağışladım. Bağça uşaqları ilə birlikdə xatirə şəkli çəkdirdim. Ərşad dayının qoca, şərəfli bağçasilə kədərli halda vidalaşdım. Vidalaşdım, ancaq o zəhmət, təbiət aşiqi qoca bağbandan mənən ayrıla bilmədim. Onun həyat, fərəh, həvəs dolu gözləri hər an mənim üzümə baxırdı.

Baxırdı, gülər üzlə baxır, susurdu.

*1973*



# ƏZİZ KİTABIM

Əziz dost, əziz qohum, qardaş, yoldaş, əziz sirdaş, məsləkdaş olar. Ancaq mən əziz kitab haqqında demək istəyirəm. Belə kitab bəlkə sizin hər birinizin varıdır.

Əziz kitab!

Belə kitabın qədir-qiymətini adam sonralar bilir. Orada oxunan, dərk olunan unudulmaz sözlər, həmişə adamın zehnində canlanır, dillənir, danışır, adamı danışdırır.

Əziz kitabımı mən həmişə müəllimim, dostum, sirdaşım kimi dindirirəm.

Ay mənim əziz və unudulmaz kitabım!

On dörd, ya on beş yaşım olardı. Beşinci şöbənin vəsiqəsini gah qoltuq cibimə, gah da kitab arasına, gah mücrüyə qoyar, üstündə əsərdim. Güman edərdim ki, vəsiqəmi itirsəm, müəllimlər məni məktəbə qoymazlar.

Axı mənim ən çox istədiyim, ən çox əzizlədiyim kitab əlimdən düşməzdi, vəsiqəni isə bu kitabın arasına qoymurdum. Niyə?

Ona görə ki, düşüb itməsin. Bu kitabı mən çox oxuyurdum. Əlimdən heç yerə qoymurdum.

Nadirin də "Hophopnamə"si var idi. Varaqları düşmüşdü. Mənimki səliqəli, təzə idi. Mən kitabımı çox qoruyur, heç kəsə vermirdim. Nadir axşamlar pəncərə qabağında "Hophopnamə"ni ucadan oxuyanda mən xəlvətcə qulaq asırdım.

*Ax, necə kef çəkməli əyyam idi,*
*Onda kı övladi-vətən xam idi.*
*Bizlər idik xalqın inandıqları,*
*Piri hidayət deyə qandıqları.*
*Nur görürlərdi qaranlıqları,*
*Bizdə idi, cümlə qazandıqları.*
*Kim bizə pul verməsə, bədnam idi,*
*Ax, necə kef çəkməli əyyam idi!*

Nadir şeir oxuyanda sağa-sola addımlayırdı. Addımlayırdı, gəlib-gedənə, küçəyə baxırdı. Molla Rəsul əlində təsbeh gəlib pəncərə qabağından ötür, səs gələn tərəfə əyri-əyri baxırdı. Öskürürdü:

– Tfu, lənətullah!

Nadir dəcəl uşaq idi. Molla Rəsulu görəndə səsini daha da ucaldır, var-gəl eliyərək sanki əzbərlədiyini məhz axunda eşitdirirdi:

*Mahi ramazandır, meydan da bizimdir,*
*Meydan da bizim, ərseyi cövlan da bizimdir.*

Molla Rəsul üzünü göylərə tutub şikayətini ucadan deyirdi:

– Bu məlunların səsini kəsən bir Əli şiyəsi yoxdur, ilahi!

Nadir ona "Hophop"un şeirilə cavab verirdi.

*...İndi adamlar, deyəsən, cindilər,*
*Cin nədi, şeytan nədi, bidindilər.*
*Lap bizi ovsarladılar, mindilər,*
*Ay keçən əyyam, olasan indilər.*



*Onda kı övladı vətən xam idi,*
*Ax, necə kef çəkməli əyyam idi.*

Mən sonralar başa düşdüm ki, bu sözlər Molla Rəsulun acığına gəlirmiş. Nadir ayrı dərslərini oxuyanda mən mollaların dediklərini təkrar oxumağa başlayırdım.

*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can,*
*Xalqın üzü qurtardı töhmətdən, ay can, ay can.*

Oxuyurdum, amma utanırdım. Nadir kimi ucadan, avaz ilə yox, yavaşdan, astaca əzbərləyirdim.

Sonralar bizim məktəbi ayrı binaya köçürdülər, uşaqların çoxu rabfaka, texnikuma getdi. Mən öz məktəbimizdə qalmışdım. "Hophopnamə" də həmişə qoltuğumda idi.

Ancaq Nadiri görmürdüm. Dediyinə görə, onu komsomol komitəsində işə götürmüşdülər. Cavanlar yığıncağında "Hophop"dan danışır, Sabirin şeirlərini öyrədirdi. Gəncənin xoş yaz günlərindən birində müəllimimiz Qənbəroğlu məni çağırıb "Hophopnamə"ni istədi.

Deyəsən, Sabirin vəfat gününü məktəblərdə yada salırdılar. Məktəbdə məclis qurdular. "Hophopnamə"dən şəkillər, divar qəzeti asdılar.

– Bu şeiri əzbərlə, deklamasiya deyəcəksən.

*Ey dərbədər gəzib ürəyi qan olan cocuq!*
*Bir loğma nan üçün gözü giryan olan cocuq...*

Qonaqların, valideynlərin qabağında sıxıla-sıxıla əzbər dediyim şeiri, görünür, bəyənmişdilər. Müəllimimiz qızılgül dəstələrindən birini də mənə verdi.

– Apar evinizə, anana de ki, yaxşı oxuyan uşaqlara gül verirlər.

Mən gül dəstəsini də, "Hophopnamə"ni də evə gətirdim. "Cocuq" şeirini bir də təkrar, evdəkilərə avaz ilə oxudum.

Yengəm soruşdu:

– Hanı uşaq?
– Hansı uşaq?
– Səni çağıran uşaq, cocuq!
– Cocuq Şamaxıda qalıb.

Mənim məktəbdə şeir oxumağım çoxlarının xoşuna gəlmişdi. Məndən dübarə oxumağı xahiş edirdilər. Mən nə deklomasiyanı, nə özümü, nə də məktəb yığıncağını unudur, qoltuğumdakı kitabı vacib bilir, hamıya göstərirdim. Güman edirdim ki, bu kitab kimdə olsa, onun sözü, avazı, dərsi-kamalı hamıdan artıq olacaq!

Kitabın şeirlərindən başqa çox əlvan şəkilləri var idi. Mollaların, mövhumatçı kişilərin şəkli, portreti çəkilmişdi. Çadralı arvadlar ilə kişilər ağac götürüb dalaşır, məktəbə gedən uşaqları döyüb qovalayırdılar.

*Hara gedir bu uşaqlar bu boyda-bu boyda!*

Dindar kişilər məktəb uşaqlarını görüb vahiməyə düşürdülər, hər kəs öz uşağını tutub məktəbdən uzaqlaşdırırdı.

*Dur, qaçaq oğlum, baş-ayaq qandı bu!*

Sabir köhnə dünyanı lağa qoyub gülür, oxucuları da güldürürdü. Adamlar "Hophopnamə"nin sözlərini teatrdan çox bəyənib gülürdülər:

*Vah, bu imiş dərsi-üsuli-cədid,*
*Yox, yox, oğul, məktəbi üsyandı bu.*
*Molla deyil bundakı təlim edən,*
*Əlhəzər et, bir yeni şeytandı bu,*
*Dərs deyil, hərzəvü-hədyandı bu.*

"Hophopnamə"ni hər görən bir də baxmaq istəyirdi. Qonşu, yoldaş, valideyn qalmadı ki, Sabirin kitabına baxmasın, maraqlanmasın.

Mən də gündüzlər kitabı səhifə-səhifə öyrənir, hər dəfə bir yeni şeir əzbərləyirdim, gecələr yatanda balışımın yanına qoyub, sanki, kimdənsə qoruyurdum.



Qonum-qonşu Quranı məxmərə büküb əzizləyirdi, mən də şeir kitabını!

Həmin kitabı mən uzun zaman əzizləyib səliqə ilə saxladım. Köhnələndə üstünə təzə cild çəkdirdim. Təzə cildlənəni də təkrar hər yetənə göstərdim. Qonşularımız kitabı oxumağa aparanda darıxırdım. Tez gedib gətirirdim. İndi də "Hophopnamə"nin cocuq şeiri, Nadirin mollalara dediyi şeiri yox, bütün şeirləri mənə təzə, xoş gəlirdi. Onlara bir-bir işarə qoyub əzbərləməyi, müəllimə oxumağı vacib dərs bilirdim.

Qənbəroğlu müəllim Sabirin şeirlərinə, deyəsən, çox həris imiş. Məni görən kimi, "Hophopnamə"ni soruşurdu:

– Səni, – deyirdi, – imtahanlarda çağıracağam, yaxşı oxuyursan, oxu, qoy yoldaşların öyrənsinlər!

Adətən tələbəlik, təhsil vaxtında adam dərs kitablarını hər il sinifdən-sinfə keçdikcə dəyişir, köhnə kitablara, ötüb-keçilmiş pillələrə daha qayıtmağa ehtiyac hiss etmir.

Mənim sevdiyim kitaba münasibətim ayrı cür olmuşdur.

Göy cildli kitabı mən bütün dərsliklərimdən üstün, vacib bilirdim. Mən orada yalnız şeiri, ədəbiyyatı yox, ayrı bilikləri də axtarır və görürdüm. Tarixi də, dili, coğrafiyanı, hüququ, təbabəti də duyur, oxuyurdum. Güman edirdim ki, orada hər gün mənə yeni sözlər deyən kamil müəllimlər var.

"Bir məclisdə on iki kişinin söhbəti"ndə neçə peşə sahiblərini, şəhərimizin adamlarını, müasir cəmiyyəti, ictimai münasibətləri duyurdum. Güman edirdim ki, bu kitabı həm böyüklər, həm uşaqlar üçün yazıblar. O səhifələrdə gördüyüm simalara təsadüf etdikcə xatırlayırdım: yoldaşlarımın hamısına məsləhət görürdüm. Burada hər şey yazılıb. "Hophopnamə"ni hamı oxumalıdır.

– Hərdən oxuyuram.
– Mən həmişə oxuyuram!
– Məktəbdə mənə də oxudublar.
– Mənə oxudan olmayıb, özüm oxumuşam. Mən onu hər gün oxumasam, yatammaram.
– Quran ayəsidir!

– Dünyanın şirin sözləridir.
– Yasindən də şirindir.
– Yasin mövhumatdır.
– Mollalar eşidər, az danış!
– Qoy eşitsinlər. Sabir onların cavabını verər!
– Onlar Sabiri nə tanıyır?
– Sabiri tanımayan yoxdur.

Molla Nəsrəddin hara gedirsə, Sabir onun həmrahı, silahdaşıdır. "Hophop" Şərqin qartalıdır. Qoca Şərqin!

– Qoca Şərqin yox, yeni Şərqin!
– Cavan Şərqin.
– Oyanan Şərqin.
– Döyüşən Şərqin!..
– Mənəvi silahı! Top-topxanasıdır!

1974



# OXUTMURAM, ƏL ÇƏKİN!

*Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!*
*Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!*
*M.Ə.Sabir*

Güman etməyin ki, xanəndədən, məlahətli səsdən, toydan, şənlik məclisindən söhbət gedir. Ya oxumaqdan, məktəbdən, dərsdən.

Yox!

Bəs nədən?

Evlənməkdən, elçilikdən, seçib-sevilməkdən danışırıq.

Heybət nənənin evində bir vurçatdasın var ki, gəl görəsən!

Nənənin evi!

Əslinə baxsan, müasir cəmiyyətdə – şəhərdə, kənddə evlərin ünvanı belə olmur. Nənə necə böyük vəzifə-rütbə sahibi olur-olsun, necə igid olur-olsun, genə nənədir, istiqaməti gələcəyə yox, keçmişədir. Onun tanıyan, saya salan olmur, ailə nənənin adı ilə getmir.

Məlikovlar, Kərəmzadələr, Eldarlılar, Məhiş oğlu!

Bu bir qaydadır, rəsmiyyətdir, hara getsən, kimi axtarsan, gərək familı ilə deyəsən, işini, idarəsini, peşəsini soruşasan. Buna söz yox!

Amma evlər, ailələr də var ki, orada nə familiya, nə peşə, nə şan-şöhrət işə keçir. Orada görürsən, bir başbilən olur.

Məsələn, Heybət nənənin özü.

Nə familini, nə də idarəsini soruşan var. Kim? Heybət nənə! Ev idarəsi gəlir Heybəti axtarır, poçtalyon gəlir, Heybət! Qonşular, toya dəvətnamə gətirir, Heybət! Uşağın müəllimi məktəbdən sifariş göndərir, Heybət!

Burada ayrısının nə adı çəkilir, nə izi seçilir.

Heybət, Heybət!

Eşidən elə bilər ki, Heybətin idarələrdə adı-sanı, şöhrəti var. Xeyr. Heybət xalanın, nə şöhrəti, nə də əməlli-başlı savadı var. Gətirilən kağıza aydın qol çəkə bilmir.

– Heybət xala, bunu qəbul eləyərlər?

– Necə yəni?

– Bunu götürərlərmi?

– Kim götürməz?

– Bəlkə soruşdular?

– Soruşdular, mən ölməmişəm ki, Heybət! Kimdi? Heybət! Nədi, Heybət! Ayrı nə söz olacaq?

Heybət xala bu kənddə təkdir, doğrudan, Heybət xalanın sözü sözdür. Bir adamdı, ayrısı yoxdu, adı gələndə, hamı ayağa durur.

Məktəbdən, nəvələrin müəllimlərindən gələn olanda da Heybəti axtarırlar.

– Ay xala, Məsmənin uşağı dərsini yaxşı oxumur, jurnalda neçə dənə ikisi var!

Doğrudur, nənənin o qədər savadı yoxdur. Amma məktəb işlərinə də bilənlər kimi qarışır. Cürət ilə, qətiyyət ilə uşaqlar ona dəftər göstərməyə qorxurlar.

– İlqar, dərsini niyə oxumursan?

– Oxuyuram!

– Oxusan, bilərdin!

– Bilirəm, nənə!

– Kəs səsini! Bilənin böyrünə yeddi dənə iki yapışmaz! Tənbəl, utanmaz, hələ cavab da qaytarır!

İlqar biləndə ki, nənəsi dəftərdəki ikiləri sayıb, başını aşağı salıb gözünün yaşını tökdü.



– Ağlamaqnan ikini düzəltməzlər. Get kitablarını götür, qoy qabağına, dərsini oxu! Qapı-bacada veyillənmə! Bax, bir də müəllimin şikayətini eşitsəm, səni nə kinoya, nə konsertə buraxacağam! Müəllim razı olmasa buraxmayacağam. Di get!

Tək İlqar yox, nəvələrin hamısı Heybətdən qorxurdu. Onun adı gələndə susurdular, əsirdilər.

Uşaqlar da, böyüklər də ondan qorxub çəkinirdilər. Nəyinə görə?

– Bəlkə, bu arıq arvadın qəhrəman adı var?

– Yox!

– Bəlkə, bunun lap böyük yerlərdə sözü keçir?

– O da yox!

– Bəlkə...

– Yox!

– Bəs camaat bunun nəyinə hörmət eləyir!

Bilən yoxdur. Ancaq bu kənddə Heybət xalanın adı gələndə hamı özünü yığışdırır.

– Bizim onunla – əflatun qadınla üzləşməyə halımız yoxdur. Sən Allah, xataya salma!

Bütün kənd, böyüklü-kiçikli onun qabağından qaçır.

Ancaq bu xalanın qarşısında davam-duruş gətirən bircə onun nəvəsi olub.

Rəşid!

Heybətin qız nəvəsi!

Rəşiddən söhbət gedəndə Heybət arvad qaşqabağını turşudub, bir kəlmə də olsun cavab vermir.

– Ay arvad, Rəşidi deyirəm ey, sənin öz nəvən!

– Nəvəm ilə özün bilərsən! Mənim ona sözüm yoxdur, qoy getsin! Qoy məndən uzaq olsun. Onun adını mənim yanımda çəkmə.

Bu ixtiyarın da kökü, səbəbi var. Nəyə görə Heybət xala Rəşidi istəmir, əvvəl istərdi, indi yox. Çünki Rəşid onun sözünə baxmır!

Bəlkə Heybət xala nəvəsinə çətin iş buyurur?

– Yox!

Bəlkə nəvəsindən ağır bir iş tələb edir?

Yox?

Heybət xala Rəşidi evləndirmək, xeyir işə calamaq istəyir. Rəşid isə iki ayağını bir başmağa keçirib razı olmur:

– Yox ki, yox! – deyir.

– Ay oğul, inad eləmə, sənə gül kimi qız alıram, "hə" de, qurtarıb getsin!

Rəşid inadında duraraq:

– Yox ki, yox, – deyirdi.

– Niyə yox?

– Mən hələ oxuyuram!

– Oxumağın öz yerində!

– Oxumaq ilə evlənmək tutmaz!

– Niyə, evli-uşaqlı cavanlar oxumur?

– Onlara baxma.

– Ay bala, oxu, lap belə dəftər-kitabına da canım qurban! Lalə hər gün qabağında "sluşi" duracaq, buna nə sözün?

– Yox ki, yox!

– Lap müəllimlərindən razılıq alım, yaxşı bir toy eliyək, arzu-kamım var, nəvə toyu görməmişəm. Gəl sən bu xeyir işi pozma, bala.

– Ay nənə, mən oxuyuram! Elə işlərə vaxtım yoxdur!

Heybət xala ha çalışdı, Rəşidi yola gətirə bilmədi. Laləni təriflədi, subaylığı pislədi, yoldaşlardan gileyləndi. Nəvəsinə nə qədər dil tökdü.

– A bala, Lalənin özü də lalədi, atası da handa bir mağazinin böyüyüdür. İpək, qumaş, daş-qaş onun əlindən gəlir. Handa bir oxumuşlar həsrət çəkir onunla salam-kalam eləsin. Elə qızı çıraq ilə axtarsan tapmazsan. Sabah gedib nə bilim, harda yoluğun birinə ilişəcəksən, sonra da yaxa qurtara bilməyəcəksən. Onda mən başıdaşlı neylərəm, sudyalar, prokurorlar qabağında? Başa düşürsənmi, Rəşid! Bala, birini de, birini eşit!

Rəşid evə gələndə, fürsət düşəndə nənəsi dilini işə salırdı, nəvəsinin xoşuna gəldi, gəlmədi, hey danışırdı.

Rəşid ələ keçməyəndə, bir müsahib, dinləyən tapmayanda Heybət xalanı başıaşağı oturub düşünən görürdün.

Qızı Məsmə ona baxıb deyirdi:

– Qəm dəryasına cummusan, ay arvad, nə olub, qaşın-qabağın açılsın, bu yazın günündə, sənə nə olub?

– Mən bəxtəvər deyiləm sözümü sayan ola!

"Düşünən" demək də doğru olmaz, çünki Heybət xala düşünmür, çoxdan düşünüb hökm halına gətirdiklərini xəyalında sahmana salırdı. Ölçüb-biçirdi ki, uşağı birtəhər yola gətirsə, Laləyə elçi getsə, qızın "hərisini" alsa, böyük dəsgah ilə toy-tədarük eşqinə düşsə, evdə işləri necə quracaq? Kimə nə tapşırıq verəcək, necə plan tökəcək, kimi köməyə çağıracaq, ev-eşiyi necə təmirdən çıxaracaq. Əlbət ki, o məqamda, mübarəkbadlığa gəlib-gedənlərin ayağı açılar, Rəşid də dəftər-kitabı hələ bir yana qoyub xeyir işinin hayına qalacaq! Lalə də, maşallah, qızılgül yarpağı kimi qızdır. Gərək onun toyuna tamam-dəsgah, adına layiq hazırlaşasan. Sabah ağzıgöyçəklər deməsin ki, Heybətin nəvəsinə atüstü toy elədilər, məclisi belə oldu, paltarı elə oldu. Bunun hamısını "Rəşidin qulağına indidən demək", başına yeritmək gərəkdir!

Heybət xala öz aləmində başında çoxlu niyyət, çoxlu planlar dolu halda xəyalata dalmaqda, Rəşid də öz dərsini sahmana salmaqda idi.

Rəşid belə mübahisələri dinləməyi xoşlamırdı. Danışmağı da lazım bilmirdi. Atası, anasilə görüşəndən sonra maşına oturub təyyarə meydanına gedəndə anasına dil yetirdi:

– Nənəmə deyərsən, oğlanın getməyi tələsiyə düşdü, qəflətən bilet gətirdilər, səni görməyə macal tapmadı. Salam-dua deyib yola düşdü! Beləcə, müxtəsər!

Qarı bu sözü eşidəndə hirsləndi:

– Necə yola düşdü, a qız?

– Yaxşı yola düşdü, yoldaşları maşın gətirmişdilər.

– Getdi?

– Saat səkkizdə getdilər!

– Bəs mənə niyə demədiniz?

– Sən yatmışdın, oyatmaq istəmədi.

– Mənim sözüm var idi, neçə gündür başımda dolaşdırıram. Ona başa salmaq istəyirəm, siz də götürüb xəlvəti yola salırsınız! Bu nə hərəkətdi? Uşağın xeyir işini bitirməmiş haydı çıxdı getdi?

– Xeyir işə qol qoymur, hələ oxuyuram, deyir.

Heybət xalanın cini başına vurdu.

– Oxuyuram, oxuyuram! – Oxuyanda nə olar, bəyəm xalqın uşaqları oxumur, bəyəm bir oxuyan bizimkidir? Nə olar, bir siz də danlayasınız, səsimə səs verəsiniz. Deməkdən yorulmuşam. Gədənin başına ağıl qoyan tapılmır. Sabah da Lalə əldən çıxacaq, sonrakı peşmançılıq da fayda vermiyəcək.

Heybət xala dediklərinə cavab almayanda belə güman edir ki, eşidənlər razıdır. Hamının ürəyindən xəbər verir. Ona görə də düşündüklərinin mabədinə, işin dalısına keçib qətiyyətlə qərar verirdi.

– Elə mən deyən yaxşıdır. O yan-bu yana getməyək. Diqqət elə, gör nə deyirəm. Mən deyirəm elə, Rəşidə də qulaq asmaq lazım deyil. Biz tədarükümüzü eliyək, oğlan əslində utancaq olar, demiyəcək məni evləndirin. Biz işimizi görək. Mənim məsləhətim belədir, qızım!

Heybət nənə sözlərinə nə etiraz, nə razılıq görməyəndə, sanki, qətiyyətinə yekun vurmaq üçün, səsinin ahəngini dəyişib əlavə etdi:

– Amma Rəşidi mənsiz nahaq buraxmısınız! Heç olmasa, ona Moskva bazarlığı üçün sifariş verərdim. Həm yaxşı olardı, həm də yüngül. Qız üçün bər-bəzəyi ordan almaq hara, burdan almaq hara. Necə deyərlər, yer ilə göy qədər təfavütü var. Rəşid özü də Moskvada oxuyan oğlandır, hər şeyin yerini biləndir!

■ ■ ■

Atalar demişkən, sən saydığını say, gör fələk nə sayır. Heybət öz aləmində plan çəkir, tədarük görürdü.

Rəşid də institut otaqlarında, tələbələr qabağında kimyadan təcrübə aparırdı. Böyük imtahan qarşısında idi. Bu təcrübəni rəhbər professor çoxdan – bir ilə yaxın olardı ki, ümid ilə ona tapşırmışdı. Hər beşdə-üç aspirantından haqq-hesab istəyirdi.

– Təcrübə necə gedir?

– Yaxşıdır.

– Başa çatırmı?

– Çatar!

– Rektor ilə şərt kəsmişik, – gələn ayın axırında bizim məruzəmizi konfransa qoyurlar, gərək onacan başa çatdıraq. Aspirantların məruzələrini yuxarıdan, qonşu institutlardan gələn alim yoldaşlar da eşidəcəklər!





– Sizin köməkliyiniz olsa, elə bilirəm vaxtında başa çatdırarıq, yoldaş professor.

Xoşbəxtlikdən, Rəşidin təcrübələri yaxşı nəticələr verir, neft aşqarlarından xüsusi yağlar hazırlanırdı.

Kimyaçıların konfransı bu şəhərdə keçirilirdi. Rəşidin təcrübələrinə yekun vurulanda aspirant konfransının iştirakçıları, buraya toplanmışdılar.

– Hanı Rəşid?

– Çağırın gəlsin.

– Təklif var, Rəşidin ailəsinə dəvətnamə verilsin!

– Verilsin.

– Verilsin.

– Qoy aspirantın müvəffəqiyyətinə hamı sevinsin. Oğlanın valideyninə də dəvətnamə göndərin!

– Rəşid istəmir.

– Oğlan utancaqlıq eləyir, qoy heç özü bilməsin. Dinləyənlərin çox olması məruzəçini daha da ruhlandırar, çağırın.

Heybət xalanı konfransa çağıranda gözü bərəldi.

– Mən nə haydayam, bunlar nə haydadı. Sən demə, Rəşid öz işində imiş. Biz də qız evinə xəbər-sifariş göndəririk.

■ ■ ■

Aspirantların, cavan kimyaçıların müzakirələri şəhər məktəblərindən birində ikinci qatdakı geniş, yaraşıqlı otaqda keçirilirdi.

Doğrudur, bugünkü məclis kimyaçıların işgüzar müzakirə məclisi, cavan alimlərin hesabatı idi.

Hər kəs planına görə ilboyu işləyib-hazırladığı ixtisas sahiblərinin yoxlama-resenziyasından keçirdiyi elmi işini nümayiş etdirirdi.

Divarlara cədvəllər, lövhələr vurulmuş, yazı taxtasında yazılmış müxtəlif məhlulların keyfiyyəti, xüsusiyyəti haqqında mülahizə və nəticələr söylənirdi.

Əyninə ağ xalat geymiş cavan oğlan və qızlar məruzəçinin ətrafında tez-tez görünür, müzakirədə nümayiş olunası cihaz və materialları yerbəyer edirdilər.

Rəşid də bu maraqlı aləmdə idi. Müzakirəyə gətirdiyi elmi tədqiqatından məlumat verirdi...

Heybət xala nəvəsini camaat qabağında dayanıb cəsarətlə danışan, yaraşıqlı şüşələrdə cürbəcür rəngdə, həcmdə məhlulların mənasından, xüsusiyyətindən, əhəmiyyətindən izahat verən görəndə əvvəlcə çaşbaş qaldı. Bilmədi neyləsin.

Rəşidin evdə, ailədə heç vaxt danışmadığı, səliqəli bir dil ilə camaata üz tutaraq qayımdan danışdığını görəndə, hərdəm yaylığı ilə alın tərini silib, sözünə davam etdiyinə fikir verəndə nəvəsi onun gözündə başqalarına dərs öyrədən birinci müəllim kimi görünürdü.

"Halal olsun, bala, boyuna qurban, oğul!.."

Heybət nənə indi görürdü ki, o düşünən, onun gördüyü, onun anladığı aləm deyil. Zəmanə, cavanların, elmə, sənətə, tərəqqiyə qurşanan balaların zəmanəsidir. "Mən də başını kola salmış kəkliklər kimi hey uşağı danlayıram. Evlən, evlən! Sən demə, Rəşid daha vacib işlərə cumub..."

O heç vaxt Rəşidi bu qədər camaat qabağında dayanıb danışan görməmişdi. Məruzə qurtaran kimi qoca, ağsaç, gözü çeşməkli professorlar bir-bir cavan oğlana üz tutub təcrübələrindən suallar verirdilər.

Rəşid diqqətlə dinlədiyi suallara tələsmədən cavab verir. Axırda sual verən yoldaşa müraciətlə soruşurdu:

– Aydın izah eləyə bildimmi?

– Sağ olun, kifayətdir.

Sual-cavab qurtarandan sonra adamların çoxu Rəşidə yanaşıb əlini çıxır, razılıqla təbrik edirdi. Rəşid nənəsini zalın axırında əyləşən görüb yanaşdı, Heybət xala onu danışmağa qoymadı.

– A qırışmal, belə işlərin var idi, bizə niyə demirdin? Qorxurdun sənin iclasına yaraşmayaq?

– Ay nənə, sənin evdə-eşikdə nə çoxdur işin, buralarda darıxarsan!

– Yox, darıxmaram.



Sən məni yaxşı tanımamısan? Mən hər üzünəyəm, bil!

– Onda tez-tez çağıraram, otur bizim aləm ilə tanış ol!

■ ■ ■

O günün səhəri kimya institutunun maşını Heybət xalanın qapısında dayandı.

Məsmə qapıya çıxanda şofer ona bir kağız verdi. *"Maşın sizin üçün gəlib, yubanmayın, nənəmi də gətirin, biz mehmanxanada gözləyirik.*

*Rəşid."*

Aspirant elmi işlərinə illik yekun vuran konfransın iştirakçıları mehmanxanada xudmani bir görüş düzəltmişdilər. Oradakı süfrənin səliqəsi də Heybət xalanın xoşuna gəlmişdi.

O görürdü ki, nəvəsinin, cavanların idarəsi elmi işdə çalışanlara çox diqqət göstərir. Onların hər birinin həyat şəraiti ilə də maraqlanır.

Rəşidin nənəsi olduğunu bilib ona yanaşan çeşməkli kişi, sanki çoxdanın dostu, tanışı kimi Heybət arvad ilə mehriban söhbət edirdi:

– Eşitmişəm, – deyirdi, – Rəşidin xeyir işinə hazırlaşırsınız. Mübarək olsun. Rəşid bizim institutda qabiliyyətli cavanlardan biridir. Eşitdiyiniz məruzə onun dissertasiya işidir. Bu ilin axırında başa vuracaq. Alimlərin Rəşidin elmi işi haqqında gözəl mülahizələri var. Rəşid bir sizin yox, bizim də ləyaqətli övladımızdır! Rəşidin bir xeyir işi də var. Bizim kimya institutunda Rəşid üçün iki otaqlı mənzil yazılıb. Bina başa çatan kimi, paylanacaq. Rəşidin rəhbəri professor Əli Məlikov özü deyib ki, bu mənzillərin biri mənim istedadlı şagirdim Rəşidindir.

Heybət xala bu sözləri professordan eşidəndə qanadlanıb uçmaq istəyirdi.

*1974*

# GÜLMƏK LAZIMDIR

*Gülüş sifətə işıq, yaraşıqdır*

Səfərovu başağrısı əldən salmışdı. Elə bil ki, bu xəstəliyi ona hardansa məcburi vəzifə kimi tapşırmışdılar. Çarəsini də tapmırdı. Ha çalışırdı, yaxasını qurtara bilmirdi.

İşdən qayıdıb soyunandan, yuyunandan, evdə güzgü qabağında dayanıb üz-gözünə baxandan sonra sanki bir ağrı qara qarğa kimi qəflətən onun başına qonur, rəhmsiz bir davamla beynini dimdikləməyə başlayırdı.

Kişi özünü itirirdi.

– Zəhrimar gəldi!

– Yenə bu ağrı!

– Paho!

Ağrı təzə başlayanda, yenə dərd yarı idi. Bir saat, ya yarım saat sonra sanki ağrı zəhərli su kimi beyninə, ürəyinə və iliklərinə sirayət edib dərinlərə yeriyirdi, di gəl buna döz görüm, necə dözürsən?

– Paho. Bay səni zəhrimara qalasan!

Səfərov ayağa qalxıb masasının siyirməsini töküşdürür, dərmanları araşdırır, həblərdən ikisini dilinin üstünə qoyub su istəyirdi.





– Ay uşaq, mənə bir stəkan su!

Xəstənin özündən çox, Zəminə xanım təşvişə düşürdü:

– ... Tez olun, su!

– Genə nə oldu kişiyə, ilahi?

Səfərov da cavabında deyirdi:

– Nə olacaq, bir bəladı tutub məni, davası yox, dərmanı yox!

Səfərovun oğlu da, qızı, gəlini də xəstənin dərdinə şərik olur, gah çay, gah su, gah meyvə gətirir, gah pəncərəni açır, gah örtür, gah xəstənin çiyninə şal salır, gah alnını sirkə ilə ovuşdurur, dalbadal həkimə zəng çalırdılar.

– Doktor, hazırlaşın, evinizə gəlirəm, xəstə yanına getməyə!..

Həkim ayağını evə basan kimi, hamının ürəyi təsəlli tapırdı. Həkimin gəlişi sanki ailəni bürüyən təşvişə sərin su səpirdi. Həkim xəstənin nəbzini ölçəndə soruşdu:

– Sizə nə olub, Mirzə?

– Evdəkilərin rəftarı?

– Əsəbi şəraitə düşməmisiniz?

– İçki ilə münasibətiniz necədi?

– İşdə hirslənməmisiniz?

– Bu çoxdan sizdə var, ya təzə baş verib?

Səfərov həmişə alışdığı bu suallara ya mızıltı ilə cavab verir, ya baxa-baxa durur, ya başını bulayır, ya da heç məna vermirdi.

Həkimə elə gəlirdi ki, xəstə özünü itirmişdir. Başağrısı onun huşunu da aparmışdır.

Həkim pəncərəni açdırır, xəstə bağlatdırırdı. Təkrar nəbzini ölçmək istəyəndə xəstə mane olur, müalicədən bezmiş kimi, arxası üstə uzanıb öz-özünə deyinirdi.

– Bu da bir bədbəxtlikdir, məni tutub, doktor. Zahiri düşmənim az idi, biri də bu yandan gəldi. Meşədə çaqqal az idi, biri də qayıq ilə keçdi, atalar demişkən!

Həkim o biri otağa keçib dərman yazanda Zəminə xanıma dedi:

– Xəstənin yanında bu qədər ah-zar eləməyin. Onun ürəyini qısmaq olmaz, çalışın eyni açılsın, fikir-xəyalı unutsun. Sərt, təşviş yox, mü-

layim söhbətlər olsun. Ürəyi təsəlli tapsın.

– Biz istəmirik fikir eləsin. Özü həmişə fikir içindədir. Qaş-qabağı açılmır.

– Deyib-gülmək, fikir-xəyalı unutdurmaq lazımdır.

Həkim bu sözləri xəstədən gizlətmirdi.

– Yoldaş Səfərov, işdən baş ayılanda fikir-xəyala cummaq olmaz! Əsəbləri tumarlamaq lazımdır, hər şeyi unutmağa çalışın. Deyin, danışın, xəstəliyi unudun, çalğıya, oynamağa fikir verin. Xəstəliyi özündən uzaqlaşdırmaq şərtdir, hünərdir. Xəstəlik ilə mübarizə lazımdır.

– Nə mübarizə?

– Gülmək, şənlənmək. Özünüzü belə keyfiyyətlərə alışdırın!

– Heyif ki, artistlik bacarmıram.

– Artistlik yox, şənlənməyə cəhd etmək olar?

– Bəli, olar!

Həkim xudahafizləşib qapıdan çıxan kimi, Səfərov üzünü oğluna tutub dedi:

– Bunu hardan tapıb gətirmisən?

– Rayon müalicəxanasından gəlib.

– Deyəsən, heç dünyadan xəbəri yoxdur.

– Deyir, başağrısı fikir-xəyaldandır.

Zəminə xanım da şərik oldu:

– Bir şey bilmir! Görünür, başı çıxmır.

– Deyəsən, özünün də başı ağrıyır, hey o yan-bu yana baxırdı.

– Gözü nəsə axtarırdı.

Səfərov oğlunun üzünə baxdı.

– Nə axtaracaq gözü?

– Deyirəm bəlkə otaqlara gözü düşüb!

– Otaq görmüyüb, nədi?

– Görüb ey, bəlkə!..

– Bəlkə, şəkillərə baxırdı?

– Kartinaya çox baxırdı.

– Xəstədən nə ləzzət alacaq yazıq, heç olmasa şəklə baxsın.

– Sən bu yazığı sənət muzeyinə aparaydın ürəyi sakitləşəydi.

Zəminə xanım da, uşaqlar da güldülər.



Səfərovun sözü özünə də xoş gəldi.

– Muzey də yaxşıdı, komediya teatrı da yaxşıdı, bir manat ver biletə, özün də get bax!

– Doktora görə teatra gedim?

– Nə olar, dilxoşluq elə!

– Hər dəfə göyçək qız olmaz ki, bu dəfə yoldaşın doktor olsun! Gülüşdülər.

O gecə Səfərov doğrudan da rahat yatdı, yuxuda da "Arşın mal alan" tamaşasını gördü, gah Əsgərin, gah Gülçöhrənin ariyasını eşitdi. Səhərisi gün Səfərov oğlundan xahiş elədi ki, doktoru evə çağırsın. O kişi ilə söhbət özü bir dilxoşluqdur. Azar-bezar yaddan çıxır! Onların sözündə hikmət var, biz nahaq diqqət yetirmirik!

*1974*

# YALAN AYAQ TUTAR, YERİMƏZ

Bəşir ömründə iki dəfə bərk həyəcan keçirmiş, ürəkdolusu təəccüb eləmişdi. Bir bağçada olanda, beş yaşında uşaq vaxtında, bir də ki indi, inşaat kontorunda işləyəndə, otuz beş yaşında...

Deyə bilərsiniz ki, beş yaşında adamın başına gələnlər yadda qalmır. Bəşir olmasın, kim olur-olsun. Beş yaşında həyəcan keçirmək, sevinmək, ya kədərlənmək sonradan yadda qalmaz. Özü də otuz beş yaşındakının... Adamın dünən yediyi bu gün yadından çıxır...

Səhv eləyirsiniz!

Doğrudur, insanın yaşı, yaddaşı ilə tərs tənasübdədir. Yaş artdıqca yaddaş azalır.

Amma həyatda elə hadisələr də olur ki, lap körpə yaşlarından adamın yadında daş üstündəki yazı tək həkk olunub qalır. Xüsusən elə bir hadisə ki, böyüyəndə də yenidən təkrar oluna, bütün keçən əhvalatları insanın yadına sala!

Bəşirin başına gələn də, təxminən belə bir əhvalatdır.

Başağrısı olsa da, müxtəsərcə danışaq.





Dedik ki, dörd-beş yaşında Bəşir bağçada tərbiyə alırdı. Anası o zaman rayon xəstəxanasında paltarasan idi. Səhər işə gedəndə Bəşirin əlindən tutub bağçaya ötürər, axşam da işdən qayıdanda uşağını götürüb gətirərdi. Bəzən də bağça müdiri Bəşiri gətirib iş yerində anasına təhvil verib gedərdi. Bəşir bağçada çox şey görmüş, çox söz eşitmişdi.

Evinə od düşən yalançının nağılı, nədənsə Bəşirin zehnində möhkəm qalmışdı. Yadında qalmışdı ki, yalan danışan kişinin qışqırıb adamları haraya çağırmağına kimsə inanmadı. Eşitdilər, inanmadılar. Nə su tökən, nə torpaq atan, nə nərdivan gətirən oldu. Kişinin evi yanıb-alovlananacan inanan olmadı.

Həmin nağıl uşaq zehnində bəlkə də, bu qədər uzun müddət kök salmazdı, əgər Bəşirgilin öz evlərində belə bir təsadüf olmasa, yalan baş verməsə idi.

Günlərin birində Bəşir bağçadan qayıdıb divanda təzəcə oturmuşdu. Anası da xalçanın üstündə ayaqlarını uzadıb tikiş tikirdi. Bu dəmdə Heybət xala göründü. Bəşirin anası cəld qalxıb içəridə gizləndi, Bəşiri qabağa itələdi:

– Deynən anam evdə yoxdur! Adə, tez ol, arvad içəri girməmiş cavab ver! Deynən anam hamama gedib! Mən evdə yoxam!

Anası bunu deyib, Bəşiri həyətə itələdi, qapını örtdü. Uşaq özünü itirdi, dəhlizin astanasında, mat-məəttəl dayanıb Heybət xalaya salam da vermədi. Nə üçün, nə xahiş üçünsə gəlmiş olan Heybət ətrafına baxıb soruşdu:

– Bəşir, anan hanı?

– ...

– Anan hardadı, bəs Bəşir?

Bəşir cavab vermədi, bir anasının gizləndiyi küncə, bir yerə, sonra da Heybət xalanın üzünə baxdı.

Anası içəridə dil-dodağını çeynəyir, üzünü cırmaqlayırdı ki: "Dilin yansın, gedə, deynən yoxdur!" Sir-sifəti pörtmüş Bəşir axırda, qorxa-qorxa bu sözü deyə bildi:

– Yoxdur!

– Evdə yoxdur?

Xoşbəxtlikdən Heybət xala içəri girmədi, tələsirdimi, nəsə uşağın

cavabından sonra bir söz demədi, qapıdan qayıdıb getdi.

Qadın gedəndən sonra Başirin anası qapını açıb öz yerində oturdu, tikişini tikməyə başladı.

Başir bu əhvalatı başa düşməsə də, məəttəl qalsa da, anasının heç vecinə deyildi. Sanki heç bir şey olmamışdı.

Anası Heybətdən nə üçün gizlənirdi, evdə olduğunu nə üçün danırdı, nə üçün təlaş içində idi?

Bunları Başir bilmirdi və axıracan da bilmədi. Ancaq böyüklərə məxsus bir maraq və təəccüblə anasından soruşdu:

– Ana, Heybət xaladan niyə qorxdun?

– Niyə qorxuram, onun nəyindən qorxacağam, qonşu arvadın...

– Ana, sən bəs niyə dedin evdə yoxam?

– Yalan dedim!

Başir təəccüb elədi:

– Yalan?

– Yalan dedim, lazım idi, dedim!

Başirə təəccüb gələn bu idi ki, "yalan da lazım olarmış!"

Başir indiyəcən belə düşünürdü ki, yalan çox pis, murdar və iyrənc bir şeydir. İndi onu anasının dilindən eşidir, yalanın lazım olmağı barədə birinci dəfə eşidirdi və ona görə də təəccüb edirdi.

Başirə elə gəlirdi ki, anası ağzını açıb yalan deyəndə evlər onun başına uçacaq, hər şey qışqırıb dilə gələcək, yalanın üstünü açacaq.

Heç inana bilmirdi ki, anasının, bu qədər əziz və istəkli anasının dilindən yalan, bu qədər pis bir söz eşidəcəkdir.

Güman edirdi ki, "yalan danışanın evinə od düşər!", "yalan ayaq tutar, yeriməz!"

Bu etiqad uşağın fikrində o qədər möhkəm yer tutmuşdu ki, bircə yalan üstündə hər şeyin uçub töküləcəyini, pozulacağını, anasının da, özünün də mütləq bir fəlakətə düşəcəyini güman edirdi.

Amma, Başirin gözlədiyi olmadı.

Anası onun təsəvvürlərinə gülür, Heybət xalaya və başqalarına da yalan satmaqda davam edirdi.

Başir, deyəsən, yatmışdı, ayılan kimi oldu: "yalan da olarmış", "yalan yerində işlənir!"



Başir əvvəl evdə anasına yalan satdı! Çay qırağında ağac kəsəndə bıçaq çaya düşüb batdı. Anası isə iki gün evdə bıçağı axtardı. Başirdən soruşdu, Başir açıq yalan dedi:

– Xəbərim yoxdur!

Başir özü də, anası da hiss etmədən böyüyür, boy atır, möhkəmlənir, uşaqlar arasında sayılırdı. Yoldaşlarla yaxalaşmaq, yumruqlaşmaq Başirə bir adət olmuşdu. Bir dəfə bəhsəbəhsə düşüb elə bərk dalaşmış, qan-tər içində evə qayıtmışdı ki, anası bilmirdi nə eləsin:

– Adə, bu nədir, köynəyi iki parça eləyib gəlmisən. Təptəzə köynəyi? Kim parçaladı bu kətan köynəyi?

– Çəpərdən hoppananda tikana ilişib parçalandı.

Anası da bu yalana inanmışdı, bel-yaba götürüb çəpəri neçə metr qırağa çəkmişdi:

– Andıra qalmış tikanlar uşağın paltarını zay eləyir.

"Yalan ayaq tutar, yeriməz!"

Başir aşkar görürdü, hələ ki, yalan "yeriyir!" Çox yerdə adama da lazım olur. Elə buna görə də Heybət xala gələndə anasına yalan "lazım olmuşdu!" Sən demə, bəzi adamlar sözü deyirlər, amma yeri gələndə ayrı cür iş görürlər, söz başqa, iş isə başqadır!

İndi Başir böyüyüb, təcrübələnib, inşaat kontorunda işə girib, fəhlələr üstündə onbaşı işləyəndə də, işi keçmək üçün o, təzə, ya köhnə yalanlardan istifadə etməkdən əl çəkmir.

– Sabah hazır olar!

– Sement çatacaq!

– Daş çatmayacaq, usta!

– Daş olacaq, darıxmayın!

Başirin belə yalanlarına kontordakıların çoxu elə alışmışdı ki, inanan yox idi.

– Ay yoldaş Başir, sabah mənim sementim yoxdur, üç divarı hörməliyəm axı!

– Sabah tezdən sement olacaq! Darıxma!

– Olacaq deyirsən, amma mən heç inanmıram!

– Mən yekəlikdə adama niyə inanmırsan?

– Əşi, inanmaq, bəyəm, yekəlikdəndir? Gözümün qabağında dör-

düncü sahəyə bir həftədir yalandan vədə verib durmusan! Rəhmətlik oğlu, dilin qadağı yoxdur, sözdür, deyirsən də!

Başirin işləri kontorda və hətta, bəzən inşaat idarəsində birtəhər keçib gedirdi. Ancaq bu dəfə mətləb kənara çıxdı. Yevlaxdan zəng vurub soruşurdular:

– Yoldaş Başir, bizim ferma binası necə oldu, gərək ayın birinə hazır olaydı axı?

– Hazırdır, yoldaş!

– Necə, hazırdır, deyirsən?

– Bəli, hazırdır, lap hazırdır!

– Yəni, tikilib qurtarıb?

– Bəli, hazırdır!

– Təhvil almaq olarmı?

– Olar, niyə olmur, olar!

Quşçuluq fermasının müdiri, yeşikləri maşınlara yığıb gətirdi, gəlib gördü ki, xeyr, hazır nədi, heç binanın üstü örtülüb qurtarmayıb:

– A kişi, sən hazır buna deyirsən?

– Dülgərlər naxoşladılar, yoxsa üstü çoxdan örtülərdi.

– Bəs biz köçüb gəlmişik axı!

– Eybi yoxdur, sabahda-zadda başa gələr!

– A canım, mən bu heyvanları yağışın altında qoya bilmərəm, bu nə yalan idi, bizə satdın sən?!

– Bir yalanı yoxdur, sabah dam örtülər! Zəhmət olmasa, buraya qol çək!

– Qol çəkim ki, fermanın divarı var, damı yox!

– Əşi, zarafata qoyma, bu gün divarı olar, sabah da damı örtülər. İnşaat görməmisən, göydən düşmüsən nədir?

Ferma müdiri bir söz demədi, əl-qolunu ölçüb maşınlarını düz geri qaytardı. İki gün çəkmədi ki, Başiri məhkəməyə çağırdılar. "Canım, mən hara, məhkəmə hara, qoy işimi görüm, kontor sahibsizdir!"

Silistçi Başiri danışdırıb protokol bağlayandan, qol çəkdirəndən sonra ayağa qalxdı, əllərini ciblərinə qoyub mənalı-mənalı müqəssirin üzünə baxdı, izah elədi:

– Vətəndaş Başir, sovet idarələrinə yalan məlumat verdiyiniz üçün sizin beş iləcən həbs cəzanız var! İşdə olan sübut, dəlillər də bunu tamam təsdiq edir!

– Yəni mən yalan desəm də, nə demişəm, demişəm hazır olacaq! Pis söz deməmişəm ki, bunun üçün bəyəm adama həbs verərlər?

– Bəli, sovet qanununda rəsmi işdə, vəzifə başında yalan danışan, cinayətkar kimi cəzalanır. Bunu sən, özün təcrübəli işçisən, çoxdan biləydin gərək!

Başir görürdü ki, yox, daha burada zarafat söhbəti yox, ciddi məsələ, aşkar cinayət var! İndi başa düşdü ki, "yalan niyə yeriməzmiş?"

Dərin düşünəndə kişini tər basdı. Gah məhkəməyə, gah inşaat idarəsinə, gah da yerli komitə sədrinin yanına qaçıb çarə, kömək istədi.

– Ay vətəndaş Başir, bəs sən bilmirdin ki, xırda-xırda böyüyən bu yalanların bir gün üstü açılacaq, başı tutulacaq. Müqəssiri yaxalanacaq? Dövlət idarəsi sənin üçün gizlənpaç oyunudur?

– Axmaq olmuşam, maymaq olmuşam. Mənə bir çarə.

– Çarəsini məhkəmə hamıdan yaxşı bilir! Hansı yalanın hansı maddəyə düşməyini, yaxşı olar ki, ondan soruşasan!

– Əşi, mənim əlimdə neçə-neçə karlı vəsiqə var, xasiyyətnaməm var, onillik iş stajım var, canım!

– Ağ yalana nə vəsiqə? Yalan açılanda üstünü heç çadır da örtə bilməz! Get məhkəməyə, orada qanunları sənə yaxşı başa salarlar, yeri!

Başir həyatin ortasında dayanıb düşünür, uşaqlıq illərini, anasını xatırlayırdı. Anası isə çoxdan rəhmətə getmişdi.

*1974*

# GÜLCAMAL

Bizim analar uşağa ad qoyanda çox düşünür, məsləhətləşir, götür-qoy edir, axtarırlar. Bu təbiidir. Kim istəməz ki, doğma övladına ləyaqətli, yaraşıqlı ad versin! Ataların bu sözündə də həqiqət var: uşaq böyüyəndən, el içinə çıxandan sonra özünə ad qoyur.

Yaxşı, ya pis ad qazanmaq nə havadan, nə valideyndən, nə də qulluqdan asılıdır. Qalır insanın özünə, fərasətinə... Bəzən olur ki, ata-ananın qoyduğu ad, pasportla yazılan ad məqbul olmur, tamam unudulur. Cavanın həyatda, işdə, fəaliyyətdə qazandığı ad məşhur olur, çox deyilir, tez yayılır.

Hər halda, valideynin ad qoymaq ixtiyarı təbii qanundur, heç yerdə, heç bir zaman buna qarşı etiraz ola bilməz.

Bizim dostumuz Ziyafət xanım əslən nəcib, dünyagörmüş xanımxatın arvaddır. Ləyaqətli anadır. Böyük qızların hər ikisinə xoşladığı adı vermişdir: birinə Qəşəng, o birinə Göyçək!

Bu adlar qızların hər ikisinə doğrudan da yaraşır, yapışırdı. Deyəsən, qoca təbiət bu cavan ananın xahişini nəzərə almışdı. Qəşəng də,



Göyçək də yaraşıqlı, gözəl idilər, qonum-qonşu da, ata-ana da bu gözəl balaların şən-şətarətlə boy atıb böyüməsini görür, izləyir, sevinirdilər.

Di gəl ki, qızların hər ikisini on yeddi yaşına çatmamış, məktəbi qurtarmamış, elçi, adaxlı-filan görməmiş dəliqanlı cavanlar götürüb apardılar. Bu işdə valideynin heç bir günahı, tədbiri olmadı.

Qızların özünün qəbahəti, günahı oldu-olmadı, bunu demək çətindir. Ancaq onu bilirik ki, qızların hər ikisi cavanlar ilə dilləşib, günün, daha doğrusu, axşamın birində evdən getdilər. Ata-ananın çoxdan min-bir həsrətlə gözlədiyi təntənəli toy tədarükünü nə gördülər, nə də tamah saldılar.

Doğrudur, kürəkənlər bir müddət sonra vasitəçi saldılar, qızlar da göz yaşı töküb üzr istədilər. Çox ağır xahiş, get-gəldən sonra Ziyafət xanımın qəlbini ələ aldılar, barışdılar.

Ziyafət xanım, başı daşdan-daşa dəymiş, çox işlər görmüş, təcrübəli xanımlar kimi bu dəfə daha sadəlik eləmədi. Kiçik qızına tamam başqa ad qoydu, nə Qəşəng, nə Göyçək, nə Gözəl, nə Güləndam. Söhbət düşəndə müsahiblərinə açıq deyirdi:

– Bacım, mənim başım baladan çox çəkib. Əvvəllər avam olmuşam, qarğa, məndə qoz var, eləmişəm. İndi daha uşağıma heç yaxşı ad verməyəcəyəm. Elə ad verəcəyəm ki, heç kəs tamah salmasın, heç kəsin istəyi də olmasın. Çünki, yaxşı ad bizə düşmür, nəyə gərək gurultulu ad! Lazım deyil. Heç kəsin əqlinə gəlməyən sadə ad başağrısız olur.

Ziyafət xanım sözünə düz adam idi, dediyinə əməl elədi. Axırıncı qıza nə ad qoysa yaxşıdır? Heç kəslə məsləhətləşmədən yazıq qıza qəribə bir ad verdi: Qurtyeməz!

– Qurtyeməz?

– Bəli, Qurtyeməz!

Uşağın atası Ağasadıq eşidəndə təəccüb elədi:

– Ay Ziyafət, insafın olsun, qoşulub gedən böyük qızlar olub, bu yazığı niyə tənbeh eləyirsən? Camaat içində bizə gülərlər. Qurtyeməz nədir? Ad başına qəhət olub? Qıza ləyaqətli ad qoymaq gərək!

Ağasadıq yaxşı bilirdi ki, övlad böyütməyin çox zəhməti ananın boynuna düşür. Ona görə Ziyafətə qəti tapşırıq verməkdən çəkinirdi. Dediyi sözlərdə bir kəsər olmadığını düşünüb bir də təkrar etdi:

– Ziyafət xanım, qız böyüyəndə səndən də, məndən də inciyər.

– İncisə də, tamah salan, qoltuğuna vurub aparan olmaz. Arzukam ilə xeyir işini keçirərik. İşin olmasın!

– Qurtyeməz nədi, ay Ziyafət?

– Qoy olsun, qoy camaat bilsin ki, daha bizim ailədə bənd olmalı qız yoxdur. Qız xeylağı kölgədə, səs-küydən uzaqda böyüməlidir. Qulağımız dinc olar. Bəsdir qalmaqala düşdüyümüz.

– Böyüyəndə qıza nə cavab verəcəksən? Bunun sabah məktəbi var, filanı var...

– Qıza deyərəm indi özünə nə ad istəyirsən qoy! Böyüyəndən sonra qorxulu deyil! Hər kəs özünə bəyəndiyi adı seçər.

Ziyafət xanımın dedikləri bu fərziyyə bir niyyət, bir hal deyil, əsl həqiqət oldu.

Qurtyeməz haqqında uşaq bələkdə ikən, çox dedilər, çox güldülər. Çox adlar, ləqəblər deyildi, unuduldu.

Ananın qoyduğu gülünc ad uşağa olan rəğbət və məhəbbətə mane ola bilmədi. Qurtyeməz heç nəyə... nə istiyə, nə soyuğa, nə tufana baxmadan sürətlə böyüməyə başladı.

Deyəsən, qəsdən Ziyafət xanımın rəyinin xilafına olaraq, uşaq daha gözəl, daha məlahətli, daha cazibəli böyüyürdü.

İki yaşa çatanda evdə, həyətdə cəld, iri addımlarla, qoşa qara hörüklərini oynadaraq atılıb-düşəndə, qara gözlərini anasına zilləyib güləndə Ziyafət xanım özünü saxlaya bilmir, ürəyində deyinirdi: "Allah, sən bunun xətasından saxla! Qurtyeməzin macərası, deyəsən, bacıları kölgədə buraxacaq."

Qız, elə bil, yaz səmasında bədrlənmiş Ay kimi buluddan çıxıb yüksəlir, ətrafa işıq salırdı.

Ziyafət xanım uşağına baxanda bir tərəfdən sevinir, bir tərəfdən də elədiyinin peşmançılığını çəkirdi: "Daha buna Qurtyeməz demək olar? Kişi vaxtında deyirdi, nahaq biz qulaq asmadıq, danlaq sahibi olacağıq!"

Atalar yaxşı deyib ki, sən saydığını say, gör fələk nə sayır!..

Növbəti May nümayişlərindən birində ailənin hamısı – ərdə olan qızlar, nəvələr, yar-yoldaş, qonum-qonşu ilə birlikdə şəhərin geniş kü-



çələrindən camaat al bayraqlar, qırmızı şüarlarla keçəndə Ziyafət xanımı da gözəl körpəsi ilə gördülər. Gördülər və etinasız qalmadılar. Nümayiş təntənələrini diqqətlə təsvirə çalışan cavan və cəld bir fotoqraf dəstələrdən qabağa keçib, aparatı uşağa tərəf yönəltdi və şaqqıldatdı. Uşağın anasını da çəkdi, sonra Ziyafət xanımdan üzr istəyib qızın adını soruşdu:

– Xanım, bu may qızının adını deyərsinizmi? Sabah bunun şəkli qəzetlərdə olacaq.

Ziyafət xanım uşağının adını dedi:

– Qurtyeməz!

Fotoqraf əlində qələm donub qaldı. Təkrar sual verdi:

– Xanım, uşağın adını soruşuram.

– Mən də adını deyirəm: Qurtyeməz!

Fotoqraf təəccüblə qadına baxdı və dedi:

– Xanım, insafınız olsun, belə gözəl uşağa nə deyirsiniz? Yoxsa zarafat eləyirsiniz?

– Uşağın adı elədir!

– Elə deməyin, xanım, bu uşaq May meydanının qızıl gülüdür. Bunun adı Gülcamal olar?

– Adı elə qoyulub.

Fotoqraf ananın sözlərini zarafat sayıb, məna vermək istəmədi. Uşağı qucaqlayıb təkrar etdi:

– Gülcamalın rəngli şəklini qəzet səhifələrində oxuculara yaymaq və bir nüsxəsini də sizə – bəxtiyar anaya göndərmək mənim borcum! Ünvanınız?

Fotoqrafın dediklərini böyük bacılar, qoşulub gedən Göyçək də, Qəşəng də eşidir. Bacılarına, bayram nümayişində verilən adı təkrar edib fəxr ilə deyirdilər.

– Gülcamal, ay Gülcamal! Adın dillərə düşsün, ay bacı!

Qurtyeməzin adı qəzetlərə, dillərə düşəndən sonra onu çoxları görmək, tanımaq istəyir.

Gülcamal böyüdü, qol-qanad açdı, çiçək kimi açıldı, yeniyetmə toxucuların peşə məktəbində fərasətli, cəld, çevik əməyi ilə hörmət qazandı.

Hər kəs onu pasportdakı adı ilə yox, May nümayişində deyilən Gülcamal adı ilə çağırır və hörmət edirdi.

Bu sevincdə hamıdan çox payı olan Ziyafət xanım əlini əlinə vurub qızını təbrik edirdi:

– Sağ ol, Gülcamal, qəzet verən təzə ad sənə ananın südü kimi halal olsun!

*1974*



# ALMA XANIM

Alma məşhur, dadlı, ləzzətli meyvədir. Xüsusən bizdə, Qafqazda – Qubada, Şirvanda, Qoridə olan almaları hər yerdə xoşlayır, üstün tuturlar. Alma haqqında mən çox oxumuşam, eşitmişəm, məişətimizdə onun mövqeyini də bilirəm. Hələ lap uşaq vaxtından, toy dəsgahlarında quşlar kimi uca çinar budaqlarından tamaşa etdiyim vaxtlarda görərdim ki, toybəyi nişanlısına alma atır, başına gümüş pullar, gül yarpaqları sovurur.

Yaşa dolduqdan, cürbəcür xəstəliklər ilə tanış olandan sonra loğman həkimlərim mənə çox zaman dərman nüsxəsi əvəzinə alma növlərinin adını çəkirdilər:

– Alma ilə aranız necədir?

– Alma sevənəm.

– Sevmək azdır, yemək, gündə azı dörd-beş alma yemək lazımdır.

– Alma yeyirəm.

– Hansından, Şirvan, ya Quba alması?

– Hansı olsa!

– Qırmızıyanaq şirin almalar da, şafran, turşməzə, sarıyanız almalar da ləzzətlidir!

Doğrusu, mən həkimlərimin seçib, sevdiyi almaları ya tanımır, ya lazımınca axtarmır, ya da ki fərqinə varmırdım. Bağlarda, bağçalarda, mağazalarda rastıma düşən hansı növdən olur-olsun alma alır, macal, fürsət gözləmədən yolüstü dişimə çəkirdim.

Bir dəfə Kommunist küçəsilə alma yeyə-yeyə yuxarıya diklənəndə həkimə rast gəldim. Utandığımdan almanı gizlətməyə çalışdım. Həkim güldü, razılıq elədi:

– Bəzi cavanlar, tələbələr çəkdiyi papirosu gizlətmirlər, sən dünyanın ən yaxşı nemətini, Quba almasını yeməyi qəbahət bilib utanırsan? Əksinə, sənin alma ilə belə ünsiyyətini görəndən sonra səhhətin haqqında arxayınlıq hiss edirəm. Nuş olsun! Alma çox gələn evə həkim az gələr!

– Yolüstü olduğu üçün utandım.

– Almanı hər yerdə, hər şəraitdə, hər fəsildə yemək lazımdır. Bu, səhhət üçün şərtdir!

Sonradan gördüm ki, bizim analar gözəl qızlarına ad verirlər:

– Alma xanım, Lumu xanım, Gilas xanım, Qaysı xanım...

Alma xanımı mən Bakı bağlarından birində, tut çırpılan vaxtlar anasının yanında oynayan vaxt gördüm.

– Nə yaxşı ad qoymusunuz, Məsmə xala?

– Biz qoymamışıq.

– Kim qoyub?

– Özü qoyub!

Məsmə xanımın işarəsi məni başa saldı ki, uşağın üzünü görüb bu adı veriblər.

Alma xanım səkkiz-doqquz yaşlarında sağlam, çevik, zirək bir qız idi. İri gözləri, çiyinlərini örtən qara saçları var idi. Bizim söhbətimizin ondan getdiyini hiss edib ətrafımızda hərlənirdi.

– Görürsünüz, Alma xanım yamanca qızdır. Özünü istətməyi bacarır.

Mən ananın sözlərində uşağa tənqid yox, təbii bir məğrurluq,



məmnunluq duyurdum.

– Bütün qız uşaqları şirin, güləşqabaq olurlar.

– Bu da elədir!

Alma xanım bizim söhbətimizə müdaxilə etmədi. Çırpılmış tutdan ən yaxşılarını seçib boşqaba yığdı. Gətirib bizim qabağımıza qoydu, özü çəkilib getdi.

Mən Məsmə xalanı danışdırdım:

– Bu uşağın əsl adı nədir?

– Pasportda Zəhradır.

– Özü hansını istəyir?

– Almaxanım deməyəndə küsür.

– Yaxşı eləyir!

– Əlbəttə ki! Onun haqqı var. Təbiət özü onu Quba alması kimi gözəl, qırmızı, yapışıqlı yaradıb.

– Mən xahiş edirəm, onun ürəyinə dəyməyin. Gələcək qızlarınızdan birinə Zəhra adı verərsiniz!

Almanı isə əziz saxlayın!

Şəhərə qayıdandan sonra Alma xanıma bir şəkilli kitab göndərdim. Uşağın təşəkkür məktubunu atası mənə çatdırdı.

Mən də təşəkkür etdim:

– Sağ olsun kamallı qızımız Alma xanım!

*1974*

# GÖTÜRMƏDİLƏR

Möhsün kişi oğlunu həyətdə görəndə sevincindən bilmədi neyləsin:

– Ənvər, gəlmisən, xoş gəlmisən, niyə xəbər vermədin, qabağına çıxaydılar!?

Ənvər qaçıb atası ilə görüşdü, razılıq eləyib xəbərsiz gəldiyinin səbəbini dedi:

– Ağır yüküm yox idi. Sizə də zəhmət vermək istəmədim. Taksi maşınları boldur. Rahat oturub gəldim. Necəsiniz, kefiniz, əhvalınız... Əkin-biçin necədir?

– Hamısı yaxşıdır!

Möhsün kişi oğlunu dinləmədən üzünü evdəkilərə, arvadına tutub göstəriş verdi:

– Uşaq səfərdən gəlib, xörək-zad hazırlayın.

Xeyransa xala onsuz da oğlu ilə məşğul idi. Ərinin dedikləri ona artıq görünsə də, cavab vermədi.

Nə atasının sevinci, nə anasının təlaşı Ənvəri düşündürdü. Qəribə gələn o idi ki, nə kişi, nə arvad oğlanın məktəb səfərindən bir şey soruşmur, biri də maraqlanmır ki, instituta qəbul məsələsi necə başa gəldi. Çətinlik-filan oldu, ya olmadı. Oldusa, necə oldu, necə həll elədin?

Ata da, ana da Ənvərin səfərini elə düşünürdülər ki, uşağın məktəbə girməyi əvvəlcədən burada həll olunmuşdur. İmtahan eləyənlərin hamısı bir ağızdan deyirdilər ki, Ənvər ali məktəbin tələbəsidir. Onun hazırlığı kimə məlum deyil? Qatara bilet alıb yola düşəndə uşağın özü də arxayın gedirdi. Oradakı imtahanları da ancaq zahiri, rəsmi bir tədbir bilirdi. Yerli təşkilatlardan zəmanətlə gedəndə nə söz ola bilər.

O qəti ümid ilə qatara oturub gedən, indiki məyusluq ilə əliboş qayıdan oğlan – ilk görüşdə ata-anasının təbii sorğu-sualını gözləyir və ürəyində buna cavab hazırlayırdı. Di gəl ki, nə kişi, nə arvad bir kəlmə də sual verib maraqlanmırdı.

Məktəb işini, deyəsən, hər ikisi lap unutmuşdu. Güman edirdilər ki, institut tələbəsi qış tətili üçün yaqin evdən pal-paltar aparmağa gəlib. Nə atanın, nə ananın xəyalına gəlməzdi ki, Ənvəri bu instituta götürməsinlər.

– Niyə götürməsinlər?

– Axı, uşağın hazırlığına, kağız-qələminə söz yox, on illik məktəbi əla qurtarıb, gül kimi attestat alıb, üstəlik də bir medal. Nə deyib belə oğlanı instituta götürməyəcəklər. Müdir də, müəllimlər də, hamısı belə bilikli, kamallı oğlan axtarır ki, instituta gəlsin. Buna nə söz?

Valideynlərinin arxayınlığı Ənvərə qəribə gəlirdi.

Anası Ənvərə çay süfrəsi açandan sonra, sanki, birdən yadına düşdü, sözarası oğlundan soruşdu:

– Ənvər, instituta girəndə bir çətinliyin olmadı, müəllimlər səni, dərs bilən oğlanı tanıdılarmı?

Ənvər bu acı sualı eşidəndə "zəhrimara dönmüş" şirin çayı başına çəkərək, ağızucu cavab verdi:

– Soruşma!

Bu cavab anaya xoş gəlmədi, nəinki xoş gəlmədi, təlaşına səbəb oldu:

– Necə yəni?

– İnstituta girmək müsibətdi.

Qadın qulaqlarına inanmadı. Təəccüblə soruşdu:
– Girə bilmədin?
– Yox!
– Necə yox?.. Dəli olma!
– Dəli, ya divanə!
– Doğrudan, girə bilmədin?
– Götürmədilər!
– Niyə götürmədilər? Kimdən əskiksən!
– Əskiklik deyil.
– Bəs nədi?
– Adamım yoxdur. Adam gərək!
– Bilən oğlana adam nə lazım? Başının biliyi sağ olsun.
– Ay ana, dünyadan xəbərin yoxdur. Oralara gedən oğlanın gərək cibi pul ilə dolu olsun. Arxasında vəzifəlilər, nazirlər dursun, nə bilim, nələr, nələr olsun. Yoxsa asan məsələ deyil.

Arvad oğlundan eşitdiklərinə inanmırmış kimi, qaçıb Möhsün kişiyə xəbər verdi.
– A kişi, bilirsən, uşaq məktəbə düşmüyüb!
– Düşmüyüb?
– Bəli, götürməyiblər!
– Niyə götürməyiblər?
– Özün soruş, uşaq odur, pul kimi qızarıb qayıdıb.
– Hansı filan olmuşun cürətidi Ənvəri instituta qoymasın? Cibində attestatı, başında biliyi, əlində zəmanəti, kim onu qaytaracaq!
– Di gəl, özün soruş!
– Bu saat soruşaram.

Möhsün kişi otağa girəndə Ənvər pəncərədən dağları seyrə dalanlar kimi, sakit dayanmışdı.
– Ənvər, məktəbdə işin necə oldu?
– Necə olacaq, götürmədilər!
– Nə dedilər, götürmədilər?
– Dedilər gələn il gələrsən!
– Bir sənə dedilər?
– Yox, çox adama dedilər.



– Sənin ki, kağızların sahmandadır?
– Kağıza baxmırlar.
– Bəs nəyə baxırlar?
– Heç bilinir ki, nəyə?

Möhsün kişi hirsləndi:
– Əlində rayonun da zəmanəti, göstərmədin?
– Zəmanətə baxan kimdi?
– Niyə baxmır, axı?

Ənvər sağ əlinin baş barmaqlarını bir-birinə sürtdü:
– Buna baxırlar, qəpik-quruşsuz instituta yaxın düşmək olar?!

Möhsün kişi oğlundan bu sözü eşidəndə cin başına vurdu:
– Ədə, institut bəyəm kolxoz bazarıdır, bəyəm alver yeridir? Daşdan keçən attestatın sənə kömək eləyə bilmədi?
– Yox!
– Necə yəni?
– Yox, yox!
– İmtahandan çıxmadın?
– İmtahan vermişəm.

Möhsün kişi oğlunun dürüst cavablarına qulaq assa, inansa da, bu işin əsl səbəbini tapa bilmirdi. Nigarançılıq onu içəridən gəmirirdi.
– Günü sabah mən işimi-gücümü buraxıb institut böyüklərinin qapısını dabanından çıxartmasam, atamın oğlu deyiləm. Sovet hökumətinin qanunlarını ayaqlamaq olar?

Ənvər atasının bərk hirsləndiyini görüb dinmədi. Onun sükutu kişini də şübhəyə saldı. Ata oğlunun çiynindən tutub üzünü bəri çevirdi. Qayıdıb Ənvərin üzünə diqqətlə, mənalı baxdı və ani sükutdan sonra sual verdi:
– Ədə, bəlkə dərsi bilməmisən, soruşulana cavab verməmisən?
– Nə soruşacaq, hamıdan necə, biri də mən!
– Bəs səni niyə qapıdan qovdular?
– Onu məndən niyə soruşursan?

Kişini od götürdü. “Mənim məktəb qurtarmış, boya-başa çatmış, attestat almış, əlində hazır zəmanəti aparmış oğlumu, handa bir fədakar kolxozçunun oğlunu ali məktəb qapılarından geri qaytarmaq? Bu

da işdir? Bunu raykom, ispalkom bilsə nə deyər?..".

Möhsün kişi üzünü oğluna tutub acıqlandı.

– Sən də kor-peşman qayıdıb gəldin? Bir onun böyüyünə, nazirə, müdirə şikayət eləmədin?

– Şikayətdən nə çıxacaq?

Möhsün kişi Ənvərin sözünə qulaq asmadı, hirs ilə tapşırıq verdi:

– Hazırlaş, səhər təyyarəsinə bilet götürəcəyəm, gedək görək bu hariflərin tələbi, dərdi nədir? Mən oğlumun taleyini belə adamların inadına tapşıra bilmərəm. Qoy mənə qanun qabağında cavab versinlər! Tarlanı alın təri ilə suvaran, ildə filan qədər məhsul verən kolxozçunun oğlu ali məktəbə də girə bilməz? Hansı nadürüst adamların fitnəsidir bu?

■ ■ ■

Ənvər güman etməzdi ki, atası onun təhsilinə bu qədər səy və ehtiras ilə yanaşa. Belə nəticəyə gəlmişdi ki, məktəb işi baş tutmayandan sonra kolxozda, təsərrüfatda iş tapacaq, həm maaşı olacaq, həm də dəftər-kitabdan yaxa qurtaracaq.

İndi atasının bu vəziyyətini görəndə, imtahanlardan zəif çıxmağını yada salanda canına üşütmə düşdü, kişini sakit eləmək istədi.

– Ay ata, nə olar, qoy bir il sonra olsun, bir il evdə sənə kömək edərəm, institut qaçmır ki...

Möhsün kişi oğlunun təklifinə istehza ilə yanaşdı:

– Dəmiri isti-isti döyərlər, bala! Mənim hələ köməyə ehtiyacım yoxdur. Təki sən dərsini oxu, təsərrüfatın öhdəsindən özüm gələrəm. Dost var, düşmən var, sabah ağzıgöyçəklər deməsinlər, Möhsünün oğlu ali məktəbə yaramadı. Mən tənə götürməmişəm. Sən gərək özün razı olmayasan ki, bizim adımıza bu sözlər deyilsin. Hazırlaş, özüm gedəcəyəm, görüm bu, kimin fitnə-kələyidir.

Ənvər atasının cavabında bir şey deyə bilmədi, başını aşağı salıb geri döndü:

– Mən hazıram!.. Nə vaxt, haçan desən gedə bilərəm.

– Dəftər-kitab aparmayacaqsan?

– Kitab nəyə lazım.



– Bəlkə imtahan elədilər?

– Özlərində nə çoxdu kitab. Bizdən istəməyəcəklər ki?

Möhsün kişi sözünə əməl etdi. Kolxoz sədrindən "uşağın işinə görə" beş gün vaxt aldı. Həmin axşam təyyarəyə bilet sifariş verdi. Oğlunu götürüb Bakıya – düz nazirliyin qəbul komissiyasına yola düşdü. Nazirlikdə öyrəndi ki, instituta imtahan verən səksən nəfərdən iyirmi beş nəfəri imtahandan zəif qiymət alıb, götürülməyib, onların biri də oğlu Ənvərdir.

– Ənvər, səni necə imtahan elədilər?

– Hamısını necə, məni də elə!

– Bildin, bilmədin?..

– Niyə bilmədim, üç sualın üçünə də cavab verdim.

– Necə qiymət verdilər?

– Aşağı qiymət verdilər!

– Niyə səsini çıxarmadın?

– Elə cavanlara, danışıb nömrə davası eləyənlərə pis baxırlar. Müəllimə cavab qaytarmaq olmaz.

– Bəs müəllimə demək olmaz ki, niyə mənim qiymətimi kəsirsən?

– Ona pis baxırlar.

– Kim pis baxır?

– Hamısı.

Möhsün kişi nazirin yanına gedib oğlu haqqında haqsızlığı dedi, yenidən imtahan tələb elədi.

Nazir vaxt təyin edib Möhsün kişini də çağırdı. Ənvər ilə üç nəfər ayrı oğlan da imtahan verirdi.

Cavanlar imtahan biletlərini götürüb hazırlaşdılar. Komissiya qarşısında cavab verməli oldular. Cavanların biri imtahandan yaxşı çıxdı. Onun cavablarına hamı afərin dedi.

Görünür, zəif qiymət alandan sonra gecə-gündüz oturub ciddi hazırlaşmışdı.

Ənvər biletlərindəki suallara çətinliklə cavab verirdi. Nazir ona Sabirin şeirlərindən əlavə sual verdi. Sabirin kənd haqqında hansı şeirini bilirsən?

– "Əkinçi!"

– "Neylərdin, ilahi?"
– Onu bilmirəm!
– Sabir fəhlədən yazıb?
– Bəli, yazıb!
– Nə yazıb?
Ənvərin dili tutuldu.
– Abbas Səhhət necə, fəhlədən yazıb?
– Abbas Səhhət uşaqlardan yazıb!
– Böyüklərdən, cavanlardan nə yazıb?
– Yadımda deyil.
Nazir dönüb Ənvərin atasına baxdı.
– Uşağı dərslərdən hazırlamamış imtahana gətirmisiniz. Nahaq! Siz ki savadlısınız?
– Bəli!
– Bu məşhur şairlər dərs kitablarında oxunur, əzbərlənir. Ənvər bunlardan bir şey bilmir.
– Öyrənərəm, müəllim, öyrənərəm.
– Öyrənərsən, sonra instituta gələrsən, orta məktəb proqramını yaxşı biləndən sonra səni məmnuniyyətlə ali məktəbə qəbul edərlər.
Möhsün kişi dilləndi:
– Yoldaş nazir, bəlkə, onda da maneçilik oldu?
– Olmaz! Bilən cavana maneçilik olmaz! Ənvər, get dərslərini yaxşı hazırla. Gələn il gələndə üzün ağ, alnın açıq olsun, nə özün utan, nə də atanı, qoca kişini çağırıb zəhmətə sal. İmtahanı sən verəcəksən, bilən uşağa zaval yoxdur, oğlum!
Möhsün kişi nazirdən razılıq elədi.
– Çox sağ olun, müəllim!
– Xoş gəldiniz!

*1974*



# ANAMIN ƏZİZLƏRİ

Sizi bilmirəm, bizdə qız çoxdur. Anamın səkkiz övladı var, hamısı da qız! Hər dəfə anam doğum evindən qayıdanda dostları, qonşuları təbrik edib soruşurlar:
– Nəyin oldu, Nəzakət?
– Yenə qızım oldu!
– Nə olar, Allah mübarək eləsin, toyuna gələk!
– Allah sizə də qismət eləsin.
Bu cavab hərifin ürəyindən olmadı.
– Yox, bacı, üç oğlum var, bəsimdir, istəmirəm.
Fərzi xanım, sanki anamın başına çaxmaq üçün dilucu bir təsəlli verir:
– Nə olar, qız da övladdır da, çölə atmaq olmaz ki!
Gün o gün oldu ki, həmin Fərzi xanım bizim qapımıza elçiliyə gəldi. Böyük bacım Dilşadı böyük oğluna istəyirdi. Anam da, atam da dinməmiş Dilşad özü qiyamət qopartdı:
– Fərzi xanım oğluna ayrı adam tapsın! Bizlərdə onu istəyən olmaz, ayrı qapını döysün.

Elçi, görünür, üzlü adam imiş.

– Oğluma nə olub, şükür, kor deyil, şil deyil. Ayda bir ətək qazanc gətirir. Əlində qulluğu, cibində diplomu, özünün də şümşad kimi boy-buxunu.

Dilşad sözünü deyən, açıq danışan qızdır. Elçinin qabağında öz sözünü açıq dedi:

– Ay xala, Allah oğlunu saxlasın, qulluğu da, diplomu da özünə qismət olsun, mən deyirəm axtarıb özünə tay tapsın.

Dilşadın sözü Fərzi xanıma ağır gəldi. Bəlkə də oğlunu evləndirməyə tələsmirdi. Qonşu qızın tənəli sözü onu acığa saldı. Çərmənib soraqlaşdı, oğluna qız axtarmağa başladı.

Getdiyi qapıların hamısında da sözü oğlunun tərifi ilə başlayırdı:

– Filan yerdə işləyir, cibində diplomu, əlində qulluğu, boyu-buxunu...

Fərzi xanım özünü o yana vurdu, bu yana vurdu. Qızlar soraqladı, hər eşidən dodaq büzdü, "axtarsın, tapar" dedi. Fərzi xanım heç gözləməzdi ki, Salman kimi bir igidə qızlar etina etməsinlər. Söz düşəndə Salmanın qulluğundan, diplomundan, boy-buxunundan söhbət salır, gözlədiyi cavabı ala bilmirdi. Çünki Salman içən idi. Yəni qazancını arağa verib qarnına tökməyi bir igidlik, bir hünər sayırdı.

Dilşadın etirazını eşidəndə bir üzü ona, bir üzü də doğma anasına tənə vurmağa başladı:

– Dilşad məni istəmir, mənə gəlmək istəmir, öz işidir, gəlməsin, amma onun nə haqqı var ki, mənim öz pulum ilə araq içib kef çəkməyimə lağ eləsin? Ay həpəndin qızı, pul mənim, məsləhət mənim, istərəm arağa verərəm, istərəm konfetə, şokolada verərəm. Sənə nə borcdur, mənə qəyyumluq eləyirsən?

Nə Nəzakət xanım qızının sözlərinə, nə də Fərzi xanım oğlunun giley-güzarına fikir verdi. Salman da ya hirsindən, ya adətindən vaxtını restoranlarda keçirməkdə davam etdi.

Günün birində Salmanı zavodun partiya bürosuna çağırdılar:

– Ay Salman, sənin içkiyə qapılmağın zavodu rüsvay eliyəcək!

– Öz pulumla içirəm, zavoda nə ziyanı?

– Zavod kollektivi nə sənin, nə də özünün rüsvay olmağını istəmir.

– A kişi, mən araq içirəm, başqalarına nə dəxli?..



– Salman, sənin əxlaqın haqqında kollektivdə çox danışılır. Ya bunu yerə qoy, özünü ələ al, ya da... Ya da ki ərizə ver, get ayrı iş tap!

– Ay canım, qonşunun qızı Dilşad mənə gəlmək istəmir, gəlməsin. Daha mənim haqqımda artıq-əskik danışmağı yersizdir. Siz də onun sözü ilə məni danlayırsınız?

Partbüronun katibi hirsləndi:

– Dilşad kimdir, onun sözü nəyimizə gərəkdir. Salman, sənin cibində araq şüşəsi şəklini divarlara vururlar. Aləm baxır, gülür, sən də vecinə almırsan. Yox, biz buna dözə bilmərik, papağını qarşına qoy, fikirləş!

– Papağım var ki, qarşıma qoyam?

– Papağın yoxdur, başın var ki?

Salman pörtmüş halda anasının yanına gələndə Fərzi xanım onu danladı:

– Qonşu qızlar ilə işin olmasın.

– Mənim onlar ilə nə işim.

– Sən gəlin axtarırsan, axı!

– Ay arvad, gəlin axtaran yoxdur. Məni zavoddan tərpətmək istəyirlər.

– Nəyə görə?

– Vurmağa görə.

– Sən də bu zəhrimarı niyə yerə qoymursan? Onda nə ləzzət görmüsən, ay bala?

Fərzi xanım yalvarıcı bir əda ilə oğlunun yaxasından tutub ərk ilə sual verdi:

– Araqdan nə ləzzət görmüsən, ay bala?

Salman yuxudan ayılmış kimi, yumruğu ilə gözlərini silib anasının üzünə baxdı. Peşman bir əda ilə ürəkdən dedi:

– Pis yoldaşı, pis yoldaşı zəlil olsun, ay ana!..

*1974*

# XEYİR İŞ

Heybət xala çənəsini ovucları arasına alıb dizlərinə dirsəklənmişdi, görən deyərdi bu arvad nə belə qəm dəryasına qərq olub?

Amma elə deyil, Heybət böhtə gedib, vacib işi fikirləşirdi. Heç kəsdən məsləhət, kömək ummadan, sakitcə fikirləşirdi. Heybət yeganə nəvəsini evləndirmək istəyir, böyük bir xeyir işə tədbir tökür! "Xeyir iş" deyəndə, güman etməyin ki, örtülü, gizli məsələdir. Yox! Bu qadının planı da, işi də aydın-aşkar, günəş kimidir: qız var, oğlan var, qayda var, tədarük üçün pul da var. İşə başlamaq gərəkdir! Başlamaq günü sabahdan!

Heybətin nəvəsi Altay on səkkiz yaşında, məktəbi qurtarmış igid bir oğlandır. İnstituta hazırlaşır. Nənəsi də Altayın toy tədarükünü düşünür. Qonşu qız Məhəbbət Altaya layiq gəlindir, onu əldən qoymaq olmaz! Kəklik kimi qəşəng qızdır.

Heybət xala ailənin başçısıdır. Məsmə də, İzzət də onun bir sözünü iki eləməz.

– A qız, Məsmə, üst-başını sahmana sal. Sabah-birigün özgə evinə gedirik!



Doğrudur, Məsmə qarının sözlərini eşidir, susurdu. Amma demək olmaz ki, bu təklif ürəyindən idi, yox!

– Özgə evi haradır, Heybət nənə?

Məsmə özünü bilməzliyə vurur, qarını dilləndirirdi.

– Hara olacaq, gədənin elçiliyini bilmirsən?

– Məhəbbətin evi niyə özgə olur?

– Qız evinə sahmanlı getmək gərək!

– Gedərik, sağlıq olsa, lap sahmanlı gedərik. Altaydan razılıq almısan?

– Altayı dindirmək olur ki!

– Onsuz iş görmək istəyirsən?

– Mən görəcəyəm!

– Uşağı cinləndirmə!

– Uşaq tərslik eliyəndə əlacım nədir?

– Yox, razılıq almaq gərək! Dilə tut, nənəsinin sözündən çıxmaz!

– Kim dabanlarını çəkib Altayın? Təzədən oxumaq eşqinə düşüb.

– Yar-yoldaşına baxır da!

– Yar-yoldaş işini görür, heç kəsdən soruşmur. Atalar yaxşı deyib, ağıllı fikirləşincə, dəli vurdu çayı keçdi. Mehralı nəvəsi nişanını apardı, sabah-birigün toyunun sədası Tiflisəcən gedəcək. Bizimki deyəsən təzə beşikdən çıxıb, dərs hayındadır.

– Dərs də vacibdir, nənə!

– Dərsin öz yeri, toyun öz yeri! Hər zaman belə qız ələ düşməz. Fürsəti fövt eləmək peşmançılıq olar.

– Evlənmək həmişə mümkündür.

– Mümkündür, ilişərsən bir səfehinə, ömürlük yaxan qalar əldə!

– Səfeh səfehə ilişər, Altay ağıllı-kamallı oğlandır!

– Mən də onu deyirəm. Gərək başa düşə ki, Məhəbbət kimi qız ələ düşməz. Qızılquş kimi ovlayacaqlar, yatmaq vaxtı deyil!

Heybəti od götürmüşdü. Gah qıza nəzər salır, gah Altaya hirslənir, gah da hamıya, hər yetənə dediklərini yadına salır, alovlanırdı. Yandığından çox sözü dilinə gətirmir, içində danışırdı: "Hanı, Məhəbbət kimi qız, hanı? Küllü-mahalda yoxdur. Atası nəcib, anası nəcib, özü gül yarpağı...

Niyə əldən qoyasan?"

Qadın ürəyindəkiləri xatırlayanda, özü də bilmədən, necə oldusa, düz Altayın otağına, uşağın kitab oxuyan vaxtına gəldi çıxdı. Qapıda adam görəndə Altay səslədi:

– Nənə, gəl!

– Məni çağırırsan?

– Gəl içəri!

– Nəyə gəlim?

– Gəl otur!

– Sözümə baxmayanın yanına niyə gəlim?

– Hansı sözünə baxmıram, nənə?

– Hansına baxırsan?

– Mən nənəmin sözündən çıxmaram!

Heybət bu cavabı eşidən kimi sevindiyindən Altayı qucaqlayıb öpdü.

– Boyuna qurban olum!

– Sözün var, de!

– Mənim bir sözüm, bir arzum var, bala!

– Hər arzuna çatasan, nənə!

– Arzum göyərər, sən tərslik eləməsən!

– Sən də həmişə məndən şikayətlisən!

– Şikayətliyəm, bə nə!

Heybət bunu deyib irəliyə yeridi. Altayın qabağındakı kitabı büküb yana qoydu.

– Mənim arzuma qol qoymasan, kitabı da, dərsi də sənə haram eləyərəm! Südümü də!

Altay Heybətin niyyətindəkini bilirdi. Onun şikayətini də bilirdi. Ancaq ağartmırdı. Yaxşı bilirdi ki, nənəsi dediyinin üstündə durub, "Südünü haram eləmək!" nənənin bərk tədbiri idi, onu eşitməmək, saymamaq olmazdı.

Altay nənənin cavabında bir şey demirdi. Susurdu. Baxır, bir qəbahət işləmiş kimi məzlum dayanırdı. Heybət nəvəsinin sükut içində donub qaldığını, deyəsən, söz tapmadığını görəndə fikrə gedirdi. Sonra, fürsət tapmış kimi, ürəyinin atəşini daha artıq büruzə verirdi:

– Ay qırışmal, sən sabah Məhəbbət kimi qız tapacaqsan? Elə nəcib yerdən nişanlı tapacaqsan? Çıraq ilə tapmayacaqsan!

Altay bu dalbadal yağan suallara cavab vermədikcə, nənə alışırdı:

– Hardan tapacaqsan, kimdən tapacaqsan?! Bazarda satmırlar, mağazaya gətirmirlər. O qızları limit ilə ala bilməzsən! İndikilər başa çıxır, döşə daşlanır, sən buna nə deyirsən?

Altayın fikri ayrı yerdə, məktəb işində idi:

– Ay nənə, söhbət başına qəhət olub? Gəlini neynirəm, nəcibi, nanəcibi neynirəm, ay sağolmuş! Mən nə hayda, sən nə qoyub-nə axtarırsan? Bu saat hər kitab imtahan yükü kimi məni düşündürür. Sən də gəlin belə, elçi belə... filan-fəşməkan... Oxumaq, bir sənət sahibi olmaq gərəkdir. Əsrimiz ayrıdır, tərəqqi vaxtıdır!..

Heybət tərs dönüb nəvəsinin üzünə baxdı, qatladığı kitabı götürüb onun qabağına qoydu:

– Bax, bax! Gözünün qarası gedənəcən bax! Məhəbbət kimisi də, Allah eləməmiş, yada qismət olandan sonra... Mən ölərəm, anan başına vurar, sən də dincələrsən. Eləmi?

Heybət sözünü qurtarmış kimi çıxıb getmək istəyirdi. Birdən qayıtdı, xodu alınmış patefon kimi səsinin ahəngini dəyişdi, Altaya sual verdi:

– Məni bunun üçün çağırırdın, bala? Sözümə beləmi baxırdın?

– Mən nənəmin sözündən çıxmaram.

Heybət, qapını çırpıb, dalına baxmadan deyinə-deyinə getdi.

Altay da dəftər-kitabını büküb ayağa qalxdı. Nənəsinin dalınca balkona getdi, balkonda anasına rast gəldi:

– Yenə nənən niyə hirslənib?

– Nənə köhnə söhbəti deyir!

– Evləndirmək istəyir də, niyə tərslik eləyirsən?

– Mən ona bir söz deməmişəm!

– Niyə hirslənib?

– ...

Altay deməyə söz tapmadı. Gah anasına, gah nənəsinin üzünə baxa-baxa qaldı...

"Deməyə söz tapmadı!"

Bu doğru olmaz, Altayın sinəsi söz ilə dolu idi, ancaq bu sözləri o qədər təkrar etmişdi ki, lap yorulmuşdu. Anasına da, nənəsinə, yoldaş-

larına da dediyi sözləri bir də dilinə gətirmirdi. Bu sözlərin cavabını da əvvəlcədən bilirdi: nə deyəcək, nə eşidəcək! Ona görə səsini çıxarmır, bir şey eşidən kimi, kənara çəkilib dəftər-kitab ilə məşğul olurdu. Doğrudur, söhbətdən gizlənir, amma mətləbi də unuda bilmirdi. Evlənmək məsələsi, Məhəbbətin adı gələndə ürəyinə xal salırdı.

Yar-yoldaşa, dəstə ilə elmə, sənətə, həyata gedən, bir–birinə macal vermədən Vətəndə mövqe tutan, çalışan, irəli gedən cavanlara baxanda bir fikrə, qəlbini tərpədən Məhəbbəti yada salanda ayrı fikrə düşürdü.

## II

– Bu nə kitabdır, Altay?

Altay baxanda gördü anası uşaq kimi ondan sadə bir şey soruşur.

– Fizikadır. Üstündə yazılıb ki!

– Bəs bu nə kitabdır?

– O da ictimaiyyət.

Məsmə daha bir şey soruşmadan oğluna ərk ilə müraciət elədi:

– Səni boya-başa çatasan, bu kitabların hamısından xəbərdarsan, bir bizim üçün də kitaba baxsana! Gör saat xoşdumu?

– O nə sözdür, fal açmaq istəyirsən?

– Nənə soruşurdu, məni dəng eləyib, sabah qız evinə səfəri var!

– Xeyir ola?

– Xeyir olmamış nə var! Məhəbbətin "həri"sini almağa gedirik.

Altayı gülmək tutdu.

– Qız evində toydur, oğlan evinin xəbəri yox! Belə səfəri oğlana deməzlər?

– Nənən sənə deyəcək.

– Nənə mənnən danışmır!

– Küsdürmüsən arvadı. Nəhy cavabı eşitmək istəmir.

– İstəmir, canı sağ olsun, mən güman eləyirdim bizi də bir saya salan olar. Bu qapıdan biz də keçməliyik, ya yox!

– Vaxt gələr, keçərsiz, hələ nənənin hirsli vaxtıdır. Qız evinin məsləhəti ilə məşğuldur.

– Salamat gedin!



Məsmə oğlundan bu cavabı eşidəndə nə eyhama, nə kinayəsinə məna verdi. Altayın başını qucaqlayıb şirin-şirin üzündən öpdü.

– Balamın xeyir işi mübarək olsun!

Doğrudur, Altay nə anasının qucaqlamasına, nə şirin öpüşlərinə, nə xeyir-duasına mane oldu. Ancaq ürəyində Məsmənin xitabına cavab verdi: "Ay ana, tələsmə, tezdir, tələsmə!"

Ana bu sözləri eşitmədi, təbrikinə cavabı da eşitmədi. Üstəlik, oğluna muştuluq, təsəlli babətindən bir neçə söz də dedi. Amma Altayın sifətindəki ciddiyyəti, baxışındakı qətiyyəti, hərəkətlərindəki kəsəri duymamış deyildi.

– Sabah gedirik! Saat xoşdur, oğlumun da kefi lap sazdır!

Məsmə bu sözləri dedi, mənalı baxışları ilə oğlunu başdan–ayağa süzdü. Oğlundan cavab gözləyirdi. Gözləyirdi ki, oğlu bu məsul məqamda bu məsul səfər haqqında xoş sözünü desin.

Altay isə bahar buludu kimi tutulmuş, qaralmışdı. Çırtma vursan, qan fışqırardı. Onun sifətində bu saat ildırımlı təlatümlər oynaşan qəlbinin cizgiləri var idi. Sanki onun mənəviyyatını – hisslərini, dilək və arzularını hər tərəfdən boğmaq, ağır məngənəyə salmaq istəyirdilər: "Sabah gedirik!"

Anasının xəbər verdiyi bu tədbir Altayın qəlbinə bıçaq kimi dəymişdi.

– Gedin görək. Dədə-baba yolunda yeyin gedin, bəlkə, ilişmiyəsiniz!

– Nə ilişmək, a bala, yolumuz aydın, sözümüz aşkar, nə ilişmək.

Altay bir söz demədən böyük bir zərbəni rədd edirmiş kimi, sağ əlini tovladı. Kitablar aləminə cumdu.

Məsmə bu hərəkəti, sükutu gözləməzdi. Oğluna baxa-baxa qalxdı! Bir də onu dilləndirməyə, əsəbi halında danışdırmağa cürət eləmədi. Otaqdan çıxanda ürəyindəki şübhə və nigarançılığı rədd eləmək üçün bir, iki dəfə əlini sifətinə çəkdi. "Lənət sənə, kor şeytan!" Heybətin yanına qayıdanda, bir istədi Altay ilə söhbətini danışsın, sonra məsləhət bilmədi. Qarının üzünə baxanda elçilik tədbirinin təfsilatını oxuyaraq bir də təkrar etdi:

– Sabah qız evinə...

Sözünü qurtarmamışdı ki, nənə sanki əvvəldən hazırladığı tapşı-

rığı təkrar etdi:

– Qız evinə köhnə şələ-küləynən getməzlər. Libasınızı sahmana salın, gələn, görən, baxan olacaq! Oğlan adamını elə yerdə başdan-ayağa süzürlər. Əsirgəməyin, elə geyinin görsünlər, sabah, Allah qoysa, gəlinimiz özü durub-oturacaq, danışacaq. Elə geyinin, kecinin, sahmanlı lazımdır.

– Ana, sən özün hazırsan?

– Mən geri qalmaram, zərxarama nə gəlib. Altayın yolunda, oğul yolunda da yox, bəs harda geyəcəyəm?!.

## III

Cabir təyyarə bileti almaq üçün Altayın yanına gəlmişdi.

– Yollar basırıqdır. Gündüz təyyarələrinə bilet almaq çətindir. Gecə saat birə alım?

Altay etiraz eləmədi.

– Havaxta olsa al, yoxsa gecikərik. Mənim orada işim üçün hazırlıq lazımdır, tez çıxmaq yaxşıdır.

– Altay, nənə deyir xeyir iş var. Mübarək olsun! Nə məsələdir?

– Heç, nənəm öz havasını çalır. Qarının növbəti nağılıdır.

– Gizlətmə ha. Sözünü yoldaşına deməyib, kimə deyəcəksən?

– Sizdən gizlin söhbətim yoxdur. Nənəmin arzularıdır, bilirsən ki, indi mənim vacib işlərim var. Evlənməyə vaxt hanı?

– Evlənmək də lazımdır, onu dal plana qoymaq da olmaz. Sağlıq olsun, müdafiədən sonra!

– Ay Cabir, bilirsən, bu nənəni – Heybət arvadı başa salmaq çətindir. Bir kişinin qızını qaralayıb məndən razılıq istəyir, lap əmr eləyir! Deyirəm, ay canım, evlənən mənəmsə, qoy özüm düşünüm, ölçüm-biçim, qız bilər, oğlan bilər. Burada zor-güc yox, könül xoşluğu gərəkdir. Heybət nənə köhnələr kimi başıbağlı iş görmək istəyir.

Cabiri gülmək tutdu:

– Onun çənginə keçən qurtarmaz. Heybət ki, Heybət!

– Mən də onu deyirəm, zalım qızı əl çəkmir. Kor tutduğunu buraxmaz. Oturur, durur: elçi, gəlin, toy, tədarük... Kişini də o dəng eləyib. Atam elə bilir tələsdirən mənəm. Mən qələt elərəm, nə vur-həşirdi, vacib işimiz var. Müdafiə, referat, opponent!

Cabir təsəlli verdi:

– Darıxma, sabah yola düşəndən sonra bu söhbətlər də sönəcək. Heybət nənə də yerində oturacaq. İşini gör, sabah biletlər məndə, maşın gətirəcəyəm, hazır ol. Bu təyyarədə bizim institutdan yoldaşlar çoxdur. Hazırlaş, gecikmək olmaz!

■ ■ ■

Gecə reysinə təyyarə bileti alanlar aerodromda görüşməyi vədələşmişdilər. Cabir Altayı telefon ilə çağıranda səs salmadan, xəlvətcə aşağı düşməyi təklif elədi.

Cavanlar maşına minib uzaqlaşandan sonra Heybət nənə xəbər tutdu:

– Altay hanı? Haçan getdi?

– Səhər açılanda.

– Bəs mənə niyə demədiniz, ərkansızlar?

– Tələsik idi, yoldaşları bilet gətirmişdi.

– Gədənin bəs xeyir işdən xəbəri olmasın?

– Xeyir işi özü bilir. Ona hazırlaşır. Telefon ilə deyəcək!

– Telefon bir ayrı!

– Xəbər verib çağırarıq, gələr təbrik eləyərik! Uşağın vacib işi var. Professorlar orada gözləyirlər. Qoy, işində olsun. Yazı-pozusu var, geri qalmasın.

– Xeyir iş vacib deyil?

– Xeyir işi hazırlayan bizik. Sahmana düşəndə çağırarıq gələr. Qoy dərsini oxusun, canım!..

■ ■ ■

Altay təyyarəyə əyləşib yola düşəndə ilan ağzından qurtarmış quş kimi sevinirdi.

– Cabir, sağ ol ki, nənəmin cəngindən məni qurtardın.

– Məhəbbət ilə görüşə bildinmi?

– Onlar başa düşürlər, qarının vur-həşiri onları da bezdirib.

– Sağlıq olsun, mayqabağı bu iş ilə məşğul olarıq. Qarı da rahatlanıb yerində oturar!

– Yerində oturana oxşamır, fikri-zikri bizi izləməkdir.

– Altay! Onu qınama, yaşlı qadındır. Ürəyində arzusu, həsrəti var, nəvəsinin toyunu görmək istəyir. Onun da sevinci təbiidir. Əlbət ki, onun aləmində məktəb, dərs, müdafiə görünmür. Nəvə-nəticəsini öpübqucmaq istəyir, xatirinə dəymək lazım deyil. Nənədir.

...Gün o gün oldu ki, Altayın müdafiə elanı çıxdı. "Bakı" qəzetinin bu nömrəsi tələbə cavanların da əlində çox gəzdi. Bu xəbəri eşidənlərin çoxu qəzeti də, Məsməni və bütün İzzətovlar ailəsini təbrik edirdilər. Təbrik edir, təfsilatı danışırdılar. Təbrik xəbərinə hamıdan çox sevinən Heybət nənə idi. O, öz aləmində, "xeyir iş" deyəndə Altayın toyunu düşünürdü. Düşünürdü ki, neçə aydır uşaq Moskvada çalışır, tədarük görür, ağır işin hər dəm-dəsgahını hazırlayır. Sabah-birigün işi başa çatanda çıxıb gələcək, valideyninə muştuluq xəbəri gətirəcək. Dost-düşmən, hamı xəbər tutacaq. Söz yox, onda da valideyni özü, əslində Heybət nənə çırmanıb işə düşəcək. Təki toy olsun, nəvə toyunda yorulmaq nədi, süfrəsinə, sahmanınacan özüm baxacağam!"

Heybət ürəyində plan tökür, əncam çəkirdi.

– Birinci, mənim işim qız evinin qapısını açmaq, Məhəbbətin könlünü almaqdır. Gəlinə hazırladığım hədiyyələri "nişan" adı ilə qıza çatdıram gərək! Qoy görsünlər ki, Heybətin nəvəsi elə-belə tələbələrdən deyil, ata-anasının hal-əhvallı balasıdır. Qoy görsünlər ki, nənənin tədarükü varmış! Qoy görsünlər ki, Altay qabağı görən, düşünən oğlandır! Sabah işi başlananda Altay xəcalətli qalmasın, Məhəbbətin başı aşağı olmasın!..

*1974*



# BAKI SƏHƏRLƏRİ

## I

– Qız, Səadət, bu sənsən?

– Bəli, mənəm!

– Nə əcəb, sübhün gözü açılmamış hara belə?

– Açılıb, səhərdir. Ancaq biz çoxdan buradayıq!

Səadət bunu dedi, işarə ilə kənarda dayanan yoldaşını göstərdi.

– Burada nəyi gözləyirsiniz?

Səadət utana-utana mənim sualıma cavab verməyə çalışdı:

– Bir elə gözləməmiz yoxdur, ədibin əsərlərinə abunə yazılmaq istəyirik.

– Hansı ədibin?

– Müəllim, ədibimiz Maksim Qorkinin əsərlərinə böyük növbə var. Çoxdan növbə gözləyirik.

Mən, Səadət ilə danışdığım zaman kitab mağazasının müdiri gö-

ründü.

Həsən müəllim həm keçmişdə tələbəm olub, həm də indi yaxın dostlarımdan biridir. Məni görüb yanaşdı, əl verib əhval soruşdu:

– Müəllim, kefiniz necədir?

– Çox sağ olun, kefim yaxşıdır. Ancaq səhərin gözü açılmamış, camaatın işə gedən vaxtında bu gözəl qızlarımızı mağaza qabağında görəndə birtəhər oluram. Bəyəm kitablara abunə yazılmaq üçün bu qədər növbə var?

– Var, bəli, böyük növbə var!

– Bizim qızları, onların kitab ehtirasını nəzərə almaq gərək. Xüsusi nəzərə almaq gərək!

– Əlbət ki, əlbət ki!

– Səadət xanım növbədədir?

– Bəli, növbədədir.

– Yəqin ki, kitab alacaqlar, nigaran olmayın!

– Mən belə bilməz idim. Sizdə həmişə belə növbə var?

– Həmişə demək olmaz. Amma Maksim Qorkinin əsərlərinə tələb, tələbkar çoxdur. Çox-çoxdur.

– Maksim Qorki yarım milyon tiraj ilə çap olunur?

Həsən müəllimə mənim sualım qəribə və gülünc gəldi.

Dünyadan, həyatdan bixəbər, avam adama baxan kimi istehza nəzəri ilə məni süzəndən sonra dedi:

– Yarım milyon nədir, müəllim, başdan-başa savadlı ölkə üçün bu, çox cüzi tirajdır, müəllim. Yarım milyondan Bakı kimi nəhəng şəhərə iki min nüsxə göndərirlər. Halbuki, iki yüz min göndərsələr də azdır. Qorki kimi böyük ədibləri bizdən kim oxumur, böyükdən-kiçiyə hamı oxuyur: pioner də, cavan da, yaşlı da, qoca da! Belə günlərdə mağazanın qabağı adamla dolu olur. Ancaq qabağa düşənlər abunə yazıla bilirlər. Əksəriyyət məhrum olur.

– Bəyəm, belə kitabları yarım yox, bir neçə milyon tirajla nəşr eləmək olmaz?

Həsən müəllim təkrar güldü, mənim üzümə baxıb mənalı sükutla cavab verdi. O, demək istəyirdi ki, bir neçə milyon tirajla çap elətdirmək məhz sizin, qələm sahiblərinin işidir.



Bu olar, necə olmaz?! Amma deyirlər kağız çatışmır.

– Canım, kağıza nə gəlib? Mağazalarda düyü, şəkər, noxud bükub satırlar.

– O kağızı belə kitablara işlətmək olmaz, müəllim!

Söhbəti uzatmaq, Səadəti məəttəl etmək istəmədiyim üçün mağaza müdirindən aralanıb gəldim. Səadət də mənə təsəlli verdi:

– Müəllim, narahat olmayın, biz Maksim Qorkinin əsərlərini alacağıq, növbəmiz qabaqdadır.

Səadət kənarda dayanan yoldaşını çağırıb mənə təqdim etdi.

– Bu, – dedi, – özgə adam deyil, bacımdır. Sevda. Tanış olun, tibb institutunu bu il qurtarıb.

– Təbrik edirəm. Cavan həkimlərə ehtiyacımız çoxdur.

– Bəli, cavan həkimdir.

– İkiniz də növbəyə durmusunuz?

– Bəli, ikimiz də, çünki hər ikimiz abunə yazılmaq istəyirik. İstəyirik ki, bacıların kitabxanaları bir-birindən geri qalmasın!

– Əcəb, çox əcəb!

– Sevda da mənim kimi kitab oxuyandır.

– Xüsusilə gənc həkimin kitabxanasında Pavlov, Darvin, Mendeleyevin əsərləri ilə yanaşı, Maksim Qorkinin cildlərini görmək fərəhlidir.

Səadət xanım bir qədər sükutdan sonra bir müəllim ədası ilə sanki məni başa salırdı.

– Kitab var ki, ixtisas sahibinə vacibdir. Kitab da var ki, mədəni adamların hamısına gərəkdir. Bizim ölkədə kitabsevərlərin xüsusi cəmiyyəti yaranıb, bilirsiniz? Sevimli ədibimiz Maksim Qorkinin əsərləri belə əsərlərdəndir. "Ana", "Şahin nəğməsi", "Fırtına quşu", "Mənim universitetlərim" hamımıza hava, su kimi vacibdir. Budur, burada növbəyə duran yüzlərlə adam arasında ədəbiyyatçı, demək olar, az görünür. Bu adamların çoxu başqa ixtisas sahibidir. Ancaq görünür hamısı Maksim Qorkinin daimi oxucularıdır.

Vaxtilə tələbəm, indi isə şəhərimizin tanınmış ziyalılarından olan bir xanımın söhbəti mənə xoş və fərəhli idi.

## II

Səadət xanım ilə sonrakı görüşüm də səhər vaxtı, dəniz sahilində oldu.

Həmin illərdə mən adət eləmişdim, balıq ovuna gedərdim. Bir səhər sahildə ucaboy bir xanımın dayandığını, dalğaları seyr etdiyini gördüm. Doğrudur, xanım məndən xeyli aralı dayanmışdı, nədənsə onun boyu diqqətimi çəkdi, Səadəti mənə xatırlatdı. Neçə dəqiqə sonra cəsarət edib yanaşdım. Yanılmamışdım. Bu, Səadət xanımın özü idi. Balıq ovuna yox, Bakı səhərini seyr etməyə, günəşin tiluunu göstərən tablo çəkməyə gəlmişdi.

Mən onun fırçasını, kətanını, rənglərini görəndə marağımı hiss edib dedi:

– Kosmonavtlarımız Günəşin, Ayın, Yer kürəmizin dövran və tənasübünü vəcd ilə təsvir və tərif edəndə mən dərk edə bilmirdim. Bilmirdim ki, kainatın sirlərini təyyarədə, uçuşda bu qədər dəqiq izləmək mümkün olar. İndi, səhərin açıldığı, göydən bir zümrüd parçası kimi qopub düşən Xəzərin sahilində günəşin tiluunu seyr etmək mənə nə qədər xoş və maraqlıdır. Sanki günəşi yox, dəryadan, su içindən qızarıb qalxan əfsanəvi qızıl bir teşti seyr edirəm. Günəş qalxdıqca rəngi ağarır, həcmi azalır, şüaları sünbül qılçığı kimi gözü qamaşdırır...

Onu da deyim ki, təbiətin gözəl, nadir, cazibəli hadisə və mənzərələri məni Səadətdən çox cəlb etmişdi. Mən çoxdan idi ki, tiluun, ya qürubun lövhəsini verən bir tablo axtarırdım. Otağıma vurmağa bundan münasib bir şəkil-zinət təsəvvür etmirdim.

Səadətin belə nəcib, gözəl mövzu ilə məşğul olmağı məni sevindirirdi, özümü saxlaya bilmədim, rəssam qıza öz niyyətimi dedim:

– Səadət xanım, güman etməyin ki, sizin çəkdiyiniz tablo məni dilləndirir, xeyr! İnanın ki, neçə illərdir Xəzərin sahillərində gəzərək belə bir tablonun yaranmasını arzulamışam. Güman edirəm ki, sizin yaratdığınız əsər mənim arzumu oxşayacaqdır. Otağımda bundan yaraşıqlı bir şəkil bilmərəm. Mən onu zər və ipək haşiyəli bir çərçivədə saxlayacağam.

Səadət xanım gülümsədi:

– Müəllim, hələ tablodan danışmaq tezdir. Burada böyük bir niyyət, gərgin əmək tələb olunur.

– Sizin təşəbbüsünüz böyük niyyətdir!

– Niyyət hara, nəticə hara?

– Əminəm ki, Xəzərdə tiluun lövhəsi sizin zehninizdə çoxdan hazırdır!

– Niyyət var.

– Nəticə də olacaq!

– Siz deyən kimi olsa, böyük xoşbəxtlikdir!

– Bizim istedadlı, sənətkar qızlarımız bu xoşbəxtliyə tamamilə layiqdirlər!

Söhbətimizin axırında Səadəti əmin etdim ki, onun tablosunu mən səbirsizliklə gözləyəcəyəm, otağımda ona münasib yer ayıracağam...

Rəssam qızın heyrət və ehtiras ilə səhər mənzərəsinə baxdığını, günəş şüalarının tellərini sanki mərmər daraq ilə daradığını, öz daxili aləmi ilə daha çox uğraşıb dediklərimə diqqət yetirmədiyini duyub sükut elədim.

– Bu mənzərəni çəkməsəm, özümü cinayət işləmiş sayaram.

Qızın bu sözlərini eşidəndə böyük şairimiz Füzulinin gözəllik haqqında sətirlərini xatırladım:

*Hüsn nə miqdar olursa, eşq ol miqdar olur!*

Səadət xanım diqqətlə məni süzdü və şeiri təkrar etdi:

*Hüsn nə miqdar olursa, eşq ol miqdar olur!*

*1975*

# XAHİŞ, TƏLƏB, MƏSLƏHƏT

Adam, xüsusən indi cəmiyyət adamı bunlarsız keçinə bilmir.

Mən özüm müəlliməm, xalqın uşaqlarını oxuduram. Çalışıram ki, cavanlar müasir elmin, mədəniyyətin əsaslarını yaxşı öyrənsinlər. Gənclərə diplom verib həyata, xalq təsərrüfatında işə göndərəndə getdiyi idarənin işi sahmanda olsun, həm gəncin alnıaçıq, üzüağ, sənəti sayalı olsun, həm də müəllimin zəhməti hədər getməsin, sevincinə əsas olsun.

Cavanların eləsi olur ki, beş il, altı il ali məktəbdə ləyaqətlə oxuyur, qurtarır, diplom alır. İşə təyin olunanda sevinirsən, onu təbrik edib xeyir-dua verirsən. Ürəyin açılır. Sanki əzəmətli mülk tikmisən, abad bir bağ salmısan.

Eləsi də olur ki, hıqqana-hıqqana dərsini başa vuranacan daş çatlayır, semestr olmur ki, onun kəsiri çıxmasın, valideyn xahişə gəlməsin, müəllimlərə ağız açıb xahiş eləməsin. Belə tələbələrin işi müsibətdir. Heç kəsə qismət olmasın, ömür çürüdən şeydir... Belələrindən biri keçən il mənə rast gəlmişdi. Sonra məlum oldu ki, dostumun oğludur. Atasının





da xatirini istəyirəm, haqq-salamımız var. Kişi özü də həyalı adamdır. Utana-utana mənə ağız açdı:

– Ay filankəs, – dedi, – övladdır, dərsi, inkişafilə maraqlanırsan, istəyirsən ki, yar-yoldaş arasında axsamasın. Ona görə də ərk eləyib yanınıza gəlmişəm. Oxumayan uşaq olsa, heç sənə zəhmət vermərəm. Oxuyandır, amma di gəl ki, bədbəxt oğlu, kütdür, hərdəm görürsən, deyiləni yaxşı mənimsəyir, hərdəm də yox. Müəllimlər yanında adam utanır, neyləyim, əlacımız yoxdur. İndi burada sizdən çox yox, yüngülcə bir xahişim var. Bir nömrə, ancaq bir nömrə güzəşt elə! İkiyə bilir, üç ver, üçə bilir, dörd ver! Bircə nömrə ona güzəşt kifayətdir. Güman edirəm ki, siz onun haqqında bir nömrəni əsirgəməzsiniz! Lap mənim xatirimə! Çörək kəsmişik, bir-birimizə yeri gələndə xətir-hörmət eləmişik. Bunları nəzərə alın...

Doğrudur, mən dostumun xahişinə ürəkdən razılıq vermədim, onu açıq da rədd eləmədim. Bir nömrə elə çətin, böyük xahiş deyil ki, dostumun sözünü yerə salaydım, narazı gedəydi.

– Baxarıq, – dedim, – arxayın salma, qoy ciddi oxusun, hazırlaşsın, baxarıq!..

Gün o gün oldu ki, həmin oğlan imtahana gəldi. Gəldi, özü də bir növ ƏDA ilə gəldi. Filan qrupun tələbəsi, filan dərsin kəsirlisi kimi yox, məhz FİLANKƏSİN oğlu kimi gəldi.

– Yoldaş müəllim, sizin dərsdən mənim imtahanım qalır. Atam da sizinlə danışıb, xahiş edirəm, mənim imtahanımı götürəsiniz!

Hərif bunu bir əmr kimi ucadan dedi, qoltuq cibindən çıxardığı kitabçanı da üstümə atdı.

– Bu da zaçotkam!

Atasının xahişini təkrar yadıma saldı:

– Atam da sizinlə danışıb. Mən çoxdan gəlməli idim, bir həftə xəstə oldum, üstünüzə sağlıq!

– İndi gəlmisən?

– Bəli, indi gəlmişəm!

– Dərsə hazırsan?

Tələbə bir az dayandı, gözlənilməz bir sual eşitmiş kimi, üzümə dik bağdı, cavab verdi:

– Hazıram!

– Keç əyləş!

Müəllimlər bilirlər, müəllim olmayanlar da düşünə bilər ki, asan dərsi öyrənməyib imtahana gəlmək, özü də atasının xahişi ilə gəlmək, müəllimə necə ağır olar. Axı müəllim yazıq bu dərsi tələbələrə demək üçün nə qədər kitab vərəqləyir, zəhmət çəkir, səy eləyir, tələbələrin marağını oyatmaq, fənni sevdirmək üçün dəridən-qabıqdan çıxır.

İndi dərsin üçündə iştirak eləyən, beşinə gəlməyən fərsiz, hərcayı bir oğlan gəlib zaçotkasını adamın qabağına atanda dözmək çətin olur.

Nə edəsən ki, dostumun xatirinə mən bu oğlanı imtahana buraxdım, suallar verdim, cavablarını isə heç eşitmək də istəmədim.

Oğlan, görünür, çox sırtıq, üzüboz bir adam idi. Sualların birini kənara qoydu, o birisinin müəyyən mətləbini danışdı, zaçotkasını təkrar qabağıma qoyub atasının adını çəkdi. Mən əlavə bir sual da verdim. Oğlan başını buladı, demək istəyirdi ki, "bu müəllim, heç atam deyənə oxşamır."

– Müəllim, hələ yenə iki imtahanım durur, tələsirəm!..

Mən ehmallıca zaçotkanı götürüb qiymət yazdım. Oğlanla salam göndərdim.

– Atana məndən salam deyərsən!

Oğlan əvvəl sevincək kitabçanı qatlayıb cibinə qoymaq istəyirdi, bir də diqqətlə baxanda, zərbə dəymiş kimi dayandı. Dayandı, mənə sual verdi:

– Müəllim, kəsdiniz?

– Bəli.

– Atam yaxşı nömrə xahiş etmişdi?

– İndiki biliyiniz üçün bu qiymət kifayətdir!

– Bir də gəlməliyəm?

– Bəli, bir də gələrsiniz, ancaq yaxşı-yaxşı hazırlaşıb, proqramın əsas bəndlərini bir də təkrarlayıb, diqqətlə öyrənib gələrsiniz!

– Bəs atam ilə danışmağınız?

– Atan bilir, ona güzəştə getmişəm!

Oğlan daha məni danışdırmadı, kitabçanı cibinə qoyub düz getdi! Yəqin ki, heç bir yerə, nə məktəbə, nə dekanın yanına, nə kitabxanaya, düz atasının yanına qaçdı. Atasını təkrar mənim üstümə göndərməyə tələsdi.

Doğrudan da elə oldu. İki saat çəkmədi ki, dostum məni evimizin qabağında nahar yeməyinə gedəndə haqladı, salam-kalamsız sözə, giley-güzara başladı:

– A filankəs, axı mən sizə ağız açdım, uşaq üçün xahiş elədim. Əcəb əməl eləmisiniz!

– Necə bəyəm!

– Oğlana iki vermisiniz!

– Dostum, məndən çox yox, bir nömrə güzəşt etməyimi xahiş etmisiniz. Sizin oğlanın dərsdən biliyi ancaq BİR qiymətə layiq idi, mən şəxsən sizə güzəşt edib ona İKİ verdim! Daha bundan artıq güzəştə söz verməmişdim.

– Axı, bir ilə ikinin də fərqi var?

– Dostum, siz müəllim deyilsiniz, imtahan eləmirsiniz, bilmirsiniz. BİR ilə İKİnin çox böyük təfavütü var. Uşaq özü bilir!

– Uşaq bildi nə xeyri?

– Xeyri odur ki, bir ay da çalışsa, məlumatı bir nömrə artar, olar üç!

– Üç, yəni nə olsun?

– Üç o deməkdir ki, tələbə proqramın tələblərini az-çox bilir!

– A kişi, bizə az-çox yox ey, yaxşı bilmək gərəkdir! Yaxşı!

– Yaxşı bilmək də xahiş ilə yox, öyrənmək ilə olur! Nə səndən, nə məndən, nə də rektordan asılıdır! Oğlanın tək ÖZÜNDƏN, öyrənməyindən, dərsi mənimsəməyindən asılıdır. Oğlan zəhmət çəksin, dizini qatlasın, kitabları qabağına töküb tələbə kimi oxusun! Onda yaxşı bilər.

– Oxumağına oxuyar, ancaq...

– Oxusa qiymətini alacaq, oxuyana zaval yoxdur, dostum! Tələbə oxuyan, öyrənən deməkdir!..

*1975*

# ANAMIN SEVİNCİ

Burada hansı sevincdən söhbət gedir? Bizim anaya gətirdiyimiz sevincdən, yoxsa ananın bizə gətirdiyindən?

Doğrudur, biz anamızı çox istəyirik, mən də, bacım da. Onun, az qala, başına dolanırıq. Həmişə istəyirik ki, onu sevindirək, güldürək, ürəyini açaq, xoş xəbərlə salamlayaq.

Bununla belə, nə mən, nə də bacım hələ ana qarşısındakı borcumuzu ödəməmişik, onun istəklərini lazımınca ödəməmişik. Bu bizim gələcək vəzifəmiz, arzumuzdur. Ona görə də bizim anaya gətirdiyimiz sevinc haqqında danışmağın hələ vaxtı çatmayıb. Ömrümüz vəfa eləsə, bu haqda gələcəkdə danışarıq, əsaslı danışarıq. İndi isə əsl söhbət anamızın bizə bəxş etdiyi sevinc barəsindədir.

Bu sevinc bütün ailələrdə, ana-bala arasında var. Təbiidir, hamıya xoşdur, hamı onun şirinliyini, ləzzətini, hərarətini duyur və qiymətləndirir. Bizim anamız, əslinə baxsaq, çox analara oxşamır. Ayrı cür anadır. Lap ayrı cür xasiyyəti var. O, toxucu kombinatının qabaqcıl fəhləsidir, kollektivdə xüsusi xətir-hörməti var. O, gecə-gündüz işləyir, yorulmaq



bilmir, həmişə qolu çirməkli, başı çalmalı, güləşqabaq görərsiniz. Səhər səkkizdən gedir, axşam dörddə idarədən qayıdır. Qapıdan içəri girən kimi ev işi ilə məşğul olur. Yeməyimizin, süfrəmizin, xörəyimizin, çayımızın tamam dəsgahını hazır eləməsə rahat olmur. İdarədə bir sexi, evdə bir "sexi" var. Anamızın bizə verdiyi bir sevinc də mehribanlıq, qonaqpərvərlikdir. Gün olmaz ki, o, bizim yoldaşlarımızdan xəbər tutmasın, itirib-axtarmasın. Gülər üzlə bizi dindirməsin, yoldaşlarımızı soruşmasın.

– Tofiqi niyə gətirmirsən bura?

– Aidanın kefi necədir, niyə dolanmır buralara? Yoxsa incidib eləmisən? Yoxsa küsərəm səndən, onlar da mənim balalarımdır, şirin dil ilə dindir, keyfini soruş!

– Bilməzsən, xatirinə dəyərsən ha. Dil-ağız elə, xatir-hörmətin olsun! Sən də ki mızı, az danışansan!

Bacımı o qədər əzizləyib soruşmur ki, yoldaşlarımı soruşur. Özü də adbaad, birbəbir! Kənardan görən deyər bu cavanlar arvadın ya qohumları, ya yetirmələridir. Ya da ki bunların anaları etibar eləyib ona tapşırıblar. Rast gələndə də ondan sorğu-sual eləyirlər.

Anamın xasiyyəti belədir. Nahara əyləşəndə yanımızda yar-yoldaş olmasa qıdığı gəlir, qonaq olanda isə arvadın üzü gülür, könlü açılır, bişirdiyi xörəyin iştah ilə yeyildiyini görəndə ürəyi açılır.

– Ana, sağ ol, dadlı xörək bişirmisən, əllərin var olsun!

Sanki, ana çoxdan belə bir təşəkkür gözləyirmiş. Dərhal başını qaldırıb sizin üzünüzə baxacaq:

– Nuşcan, dadı-duzu yerindədirmi? İştah ilə yeyin, mənə də xoşdur!

Dünən axşam Tofiq bizə gəlmişdi. Təzəcə dərzidən aldığı yaraşıqlı abı kostyumunu geyib gəlmişdi.

– Xalacan, – deyirdi, – heç primerkasında əməlli baxmamışam. Sizdən də heç kim yanımda yox idi. Geydim gəldim ki, baxasınız, necədir, dərzilərin bəzisi xaltura eləyir, paltarı tez–tələsik əldən çıxarır, adamı yola salır. Diqqət ilə baxın, kəm-kəsiri varsa, ustanın üstünə aparım, necədir?

Məndən qabaq anam Tofiqi təbrik elədi:

– Əcəb kostyumdur. Mübarək olsun. Əlləri var olsun belə ustanın. Tofiq bala, lap əyninə tikilib, deyirsən, bir kukladır. Çox mübarək, sağlıq ilə geyinəsən. Əsl bəy kostyumudur. Sənə yaraşıqlı gəlin lazımdır. Tofiq, yoldaşlarının borcudur. – Anam üzünü mənə tutub danlamağa başladı:

– Yoldaş nə gündə lazımdır? Niyə belə oğlana yaxşı bir qız tapıb evləndirmirsiniz? Gərək özü dillənə?

Mən anamın sözünü zarafata salıb gülürəm, ancaq yoldaşımın kostyumunu nəzərimdən qaçırmıram. O yana keçib baxıram, bu yana keçib soruşuram.

Tofiqin kostyumu yaxşıdır, yaraşıqlıdır, təzə moddadır, fasonu da qaydadır. Ancaq mənim xoşuma gəlməyən bəzi şeyləri var.

– Ay Tofiq, bu parçaya belə düymə qoymazlar axı. Ciblərin kənarından gedən tikiş gərək belə qaba görünməsin.

– Yaxşı ütü lazımdır!

Mən bunları dedikcə arxadan ətəyimin çəkildiyini duyuram.

Anam deyəsən mənim tənqidi qeydlərimə darılır və dönüb üzümə baxanda dodağını dişlədiyini, gözünü ağartdığını gördüm.

– Nə var, ana?

– Heç nə! Mübarək olsun, Tofiq.

– Mən də deyirəm, mübarək olsun!

– Yox, sən gözəl kostyuma qulp qoyursan.

– Nə eləyirəm?

– Bilmirəm, neyləyirsən!

– ...

Anam bir az da hirslə danışır:

– Nəyidir bu düymənin, dərzi səndən az bilir? Belə düymə indi dəbdir. Tofiq yaxşı bilir, çox gözəldir!

– Mən bir söz demədim ki!

– Yox, Tofiq, ustalıq bir iş yoxdur. Mübarək olsun. Sağlıq ilə geyin, çox qəşəngdir.

– Ay ana, bəyəm, mən Tofiqin kostyumunu bəyənmədim?

Ana iki barmağı ilə ağzını örtüb yavaşca dedi:

– Kiri, kiri, danışmağa söz axtarma, uşağın kostyumuna söz-söhbət ola bilməz.



Tofiq gedəndən sonra anam mənim "dərsimə baxmağa" başladı:

– A bala, yoldaşın ərk eləyib təzə kostyumunu ilk dəfə sənə göstərməyə, sevincini səninlə bölməyə gəlib. Onun ürəyini açmaqdan, sevincinə şərik olmaqdansa, başlamısan düyməsi belədir, ilməsi elədir. Sən libası cavanın gözündən niyə salırsan?

– Mən onu istəyib deyirəm də, ay ana!!.

– Demək var, demək var! Paltarı gözdən salmaq, bala, yaxşı deyil. Ha göz vururam kəsəsən, kəsmirsən! Tofiqin xatirinə dəymiyəsən bir də, sənə məsləhət eləmək istəməz. Yoldaşın qəlbinə dəymək olmaz. Adamlar ilə şirin danışmaq lazımdır, bala.

Anam məni o qədər danladı, az qaldım telefon ilə Tofiqdən üzr istəyəm. Ürəyində zərrə qədər küdurət yoxdur. Şəffaf qəlbi ipək kimi yumşaq, yarpaq kimi kövrəkdir.

– Ana, – dedim, – sənin qəlbin ceyran südü ilə yoğrulmuş, qızıl gül yarpağı ilə hörülmüş çələngdir. Bu sakit və dinc həyatın həmişə yaz səması qədər geniş, aydın olsun...

*1975*

# MƏHƏBBƏTƏ ZOR YOXDUR

*Araz üstə, buz üstə,*
*Kabab yanar köz üstə.*
*Var-yoxum əldən getdi,*
*Etibarsız qız üstə.*

*Bir məktubdan*

–Nisa, ay Nisa!

Nisa qayıdıb səs gələn tərəfə baxdı, dinmədi.

– Nisa, qadan alım sənin, ay Nisa, niyə cavab vermirsən?

Nisa səs gələn tərəfə bir də baxdı, başını aşağı salıb yoluna düzəldi.

Abbas təpik dəymiş boş boçka kimi dığırlandı, döngədən keçib qızın qabağını kəsdi:

– Salam əleyküm, Nisa!

– Əleykəssalam!

– Nisa, hara belə səhər-səhər?

– Evimizə gedirəm.

– Dərslərdən qurtarmısan?

– Dərsimiz yoxdur.

– Mənim də vaxtım var, fürsətdir, yaxşı kino var, bilet alım gedək!

– Sağ ol, evdə işim var.

– İş qaçmır ki, sonra görərsən.



– Vaxtım yoxdur.

– Xahiş eləyirəm!

– Nə xahiş!

– Gedək kinoya!

– Yox, sağ ol!

Abbas səsinin ahəngini dəyişdi:

– Ay Nisa, haçan təklif eləyirəm, bir bəhanə tapırsan. Nə olar, bir biz ilə də oturub danışasan? Bizi niyə saymırsan?

– Nə danışacağam?

Abbasın əlinə fürsət düşdü:

– Necə nə danışacaqsan? Sən nə danışsan, mənə quş təranəsi kimi xoşdur. Sözün canıma yayılır. Bilirsən ki, mən sənin sözünə də, səsinə də məftun, heyranam. Di gəl ki, sən mənə heç etina eləmirsən, ay insafsız, bir yazığın gəlmir. Demirsən ki, oduma yanan var?

Nisanı gülmək tutdu:

– Niyə yanırsan, nə olub yanırsan?

– Özüm ilə deyil, yanıram, alışıram, neyləyim?

– Yanırsan, özünü at suya, nə çoxdur dəniz!

– Ay Nisa, səninki oldu zarafat!

– Zarafat yaxşı şeydir, ömrü uzadan şeydir.

– Elə ömür nəyə lazımdır, Nisasız ömrün mənası nədir?

– Yox əşi!?

– Görürsən, sən zarafatdan əl çəkmirsən. Görürsən!

Nisa qapılarına yanaşanda əli ilə xudahafiz işarəsi verib getdi.

Nisa getdi, amma Abbas qapının ağzında mat-məəttəl dayandı, o, elə möhkəm dayanmışdı ki, deyərdin Nisanı gözləyir. Gözləyir ki, bu saat evdəki işini görüb, məclis paltarını geyib qapıya çıxacaq...

Abbas xeyli dayanandan, gah sağa, gah sola öskürüb-asqırandan, qaranlıq qovuşduğunu görəndən sonra, kor-peşman qayıdıb instituta tərəf gəldi. Gəlirdi, amma huşu-başı özündə deyildi. O, xahişinə etina edilməyən, görüşdən məyus qayıdan adam kimi yox, öz aləmində fikirləşən, tədbir tökən, çox mətləbi yoxlayan kimi gəlirdi.

"Bu qız mənə niyə boyun əymәsin? Sir-sifətim xoşuna gəlmir, qulluğum xoşuna gəlmir, rəftarımı bəyənmir, nə məsələdir görəsən? Dərdi

nədir bu zalım qızının axı?"

Abbasın düşüncələrində aydın bir həqiqət bu idi ki, qızın ondan zəhləsi gedirdi. Abbas bunu bilirdi, ancaq bunun sirrini axtarırdı.

Bu sirr onun nəyinə lazım idi?

Bu sirr ona görə oğlana lazım idi ki, çarəsini tapsın. Bir əlac eləsin. Yoxsa baxanlar gülür.

Haqqa dursan, o, institut mühitində saya salınan, özünə görə bir adam idi. Günü sabah evlənmək istəsə, münasib bir qızın adını çəksə, bəlkə də rədd cavabı almazdı. Amma qız var, qız var. Eləsi olar ki, Abbasa meyil göstərə bilər. Amma Nisa kimisi əsla yox. Nisa xarakteri olan, mənliyi, siması, sözü, heysiyyəti olan qızdır. Abbasın bir səhvi də o idi ki, obyektində yanılırdı, güman gəlməyən ağaca daş atırdı. Nisa onun adını eşidəndə dəhşətə gəlirdi:

– O kim, mən kim? Adamda həya gərəkdir!

Bəlkə Nisanın deyiklisi, gözləməsi var idi? Yox! Nisa dördüncü kursu təzə qurtarırdı. Evdə də söhbət olanda əsəbi cavab verirdi:

– Qoyun dərsimizi oxuyaq!

Bəlkə Nisa Abbasdan xatirə dəyən söz eşitmişdi? O da yox!

Əksinə, Abbasın Nisada gözü var idi. Ona ağır söz deməzdi. Onun yanında özünü ağır aparmağa, abırlı, mərifətli görünməyə səy edərdi. Ancaq Abbas bilə bilmirdi ki, Nisa onun nəyindən şübhələnir, nəyə görə onunla kəlmə kəsmək istəmir, nifrət edir.

Abbas düşünürdü ki, qız tayfası ağırtaxtalıdır. Gərək onun nazına dözəsən, qılığına girəsən, konfetdən, şokoladdan-zaddan alıb aldadasan.

Abbasın ağlı ayrısına gedirdi.

Təvəkkül Allaha deyib Nisanın dalınca düşmüşdü və güman edirdi ki, "qızı yumşaldacaq!"

– Qız xeylağıdır, – deyirdi, – sabah bunun imtahanı var, qurtarmağı, təyinatı var, tələbə təşkilatına işi düşməmiş olmaz. Gec-tez o, mənim yanıma gəlməli olacaqdır. Necə ola bilər, xahişə gəlməsin. Özü də bilir ki, rektorluq yanında Abbasın bir sözünü iki eləməzlər. Təki Nisa mənə ağız açsın, xahiş eləsin. Necə olsa, kimdən asılı olsa, onun xahişini düzəltməsəm, məndən pis adam yoxdur. Təki onun bir xahişi olsun!



"A Nisa, sənin gözlərini yeyim, məndən niyə qaçırsan, ay zalım qızı!"

Abbas çox fikirləşdi, çox götür-qoy elədi, xəyal aləmində Nisa ilə çox danışdı, çox küsdü, çox barışdı, çox intim söhbətləri açdı, bağladı, axırda bu fikrə gəldi ki, yox, sevgi sevdasına düşən adam xəyalat ilə deyil, əməli iş ilə getməlidir. Sən ha fikirləş ki, Nisa belə deyir, Nisa elə deyir. Qızın qəlbi sınar, qızın rəyi dəyişər. Filan, fəşməkan...

– Bunlar faydasız söhbətdir. O yan-bu yana qaçmağın vaxtı deyil. İş aydın gərək. Ağa durur, ağacan durur. Günü sabah qızın yoluna çıxmaq, lap qolundan tutub danışdırmaq lazımdır ki:

– Nə deyirsən, ay pəri qızı, mənim məhəbbətimə nə priçin qoyursan? Mən kimdən əskiyəm, bu mənim özüm, bu qulluğum, bu dərsim, bu ev-eşiyim, sabah da daşdan keçən diplomum olacaq. Səninlə bir yerdə işləyib xoşbəxt ailə qurmağımıza niyə maneçilik törədirsən, ay ərkansız?

"Qızın buna nə sözü, nə bəhanəsi ola bilər axı?"

Abbas niyyətində möhkəm adam idi. Dediyi kimi də elədi: istirahət axşamı dördüncü kurs tələbələri evlərinə dağılışanda quyu başında Nisanı haqladı:

– Niyə elə yeyin gedirsən, Nisa xanım?

– Yerişim budur!

– Adam yerişində bir yar-yoldaşı da nəzərə alar, yox?

– Mənim bu yolda yar-yoldaşım yoxdur. Evimizə gedirəm.

– Bilirəm, evinizə gedirsən, Allah salamat aparsın. Bu yazığın dərdini eşitsənə! Sənə bir neçə kəlmə sözüm var, Nisa!

– Nə sözdür!

– Ürək sözüm!

– Mənə nə sözün olacaq?

– Söz budur ki, səndən acizanə xahiş eləyirəm!

– Nə xahiş?

– Nə xahiş?!

Abbas bunu deyib qızın qolundan tutmaq, yol kənarına çəkmək istədi.

Nisa hərifin cəsarətlə, bir az da ərk ilə əl uzatdığını görüb hirs ilə əli-

ni çəkdi, özü də canavar görmüş kimi cəld kənara atıldı.

– Nə xahiş?

– Qız, ehtiyat eləmə, sənə sözüm var!

– Söz yeri deyil, dərsdən yorulmuşam, evə gedirəm. Mənə heç bir söz gərək deyil, əl çək!

Abbas yenə irəliyə yeriyib israr etdi:

– Beş dəqiqə sözüm var!

Nisa yoluna düzəldi.

– Sözü məktəbdə deyərsən, mənə mane olma!

Abbasın gözü kəlləsinə çıxdı:

– Yəni, belə oldu?

– Bəli, belə oldu!

– Yəni, bizi eşitmək istəmirsən?

Nisa hirs ilə qayımdan cavab verdi:

– Yox, istəmirəm! Əl çək!

– Nisa, bu yaxşı olmaz.

– Nə olur-olsun.

– Nəticəsi pis olar!

– Olsun!

– Peşman olarsan.

– Əl çək!

Nisa bu sözü deyib cəld yoluna düzəldi.

– Ay qız, sən nə üzüdönük adamsan!

– Necə sayırsan say, məndən əl çək.

– Vay sənin, qız!

– Vay özünə olsun!

Nisa qapını elə bərk çırpdı ki, Abbasın nə özü göründü, nə sözü eşidildi.

– Allah etinasıza lənət eləsin!

– Eybi yoxdur, Nisa, mənə də Abbas deyərlər. Sənin əsgini oda qoyum, külünü göyə sovurum, sən tamaşa elə. Niyə belə qudurmusan, bəyəm, tələbə təşkilatı elə aciz olub ki, səsini içəri sala ki, heç kəs bilməsin? Heç eybi yoxdur, heç eybi yoxdur, görərik.

– Baxarıq!



Abbasın qapıda qızın qarasına dediklərini özündən başqa eşidən olmadı. Bu mənasız sözlərə özü də peşman olub susdu:

– Baxarıq!

"Nəyə baxarıq, necə baxarıq, harda baxarıq, kim ilə baxarıq?" Hərifi bu sualların ağır yükü götürdü. İxtiyarsız öz-özünə dedi:

– Allah kəssin belə məhəbbəti də, belə sevgini də!

Allah kəssin!

*1975*

# TİCARƏT LİRİKASI

Məhəbbət lirikası, məişət, təbabət lirikası eşitmişdim, amma ticarət lirikası yox!

Dünyada böyük bir aləm olan ticarətin özünəməxsus istilahları var: balans, avans, debit, kredit, deponent, qazanc, ziyan...

İndi hər şey inkişaf, tərəqqi yoluna düşdüyü kimi, ticarət də bu yoldadır. Sürəti artır, dairəsi genişlənir, dərinləşir, məzmunu zənginləşir, istilahları çoxalır, əlvan olur.

Bu aləmdə mən lirikanı birinci dəfə eşidirdim. Özü də satıcıdan və ya alıcıdan yox, mağazada xidmət işi görən bir cavan oğlandan. Ağzıbağlı, döşü markalı, zər yazılı karton yeşikləri içəriyə daşıya-daşıya döşü önlüklü həmin oğlan məhbubəsinə xitab edirmiş kimi, el havası ilə pəsdən oxuyurdu:

*Dal qapıdan gələn dilbər,*
*Sumkan düymələ-düymələ!*
*Bizi dilə salan dilbər,*
*Sumkan düymələ-düymələ!*



Əvvəl güman etdim ki, cavan oğlan bu sözləri kimə isə deyir. O yan-bu yana baxanda gördüm ki, heç kəs qulaq asmır. Hamı öz işindədir. Mağazanın dal qapısından hey daşıyırlar: karton qutularda, yüngül kisələrdə, gön çantalarda, kağız bükmələrində, – hərə bir növ. Axırda da müdir ilə xudahafizləşib gedirlər.

Mən də çoxdan arzusunda olduğum düyü üçün müdirə müraciət etdim:

– Sizdə düyü olur, ya yox?
– Olanda olur.
– Mənə bir az lazımdır.
– Olanda gələrsən.
– Deyirlər, var axı?
– Var idi.
– İndi necə?
– Qurtarıb.
– Bir də haçan olar?
– Allah bilir.
– Bəlkə, siz də biləsiniz?

Müdir bir addım mənə yaxınlaşdı, ağzını qulağıma yaxın tutub xəlvətcə xəbər verən kimi dedi:

– Ay rəhmətliyin oğlu, düyünü, fındığı, badamı məgər elə-belə verirlər, bizə? Bir ətək pula başa gəlir.

– Haçan başa gələcək?
– Onu bilmək çətindir.
– Bəs nə sayaq eləyək?
– Sifariş elərik, mən də dalınca düşərəm. Olanda – baş üstə!..

Düyü, doğrudan da, bizə lazım idi. Nəvəmin ad günündə dost-aşna bizə yığışır, çoxu da kabab, bozartma, düşbərə-filan yox, məhz aş istəyir. Aşın adı böyük olsa da, işi yüngüldür. Neçə kilo düyü tökürsən qazana, bir az göyərti, qara-qura hazırlayırsan, məclisi yola verirsən. Düyünün ləzzətindən, dadından başqa, həzmi də asan olur. Çox adam düyünü xoşlayır.

Müdirdən ayrılıb, mahnı oxuyan həmin cavan oğlana yanaşdım. Dərdimi ona deyəndə yavaşdan xəbər verdi:

– Dayı, vıxodnoyun səhəri düyü olacaq.
– Yəqin olacaq?

– Bəli, olacaq! Almışıq, hələ satışa buraxmamışıq.

– Səni xeyirxəbər olasan, qardaş!..

İstirahət gününün səhəri mağaza açılan kimi qapını kəsdirdim, müdirdən xahiş elədim:

– Mənə on kilo düyü lazımdır!

– Verərik, neçə kilo istəsən var!

– On kilo!

– On kilo? Baş üstə!.. Bir onluq!

– Axı, deyirlər, düyünün kilosu həştad neçə qəpikdir.

Kişini deyəsən, od götürdü, dik-dik üzümə baxıb dedi:

– Ay canım, həştad səkkiz qəpik bazadakı qiymətdir. Onu bazadan almaq, maşına yükləmək, gətirmək, mağazada boşaltmaq lazımdır. Zəhrimarın tökülməyi, dağılmağı-zadı var. Bir də, hər adama vermirlər. Yaxşı malı mağazaya gətirmək üçün əlin cibində ola gərək! Qəpikquruş güdmək ilə camaatı yola vermək olmaz! Ticarətdə gərək adamları yola verəsən. Buna "al-ver" deyiblər. Allah saxlasın sizin nəvənizi, onun xeyir işini yola vermək bizim borcumuzdur. On iki qəpik nədir ki, onun üçün sizin məclisi pozum? Elədir, ya yox?

– Əlbəttə ki... Mən elə-belə, bir söz idi dedim. Onluğa nə söz?

– Di, buyurun!

– Çox sağ olun!

– Bəlkə çox lazımdır?

– Hələ bəsdir.

Mən dediyimə peşman olub, onluğu verdim, artığını da almadan, razılıq edib mağazadan çıxdım.

Doğrudan da, xeyir iş müqabilində on iki qəpik bir şey deyil ki, onun da adını çəkəsən. Sağ olsun mağaza müdirini ki, belə işlərdə adamın köməyinə çatır. Yoxsa düyü tapmaq uzun iş idi, uşağın ad günü məclisi, az qala, pozulmuşdu.

Adamın gərək mağazada həmişə adamı olsun! Buna nə söz!

*1975*





# VƏTƏN KÖYNƏYİ

*Bakıdan fanar gəlir,*
*Oduma yanar gəlir.*
*İkimiz bir köynəkdə,*
*Köynək bizə dar gəlir.*
*(El mahnısı).*

Sizi bilmirəm, amma mən libasda köynəyə üstünlük verirəm. Geyim-kecimdə yaxşı köynək, yar-yaraşıqda da. Bəziləri paltosunu, bəziləri kostyumunu və ya çəkməsini üstün tutur. Mən yox. Köynəyimin yaxalığı sahmanda olmadı işə getməyə utanaram.

Xüsusən, kişi geyimləri içərisində köynək birincidir. Həm cana yaxınlıq, həm zahiri görkəmdə!

Qafqazın şəhər və kəndlərində palto, plaş geyinən az olur, yaz-payız aylarında camaat hətta qolsuz köynəklə gəzir. Təsadüfi deyil ki, yaraşıqlı köynəyi mağazalarda görəndə camaat quş kimi cumur, qiymətinə, rənginə, ölçüsünə baxmadan alır...

Qərəz, köynək doğrudan da yaraşıqdır. "Dost başa baxar, düşmən ayağa" demişlər. İndi bu sözü ayrı cür işlətmək lazımdır: dost başa, düşmən ayağa, camaat köynəyin yaxalığına baxar!

28 Aprel küçəsindəki hazır paltar mağazasının qabağında növbəni görüb oraya yanaşdım, mağazadan çıxanlar əllərində iki-üç yaraşıqlı köynək aparırdılar. Sevindiklərindən dözmür, tələsərək köynəyi o

yan-bu yana çevirir, yaraşığına, səliqəsinə baxırdılar. Bu köynəklər lap uzaqdan da yaraşıqlı, cazibəli görünürdü. Alanın birindən köynəyin ölçüsünü soruşanda arxayın cavab verdi:

– Mağazada köynək boldur, nə ölçüdə desən var!

– Haradan gətiriblər?

– Vətən malıdır. Təzə! Almalı şeydir, qardaş! Yaraşıqlı maldır!

Kassaya yanaşıb on altı manat verdim, çeki alıb satıcıya təqdim etdim:

– Qırxıncı ölçü.

– Nə rəng olsun?

– Şaftalı çiçəyi rəngində.

– Əcəb zövqün var!

Satıcı təzə bir söz eşitmiş kimi məni tərs, mənalı baxışla süzüb geriyə döndü. Üst-üstə qalanmış köynəklərdən həmin rəngli ikisini çıxarıb mənə verdi.

– Bu da sizə şaftalı çiçəyi!

Mən camaatın çoxluğunu, satıcının tələsdiyini görüb yubanmadım:

– Bükün aparım, – dedim, – sağ olun, qardaş!

Satıcıdan alandan, növbəyə duranlar sırasından çıxandan sonra köynəyi kağızdan açıb diqqətlə baxmağa, yoxlamağa başladım. Doğrudan da səliqəli, cazibəli köynək idi. Əla markalı, sarma qurşaqlı, zər yazılı köynəyin ehtimal ki, çox uzaqdan, Avropa şəhərlərindən gətirildiyini düşünmək olardı.

Amma yox!

Bu, Vətən köynəyi, lap bizim Gəncə fabrikində hazırlanan mal imiş.

– Qardaşoğlu, bu köynəyi təzəlikdə almısınız?

– Səkkiz-doqquz ildir bunu alırıq, necə bəyəm?

– Mən elə bildim Avropadan gəlir.

– Yox, öz malımızdır, xalis Vətən malı!

– Sağ olsunlar toxucularımız, dərzilərimiz, zövqlə hazırlayırlar.

– Camaat da alır, yaxşı da gedir, gəldiyi ilə satılmağı bir olur.

– Keyfiyyət. Bəs nədir?



– Keyfiyyətdən danışan çox olur, gözləyən az.

– İndi çox fikir verirlər.

– Demə, qardaş, görürsən çox şeyə keyfiyyət möhürü vurub gətirirlər, amma baxanda xaltura çıxır: çəkmədi, papaqdı, libasdı, gərək bunu başdansovma hazırlamayasan.

– Xalturanı istehsal edənlərin özünə qaytarmırsınız?

– Qaytarırıq, xeyri olmur, çoxunun əli öyrənib. Zay mal buraxan əl öyrənib!

– O əli kəsmək gərək.

– Onu bacarmazsan, qardaş. Zay mal buraxan bəzən sənin özündən güclü olur.

Bu köynəklərin sahmana düşməsinə, sağ olsunlar, neçə idarə, təşkilat kömək eləyib. Xaltura paltarı geri qaytarmasaq, sex rəisinin maaşından tutmasaq, başa gəlmirdi. Axır ki, qaydaya düşüb.

Mən köynəkləri evə gətirəndə oğlanlarımın hərəsi birini götürdü.

– Uşaqlar, birini də özümə almışdım.

– Ay ata, belə köynəyi adam iki dənə alar? Sabah tapa bilməyəcəksən axı?

– Deyirlər, hər ay gəlir.

– "Deyirlər"ə baxma, yaxşı malı göydə götürürlər. Milyon əhalisi olan şəhərdə, özü də geyinib-kecinən camaat üçün bu nədir?

Oğlumu inandırmaq üçün götürüb mağazaya, satıcının yanıma gəldim.

– Yoldaş, – dedim, – sağ olun, o gün mənə verdiyiniz köynəklərdən oğlum da istəyir.

– İstəyir, baş üstə, ona da verərik.

Həmin köynəkləri dəstə ilə piştaxtanın qabağına qoyanda oğlum qəşəng, rənglisini seçib götürdü:

– Çox sağ olun ki, siz yaxşı malı açıq satışa buraxırsınız.

Satıcı gülümsədi, qolumdan tutub içəri apardı:

– Bizdə də elə idi. Oğru-əyri ilə mübarizə idarəsi bizim müdirə bir az dərs verdi.

– O idarə dərs də verir?

– Verir, bizim müdirdən cərimə aldılar, işini dəyişdilər. İndi bizə

bir yaxşı yoldaş gəlib, demək olar, mağazamız təmizlənib, müştəriyə xəyanətin kökü kəsilib. Bu kişi əsl kommunistdir. Cibişdanına yox, xalqa, müştəriyə, dövlətə xidmət edir.

– Sağ olsun elə ticarət işçiləri.

– Sağ olsun, ancaq elələri az olur: tək-tək!

– Onların da qədrini bilmək lazımdır.

– Ay sağ ol! Qədrini bilmək lazımdır. Bunu ticarətin başında əyləşən yoldaşlar da nəzərdən qaçırmasınlar gərək!

– Doğru sözdür!

*1975*



# SƏKSƏNİLLİYƏ ÇAĞIRMIŞDILAR

Son zamanlarda bizim aləmdə xeyir işlər çox olur. Ha görürsən bayramdır, yubileydir, məclisdir, mərasimdir, görüşdür. Bir yoldaşın yaxşı işindən, o birisinin ixtirasından, icadından söhbət gedir. Hamı da belə tədbirlərə, xeyir işlərə sevinir, ürəkdən sevinir, rəvac verməyə çalışır.

Bu dəfə bizi dağ rayonlarından birinə, qocaman müəllim Paşa Quliyevin yubiley məclisinə dəvət etmişdilər.

Paşa müəllim cavanların sevimlisidir. Bizim mahalda adam yoxdur ki, Paşa müəllimin məktəbindən, maarif sistemindəki fəaliyyətindən xəbərdar olmasın. Ağızdolusu, sevinc və fərəhlə danışmasın!

Qafqazda, hələ inqilabdan qabaq maarifçilər aləmində bir məşhur yer var idi. Adına Qori seminariyası deyirdilər. Bu məktəbi – bu seminariyanı hələ keçən əsrin ortalarında savadsızlığa qarşı mübarizə aparan təşəbbüskar xalq ziyalıları yaratmışdılar. Bu seminariya rus maarifçilərinin qafqazlılara böyük hədiyyəsi, xidməti idi. Məktəb olmayan, uşaqları oxumağa cəlb etmək çətin olan vaxtlarda bu seminariyada müəllimlər hazırlayır, sonra da onları Qafqazın şəhər və kəndlərində

maarifi yaymağa, işə göndərirdilər. Belə müəllimlərin işi çox çətin idi. Mollalar, əfəndilər, keşişlər, pristavlar, yüzbaşılar bu müəllimləri görmək istəmirdilər.

Bayrağı uca olsun. Sovet hökuməti qurulandan sonra müəllimlərin də, uşaqların da üzü güldü, günü doğdu. Hər kənddə məktəb açıldı. Uşaqlara kitab, qələm verildi. Milyonlarla balalar bahar quşları kimi səs-səsə verib məktəblərə üz qoydu. Hər yerdə dərs başlandı.

Bax, bizim yubileyinə çağırıldığımız Paşa müəllim maarif yolunda saç-saqqal ağartmış müəllimlərdən idi. Həmin Qori seminariyasının yetirmələrindən idi. İndi elə xadimlərdən lap az qalıb, çoxları ömrünü başa vurub.

Paşa müəllim qocalsa, taqətdən düşsə də, ruhən gümrahdır, zirəkliyini saxlayır. Məktəbdən ayrılmır. Məktəbi öz doğma evi, ailəsi bilir. Uşaqların təlim-tərbiyəsindən xüsusi zövq alır. Maarif Nazirliyi də onun səmərəli əməyinə, səyinə yüksək qiymət verir. Paşa müəllim xalq müəllimidir. Əməkdar maarif xadimidir. Neçə-neçə orden onun döşünü bəzəyir. Respublikanın elə mədəniyyət, maarif məclisi olmaz ki, orada Paşa müəllimin üzü görünməsin, sözü eşidilməsin.

Qocaman maarifçinin yubileyinə həvəslə getmək istəyən yoldaşlardan bir qrup yığılıb maşın sifariş verdik. İstirahət axşamı səhər tezdən əyləşib dağa yola düşdük.

Söz vaxtına çəkər, yazın lap oğlan vaxtı idi. Bakıdan çıxıb Şamaxı yolu ilə dağlara ki diklənirsən, bütün aləmi gül-çiçək içində görürsən, torpaq dil açır, gül bülbülü, bülbül gülü çağırır. Aydın, günəşli yaz səmasını xoş avaz doldurur. Yolun sağ–solu lalə tarlasına bənzəyir. Quşlar səs-səsə verib balalarına bahar təranələrini öyrədir, bəzən teleqraf simləri üstündə göylərin dərinlərinə üz tutub günəşi salamlayırlar. Həmişə bahar olsun, hər yerdə günəş olsun!

Bu yolları mən çox getmişəm. Uşaqlıqda piyada, cavanlıqda at üstündə. Zınqırovlu faytonlarda, indi də ildırım kimi ötən əlvan "Volqa" maşınlarında.

Həyat çox dəyişib, nəqliyyat vasitələri tərəqqi tapıb, yollar şüşə kimi hamarlanıb. Amma mənə elə gəlir ki, quşlar həmin quşlardır, qırx-əlli il bundan əvvəlkilərdir, həmin səsi, həmin həvəsi, həmin avazı ilə



yoldan ötənlərə salam deyirlər. Haradan gəlib, haraya getdiklərini soruşmadan, hamısına ehtiram və nəvazişlə uğurlar diləyirlər!

Qəribədir ki, əvvəllər at belində, faytonda ötəndə quşlar bizdən ürkür, qaçırdılar. İndi maşını görür, heç yerlərindən, böyürtkən, yemişan kollarından qımıldanmırlar. Sanki ötən müsafirlərin hamısı ilə tanışdırlar, çoxdan ünsiyyət bağlamışlar.

Biz xüsusi bir zövq və həvəslə yaşıl yamaclara, yuxarılara, yüksəklərə dırmaşan, gül-çiçəklə dolu nazik, cığırvarı yollarla gedirdik. Yol boyu Paşa müəllimdən, o qocaman maarifçinin işıqlı, şərəfli həyatı və mübarizə yollarından söhbət aparırdıq.

Axı, ömrün altmış beş ilini həmişə məktəbdə, Vətən balalarının bülbül kimi səs-səsə verdiyi bir yerdə dinc əmək ilə keçirmək özü böyük hünərdir, təqdirəlayiq bir həyat, səadət yoludur. Sağ olsun, sovet hökumətinin atalıq qayğısı ki, Paşa müəllim kimi xadimləri həmişə ayaq üstdə, şən, şətarətlə, gümrah saxlayır. Onun bayramı bütün məktəblilərin, bütün cavanların bayramıdır.

Bu söhbətlər əsnasında hər kəs qocaman müəllimə öz münasibətini izhar etmək üçün münasib söz, ifadə, fürsət axtarırdı.

Biri Paşa müəllimin kamil, mehriban insanlığından, biri müəllimlik məharətindən, ustalığından, daha başqası onun torpağa məhəbbətindən, ailə səadətindən, əmək rəşadətindən danışırdı. Mən onun qayğısından, insani ləyaqətindən misal gətirmək istədim.

Yoldaşların hamısı susub mənim söhbətimi diqqətlə dinlədilər.

Doğrudan da mənim söhbətim Paşa müəllimin yubiley mərasimi üçün çox münasib və əlamətdar idi. Bu faktın özü insan haqqında, onun bəşəri keyfiyyəti, ləyaqəti haqqında çox şey deyirdi.

Əhvalat belə olmuşdu.

Mən cavan vaxtımda, sizlərdən ayıb olmasın, sevdiyim bir qızı, həyalı bir kəndli qızını – o da məni sevirdi – götürüb dağ rayonu Vartaşenə aparmışdım. Məhz Paşa müəllimin köməyinə ümid edib aparmışdım.

Paşa müəllim məni təklikdə yanına çağırıb ata kimi yaxşıca danladı.

– Oğul, – dedi, – cavansan, gələcək inkişaf yolundasan, indi sə-

nin qız qaçırmaq yox, elm dalınca qaçmaq vaxtındır. Xoşbəxt olun. Bir-birinizi sevmisiniz, bəyənmisiniz. El-oba qayda-qanunu ilə toy edə bilərsiniz. Kimsə də sizə mane olmaz. İndi daha köhnə zəmanə deyil, qızı, ya oğlanı məcbur eləyələr. Qız qaçırmaq köhnə feodal dövrünün adətlərindən idi. İndi azad dünya, azad həyatdır, bizim qanunların gücü hər şeyi həll eləyir. Nə isə, xoşbəxt olun, keçib, yanlış da bir naxışdır. Sevmisiniz, sevginiz daimi olsun, möhkəm, uğurlu olsun. Sizə nə kömək lazımsa, olunacaq!

Paşa müəllimin ata nəsihəti məni çox məyus etdi. Güman etdim ki, qızın – Pakizənin atası gələndə ona kömək edəcək, mən əlacsız, köməksiz qalacağam.

Ancaq Paşa müəllim mənə dediklərini qızın əqrəbasına bildirmədi, əksinə, Pakizənin atasını iki gün evində qonaq saxladı, nə dedi, necə bişirdisə, bizi barışdırdı.

Həmin Vartaşendə Paşa müəllimin sakin olduğu binada otaqlar ayrıldı, bizə ləyaqətli bir toy quruldu.

Mənim evlənməyim belə olub. Pakizə xanım Paşa müəllimə minnətdarlığını həmişə deyir. Beş uşağımızın hamısının oxuyub boya-başa çatmasında qocaman müəllimin səyi və əməyi vardır.

Bu vəziyyətdən, söhbətdən sonra Qənbər sözə başlayanda hamı etiraz elədi:

– A qardaş, yubileydə danışmalı sözləri maşında niyə deyirsiniz, bəs iclasda, camaat qabağında nə deyəcəksiniz?

Qənbəri danışmağa qoymayanda mən qabağa düşdüm, yoldaşlardan xahiş etdim ki, hamının adından, hamının hərarətli ürək sözlərini deyən bir təbriknamə yazılsın və yubiley iclasında oxunub yubilyara verilsin!

Bununla razılaşdılar.

*1975*



# ƏSƏRİMİN MÜZAKİRƏSİ

Bizlərdə adətdir, yazdığımız əsəri çapdan əvvəl müzakirəyə qoyarıq. Yoldaşlar oxuyar, məsləhətləşər, fikir deyər, müəllifə göstəriş verərlər. Doğrudur, içimizdə elə ədiblər olur ki, müzakirə istəmirlər. Əllərindən çıxan yazını dərhal tələsib çapa göndərirlər.

Hətta məşhur bir ədibimiz söz düşəndə deyərdi:

– Müzakirə ilə əsər yazmaq, yol üstündə otaq tikmək kimi bir şeydir. Yetirən bir plan verər. Onun-bunun planına baxarsan, çaş-baş qalarsan, axırda görərsən, bir şey çıxmadı.

Mən bu fikirdə deyiləm, müzakirəyə əhəmiyyət verən, qulaq asanam. Ona görə də əsərimi hazır olan kimi nəsr bölməsinə verirəm. Müzakirədə deyilən qeydləri də bacardıqca nəzərə alıram. Faydalı məsləhətə nə söz? Fikir fikirdən üstün olur. Tələsmək ziyan verər!

Bu dəfə əlyazmasını bölmə müdirinə verdim, xahiş elədim ki, yoldaşlara oxutsun, müzakirəni gecikdirməsin.

O da, sağ olsun, planına saldı.

İki ay sonra soruşanda dedilər, hələ yığışmağa vaxt yoxdur. Mü-

zakirə payıza qalıb. Payızda getdim, dedilər, istəyirsən müzakirə tez ol-sun, iki nüsxə də makinadan çıxar, bir dənə azdır. Bir nüsxəni çoxuna oxutdurmaq gec olar. Bir neçə surət gətir, yoldaşlara verək, tez oxusun-lar.

İki nüsxə təzədən makinadan çıxarıb bölməyə apardım. Bir ay da gözləyəndən sonra müzakirənin gününü müəyyən elədilər.

Müzakirə gündüz saat ikiyə təyin olunmuşdu. Müzakirəyə gələndə iki-üç nəfər gördüm, bölmə müdirindən soruşdum:

– Bəs camaat hanı?

– Gələnləri görmürsünüz?

– Çox az adam var.

– Yavaş-yavaş gələrlər.

– Saat ikiyə çağırmısınız, indi üçün yarısıdır.

– Darıxma, gələrlər.

Yarım saat da gözləyəndən sonra müdir kimi isə çağırdı:

– Adamlara xəbər vermisiniz?

– Hamısına deyilib!

– Necə deyilib?

– Yaxşı deyilib.

– Bəs hanı, görünmürlər!

– Deyilib.

Siyahıda hərənin bir bəhanəsi çıxdı.

– Gətir, bir siyahıya baxım!

Əhməd sanatoriyadadır. Məhəmməd bağa gedib. Əli naxoşdur. Vəli kağızın qulağına yazıb ki, mən razıyam, əsər hazırdır, çapa gedə bilər! Həsən deyir çapdan sonra oxuyaram. Hüseyn...

Müdir bu qeydləri oxuya-oxuya dedi:

– Görürsən, Vəli nə yaxşı yazıb?

– Yaxşı yazıb, ancaq bir Vəli azdır.

– Az olsun, yaxşı olsun, uzun gurultudan bir şey çıxmaz.

– Bu müzakirə olmadı.

– Niyə?

– Müzakirə geniş olur.

– Geniş nəyinə lazımdır, yayın istisində! Müxtəsər lazımdır.



– Mən elə bilirəm.

– Amma mən ayrı cür bilirəm.

– Bu kitabı sən yazmısan?

– Bəli.

– Niyə yazmısan?

– Çapa verməyə yazmışam.

– Bəs niyə çapa verməmisən?

– Müzakirəsini gözləyirəm.

– Mən də razıyam, faydalı əsərdir, sənin qələminə əminəm, ver çapa!

– Bu da oldu müzakirə!

– Onda nəşriyyata bir kağız yazın, zəhmət də olsa.

– Bəyəm, nəşriyyat özü görmür ki, faydalı əsərdir?

– Görsə də, sizin kağıza çox əhəmiyyət verirlər.

Müdir katibəsinə tapşırdı:

– Yaz, nəşriyyata bizdən bir kağız yaz ki, bu faydalı əsərdir. Biz lazım bilirik çap olunsun!

Başqalarını gözləmək lazım olmadı. Həmin kağızı makinada səliqə ilə yazdılar, sevinə-sevinə gətirib nəşriyyata verdim, orada da soruşdular.

– Balam, zəmanət kağızını müəllifin özünə verməzlər.

– Bəs kimə verərlər?

– Kimə istəsən olar, amma əsər müəllifinə yox. Bu bir dövlət sənədidir.

– Sənəd olmağına sözüm yox, ancaq...

Nəşriyyat işçisi hirsləndi, soruşdu:

– Əsər müzakirə olunub?

– Olunub!

– Protokol hanı?

– Protokol vermədilər.

– Müzakirə onsuz olmaz, yoldaş, get protokolu al gətir!

Protokol haqqında bölmə müdirinə deyəndə hirsi vurdu başına, əlini tovladı:

– Nəşriyyatdakılar bəyəm belə rəsmiyyətçi olublar? Deyəsən, ka-

ğıza səcdə eləyirlər! O boyda əsəri qoyub protokol axtarırlar?

– Axtarırlar.

– Deyə bilmirsən ki, a kişi, protokol çap olunmur, əsər çap olunur?

– Deməyə baxmırlar, istəyirlər.

– Get deynən mənə zəng eləsinlər.

Bunu nəşriyyatdakı katibəyə deyəndə başını buladı.

– Biz zəng eliyərik, amma zəngi bir yerə yazmırlar. Zəng havada yox olur. Amma sabah soruşanda bizdən zəng istəmirlər, sənəd istəyirlər, sübut istəyirlər, əzizim, zəngi təqdim etmək olmur!

Mən katibəyə, katibə mənə baxıb dururduq. Ortaya məyusluq sükutu çökmüşdü. Katibə bir hakimin müttəhimə yönəltdiyi diqqətlə mənə baxır, sanki nəsə soruşmaq istəyirdi. Mən bu məsum, günahsız qızın üzünə heyran-heyran baxıb, çarə axtarırdım.

– Axı, – dedim, – bacı, indi mən neynəməliyəm?

– Neyləyirsən elə, özün bilərsən!

– İstəyirəm ki, bu uğursuz əsəri birdəfəlik götürüb gedəm.

Katibənin üzü güldü, qaşqabağı açıldı:

– Aparsan, yaxşı olar, bizi də başağrısından qurtararsan, özünün də qulağın dinc olar.

Mən üzümü məsum qıza tutub dedim:

– Bacım, bu yazının mahiyyəti bir şey deyil. Bunu mən yazsam da, yazmasam da, həmin adamam. Bu qədər ki yazının dalınca düşürəm, zəhmətinə qatlaşıram, çoxları ilə üz-üzə gəlirəm, əl çəkməyə də hazır idim. Amma indi ki siz belə deyirsiniz, indi ki, siz nəşriyyatdan maaş aldığınız halda öz vəzifənizə belə ikrah hissi ilə yanaşırsınız, mən bu əsəri mütləq çap elətdirəcəyəm, bir nüsxəsini də sizə hədiyyə göndərəcəyəm və sizi də öyrədəcəyəm ki, adamların zəhmətinə belə münasibət nə ona, nə də sənin idarənə yaraşar!

Katibə mənim sözlərimdən diksinib qızardı, o yan-bu yana baxdı və cavab vermək üçün bir-iki dəfə durub-oturdu.

– Yoldaş filankəs, mən elə demək istəmirdim, istəməzdim, bilirsinizmi?..

Mən katibənin dediklərini eşitmək istəmədiyim üçün əsərimi qoltuğuma vurub, idarədən çıxdım.

– Salamat qalın!

– Bir dayana idiniz, yoldaş!

– Dayanmağa dəyməz, bacım, xudahafiz!

– A kişi, bir dəqiqə...

Qapını çırpıb çıxdım.

*1975*

# YOLDAŞLIQ MƏHKƏMƏSİ

Məhkəmə, müdafiə, mühakimə işi çətin, məsuliyyətlidir. Hər adam bacarmaz.

Gərək səriştəli hüquqşünas olasan, yüzlərlə qanun kitablarını, əsasnamələri, qərar-qətnamələri vərəqləyib nöqtəsinəcən diqqətlə öyrənəsən. Bunların hamısını bənd-bənd, yaxşıca bilməmiş adamı məhkəməyə, hüquq aləminə qoymazlar.

Bu mətləbləri yaxşı dərk etdiyim üçün məhkəmə işi təklif olunanda, mən yaxın durmazdım və bu aləmə cəlb olunmağımı heç güman da etməzdim.

Amma, necə deyərlər, həyat mürəkkəbdir və dairəsi də genişdir. Düzü, əyrisi, dolanbacı, qaranlığı, işığı çoxdur. Bir də görürsən, elə bilmədiyin, gözləmədiyin bir aləmə atılmısan, istər-istəməz orada sən özünə münasib bir şərait tapmalısan, tapşırılan işi, pis, yaxşı aparmalısan.

– Bu niyə belə, o niyə elə, necə, nə sayaq!

Addımbaşı öz işindən narazılıq edib şikayətlənən, ərizə yazıb idarələrdən kömək istəyən, vəzifədən boyun qaçıran adamlardan da heç



xoşum gəlməz. Belə adamları hər yerdə ikrah ilə qarşılayırlar, demaqoq, dəngəsər sayırlar.

Qərəz ki, məni, kəndlilər demişkən, suçıxmaz arxa cuvar eləmişdilər, məhkəmə sahəsində işə çəkmişdilər.

Məhkəmə deyəndə, böyük çıxmasın, ortada elə ağır münaqişə də yox idi. Bir yoldaşın başqasını söz ilə, şifahi təhqir etməyi müzakirə olunurdu.

Təhqir məsələsi obyektindən, yəni aid olduğu konkret şəxsiyyətdən çox asılıdır. Onun xarakterindən, münasibətindən, ciddiliyindən, hərəkətindən, təkidindən və hakəza!

Adam var ki, təhqirə yerində cavab verir. Bununla da iş qurtarır. Adam var, heç təhqirə cavab və məna vermir. Özünü nalayiq adam ilə üz-üzə durub danışmaq dərəcəsinə endirmir. Belə səbir, möhkəm xarakter bir xoşbəxtlikdir. Adam var ki, yox, tükü-tükdən seçir, öz ünvanına deyilən, ya eşidilən hər nöqtəni diqqətlə araşdırır, dalınca düşür, hərifi yerində oturtmamış əl çəkmir.

Bu dəfə Davudun qaldırdığı məsələ, ona edilən təhqir ciddi, təkidli idi. Ona görə də məni bu münaqişəyə cəlb etdilər ki, hər iki tərəfə təsirim olsun. Məsələ bişməsin, böyüməsin, mülayimliklə həll olsun.

Davud hamıdan qabaq yanıma gəldi. Müttəhimin barəsində məlumat verdi, öz ərizəsini təqdim etdi, üstəlik bir yoldaşlıq xahişi irəli sürdü ki, sözünü, hərəkətini düşünməyənləri intizama çağırmaq bir bizim yox, ümumən sovet ictimaiyyətinin borcudur, vəzifəsidir. Yoxsa, idarədə oturmaq, baş girləmək, işləmək çətin olar.

– Yoldaş filankəs, biz əgər bu gün, bu məqamda Gərayın dərsinə baxmasaq, əl-ayağını yığışdırmasaq, daha yerimizdə oturub iş görə bilmərik. Hər yoldan ötən havalanar, üstümüzə ayaq alar, elədir, ya yox?

Davudun danışığı belədir. Hər cümləsindən sonra qabaqdakına sual ilə müraciət edir:

– Belədi, ya yox? Düzmü deyirəm?

Davud öz vəziyyətini izah edəndən sonra ümumən işin xarakteri, ictimai aləmin münasibəti haqqında da danışdı:

– Əlbət ki, bu işin ümumi cəhəti sizə hamıdan yaxşı aydındır! Doğrudur, ya yox?

Yoldaşlıq məhkəməsinin adı, doğrudur, yumşaq, mülayim yoldaşlıq məhkəməsidir, ancaq hər halda məhkəmədir. Bir müttəhim ciddi ictimaiyyət qarşısında mühakimə olunur. Mən məmnunam ki, məhz siz mühakimə edirsiniz, hərifi də, məni də yaxşı tanıyırsınız. Ədalətlə işə baxacaqsınız. Mən buna əminəm! Düzdür, ya yox?

Bizdən də nə asılıdır, hazırıq. Elə edin ki, hərif möhkəm dərs alsın! Bir də belə nalayiq hərəkətlərə yol verməsin! Bilsin ki, adamın danışıq və hərəkətlərinə diqqət edən, göz qoyan var, dünya özbaşına deyil! Belədi, yox?..

Məktəbdə adi söhbət zamanı Gəray ilə Davud arasında deyişmə olmuşdu. Gərayın bir sözü Davuda ağır gəlmişdi. Ona görə də Gərayı məhkəməyə çəkmək üçün ərizə yazmışdı.

Mən hər iki tərəfi dinləyəndən sonra gördüm ki, buradakı ixtilaf süni münaqişədir. Məhkəməlik bir iş yoxdur. Bunun üstündən səbir, sükut ilə ötmək də olardı.

Ancaq Davud təkid edir. Gərayın cəzalandırılmasını istəyirdi. Nəyə görə? Elə-belə. Heç nə üstündə deyişmişdilər, sözləri çəp gəlmişdi.

Gəray ona demişdi: "Mən sənin kimisinin üzünə tüpürməyə də tənəzzül etmərəm!"

Gərayın bu sözünü Davud dəftərinə eynilə yazmışdı və hər yerdə yana-yana təkrar edirdi:

– Mənə belə söz deyən hərifin cilovunu çəkməsəniz, böyük yerlərə müraciət edəcəyəm, yoldaş filankəs.

Ərizəyə baxandan, eyni tərəfləri təxminən öyrənəndən sonra mən məhkəmə iclasını açdım və harifləri dindirdim.

Gəray səbir və təmkinlə danışdı və izah etdi ki, aramızda olan deyişmə zamanı mən heç bir artıq, nalayiq söz deməmişəm və yoldaşı təhqir etməmişəm. Ərizə yazan yoldaş sübut eləsin ki, doğrudan da aralıqda təhqir olub.

Hərif kənardan replika verdi:

– Olub!

– Hörmətli hakimlər, mənim aləmimdə heç bir təhqir sözü olmayıb. Davud belə bir faktı bilirsə, təkrar eləsin.

Davud dərhal dəftərini açıb əzbərlədiyi cümləni oxudu:



– Mən sənin kimisinin üzünə tüpürməyə də tənəzzül etmərəm! Bu təhqirdir, ya yox?

Gəray Davudu buradanca tutdu:

– Təhqir harasındadır sözün?

– "Üzünə tüpürmək" nə deməkdir?

– Tüpürmək məsələsini sən deyirsən, mən deməmişəm.

– Necə deməmisən?

– Sən Azərbaycan dilini yaxşı bilmirsən.

– Çox yaxşı bilirəm, çox yaxşı da başa düşmüşəm.

– Tənəzzül etmək nə deməkdir?

– Tənəzzül etmək alçalmaq deməkdir.

– Mən əgər sizin üzünüzə tüpürmək dərəcəsinə alçalmaq istəmirəmsə, buna siz niyə etiraz edirsiniz?

– Üzümə tüpürmək nədir?

– A kişi, tüpürmürəm ey, tüpürmürəm!

– Bəs nə üçün belə deyirsən?

– Yoldaşımın şərəfini qoruyuram. Bunu başa düşmək lazımdır, yoldaş! Tənəzzül etsəydim təhqir sayılardı. Mən ki o dərəcəyə enməmişəm.

Gəray üzünü məhkəmə heyətinə tutub, diqqət cəlb elədi:

– Burada təhqir yoxdur, mühakiməlik də iş yoxdur. Davud yoldaşa məsləhət görmək lazımdır ki, dili yaxşı öyrənsin, qanunlara da ehtiramla yanaşsın!

Davudun deməyə cavabı yox idi.

*1975*

# ELÇİ KİMİ

## (Xatirə – hekayə)

Otuzuncu illər – Böyük Vətən müharibəsi ərəfəsində yazıçı briqadaları bütün rayonlara, o cümlədən Gəncəyə tez-tez gedirdi... Orada mahud, çit, yağ-sabun istehsalı müəssisələrində işləyən fəhlələrin sürətlə çoxalması, şəhərin respublikada ikinci sənaye mərkəzi kimi şöhrət tapması, fəhlə sinfi milli tərkibinin mürəkkəbliyi, beynəlmiləl tərbiyə işinin güclənməsi, cavanların sosializm quruluşuna sürət və vüsətlə cəlb olunması, ziyalılar arasında aparılan mədəni-siyasi işin həm şəkil, həm məzmunca dərinləşməsi bu gözəl, yaraşıqlı şəhərin ictimai həyatını coşqun bir çay məcrasına çevirmişdi. Burada tez-tez ictimai-mədəni yığıncaqlar, tədbirlər keçirilir və ədəbiyyat-sənət məclisləri təşkil olunurdu.

Hələ iyirminci – otuzuncu illərin əvvəlində ədəbiyyat, mətbuat həyatı canlanır, diqqəti cəlb edir, gənc şairlərin, Səməd Vurğunun, Əhməd Cəmilin ilk şeirləri bu şəhərin qəzet, jurnallarında, almanaxlarında çap olunub yayılırdı. Həmin illərdə Gəncədə geniş maarif-məktəb şəbəkəsi, güclü müəllim ordusu, kamil darülmüəllimin, sənaye-ziraət texnikumu, kənd təsərrüfatı, suvarma institutları kimi təhsil ocaqları fəaliyyət göstərirdi.



Yaxşı yadımdadır: qırxıncı illərin əvvəllərində Gəncəyə növbəti səfərlərimizdən birində Azərbaycan Yazıçıları İttifaqı Kirovabad şöbəsinin məsul katibi, cavan şair Ələkbər Ziyatayla rastlaşdıq. Biz şöbənin işindən hal-əhval billəndən sonra o, utancaq xahiş ədasilə bizə müraciət etdi:

– Sizə mənim bir işim düşüb, xahiş eləmək istəyirəm.

Səməd Vurğun onu cürətləndirdi:

– Çəkinmə, sözünü de!

– Doğrusu, deməyə də utanıram, üzlülük olsa da, sizi elçi göndərmək istəyirəm.

Səməd ürəkdən güldü.

– Belə şirin sözü deməyə utancaqlıq lazım deyil. Çox mübarək olsun!

Mən də sözə qarışdım, məsələni konkretləşdirdik:

– Mübarək olsun, qız kimlərdəndir? Hansı küçədə yaşayırlar?

– Vəlizadələrdəndir. Gözüxallı Hacı müəllim ki var, sizin tələbəniz, qız onun bacısıdır. Anasının adı Səriyyə xanımdır, öz adı Böyükxanımdır. Burada, Zərdabi küçəsində, poçtun qabağında olurlar.

Mən Hacını hələ darülmüəllimin tələbəsi ikən tanıyırdım.

– Böyükxanım yaxşı addır, Ələkbər də böyük Əli deməkdir, çox münasibdir, – dedim. – Hacı müəllimgilə biz havaxt getməliyik?

– Havaxt kefiniz istəsə.

Səməd özünəməxsus qətiyyətlə dedi:

– Havaxt nədir, lap elə bu gün!

Ələkbər fürsəti itirmədi. Həmin gün bizə bələdçilik elədi. 28 Aprel küçəsinin yuxarı tərəfində, dar bir döngədə balaca, səliqəli, sərin həyətə daxil olduq.

Bu gözəl şəhəri tanıyanlar, məziyyətlərinə bələd olanlar yaxşı bilirlər ki, burada müasir sənaye ahəngi, fəhlə məişətilə yanaşı Şərq üslubunda – əndərun və birun olmaqla iki hissəyə ayrılmış səliqəli həyətlər vardır. Bu başdan o başa dumduru kəhriz suyu axır. Demək olar ki, bütün həyətlərdə tut, üzüm, gilənar, heyva, nar, ərik, əncir, xirnik, armud kimi meyvə ağaclarına, ətirli gül-çiçəklərə rast gəlmək olar. Küçələrdən

sərin axar su keçir. Yay günləri həyətlər yaşıl, səfalı yaylaq guşəsi kimi sakit və cazibəli olur. Quşların cəh-cəhi, suyun həzin şırıltısı, tar, kaman səsi həyətin sərin sükutuna xoş bir bahar məziyyəti gətirir. Bir, bir yarım mərtəbəli qırmızı kərpic binalar sıx yaşıllıqlar içində görünməz olur.

Belə bir şəraitdə Gəncə kimi şəhərdə elçiliyə getmək fərəhli və mənalı idi.

Elçi getdiyimiz həyətin birun hissəsi meyvəli, güllü-çiçəkli və sərin idi.

Başı qara kəlağayılı Səriyyə xanım bizi hörmətlə qəbul etdi. Otağa aparıb xoşgəldin elədi, əyləşdirdi. Çay, mürəbbə gətirdilər.

Gəncə xanımları adətən çayı mürəbbəsiz gətirmirlər. Özlərinin həyət məhsullarından səliqə ilə bişirdikləri gilənar, gilas, zoğal, ərik, şaftalı mürəbbələrini qonağa təqdim etməkdən xüsusi zövq alırlar.

Səməd Vurğun çay içməzdən qabaq ürəkaçıqlığı ilə ev sahibinə üz tutaraq müqəddiməsiz başladı.

– Ay xala, bilirsiniz nəyə gəlmişik?

Qonağın gözlənilməyən sualına ev sahibi bir az vahimə ilə cavab verdi:

– Xeyr, bilmirəm. Nəyə gəlibsinizsə, xoş gəlibsiniz!

Ev sahibinin bu nəzakətli cavabı Səmədi bir az da ürəkləndirdi. Şair təmkin və aramla dedi:

– Ay xala, biz sizin o göyçək qız Böyükxanıma elçi gəlmişik!

Qadın dinmədi. Başını aşağı saldı. Səmədin sözünü sükutla dinləməyə başladı. Şair özünə xas aram və təmkin ilə davam etdi:

– Xala, bizi tanıyırsınızmı?

– Xeyr, tanımıram, oğul!

– Tanımırsınız, tanıyarsınız. Heç bu radiolara qulaq asırsınızmı?

Səməd şkafın üstündə qoyulmuş reproduktoru göstərdi:

– Buna hərdənbir qulaq asırsınızmı?

– Bəli, hər axşam-səhər bikar vaxtımda qulaq asıram.

– Radiolarda bir şairin adını çox çəkirlər, Səməd Vurğun, bax, o Səməd Vurğun mənəm!

Vurğun üzünü mənə tutub Səriyyə xanıma təqdim etdi:

– Bu da mənim qələm yoldaşım ədib Mir Cəlaldır. Sizi tanımasaq



da, ərk eləyib evinizə gəlmişik!

Qadın şairin sözlərinə nəzakət, mərifətlə cavab verdi:

– Xoş gəlmisiniz, oğul!

Səməd müsahibinin nəzakətindən istifadə eləyib, ürəyindəkiləri açıb tökməyə başladı:

– Biz bu Gəncədə oxuyub boya-başa çatmışıq. Gəncəyə də, camaatına da yaxşı bələdik. Burda çoxlu dostlarımız-tanışlarımız var. Amma siz gəncəlilər, çox zaman bizə yad-gəlmə gözü ilə baxırsınız, saya salmırsınız. Ona görə açığını desək, sizdən gileyliyik.

– Yox, oğul, elə deməyin bizə!

Şair ev sahibinin qəlbini tərpətdiyinə, mətləb üstünə gətirdiyinə sevindi və sözünü daha da konkretləşdirdi.

– Xala, qulaq as, gör nə deyirəm. Mən şair Səməd Vurğun siz gəncəlilərdən qız istədim, vermədiniz. Bax, bu Mir Cəlal qız istədi, vermədiniz. Həmid Araslı, Əhməd Cəmil, Cəfər Xəndan elçi saldı, qız vermədiniz. Vermədiniz, sonra da peşman oldunuz. Biz getdik ayrı-ayrı şəhərlərdən evləndik. Hər nə isə... Keçənə güzəşt deyiblər. İndi daha o yolu tutmayın. Cavanlar arasında şair, ədib çox deyil. Onların əsərlərini bütün ölkə oxuyur. Siz Gəncə xanımları onların xahişini yerə salmayın! Bax, cavan şairimiz Ələkbər Ziyatay istedadlı, zirək oğlandır. O, sizin qızı sevir, ürəkdən istəyir, bizdən də xahiş edib sizin evə elçi göndərib. Gəlin bir ağızdan mübarək olsun deyək, bu iki cavanın məramını yerinə yetirək, xeyir-duasını verək! Ay xala, belə xeyirxah iş Allaha da xoş gedər, bəndəyə də. Oğlan da, qız da oxumuş, ağıllı-kamallı balalardır. Gəlin, hamımız bu xeyir işi alqışlayaq. Uşaqların toy günündə yoldaşlarım ilə qol-qanad açıb oynamaq da mən Səməd Vurğunun boynuna! Sözün nədir, xala? Qol qoyursanmı?

Səriyyə xanım yaşmağı dodaqlarından çəkib, başını aşağı saldı. Hörmətlə cavab verdi:

– A qadanız alım, mən nə deyə bilərəm?! Qızın böyük qardaşı Kəlbəcərdə, aşıq Şəmşirin vətəni Ağdaban kəndində müəllimdir. O, bizim hamımıza ata əvəzidir. Onsuz biz bir iş görə bilmərik. Gələr, Allah qoysa, sizin xahişinizi ona yetirərəm. Cavabını da sizə çatdıraram. Baş üstdə!

Mən sözə qarışıb dedim:

– Hacını mən darülmüəllimindən tanıyıram. Yazıçılara çox hörməti var. Məncə, o, sözümüzü yerə salmaz. Bu işə mübarək olsun deyər!

Səmədin səsi eşidildi:

– Xala, oğlunuz var olsun. Onun xətri bizim üçün də əzizdir. Ancaq sən anasan, həm qızın anası, həm də bizim hamımızın anası. Sən bu xeyir işə qol qoysan, daha o tərəfdən nigaran olmarıq.

– Nigaran olmayın, yox!

– Sənin qolun vacibdir.

– Mən qol qoyaram, oğul! Mənim ayrı sözüm ola bilməz.

– Çox sağ ol, xala. Harda qolun var, orda başın var, atalar deyib.

– Çox sağ olun, dostluqdan əskik olmayın!

– Siz indi təkcə dost yox, şairlərlə, ədəbiyyat, maarif aləmi ilə qohum olursunuz, xala, yaxın qohum!

– Bəli, qohum!

– Var olsun səmimi dostluq və qohumluq!

Beləcə, gənc şair Ələkbər Ziyatayın xeyir işi həmin il baş tutdu. Hamımız sevindik. İndi onların gül kimi balaları, xoşbəxt ailəsi var. Bəxtiyar yaşayırlar! Sağ olsunlar!

*1976*



# İMTAHAN

–Düzünü deyirsən?

– Lap düzü belədir.

– Keç otur!

– Baş üstə, oturum!

Pirim yarım dəqiqə oturmuşdu ki, dik qalxdı. Yadına vacib mətləb düşmüş kimi Kərimin yanına qayıtdı, adamların danışdığına, sualına, söhbətinə fikir vermədən tələsik soruşdu:

– İmtahanı kim götürəcək?

Kərimin üzünə baxdı. Kərim dinmədi. Pirim bir də təkrar etdi:

– Kim götürəcək imtahanı?

Kərim bu yersiz sualdan pərt oldu, bacısı oğlunun üzünə sərt baxdı, onu intizama çağırırmış kimi səsini ucaltdı:

– Pirim! Sən imtahana gəlmisən, nə borcuna kim soruşacaq, otur, növbəni gözlə!

– Gözləməyinə gözləyərəm, ancaq istərdim ki, imtahan götürən dayım özü olsun. Atalar deyib axı, əvvəl məscidin içi, sonra çölü!

Kərim bir az da hiddətləndi:
– Otur, gözlə, artıq söz lazım deyil!
– Nə deyirəm, baş üstə!
Pirim dayısının hiddətini dərk etmiş kimi susdu, oturduğu yerdən qımıldanmadı. Ancaq bu zahiri əlamət onun intizar və narahatlığını gizlədə bilmirdi.
– Otur, gözlə, artıq söz lazım deyil!
Dayısının bu acıqlı cavabı ona tamam aydın idi. Kərim açıq deyirdi: "Çox danışma, baş-beynimizi aparma."
Pirim dayısının hiddətinə, qəzəbinə səbəb olduğunu, adamlar yanında artıq-əskik danışdığını dərk etmiş kimi daxili həyəcan keçirir, sanki mehriban qohumun xasiyyətinə hələ bələd olmadığına təəssüf edirdi. "Axı bura ev deyil, ailə deyil. Kişini özündən çıxardarsan, işi daha da korlayarsan! Adamda hövsələ gərəkdir, bala!" Pirim ürəyində nəsə danışır, öz qəbahətini götür-qoy eləyirdi ki, dayısının səsi eşidildi:
– Pirim, dur keç o biri otağa!
Pirim qonşu otağa keçəndə gördü ki, burada imtahana gəlmiş bir neçə adam çoxdan oturub. İmtahan stolunun qabağında isə ağsaçlı bir xanım oturub qabağındakı kağızları sahmana salır. Xəyalından keçdi ki, yəqin imtahan eləyən müəllim elə budur. Qadın olmağı yaxşıdır. Bunların ürəkləri yumşaq olur, sağ olsunlar, tələbənin halına yanırlar.
Çox çəkmədi Kərim də gəldi, imtahan başlandı.
Doğrudur, Pirim bu fikirdə idi ki, dayısı onu qabağa salacaq, bir ədə ilə ötüşdürəcəkdir. Əksinə, elə olmadı, o biri cavanlar qabağa düşdü, müəllim də, Kərim də, dəftər-kitabı yazan laborant qız da imtahan ilə, sual-cavab ilə məşğul oldular. Pirim əhvalatın belə rəsmi, ciddi şəkil aldığına heç inanmazdı: "Dayım bu komissiyada nə deyə biləcək? Kim nə bilir ki, mən bu kişinin doğma bacısı oğluyam? Burada birinin dili dinc durmadı, beş əvəzinə üç dedi. Dayım ona cavab verəcək? Ay tövbə, görək nə olur..."
Pirimin şübhələrinə əsas var idi. İmtahana gələn kimi dayısı onu atüstü yoxlamışdı:
– Necə gəlmisən, hazırsan?
– Hazıram!



– Düzünü deyirsən?
– Lap düzü belədir!
Buna görə də sualların çətinliyi, qəlizliyi onu qorxutmamalı idi.
Başqa tələbələrin cavabına Pirim heç qulaq asmırdı, ürəyində götür-qoy edirdi.
Birdən ağsaçlı müəllimənin nazik, ahəngdar səsi eşidildi:
– Kim gələcək... Növbə kimindir, gəlsin!
Pirim istər-istəməz imtahan kürsüsünə yaxınlaşdı.
Müəllimə onun suallarını bir də təkrar etdi:
– Böyük şairimiz Mirzə Ələkbər Sabirin təlim-tərbiyə haqqında şeirlərini danışın.
Pirim bir dayısının üzünə, bir sağa, bir sola baxdı, açıq cavab verdi:
– Müəllimə, mən Sabirdən çox oxumuşam, ancaq gecə kursunda. Çoxdan olub, yadımdan da çıxıb.
Müəllimə ayrı şey demədi.
O biri sualı:
– Ədəbiyyatın partiyalılığından danışın!
Pirim bir neçə dəfə öskürüb dayısının üzünə baxdı:
– Necə ki, biz özümüz partiyalı, komsomolçu yoldaşlarıq, gərək bizim ədəbiyyat da, işlərimiz də necə lazımdır, əsl partiyalı olsun!
Müəllimə bir tələbənin, bir Kərimin üzünə baxdı. Sanki Kərim bacıoğlusunun cavabından utanırdı:
– Pirim, – dedi, – imtahana hazırlaşanda hansı kitabları oxumusan?
– Bizdə kitab çoxdur. Əlimə keçəni oxumuşam.
– Görünür, vacib məsələlərdən xəbərin yoxdur.
Kərim dillənməmiş müəllimə üzünü tələbəyə tutub dedi:
– Oğlum, bu hazırlıq ilə imtahana gəlməzlər. Gedin, proqramı qabağınıza qoyun, ciddi hazırlaşın. İmtahana hazır gəlmək lazımdır.
Pirim özünü müdafiə etdi:
– Kərim dayım bilir ki, mən dərsə necə hazırlaşanam.
Kərim dözmədi:
– Pirim, sənin cavabların, elə özün dediyin kimi, on il bundan qa-

bağın gecə kursunun – yəni savad kursunun səviyyəsindədir. Belə olmaz. Get – təzədən oxu, müasir tələblər səviyyəsindən oxu, möhkəm hazırlaş, sonra imtahana gələrsən. İndi sənin cavabların hamıya qəribə gəlir. Deyəsən, dünyadan xəbərin yoxdur, bu nədir belə?

Müəllimə Kərimə səs verdi:

– Belə imtahana gəlmək məktəbi də, dərsi də lağa qoymaqdır. Ciddi adama yaraşmaz! Get, bala, get proqramı öyrənəndən sonra, indiki tələblərə münasib hazırlığın olanda sənədlərini verib imtahana gələrsən!

Pirim dayısının köməyini görməyəndə, ağır vəziyyətini dərk edəndə bilmədi neyləsin, kimdən incisin. Müəllimənin suallarındanmı, dayısının etinasızlığındanmı, işlərin dəyişməyindənmi?

Ürəyində bu ehtimalları yoxlayarkən dayısının səsini eşitdi.

Dayısı indi onun özünə müraciət edirdi:

– Pirim, görürəm, sən imtahan məqamında lap çaş-baş qalmısan. Gah müəllimdən, gah suallardan, proqramlardan umu-küsü eləyirsən. Heç kəsdən, heç nədən incimə, öz günahını başa düş. Sən həvəslə oturub imtahana hazırlaşsaydın, dərslərin heç olmasa, minimum tələblərini öyrənsəydin, başına bu işlər gəlməzdi. Oxumamısan, ona-buna ümid bağlayıb imtahana gəlmisən. Komissiya sənə nə qədər köməklik eləsə, nə qədər güzəştə getsə, zehnindəki boşluğu, savadındakı yoxsulluğu gizlədə bilməz.

Məktəb, xüsusən, ali məktəb müqəddəs, təmiz bir məkandır, buraya bilik, məlumat, öyrənmək ehtirası ilə, tərəqqi eşqi ilə gəlmək lazımdır. Müstəqil öyrənmək, elm, bilik, məlumat, təcrübə kəsb etmək üçün daim öyrənmək ehtirası ilə yanmaq gərəkdir. Bunsuz tərəqqi yoxdur.

Pirim dayısının sözlərini dinlədikcə sanki yuxudan ayılır, kəsif bir qaraltıdan təmiz, aydın bir bahar havasına çıxırdı...

*1976*



# MÖHÜR VƏ MƏHƏBBƏT

## I

Bəri başdan deyim ki, hörmətli oxucular bu söhbəti Şərq ədəbiyyatında görüb oxuduqları mehr və məhəbbətlə qarışıq salmasınlar. Çünki o yazılarda lirika, burada isə yumor, orada səmimiyyət, burada isə məharət, orada birlik, burada isə ayrılıq... təsvir olunur. Xülasə, təfavüt çoxdur və qabarıqdır.

Möhür və məhəbbət deyəndə biz iki kənar mətləbin gözlənilmədən yanaşdığını, birləşdiyini demək istəyirik. Məlumdur ki, evlənmək, ailə qurmaq, şirin sevgi aləmində ömür keçirmək hamı və hər kəs üçün arzu-kamdır. Çoxlarının həyat mənasıdır. Bu xoşbəxtlik, doğrudur, ümumi arzudur, ancaq təəssüf ki, hər adama qismət, müyəssər olmur. Bəxtin, taleyin gətirməyindən asılıdır, birininki gətirir, birininki gətirmir. Şair yaxşı deyib:

*Birisi kök, deyərsən, pərvəridir,*
*Birisi bir sümükdür, bir dəridir.*

*Birisinin yağar dövlət başından,*
*Birisi görməyib bir pul yaşından.*

Uzağa getmək lazım deyil, budur, bizim yaxın qonşu, tanışımız Firavan xanımın oğlu İsmayıl neçə ildir əlləşir, ailə qurmaq istəyir. Pulu var, güzəranı da, imkanı da var. Amma qızı yola gətirə bilmir.

Məsələ o deyil ki, qız oğlanı, ya oğlan qızı sevməsin. Yox, cavanlar hər ikisi sevişib, görüşüb, dilləşib. Bütün qonşular gözləyirdilər ki, bunların toyu, xeyir işi bu gün-sabahdır. Hazırlıq, tədarük görürlər.

Günün birində, lap bu yaxın zamanlarda görəcəksən ki, poçtdan bəzəkli, zərli-zibalı dəvətnamə gəldi:

"Həyat yoldaşınla birlikdə Sizi Səadət sarayında toya dəvət edirik."

Mübarək olsun!

Amma yox, İsmayılın toyu ləngiyir, aydan-aya keçir, nəsə baş tutmur, nə isə maneçilik eliyən var. Uzun intizar oğlanın da, qızın da əl-qolunu bağlayıb. Görürsən qonşular sevinclə biri-birindən soruşur, xeyir işi aramsız gözləyirlər. Amma nə İsmayıldan, nə qızdan, nə də Firavan xanımdan xəbər çıxır...

Firavan xanımdan soruşanda söz demir, başını bulayır.

– Ay Firavan xanım, haçandır toy? Çalıb–oynamaq istəyirik, cavanları niyə intizarda qoyursunuz, günahdır axı?

Firavan xanım əl-qolunu tovlayıb, başını bulayır, cavanların özündən şikayətlənir:

– Ay oğul, – deyir, – zəmanə dəyişib, indiki cavanların çoxu ipə-sapa gəlmir, həftədə bir hava çalır, bilmirsən, bunların dərdi nədir!

– Ay xanım, qoyun cavanların özündən soruşaq, bəlkə, bir ehtiyacları var?

– Soruşun, bəyəm, onlar adama açıq söz deyirlər.

– Necə demirlər?

– Demirlər, mızıldanıb ötürlər. Sən də yana–yana qalırsan!

Mənim İsmayılla həm zarafatım var, həm də aramız açıqdır, rast gələndə sözümü deyirəm:

– Ay İsmayıl, toy haçandır, intizar bizi yordu ki?



– Toya hələ çox var!

– Niyə çox var?

– Canım, bizim hələ evlənməkdən vacib işlərimiz var.

– Evlənmək də vacibdir!

– Qoy bir təhsilimizi başa vuraq, hələ görək nə olur.

– Təhsilə nə var, şükür məktəbi qurtarırsınız, qiymətləriniz də hamısı yaxşı!

– Qurtarmağına qurtarırıq. Ancaq iş qurtarmır, hələ görək nə olur! Örtülü süfrənin bir, açığın yüz eybi var!

Nə Firavan xanım, nə də İsmayıl mənə açıq söz demədi. Toy tədarükünü ləngitməyini mən birtəhər qızın özündən, Liradan öyrənə bildim.

Öyrəndim deyəndə, böyük düşməsin, qızın, Liranın özündən yox, sinif yoldaşlarından öyrəndim. Güman gəlməyən qəribə bir səbəb iki cavanın xeyir işinə mane olur. Bu elə bir səbəbdir ki, əvvəl inanmağın gəlmir, cavanların nə maddi ehtiyacı, nə də mənzil tədarükü, nə pal-paltar kəsiri var. Nə də fiziki cəhətdən naqisliyi, müalicə ehtiyacı var.

Bunların arasında mübahisəli bir məsələ var. Təkcə bir məsələ:

– Nə məsələ?

– Diplom!

Diplom əhvalatı, əlbət ki, keçmişdə yox idi. Heç güman eləməzdin sevdiyin qız, ya oğlanın hansı təhsili, hansı diplomu var. Bunu heç soruşan olmazdı. Diplom nədir, adamın özünün iş bacarığı, mərifəti, məharəti, qanacağı yoxlanılırdı. İndi görürsən bəzən, bəzən yox, çox vaxt diplom soruşurlar:

– De görüm, təhsilin nədir?

– Haranı qurtarmısan, nə diplomun var?

Bu söhbət təzə çıxıb. Əvvəl o dərzinin yanına gedərdin ki, əla kostyum tikir. O aşpazın dükanında nahar yeyərdin ki, dadlı xörək bişirir, o dəlləyə baş vurdurardın ki, əla ustadır.

Amma indi yox! İndi yoldaşlar mütəxəssisin yaxşı-pisini axtarmır, məhz adamı diplomlu ustanın yanına aparırlar. Kostyum necə yaraşıqsız olur-olsun, dərzi haqqında ağızdolusu, müsbət danışırlar:

– Bilirsən necə ustadır, əla diplomu var. Bu usta ali məktəb qurta-

rıb. Elmi şura qabağında diplom işi müdafiə eləyib!

İndi sevdiyi oğlan, İsmayıl qızdan tələb eləyir ki, get aspirant ol, dissertasiya müdafiə elə, sonra gəl yanıma. Onsuz kəbin kəsdirmərəm, bil!

İş ağırlaşıb. Aspirant olmaq da asan deyil, indi qız bilmir neyləsin.

– Əşi, evlənəndən, toydan sonra aspirant olaram, nə vacib şeydir?

– Yox!

İsmayıl şərt qoyub:

– Mənə gəlmək istəyən qız gərək aspirant, ya da elmlər namizədi olsun!

Qəribədir, dünya nə yaman dəyişib! Əvvəl evlənən oğlan göyçək, həyalı, tərbiyəli qız axtarardı. İndi diplomlu qız axtarır. Əvvəl ailə oğlanın qazancı ilə dolanardı, indi qazancı, sənəti olmasa, kəbin kəsdirmirlər. Əvvəl qız ərə gedərdi, indi bəzi oğlanlar özünü yıxmağa qazanclı yer axtarırlar, belə düşünürlər: "Qızın maaşı ilə ev dolanar, özüm də keflə gəzərəm."

## II

Lira toy tədarükü haqqında bir də söhbət salanda, İsmayıldan həmin cavabı eşitdi:

– Qız, aspirant işinin dalınca niyə düşmürsən?!

– Nə bilirsən, düşmürəm?

– Düşsən, indi sən ikinci kursda olardın.

– Kursun nə dəxli var?

– Çox dəxli var xeyir işimizə!

– Məncə, xeyir işin aspirantlığa dəxli yoxdur!

– Yox, var. Mən demişəm, aspirant olmasan, səninlə kəbin kəsdirməyəcəyəm. Söz bir olar!

– Sən məhəbbət axtarırsan, ya diplom?

İsmayıl nişanlısından gözləmədiyi sözü eşidirdi. Bir az duruxandan, udqunandan sonra dedi:

– Hərəsinin öz yeri var!



– Görürəm ki, diplomun yeri çox möhkəmdir.

– Harda möhkəmdir?

– Sənin qəlbində.

– Elə isə, onu bilirsənsə, niyə tələsmirsən?

– Bildiyim üçün tələsmirəm. Çünki məndə diploma bağlı məhəbbət yoxdur.

– Yoxdur, olsun! Kəbin üçün bunu eləmək gərək!

– Sənin aləmində belədir, mənim aləmimdə diploma bağlı məhəbbətin etibarı yoxdur! Bir qəpiyə dəyməz!

– Niyə yoxdur?

– Çünki ip qırıla bilər.

– Qırılar, yamayarıq.

– Yamaqlı məhəbbət mənə lazım deyil!

– Deyəsən, sən ağzına gələni danışırsan!

– Danışanda nə olar?

– Bəsdir, söz güləşdirmə, ay qız!

Lira İsmayıldan ayrılandan sonra cavanlar qəzetinin redaksiyasına getdi:

– Mən sizdə ədəbi işçi kimi çalışa bilərəmmi?

Onu hörmətlə qarşıladılar:

– Bizə savadlı ədəbi işçilər çox lazımdır, – İlqar bunu deyib, ağ kağızı Liranın qarşısına qoydu və dedi:

– Bir balaca ərizə yazın, redaktora verim...

O gündən Liranın əmri verildi. Mətbuat işində həm həvəsi, həm də təcrübəsi artmağa, ilk yazıları qəzet səhifələrində çap olunmağa başladı.

İsmayıl bir müddət Liranı axtardı, aspirantura əhvalatını yoxlamaq istədi, Lira isə nə aspiranturanı, nə də İsmayılı axtardı.

İsmayıl bir gün eşitdi ki, Səadət sarayında qızın toyudur. Lira redaksiyada bir oğlanla sevişib, vədələşib.

İsmayıl təşvişlə qızı axtardı, konsert axşamı bağçada tutdu:

– Lira, bəs mənə söz verməmişdin?

– Nə söz?

– Demirdin səni sevirəm?

– O vaxt mən sevirdim, sən diplom istədin. Bizimki tutmadı.
– Bir mənə deyərdin ki, baş tutmur!
– Deməyə nə ehtiyac, gördün ki, baş tutmadı!
– Bəs belə dönüklük olar?
– Oğlan dönəndən sonra qıza nə gəlib? Dönüklüyün iki başı var.
– Bəs belə oldu?
– Deyəsən, belə oldu. Diplomlu sevginin axırı diplomsuz üzülür.

*1976*



Qəm qəmi gətirər, dəm dəmi səh.420

# İKİ DƏFƏ DOĞULANLAR

Dədə-babadan görmüşük ki, insan bir dəfə doğular, bir dəfə də ölər. Şah olsun, hambal olsun. Varlı, ya kasıb olsun. Adam bir dəfə doğular.

Amma indi görürsən ki, bir dəfə nədir, elə adamlar var ki, iki dəfə, ya bir neçə dəfə doğulurlar. Özü də beləsi bir deyil, iki deyil, çoxdur. Uzağa getməyək, lap bizim qapıbir qonşumuz montyor Qələndər!

Qələndər ildə iki dəfə təvəllüd bayramı eləyir, bir qışda – yanvar ayında, bir də iyulun cırcırama istisində. Əvvəl bəzi adamlar başa düşmürdülər, təəccüb eləyirdilər. Sonra Qələndər özü "avamları" başa saldı, yaxşı başa saldı, izah elədi. Daha indi hamıya aydındır ki, Qələndərin təvəllüdü ildə iki dəfədir: qışda, yayda!

Bunu daha başa düşməyən yoxdur. Çoxları da Qələndərin faydalı təcrübəsindən istifadə edərək iki dəfə təvəllüdü dəb salmağa, yaymağa çalışırlar.

İki dəfə doğulmağın düzdür, başağrısı var, amma faydalı şeydir.

Deyəsən, sizin içinizdə buna şübhə eləyən, sual vermək istəyənlər

var:

– A balam, iki dəfə doğulmaq necə olan işdir? Qələndər bunu necə izah edib başa salır?

Heç darıxmayın, mən sizin suallarınıza sakitcə cavab verim. Şübhələrinizi də papiros tüstüsü kimi dağıdım getsin. Di zəhmət çəkin, qulaq asın. Qulaq asın, görün Qələndər bu çətin məsələni necə asanlıqla həll eləyir, hamıya başa salır.

O kişi deyir ki, mənim anadan olmağım ilin çətin, soyuq mövsümünə düşüb. Məni anam yanvar ayında – yanvarın 8-də, çillədən 15 gün keçmiş doğub, özü də qışın boranlı, tufanlı günlərində, quyudan su çəkəndə. O saat da isti əsgiyə bürüyüb içəri aparıblar, ağlamağıma baxmayıb, əl-üzümü yuyub bələyə salıblar. Qohum-əqrəba tökülüb gəlib, şadlıq, bayram, gözaydınlığı veriblər. Camaat bir ay anamı, atamı təbrik eləyib. Ayrı cür şadlıq olub. Çünki, bizim ailədə oğlan uşağı olmurdu, dua yazdırmaqdan yorulmuşdular.

Sonra da ki fevral, mart gəlir, çərşənbə, Novruz bayramı, şəkərbura, paxlava, filan... Ailədə baş qarışıb, iş uzanıb, üzüm vaxtı, daha doğrusu, şanıya xal düşəndə yada salıblar "uşağın təvəllüdü qaldı, dəftərə yazılmadı."

Anam yox, atam yazıq təşvişə düşüb, idarələrə qaçıb, kağız, yoxlama, filan çıxardıb, aparıb şəhər idarəsində adımı yazdırıb. İyul ayının 8-də yazdırıb ki, bəli, Məşədi Qənbərin qaragöz oğlu oldu, adını da qoydular Qələndər.

İndi odur–budur həm yanvarın 8-də, həm iyulun 8-də bizdə təvəllüd bayramını qeyd eləyirik, bir il də yaddan çıxarmırıq.

Mənim iki dəfə doğulmağım, Allah sizə qismət eləsin, bax beləcə olub!

Əvvəl anam ah-vay eliyərdi, indi daha öyrəşibdir. Atam onu başa salır ki, ay rəhmətliyin qızı, elə bil iki oğlun olub. İkisinin də zəhmətini çəkəcəkdin, ya yox? İndi Allah sənə verdiyi uşağın qədrini bil, cəfasını çək!

Anam yazıq da üzüyola arvaddır, tabe olur, başını aşağı salıb deyir:



– Sözüm yoxdur, a kişi, Qələndərə canım qurban, nə deyirəm! Hər zəhməti öz boynuma, təki günü xoş keçsin!

*1976*

# QƏM QƏMİ GƏTİRƏR, DƏM DƏMİ!

*Divarı nəm yıxar, igidi qəm!*
*El sözü*

Fitrət taksini yola salıb, qapıya tərəf döndü, tez həkimin qabağına keçib, bələdçilik eləmək istədi:

– Bu tərəfdən, bağçanın qabağından gəlin, doktor, xəstə bu yandadır!

Öskürüb səs çıxardı ki, evdəkilər xəbər tutsunlar. Bilsinlər ki, həkim gəlir.

Atası bir həftəyə yaxın idi yatırdı, yanına gələn həkimlərin hərəsi bir dərman yazıb gedirdi. Bunlar nəinki xəstəni, heç evdəkiləri də razı salmırdı. Çünki xəstənin, xəstəliyin halı dəyişmirdi. Deyəsən, bu həkimlərin heç biri dərdi dürüst tapa bilmirdi. Ona görə daha təsirli dərman yazmırdılar. Fitrət bunu hiss edirdi, atasından gizlədirdi. Ən nəhayət, çoxlarının loğman həkim saydığı Veysovu gətirməyə getmişdi.

Veysov, bu şəhərdə, bəlkə də bütün mahalda qabil həkim sayılırdı. Fitrət özü onun dalınca getmiş, vədəsini alıb gətirmişdi.

Çoxdan arzuladığı həkim həyətə girən kimi, Fitrətin ürəyində bir təsəlli, təskinlik hasil oldu. Düşündü ki, atam ürəyincə istədiyi həkimi



görüb sevinəcək, onun məsləhətlərinə inanacaq, dərmanını da yəqin ki, sözsüz qəbul edəcək!

Elə də oldu. Həkim salam verib, xəstəyə yaxınlaşan kimi, xəstə durub oturdu. Həkimə yer göstərdi:

– Buyurun əyləşin!

– Sağ olun, burda oturaram, zəhmət çəkməyin, rahat olun. Deyin görüm, şikayətiniz nədəndir, neçə müddətdir yatırsınız?

Həkimin mülayim, mehriban suallarına xəstə təfsilatla dürüst cavab verməyə başladı:

– Doktor, şikayət deyəndə, bir yerimdəndi, bəyəm? Dəvəyə dedilər boynun niyə əyridir? Dedi, haram düzdür ki! Onun sözü olmasın...

Həkim güldü, təsəlli verdi:

– Yumor xeyirli şeydir, gülmək lazımdır. Gülüş sizi müalicə edəcək. Demək-gülmək lazımdır.

Xəstə həvəslə sözünə davam etdi:

– Dəvənin sözü olmasın, elə bil bədənimə iynə batırırlar: soyuqdu, istidi, yağışdı, küləkdi, səsdi, küydü, nə bilim, mən özümdən bezar kimi hər şeydən hirslənirəm. Hövsələdən çıxıram, daha özümə gələ bilmirəm. Deyirlər qan təzyiqi, şəkər, filan, bunların hamısı, guya bir-birinə zidd azarlardır. Amma mən belə görürəm ki, düz demirlər, yalan sözdür. Bunlarda ziddiyyət yox, aralarında möhkəm ittifaq var, birləşiblər. Sözləşiblər ki, mən bədbəxti tezliklə böyrü üstə yıxsınlar, aradan götürsünlər. Doktor, bunların ittifaqını dağıtmağa da mənim gücüm çatmır, şair yaxşı deyib:

*Düşmən bir olsa, dəfini asandır eyləmək,*
*Vay ol günə kim, üz qoya dörd bir kənaridən!*

Mərəzlər dörd yandan hücum çəkib. Doktor, ömrünüz uzun olsun, bəlkə Siz məni bu bəladan qurtarasınız! Mən zəifəm, acizəm. Sizin silahınız çoxdur, kəsərlidir!

Həkim xəstənin nəbzini tutdu, ürəyini yoxladı, dərmanlarına göz gəzdirdi.

– Siz, – dedi, – bu azarların adını saymaqdansa, mənə bir ağrı-

əzab şikayətinizi ətraflı desəniz, yaxşı olardı. Azar-bezardan qorxmayın. Çox fikir-xəyal eləməyin. Təbabət indi güclüdür. Fikir eləməyin. Möhkəm bədəniniz var. Ağrılar da ötüb gedəcək. Sizdə, maşallah, div ürəyi var. Qəm-qüssəni dağıdın, ürək rahatlığı özü müalicədir...

Xəstə həkimin sözlərindən qüvvət almış kimi, əlavə etdi:

– Doktor, qədəminiz, gəlişiniz mənə qüvvət verir. Sağ olun!

Həkim xəstənin tənəffüsünə bir də qulaq asdı. Gülə-gülə təkrar etdi:

– Sizdə, maşallah, div ürəyi var, buna azar-bezar yaxın düşməməlidir. Balaca soyuqlamısınız.

– Yox, doktor, bu azar məni üzür, doktor!

– Ciddi bir şey yoxdur, şükür, sağlam bədəniniz var, bir az soyuqlamısınız, tərliyərsiniz, çıxıb gedər. Çox ah-zar eləməyin də faydası yoxdur.

Həkim üzünü Fitrətə çevirdi:

– Naxoşun yanında dərd-qəmdən yox, ürəkaçan sözlərdən danışın, naxoşa deyib-gülmək lazımdır. Sızıltının xeyri olmaz, azarı yaddan çıxardın. – Həkim divardan asılan tara baxdı. – Bunu kim çalır?

Fitrət utana-utana dedi:

– Mən çalırdım, cavan vaxtı.

– İndi sənə nə olub, hələ qocalmağına əlli il var, hərdənbir atanın ürəyini aç!

– Özü istəyəndə çalıram.

– Sən çalsan, özü istəyər, naxoşu qəmlənməyə qoymayın! Atalar yaxşı deyib: "Qəm qəmi gətirər, dəm dəmi!"

Həkim dərman yazıb təsəlli verdi, xudahafizləşdi.

Həkim gedəndən sonra naxoş Fitrətə baxdı:

– Bunu hardan gətirmisən?

– Poliklinikadan!

– Bu əvvəlkilərdən deyil, birtəhər danışırdı. Toy-düyün adamına oxşayır. Deyəsən, bu da üslubunu dəyişib!

– Ata, sənin ürəyini açmaq istəyir. İstəyir, sənin eynin açılsın, deyib-güləsən! Qaşqabaq nəyə lazımdır?

– Get dərmanı al, görək nə olur. Deyib-gülmək üçün gərək bədən sahmanda ola. Mənim canım əldən gedib axı!



– Sənə elə gəlir, yorğunluq çıxandan sonra belə deməzsən!

Fitrət həyatə çıxanda xəstənin nəvəsi Altay içəri girdi, babasının şəklini göstərdi:

– Ay baba, məktəbdə özüm çəkmişəm. Müəllim baxdı, dedi, əcəbdi. Gör nə yaxşıdır, divardan asımmı?

Xəstə dirsəklənib şəklə baxdı, gülümsədi:

– Doğrudan da əcəb çəkmisən, şəkil çəkməyi hardan öyrənmisən?

– Məktəbdə, hamı yoldaşlarımız çəkir.

– Bəs mənim burnum yəni belə yekədi?

– Yekə deyil, yatanda yekə görünür.

– Deməli, dursam, düzələcək?

– Duranda yaraşıqlı olur, hə!

Xəstə ayağa durdu və Altaya əmr elədi:

– Mən durdum, qələmi götür, səhvini düzəlt!

Altay cəld karandaşı əlinə aldı, şəkli götürüb düzəltməyə başladı:

– Bir balaca dayan, tərpənmə!

Xəstə xüsusi, rəsmi təmkinlə dayanıb, Altaya tərəf baxdı:

– Düzəlt, bala!

– Baba, lap düzəldi, bax!

– Çox sağ ol, qoy yerimə girim!

– Yox, yatma, baba, evdə bir az gəz, ürəyin açılsın!

– Bəs yatmayım?

– Yox, baba, yatma, ağırlaşarsan, gəz, ürəyin açılsın!

Babası Altayı qucaqlayıb öpdü:

– Sənin kimi nəvəsi olanın həmişə ürəyi açılar, çox sağ ol!

– Baba, şəkli divara vurummu?

– Vur, lap başdakı divara, böyük şəkillərin yanına vur! Qoy görənlər desin, cavan rəssam Altay çəkib, Altay!

Altay təşvişlə otaqda sağa-sola qaçıb mıx axtarırdı. Deyəsən, bəs bu saat tamaşaçılar içəri dolacaq, şəklə tamaşa edib, rəssam uşağa əhsən deyəcəkdilər.

*1976*

# AXTARAN TAPAR

Axtaran!

Bunu nə cürə başa düşmək olar? Kim axtarır, nə axtarır, niyə axtarır?

Bu suallara cavab vermək üçün gərək bir qədər başdan başlayaq.

Axtaran adam Matan xaladır. Həmişə onu küçələrin kölgəli tərəfində, başında çadra, ayağında başmaq, xəyallı, ya yuxulu kimi sürünən, yeriyən görərsən.

Axtarır, nə axtarır?

İndi axtaran çoxdur. Biri təzə libas, biri xarici mebel, biri qazanclı qulluq, biri yaraşıqlı otaq axtarır. Biri gözəl qız axtarır. Matan xala bunların heç birindən deyil. Amma Matan xala da axtarır. O, başqalarından fərqli olaraq yer axtarır, ağlamağa yer axtarır. Hərənin bir xasiyyəti olar. Bu adamın da xasiyyəti matəm yeri, yas yeri axtarmaqdır. Qəribədir, yeməsin, içməsin, gəzməsin, danışmasın, ancaq ağlasın. Ağlamaq mərasiminin bütün qaydalarını beş barmağı kimi bilir və lazım gələndə yerinə yetirir. Bunu məsciddə öyrədiblər. Məhərrəmlik mərasimini axıracan izləyən, əməl edən, şəhərdə rəhmətə gedənləri hamıdan tez bilən Matan



xala olur.

Ölü harada basdırılır, üçü, yeddisi, qırxı haçandır?

Ölü yiyəsi kiriyəndə Matan arvad ağlayır, oxşayıb ağlayır. Elə yanıqlı sözlər qoşub ağı deyir ki, ev sahibinin ürəyi tab gətirmir.

Matanın dərdi nədir, niyə belə yanıqlı ağlayır? Heç kim bilmir. Ancaq Matan öz işindən qalmır. Ölü sahibi sakit olsa da, o kirimir. Oxşayıb ağlayır.

Onun səsini Qələndər kəsdi. Günün birində evə gələndə şivən gördü, arvadından soruşdu:

– Nə olub, Gövhər, bu nə şivəndir?

– Matan xala gəlib.

– Niyə gəlib, bu nə qışqırıq-qiyamətdir?

– Ağlamaq istəyir.

– Mənim evimdə şivən salmasın, bu nədir? Ay arvad, səsini kəs, dur çıx bayıra!

– Dayan bir!

– Dayanmalı sənsən, bəsdir. Utanmırsan, evlərə vay gətirirsən?

– Rəhmətliklər...

– Rəhmətliklərə lənət oxudan sənsən! İşin-peşən yox, sənətin ağlamaqdır, səni bu yola salan kim olubsa, qələt eləyib.

– Mən yadıma salıram...

– Xalq iş görür, plan doldurur, sən də göz yaşı tökür, vay-şivən gətirirsən, bəsdir! Bir də sənin səsini bu tərəflərdə eşitsəm, milisə verəcəyəm, bəsdir.

Matan xala Qələndərin qorxusundan ağlamağı tərgitdi. Bekar oturmaqdan o qədər yoruldu ki, rəngli ip alıb özünə jaket toxumağa başladı. Dindirəndə hamıya deyir:

– Allah Qələndərin atasına rəhmət eləsin, məni ayıltdı, çox kömək elədi! İş adamın cövhəri imiş.

Bekarçılıq adamı bədbəxt eləyirmiş!

1976

# EVLƏNDİLƏR

Hərə bir cür düşünür. Biri deyir, oğul gərək atanın dalınca getsin. Biri də deyir, yox, ata gərək oğulu izləsin, müasir mətləblərdə oğula qulaq assın.

Mənimki də belə oldu. Tofiqi – oğlumu lap uşaq vaxtından izləmişəm, başına buraxmamışam. Hər yerə özüm aparmışam, hər işə özüm qoymuşam, baş çəkmişəm, yoxlamışam, göstəriş vermişəm, arxayın olmuşam. Həmişə belə olub. Oğlum da rahat olub, mən də!

Texnikumu qurtaranda eşitdim oğlumu Dəstəfura, rayona işə göndərirlər.

Hara? Dəstəfura! Pah, bunu mənə demək olar, başımdan od çıxdı. Birbaş cumdum nazirliyə:

– A kişilər, Dəstəfur hara, bizim uşaq hara? Tofiq ərköyün uşaqdır. Necə deyərlər, hələ bir həftə evdən kənarda axşamlamayıb. Onu siz götürüb dağın kəlləsinə, maşından, faytondan uzaq bir yerə, kimin ümidinə göndərirsiz? Mənim oğlumun əlində lavaş boyda attestatı var, özü də imzası, möhürü üstündə. Yox, onu uzağa qoymaram, dəyişin, xahiş



eləyirəm.

Yalvar-yapış elədim, şəhərdə işə qoydular. Qoydular, amma özümə də başa saldılar ki, oğlun şəhərdə iş bacarmasa, özün günahkarsan, sonradan lap uzaq kəndə getməli olacaq, onda da əlin hər yerdən üzüləcək, xahişini eşitməyəcəklər, bil!

– Yox, – dedim, – yoldaş, Tofiq iş biləndi, şəhərdə baş çıxardar!

Uşağı işə təzəcə qoymuşdum, iki ay çəkmədi, eşitdim Tofiqin işi ayrı cürdür. Nə cür? Nazirlikdə dinc durmayıb, bir qızla alışıb! Cavan oğlan, özü də gözəgəlim. İndi də nə çoxdu axtaran qızlar. Əlbət ki, Tofiq kimi bir oğlanı kim əldən verər? Ayıq qız özünü salıb bizim oğlanın üstünə. Oğlan da eynən atası kimi, utancaq, həyalı. Neyləsin yazıq?

Tez özümü saldım nazirin yanına:

– Yoldaş nazir, Tofiqin öz nişanlısı var. Toy tədarükü görürük, bu təzə qız sizin idarədə oğlana bənd olub! Nə istəyir bizim oğlandan, bir soruşun görək!

Nazir dedi ki, biz şəxsi işə qarışmırıq!

Dedim ki, eybi yoxdur, özüm qarışaram. Sabahı gün küçədə həmin qızı tutdum:

– A qız, adam başına qəhət olub?

– Necə bəyəm?

– Necəsi yoxdur, Tofiq neçə ildir nişanlıdır axı!

– Bizimki tez olar, il çəkməz!

(Pah atonnan, qızda üzə bax ha!)

– Yox, yox, – dedim, – qızım, sən Tofiqdən əl çək!

Qız üzümə tərs-tərs baxdı. Cavab vermədi, düz ötdü. Bir də eşitdim ki, oğlumu işdən qovmaq istəyirlər. Sən demə, qızın fitnəsi imiş. Deyirmiş ya məni alacaqsan, ya işdən əl çəkəcəksən!

Yenə əlacım kəsildi, qaçdım nazirin yanına:

– Yoldaş nazir, bu qız oğlumdan nə istəyir?

– Nə istəyir?

– Tofiqə bənd olub!

– Sənin adın Tofiqdir?

– Yox, mənim adım ayrıdır.

– Qız sənə vurulub?

– Yox, mənim 60 yaşım var!
– Bəs sən niyə təşvişə düşmüsən?
– Oğlum.
– Get, qoy oğlan gəlsin!

Tofiqi dindirmək olmadı.

A kişilər, Tofiqin üzü döndü, nə döndü. Qız gədəni necə ovsunlamışdısa, doğma atasının sözünə baxmadı. Üz döndərib getdi. Getdi, nə getdi!

Bir də eşitdim ki, evlənib, nə cehiz, nə mehiz, bir cüt uşaqları var: bir oğlan, bir qız.

Bay, səni, ay fələk, gör dünya necə dəyişib?! Oğlan da, qız da istədiyinə gedir, nə ata, nə ana, nə filan! Cavanlar belə olub!

Tamam ayrı cür!

*1976*



# YALAN QİYMƏT

Mən dostluğa sadiq adamam. Birisi ilə haqq-salamım oldumu, axıracan gedəcək. Dostumun xoş gününə də, bəd gününə də şərikəm.

Dostluq böyük nemətdir, hər adam onun qədrini bilməz. Dostun səfasını gördüyün kimi, gərək cəfasını da çəkməyi bacarasan. Doğrudur, ata-babadan adət olub ki, adamın ən yaxın sirdaşı qohum-qardaş olar. Amma yaxşı dost qohum-əqrəbadan da artıqdır. Xüsusən indiki xoş bir dövranda, tərəqqi zamanında heç kəs dostsuz olmasın...

Dostun başına bir iş gəldi, gərək dərhal kömək edəsən, əl uzadasan. Etinasız olmayasan, "Mənə nə dəxli var?" deməyəsən. Əks halda namərdlik olar.

Atalardan qalma misaldır:

*Yatma tülkü kölgəsində, qoy süpürsün yel səni,*
*Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.*

Bu dəfə başıma bir iş gəldi, dostluq məsələsində lap məəttəl qal-

dım.

Müseyib mənim çoxdankı dostumdur. Onun yolunda çox cəfalar çəkmişəm, heç uf da deməmişəm! Bu il uşağı instituta girəndə imtahan qiymətləri aşağı idi. Müsabiqədən keçməmək qorxusu var idi. Mən ona beş qiymət yazmasaydım kənarda qalacaq idi.

Yazdım bir beş! Uşağı instituta götürdülər. Özlüyümdə elə hiss etdim ki, xeyirxah iş tutdum, bir cavanın təhsil almasına kömək elədim.

Di gəl ki, bu bəlalı beşin ucundan başıma işlər gəldi...

İmtahandan sonra çox yorğun idim. Evdə oturub yolüstü köşkdən aldığım qəzeti nəzərdən keçirirdim. Yorğunluqdanmı, ya nədənsə yuxu gözlərimi ovurdu. Bir də gördüm dumanlar içindən evin xanımı mənə bir zərf uzadır. Alıb baxdım: rayon prokurorluğundan idi. Təəccübləndim. Ömrümdə milis idarəsinə çağırılmamış, indi isə prokurorluğa çağırılırdım. Nəyə görə? Bilmirəm...

Prokurorluqda mənə dedilər ki, filankəsə beş qiyməti yalandan yazmısan!

Dedim, qardaş, mən yazmışam, sən yalan sayırsan, artıq bilirsən, qarala!

Dedilər, yox! Beşi gərək özün qaralayasan!

Dedim, kağızı bəri ver. Aldım, beşi qaraladım, üç yazdım. Altına da qol çəkdirdilər.

Dedim, yəqin söhbət bununla qurtardı getdi.

Sən demə, yox, bunun dalısı var imiş. Səhər prokurorluqda dedilər, sənə iş açılıb.

– Nə iş?

– Məhkəməlik iş!

– Ay canım, mən hara, məhkəmə hara? Bir beş üçün nə məhkəmə, nə mühakimə?

Prokuror dedi:

– Qanun var, qanunu pozmağın cinayət işinə düşməyi, məsuliyyəti var!

Dedim, a qardaş, bir iş idi olub-keçib. Ötürün getsin! Prokuror üzümə baxıb dedi:

– Qəribə adamsınız, yoldaş, qanun müqabilində "ötür getsin" olar? Camaat tükü-tükdən seçir. İnsanın əməlinə min göz baxır. Dəqiqlik, dürüstlük, keyfiyyət zamanıdır. Dərs bilməyən küt bir cavana yalandan beş yazmısan, özün də deyirsən, "bir iş idi ötür getsin!" Bunu burda dedin, bir də təkrar eləmə, gülərlər. Savadlı adamın belə danışması "Krokodil"ə düşməli söhbətdir. Yaxşı ki, müxbirlər xəbər tutmayıblar, yoxsa şəklinizi çəkərdilər, özü də kəlləmayallaq!

Gördüm yox, prokuror möhkəm yapışıb, dediyini deyir. Başladım yalvar-yaxar eləməyə:

– Yoldaş, bu dəfə bağışlayın.

– Bağışlamalı bir şey yoxdur.

– Keçin günahımdan!

– Onu məhkəmədə deyərsiniz!

– Yox, məni məhkəməyə aparmayın, yolda ürəyim gedər.

– Bu məndən asılı deyil.

– Bəs kimdən asılıdır?

– Sənin özündən. Özün öz əməlinlə gedib düşmüsən məhkəməyə. İndi də başlamısan yalvarmağa.

– Mən indi nə eləyim?

– Görək, məhkəmə nə deyər.

– Canım, insaf lazımdır, bir beş üçün məhkəmə olar?

– Sən bu sözləri orada, məhkəmənin hüzurunda deyərsən!

Gördüm olmayacaq, valı dəyişdim, başladım hərbə-zorla ilə danışmağa. Özümü toplayıb dedim:

– Deyərəm, əlbət ki, deyərəm.

– Görünür, sənin belə beşlərin çox olub. Xoşbəxtlikdən dalınca düşən olmayıb!

– Bircə dəfə yazmışam belə beşi! O da ki mənə iş açıb!

– Məhkəmədə danışarsan. Düzünü deyərsən...

■ ■ ■

Məhkəmə sədri iclası açdı. İmtahan, qiymət işini oxudu, dönüb mənim üzümə baxdı:

– Vətəndaş müttəhim, özünü günahkar bilirsən, ya yox?

– Nə barədə?
– Yalandan beş yazmaq barədə!
– Müqəssir bilmirəm.
– Əslində, tələbənin cavabı üçdən artığa layiq deyildi axı!
– Mənə cavab verəndə beş idi.
– İndi niyə aşağı düşüb?
– Yadından çıxıb!
– Cavan oğlanın biliyi artmaq əvəzinə azalıb?
– Mən bilmirəm, tələbəni danışdırmamışam.
– Tələbənin səndən başqa da müəllimləri vardır, danışdırıblar, nə artıb, nə azalıb. Həmin biliklə də iki, ya üç qiymət ala bilər. Siz isə hansı ölçü ilə yanaşmısınızsa, böyük səxavətlə ona beş vermisiniz!
– Möhtərəm hakimlər, mən beş vermişəm, çünki beşə layiq bilmişəm. Ola bilər ki, mən səhv eləmişəm, müəllim də adi adamdır, səhv eləyə bilər. Mənim bu səhvimi belə şişirtməyə nə ehtiyac var? Mən beş yazmışam, siz səhv sayırsınızsa, qaralayın, yazın üç. Buna mənim etirazım ola bilməz.
– Vətəndaş, burada adi, təsadüfi səhvdən yox, aşkar cinayətdən söhbət gedir. Siz bu uşağın biliyinə yalan qiymət verməklə cinayət işlətmisiniz. Aşkar cinayət!
– Nə cinayət?
– Yaxşı hazırlığı olmayan bir uşağı istedadlı gənclər sırasına keçirməklə çox ciddi səhv etmişsiniz, əsl istedadlı, oxuyan gəncin yerini tutmusunuz. Bir cavana yalan qiymət yazmaqla yüz cavanın oxumaq imkanına mane olmusunuz.

Nə isə demək, etiraz etmək istəyirdim ki, məhkəmə sədri mənalı bir ahənglə sözünü davam etdirdi:

– İmkanına mane olmusunuz, bu bir!

Məhkəmə sədrinin rəqəm saydığını görəndə sakitcə qulaq asmağa başladım.

– İkincisi, daha mühümü və mənalısı budur ki, tələbənin biliyini yalandan qiymətləndirməklə bütün gənclərin qabağında məktəbi, müəllimi hörmətdən salmısınız. Məktəbdə belə gülünc halların guya baş verdiyini adi vərdiş halında qələmə verirsiniz...



İmtahan zamanı sizin birdən-birə onu yüksək mərtəbəyə qaldırıb biliyinə qeyri-həqiqi "əla" qiymət verməyiniz gözlənilməz olub, müəllimlərə də, valideynlərə də qəribə gəlib, bizə də qəribə gəlir! Bunlar hamısı faktdır, həqiqətdir. Müqəddəs vəzifənizə, müəllimliyə, ümumən sadə bir vətəndaş kimi işə vicdanla yanaşmadığınıza görə belə bir cinayət baş vermişdir və bunun cəzasını çəkməlisiniz.

Hakimin məntiqi, mənalı sözləri ağır bir yük kimi çiyinlərimə düşdü. Məhkum vəziyyət alıb acizanə bir tərzdə razılığımı ifadə etdim:

– Hörmətli hakimlər, düzgün hərəkət etməmişəm. Dərk edirəm ki, şagirdin, tələbənin biliyini düzgün qiymətləndirməmək müəllim üçün böyük qəbahətdir. Nə cəza versəniz çəkməyə hazıram. Ancaq xahiş edirəm ki, məni sevdiyim peşəmdən, müəllimlikdən ayırmaq barəsində hökm verməyəsiniz. Əmin edirəm ki, bundan sonra tələbələrə qiymət məqamında artıq dərəcədə diqqətli olacağam. And içirəm ki, bir də belə səhvlərə yol verməyəcəyəm. Təvəqqə edirəm ki, mənim bu son ifadələrimə səmimi-qəlbdən inanasınız, mən necə ki bir stajlı işçi, dediyimə bütün ürəyim, varlığım ilə əməl edəcəyəm. Bu yalançı beş mənə bir ibrət dərsi oldu.

Hakim sözümü kəsdi:

– Axırda sizə söz veriləcək, mətləbinizi deyərsiniz!

Kim isə qolumdan tutub "otur" dedi. Qolumu elə bərk sıxdı ki... ağrısından gözlərimi açdım. Gördüm evin xanımıdır. Dedi:

– Nə bərk yatıbsan, kişi. Dur, çayını iç.

Dedim:

– Bəs hökm?

Dedi:

– Nə hökm, bir stəkan çay iç, yorğunluğun çıxsın.

Özümü ələ alıb stəkanı qabağıma çəkdim...

*1976*

# UŞAQDAN MUĞAYAT OL!

Gözüaçıq, alnıaçıq, zehniaçıq adam – bu sözlərin mənası mənə aydın idi.

Gözüaçıq, yəni, ayıq, bacarıqlı, hər şeydən xəbərdar! Alnıaçıq, yəni düz adam, iş görən, üzüağ, diliuzun, hər kəsə borclu olmayan. Zehniaçıq, yəni mütərəqqi, uzaqgörən, düşüncəli, bilən, qanan, mütəfəkkir, tükü-tükdən seçən adam...

Bunları bilirdim, oxumuşdum, eşitmişdim, görmüşdüm!.. Xəbərdar idim.

Amma ağzıaçıq, bax, bunu eşitməmişdim, rast gəlməmişdim.

Bizim müdir məni yanına çağırdı. Xoş-beş, kef-əhval soruşandan sonra, təzə, maraqlı bir xəbər verirmiş kimi, üzünü mənə tutub dedi:

– Ay filankəs, sən necə, ağzıaçıq adam deyilsən?

Gözləmədiyim bu sual mənə çox qəribə gəldi. Güman etdim ki, müdirin sualında örtülü mətləb var. Mən də bunun cavabını sual ilə başladım.

– Necə yəni, yoldaş müdir? Bu nə sualdır verirsiniz?



Doğrusu, çox qəribədir.

– Deyirəm, yəni, sən ağzıbütöv adamsan da?

– Əlbəttə, yoldaş müdir, mənim yanımda deyilən söz, yerə vurulan bir mıx kimi oradaca qalır! Söz gəzdirmək hara, mən hara!

– Bilirəm, ona görə deyirəm ki, ağzıbütöv adamsan! Sağ ol, var ol. Ona görə deyirəm ki, uşağı – oğlum Fərmanı sənin briqadana göndərirəm. Adı sizin siyahıda olacaq. Gözün üstündə olsun! Sənə tapşırıram, bil!

Müdirin bu etimadına mənim nə sözüm ola bilərdi?!

– Xoş gəlir, yoldaş müdir, – dedim, – gözüm üstə yeri var. Bu nə sözdür. Fərmana öz doğma balam kimi baxmasam, çörək gözlərimi tutar! Bu nə sözdür, heç sizin deməyinizə də ehtiyac yoxdur!

Müdir sözünü bir az da izah etdi.

– Gəlir deyəndə, adı siyahıda olacaq, özü də hərdənbir briqadada görünər. Oxuyur axı, dərslə məşğuldur.

Mən müdirin fikrini başa düşdüm:

– Çox əcəb eləyir oxuyur. Cavan oğlandır, əlbət ki, gərək oxuya. Sabah, birigün böyük məktəblərə imtahan verəcək. Yoldaş müdir, o, bizim kimi avam qalmayacaq. Onun gələcəyi var, xoşbəxt olsun o cavan oğlan!

Müdir razılıqla əlavə etdi:

– Adı sizin briqadada olacaq. Dərsdən boş vaxtlarında, hərdən gələcək. Müxtəsər, gözün üstündə olsun. İşdi, soruşan–zad olsa, deyərsən, briqadanın üzvüdür. Ancaq günü, naryad–filan yazılanda yaddan çıxmasın gərək, başa düşdün də?! Deyərsən, briqadanın həqiqi üzvüdür.

Mən müdirimizi arxayın saldım:

– Yox, yoldaş müdir, xatircəm ol, nə lazımdır edərik, yola verərik. Əgər onu yola verməsək, bizə nə deyərlər, bəs biz nəyə lazımıq, lap xatircəm olun!

– Fərman, düzdür, texnikumda qiyabi oxuyur. Ancaq gündüzlər boşdur, istədiyi işdə çalışa bilər. Çalışmaq deyəndə, yekə düşməsin, bir sənət sahibi olmaq üçün, ustalar yanında irəli-geri hərlənməlidir. Həm maaşı olar, həm təcrübəsi. Həm də sabah-birigün staj lazım olacaq. Söz sözə gələndə, deyərlər, zirək, cavan oğlan irəli gedib.

Mən bilirdim ki, yoldaş müdir bu işlərin hamısını nəzərə alır, mü-

lahizə eləyir. Elə mənə müraciət etməyi də ona görə idi. Əvvəlcədən bir hazırlıq idi. Arxayın adam hesab elədiyi üçün deyirmiş: "Ağzıaçıq adam deyilsən ki?"

Neyləsin, bizim trestdə tək-tük olsa da, cürbəcür nadürüst adamlar var. Ağzıgöyçəklər bir də gördün sabah bir sözdür, ortalığa atdılar, danışdılar, yazıq müdiri dilə-dişə saldılar. Nə lazım, haqq üçün danışsaq, Fərman da cavan, igid oğlandır. Başıaşağı, dinc, salam-kalamı yerində, həmişə də olmasa, hərdən briqadaya ayaq basır. Biz də onu gözləyirik, yəni yola veririk. Elə iş deyirik ki, xətrinə dəyməsin, dərsinə ziyan gətirməsin, vaxtını almasın...

İki il Fərmanı yola verdik. Vaxtlı-vaxtında gəlib maaşını alır. Mühasib-zad hərdən nəm-nüm eləyəndə başa salırdım ki, əşi, bu özgə deyil, müdirimizin doğmaca oğludur. Oxumağına kömək lazımdır, işiniz olmasın.

Ay keçdi, il dolandı, qəfildən idarəmizə yoxlama komissiyası gəldi. Sədri də xanım-xatın bir qadın idi. İdarədə hamı özünü yığışdırdı, işlərini sahmana salmaq istədi.

Komissiyanın sədri bir gün məni yanına çağırdı, Fərmanın işi barəsində sorğu-suala tutdu.

– Bu Fərman Fərmanov sizin briqadada işləyir, necə işləyir, haçan gəlib, özü gəlib, ya müdir gətirib, nə üçün gətirib?

Doğrusu, xanımın bu suallarına mən bilmədim nə cavab verim, necə cavab verim. Fikir məni götürdü. Axırda dedim:

– Bəli, Fərman bizdə işləyir.

Komissiyanın sədri Fərmanın maaş cədvəlini mənə göstərib dedi:

– Bu maaşın sahibi gərək işləyəydi, məhsul verəydi.

– Verib, yoldaş sədr, onun işi bəzən dəftərdə olmayır, yazıya düşmür.

– Niyə düşmür?

– Çünki, tələbə adamdır, bəzən naryada qol çəkmir.

– Naryadı görməyənə gərək maaş yazılmasın, axı?

– Bizim mühasib bir az başısoyuq adamdır. Neçə dəfə tapşırmışam, yenə tapşıraram.

– Tapşırmaq öz yerində. Keçən illərdə Fərmanın haqq-hesabı dəftərdə açıq qalacaq.





– Açıq qalacaq?

– Bəli, lap açıq qalacaq.

Mən onu başa saldım ki, filankəsin oğludur, özü də zirək oğlandır, dərsdən də beş alır. Onun günahı yoxdur. Mühasib başısoyuqluq edib.

O, üzümə təkrar baxdı, bir an sükutdan sonra sual verdi:

– Fərman bu pulları alıb?

– Bəli, alıb.

– Nahaq alıb!

– Necə almasın, adına yazılanı?

– Qaytarmalıdır!..

Nitqim tutuldu, dinəcəyim olmadı. Xanım bir də təkrar etdi:

– Qaytarmalıdır!

Mən özümü saxlaya bilmədim, rədd cavabı verdim:

– Yox, qaytarmaz.

– O, qaytarmasa, siz qaytararsız.

– Ay xanım, bu nə sözdür? Deyərəm, adını qaralayarlar.

– O gələcəyin işidir, amma bu havayı pulların hesabını sizdən istəyəcəklər.

– Kim istəyəcək?

Xanım mənalı və ciddi baxışdan sonra qayımdan dedi:

– Qanun!

– Xanım, qanunun nə işi?

– Onu prokurordan soruşarsınız!

Prokurorun adını çəkəndə canıma üşütmə düşdü, qurudum qaldım.

İndi bildim ki, müdir mənə niyə tapşırırdı ki, uşaqdan muğayat ol. Sən demə, o kişi işin aqibətini bilirmiş. Bilirmiş və ona görə də tapşırırmış ki, ay filankəs, uşaqdan muğayat ol. İndi başa düşdüm, amma daha gec idi.

*1977*

Peşmançılıq səh.449

# SƏVİYYƏ

– Ə, səviyyəni hardan alırlar, necə alırlar? Səviyyə lazımdır.

– Nə lazımdır?

– Səviyyə.

– O nə deməkdir?

– Eşitməmisən?

– Eşitmişəm, amma bilmirəm ki, onu hardan alırlar, necə alırlar? Səriyyə eşitmişəm. Səkinə, səhiyyə də eşitmişəm, səviyyəni isə indi eşidirəm.

– Eşit, səviyyə yaxşı şeydir. Səviyyə hər kəsə, xüsusən sizin kimi cavan mütəxəssisə çox lazımdır!

– Nə lazımdır?

– Səviyyə lazımdır. Yəni tutduğun mövqeyə münasib səviyyə!

– Yəni, belə çıxır ki, sən deyən məndə yoxdur? Bəlkə pul deyirsən? Bəzək-düzək deyirsən? Bunu öz adı ilə desən nə olar? Deməli, bizim öz yerimizdə möhkəm-möhkəm oturub qalmağımız üçün vacib olan o şey nədir?

– Şey yox, səviyyə!



– Sən adını nə qoyursan-qoy, mən başa düşürəm ki, bu yeri elə belə ələ keçirmək olmur. Gərək can qoyasan. Hələ ki, şükür, ələ keçirmişik, sonrasına da baxarıq. Səviyyə deyirsən, nə deyirsən, onu da əlimizə keçirərik.

– Təki elə olsun! Sizi o səviyyədə görsəm, bir qonaqlıq verərəm!

– Görərsən, sağlıq olsun, görərsən. Qonaqlığın bizə gərək deyil!

– Səviyyə qazanmaq asan olmur, qabıqdan çıxasan gərək.

– Sən yolunu öyrətmə, uşaq deyilik!

– Nə deyirəm!

– Deməli, söz də yoxdur. Nəyi deyirsən o da olar!

– Kor nə istər, iki göz, biri əyri, biri düz.

– Lap iki göz olacaq, ikisi də düz, əyri yox. Doğrudur ki, siz bilən adamsınız, amma biz də avam deyilik. Çörəyi qulağımıza deyil, ağzımıza yeyirik.

Məhər bunları dedi, ancaq hərifə eşitdirmək üçün dedi, əslində, özünün hünərinə bələd idi. Bilirdi ki, hərifin qabağına bir hünərlə çıxmaq olmaz. Çıxmaq bir tərəfə, heç hədələmək də lazım deyildir.

Bu fikirləri xəyalında dolandıranda, o yan-bu yan eliyəndə görürdü ki, danışığı tamam boş, məzmunsuzdur, heç bu söhbətlərin yeri deyildir. Çaşdığı, ağzına gəldiyi üçün bu sözləri demişdi.

Məhər aşkar görürdü ki, səviyyə məsələsini bir onun naziri, nazirliyi yox, hamı deyir. Onu da görürdü ki, indi daha ayrı zəmanədir, dünən, srağagün deyil. İndi hər işin əslini axtarırlar. Götür-qoy edirlər. Öz yerinə layiq olmayanlar dərhal uçulub gedir, otura bilmirlər...

Məhərə elə gəlirdi ki, onun yerinə göz dikən var. Belə mərdimazar adam olanda, əlbəttə ki, hərə bir bəhanə axtaracaq. Keçinin su bulandırması kimi bir şey düzəldəcəklər. Yəqin ki, indi dilə-dişə düşən səviyyə məsələsi də elə şeydir.

"Səviyyə lazımdır!" Məhər bunu onu deyənin ifadəsi, ədası ilə dedi, lağa qoydu. Ancaq dərhal hərəkətinə peşman olmuş kimi, nəzərini sağa-sola gəzdirdi. Nə dinləyən, nə eşidən olmadığını görüb ürəkləndi: "Sənin, səviyyə deyirsən, nə deyirsən ha, sağlıq olsun, ona da baxarıq..."

Məhər fikir-xəyal içində dayanmışdı, bayaqkı hərifin baxışına fikir verirdi. Hərif onun daş-tərəzisini, səliqə-sahmanını, ticarətini nəzərdən keçirirdi. İstədi ondan soruşsun: "Əmioğlu, nə istəyirsən?"

Bu sual zehnindən keçməmişdi ki, dayanan oğlan dilləndi:

– Sən mənə bir kilo yağ satmısan, yüz qramını əskik vermisən, yağın da dörddən biri kağızdır, bıçaq ilə qarışdırmısan, hələ üst-başından da çirk yağır. Şikayət dəftərini bəri ver görüm!

Məhər şikayət dəftərini eşidəndə ayılan kimi oldu.

– Dəftəri neyləyirsən, bacıoğlu?

– Elə-belə, tanış olmaq istəyirəm.

– Dəftəri idarəyə, cildləməyə vermişik!

Cavan oğlanı od götürdü.

– Bilirik nəyə vermisiniz, nə üçün gizlətmisiniz, belə mağazanın xəlvəti də dəftəri olar. Zəhmət çək mənə idarənizin nömrəsini, ünvanını de!

Məhər gördü ki, bu oğlan adi müştəriyə, yoldan ötənə oxşamır, onun işlərini kökdən yoxlamaq qəsdindədir. Tələsik qabağa keçib səsini alçaltdı. Oğlanın qılığına girmək istədi.

– Bacıoğlu, yağda-zadda əskik çəkilibsə, canın sağ olsun, nə çatmırsa, verim. Qaldı, dəftərə, inandırıram, onu nə oxuyan, nə də baxan var. Günü sabah özüm gətirib burdan asaram, nə qədər istəyirsən gəl yaz, oxu. Bu səliqə-sahman da...

Oğlan səsini ucaltdı:

– A dayı, – dedi, – bura şəhər mağazasıdır, vətəndaşlar buradan ərzaq alırlar. Bu mənzərəni heç kənd yerində də görmək olmaz. Siz niyə əfəl-tənbəl tərpənirsiniz. Bacarmırsınız, qoyun bir bacarıqlı, mədəni adam çağırsınlar. Bu səviyyədə işçini indi heç uzaq kənd mağazasına da qoymazlar. Satdığın da əskik, zibilli, qarışıq, nə bilim nə!

Məhəri fikir götürmüşdü. Yenə "səviyyə" deyirdilər. Düşünürdü ki, bu səviyyə nədirsə, heç əl çəkmir. Bu adamı da deyəsən o göndərib...

*1977*



# YAS MƏSƏLƏSİ

Ailə möhkəm olmalıdır. Cəmiyyətin ilk isti, səmimi ocağı, mən deyərdim, müqəddəs ocağı ailədir. Ailəsini sevməyən heç kəsi sevə bilməz. Ailəsində xoşbəxt olmayan heç yerdə xoşbəxt ola bilməz!

Buna görə də mən həmişə ailə həyatına diqqətli, ehtiyatlı, həssas olmuşam. Duyduğum ixtilafları dərhal yerindəcə söndürmüşəm. Atalar demiş, alov üstünə nöyüt yox, su səpmişəm.

Bu dəfə arvad mənə macal vermədi. Sözümə baxmadı, dediyində təkid elədi, iki ayağını bir başmağa dirədi. Hörmətli oxuculara lap aydın olmaq üçün əhvalatı başdan danışaq:

İxtilaf deyəndə, nədən baş vermişdir? Nə xörək, nə bişmiş, nə səliqə-sahman, nə qısqanclıq üstündə idi. Xeyr. Mən belə şeylərə dözümlü adamam. İşdən evə qayıtdım, şükürlü bəndə kimi qabağıma nə qoydular, lap əriştə şorbası, kartof qızarması, göy lobya, dinməz-söyləməz başımı aşağı salıb yeyəcəyəm. Xörəyi sonalamaq əvvəldən xoşuma gəlməz, ay dadı belə, duzu elə! Noxudu, ədviyyəsi filan...

Bilirəm ki, evdə xörək özbaşına yaranmır, uzun zəhmətin nəticəsi

sayəsində əmələ gəlir. Bazardan bir kilo ət, beş dəstə göyərti almaq, növbəyə durmaq, satıcılarla deyişmək hövsələ, hünər istəyir.

Bununla belə, xörək zamanı süfrənin səliqə-sahmanına diqqət yetirənəm.

Bu dəfə ixtilaf lap heç nədən başladı. Mən deyim, siz də eşidin.

Heç gözləməzdim, yas məsələsindən başladı.

– Niyə yas?

– Bizdə yas yox ey.

– Kimin yası?

– Heç kimin. Lap küçədən keçənin yası.

– Başa düşmədim.

– Qoy axıracan danışım, sonra sual verərsiniz.

– Danış görək!

İşdən evə qayıdıram, istirahətə gəlirəm, qapı bağlıdır. Soruşuram, arvad hanı? Qonşular deyirlər yasdadır.

– Kimin yasıdır?

– Kəblə Nəsibin.

Kəblə Nəsib kimdir? Bilmirəm, qonşular tanımır, mən də tanımıram, qəzetlərdə də belə ad, belə mərhum yoxdur. Kəblə Nəsib adında nə qohum, nə tanış bilirəm. Soyunub rahatlanıram, olub-olmayandan özümə xörək, qayğanaq, kartoşka düzəldirəm. Saat 10-11-ə yaxın arvad gəlib çıxır.

– Hardaydın, arvad?

– Yasda!

– Kimin yasıdır?

– Kəblə Nəsib rəhmətə gedib.

– O kimdir?

– Kəblə Nəsibi tanımırsan, kişi? Sizin bağ qonşusunun qayınatası.

– Allah rəhmət eləsin, axı yasa axşam, işdən sonra gedərlər. Günün günorta çağı nə yas?

– Yas var, yas var. Allah göstərməsin, gündüz də olur, axşam da.

Nə dedim, arvad cavabını verdi.

Yoruldum söz güləşdirməkdən.

Sabahısı gün işdən gəlirəm, yenə qapı qıfıllıdı.



– Arvad hanı?

– Yasda!

– Bu kimin yasıdır?

– Dursun xanımın kürəkəni, cavanca oğlan.

– Adı Dursun olanın yası olmaz.

– Dursun özü ölməyib, ərinin qohumu ölüb.

– Ölüb-ölüb. Sən niyə ev-eşiyindən didərgin düşmüsən, arvad?

– Balam, qonum-qonşu gedir, mən niyə getməyim?

– Yasları podrata götürmüsən? Şəhərdə yas qurtaran deyil, sən elə dabanlarını çəkib bir-bir qapıları gəzəcəksən?

– Gəzəndə nə olar?

– Ay arvad, mən səni uşaqlara baxmaq üçün almışam, yaslarda sinə vurmaq üçün yox!

– Yasa gedəndə uşaqları qonşuya tapşırıram.

– Qonşu sənə nənəlik eliyəcək?

Arvad ahəstə cavab verdi:

– Hələ ki eləyir.

– Boş-boş danışma, qulağını aç, eşit! Bir də eşitsəm, yaslara gedirsən, səni boşayacağam!

Arvad bir az susdu, sonra qəhərli bir səslə dedi:

– Boşa, neynək!

Arvad sözünü dedi, kənara çəkilib kiridi.

Diqqətlə baxanda gördüm arvad gözlərinin yaşını tökür, hönkür-hönkür ağlayır. Doğrusu, ürəyim pis oldu.

Qəlbinə toxunduğuma peşman oldum:

– Ay arvad, özümdən çıxdım, söz idi dedim, ömrümüzün bu çağında mən sənin kimi ürək dostunu heç boşayaram? Mənə kişi kimi söz ver ki, yaslara getməyəcəksən!

– Getməyəcəyəm!

– Atan oldu rəhmətlik! Sən həmişə olduğu kimi gözümün işığı, ailəmizin ağasısan! Di sakit ol! Allah yasları da, qəm-qüssəni də bizdən uzaq eləsin.

*1978*

# TUT KAMPANİYASI

Mən çox gəzən adamam. Keyf-ləzzət üçün yox, işim, vəzifəmlə əlaqədar çox yerdə, ölkəmizin böyük şəhərlərində tez-tez oluram. Bu dəfə Leninqrad şəhərinə getmişdim.

Səhhətimdən şikayətlənəndə yoldaşım məni qocaman bir həkimin yanına apardı. Kabinetində, ağ xələtdə əyləşib yazı-pozu ilə, cürbəcür dərman nüsxələrilə məşğul olan qoca, ağsaç həkim bizi çoxdankı tanışı, yaxın adamı kimi hörmətlə qəbul elədi, kürsü çəkib yer göstərdi, gəlişimizin məqsədini biləndə müayinəyə başladı.

Mən də xüsusən həkim yanında açıq danışmağı, heç şeyi gizlətməməyi sevən adamam. Ürəyimdə olanı bir-bir dedim, həzm aparatından şikayətlənəndə bir də soruşdu:

– Bakıdan gəlmisiniz?

– Bəli, Bakıdanam.

Həkim bunu eşidən kimi çeşməyini çıxarıb kənara qoydu, pəncərəyə, bir də mənə baxdı və gülümsədi:

– Əzizim, – dedi, – sizin yerlərdə gözəl meyvələr olur.



Mən güman etdim ki, həkim Quba almasından, Gəncə üzümündən, Bakı şanısından danışacaq.

– Bəli, doktor, bizim yerlər ləzzətli meyvələrlə məşhurdur, bağbağat bizdə boldur.

Həkim bu dediklərimin heç birini eşitmirmiş kimi çeşməyini yenidən gözünə taxdı və diqqətlə mənə baxdı. Xüsusi bir ahənglə, qayımdan dedi:

– Sizlərdə çox gözəl tut olur, ağ tut! Doğrudanmı?

– Bəli, ağ tut çox olur!

– Mənə bir yaz xoşbəxtlikdən qismət olub, o tutdan iştahla yemişəm, ləzzətli meyvədir, məmnuniyyətlə, yenə də yeyərəm!

– Tut vaxtı, doktor, imkanınız olsa, buyurun, bizə qonaq gəlin! Tut zərif meyvədir, uzaq yerlərə aparmaq olmur. Buyurun, bizə qonaq gəlin. Sizə əla tut verərik!

– Məsələ qonaq gəlməkdə deyil.

Həkim bir qədər sükutdan sonra təmkinlə danışdı:

– Mən həkiməm, xəstələrə cürbəcür dərmanlar üçün nüsxə yazıram, amma düşünürəm ki, kimyəvi dərmanlar, cövhəriyyat bir ayrı, ələfiyyat-təbii dərmanlar özgə aləmdir!

Həkim bir əmr kimi qəti dediyi bu sözdən sonra üzünü mənə tutub şagirdinə sual verən qayğıkeş müəllim kimi soruşdu:

– Siz necə, tut xoşlayırsınızmı?

– Bəli, mən tutu çox sevirəm.

– Sevmək azdır, tutu doyunca yemək, həmişə yemək lazımdır.

– Əlimiz çatanda yeyirik, doktor!

– Tut yeyənin mədə-bağırsaq xəstəliyindən şikayətlənməyə haqqı yoxdur, mən bunu xoş söhbət kimi yox, mütəxəssis həkim kimi ciddi deyirəm!

– Düzdür, doktor. Bilirsiniz, həmişə əldə eləmək mümkün olmur.

Həkim qoymadı ki, mən sözümü qurtarım, təkrar çeşməyini çıxartdı, iki addım irəliyə yeriyib, mənə yaxınlaşdı. Stul çəkib yaxın əyləşməyimi xahiş etdi.

– Əzizim, – dedi, – tut bizim yazdığımız dərmanlara bənzəməz. Onu təbiət özü yazıb. Özü hazırlayıb. Onda olan şirəni, məzəni, qüdrə-

ti, hikməti, təsiri deməklə başa gəlməz. Mədənin, bağırsağın, böyrəyin, qaraciyərin, öd kisəsinin, həzm aparatının çox yaxşı, əvəzsiz dərmanıdır. Mən müalicə kitablarında, müzakirələrdə həmişə demişəm, indi də yazıram. İstəyirəm ki, bu neməti bütün şəhərlərdə, bütün xəstəxanalarda, təbliğ edib yayam... Bacardıqca müalicəxanalara yeridəm! Bizlərin, təbabət aləmində bildiyimiz, lakin təfsilatilə demədiyimiz söhbətlər hələ çoxdur.

Həkim sözünün bu yerində dayandı. Sanki, yadına düşən təzə bir mətləbi təkid etmək istədi:

– İndi mən sizə nə dərman yazım, əzizim?

– Əlbət ki, ağ tut!

Həkim təsdiq etdi və güldü:

– Söz verirəm ki, sizin yerlərdə olan o gözəl nemət haqqında bir xüsusi məqalə yazıb nəşr etdirəcəyəm. Mütləq yazacağam və nəşr etdirəcəyəm!

Mən həkimin bu xeyirxah niyyətini alqışladım:

– Doktor, o məqalənin bir surətini də bizə verməyinizi xahiş edirəm!

■ ■ ■

Mən bu söhbəti jurnalist yoldaşlarımın məclisində danışanda payız vaxtı, üzümün, qarpızın, ümumən meyvələrin şirin yeyilən zamanı idi. Ağ tutun şəninə deyilən tərifləri hamı bəyəndi. Bəyəndi və şərik oldu.

– A kişi, ağ tutu bizim yerlərdə ehsan deyib bəsləyirlər, onun ağacından olan meyvəni də satmazlar. Onun ağacını da müqəddəs bilib yandırmazlar!

Qəzetçi Ağaəli onun sözünə qüvvət verdi:

– Bizim bağlarda tutun hər növü var. Ağı da, qarası da, muş tutu da, xar tutu da. Səliqəli xanımlar onu çırpıb yığır, qış zumarı kişmiş kimi damda, gün qabağında sərib qurudurlar. Qurumuş tutu, biz səbzə kimi cibimizə doldurub yeyirik, bayram şirnisi!

– Çox faydalı meyvədir.

– Həkimlər onu müalicə üçün bütün daxili xəstəliklərə dərman



kimi məsləhət görürlər.

Ağaməmməd müəllim tutun şəninə deyilən bu söhbətlərdən ilhama gəlmiş kimi, üzünü məclisdəkilərə tutub ucadan dedi:

– İndi ki belə oldu, indi ki tut haqqında bu qədər tərif dediniz, mən borclu oluram. Sizi, burada əyləşənlərin hamısını gələn iyun ayında bağıma tut yeməyə çağırıram!

Ağarəhim əlavə etdi:

– Tutun yanında erkək ətinin kababı da pis olmaz!

Ağakərim etiraz etdi:

– Tut bəsdir, kabab artıqdır.

– Məsələni mürəkkəbləşdirməyin!

Ağarəhim sinəsini irəli verib cəsarətlə dedi:

– Burada bir mürəkkəblik yoxdur. On kilo qoyun əti, on kilo pamidor, filan qədər tut arağı mənim boynuma!

– A yoldaşlar, daha bu tut olmadı, bu oldu böyük banket! Banketin də bir aləm xərci var. Ağarəhim çox da deyir. Demək asandır... Axı eləmək çətindir! Ağarəhim özgə deyil, yoldaşımızdır, artıq zəhmətə salmayın onu! Tut bəsdir!

Ağarəhim cavab verdi:

– Mən qorxaq deyiləm, mənim üçün elə şeylər çətin olmaz!

– Vaxtı gələndə səni axtarıb tapmaq da bir iş olur.

Ağarəhim lap cinləndi, ayağa durub Ağakərimi hədələdi:

– Bura bax, xalaoğlu, havaxt olub ki, mən qonaqlıqdan boyun qaçırmışam!

– Yadıma gəlmir!

– Olmayıb! Olmayıb axı!

– Çox olub. Ancaq tarixini yadda saxlamaq çətindir.

– Lap bu qabağımızdakı sezon hamınız mənə tuta qonaqsınız!

– Gələrik!

– Gəlmək üçün neçə maşın lazımdır, uzaqdır axı!..

■ ■ ■

Gün keçdi, ay dolandı, tut vaxtı gəlib çatdı. Ağakərim də inadkar

adam idi. Axşam telefonu götürüb ərklə Ağarəhimin yadına saldı.

– Ağarəhim, yay gəlir ha, yoldaşlar tut əhvalatını xatırlayırlar. Halın necədir?

– Nə barədə?

– O barədə!

– Halın yaxşı olsun!

– Yoldaşlar məndən soruşurlar, nə deyim?

– Hamısına məndən salam yetir!

– Tut olacaq, ya yox?

– Küləkləri görmürsən, bu tufanda ağacda tut qalar?

– Külək sabah-birigün kəsəcək. Tutlar hələ var.

– Səninki zarafat oldu, Ağarəhim!

– Zarafat niyə, Bakının bu davamlı sərin xəzrisi zarafatdır?

– Ə, xəzridən, niyə qorxursan?

– Builki xəzri çox güclüdür, Ağakərim.

– Bəlkə, gələn ilə qoyaq!

– O lap yaxşı olar.

– Gələn ilə ömrüm vəfa eləməsə, məni də yada salarsınız!

– Nə qalıb, cəmi 7-8 ay qalıb, fikir eləmə! Sənsiz ağ tutun nə ləzzəti?

– Qara tut da yeyərsiniz, halal olsun!

Tut vaxtı qurtarmaq üzrədir. Nə Ağarəhimdən, nə yoldaşlardan xəbər var. Ağarəhim nə gözə görünür, nə zəng vurur. Qorxuram, belə getsə, gələn il də ağ tut bizə qismət olmaya!

Atalar yaxşı deyib:

– Yeməkdənsə, ümid yaxşıdır! Ümid!

Ağarəhimə sağlıq istəyək, qalan hər şey düzələr!

*1978*



# PEŞMANÇILIQ

## I

Kolxoz sədri Səfər, şəhərdən yenicə gəlmişdi. Alı kişinin evində qalırdı. Səhər hamıdan tez qalxıb yuyunar, idman edər, qaloşu ayağına alıb həyətdə gəzinər, hava alardı. Onun təbiətə xüsusi bir eşqi var idi. Günün çıxmasını və batmasını seyr etməyi sevərdi. Səhər açılanda su daşının üstünə çıxar, oyanan kəndin qarışıq həyat səslərini dinlərdi. Dağların arxasından boylanan mis məcməyi kimi qızaran günəşə baxar, baxdıqca ürəyi açılardı.

Bu gün, alaqaranlıqda üç nəfər qara çadralı, qoltuğu boxçalı qadının kənddən çıxıb, qarğa kimi yanlarını basa-basa getdiyini gördü. "Görəsən bu soyuqda nə vacib iş üçün gedirlər?" – deyə, fikirləşdi.

Alı kişinin arvadı çay gətirəndə yaşmağını qaldırıb, Səfərdən soruşdu:

– Qardaş, Səfər, deyirlər Şəmkirdə imam zühur eləyib.

– Necə yəni imam?

– On ikinci imam.

– Kimdir?

– Odur arvadlar ziyarətə gedirlər. Məxluq tökülüb çöllərə...

Səfər fikirləşdi ki, kolxozun düşmənləri işin bu ağır vaxtında hər şeydən faydalanmağa çalışırlar. Görəsən nə şayiədir?..

Alı kişi ilə arx üstünə gedəndə artel üzvlərindən Mahmudoğlunun işə çıxmadığını bildilər. Komsomolçulardan birisi onların ziyrətə getdiyini xəbər verdi. Səfər kəndə qayıdıb yoxlamaq istədi. Yolun yarısında salavat səsi eşitdi. Dərhal anladı ki, zəvvar var.

Nəzir şeyləri ilə dolu və üstündə adam oturmuş iki araba gəlirdi. Qabaqdakında buxara papaqlı bir kişi təkərin üstünə qalxıb "Ya Məhəmməd!" – çağırdıqca, o biriləri səs verir, salavat çəkirdilər. Səfər atını arabanın qabağına sürüb, diqqətlə baxdı. Bir neçə nəfər Günlər kəndindən idi. Çavuşluq eləyəni tanımadı.

– Hara belə?

– Ziyarətə!

Üzünü Mahmudoğluna tutdu:

– Sən qanacaqlı bir kişisən axı!?

Mahmudoğlu, Səfərin xatirini istərdi. Qızarıb qaldı:

– Yoldaş Səfər, bir mən deyiləm ha! Odur lap kolxoza yazılanlar gedir. Əkbərimi deyim, Səkinənimi deyim, çoxu!

Səfər onları inandırmağa çalışdı:

– Söz eşidin, kəndli qardaşlar! Bu bir fırıldaqdır. Mollalar, qolçomaqlar, mücavirlər sizi aldadıb işdən qoymaq, cibinizi soymaq üçün kələk qurmuşlar. Əmoğlu Əkbər də gözü üçün gedib. Qayıdın, bircə gün gözləyin: O, çəp gözünü sağaldıb gəlsə, mən də ziyarətə gedərəm. Yox, əgər kor-peşman qayıtsa, onda oturarsınız yerinizdə, işdən avara olmazsınız, nəzir pulları da cibinizdə qalar.

Bəziləri qayıtmaq istədi. Kimi Səfərin xatirinə qayıtmaq, sonra xəlvəti yoldan getmək istədi. Mahmudoğlu arabadan düşdü:

– Qayıdın! Yoldaş Səfər, sənin sözün yerə düşüncə, düşmənin gözü tökülsün. İnanan qoy getsin.

Qaradağlıdan gəlmiş yeznəsi də ona baxıb qayıtdı. Səfər yol uzunu onlara nəsihət elədi. Axşam dedi, məktəbdə bu barədə məruzə olacaq, gələrsiniz.



## II

"Məruzə olacaq, gələrsiniz..." Bu vədəyə kəndlilər əhəmiyyət verirdimi, vermirdimi? Hələ bəlli deyildi. Lakin Səfərin özü vədəsindən o qədər razı deyildi. Bəlkə də nə iş görmək lazım olduğunu müəyyən etmədiyini yaxşı düşünüb-daşınmadığı üçün bu sözü demişdi. O, yol uzunu fikirləşirdi: məruzə, yalnız məruzə ilə kifayətlənmək olmaz. Düşmənin hiyləsini kəndliyə göstərmək lazımdır. Kəndlinin avamlığından istifadə etmək istəyən düşmənin yolunu kəsmək, maskasını yırtmaq lazımdır. Xalqı bu düşmənlərə qarşı qaldırmaq lazımdır...

Ömrü boyu gördüyü bu köhnə kəndlər bir-birinə calanıb Səfərin gözü önündə süfrə kimi açıldı: Böyük evlər, tək qılçalı çardaqlar, qır tutmuş hasarlar, kağızlar, xamırlı pəncərələr, laxlayan darvazalar, palçıqlı sürüşkən yollar, cındırlı pirlər, qarğa yuvaları, aclıq, fəlakət!.. Mülkədarların qoyub getdiyi kənd bundan ibarət idi. Baxdıqca insanın ürəyinə qaranlıq çökürdü. "Təbibləri bədgüman qoyan illər xəstəsini", tarix yolunda yaslanıb sızlayan qoca bir dilənçini xatırlayırdı...

Köhnə kəndin kölgə kimi ağır, pərişan görkəmi – ölü təbiəti, ağır həyatı bu fikirləri Səfərin qulağına pıçıldayırdı.

Səfərin böyük arzularla çırpınan qəlbi isə başqa şey deyirdi. O, gözünü təbiətdən götürdü, ürəyindən gələn səsləri dinlədi. Ürəyinin dərinlərində işıqlanan geniş bir dünya – qüssəli sükutu pozan bir hərəkət duydu. Bu hərəkət ağır, təmkinli və yaradan insanların yürüşü idi. Onlar ahənglə yeriyirdilər. Addımların səsi eşidilirdi. Bu səs, qulaqlarda zərbə kimi səslənir, mis kimi cingildəyirdi. Bu səsin əmri və eşqilə ruhlanan Səfər kəndin tamam dəyişib yeni yola düşməsi üçün işləmək istəyirdi. Ona elə gəlirdi ki, qəlbindəki yeni yüksək və məsud həyat planları günü sabah həqiqət olacaq, günü sabah bar verəcəkdir. Həmin səs Səfərə nə deyirdi? Səfər bu səsi, könlünə yatan, ruhunu oxşayan və gözlərini güldürən ilhamını dinləmək üçün yavaş yeridi, başını aşağı dikdi: oradan, o qızıl dalğalı hərəkatın içindən qopan səslər bir-birinə qarışmışdı. Səslər sanki onun qulağına dolur, onu çətin günlərin mübarizəsinə çağırırdı. "Tələs, yolda qalarsan..." Səfər gözünü açıb özünü kənddə gördü.

# III

– İmam zühur eləyib.

Bu xəbərlə mahala, bütün kəndlərə bir şübhə yayılmışdı. İlk dəfə molla, azançılar və onların ardınca qoca arvadlar, Sovet hökumətindən "gileyli" kəndlilər imamın ziyarətinə çıxdılar.

Qayıdanların deməyinə görə, Bitdilidə zühur eləyən imam, indiyəcən gəlib-getmiş imamların, hətta peyğəmbərlərin əlini taxtaya bağlayıb. Bir sözü iki deyil. Gözünün ucu ilə işarə edib: "Dağıl!"– desə, yeddi yeri, yeddi göyü bir-birinin üstünə tökər, bir bəşər salamat qalmaz. İmam bu qüdrətini göstərmir, göstərmək də istəmir. Çünki hələ yer üzündə "Allah" adı çəkən var, hələ hamı bolşevik olmamış. Hələ oruc-namaz bilən var...

Dünya xali deyil. Hələ pinəçi Məşədi Əhməd kimi gecədə 7 rükət qəza namazı qılan, Asta xala kimi sutkada yezidə 33 təsbeh lənət oxuyan, Buxaxlı kimi tək səbir gələndə yolundan dönənlər var. Nikolay yüzlüklərini Mirzəkərim kimi sandıqda saxlayıb əzizləyən, baxdıqca ah çəkən var. Yer üzündə hələ Ağaələsgərin xakı eşşəyi və özü kimi əməlisaleh məxluq var.

Bu eşşək – Allahın fağır məxluqu, yolda bir komsomolçu görən kimi fınxırıb üzünü yana çevirər, "məlunların" üzünə baxmaqla özünü günaha batırmaq istəməzdi. Ağaələsgər nəslində görmədiyi belə fazilliyi eşşəyində görəndə onun qabağına keçib, üzündən, gözündən öpdü və onun dərgah qapısında sallanan yekə başına and içdi ki, özü də komsomolçuların üzünə baxmasın. O, eşşəyi ilə özü arasında qoyduğu bu şərti, əhdü-peymanı təsdiqlətmək üçün üzünü göylərə çevirdi və əllərini qaldırıb, "sidq-dil" ilə Allahından istədi:

– Pərvərdigara, qiyamətin günündə məni bu günahsız, xoşbəxt məxluqdan ayırma! Bu dünyada bu mənə xidmət edib, o dünyada da mən həqiri buna xadim ver. Bu dünyada mənim ağırlığımı bu çəkib, o dünyada da bunun ağırlığını mənim belimə yüklə. Ta ki bunun xeyirduasının sayəsində mən də bir parça feyz alım...

Bəs dünyada belə-belə məxluq var... Yer üzünü dolduran milyonlarca dinsiz, imansız bolşeviklər – kolxozçular, komsomolçular, injenerlər, müəllimlər varsa, Ağaələsgər kimi və onun fazil ulağı kimi mömin məxluq da var.





Deyilənlərə görə, imam ilk gündən öz qüdrətini inanmayanlara göstərmişdi: ziyarətə şapkalı gələnlərin "başı ağrıdı, çatlayanı da oldu. Əlində kitabı olanların bir yanı qapqara yanıb kül oldu." İmama gülənlərin ağzı əyildi, oraq kimi əyildi, dili daş kimi bərkidi. İnanıb gələn kor, şil, kar, uşağı qalmayan, ərindən boşanan, arvadından küsən, kişiliyi olmayan... hamısı həkimsiz, reseptsiz, apteksiz, dərmansız bir-bir növbə ilə davasını aldı, şəfasını tapdı, geri qayıtdı. Ziyarətçilərin ilk dəstəsi belə "müvəffəqiyyətlə" qayıdandan sonra kəndlərə hay düşdü.

Araba qoşan, at yəhərləyən, qatar biletinə növbəyə duran kim, çarığını ayağına çəkib, itlərdən qorunmaq üçün əlinə ağac alan kim (bunlar sonradan anladılar ki, ağac götürmək nahaq yerə imiş. Ziyarətə gedənlərə itlər hürmür, canavarlar yaxın gəlmirdi), palçıqlı yollar ilə piyada dəhmərləyən kim...

Günlər kəndi yol üstə idi. Dəstə-dəstə adamlar gəlib ötdükcə kənddəkilərin ruhu atdanırdı. Əmioğlu Əkbər əhvalatı eşidən kimi hazırlaşdı. Hamıdan tez işə düşdü. Səfərdən, kolxoz heyətindən ehtiyat etsə də, ürəyi döyünür, ağanın qəzəbindən qorxub titrəyirdi.

Səhər yerindən qalxdı. Sacda qızdırdığı çörəyi qatığa batırıb yeyir, fikirləşirdi: "Bu nə olan işdir görəsən, ilahi? İmam da zühur edərmi?.. Bu imam Məkkəni, Mədinəni qoyub, Bitdiliyə niyə gəlib çıxıb?"

Bu şübhə onun ürəyindən xəfif bir külək kimi ötəndə bədəni əsdi, gözü önündə qaranlıq görüb, "əstəğfur!" – dedi. Sonra: – Sənin qüdrətinə şəkkakə lənət, – deyə, qəlbindəki şübhələri silib atmaq istədi. Ziyarəti özünə vacib sayıb, çarığını geydi. Arvadını oyatmaq istədi. Səhər artel üzvləri arx təmizləməyə gedəsi idilər. Briqadir çoxdan qapısını döyüb oyatmış, ötmüşdü. Əkbər yerində donmuşdu: "Ziyarətə, imamdan şəfa istəməyə, çaş gözünü sağaltmağamı getsin, yaxud beli götürüb, arxların canına düşsün?.."

Səfərin dünən axşamkı söhbəti qabağında durub, "olmaz!" – deyirdi. Bunları xatırlayanda onun ziyarətə, imama, möcüzə bəslədiyi ümid və xəyallar uçub gedirdi. Ürəyində mənalı bir boşluq hiss edir, hərəkət-

lərini sustaldırdı.

Qapı cırıldadı. Buxaxlı içəri girdi. O, məhrəm ailədə imiş kimi, Əkbərin qulağına tərəf əyilib, pıçıltı ilə soruşdu:

– Xəbərin yoxdur ki, Şükür imama güllə atdığı yerdə çatlayıb ölüb...

– Nə deyirsən, əşi!

– Sən öləsən! İndicə bu saat kənd bir-birinə dəyib. Bir kişi qalmadı. Hamı yola düzəldi. Alı kişi özü də getdi.

– Bəs arxları kim...

– Eh, rəhmətlik oğlu! Nə arxbazlıqdır! Qiyamət qopur. Həzrət kolxoz adı çəkəni qaraldıb külə döndərir. Mən getdim, yığışdır uşaqları, haydı!.. Yubanma!

Əkbərin canındakı qorxu daha da şiddətləndi. Özünü itirdi. Bu gecikməsinə ağadan qəzəb çəkəcəyini xəyalına gətirdikcə qızarır, dil-dodağı quruyur, tövbə də deyə bilmirdi.

– Maya, Maya, qalx! İmama gedirik!

Neçə gün ziyarət üstündə kişi ilə dava eləyən Maya sevincək ayağa qalxdı. Əri getməsə də o, özü hazırlaşırdı. Ağasına nəzir üçün "nazik" də bişirmişdi.

– Deyəsən imana gəlmisən, hə? Ağamı yuxuda görmüşəm. Pul da götür!

– Pulu neynirsən?

– Necə neynirsən, ağamın türbəsinə sürtəcəyəm, bərəkətə gəlsin.

Kişinin beyninə batdı. Mayanın tədbirindən razı qaldı. Beş gün əvvəl ipək almaq üçün kənd təsərrüfat bankından borc götürdüyü iki yüz əlli manatı dəsmala bağlayıb, cibinə qoydu.

Əkbər, savabı çox olsun deyə, piyada yollandı. Çəpərlər arasına çatanda doqqazda səs var idi. O, divara qalxıb boylandı. Alı kişinin əlində dəftərçə kəndlilər ilə danışdığını gördü. Onların nə üçün imama getmədiklərinə təəccüb etdi. Çəpərlərdən düzlüyə çıxanda komsomolçu Müslümün küncdə durduğunu və əlində qələm nə isə yazdığını gördü.

Əkbər onu görəndə qorxdu və adamlarda bu qədər sərt ürək olmağına təəccüb elədi. "Nə olur-olsun, daha mənimki keçdi", – deyə yönəldi. Vağzal yoluna çıxanda qonşu kəndlilərdən birisinin arabasına oturdular.



## IV

Araba qoca, yavaş, lakin işlək kişilər kimi başaşağı, dəmir yolunu aşıb torpaqlı yoldan çıxdı. Bitdiliyə yaxınlaşanda Əkbər ayrı aləm gördü: "Yox, bu, cındırları sallanan, qapı-pəncərəsi düyün-düyün olan kəramətsiz pirlərə, içi oyuq qoz ağaclarının sönmüş ocaqlarına bənzəmir. Bu qədər adamın gəlməsində yəqin ki, bir hikmət var. Özü də təkcə qarı-qoca yox, gör necə də oxumuş, abırlı, əməlli-başlı adamlar gəlib!.."

O, arabadan, atdan, məftiltəkər faytonlardan tökülənlərə baxdı. İmamın kəraməti haqqında şübhəsinə dönə-dönə əstəğfur etdi. İllərdən bəri ürək verdiyi, əvəzində heç bir şey ala bilmədiyi pirlər, nəzirlər, niyazlara qarşı doğan və gün-gündən böyüyən, nəhayət klubda, dərnəkdə bərkiyən şübhəsini, indi bir saxsı qab kimi yerə vurub sındırdı.

Maya düzləri dolduran, qaynaşan camaatı görüb, salavat çevirdi. Üzünü imama tutub, gözlərini sıxdı.

Pirin günbəzi balaca, həm də rəngsiz, yaraşıqsız tikildiyi üçün toyuq hininə oxşayırdı. Mayaya bir təsir etmədi ki, gözündən yaş gəlsin. Bir tərəfdən də soyuq, hərdənbir yarpaq kimi üzə dəyən yağışlı külək onun sümüklərini qurutmuşdu. O, arabanın içində yumaq kimi kiçilmişdi.

Arabadan töküləndə Əkbər yer-yurdda şapka qırığı, hətta köhnə şapkalar, toqqalar, kitablar, dəftərlər gördü.

Bir xurcun nəzir Əkbərin çiynində, bir qoltuq bağlama da Mayanın qucağında, boz çadranın altında, onlar ziyarətgahın yanında camaata qarışdılar. Əkbər qabaqda gedir, çiyni ilə yol açırdı. Adamlar arasında sarı, uzunsaqqal ləmsələri görəndə təəccüb etdi. Çalışdı ki, onların yaş paltarına sürtünməsin. Bu fikir başından keçib-getməmişdi ki, birdən ucaboy ləmsə özünü onun üstünə yıxdı. Narın və şehli saqqalını tuğ süpürgəsi kimi Əkbərin üzünə çəkdi, kişini ziyarət çağında mur-mundar elədi. Əmoğlu dirsəyini qaldırdı, ləmsə üzr istəyən nəzəri ilə ona baxdı:

– Eloğlu, bağışla!..

Bir çalmalı seyid bunlara baxırdı. Əmioğlunun ikrahını duydu və qolundan tutdu, ləmsənin yanında başa saldı:

– Ay mömin, o da ziyarətə gəlib. Həzrət özü buyurur: kafir də mə-

nim qapıma gəldi, bağışlanır, pak olur. Arxayın ol, pakdır. Neçə adamsınız?

– İkicə nəfərik, ev adamı ilə gəlmişəm.

– Ziyarətiniz qəbul olsun! İltimasi dua. Ağa mətləbinizi versin. Gedək sizə bir yer deyim. İmamın lap qoltuğunun yanında yer bilirəm. Adam da yoxdur. Xəlvət yerdir, ağanın da kəraməti o tərəfdədir.

Birdən salavat çəkdilər. Sinə vuranların, soyuqda kürəyini açıb zəncir ilə qaraldanların qışqırığı ucaldı. Çalmalı seyidin son sözləri eşidilmədi. Əmoğlu bu küy-kələkdən lap özünü itirmişdi. O, Mayanın əlindən tutub, çalmalı seyidin arxasınca gedirdi. Çalmalı seyid günbəzin alçaq, dar, mehrabvarı qapısından sürüşüb, Əmoğlunu içəri çəkdi, dümsüklədi:

– Ərizəni ver!

Əkbər utana-utana:

– Ərizəm yoxdur, – dedi.

– Pəhə... bu olmadı! Gəlin!

Çalmalı seyid onları təkrar günbəzin üstünə çıxartdı. Əkbəri o ki, var danladı:

– Rəhmətlik oğlu, bu yaşa gəlmisən, bilmirsən ziyarətin qaydası nədir? "Müsəlmanam", – deməyə sənin haqqın yoxdur!

Cibindən bir qələmdan çıxartdı. Uzun bir kağızı əlinə alıb, dizinə söykədi:

– Buyur, – dedi, – mətləbini yazım!

Əkbər gözünü göstərdi. Bir də qarnını qucaqlayıb:

– Bu zəhrimarın da, – dedi, – sancısı var, yediyimi əritmir.

Çalmalı seyid, Əkbərin adını, atasının adını soruşdu.

– Bəs familiyam? – deyə, Əkbər təəccüblə sual verdi.

– İmama nə familiya?

Dilinin ucunu burnuna qədər uzadıb, qələmi cırıldatdı:

– "Bu ərizəni yazıram qurban olduğum pirin üstünə, verir ağaya Əkbər Kərbəlayı Namaz oğlu, ol barədən ötrü ki, Ağası Əbülfəzlabbas ağasından ürəyinin mətləbini istəyir. Dəxi ya Əbülfəzlabbas, aduva fəda olum, səndən imdad istəyirəm!

Bisavad olmağına görə əvəzinə qol yazdım. Seyid Mirzəqasım Mirzəquluoğlu Şəbüstəri."



O, tələsik ərizəni qatlayıb Əkbərə verdi:

– Ziyarətə başlayanda ağanın mübarək qəbrinə atarsan, – dedi.

Əkbər qayıtmaq istəyəndə, seyid onu tutdu:

– Nəzirini ver!

Əkbər qoltuğundan bir çəngə pul çıxartdı, bir çervon verdi. Çalmalı seyid almadı.

– Azdır! – dedi. – Birini də ver. Bu, ərizənin pulu. Bəs bələdçilik, bəs nəzir?

Əkbər soruşdu:

– Hamısı neçə eləyir?

– Ver, ikisini də ver.

Əkbər acıqlı-acıqlı iki çervon da saydı:

– Nə üzlü adamsan, əşi sən!

Çalmalı seyid pulunu cibinə qoyub, qabağa düşdü:

– Di gəlin dalımca!

Onları təkrar günbəzin içinə apardı.

Əmoğlunun sağ tərəfində Maya, sol tərəfində çalmalı seyid durmuşdu. O, çiy kərpicdən tikilmiş, samanlı palçıq ilə suvanmış, hələ suvağı yaxşı qurumamış, yastı bir qəbrin qabağında idi. Qapıdan bir– birini basıb girənləri başı araxçınlı, beli qurşaqlı alçaqboy bir kişi nizama düzürdü:

– Bir-bir, bir-bir, ey mömin-xuda, tələsmə!

Adamlar bir-birinin dalınca, cərgə ilə samanlı suvağı öpə– öpə məzarın başına dolanırdılar. Məzarın ortasında dayaz təndir kimi açıqlıq var idi. Oraya hər tərəfdən mal-dövlət yağırdı.

Əmoğlu Əkbər girəndə ortada bir ağ kəlağayı görmüşdü. Ərizəni də onun üstünə atdı. Bir tirməşal kəlağayının üstünə düşdü. Sonra ilan kimi qıvrılıb düşən gümüş qadın toqqası, bir göz qırpımında ipək parçalar, səliqə ilə toxunmuş xalçalar, corab, tikməli köynək, vəznəli çuxa, zərli canamazlar, yüssür təsbehlər, gümüş şamdanlar onun altında itib getdi. Sanki hərarətdən hər şey qaynayıb-qabarmışdı. Şeylər daşıb töküləsi oldu.

Araxçınlı kişi:

– Ya Əli! – deyə, qarmağı təndirin içinə saldı. Çömçə kimi bir qarışdırıb çıxaranda, qarmaqdan çoxlu qiymətli şeylər sallanırdı. Həvəs gətirən, tamah oyadan zərli-zivərli, bərli-bəzəkli, çəkidən yüngül, qiymətdən ağır şeylər bir an içində araxçınlı kişinin qarmağında qeybə çəkildi. Yenə qazana mal-dövlət yağırdı. Əmoğlu Əkbər Mayanın böyrünü dümsüklədi və gözünün ucu ilə işarə elədi. O, xurcunu çiynindən aşırdı.

Maya öz ərinin hər işarəsində bir quran söz oxuyurdu. Anladı ki, Əmoğlu deyir: "Nə durmusan, bu zəhrimarları nəzir qabına tulla!"

Maya tələsib qoltuğundan çıxardığı boğçanı qəbrin üstünə silkələdi. Onun dalınca Əmoğlu ürəyinin mətləbini yadına salıb, xurcunu boşaltdı. Xurcundan tökülən yumru, sarı, üzü xaş-xaşlı naziklər dığırlanıb içəri töküldü. Çalmalı seyid birini göydə tutub, dişinə çəkdi. Naziyin biri dığırlanıb yerə düşəndə, araxçınlı kişi geri baxdı. Çalmalı seyidin şişən orduna gözünü ağartdı:

– Tfu sənin həyasız üzünə! Məlun!

Əmoğlu bir şey başa düşmədi. Araxçınlı kişinin başı yenə nəzirlərə qarışdı. Bir də gördülər qəbrin üstündə buynuzları ilbiz kimi qıvrılan, yekəquyruq, kök bir qoç durur. Qoç ömründə görmədiyi və düşmədiyi bu mənzərədə özünü itirmişdi. O əvvəl belə xəyal eləyirdi ki, camaat içinə onu döyüşdürməyə aparırlar. Döyüşmək onun heç xoşuna gəlməzdi. Çünki hər döyüşdən sonra bir həftə başağrısı çəkirdi. Lakin əlacı kəsilirdi. O döyüşməyəndə yem-yonca vermirdilər. Onu yiyəsi Hüseynqulu qaldırıb məzarın üstünə qoyanda, elə bildi axurdur. Qarşısındakı çuxura baxanda yeməli şey görmədi. Adamların hay-küyü, vəziyyətin qəribəliyi onu təəccübə saldı. Heyvan bir ağız bərkdən mələdi.

Araxçınlı kişi Hüseynquluya çığırdı:

– Ay yekəpər qanmaz, heyvanı mübarək yerə gətirməzlər. Pirə mindirməzlər.

Hüseynqulu hazırcavab idi:

– Qanmaz cənabındır. Allahın heyvanı gecə-gündüz yatmayıb, özü qaça-qaça ziyarətə gəlib...

Araxçınlı macal vermədi ki, o sözünü bitirsin. Bütün təəccübü ilə soruşdu:

– Bəs belə?

– Ağaya and olsun, özü gəlib.

Araxçınlı kişi daşın üstünə qalxıb qışqırdı və göyə bir ovuc "Xorasan torpağı" səpdi:

– Şəkkakə lənət! Allahın heyvanı ziyarətə gəlib, müsəlmanlar! Ay camaat!

Çalmalı seyid də səs verdi:

– İbrət, ibrət!..

Qoç izdihamdan qorxmuş kimi, bu dəfə iki ağız mələdi, ağzını yerə sürtdü, saman çöplərini qurdalayıb, ot axtaranda salavat ucaldı, araxçınlı kişi dizlərinə çırpıb qışqırdı:

– Bir baxın! Xudavəndə, şəkkakə lənət! Ağa, atam-anam sənə qurban!..

Bir də gördülər qoçun üstünə yaşıl örtü çəkildi.

– Yetişdi! Kişi, mətləbin yetişdi!

– Çəkilin, tükünə qurban olduğuma yol verin!

– Xoş bu heyvanın halına!

– Yiyəsi xoşbəxtdir.

– Damazlığını tutun!

– Kəramətinə qurban, ay ağa!

Bu sözlər içində Hüseynqulu qoçu məzarın üstündən düşürtdü. Salavat səsi az qaldı günbəzi partlatsın. Qapılardan camaat güllə kimi içəri doldu. Ara qarışdı. Qoçun tükünü didməyə başladılar. Kimi tükü çaş gözünə, kimi pəltək dilinə, kar qulağına sürtür, kimi də cibinə qoyub, iflic anasına aparırdı. Maya kimiləri də tükü göbəyinə sürtüb, ağadan uşaq istəyirdi.

Qoç ətrafında küy-haray qopanda Əmoğlu Əkbər salavat çəkir, bu kəraməti təsəvvürə gətirmək istəyirdi. Adamlar onu basa-basa qapıdan çıxarası oldular. O, sonra başa düşdü ki, gözünü və sancısını yaxşı eləmək üçün qəbrə sürtməli imiş... Başını əyib üzünü dayadı, gözünə çöp düşdüyünü güman etdi. Ovuşdurdu. Bərk sancı hiss edib, yerə çökdü, ayaq altında şil-küt olmaqdan qorxub özünü çölə atdı.

Maya da çıxdı. Bələdçi – çalmalı seyid yox oldu. Əmoğlu gözünü ha bərəltdi görsün, şəfa tapıb, ya yox... Bir şey hiss etmədi. Əlini cibinə atanda sancısı yadından çıxdı. Pul qoltuq cibindən yox olmuşdu. Xurcun da yox idi. Əmoğlu bütün ciblərini çevirib, astarına baxdı. Soyulduğunu bilib, dodağını dişlədi:

– Apardılar! Vallah, apardılar!

– Nəyi?

– Var-yox getdi. Arvad, çalmalı seyid hara qaçdı? Hayana getdi?

Maya eşidən kimi anladı ki, çalmalı seyid onun gövdəsini nə üçün əlləşdirirmiş...

– Vaay, donuz oğlu, cəddin belinə qumbara salsın!

V

Əkbər Mayanı ağ bir daşın yanında qoyub, özünü verdi içərilərə. Çalmalı seyidə rast gəldiyi yerləri bir-birinə vurdu. Hər yetənə onun zahiri əlamətlərini deyib soruşdu. Deyirdilər:

– Bir belə adam gördüm, vallah qapıdan çıxanda çox iti gedirdi. Elə bildim şeyi-zadı itib nədir?

Əmoğlu çox pərişan idi. Bir tərəfdən də sancı onu karıxdırırdı. Bu halda köhnə bostan qonşusu Könbə Qaraya rast gəldi.

Qara kişi əl verməmiş, Əkbər soruşdu:

– Belə bir adam tanımırsan?

– Nədən sarı soruşdun?

– Ziyarətə gələndə yanıma düşdü ki, bələdçiyəm. Var-yoxumu çırpıb aparıb...

Könbə Qara əlini əlinə çaldı, qəhqəhə çəkib güldü:

– Vay sənin! Ay yazıq, sən o namərd oğlunun felinə hardan düşdün? Ədə, o, xəspuşdur. Gündə bir cildə girir, aləmi soyur. Bizim kənddən də Qorçuoğlunun bir toğlusunu göz görə-görə yedi. Vay sənin! Sən də inandın ki, seyid övladi-peyğəmbərdir, hə?..

Sonra Könbə Qara Əmoğlunun qulağına pıçıldadı:



– Axı sən buralarda nə gəzirsən, kasıblığına getsənə!

– Nə bilim, başına dönüm, mən deyirəm bura imamdır.

O, göz eləyib, son sözünü yavaşca, lakin ürəkdən dedi:

– ...İmamdır, ay onun imam kəlləsinə çaxır töküm! Bilmirsən bu namərdləri? Fırıldaqdır, fırıldaq!

Rəhim, Əkbərin çuxasını çəkib soruşdu:

– Eşitdim şeyin gedib?

– Şey nədir, var-yoxum!

– Bəs gözün necədir?

– Bu gözüm tamam tutulub, gələndən sancım bərkiyib, içimdə deyəsən araba sürürlər. Lap öldüyümdür. Məni bura göndərən Buxaxlı arvad oldu. Qancığın felinə uydum. Qoy bir kəndə qayıdım. O kaftarı islatmasam, məndən yaman adam yoxdur.

Əkbəri dərd almışdı ki: "Bir də Səfərin üzünə necə baxacağam." Peşmançılığından qızarmışdı. Arvadını da dindirmirdi. Qayıdıb "İmam" günbəzinə bir də baxdı. İçindəki nifrəti saxlaya bilmədi. "Tfu" – deyə, üz döndərib getmək istədi. Hay-küy eşitdi. Bir kəndlinin ucadan səsi eşidilirdi: "Kotan salıb traktor ilə süpürmək lazımdır ki, izi-tozu qalmasın!" O yandan bir dəstə adam kimi isə aralığa salıb gətirirdi.

– Nə var?

– Kimdir?

Məlum oldu ki, imama gələn nəzirləri, pulları yığışdırıb, sərhəddən qaçan Civli Məşədi Hüseyni tutublar. Hərifin, "İmam" çavuşunun cibindən "müsavat" partiyasının dəftəri çıxıb.

Gedənlər yeyinləyir, nə isə deməyə hazırlaşırdılar. Camaat sel kimi onların qabağına axdı. Komsomolçu geyimli bir oğlan üzünü camaata tutub, Civli Məşədi Hhüseyni göstərdi:

– Budur sizə imamlıq eləyən, adamları aldadıb cibini kəsən, kolxoz yoluna tikan tökən, qoyun dərisinə bürünmüş canavar budur! Ay camaat, yeni həyat düşməni, bax, bu hərifdir, tanıyın!

Camaat çaxnaşdı:

– Niyə öldürmürsünüz o iti?

– İlanın başını əzin!

– Çəkil kənara görüm!

Əkbər, kəltəni Civli Məşədi Hüseynin kəlləsinə çırpmaq istəyəndə, Müslüm qoymadı:

– Nə qayırırsan?

– Qoysana bir görək!..

*1978*



# MÜNDƏRİCAT


Ay ismayıl, başa sal ....... 5
Məhəbbət, yaxud qəlp pul ....... 10
Mən də bir elçi kimi ....... 19
Turşuqeyrət ....... 25
İmzasız hekayə ....... 30
Niyə ovdan ayaq çəkdim ....... 35
Mən deyən ....... 39
Mən necə həkimlik öyrəndim ....... 46
Qulluqçu haqqında ....... 52
Şirin söhbət ....... 55
Ana məsləhəti ....... 58
Düşünmək istəyirəm ....... 60
Gör fələk nə sayır ....... 70
Biri var idi, ikisi yox ....... 74
Xoşbəxtlik barəsində ....... 79
Hərənin öz işi var ....... 82
Şərait yoxdur ....... 85
Yaylaq məsələsi ....... 88
Müsəlmanlıq və texniki tərəqqi ....... 94
Əmzik ....... 96
Yamanlığa yaxşılıq ....... 100
Mənim utancaq tələbəm ....... 107
Qanadlı qızlar ....... 112
Ad günü ....... 118
Fərəh məclisi ....... 121
Liman oğlu ....... 126
Abadlıq ....... 131
Yaratmaq sevinci ....... 135

Bağa getmişdim ............ 137
Bizim quşlar ............ 141
Bizim mühəndis ............ 144
İki filosof ............ 147
Daha bir yadigar ............ 150
Məsul işçinin dəftərindən ............ 153
Səadət sarayları ............ 159
Ürəkdən danışaq ............ 162
Babam kərpic kəsəndə ............ 166
Şaftalı söhbəti ............ 168
Beş almışam! ............ 171
Düzəlmədi ............ 177
Pul tapmışdım ............ 183
Xatalı adam ............ 187
Sevinc haqqında ............ 190
Şəfəqdən qalxanlar ............ 194
Mühazirəçi yoldaşım ............ 199
Qoltuq radiosu ............ 202
Yaxşı nədir, pis nədir ............ 206
Mərd və namərd ............ 209
Xallı xanım ............ 214
Ad axtaranlar ............ 218
"Xanım qələmi" ............ 222
Nəzakət ............ 225
Gülzar haqqında ............ 228
Bakı günəşi ............ 230
Günah kimdədir? ............ 233
On bacı ............ 248
"Dayı" ............ 251
Bu xırıltı nədir ............ 254
Dərsimi yaz! ............ 258
Möhür ............ 261
Uşağın taleyi ............ 264
Nəfsitox ............ 267
Kənd "uşaqları" ............ 274
Bir qəlbin yanğısı ............ 278
İntizar ............ 281
Maral ............ 287
İsti aşa soyuq su ............ 295
Nigaran olma ............ 298
Toy tədarükü ............ 302
Varislər ............ 306
Əziz kitabım ............ 311
Oxutmuram, əl çəkin! ............ 317
Gülmək lazımdır ............ 326
Yalan ayaq tutar, yeriməz ............ 330
Gülcamal ............ 336
Alma xanım ............ 341
Götürmədilər ............ 344
Anamın əzizləri ............ 351
Xeyir iş ............ 354
Bakı səhərləri ............ 363
Xahiş, tələb, məsləhət ............ 368
Anamın sevinci ............ 372
Məhəbbətə zor yoxdur ............ 376
Ticarət lirikası ............ 382
Vətən köynəyi ............ 385
Səksənilliyə çağırmışdılar ............ 389
Əsərimin müzakirəsi ............ 393
Yoldaşlıq məhkəməsi ............ 398
Elçi kimi ............ 402
İmtahan ............ 407
Möhür və məhəbbət ............ 411
İki dəfə doğulanlar ............ 417
Qəm qəmi gətirər, dəm dəmi! ............ 420
Axtaran tapar ............ 424
Evləndilər ............ 426
Yalan qiymət ............ 429

Uşaqdan muğayat ol! ....................................................................434
Səviyyə .................................................................................438
Yas məsələsi ...........................................................................441
Tut kampaniyası .......................................................................444
Peşmançılıq .............................................................................449
Mündəricat..............................................................................463

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ**
**IV CİLD**

Naşir: **HİDAYƏT ƏSGƏROV**
Nəşriyyat redaktoru: **İlahə HƏŞİMOVA**
Səhifələyəji: **Elvira NADİRQIZI**
Dizayner: **Aynur ƏSGƏRLİ**

Çapa imzalanmışdır: 10.01.2013
Kağız formatı: 70x90 1/16
Həjmi: 27 ç.v; Sifariş: 15 ; Sayı: 500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə 9C
Tel.: (050) 593 27 77, (055) 222-71-93
Web: www.adiloglu.az;